ISSN 2663-8967

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİ YANINDA TERMİNOLOGİYA KOMİSSİYASI

TERMİNOLOGİYA MƏSƏLƏLƏRİ

№1

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır.
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.
Reyestr №3362

BAKI – "ELM" – 2026

BAŞ REDAKTOR: ***akademik İSA HƏBİBBƏYLİ***
REDAKTOR: ***professor SAYALI SADIQOVA***

REDAKSİYA HEYƏTİ: akademik İbrahim Quliyev, akademik Kamal Abdullayev, akademik Tofiq Nağıyev, akademik Rasim Əliquliyev, akademik Dilqəm Tağıyev, akademik Əhliman Əmiraslanov, akademik Teymur Kərimli, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayev, akademik Rəfael Hüseynov, akademik Nailə Vəlixanlı, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Muxtar İmanov, AMEA-nın müxbir üzvü Ərtəgin Salamzadə, professor Nadir Məmmədli, professor Sayalı Sadıqova (məsul katib).

Terminologiya məsələləri. Bakı: "Elm", 2026, – 225 səh.

655(07)-2025

Ünvan: Bakı şəh., H.Cavid prospekti 115, 5-ci mərtəbə,
Azərbaycan Milli Elmlər Akademiyası, Nəsimi adına Dilçilik
İnstitutu, "Terminologiya məsələləri". http://www.terminologiya.az;
doi.science.gov.az; e-mail sayalisadigova@yahoo.com. əlaqə: (012)510-20-56

© "Elm" nəşriyyatı, 2026

MÜNDƏRİCAT

Sayalı Sadıqova. Birinci Türkoloji Qurultay və türk dillərində ortaq terminologiya..... 5
Baba Məhərrəmli. Dünya dillərində homogen əvəzliklər..... 13
Nərmin Əliyeva. Kompüter diskursunda işlənən terminlərin xüsusiyyətləri..... 20
Lalə Qurbanova. İngilis dilində söz və terminlərin alınma prosesləri..... 25
Fizuli Mustafayev. Kino dilində yanaşma əlaqəsi..... 30
Nəsibə Abbasova. Dilin diskursiv vahidləri və onların təsnifatı..... 39
Rasim Heydərov. Dialekt fonetikasının tədqiqində eksperimental metodların tətbiqi..... 44
Pərvin Bayramova. Effektiv ünsiyyət prosesində dilin rolu..... 51
Adilə Nəzərova. Sosial şəbəkə dili və ədəbi dilin sərhədləri..... 59
Farizə Şahbazova. "Mədəniyyət leksikası" anlayışı: izah və terminoloji çərçivə..... 65
Günay Bağırova. Искусственный интеллект и лексико-семантический подход к языковым моделям 70
Gülnara Aslanova. İngilisdilli affiksal sifətlərin freym modelləri müxtəlif sahələrdə: müqayisəli təhlil..... 77
Lyubov Tokareva. Блингвизм и диглоссия..... 82
Nigar Həbibullayeva. Beynəlxalq elm və mediada ingilis dilinin hegemonluğu..... 88
Solmaz Əhmədova. Qloballaşan dünyada antroposentrik paradiqmdə dil-mədəniyyət əlaqələri və milli-mənəvi dəyərlər..... 92
Gülnar Bəşirova. Azərbaycan və ingilis dillərində dəniz terminlərinin semantik analizi..... 96
Ramilə Süleymanova. Orta əsrlər yazılı mənbələrində ismin hal və xəbərlik əlamətləri..... 101
Aytən Bəylərova. Konnotasiya anlayışının linqvistik mahiyyəti, komponentləri və funksiyaları..... 107
Sevinc Hüseynova. Sosiolinqvistikada qloballaşma konsepti..... 114
Nərgiz Musayeva. Ekolinqvistikaya aid nəzəri baxışlar..... 119
Fəqanə Əhmədova. Konseptuallaşdırma təcrübəsinin vahidi kimi cümlə..... 125
Aytən Rəhimli. Dialoji diskursda kommunikativ niyyətlər, strategiyalar və taktikalar..... 130
Samirə Əmrahova. Dildə mədəni kod anlayışının fəlsəfi və linqvokulturoloji şərhi..... 135
Ləman Şükürova. Britaniya ingiliscəsində sosial dialektlərin qrammatik xüsusiyyətləri..... 141
Nəzrin Mustafayeva. Dilin mənimsənilməsinin linqvopsixoloji problemləri: psixoloji və linqvistik aspektlər..... 146
Kəmalə Quliyeva. Linqvokulturologiyada nəzakətlilik kateqoriyası..... 151
İradə Cəfərova. Müasir ingilis dilində topluluq mənalı sözlər..... 156
Ülvüyyə Hüseynova. Peşəkar ünsiyyətdə invektiv nitqin praqmalinqvistik aspektləri..... 161
Ülkər Əfəndiyeva. Qazax dilinin frazeoloji sistemində məişət leksikası..... 167
Aynurə Məmmədzadə. Qeyri-verbal ünsiyyətin spesifik xüsusiyyətlərinə dair..... 174
Könül Salmanova. İngilis dilində məcazlaşma prosesində metafora və metonimiyanın rolu..... 180
Türkan Quluzadə. Dilçilik dərslikləri akademik diskurs janrı kimi..... 186
Mehriban Əbdürrəhimova. Müasir türk və Azərbaycan dilində hərbi terminlərin nominasiya (adlandırma) prinsipləri və vasitələri..... 192
Natəvan Rəhmanova. Azərbaycan dilində qoşmalı feili birləşmələrin NLP sistemi üçün modelləşdirilməsi..... 200
Könül Eyvazova. Türk və Azərbaycan dillərinin dialektlərində meyvə adları ifadə edən areal sözlər..... 206

YENİ NƏŞRLƏR:

Qətibə Mahmudova. I Ümumittifaq Türkoloji qurultayın 100 illik yubileyinə dəyərli töhfə..... 214
Qətibə Quliyeva. Birinci Türkoloji Qurultayda ümumtürk termin yaradıcılığı prosesinin tədqiqi..... 216

Terminologiya Komissiyasının qəbul etdiyi terminlər..... 220
Qaydalar 221

UOT-811.512.162
Səhifə:5-12
https://doi.org/10.59849/2663-8967.2026.1.5

Sayalı Sadıqova
AMEA, Nəsimi adına Dilçilik İnstitutu
filologiya elmləri doktoru, professor
sayalisadigova@yahoo.com

BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ TÜRK DİLLƏRİNDƏ ORTAQ TERMİNOLOGİYA

XÜLASƏ

Məqalədə birinci Türkoloji Qurultay və türk dillərində ortaq terminologiya problemləri xarakterizə olunmuşdur. Müasir dövrdə elmin, texnikanın, iqtisadiyyatın, ictimai fəaliyyətin, daha geniş mənada ictimai quruluşla bağlı meydana gələn məfhumların ifadəsi üçün yeni-yeni terminlər yaranır və bu zaman dilin ən fəal və ən mütəhərrik bir qolunu təşkil edən terminoloji leksika daim zənginləşir. Xüsusən türk dillərinin funksional inkişafında baş verən belə dəyişikliklər birbaşa onun terminologiyasına təsir edir. Bu baxımdan ortaq terminologiya problemi öz həllini gözləyən aktual məsələlərdəndir. Müasir dövrdə türkdilli ölkələrdə yeni dövlət sisteminin yaranması, müstəqilliyin əldə edilməsi milli respublikalar qarşısında yeni imkanlar açmışdır. Bu nəzərə alinaraq türk dillərində ortaq terminlərin yaranma prinsipləri müəyyənləşdirilərkən üç mənbə əsas götürülməlidir: Hər bir türk dilinin daxili imkanları; Ümumtürk bazası; Beynəlxalq baza. Ortaq terminologiyanın yaradılması uzun müddət bir-birindən ayrı düşmüş türk xalqlarının yaxınlaşması, ilk növbədə onların dillərinin lüğət tərkibinin yaxınlaşması üçün vacib şərtdir.

Açar sözləri: *Türkoloji Qurultay, terminologiya, qloballaşma, ortaq terminologiya, ortaq termin, ümumtürk bazası.*

Giriş: Türkoloji Qurultayda ortaq terminlərin yaranma mənbələri və üsulları geniş şəkildə şərh olunmuş və qətnamə qəbul olunmuşdur. Qəbul edilmiş bu müddəalar termin yaradıcılığı prosesinin həyata keçirilməsində təməl olsa da ortaq terminologiya problemi bir əsr müddətində öz həllini tapmamışdır. Müasir dövrdə türkdilli ölkələrdə yeni dövlət sisteminin yaranması, müstəqilliyin əldə edilməsi milli respublikalar qarşısında yeni imkanlar açmışdır. Terminologiyanın inkişafı cəmiyyətin inkişafı ilə sıx şəkildə bağlı olduğu üçün cəmiyyətdə baş verən hər bir dəyişiklik bu və ya digər şəkildə dilin terminoloji leksikasını zənginləşdirir, burada müəyyən şəkildə öz əksini tapır. Eləcə də elmi-texniki tərəqqi, ictimai-siyasi dəyişikliklər dildə yeni anlayışları yaradır və terminlə ifadə olunaraq dilin terminoloji leksikasını formalaşdırır.

Qloballaşma şəraitində dilin terminoloji qatında özünü göstərən daimi dəyişikliklər, yeniləşmə və zənginləşmə prosesi dillərin terminoloji sisteminə daha çox təsir göstərir. Bütün dünya dillərində olduğu kimi türk dillərində də elm və texnikanın inkişafı, yeni anlayışların yaranması, terminlərin sayca artımı terminologiyanın daha sürətlə inkişafına şərait yaradır. Türkdilli ölkələrin müstəqillik əldə etməsindən və xarici aləmlə birbaşa təmasdan sonra dilin lüğət tərkibinə beynəlxalq terminlər axını güclənmişdir. Bu tipli terminlərin türk mənşəli milli terminlərlə əvəzlənməsi, yeni terminlərin dilin daxili imkanları hesabına yaranması, dilin arxaik mövqedə dayanan sözlərinin termin kimi işlənərək fəallaşması termin yaradıcılığının əsasını təşkil edir. İctimai-siyasi həyatda baş verən dəyişikliklər dilə, dilin lüğət tərkibinə, xüsusilə onun terminologiyasına təsir göstərir və ortaq terminologiya probleminin həlli istiqamətində mühüm işlərin görülməsi zərurəti yaradır. Bu baxımdan tədqiqatlarda "ortaq türk dili", "ortaq terminologiya" anlayışı ilə bağlı müxtəlif fikirlər irəli sürülsə də ümumi bir fikir yoxdur. Türkoloji Qurultayda B.Çobanzadə ortaq dil dedikdə elmi dildə olan ortaq cəhətləri nəzərdə tutmuşdur: "ümumi və ya ortaq elmi dil, əlbəttə, yerli canlı danışıq dili deyil, bədii əsərlərin, bayatıların, laylaların dili deyil, kürsülərin və auditoriyaların dilidir, elmin və siyasətin dilidir, terminlərin, professionalların dilidir" [2, s.205]. Ortaq elmi

dil anlayışı dedikdə isə ayrı-ayrı elm sahələrində işlənən terminlərin vahid mənbədən yaradılması prosesi nəzərdə tutulmalıdır.

Tədqiqatlarda "ortaq türk dili" dedikdə, türk dilləri əsasında yaradılan yeni bir dilin yaradılmasının ictimai səbəbləri əsaslandırılır. Bəxtiyar Kərimov və Şoəhməd Mutalov ortaq türk dilini yaratmağın riyazi formulunu verdikdən sonra göstərirlər ki, "dil problemlərinin təqdim edilən həllinin üstünlüyü bundadır ki, 1. etnosların dilləri əsasında yaradıldığından, koyneni (ortaq türk dilini S.S.) onların yaradıldığı dialektlərin nümayəndələri xüsusi öyrənmə olmadan bu və ya digər dərəcədə anlayırlar; 2. o, hər hansı bir etnik birliyin dili olmadığı üçün onlardan heç birinə üstünlük vermir və beləliklə, dil siyasəti üzrə ixtilafın güclənməsinə yardım göstərmir; 3. yerli dillərdən birinin ümummәhəlli dil kimi seçilməsində özbaşınalığı və bundan irəli gələn etnik çəkişmələri aradan qaldırır; 4) keçmiş müstəmləkəçilərin dillərinin ümummәhəlli dil kimi tətbiqi məsələsini və bununla da keçmiş metropolidən mədəniyyət və təhsil sahəsindəki asılılığı aradan qaldırır" [3, s.74].

Tədqiqatçıların bir qismi isə ortaq türk dili dedikdə, bütün türk dillərinin vahid, ümumi prinsiplər əsasında qurulmasını - ortaq əlifba, ortaq orfoqrafiya, ortaq terminologiya məsələlərini nəzərdə tuturlar. Göründüyü kimi, ortaq türk dili anlayışı iki mənada işlənir. 1. ortaq türk dili - türk dilləri arasında ümumünsiyyət vasitəsi olan bir dil kimi; 2) ortaq əlifbası, orfoqrafiyası, terminologiyası olan ortaq türk dili kimi. Lakin bu o demək deyildir ki, bütün türk dillərinin lüğət bazası əsasında vahid ortaq türk dili yaradılsın. Bu kökündən yanlış fikirdir. Ortaq türk dili dedikdə, türk xalqları arasında vahid ünsiyyət vasitəsi kimi işlənə bilən dil nəzərdə tutulur. Ortaq terminologiya dedikdə isə türk dillərində vahid mənbə əsaında yaranan terminoloji leksika nəzərdə tutulur.Türk dillərində terminologiyanın yaradılması və zənginləşdirilməsi üçün ən əlverişli yol dilin daxili imkanları əsasında terminlərin yaradılmasıdır. Ona görə də elm və texnikanın müxtəlif sahələrində yeni anlayışların ifadəsi üçün terminlər yaradılarkən ən əvvəl milli dillərin lüğət tərkibinə nəzər salmaq, onun daxili imkanlarından səmərəli istifadə edilməlidir. Terminlərin yaradılması hər bir dilin özünəməxsus müstəqil söz yaradıcılığı prosesidir. Milliliyi təmin edən milli elmi terminologiya dilin daxili imkanları əsasında termin yaradıcılığı prinsiplərinə uyğun yaradılmalıdır.

Türkoloji Qurultayda türk dillərində vahid terminologiya sisteminin yaradılması üçün, yəni termin yaradıcılığı prosesində türk xalqlarının dilinin vahid ailə kimi iştirakı, ortaq abidələrdə işlənən sözlərdən istifadə önə çəkilir. Türk dillərində ortaq terminologiyanın yaradılması üçün birinci növbədə ortaq abidələrin lüğət tərkibini əhatə edən lüğətlər tərtib edilməlidir. Qədim türk yazılı abidələrinin bütün türk xalqlarına aid olduğunu, onların hələlik elmə məlum olan ilk yazılı kitabələri hesab edildiyini, qədim türk dillərinin əsasında durduğunu, çağdaş türk xalqlarının ictimai-siyasi həyatını əks etdirən leksik tərkibə malik olmasını nəzərə aldıqda çağdaş türk dillərinin leksik qatını bu abidələrdən kənarda təsəvvür etmək mümkün deyildir. Abidələrin dilinin təhlili türk dillərinin leksik qatının formalaşmasının qədimliyini, hətta Orxon-Yenisey abidələrinin yarandığı dövrdən də əvvəl mövcud olduğunu bir daha təsdiqləyir.

Burada adlandırma, normativlik ifadəsi və onun xüsusiyyətləri o qədər incə leksik-semantik fərqlərlə bildirilir ki, bu abidələrin tam sabitləşmiş, formalaşmış, fonetik-qrammatik və üslubi normalara malik olan bir dildə qələmə alındığına heç bir şübhə yaranmır. Ona görə də türk dillərinin leksik tərkibinin formalaşmasında bu abidələr xüsusi rol oynayır. Ümumtürk yazılı abidələrin təhlili göstərir ki, bu abidələrin yarandığı ilk dövrlərdən başlayaraq türk dilləri öz inkişafının yüksək səviyyəsi ilə fərqlənmiş, zənginliyi ilə seçilmiş və bu xüsusiyyətlərinə görə də qonşu xalqların bir çoxunun dilinə bu və ya digər dərəcədə təsir göstərmişdir. Bu təsirin reallaşması müxtəlif dildaxili proseslər və dilxarici-ekstralinqvistik faktorlarla bağlı olmuşdur. Belə ki, inkişaf etmiş dillərin qonşu dillərə və ictimai-siyasi, iqtisadi, mədəni əlaqələrlə bağlı olduğu xalqların dillərinə təsiri təbii proses kimi qəbul edilir. Təbii ki, leksik-qrammatik cəhətdən inkişaf etmiş türk dillərinin areal baxımdan qonşu olan dillərə təsiri izsiz qalmamış, onun özü də əks təsirə məruz qalmışdır. Buna görə də hələ qədim dövrlərdən türk dilləri ilə qonşu olan dillərin qarşılıqlı təsiri müşahidə olunur, onun izlərinə müxtəlif dillərdə yazıya alınmış abidələrdə rast gəlinir.

KDQ dastanlarının dili ilə ortaq türk abidələrinin dili arasındakı ən böyük dil fərqlərinin üzə çıxması isə KDQ dastanlarının artıq nisbətən diferensiasiya olmuş, nisbətən ayrılmış oğuz qrupu dilləri elementlərinin üstünlük kəsb etməsidir. Dastanların dilində sırf oğuz mənşəli, o cümlədən

Azərbaycan dil xüsusiyyətlərini daha çox özündə əks etdirən, müasir dövrdə də çoxlu sayda hərbi məzmunlu leksik vahidlərə rast gəlmək olur. Belə sözlər işləndiyi dövrdən uzun əsrlər keçməsinə baxmayaraq səslənməsinə, semantikasına və quruluşuna görə müasir dilimizlə uyğunluq təşkil edir. Məsələn, alay, gözçü (müşahidəçi), yaraq, yağı, sancaq (bayraq mənasında), çavuş (gözətçi), ağın (yürüş, hücum), aqınçı (döyüşçü, hücuma keçən əsgər), oxçu, çəribaşı (qoşun başçısı) və s. Lakin abidələrin dilində öz dövrünün inkişaf səviyyəsinə uyğun olan bir çox döyüş, savaş anlayışlarını bildirən sözlər də vardır ki, onlar müasir dilimiz üçün qanunauyğun və məntiqi olaraq arxaikləşmiş terminlərdir. Çünki həmin terminlərin ifadə etdiyi anlayışların - denotatların özləri arxaikləşmiş, həmin döyüş alət və vasitələri cəmiyyətin inkişafı nəticəsində istifadədən qalmış, sıradan çıxmışdır. Ona görə də ortaq terminologiyanın yaradılması zamanı abidələrdə işlənən, müasir dövrlə səsləşən ortaq sözlərdən istifadə edilməlidir.

Türk dillərinin lüğət tərkibi tarix boyu müəyyən dəyişikliklərə məruz qalmış, amma öz nüvəsini qoruyub saxlamışdır. Ümumtürk kontekstində götürülmüş Azərbaycan dilinin sahə terminləri də türk dünyasında ayrı-ayrı baxışlar sisteminin hakimiyyət uğrunda mübarizəsinin ilkin və mükəmməl formalarının yaranmasına və inkişafına söykənir. Türkdilli ölkələrdə gedən ictimai-siyasi proseslər dilin lüğət tərkibinə yeni terminlər daxil olmasına və bu terminlərin geniş işləklik qazanmasına şərait yaratmışdır. Türk dünyasının tarixi inkişafı qonşu xalqları da bu inkişafa biganə qoymamışdır. Qonşu xalqlar türklərdən dövlət, idarəetmə, milli maraqlar üstündə qurulmuş xarici əlaqələr və digər sahələrdən az şey mənimsəməmişlər. Bu gerçəklik mənimsənildiyi kimi həmin anlayışların ifadəsi olan terminlər də digər xalqların dilinə, o cümlədən də ərəb, fars, rus və Avropa dillərinə də keçmiş, müəyyən fonetik fərqlər bu gün də işlənməkdədir. Bu terminlərin semantikasında baş verən dəyişiklikləri, reterminləşməni - terminin yenidən mənbə dilə qayıtmasını izlədikdən sonra belə bir qənaət yaranır ki, türk dillərinin yayıldığı arealda ilkin semantikasını bütün türk dillərində qorumuşdur. Türk dillərində yeni yaranan anlayışların ifadə edilməsi üçün sözdüzəltmə vasitələrinin bütün arsenallarının terminologiyada istifadə olunması ilə yanaşı, bu sahədə özünəməxsus termin yaradıcılığı üsulları da vardır. Bu üsulların müəyyən qismini bir sıra əlamətlər əsasında təyin etmək olduğu halda, bir qisminin ümumi şəkildə izahı çətinlik törədir və onlar istisnalar şəkilində qeydə alınır. Termin yaradıcılığının spesifik cəhətlərini öyrənmək məqsədilə müxtəlif xarakterli tədqiqat işləri aparılmışdır. Belə tədqiqatların böyük bir hissəsi termin və söz yaradıcılığının müqayisəli şəkildə öyrənilməsinə həsr olunmuşdur. Terminləşmə prosesi dilin terminoloji qatında özünü göstərən mühüm semantik hadisə hesab edilir. Belə ki, cəmiyyətin sürətli inkişafı ilə bağlı olaraq çoxlu sayda yeni-yeni elmi texniki anlayışlar meydana çıxır ki, onların hamısını xüsusi dil vahidləri ilə operativ şəkildə ifadə etmək bəzən mümkün olmur. Ona görə də çox vaxt dildə artıq hazır şəkildə mövcud olan dil vahidlərinə yeni məna verməklə onlardan yeni yaranan anlayışların adlandırılması məqsədilə istifadə olunur. Bu proses xüsusilə bu və ya digər terminoloji sahənin yenicə formalaşdığı dövrdə daha fəal şəkildə özünü göstərir. Dünya dillərinin əksəriyyətində, o cümlədən müasir türk dillərində sözlərin yeni mənalar kəsb edərək - terminləşərək digər anlayışları da adlandıra bilmə prosesi yeni formalaşan bir çox terminoloji sahələrdə daha aydın şəkildə müşahidə edilir. Yəni dildə mövcud olan sözlərin mənasında baş verən dəyişmələrlə bağlı olaraq terminin əsas mənasının qalması ilə yanaşı yeni məna qazanaraq elm sahələrində işlənir. Məsələn, informatika, aviasiya, logistika, hərbi sahə, hərb işi, hərbi maşın və mexanizmlər, hərbi-sənaye kompleksi müasir cəmiyyətin ən sürətli inkişaf edən sahələrindən olduğu üçün bu sahədə yaranan çox müxtəlif funksiyalı anlayışları ifadə etmək üçün dilin daxili imkanları, xüsusən semantik üsulla söz yaradıcılığı öz aktuallığı və fəallığı ilə seçilir. Müasir türk dillərində onlarla yeni yaranan anlayışları ifadə etmək üçün dilimizin tarixi boyu fəal leksik qatda işlədilən söz və ifadələrə yeni məna çalarları verməklə yeni yaranmış anlayışları ifadə etmək üçün istifadə olunur. Bu, bir də onunla bağlıdır ki, çoxlu sayda yeni yaranan müxtəlif elmi-texniki anlayışları ifadə etmək üçün dilin digər terminyaratma üsulları kifayət etmir və dildə hazır şəkildə mövcud olan leksik vahidlərin ifadə etdiyi mənalar əsasında anlayışların adlandırılması məqsədyönlü hala çevrilir. Bu zaman motivləşmə yolu ilə sözlərin ifadə etdiyi mənalardan biri əsasında terminlər yaradılır. Məsələn, hərbi terminologiyada ayrı-ayrı hərbi anlayışları ifadə etmək üçün dildə ha-

zır şəkildə artıq mövcud olan ağız, bölük, bölmə, açar, yuva, göz, daraq və s. sözlər terminləşmiş və müvafiq anlayışların adına çevrilmişdir.

İstər qrammatik, istərsə də leksikoqrafik baxımdan ən çox araşdırılan ortaq türk ədəbi dili üçün ümumi terminoloji bazaların yaranmasında terminoloji tədqiqatların xüsusi rolu var. Tarixilik baxımından araşdırılan əsərlərə nəzər yetirdikdə ümumtürk arealının ümumi termin bazasının olduğu aydın şəkildə özünü əks etdirir.

Müasir dövrdə yeni nəzəri baxışların, konsepsiyaların inkişafı, inteqrasiya, qarşılıqlı əlaqələrin güclənməsi elm sahələrində terminoloji bazanın dinamikliyinə təsir göstərir. Cəmiyyətin bir çox fəaliyyət sahələrinə nüfuz edən qloballaşmanın dilə birbaşa təsiri nəticəsində leksikanın əsasını təşkil edən terminologiya dəyişir, yeniləşir. Elmi-texniki tərəqqi, ictimai-siyasi həyatın inkişafı terminologiyanın fasiləsiz olaraq dəyişməsini və inkişafını şərtləndirir.

Cəmiyyətdə baş verən yeniliklər ictimai ünsiyyət vasitəsi olan dildə əks olunur. Dilin inkişaf səviyyəsi, zənginləşməsi daha çox elm sahələrində baş verən yeniliklərlə bağlıdır. Bu yenilikləri, elmi-texniki tərəqqini ifadə edən terminlər isə bütün türk dillərində həm dilin daxili imkanları, həm də alınmalar hesabına formalaşır. B. Çobanzadə qeyd edir ki, ümumtürk bazasından ayrılan türk xalqları, təbii ki, ayrı-ayrı dillərin və mədəniyyətlərin təsiri ilə yeni anlayışları başqa dillərdən almağa məcbur olmuşdur. Bunu nəzərə alaraq türk dillərində elmi terminoloji sistemin yaranmasında ümumi baza əsas götürülür: "Türk dillərinə keçərkən dedim ki, lüğətimiz üçün lüğət tərkibimizdə 3 ümumi baza var. Başqa məsələlərlə əlaqədar danışarkən türk dialektləri arasındakı mövcud fərqləri göstərsək də bunu türk dialektlərinin qarşılıqlı münasibətlərini, onlar arasındakı fərqləri müəyyənləşdirmək üçün etmişdik, lakin bu fərqlərdən başqa, külli miqdarda material, iqtibas edilmiş cəhət və xüsusiyyətlər də qalır ki, bunlar türk dialektləri arasında ümumi baza təşkil edir. Terminologiya tərtib edilərkən, bu baza nəzərə alınmalıdır. Bu ümumtürk bazasıdır" [1,s.179]. Dillərdə mövcud olan terminlərin heç də hamısı ümumtürk ümumi bazası əsasında yaranan sözlər deyil, onlarla yanaşı müxtəlif mənbələr hesabına terminlər işlənməkdədir. Müasir dövrdə də terminlər yaradarkən ümumtürk söz bazasını nəzərə almaq yəni, bunun üçün türk xalqlarının bir-birinə ümumi yaxınlığı olan dialektlərinə və ümumiyyətlə, xalq dilinə əsaslanmaq zəruridir. Dilimizdə mövcud olan terminlərin heç də hamısı ümumtürk bazası əsasında yaranmamış, onlarla yanaşı ərəb-fars və rus-Avropa bazaları da əsas mənbələrdir.

N. Məmmədli yazır: "Ötən əsrin ilk onilliklərinədək ərəb və fars dilləri yeganə terminoloji mənbə funksiyasını tam itirmiş, kəmiyyət və keyfiyyət baxımından yeni anlayışların ifadəsi üçün rus və Qərbi Avropa dillərindən alınmış terminlərdən istifadə edilməyə başlanılmışdır. Bununla belə, rus və müasir Avropa dillərinin terminoloji təsirinə baxmayaraq, ərəb və fars mənşəli terminlər Azərbaycan dilinin terminologiya sistemində mövqelərini qoruyub saxlamış və müəyyən mənada bünövrə xarakteri daşımağa davam etmişdir" [4]. Hətta bu tendensiya müasir dövrümüzdə də aktualdır. Türk dillərinin daxili imkanları əsasında, dilin bilavasitə özünəməxsus söz yaradıcılığı üsulları ilə müəyyən anlayışın ifadəsi üçün müvafiq termin yaratmaq mümkün olmadıqda başqa dildən həmin anlayışı ifadə edən termin alınıb işlədilmişdir. Buna görə də terminologiyada başqa dillərdən (rus və Avropa dillərindən) alınmış terminlər üstünlük təşkil edir. Bəkir Çobanzadə dildə işlənən əcnəbi terminlərin zəruriliyini "ümumiyyətlə, elm bir xalqın həyatı içərisidə qapanmadığı kimi, elmi istilahlar da yalnız bir dilin çərçivəsi içində qalamaz" [5, s.190] fikrini təsdiq edib əsaslandırır. Alim onu da qeyd edir ki, elmi və mədəni əlaqələr nəticəsində bir dilin başqa dillərdən termin alması yaxşı haldır, hətta elmin, mədəniyyətin nisbi üstünlüklərini göstərən hallardan birisidir. Bu tendensiya müasir dövrümüzdə də aktualdır. Birinci mənbə kimi qonşu türk dillərindən, ikinci mənbə kimi Qərbi-Avropa və rus dillərindən terminlər alınır. Bir şərtlə ki, söz əvvəlində diftonq olmasın və bütün alınmalar ahəng qanununa tabe etdirilsin.

Ümumiyyətlə isə türk xalqları birlikdə elmi terminologiyanı hazırlamalıdırlar. Bunun üçün 3 mənbə- fars və ərəb, ümumtürk və Avropa sözləri əsas götürülməlidir. Avropa mənşəli sözlərlə bağlı deməliyik ki, hamı bir mənbəyə əsaslanmalıdır. Yəni, eyni siyasi, sosial və iqtisadi məziyyətlərə malik olan türk dilləri üçün alınma termin mənbələri eyni olmalıdır.

Müasir türk dillərinin lüğət tərkibində ərəb-fars, rus dillərindən alınmış terminlərlə yanaşı, Avropa mənbəli terminlərin də müxtəlif kəmiyyət göstəricilərinə malik olduğunu müşahidə etmək

mümkündür. Cəmiyyətimizdə baş verən bir sıra ictimai-siyasi, tarixi hadisələr, xüsusilə əsrin müqaviləsi-neft kontraktları və s. təbii olaraq Avropa mənşəli terminlərin dilimizə gəlməsini gücləndirmişdir. Maraqlı cəhət odur ki, həmin terminlərin bir qismi vasitəsiz alınmalardır. Yeni ictimai-siyasi və köklü dəyişikliklərlə bağlı terminologiyamıza, dilimizin lüğət tərkibinə yeni terminlər ingilis dilindən birbaşa daxil olur və xalq tərəfindən mənimsənilir. Bütün bunlar beynəlxalq əhəmiyyətli beynəlmiləl xarakterli terminlərdir. Beynəlmiləl elmi terminlərin müasir dilimizdə artması, çoxalması, hər şeydən öncə müxtəlif sistemli dillərdə yaranıb inkişaf edən elmlərin qarşılıqlı əlaqəsini və inteqrasiyasını təmin edir ki, bu prosesdə də əvvəllər rus dili, indi isə Qərb konteksti, o cümlədən, ingilis dili mühüm rol oynayır. Deməli, türk dillərində terminoloji sistemin zənginləşməsində əsas mənbə olan rus dilinin təsir dairəsi azalmış, Qərbi Avropa dilləri, xüsusən ingilis dili əsas mənbə olmuşdur. Terminoloji sistemin təhlili göstərir ki, elmlərin son illərdəki inkişafı ilə əlaqədar onun müxtəlif sahələrinə aid terminlər sistemi yaranmışdır. Bu isə terminologiya daxilində semantik diferensiallaşma prosesi ilə nəticələnmiş, müxtəlif sahələrlə bağlı terminlər digər sahələr ilə ortaqlı-müştərək terminlər sisteminin sabitləşməsinə səbəb olmuşdur. Məsələn: internet, menecer, bank, bankomat, referendum, ratifikasiya, plüralizm, qrant, sammit, bonus, investisiya, konsorsium, konvensiya və s. Ümumiyyətlə, türk dillərində işlənən terminləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Türk dillərinin hər birinin sırf özünəməxsus terminləri.
2. Türk dilləri üçün ortaq olan terminlər.
3. Başqa dillərdən alınan terminlər.

Müasir dövrdə elmin, texnikanın, iqtisadiyyatın, ictimai fəaliyyətin, daha geniş mənada ictimai quruluşla bağlı meydana gələn məfhumların ifadəsi üçün yeni-yeni terminlər alınır və bu zaman dilin ən fəal və ən mütəhərrik bir qolunu təşkil edən terminoloji leksika daim zənginləşir. Xüsusən türk dillərinin funksional inkişafında baş verən belə dəyişikliklər birbaşa onun terminologiyasına təsir edir. Bu baxımdan ortaq terminologiya problemi öz həllini gözləyən problemlərdəndir. Müasir dövrdə türk xalqlarının bir-birinə yaxınlaşması, bir-birini asan başa düşməsi üçün türk dillərində termin yaradıcılığının yeni istiqamətləri və termin yaradıcılığında ortaq mənbələr müəyyənləşdirilmişdir. Bu mənbələrdə dillərin daxili imkanları hesabına yaranan terminlər, alınmalar və onun mühüm hissəsini təşkil edən beynəlmiləl terminlər əsas götürülür. Belə alınmalar isə dillərin fonetik sisteminə və qrammatik quruluşuna uyğunlaşdırılır. Türk dillərində ortaq terminlərin yaranma prinsipləri müəyyənləşdirilərkən bu üç mənbə əsas götürülməlidir:

1. Hər bir türk dilinin daxili imkanları.
2. Ümumtürk bazası.
3. Beynəlxalq baza.

Ümumtürk bazası əsasında terminlər yaratmaq üçün birinci növbədə türk dillərində çoxdilli terminoloji lüğətlər tərtib olunmalıdır. Bu gün bu məsələ türk dillərində ən önəmli məsələlərdən biridir. Bununla yanaşı sahə terminlərinin lüğəti tərtib edilən zaman hansı dillərin əhatə olunması problemi də həll olunmalıdır. Lüğətlərin tərtibi zamanı ayrı-ayrı sahə terminologiyalarının elmi-konseptual, nəzəri əsasları hazırlanır, terminlərin dəqiqliyinin, konkretliyinin və təkmənalılığın qorunmasına nəzarət edilir. Ona görə də ortaq terminoloji lüğətlərin hazırlanması zərurəti yaranmışdır. Təyin edilmiş dillərin hər birinin müvafiq sahəyə aid terminləri seçilməlidir. Bunun üçün müəyyən elmi mərkəzdə ayrı-ayrı sahələr üzrə bütün türk dillərində istifadə olunan terminlər qeydə alınmalı və onların yazılış prinsipləri müəyyənləşdirilməlidir. Hazırda müəyyən sahələr üzrə Azərbaycan, türk, qazax, qırğız, özbək, qaqauz və türkmən dillərində dörd və beş dilli lüğətlər tərtib olunur. Bunlar ortaq bazanın formalaşması üçün zəmin yaradır. Bu lüğətlər tərtib olunan zaman terminlərin beynəlxalq variantları da nəzərə alınmalıdır. Məsələn, bu gün bütün türk dillərində Avropa dillərindən alınan ekspress, prasodiya, izomorfizm, kommunikasiya, disfemizm və s. terminləri uğurla işlənir. Ona görə də, türk dillərində ortaq terminoloji lüğətlər tərtib edilən zaman ortaq beynəlxalq terminlər də əsas götürülməlidir. Ortaq terminologiya problemi işığından yanaşdıqda, orfoqrafiya sahəsindəki problemlər daha çoxdur. Hazırda ən önəmli problemlərdən biri Türk xalqlarının əlifba problemini həll etməkdir. Təbii, bütün türk xalqlarının latın əsaslı əlifbaya keçmələri ortaq türk dili probleminin həlli yolunda atılmalı olan addımların yalnız birincisidir. Or-

taq terminologiya baxımından ən mühüm vəzifə türk dilləri üçün çox vacib olan orfoqrafiya prinsiplərini müəyyənləşdirmək və onların həyata keçirilməsinə çalışmaqdır. Türk dillərində alınma sözlər müxtəlif mənbələr əsasında formalaşır. Onu da qeyd edək ki, türk dillərinin lüğət tərkibinin alınma sözlər qatı bu dilləri həm birləşdirən, həm də ayıran amillərdəndir. Çünki bu məsələdə vahid bir prinsip olmadığına görə bütün türk dilləri lüğət tərkibinə görə bir-birindən uzaqlaşır. Fikrimizcə, ortaq türk dili probleminin uğurlu həlli, yəni söz birliyində iki prinsip önəmlidir: Türk dillərində alınma leksikanın mənbələrini müəyyənləşdirmək və ən uğurlarını seçmək; Terminlərin yazılmasında tarixi ənənəvi prinsipə əsaslanmaq.

Dillərdə müxtəlif dillərdən alınan beynəlxalq terminlərin sayı gündən-günə artır. Anlayışı dəqiq ifadə edən terminlər türk dilləri üçün ortaq termin kimi qəbul olunmalıdır. Bütün bunlar müstəqil türk dilli dövlətlərin ortaq elmi terminologiyasının yaradılmasını şərtləndirir. Ortaq terminologiyanın yaradılması türk xalqlarının yaxınlaşması, eləcə də onların dillərinin lüğət tərkibinin yaxınlaşması üçün vacib şərtdir. Bunun üçün aşağıdakı işlər həyata keçirilməlidir: 1. Kökdən bir olan türk dillərinin bir-birinə yaxınlaşması, bu dillərin lüğət tərkibində ortaqlıq yaratmaq üçün onların maddi-mənəvi leksikası ilə bağlı çoxdilli lüğətlər nəşr olunmalıdır. Nəşr olunan lüğətlərdə ortaq terminlərin yaradılması prosesində türk mənşəli söz kökləri əsas götürülməlidir. 2. Türk mənşəli söz köklərini özündə qoruyub saxlayan ortaq türk abidələrinin lüğətləri hazırlanmalıdır. 3. Türk dillərinin dialektlərini özündə əks etdirən dialektoloji lüğətlər hazırlanmalıdır. 4. Türk xalqlarının soykökünə qayıtması və ortaq terminologiyanın yaradılması üçün ortaq termin sözlüklər hazırlanmalıdır. 5. Ortaq terminoloji bazanın yaradılmasında beynəlxalq terminlər əsas mənbə hesab edilməlidir. 6. Bu sahədə bir sistem qurulmalı və terminyaratmada və terminologiyada mövcud olan nəzəri və praktiki biliklərə əsaslanmaq lazımdır.

Deməli, ortaq terminologiyanın yaradılması üçün türk xalqlarının ortaq dialektoloji lüğətləri, tarixi lüğətlər, eləcə də xalq dilini özündə əks etdirən izahlı lüğətlər tərtib olunmalıdır. Tarixən bir kökdən olan, lakin sabitləşmiş fərqli xüsusiyyətləri olsa da ayrı-ayrı türk dilləri yeni terminlərin yaranmasında dilin daxili imkanlarını və beynəlxalq leksikanı əsas götürməlidir. Müasir qloballaşma dövründə türk xalqları öz milli irsini qoruyub saxlamalı, bütün türkdilli ölkələrdə ümumi türk tarixinin, mədəniyyətinin, müxtəlif elm sahələrinin inkişafı üçün ortaq terminlər yaradılmalıdır. Türk dillərində yeni anlayışları ifadə edərkən dünyanın qəbul etdiyi beynəlxalq dillərdən terminlər alınıb işlədilir. Bu dillərdə elmi dilin bir-birinə daha yaxın olması üçün ortaq beynəlxalq terminlərdən istifadə olunmalıdır. Bu proses milli mənşəli terminlərin yaranmasına və türk dövlətlərinin çoxunda işlədilən eyni bir terminin seçilməsinə zəmin yaradır.

Nəticə: Ortaq terminoloji bazanın yaradılmasında hər bir dilin daxili imkanları hesabına yaranan terminlər, ümumtürk terminlər və beynəlxalq terminlər əsas baza hesab edilməlidir. Bütün türk xalqları üçün ortaq terminologiyanın yaradılması, ortaq terminoloji fondun təsdiqi türk dillərinin terminologiyasının standartlaşdırılması mərhələsində həyata keçirilə bilər. Hazırda hər bir türk dilində termin yaradıcılığı prosesində bu istiqamətlər əsas götürülsə də hələ də türk dillərində ortaq terminologiyanın yaranması öz həllini tapmamışdır. Çağdaş türkologiyamızın qarşısında bu problemin həllinə xüsusi diqqət yetirmək zəruri tələbələrdən biridir. Belə bir məsələnin həlli terminologiyanın standartlaşdırılması və bu prosesi həyata keçirmək üçün standartlaşma üçün tələb olunan normaları müəyyənləşdirmək zərurəti yaradır. Ümumiyyətlə, türkdilli Respublikalarda elmi dili işləyib hazırlayan, terminləri qeydiyyata alan və terminologiyanı sistemləşdirmək üçün türkdilli ölkələrin hər birində vahid koordinasiya sistemi yaradan Terminologiya Komissiyası, eləcə də ümumtürk Terminologiya Komitəsi yaradılmalıdır.

Ədəbiyyat siyahısı

1. 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, səh. 179.
2. Çobanzadə B. Türk ləhcələrinin yaxın qohumluğu haqqında, Azərbaycan müntəxəbatı, Bakı, İ c. 2015, səh.205.
3. Kərimov Bəxtiyar və Mutalov Şoəhməd "Urtatürk dili", Toşkent, 1992.
4. Məmmədli N. Terminologiya: ideoloji mübarizənin əsas cəbhələrindən biri. Azərbaycan qəzeti, 7 fevral 2026.
5. Чобанзаде Б. "О системе научной терминологии". Стенографический отчет, Баку, 1926, стр.190-191.

Sayali Sadigova

First Turcology congress and common terminology in Turkish languages

Summary

The article characterizes the problems of the first Turkological Congress and common terminology in the Turkic languages. In the modern era, new terms are created to express concepts related to science, technology, economics, social activity, and social structure in a broader sense, and the terminological vocabulary, which constitutes the most active and dynamic branch of the language, is constantly enriched. Such changes, especially in the functional development of Turkic languages, directly affect their terminology. From this point of view, the problem of common terminology is one of the problems awaiting its solution. In modern times, the emergence of a new state system in Turkic-speaking countries and the acquisition of independence have opened up new opportunities for national republics.

Taking this into account, when determining the principles of the formation of common terms in Turkic languages, three sources should be taken into account: The internal capabilities of each Turkic language; The general Turkic base; The international base. The creation of a common terminology is an important condition for the rapprochement of the Turkic peoples, who have been separated from each other for a long time, and first of all, for the rapprochement of the lexical composition of their languages.

Keywords: *Turkological Congress, terminology, globalization, common terminology, common term, all-Turkic base.*

Саялы Садыгова

Первый тюркологический конгресс и общая терминология на турецких языках

Резюме

В статье рассматриваются проблемы первого Тюркологического конгресса и общеупотребительной терминологии в тюркских языках. В современную эпоху создаются новые термины для выражения понятий, связанных с наукой, техникой, экономикой, общественной деятельностью и социальной структурой в более широком смысле, а терминологическая лексика, составляющая наиболее активную и динамичную ветвь языка, постоянно обогащается. Такие изменения, особенно в функциональном развитии тюркских языков, напрямую влияют на их терминологию. С этой точки зрения, проблема общеупотребительной терминологии является одной из проблем, ожидающих своего решения. В современную эпоху появление новой государственной системы в тюркоязычных странах и обретение независимости открыли новые возможности для национальных республик. Учитывая это, при определении принципов формирования общеупотребительных терминов в тюркских языках следует принимать во внимание три источника: внутренние возможности

каждого тюркского языка; общетюркскую базу; международную базу. Создание общей терминологии является важным условием сближения тюркских народов, долгое время разлученных друг с другом, и прежде всего, сближения лексического состава их языков.

Ключевые слова: *Тюркологический конгресс, терминология, глобализация, общеупотребительная терминология, общеупотребительный термин, общетюркская база.*

Çapa tövsiyə edən: ***AMEA, Nəsimi adına Dilçilik İnstitutu, Terminologiya şöbəsi***

Rəyçilər: ***professor Nadir Məmmədli***
professor İkram Qasımov

UOT-811.11-112
Səhifə:13-19
https://doi.org/10.59849/2663-8967.2026.1.13

Baba Məhərrəmli
Azərbaycan Memarlıq və İnşaat Universiteti,
filologiya üzrə fəlsəfə doktoru, dosent
baba_magerramli@mail.ru

DÜNYA DİLLƏRİNDƏ HOMOGEN ƏVƏZLİKLƏR

XÜLASƏ

Əvəzliklər hər bir dilin ən arxaik leksikasının izlərini yaşadır. Buna görə də əvəzlik köklərinin morfonoloji inkişafının öyrənilməsi qədim leksikanın tədqiqi baxımından çox önəmlidir. Əvəzliklərin ən qədim sözlər qrupuna aid olmasının sübutu məhz əvəzlik köklərinin müxtəlif dillərdəki analogiyasıdır, çünki həm qohum dillərdə, həm də qohum olmayan dillərdəki ortaq kök morfemlər ilkin – protodilin ən qədim leksik qatıdır. Əvəzlik köklərinin bir-birinə transformasiya olunması, semantikalarının dəyişməsi isə dünya dillərinin tarixi təkamülünün, diferensiallaşmasının nəticəsidir. Müxtəlifsistemli dillərdə müşahidə edilən homogen əvəzlik köklərindəki fonoloji və semantik fərqlərin yaranması dünya dillərinin fərdi inkişafı ilə bağlıdır.

Açar sözlər: *əvəzlik, qədim, dil, homogen, analogiya.*

Giriş: Dünya dillərinin mənşəyinin bir olduğunu sübut edən faktlardan biri də məhz əvəzlik köklərinin analogiyasıdır. Azərbaycan dilçiliyində türk dillərindəki əvəzliklərlə qeyri-türk dillərindəki əvəzliklər arasındakı oxşarlıqların mənşəyi müəyyənləşdirilməyib. Həmin problemin həlli etimoloji araşdırmalarla bilavasitə bağlıdır. Əvəzliklərin inkişafında müxtəlif səs keçidləri, səs reflekslərı ilə müşayiət olunan morfonoloji proseslər daha səciyyəvidir. Tarixən dilin ən əski leksik layı kimi kök əvəzliklərin müxtəlif növlərinin bir-birinə keçidi baş vermişdir. Türk dilləri ilə qeyri-türk dillərindəki əvəzliklərin oxşarlığı iki faktla izah oluna bilər: bu oxşarlıqlar ya dillərarası əlaqələrin nəticəsidir, ya da onların mənşəyi eynidir. Biz ikinci ehtimala üstünlük veririk. Nostratik dilçilik ideyaları bu qənaətimizi möhkəmləndirir. Müxtəlif dillərdə işlənən əvəzlik köklərində müşahidə edilən fonoloji, leksik-semantik bənzərliklər heç də təsadüfi dil faktları deyil.

Son dövrlərdə əvəzlik kökləri ilə bağlı aparılan araşdırmalar da sübut edir ki, əvəzliklər ulu dilin ilk sözlərindən olmuşdur. A.Bomhard müxtəlifsistemli dillərdəki əvəzlik köklərini müqayisə edərək göstərir ki, "*tipologiyasından asılı olmayaraq dünya dillərindəki şəxs əvəzliklərinin mənşəyi eynidir və onlar dillərin inkişafının nostratik mərhələsinə aiddir"* [17, s.233]. A.B.Dolqopolski bildirir ki, "*Avropa, Asiya və Afrikanın 200-ə yaxın dilində mən, sən, kim, nə mənalarını ifadə edən əvəzliklər uyğundur və onlar heç də alınma deyil*" [28, s.62]. K.V.Babayev hind-Avropa dillərində şəxs əvəzliklərinin eynimənşəli olmasını real faktlarla əsaslandırmışdır [14, s.23]. Altayşünaslıqda V.L.Kotviç əvəzlik köklərinin mənşəyi mövzusunda araşdırmalar aparmışdır. V.L.Kotviç qeyd edirdi ki, "*Altay dillərindəki əvəzliklər mövzusunda bir sıra mübahisəli məsələlər mövcuddur*" [14, s.139]. Həmin problemlərin ən başlıcası kök əvəzliklərin mənşəyi ilə bağlıdır. Kök əvəzliklərin bir çoxunun mənşəyinin müəyyənləşməsi məsələsində türkoloqlar arasında fikir ayrılıqları mövcuddur. Türkologiyada E.R.Tenişev, N.K.Dmitriyev, A.P.Potseluyevski, F.Q.İshakov və E.A.Qruninanın araşdırmalarında əvəzlik kökləri tədqiq edilmişdir. Azərbaycan dilçiliyində M.İ.İslamov, F.A.Cəlilov, V.İ.Aslanov, Q.Ş.Kazımov, H.İ.Mirzəzadə, Ə.V.Tanrıverdi və Z.Ə.Şahbazovanın araşdırmalarında əvəzlik köklərinin mənşəyindən bəhs olunmuşdur. Dilçiliyimizdə əvəzlik köklərinin nostratik mənşəyi mövzusuna ilk dəfə Q.Ş.Kazımovun tədqiqatlarında toxunulmuşdur .

İlk insan əvvəl öz ətrafını adlandırmağa başlamış və özünü dərk etməyə sonra çalışmışdır. Məntiqi nöqteyi-nəzərdən bu ehtimalla razılaşmaq olar. Dilin inkişafı konkretlikdən mücərrədliyə doğru istiqamətdə getmişdir . Türk dillərində *o* əvəzliyinin həm işarə, həm də şəxs əvəzliyi funksi-

yasında işlənməsi bu ideyanın doğruluğunu sübut edir. Evenk dialektlərində *bu* sözü "ölkə, dünya", *bi* sözü isə "yaşamaq, mövcud olmaq" anlamındadır. Həmin fakt da işarə əvəzliklərinin ətraf aləmin dərk olunması üçün ilk yaranmış sözlər qrupundan biri olduğunu təsdiq edir. Başqa bir misal: I şəxsin təkini bildirən və dünyanın müxtəlif dillərində işlənən *mən // ma // me* "mən" əvəzliyinin leksik paraleli olan *ma* sözü eskimos dilində həm işarə əvəzliyi, həm də "ətrafdakı ən yaxın məsafə, yaşayış yerinin ətrafı" mənasındadır. Altay dillərinə aid Koreya dilində də maraqlı bir fakt var. Koreya dilində III şəxs əvəzliyini ifadə edən xüsusi bir söz yoxdur. Həmin funksiyanı işarə əvəzlikləri yerinə yetirir. Bu tipli faktlar işarə əvəzlikləri ilə şəxs əvəzliklərinin genetik baxımdan yaxınlığını sübut edir.

Kök əvəzliklərlə bağlı aparılan tədqiqatlar sübut edir ki, əvəzliklər dilin tarixi leksikasında fonomorfoloji, semantik cəhətdən ən az dəyişən laylardan biridir. Dünya dillərində homogen əvəzlik köklərinə şəxs, işarə və sual əvəzlikləri aiddir. Müxtəlif türk dillərində şəxs əvəzliklərinin fonovariantları fərqlidir. Məsələn: qar. *men, sen, ol, biz, siz, alar*, özb.şiv. *mən, sən, u, bız, sız, ulə*, Sib.tat.dial. *min, sin, ul, pez, ses, olar*, xak.dial.: *men // min, sen // sin, bis, sler, tıx ol // ul* və s. Türk dillərində şəxs əvəzliklərində ən diferensial faktlar sarı uyğur, dolqan və çuvaş dillərindədir: s.uyğ. *men* "mən", *sen* "sən", *kol* "o", *mıster* "biz", *sler* "siz", *kollar* "onlar", dolq. *min* "mən", *en* "sən", *gini // hini* "o", *bihigi* "biz", *ehigi* "siz", *giniler* "onlar", çuv. *ep // epə // ebə* "mən", *epir* "biz", *es* "sən", *esir* "siz", *vəl* "o", *vəlsam* "onlar". N.N.Poppe çuvaş dilindəki *ep // epə* "mən" əvəzliyinin *ə+*bi* şəklində formalaşdığını güman etmişdir [15, s.29-30]. Bu fərziyyəyə əsaslansaq, *p // b // m* refleksi ilə *pe // pə // pi // be // bə* kök hissəsinin *me // mə // mi* morfemi ilə homogenliyini düşünmək olar. Müxtəlif dillərdə şəxs əvəzlikləri hallanarkən ilkin praforma bərpa olunur: rus. *я - меня*, Azərb. *o* (qədim forma *ol // an*) - *ona*. Dilçilikdə əvəzlik köklərinin müstəqil adlardan yaranması haqqında baxışlar mövcuddur. Məsələn, K.V.Babayev Altay dillərinə aid yapon dilində bərpa olunan **mi* "mən" əvəzliyinin yapon dilindəki *mi* "bədən" mənşəli sözdən yarandığını ehtimal edir [9, s.97]. Çağdaş türk dillərində I şəxsin təkini ifadə edən əvəzlik kökündə fonetik fərqlənmələr müşahidə edilir: türk. *ben*, Alt., tuv. *men*, xak. *min*, yak. *min*, tat. *min*, başq. *min*, qaz. *men*, s.uyğ. *men*, uyğ. *mən*, dolq. *min*, lob. *men*, q.qalp. *men*, K.tat. *men*, türkm. *men*, şor. *men*. özb. *man*, qırğ. *maa* "mən". Qədim şivilizasiya dillərindəki əvəzliklərlə türk dillərindəki I şəxs təkini ifadə edən əvəzlik arasında kifayət qədər fonoloji və semantik uyğunluqlar var: urar. *mə* "məni", sansk. *me* "mən" [21, s.235], şum. *men* "mən, mən özüm" [19, s.37], lat. *me* "mənə", etr. *mi*, het. *amm* "mən" [20, s.912]. *Mən* əvəzliyinə qədim türk dialektlərində *ban // ben // bin // bın // men* variantlarında rast gəlinir. Orxon abidələrində I şəxsin təkini ifadə edən *mən* əvəzliyinin *bən // mən* variantları paralel işlənmişdir. M.Kaşğari yazır ki, "*ben forması oğuz, qıpçaq və suvar türklərinin dilindədir"* [3, c.4, s.409]. A.B.Dolqopolski nostratik dillər üçün I şəxsin təkinin **mi* şəklində olduğunu göstərmişdir [28, s.1354]. Altay etimoloqları prototürk dili üçün I şəxsin praformasını **be*, prototunqus dili üçün **bi*, protomonqol dili üçün **bi*, protoaltay dili üçün isə **bı* biçimində bərpa edirlər [24, s.341].

Şəxs əvəzliklərinin mənşəyi haqqında türkoloji ədəbiyyatlarda müxtəlif mülahizələr var. Türkologiyada, adətən, I və II şəxs əvəzliklərinin təkini *mə+n, sə+n* hissələrinə ayırırlar. V.V.Radlov, V.L.Kotviç, O.N.Bötlinq, J.Deni, B.Şott, G.J.Ramstedt, N.K.Dmitriyev, A.N.Kononov, F.Q.İshakov və başqaları belə hesab edirlər ki, şəxs əvəzliklərinin etimoloji əsası I şəxsdə *bi // be* və ya *mi // me*, II şəxsdə *si // se* olmuşdur [2, s.7]. Bu fikirlərlə razılaşmamaq mümkün deyil. Deməli, türk dilləri üçün I şəxsin təkini *CV [samit+sait]* şəklində bərpa etmək mümkündür: **bi*. Türk dillərində **bi* "mən" şəxs əvəzliyi ilə *bu* işarə əvəzliyinin homogenliyinə heç bir şübhəmiz yoxdur. Bu hadisə, çox güman ki, qədim söz yaradıcılığı üsulu olan fleksiyanın izləridir. *Mən* əvəzliyinin *b* anlautu bəzi türk dillərində qorunmuşdur: türk. *ben*, qaq. *bän*, türkm.dial. *ben*, Alt.dial. *bin* . Türk dillərinə qohum olan digər Altay dillərində də I şəxsin təkinin, yəni *mən* əvəzliyinin praforması mühafizə edilmişdir: mon. *bi*, manc. *bi*, ev. *bi* , ev.dial. *bī* , bury. *bi*, ş.yuq. *bu*, oyr. *bi* "mən" . Etimoloji baxımdan, *mən* əvəzliyinin *b~m* əvəzlənməsinin nəticəsi olaraq, *bi // bu* işarə əvəzliyindən yaranması fikrini yuxarıdakı faktlar da təsdiqləyir. Qədim yapon dilində **ba* kökü "mən" və "biz" anlamlarını ifadə etmişdir [24, s.342].

Qeyri-türk dillərində analoji, paralel faktları nəzərdən keçirək: bao. *be*, fin. *mi*, fran. *moi*, telu., pid. *mi* , qəd.irl. *me*, qot. *mi-k*, selk., kamas. *man*, irl. *me*, suax. *mimi*, udm. *mon*, yuk. *met* "mən", qəd.isl. *minn* "mənim". Şəxs əvəzliklərində bu tipli analogiyalar onlarladır. Nostratik aspektli araşdırmalarda həmin bənzərliklər öz əksini tapmışdır. Q.Ş.Kazımov yazır ki, "*şəxs əvəzliklərinin mi, si kökləri, demək olar ki, müasir dünya dillərində I və II şəxsi bildirən əvəzliklərin əsasında durur*" [4, s.346]. Çağdaş salar dilində I şəxsin təkinin ilkin *CV [samit+sait]* forması qorunmuşdur: *me* "mən". Həmçinin uyğur dialektlərində *me // mi* variantları var .

I şəxsin təkini ifadə edən **mi* "mən" əvəzlik kökünün müxtəlif dil ailələrində analoji formalarına nəzər salaq: Hind.-Avr.: ing. *me [mi]* "mənə", *my [may]* "mənim", rus. *мне* "mənə", *мой // моя* "mənim", ital. *me*, isp. *me* "məni", alb. *myo* "mənə", *ma* "məni", kartv.: gür. *men*, meq. *ma*, çan. *man*, svan. *mi* "mən", Ural.: qəd.perm. **mi*, est. *me*, mord. *min* , mar. *me*, vep. *mö*, mac. *mi*, xant. *ma*, udm. *mon*, saam. *mon*, mans. *em* "mən" . Ehtimal ki, mansı dilində metateza baş vermişdir. Azərbaycan dilinin dialekt və şivələrində də *bu* əvəzliyi hallanarkən *b~m* əvəzlənməsi baş verir. Tarixən *bə // bi // bu // mə // mi // mu* ("mən") allomorfları ablaut nəticəsində yaranmışdır, həmin kökdə *b~m* əvəzlənməsi isə sonradan yaranan sonor uyuşmasıdır

I şəxsin cəmini ifadə edən *biz* əvəzliyi türk dillərində aşağıdakı formalarda işlənir: tat. *bez*, xak. *pes*, çuv. *ebir*, yak. *bihiqi*, tuv. *bis*, tof. *bis*, başq. *bez*, qaq. *bis*, sal. *piser*, s.uyğ. *mis // mıs*, K.tat. *bız*, dolq. *bihiqi*, s.uyğ. *mes* "biz". *Biz* əvəzliyi qeyri-türk dillərində də fərqli fonetik variantlardadır: qəd.perm. *mi*, kom.-zır. *mi* , qəd.mon. *bid*, qəd.manc. *be*, qəd.ev. *bu*, bel. *mı*, irl. *muid*, litv. *mes*, norv. *me*, serb. *mi*, ukr. *mi*, est. *me*, ev.dial. *bu* , tunq.-manc. *bu*, mon. *ba* , kom.-perm. *mi*, udm. *mi*, mans. *man* "biz". Spesifik *b>m* keçidinə görə yuxarıdakı əvəzlik köklərinin eyniməşəli olmasına şübhə yoxdur. Monqol və tunqus-mancur dillərində, həmçinin evenk dialektlərində I şəxsin təki ilə cəminin fleksiya ilə əmələ gəlməsi faktı şəxs əvəzliklərinin etimologiyasının açılması üçün real zəmin yaradır: neq., udeq., ulç., oroç. *bi* "mən" – *bu* "biz". Həmin fakt qədim söz yaradıcılığı kimi fleksiyanın söz köklərinin morfonoloji inkişafında əhəmiyyətli rol oynadığını təsdiqləyir. F.A.Cəlilov qeyd edir ki, "*şəxs və işarə əvəzliklərinin morfonoloji rekonstruksiyası mən, biz, bu əvəzliklərinin və sən, siz, şu əvəzliklərinin eyni yuvadan törədiyini və müəyyən dövrdə ablautla fərqləndiyini göstərir"* [1, s.163].

Biz əvəzliyi etimoloji cəhətdən **bi+z* şəklində formalaşmışdır. Müqayisə edək: rus. *мы* "biz", qəd. türk.dial. *biz // mız* "biz". Deməli, *z* elementi, həqiqətən də, sonradan artırılmadır və cəmlik funksiyasını ifadə edir. Bəzi ehtimallara görə, *biz* sözü *mən* və *sən* əvəzliklərinin kontaminasiyasından yaranmışdır. Məsələn, S.Y.Malov *biz* əvəzliyinin *bi+si=biz*, yəni *mən+ sən=biz*, *siz* əvəzliyinin isə *si+si =siz*, yəni *sən+sən=siz* şəklində formalaşdığını qeyd edir [8, s.52]. A.B.Dolqopolski *biz* əvəzliyinin arxetipini nostratik dillər üçün **ma // *mi* şəklində bərpa edir [28, s.1281]. *Bən // mən* və *biz* əvəzlikləri *bu* işarə əvəzliyindən yarandığına görə *biz* əvəzliyinin praformasının **bu* şəklində bərpası daha məntiqlidir.

Bəzi ölü və müasir dillərdə *ka // ku* kökü *k // g // q // ğ* reflekslərı ilə şəxs əvəzliklərini ifadə edir: qondv. *ka* "məni, mənə", qəd.Mis. *ku* "sən", *kua* "mən" [18, s.792], s.uyğ. *kolar* "onlar", *qol // qul* "o", qəd.bask. *gu* "biz", ass. *ka* "sən" [25, c.8, s.1], şum. *qa* "mən, mənim", *qu* "mənim, mənimki", qəd.çin. *qu* "o, onlar" [23, s.435], sax. *ğu* "sən", yaz.mon. *ked* "biz" . F.A.Cəlilov yakut dilindəki spesifik *kini* "o" əvəzliyi ilə *ken-di* əvəzliklərinin kökünü **ki* morfemi ilə bağlayır [1, s.160]. Yakut dilinə yaxın olan dolqan dilində də *kini* "o" əvəzliyi işlənir. Müasir salar dilində III şəxsin təkini ifadə edən *vu* əvəzliyi *k // v* refleksinin izini yaşadır. Protonostratik dillər üçün I şəxsin təki **ma // *k^{h}a // *ha* ("mən") formalarında rekonstruksiya olunur. *H // k* refleksinə əsasən qədim yəhudi və arami dillərində işlənən *hū* "o" əvəzliyi də *ka // ku* əvəzlikləri ilə homogendir. Fikrimizcə, dünya dillərində I şəxsin təkinin və cəminin arxetipinin **ka* şəklində bərpası daha realdır, *k // b // m* reflekslərı ilə sonradan *ka // ku // ko // qa // qu, bu // bi, mi //me // mə* allomorfları yaranmış və həmin allomorflar semantik cəhətdən diferensiallaşaraq müxtəlif şəxs əvəzliklərini ifadə etmişdir.

Müasir türk dillərində II şəxsin təkini ifadə edən əvəzlik kökü aşağıdakı variantlardadır: türk. *sen*, xak. *sin*, yak. *en*, başq. *hin*, qaz., qırğ. *sen*, uyğ. *san*, s.uyğ. *sen*, lob. *sen*, tof. *sen*, tat. *sin*, Alt. *sen*, dolq. *en* "sən". *Sən* əvəzliyi qədim türk dialektlərində *sın // sen // sin* formalarında olmuş-

dur. M.Kaşğari yazır ki, "*sən əvəzliyinin sin forması gencek dilində işlənir"* [3, c.3, s.138]. Bu məlumat da göstərir ki, qədim türk dilində kök əvəzliklərdə müxtəlif dil qrupları arasında fonoloji səviyyədə fərqlər yaranmışdır. Qədim türk dilində *sen* əvəzliyinin yönlük halda *sa* variantı da işlənmişdir. Müasir danışıq dilimizdə də bu hadisə müşahidə edilir. Həmin fakt sübut edir ki, *sən* əvəzliyinin kök forması **sa // *se // *sə* olmuşdur. Adətən, II şəxsin təki türkologiyada **sı* şəklində rekonstruksiya edilir və bu əvəzliyin *şu* əvəzliyindən törəməsi ehtimal olunur. Protonostratik dillər üçün II şəxsin təki **si* bicimində bərpa edilir. Lobnor dilindəki *sele* "siz" əvəzliyinin də kökü **se*dir, yəni lobnor dilindəki *se* morfemi praformanın izidir. Çox ehtimal ki, *le* hissəsi *-lar* şəkilçisində *r* sonorunun reduksiyasının nəticəsində yaranmışdır. Soyot dilində də *siz* əvəzliyinin *siler* biçimində işlənməsi faktı həmin əvəzliyin kökünün **si* olduğunu sübut edir.

Çuvaş dilində II şəxsin təkini ifadə edən *es* əvəzliyi **se* "sən" əvəzliyinin metatezaya uğramış variantıdır. Müqayisə edək: qəd.yun.dial. *su // sü*, tunq. *si*, manc. *si* "sən", *sue*, qəd.irl. *si // sis-si* "siz". *Sən* əvəzliyinin ilkin kökü müasir salar dilində də mühafizə olunmuşdur: *se* "sən" . Bəzi dillərdə *sən* əvəzliyi *ç* anlautu ilə işlənir: yuk. *çe*, oyr. *çı*, mon. *çi* "sən" . Bir sıra dillərdə II şəxsin tək və cəmində *s // ş* refleksi müşahidə olunur: sax. *şu*, çeç. *şu* "siz", gür. *šen* "sən", bury. *şi* "sən". Analoji nümunələr göstərir ki, müxtəlifsistemli dillərdə *sa // se // sı // si // şi // şu* əvəzlik kökü I və III şəxs əvəzliklərini də ifadə edir: sax. *şi* "biz", kab. *se*, ad. *se*, ubıx. *sı*, abx., abaz. *sa* "mən" , qəd.isl. *sa* "o", alm. *sie* "o, onlar", qəd.perm. *sı* "o", qəd.Mis. *sen* "onlar, onların" [18, s.673], kom.-zır. *sı* "o" , akk. *šu // ši* "o" , fran. *soi* "onun özü, özünə", çin. *sī* "mən" [10, s.426]. Dünya dillərində II şəxsin təkini və cəmini ifadə edən **si // *sə // *se* əvəzlik kökündə *s // z* refleksi də müşahidə olunur: bask. *zu* "siz" , alm. *sie [zi]* "sən", het. *zik* "sən" [20, s.1035], şum. *za* "sən" [19, s.17]. Şumer dilindəki *za* "sən" əvəzliyi ilə türk dillərindəki **sə // *se+n* əvəzliyinin spesifik *z // s* refleksinə görə fonomorfoloji cəhətdən uyğunluğunu sübut etməyə ehtiyac yoxdur. Türk dillərinin dialektlərində də bu fonoloji proses baş vermişdir: Alt.dial. *zın* "sən". Dağıstan dillərində **sı* kökü I şəxsin təkini bildirir: adıg. *se*, abx., abaz. *sa*, ub. *sı*, çeç., inq. *so* "mən". Bəzi Dağıstan dillərində *s~z* əvəzlənməsi baş vermişdir: sax. *zı*, ud. *zu*, rut. *zı* "mən".

Hind-Avropa və slavyan dillərindəki II şəxsin təki ilə (məsələn, rus. *мы*, fars. *to*, alm. *du* "sən") türk dillərindəki **se // *si* əvəzliyindəki anlautda *d // t // s* səsləri məxrəc baxımından yaxın səslərdir və bu səslərin bir-birinə keçməsi tamamilə qanunauyğun haldır. S.A.Starostin hind-Avropa dillərindəki **tı* "sən" əvəzliyi ilə qədim monqol dilindəki **t'a, t'i* "sən" arxaizminin homogen olmasını təsdiq edir. O, Altay dilləri üçün II şəxsin təkini **t`i // \*t`a* biçimlərində bərpa edir və göstərir ki, monqol dilindəki fakt genetik bağlılığın izidir [16, s.57- 69]. Müxtəlifsistemli dillərdəki analogiyalar, tipoloji tutuşdurmalar türk dillərindəki II şəxsi ifadə edən əvəzlik kökü ilə qeyri-türk dillərindəki II şəxsi ifadə edən əvəzlik köklərinin homogen olmasını üzə çıxarır: fin. *te* "siz" , isp. *tu* "sən", mon. *ta* "siz", qəd.mon. *ti* [22, s.15], udm. *ton*, bask. *te*, birm. *tin*, çin., tam. *in* "sən", fran. *te* "sənə, səni". Ehtimal ki, çin və tamil dillərindəki sözlərdə anlautda reduksiya hadisəsi baş vermişdir. *T // s* refleksinə görə qədim Misir yazılarındakı *tuan* "sən" [18, s.824], *ten* "sən, siz" [18, s.837] əvəzlikləri ilə yuxarıda göstərdiyimiz əvəzlik kökləri, ehtimal ki, eynimənşəlidir. Buryat dilindəki *ta* "siz" əvəzlik kökü rus dilindəki *мы,* fars dilindəki *to* "sən" kökləri ilə paralellik təşkil edir.

Xalac türkcəsində II şəxsin təkini ifadə edən əvəzliklə İran və slavyan dillərindəki *to // tı* "sən" əvəzliyi homogendir: xal. *tun* "sən". Doğrudur, xalac dilindəki fakt fars dilinin substratı da hesab oluna bilər, ancaq xalac türkcəsi ən qədim türk dillərindən biridir. Ural dillərinə aid kamasin dilində *tan // tən* "sən" əvəzliyi var. Deməli, xalac dilindəki *tun* "sən" əvəzliyi hind-Avropa dillərindəki **to // *tı* "sən" əvəzliyi ilə ortaq kökə bağlıdır. Başqa bir analoji fakt müasir şira yuqur dilindədir. Monqol və uyğur dillərinin ortaq xüsusiyyətlərini yaşadan bu dildə *ta* əvəzliyi "siz" mənasındadır. Həmin söz hind-Avropa və Ural dillərində olan II şəxs əvəzliyi ilə *(*to // *tı)* türk dillərindəki II şəxs əvəzliyinin *(*sı // *se // *sı)* eynimənşəliliyini sübut edir. Analoji faktlar müxtəlif dillərdə II şəxsi ifadə edən əvəzliklərin eyni kökdən və ya eyni söz yuvasından yarandığını isbat edir. Qarşılaşdıraq: mar. *te* , mac. *ti* , udm. *ti* "siz", fin. *sin* , alb. *ti*, bol. *ti*, irl. *tu*, ital. *tu*, lat. *tu*, litv. *tu*, udm. *ton*, ukr. *ti*, est. *sa* "sən". Örnək verdiyimiz dillərdə II şəxs əvəzliyinin tək və cəminin ifadəsində *t>s* keçidi aydın şəkildə müşahidə edilir. İngilis dilindəki *you* "sən" əvəzliyi ilə türk

dillərindəki **sı* "sən" kökünün homogenliyini *su // yu* "su", *sın // yın* "bədən" sözlərinin paralel mövcudluğu sübut edir.

Çeçen dialektlərindəki *şu* "siz" əvəzlik kökünün türk dillərindəki *şu* "bu" əvəzliyi ilə oxşarlığını heç də təsadüfi qəbul etmək olmaz. Məhz bu baxımdan, dünya dillərinin homogenliyini əvəzlik köklərinin paralelliyi ilə də sübut etmək mümkündür. A.B.Dolqopolski hesab edir ki, "*türk dillərindəki siz // sən əvəzliyi nostratik dillər üçün bərpa edilən *su // *si "bu" əvəzliyi ilə genetik cəhətdən bağlıdır"*. Onun nostratik lüğətində III şəxsin təki **se* şəklində bərpa edilir [28, s.1886]. Eston dialektlərində *sia* "sən" paraleli var. Bu əvəzliklə türk dillərindəki **sə // *se* əvəzlik kökü çox uyğundur. Kartvel dillərində II şəxsin təkini ifadə edən əvəzlik kökü türk dillərindəki II şəxsi ifadə edən əvəzlik kökü ilə (*se // *si) fonetik və semantik cəhətdən çox yaxındır: meq. *si*, zan. *si*, svan. *si*, çan. *sin* "sən". Q.A.Klimov kartvel dilləri üçün II şəxsin təkinin praformasını **sen* ("sən") biçimində bərpa edir [13, s.162]. Evenk dialektlərində və dünyanın ekzotik dillərindən olan bask dilində də *s // t // h* refleksi müşahidə edilir: *hi* "sən". Hind-Avropa mənşəli runik yazılarında işlənən *sin* "sənin" əvəzliyi ilə türk dillərindəki *sən* əvəzliyi arasındakı fonoloji və semantik yaxınlıq onların mənşəyinin bir olduğunu təsdiqləyir. II şəxsin cəmi (siz) çağdaş türk dillərində aşağıdakı variantlardadır: tel. *seler* , tof. *sler*, xak. *sirer*, tat. *sez*, s.uyğ. *siler*, qırğ. *sız*, uyğ. *siler*, K.tat. *sız*, Alt. *siler*, sal. *siler // sələr // seler*. Türkologiyada *siz* əvəzliyinin arxetipi *si* şəklində bərpa edilir. Həmin əvəzlik qədim türk dialektlərində *siz // sız* formalarında işlənmişdir [12, s.128]. Uyğur, tofalar, xakas, salar dillərindəki faktlar sübut edir ki, *siz* əvəzliyinin kökü, həqiqətən, **si-* dir. Çağdaş çuvaş dilində də *siz* əvəzliyinin *siler* biçimində işlənməsi də kök morfemin arxetipinin *se // si* şəklində olma ehtimalını təsdiqləyir. Başqırd dilində söz əvvəlində *h-* laşma səciyyəvi olduğundan *siz* əvəzliyi *hez* variantındadır.

Qədim türk dilində III şəxsin təki *ol* və *an* formalarında işlənmişdir. Türk danışıq dilində III şəxsin təkini ifadə edən *o* əvəzliyinin qədim forması – *ol* variantı mühafizə edilmişdir. Həmin əvəzlik müasir başqırd dilində *ul*, qırğız dilində *al // an* variantlarındadır. Azərbaycan dilində də vaxtilə *ol* forması işlənmişdir. Əski türk yazılı qaynaqlarında III şəxsin təki, əsasən, *an* sözü ilə ifadə edilmişdir. Səciyyəvi sonor əvəzlənməsinə əsasən *ol* və *an* əvəzliklərinin mənşəyi eynidir. Bu faktı Orxon abidələrində *ol* "o" əvəzliyinin hallandıqda *an* variantına keçməsi sübut edir. Müasir qaraçay-balkar türkcəsində III şəxsin cəmini ifadə edən *ala* ("onlar") sözündə *r* reduk-siyası baş vermişdir. Müqayisə edək: Alt.dial. *anar* "onlar". Qədim hind-Avropa mənşəli runik yazılarında işlənən *hin* "o" əvəzliyinin *h* anlautunu protetik səs ehtimal etsək, onun türk dillərindəki *in // an* ("o") əvəzliyi ilə analogiyası homogenliyin sübutudur. Türk dillərindəki III şəxsin cəmini ifadə edən *onlar* əvəzliyi bəzi türk dillərində *anlar* şəklindədir. H.İ.Mirzəzadə *onlar* əvəzliyində *n* samitinin bitişdirici samit olduğunu göstərir [7, s.107]. Əslində, tarixən bu əvəzlik *ol // on // an+lar* kimi təşəkkül tapmışdır. Müqayisə edək: qəd.türk. *ol // an* "o", rus. *он* "o", *они* "onlar", fars. *an* "o", fin. *hän* "o". Q.Ş.Kazımov qeyd edir ki, "*Azərbaycan dilində olan III şəxsin cəmində cəm şəkilçisindən əvvəlki n səsi söz kökünün qədim an formasını bərpa edir, bərpaedici samitdən ibarətdir"* [5, s.139]. Bu ehtimalın doğruluğunu rus dilindəki *оно, она* əvəzliklərinin paralelliyi də təsdiq edir. Bizim fikrimizcə, *an* əvəzliyinin mənşəyi protonostratik **an* "canlı, varlıq" kökü ilə bağlıdır. Dünyanın bir çox qədim və müasir dillərində **an* kökü I şəxsi ifadə edir: qəd.çin. *anq*, mac. *en* [26, s.14], drav. *ān // yān* , qəd.yəh. *ănī* , aram. *ănā*, alb. *unë* "mən", tox. *anme* "mən, mən özüm", çin. *ăn // yan* "mən", "biz" [10, s.56], qəd.bask. *en* "mən, mənim", *ene* "mənim", het. *anz* [20, s.1004]. Qafqazın ən qədim dillərindən biri olan udin dilində isə *un* "sən" mənasındadır [6, s.213]. Bütün analoji faktlar sübut edir ki, müxtəlif dillərdə homogen əvəzlik köklərində məna fərqlərinin yaranması sonrakı prosesdir.

Nəticə: Beləliklə, bu nəticəyə gəlirik ki, əvəzliklərin müxtəlif növlərinin yaranması tarixi baxımdan sonrakı prosesdir. Dilin ilkin zamanlarında eyni əvəzlik kökləri polisintetik mahiyyətdə olmuş, şəxs, işarə və sual funksiyalarında çıxış etmişdir. Müxtəlif dillərdə eyni əvəzlik kökünün fərqli semantikalarda işlənməsi bu fikri təsdiq edir.

Ədəbiyyat siyahısı

1. Cəlilov, F.A. Azərbaycan dilinin morfonologiyası / F.A.Cəlilov. – Bakı: Maarif, – 1988. – 286 s.
2. İslamov, M.İ. Türk dillərində əvəzliklər / M.İ.İslamov. – Bakı: Elm, – 1986. – 204 s.
3. Kaşgari, M. Divanü Luğat-it Türk Tercümesi / Çeviren B.Atalay/: [4 ciltte] / M.Kaşğari. – Ankara: Türk Dil Kurumu Yayınları, – c.3. –1985. – 530 s.
4. Kazımov, Q.Ş. Qədim sanskrit, müasir türk, rus, ingilis, ərəb və fars dillərində eyniköklü sözlər // Sənət düşüncələri / Q.Ş.Kazımov. – Bakı: Dövlət Kitab Palatası, –1997. – s. 333 – 347.
5. Kazımov, Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya / Q.Ş.Kazımov. – Bakı: Elm və təhsil, – 2010. – 398 s.
6. Qukasyan, V.L. Udincə-Azərbaycanca lüğət / V.L.Qukasyan. – Bakı: Elm, – 1974. – 297 c.
7. Mirzəzadə, H.İ. Azərbaycan dilinin tarixi qrammatikası / H.İ.Mirzəzadə. – Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, –1990. – 375 s.
8. Малов, С.Е. Памятники древнетюркской письменности / С.Е.Малов. – Москва – Ленинград: Издательство Академии Наук СССР, – 1951. – 450 с.
9. Бабаев, К.В. Происхождение индоевропейских показателей лица: исторический анализ и данные внешнего сравнения / К.В.Бабаев. – Москва - Калуга: Издательство Эйдос, – 2008. – 298 с.
10. Большой китайско-русский словарь / Сост. О.В.Левина. – Москва: Дом славянской книги, – 2009. – 639 с.
11. Долгопольский, А.Б. Методы реконструкции общеиндоевропейского языка и сибироевропейская гипотеза // – Москва: Этимология, – 1964. – с.259 - 270.
12. Древние тюркские диалекты и их отражение в современных языках / Под.ред. Т.А.Бертагаева. – Фрунзе: Илим, – 1971. – 196 с.
13. Климов, Г.А. Этимологический словарь картвельских языков / Г.А.Климов. – Москва: Издательство Академии Наук СССР, –1964. – 306 с.
14. Котвич, В.Л. Исследование по алтайским языкам / В.Л.Котвич. – Москва: Издательство иностранной литературы, – 1962. – 371 с.
15. Левитская, Л.С. Историческая морфология чувашского языка / Л.С.Левитская. – Москва: Наука, – 1976. – 125 с.
16. Старостин, С.А. О доказательстве языкового родства // – Москва: Типология и теория языка (к 60-летию А.Е.Кибрика), – 1999. – с. 57-69.
17. Bomhard, A. Indo-European and the Nostratic Hypothesis / A.Bomhard. – USA: Signum Publishers, – 1996. – 265 p.
18. Budge, W. Egyptian Hieroglyphic Dictionary / W.Budge. – London, J.Murray, –1920. –1511 p.
19. Halloran, J. Sumerian Lexicon: [Electronic resource] / Version 3.0. –1999. – 159 p. // URL // https://www.sumerian.org/sumerian.pdf
20. Kloekhorst, A. Etymological Dictionary of the Hittite Inherited Lexicon / A.Kloekhorst. – Leiden - Boston: Brill, – 2008. –1162 p.
21. MacDonell, A. Sanskrit-English Dictionary / A. MacDonell. – Oxford: Printed at the Clarendon Press, – 1893. – 384 p.
22. Rajki, A. Mongolian Etymological Dictionary / A.Rajki. – Budapest: 2006. – 47 p.
23. Schuessler, A. ABC Etymological Dictionary of Old Chinese / A.Schuessler. – USA: Honolulu: University of Hawai`i Press, – 2007. – 656 p.
24. Starostin, S. An Etymological Dictionary of the Altaic Languages / S.Starostin, O.Mudrak, A.Dybo. – Leiden-Boston: Brill Academic Publishers, – 2003. – 1558 p.
25. The Assyrian Dictionary: [in 21 vol.]/ Editor-in-Charge: Martha T. Roth. – U.S.A.: Oriental Institute of the University of Chicago, –vol.8. – 1971. – 617 p.
26. Toth, A. Etymological Dictionary of Hungarian / A.Toth. – The Hague: Mikes International, – 2007. – 788 p.

27. Trask, R. Etymological Dictionary of Basque / R.Trask. – England: University of Sussex, – 2008. – 418 p.
28. Dolgopolsky, A. Nostratic Dictionary / A.Dolgopolsky. – UK: University of Cambridge, McDonald Institute for Archaeological Research, – 2008. – 3116 p.

Baba Maharramli

Homogeneous pronouns in the world's languages

Summary

Pronouns preserve traces of the most archaic layers of vocabulary in every language. Therefore, the study of the morphophonological development of pronominal roots is highly important for the investigation of ancient lexicon. The fact that pronouns belong to the most ancient group of words is proven precisely by the analogy of pronominal roots across different languages, since common root morphemes found both in related and unrelated languages constitute the earliest lexical stratum of the proto-language. The transformation of pronominal roots into one another and the change in their semantics are the result of the historical evolution and differentiation of the world's languages. The emergence of phonological and semantic differences in homogeneous pronominal roots observed in structurally diverse languages is connected with the individual development of the world's languages.

Key words: *pronoun, ancient, language, homogeneous, analogy.*

Баба Магерремли

Однородные местоимения в языках мира

Резюме

Местоимения сохраняют следы наиболее архаичного слоя лексики каждого языка. Поэтому изучение морфофонологического развития корней местоимений имеет большое значение для исследования древней лексики. Доказательством того, что местоимения относятся к числу самых древних слов, служит именно аналогия корней местоимений в различных языках, поскольку общие корневые морфемы, встречающиеся как в родственных, так и в неродственных языках, составляют древнейший лексический пласт праязыка. Трансформация местоименных корней друг в друга и изменение их семантики являются результатом исторической эволюции и дифференциации языков мира. Возникновение фонологических и семантических различий в однородных местоименных корнях, наблюдаемых в языках различных систем, связано с индивидуальным развитием языков мира.

Ключевые слова: *местоимение, древний, язык, однородный, аналогия.*

Çapa tövsiyə edən: ***Azərbaycan Memarlıq və İnşaat Universiteti***

Rəyçilər: ***fil.e.d.,dos.A.Məşədiyeva***
fil.e.d.,dos.Q.Mahmudova

UOT-811.11-112
Səhifə:20-24
https://doi.org/10.59849/2663-8967.2026.1.20

Nərmin Əliyeva
AMEA Nəsimi adına Dilçilik İnstitutu
filologiya elmləri doktoru, dosent
rajabova.narmin@gmail.com

KOMPÜTER DİSKURSUNDA İŞLƏNƏN TERMİNLƏRİN XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Məqalədə rəqəmsallaşma və texnoloji inkişafla formalaşan müasir dilin dinamik bir alt sistemi kimi kompüter diskursunda terminlərin xüsusiyyətləri araşdırılır, aktuallığı rəqəmsal rabitənin sürətli böyüməsi, kompüter vasitəçiliyi ilə qarşılıqlı əlaqənin yayılması və İT terminologiyasının gündəlik dilə artan təsiri ilə müəyyən edilir. Kompüter terminləri getdikcə peşəkar sahələrdən kənara çıxaraq, ümumi diskursun bir hissəsinə çevrildikcə sistemli linqvistik təhlil tələb olunur. Bu məqalədə məqsəd kompüter diskursunda istifadə olunan terminlərin struktur, semantik və funksional xüsusiyyətlərini müəyyən etməkdir. Tədqiqatda terminlərin əmələ gəlmə mənbələrinə, istifadə nümunələrinə və onlayn ünsiyyətdə terminlərin praqmatik rollarına diqqət yetirir. Tədqiqatın yeniliyi kompüter terminologiyasına inteqrasiya olunmuş, diskursa əsaslanan yanaşmasındadır, burada terminlər kommunikativ, idrak və sosial funksiyaları yerinə yetirən rəqəmsal diskursun aktiv vahidləri, eləcə də texniki lüğət elementləri kimi təhlil edilir. Bu, diskurs tədqiqatları, terminologiya tədqiqatları və rəqəmsal mühitlərdə dilin öyrənilməsi üçün faydalı ola bilər.

Açar sözlər: *kompüter diskursu, terminlər, rəqəmsal ünsiyyət, konseptuallaşma, vahid.*

Giriş: Rəqəmsal texnologiyaların sürətli inkişafı insan ünsiyyətini dərindən dəyişdirərək, kompüter vasitəçiliyi və ya kompüter diskursu adlanan yeni qarşılıqlı əlaqə formalarının yaranmasına səbəb olmuşdur. Bu ünsiyyət mühitində dil çox sayda ixtisaslaşmış termin yaratmaqla və daxil etməklə texnoloji reallıqlara uyğunlaşır. Əvvəlcə texniki anlayışları, prosesləri və innovasiyaları adlandırmaq üçün yaradılmış bu terminlər getdikcə peşəkar sahələrdən kənara çıxır və gündəlik ünsiyyətə inteqrasiya olunur. Nəticədə, kompüter terminologiyası bu gün yalnız texniki lüğətin alt sistemini deyil, həm də danışanların rəqəmsal reallığı necə müzakirə etdiyini formalaşdıran müasir diskursun aktiv komponentini təmsil edir. "Terminologiya elmin, texnikanın ayrılmaz hissəsidir" [1, s.263]. Elm və texnologiyanın dinamik inkişafı daim sözdə "terminoloji partlayışlar" ilə müşayiət olunur; yeni bilik sahələrinin yaranması nəticəsində yeni terminlərin sayında kəskin artımı müşahidə olunur [2].

Gündəlik ünsiyyətdə kompüter terminlərinin artan mövcudluğu rəqəmsallaşma və qloballaşmanın daha geniş proseslərini əks etdirir. Rəqəmsal platformalar, sosial media, onlayn təhsil, məsafədən iş və virtual icmalar kompüter müzakirəsini sosial həyatın adi bir hissəsinə çevirmişdir. Alqoritm, interfeys, bulud, platforma və məlumat kimi sözlər artıq mütəxəssislərlə məhdudlaşmır; onlar qeyri-mütəxəssislər tərəfindən geniş istifadə olunur, tez-tez genişləndirilmiş və ya metaforik mənalar qazanır. Bu dəyişiklik göstərir ki, kompüter terminologiyası statik deyil, ümumi dillə dinamik şəkildə qarşılıqlı təsir göstərir, leksik sistemlərə, müzakirə təcrübələrinə və ünsiyyət normalarına təsir göstərir.

A.Samariçeva "kompüter diskursu" terminini "müasir informasiya texnologiyaları ilə əlaqəli ortaq bir mövzuya malik bütün mətnlər dəsti" [7], yəni kompüterlər haqqında mətnlər kimi başa düşür və kompüter mövzularında müxtəlif növ mətnləri təhlil edir. Y.Yefremova iddia edir ki, kompüter diskursu adı altında elektron rabitə vasitələri ilə vasitəçilik edilən ünsiyyəti və ya başqa sözlə, kompüter rabitəsini başa düşməliyik, yəni kompüter diskursu internetdə şəxslərarası ünsiyyətdir [10]. Kompüter diskursu terminologiyanın real kommunikativ kontekstlərdə necə fəaliyyət göstərdiyini öyrənmək üçün məhsuldar bir sahə təmin edir. Dəqiq, sabit və kontekstdən asılı olma-

yan ənənəvi terminoloji sistemlərdən fərqli olaraq, kompüter terminləri tez-tez semantik elastiklik, polisemiya və praqmatik variasiya nümayiş etdirir. Onlar yalnız texniki məlumatları çatdırmaq üçün deyil, həm də qrup üzvlüyünü, peşəkar kimliyi və ya rəqəmsal savadlılığı göstərmək üçün xidmət edə bilər. Onlayn mühitlərdə müəyyən terminlərin istifadəsi proqramçılar, oyunçular və ya texnologiya həvəskarları kimi müəyyən icmalara mənsubiyyəti qeyd edə bilər. Beləliklə, kompüter terminləri yalnız nominativ deyil, həm də sosial və praqmatik funksiyaları yerinə yetirir.

Kompüter diskursunda terminlərin öyrənilməsinin aktuallığı ixtisaslaşmış və qeyri-ixtisaslaşmış ünsiyyət arasında artan qarşılıqlı təsirlə daha da güclənir. Bu fenomen terminologiyalaşma, alınma və semantik dəyişikliklə bağlı vacib suallar doğurur. O, həmçinin ingilis dilinin texnologiya sahəsində qlobal daşıyıcı dil kimi rolunu vurğulayır və bir çox digər dillərin leksik inkişafına təsir göstərir.

Məqalədə kompüter terminologiyasına diskurs yönümlü perspektivdən yanaşılır və terminlərə yalnız leksik vahidlər kimi deyil, həm də kommunikativ təcrübələr daxilində fəaliyyət göstərən ünsürlər kimi baxılır. Kompüter terminologiyasının diskursda necə işlədiyini anlamaq dil dəyişikliyi, rəqəmsal ünsiyyət və dil ilə texnologiya arasındakı qarşılıqlı təsir barədə daha geniş linqvistik tədqiqatlara töhfə verir. Rəqəmsal ünsiyyət genişlənməyə davam etdikcə, kompüter diskursunun öyrənilməsi müasir dil dinamikasını anlamaq üçün getdikcə daha vacib hala gəlir.

Kompüter terminologiyası texnoloji yeniliklərə, rəqəmsal transformasiyaya və kommunikasiyanın qloballaşmasına cavab olaraq sürətlə inkişaf etmişdir. Sabit elmi sahələrdə tədricən inkişaf edən bir çox ənənəvi terminoloji sistemlərdən fərqli olaraq, kompüter terminologiyası yüksək məhsuldarlıq, sürətli dəyişiklik və daim genişlənmə ilə səciyyələnir. Texnologiyalar, proqram təminatı inkişaf etdikcə və yeni rəqəmsal təcrübələr yarandıqca yeni terminlər ortaya çıxır. Buna görə də kompüter terminlərinin mənbələri müxtəlifdir, həm linqvistik, həm də ekstralinqvistik amilləri, o cümlədən innovasiya, alınma, metaforik düşüncə və söz yaradıcılığı proseslərini əks etdirir.

Kompüter terminlərinin əsas mənbələrindən biri texnoloji innovasiyanın özüdür. M.Kizilə görə [5], terminin yaradılması adi bir sözün terminin xüsusiyyətlərini əldə etdiyi bir prosesdir. S.Şelov [8] bildirir ki, termin sistemi artıq formalaşmış müəyyən bilik sferinin anlayışlar sisteminin təsnifatına əsaslanır. A.Superanskaya qeyd edir ki, termin sistemi insan fəaliyyətinin müəyyən bir sahəsinin anlayışlar sistemini adekvat şəkildə ifadə edən nizamlı terminlər toplusudur, bunların arasında məcburi və əvəzolunmaz əlaqə mövcuddur [9]. C.Pirson iddia edir ki, termin razılaşdırılmış məna verilmiş və rəsmi olaraq təsdiq edilmiş və standart olaraq dərc edilmiş bir söz və ya ifadədir [6, s.23].

Kompüter terminologiyası informasiya texnologiyaları sahəsində terminlər sistemidir. Bu termin sistemi ən gənc termin sistemlərindən biridir, çünki onun formalaşması və inkişafı informasiya texnologiyaları sahəsində sürətli innovasiya dövrü olan iyirminci əsrin sonlarında başlamışdır [3]. E.Jalenuskin və V.Siselitə [4, 122] görə, "kompüter dili" mövzu sahəsində formalaşan və texnoloji cəhətdən fərdi kompüterlərin və onların proqram təminatının istehsalı ilə əlaqəli olan xüsusi bir dildir. Hər bir yeni cihaz, sistem və ya proses adlandırma tələb edir, bu da yeni leksik vahidlərin yaranmasına gətirib çıxarır. *Brauzer, anakart, proqram təminatı, verilənlər bazası* və *şifrələmə* kimi terminlər yeni hazırlanmış konsepsiyalar üçün texniki etiketlər kimi yaranmışdır. Bir çox hallarda mühəndislər və tərtibatçılar innovasiyanın erkən mərhələlərində qeyri-rəsmi olaraq terminlər yaradırlar və bu etiketlər sonradan peşəkar icmalarda standartlaşır. Texnoloji tərəqqi ilə terminologiyanın formalaşması arasındakı bu sıx əlaqə kompüter lüğətini xüsusilə dinamik edir.

Digər əsas mənbə informasiya texnologiyalarının qlobal lingua franca kimi fəaliyyət göstərən ingilis dilindən alınmalardır. Dünyada proqram təminatının hazırlanması, proqramlaşdırma sənədləri və rəqəmsal infrastrukturunun əksəriyyəti ingilisdilli kontekstlərdə yarandığı üçün ingilis terminləri tez-tez digər dillərdə də mənimsənilir. *Server, giriş, fayl, onlayn* kimi sözlər beynəlxalq səviyyədə, bəzən minimal uyğunlaşma ilə istifadə olunur. Alınma, xüsusən də peşəkar ünsiyyətdə dəqiqliyi və qlobal uyğunluğu təmin etdiyi üçün baş verir. Lakin alınma terminlər alıcı dilinə uyğunlaşmaq üçün fonetik, morfoloji və ya semantik uyğunlaşmaya məruz qala bilər.

Neologizmlərin yaradılması kompüter terminlərinin əhəmiyyətli bir mənbəyidir. "Neologizmlər nitqin paralinqvistik elementlərinin ifadəsinə yönəlmiş qeyri-verbal işarələrlə yanaşı, bu

dilin spesifik rəmzlərini təmsil edir" [13]. Neologizmlər mövcud lüğət yeni rəqəmsal hadisələri təsvir etmək üçün kifayət etmədikdə yaranır. "İnternet neologizmlərinin məşhurluğu daha açıq, tolerant və innovativ düşüncə tərzinə malik olan və beləliklə, öz şəxsiyyətlərini və münasibətlərini nümayiş etdirən müasir sosial qrupların dil innovasiyası və dil fərdiləşdirməsinə can atmasını əks etdirir" [11]. Bu yeni sözlər tez-tez süni intellekt, kibertəhlükəsizlik elm kimi sürətlə inkişaf edən sahələrdə ortaya çıxır. *Kriptovalyuta, blokçeyn, fişinq* və *metavers* kimi terminlər dilin texnoloji reallıqlara uyğunlaşmaq üçün necə genişləndiyini göstərir. Bəzi neologizmlər ixtisaslaşmış olaraq qalır, digərləri isə gündəlik həyatın bir hissəsinə çevrilərək ümumi lüğətə daxil olur.

Kompüter terminologiyasının xüsusilə məhsuldar mənbəyi metaforlaşmadır. Bir çox kompüter terminləri gündəlik sahələrdən metaforik genişlənməyə əsaslanır. Məsələn, *bulud, virus, pəncərə* və *desktop* kimi sözlər fiziki və ya təbii anlayışlardan yaranır, lakin rəqəmsal kontekstlərə tətbiq olunur. Metaforlar istifadəçilərə mücərrəd texnoloji prosesləri tanış terminlərlə konsepsiyalaşdırmağa kömək edir və mürəkkəb sistemlərin başa düşülməsini asanlaşdırır.

Sözyaratma prosesləri, məsələn, mürəkkəbləşmə, qarışdırma və ixtisarlar kompüter terminologiyasına daha çox töhfə verir. Ana səhifə və noutbuk kimi birləşmələr, blog (veb + log) kimi sözlər, URL, CPU və Aİ kimi qısaltmalar texniki ünsiyyətə xas olan linqvistik iqtisadiyyatı nümayiş etdirir. Bu formalar mürəkkəb anlayışların qısa və səmərəli şəkildə ifadə olunmasına imkan verir, bu da sürətli rəqəmsal mühitlərdə vacibdir. Kompüter terminləri proqramçılar, oyunçular və onlayn icmalar da daxil olmaqla peşəkar və istifadəçi icmalarından yarana bilər. Bu qruplar daxilində inkişaf etdirilən jarqon bəzən geniş qəbul edilmiş terminologiyaya çevrilir. *Baq, pətç, laq* və *spam* kimi terminlər icma istifadəsinin texniki lüğətin təkamülünə necə təsir etdiyini göstərir. "Yeni hazırlanmış terminlərin mənşəyini və təsirlərini anlamaq daha geniş sosial-iqtisadi inkişaflara dair məlumat verir və dil, texnologiya və insan davranışı arasındakı qarşılıqlı əlaqəni araşdırmaq üçün bir prizma təqdim edir" [12]. Kompüter terminologiyası texniki ünsiyyətdə dəqiqlik, qısalıq və səmərəlilik ehtiyacını əks etdirən müxtəlif struktur tiplərini nümayiş etdirir. Struktur olaraq, kompüter terminləri sadə və mürəkkəb terminlərə, ixtisarlar və abreviaturlara, çoxmənalı terminoloji vahidlərə təsnif edilə bilər. Hər bir növ kompüter diskursu daxilində müəyyən kommunikativ məqsədlərə xidmət edir.

Sadə terminlər tək bir leksik vahiddən ibarətdir və çox vaxt təməl anlayışları təmsil edir. Nümunələrə fayl, kod, data və çip daxildir. Bu terminlər, adətən, qısa, çox işləkdir və kompüter diskursunun əsas lüğətini təşkil edir. Onların sadəliyi həm peşəkar, həm də gündəlik ünsiyyətə asanlıqla inteqrasiya olunmağa imkan verir. Mürəkkəb terminlər daha spesifik mənaları ifadə etmək üçün iki və ya daha çox leksik əsasın birləşdirilməsi ilə əmələ gəlir. Proqram təminatı, verilənlər bazası, ana səhifə kimi nümunələr mürəkkəbləşmənin semantik dəqiqliyi necə artırdığını göstərir. Mürəkkəb terminlər texniki sahələrdə xüsusilə məhsuldardır, çünki onlar tamamilə yeni söz formaları olmadan yeni terminlərin yaradılmasına imkan verir. Qısaltmalar və abreviaturlar kompüter diskursunda linqvistik qənaət tələbat səbəbindən olduqca yaygındır. CPU (Mərkəzi Emal Vahidi), URL (Vahid Resurs Yerləşdiricisi), Aİ (Süni İntellekt) və RAM (Təsadüfi Giriş Yaddaşı) kimi qısaltmalar mütəxəssislər arasında səmərəli ünsiyyətə imkan verir. Bir çox qısaltmalar leksikləşir və müstəqil sözlər kimi istifadə olunur.

Kompüter terminləri əsas nominativ rolundan kənarda diskursda bir neçə vacib funksiya yerinə yetirir. Birincisi, onlar texnoloji prosesləri, alətləri və rəqəmsal mühitləri təsvir edərkən dəqiqliyi və aydınlığı təmin edərək informasiya funksiyasına xidmət edir. Dəqiq terminologiya danışanlara mürəkkəb fikirləri səmərəli şəkildə çatdırmağa və qeyri-müəyyənlikdən uzaqlaşmağa imkan verir. İkincisi, kompüter terminləri ünsiyyətin qənaətliliyinə töhfə verir. Qısaltmalar, abreviaturlar və ixtisaslaşmış lüğət qısa ifadəni təmin edir, bu da xüsusilə söhbətlər, forumlar və peşəkar mübadilələr kimi sürətli rəqəmsal qarşılıqlı əlaqədə dəyərlidir. Üçüncüsü, onlar sosial və kimliyin təyini funksiyasını oynayır. Xüsusi texniki terminlərin istifadəsi təcrübə, rəqəmsal savadlılıq, peşəkar və ya onlayn icmalara üzvlüyü göstərə bilər. Məsələn, proqramçılar, oyunçular və ya İT mütəxəssisləri tez-tez qrupdaxili mənsubiyyəti qeyd edən terminologiyadan istifadə edir. Nəhayət, kompüter terminləri idrak funksiyasına malikdir və danışanlara rəqəmsal reallığı konsepsiyalaşdır-

mağa və texnologiya haqqında bilikləri strukturlaşdırmağa kömək edir. Beləliklə, kompüter terminologiyası yalnız təsviri deyil, həm də sosial və idrak baxımından diskursda mənalıdır.

Nəticə: Kompüter diskursunda istifadə olunan terminlərin təhlili göstərir ki, kompüter terminologiyası müasir dilin dinamik və çoxfunksiyalı bir komponentidir. Bu, rəqəmsal texnologiyaların sürətli inkişafını və virtual ünsiyyətin gündəlik həyata artan inteqrasiyasını əks etdirir. Kompüter terminləri artıq yalnız ixtisaslaşmış peşəkar sahələrdə fəaliyyət göstərmir; onlar ümumi diskursda fəal şəkildə dövr edir və danışanların rəqəmsal reallığı necə təsvir etdiyini, şərh etdiyini və konsepsiyalaşdırdığını formalaşdırır.

Tədqiqat göstərir ki, kompüter terminləri texnoloji innovasiya, əsasən, ingilis dilindən götürülmüş yeniləşdirmə, metaforik köçürmə və məhsuldar söz yaradıcılığı prosesləri daxil olmaqla bir çox mənbədən qaynaqlanır. Struktur olaraq, onlar sadə və mürəkkəb sözlər, qısaltmalar və abreviaturlar, qarışıqlar və çoxmənalı vahidlər kimi müxtəlif formalarda ortaya çıxır, bunların hamısı dil qənaətinə və dəqiqliyinə töhfə verir. Funksional olaraq, kompüter terminləri informasiya, praqmatik, sosial və idrak rollarını yerinə yetirir. Onlar texniki ünsiyyətdə aydınlığı təmin edir, səmərəli qarşılıqlı əlaqəni və təcrübəni asanlaşdırır, yeni texnoloji hadisələrin konseptuallaşmasını dəstəkləyir. Onların gündəlik ünsiyyətdə mövcudluğu ixtisaslaşmış və ümumi dil arasında davam edən qarşılıqlı təsiri göstərir. Ümumilikdə, kompüter terminologiyası dilin texnoloji və sosial dəyişikliklərə necə uyğunlaşdığını önə çəkir. Onun tədqiqi diskurs, terminoloji təhlilə və rəqəmsal dilçiliyə töhfə verir, dilin inkişafı ilə rəqəmsal transformasiya arasındakı sıx əlaqəni vurğulayır.

Ədəbiyyat siyahısı

1. Sadıqova S. Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı. Bakı, "Elm", 2005.
2. Aitchison, J. Language change: Progress or decay? Cambridge University Press. 2001
3. Bogachyk, M., Bihunov, D. The structural-semantic features of computer terms in English. Cognitive Studies Études cognitives, 2020 (20), Article 2262 - https://www.researchgate.net/publication/347894007_The_Structural-Semantic_Features_of_Computer_Terms_in_English.
4. Jaleniauskiene, E., Čičelyte, V. Insight into the latest computer and Internet terminology. Studies about Languages, 2011 (19), 120-127.
5. Kizil M.A. Semantychni aspekty mihratsiï odynyts metaterminosystemy sfery kompiuternykhtekhnolohiĭ anhliĭskoï movy. Naukovyĭ visnyk Mizhnarodnoho humanitarnoho universytetu. Seriia: Fi-lolohiia, 2015, 15 (2), 54-56
6. Pearson, J. Terms in context. John Benjamin's Publishing Company. 1998, https://doi.org/10.1075/scl.1
7. Samaricheva, A.I. 2001. Influence of the English language on German computer discourse. Language, communication and social environment, 1, p.71-74
8. Shelov, S. D. Teoriia terminovedeniia i terminologicheskaia leksikografiia: Sootnoshenie v terminologicheskoĭ baze znaniĭ. Scripta lingvisticae applicatae / Problemy prikladnoĭ lingvistiki, 2004 (2), 20-42
9. Superanskaia, A. V. Obshchaia terminologiia: Voprosy teoriii. Nauka.1999.
10. Yefremova, Y.Y. Specific features of computer discourse. 2016. URL: https://www.hse.ru.
11. Wang H.Y. A Study of Internet Neologisms. Hubei Normal University Press, China, 2013
12. https://www.researchgate.net/publication/378892142_EVOLUTION_OF_COMPUTER_LEXIS_A_LOOK_AT_NEOLOGISMS_2019-2023
13. https://scispace.com/pdf/neologism-of-internet-english-sociolinguistic-aspects-of-lqat50qsoz.pdf

Narmin Aliyeva

The features of terms used in computer discourse

Summary

This article examines how terms function in computer discourse as a dynamic subsystem of modern language, shaped by digitalisation and technological development. The relevance of this study is determined by the rapid growth of digital communication, the prevalence of computer-mediated interaction, and the increasing impact of IT terminology on everyday language. As computer terms increasingly move beyond professional spheres to become part of common discourse, systematic linguistic analysis is required. This article aims to identify the structural, semantic and functional features of terms used in computer discourse, and determine how they operate in various communicative contexts. The study focuses on the sources of term formation, usage patterns, and the pragmatic roles of terms in online communication. The research's novelty lies in its integrated, discourse-based approach to computer terminology, whereby terms are analysed as active units of digital discourse performing communicative, cognitive and social functions, as well as elements of technical vocabulary. The article demonstrates how computer terms contribute to identity construction, economy of expression and the conceptualisation of the digital realm. These findings could be useful for discourse studies, terminology research and the study of language in digital environments.

Keywords: *computer discourse, terms, digital communication, conceptualization, unit.*

Нармин Алиева

Особенности терминов, используемые в компьютерном дискурсе

Резюме

В данной статье рассматривается функционирование терминов в компьютерном дискурсе как динамической подсистемы современного языка, формируемой цифровизацией и технологическим развитием. Актуальность исследования обусловлена быстрым ростом цифровой коммуникации, распространенностью компьютерно-опосредованного взаимодействия и растущим влиянием ИТ-терминологии на повседневный язык. Поскольку компьютерные термины все чаще выходят за рамки профессиональной сферы и становятся частью обыденного дискурса, необходим систематический лингвистический анализ. Цель данной статьи – выявить структурные, семантические и функциональные особенности терминов, используемых в компьютерном дискурсе, и определить, как они функционируют в различных коммуникативных контекстах. Исследование фокусируется на источниках терминообразования, моделях использования и прагматической роли терминов в онлайн-коммуникации. Новизна исследования заключается в его интегрированном, дискурсивном подходе к компьютерной терминологии, в рамках которого термины анализируются как активные единицы цифрового дискурса, выполняющие коммуникативные, когнитивные и социальные функции, а также как элементы технической лексики. В статье показано, как компьютерные термины способствуют формированию идентичности, экономии выражения и концептуализации цифрового пространства. Полученные результаты могут быть полезны для исследований дискурса, терминологии и изучения языка в цифровой среде.

Ключевые слова: *компьютерный дискурс, термины, цифровая коммуникация, концептуализация, модуль*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***prof.M.Ə.Mahmudov***
fil.ü.e.d.,dos.K.Vəliyeva

UOT-811.11-112
Səhifə: 25-29
https://doi.org/10.59849/2663-8967.2026.1.25

Lalə Qurbanova
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
filologiya elmləri doktoru, dosent
lala.qedirova@mail.ru

İNGİLİS DİLİNDƏ SÖZ VƏ TERMİNLƏRİN ALINMA PROSESİ

XÜLASƏ

İngilis dilində alınmaların tarixi və nəzəri aspektləri müxtəlif mərhələlərdən keçərək inkişaf etmişdir. Hər bir dildə olduğu kimi ingilis dilinin leksik sisteminə müxtəlif dillərdən yeni söz-terminlərin gəlməsində müxtəlif amillərin təsiri olmuşdur. Alınma sözlərin cəmiyyətin müxtəlif sahələrinə nüfuz edir və bu proses sosio-linqvokulturologiya ilə bağlıdır. Ümumiyyətlə, dilə yeni söz və terminlərin gəlməsi sosioloji baxımdan daima aktiv proses olub və dillərarası əlaqə bu prosesin inkişafının dinamikasını daha da artırır. Alınmaların dilə keçməsində rol oynayan bir çox sosial faktorlarla bərabər müxtəlif linqvistik amillər də təsir edir. Alınma söz və terminlər dilə ya şəxsi maraq olaraq yersiz gətirilir, ya da ehtiyacdan gəlir. Qloballaşan dünyada insan faktorunun dünyəvi inkişafının xüsusi mərhələsi kimi ingilis dilində alınmaların statistik hesablamasının aparılmasında korpus dilçiliyindən istifadə edilir. Alınmalar keçdiyi dilin xüsusiyyətlərinə formal və funksional olaraq uyğunlaşır. Alınma söz və terminlər keçdiyi dilin morfoloji, fonetik və leksik-semantik səviyyələrinə uyğunlaşaraq işlədilir.

Açar sözlər: *şəxsi alınmalar, dillərarası əlaqə, linqvokultrologiya, nisbi alınmalar, hibrid alınmalar.*

Giriş: Dildə yeni söz alınma prosesi intralinqvistik (dildaxili) və ekstralinqvistik (dilxarici) amillərin təsiri nəticəsində dillərarası uzunmüddətli əlaqələr nəticəsində baş verir.

"Dillərarası əlaqə müəyyən bir zaman ərzində dillərin bir-birinə təsir etməsinə şərait yardır və bu təsirin nəticəsində bir dildən digər dilə sözlər keçir. Tarixi boyu ingilis dilinə qədim nors, fransız, latın, hətta müstəmləkə dillərdən sözlər keçmişdir. İngilis dili kimi bir dilin digər dillərdən söz götürməsinin səbəbləri çoxşaxəlidir" [2].

İngilis dilində alınmaların statistik hesablamaları hər zaman aktual olaraq qalır, çünki bu dilə dünyanın bir çox dillərindən (latın, fransız, alman, italyan, ispan, holland, skandinaviya, yapon, ərəb, portuqal, sanskrit, rus, maori, hind, ivrit, fars, malay, urdu, irlandiya, afrikaans, yidiş, çin, türk, norveç və s.) sözlər keçməkdədir. Dillərin leksik sistemində müxtəlif dillərdən gələn sözlərin tezliyini və nisbətini müəyyən etmək üçün korpus dilçiliyinin metodlarından və üsullarından istifadə olunur. Burada əsas olaraq sözün işlənmə tezliyinin təhlili (mətn daxilində müxtəlif dillərdən alınan sözlərin necə işlənməsini və yayılmasını hesablayır) və reqressiya üsulundan (bir və ya bir neçə asılı olmayan dəyişənin digər asılı dəyişənə təsirinin statistik analiz üsulu) istifadə olunaraq statistik hesablama aparılır, ancaq bu cür statistik hesablamalarda da ehtiyatlı olmaq lazımdır. Çünki, dilin leksik sistemi daima dəyişir və bu dəyişmələr alınmaların dildə hesab nisbətinə birbaşa təsir edir. Korpus dilçiliyi mətndə sözlərin və onların mənşəyi haqqında elektron olaraq məlumatlar toplayır və onları təhlil edən əsas üsullardan biridir. Alınmaların dildə bu cür hesablama apararaq təhlil edilməsi yeni və dəqiq konsepsiyaları da tənzimləyir.

"Korpus dilçiliyi, alınma sözlərin inteqrasiyasını müəyyən etmək, ölçmək və araşdırmaq üçün böyük, orijinal məlumat korporasiyalarından istifadə etməklə leksik alınmaları təhlil etmək üçün empirik, məlumatlara əsaslanan metodlar təqdim edir. Bu, metodlar tədqiqatçılara alınma sözlərin tezliyini, kontekstdən asılılığını və struktur uyğunlaşmasını izləməyə, danışıq və ya yazılı dildə istifadədə dil təmasını öyrənməyə imkan verir" [9].

Linqvistik-leksik və sosial faktorlar dilə yeni sözlərin gəlməsində böyük rol oynayır. Zaman keçdikcə müxtəlifsistemli dillərarası əlaqələrin genişlənməsi dillərin müxtəlif aspektlərdən bir-birinə təsir etməsinə də şərait yaratdı. Dillərarası əlaqə söz alma dinamikasını sürətləndirir və yeni sözün işlənmə sferasının genişlənməsinə şərait yaradır.

Sevinc Şükürlü qeyd edir ki, "Alınma sözlər dillərarası mədəni əlaqələri, tarixi hadisələri və qarşılıqlı sosial əlaqələri özündə əks etdirir və beləliklə, dilin dinamik təkamülünə töhfə verir"[5].

Yeni sözün yaranması bir tərəfdən dünyada baş verən elmi-tərəqqini əks etdirir. Dildə yaranan hər bir yeni söz mənsub olduğu cəmiyyətdən xəbər verir və onun ictimai-mədəni, sosial-siyasi vəziyyətini tanıdır. İngilis dilinə yeni sözlərin keçməsi müxtəlif dövrlərə təsadüf edir. Bunlardan əsası sosial-mədəni əlaqələrin yarandığı dövrə təsadüf edir. Xüsusilə, sıx mədəni əlaqələrin olduğu zamanlarda dildən dilə yeni sözlərin keçməsi prosesi kəskin şəkildə artmışdır. Məsələn, eramızdan əvvəl 8-ci əsrdə Normanların ingilis dilinə təsir etməsi ilə bağlı bu dildən ingilis dilinə çoxlu sözlər keçmişdir. Bundan başqa orta əsrlərdə Ərəbistanda baş verən elmi inkişaf nəticəsində də ingilis dilinə yeni sözlər keçmişdir. İngilis dilinə latın mənşəli sözlərin keçməsi İngiltərə tarixində baş verən üç hadisə – Roma hakimiyyəti, İngiltərəyə xristianlığın yeridilməsi və intibah dövrünün mədəni inkişafı ilə bağlıdır. İngilis dilinə fransız dilinin təsiri isə fransız hökmranlığı dövründə başlamışdır, o zaman ingilis dili inkişaf etməmişdir, buna görə də o dövrdə fransız dili uzun müddət İngiltərənin rəsmi dili sayılırdı və ölkə ikidilli kimi qeyd edilirdi. Norman hökmranlığı dövründə fransız dili insanların danışdığı ingilis dilinə böyük təsir göstərirdi və fransızlar qədim ingilis dilindən sözlər götürərək danışmağa başladılar, bu orta ingilis dili dövrünə təsadüf edilir. İngilis dilindən götürülən sözlərdən istifadə edən normanlar zaman keçdikdən sonra əsl fransız dilində danışa bilmədilər, çünki onların nitqi fransız və orta ingilis dilində olan sözlərin qarışığından ibarət idi. İngilis dili bu dövrdən inkişaf etməyə və ingilis sözləri fransız sözlərini dildən sıxışdıraraq çıxarmağa başladı.

Belə ki, alimlər alınmaları sistemli şəkildə təhlil edərkən, bu dil hadisəsini təkcə leksik səviyyədə deyil, həm də söz yaradıcılığı səviyyəsində özünəməxsus şəkildə daha çox özünü büruzə verdiyini və dildə söz yaradıcılığını linqvokulturologiya ilə bağlı olduğunu deyirlər.

Yeni sözün alınması digər tərəfdən də həmin cəmiyyətin inkişafını göstərir ki, yeni sözlər həmin dildən götürülür və o sözə ehtiyac olan dilə keçir. Tarixi keçmiş göstərir ki, ingilis dili qədim fransız, yunan, ərəb, rus, latın və s. kimi bir çox müxtəlif dillərdən söz və terminlər almışdır. Məsələn,

Latın mənşəli: abdomen, anatomy, area, capsule, compensate, expensive, fictitious, gradual, habitual, meditate, notorious, orbit, peninsula, physician, ultimate, vindicate;

Fransız mənşəli sözlər: apostrophe, baguette, ballet, cabaret, chic, déjàvu, delegate, eau de toilette, elite, energy, gallery, gastronomy, liaison, literature, machine, magnificent, massage, menu;

Ərəb mənşəli: emir, jakir, gazelle, harem, mosque, myrrh, salaam, sultan, vizier, bazaar, caravan;

Rus dilindən keçən sözlər: apparatchik, borscht, perestroika, vodka.

Ümumiyyətlə, dildə alınmaların əsas səbəblərindən biri də həmin dildə olmayan hər hansı bir şeyi adlandırmaq üçün söz və ya termin olmamasından irəli gəlmişdir. Bu proses termin-söz almada asan üsullardan biridir, çünki yeni sözə ehtiyac olan zaman dilin söz bazasından yeni sözün götürülməsi çox nadir hallarda baş verir.

Alınmaların dilə gəlməsinin digər səbəblərindən biri də xarici ədəbiyyatların tərcüməsi zamanı işlədilən xarici sözlərin dilə gəlməsi və onun cəmiyyətdə işlədilməsi ilə baş verir. Ancaq xarici ədəbiyyatların tərcüməsində çox zaman dil qaydalarının pozulması baş verir. Belə sözlərin dildə işlənməsi keçdiyi dilin leksik sistemini pozur və dilin özünə aid olan sözləri vurub sıradan çıxarır. Alınan yeni söz yeni leksik sistemin elementinə çevrilərək, həm fonetik (tələffüz) həm də leksik səviyyədə özünü göstərir.

"Alınma sözlər müxtəlif semantik kateqoriyalara bölünür və bu sözlər alınan dilin fonoloji sisteminə uyğunlaşır. Alınmalar barədə tədqiqatlardan aydın olur ki, alınma sözlərin fonoloji inteqrasiyasına morfoloji, sintaktik və ya semantik inteqrasiyadan daha çox diqqət yetirilmişdir"[3].

Alınmaların keçdiyi dildə mənimsənilməsi o qədər də asan olmur. Keçən əsrin ikinci yarısından başlayaraq alınmalar psixolinqvistik və koqnitivlik baxımdan öyrənilməyə başlanıldı. Burada əsasən məqsəd kimi ikinci dildən alınan sözlərin nitqdə istifadə edilməsi və onların qavranılmasının tədqiqi məsələləri nəzərdə tutulurdusa, digər tərəfdən isə yeni sözlərin mental proseslərlə əlaqəsi və emalı məsələsi araşdırılmağa başlanıldı.

V.D.Arakin alınma sözlərin mənimsənilməsini belə izah edir: "Alınmalar dilin fonetik, qrafik, morfoloji qanunlarına və onun semantik sisteminə qismən və ya tam uyğunlaşmasıdır" [7, c.259].

"Terminologiya sahəsində ortaya çıxan nəzəriyyələr təsviri xarakter daşıyır, terminlərin sosial, kommunikativ və koqnitiv aspektlərinə diqqət yetirilməsi məsələnin koqnitiv əsasları olduğunu təsdiqləyir. Ümumiyyətlə, yeni yaranan nəzəriyyələr və elmi anlayışların işarəsi olan terminlər terminologiya sahəsində idrak dəyişikliyi məsələsini ortaya qoyur"[1].

Alınmalar keçdiyi dilin leksik vahidlərinə yeni sinonim söz kimi də işlənə bilir və belə ki, alınma sözlər baza dildən əlavə xüsusiyyətlər qazana bilir. Yeni sözün dilə gəlməsi bir neçə dil prosesindən-transkripsiya, transliterasiya və kalka üsullardan keçərək qəbul edilir. Transkripsiya fonetik üsul olub sözün başqa dilə keçdiyi zamanı səs formasının qorunub saxlandığı bir prosesdir və bəzən söz keçdiyi dilin fonem sisteminə uyğun olaraq dəyişir. Transliterasiya isə fonetik üsul olub yeni sözün keçdiyi dilin fonetik və qrafem qaydalarına uyğun olaraq dəyişir. Kalka üsulu sözün və ya ifadənin assosiativ mənasının və struktur modelinin qəbul edildiyi söz alma üsuludur.

S.V. Grinev [8] alınmaları bir neçə növə bölür, onlardan birincisi baza dildə olduğu kimi alınan sözlər – bura leksik alınmalar, formal alınmalar və morfoloji yolla düzələn alınmalar aid edir. İkinci isə kalka yolu ilə alınan sözlər – buraya yeni sözün yaranması, frazeoloji birləşmə və semantik yolla yaranan alınmalar aiddir. Üçüncü isə qarışıq alınmalardır, bura hibrid (qarışıq) və yarı alınmalar aiddir ki, alınan leksemlərin bir hissəsinin alındığı, digər hissəsinin isə tərcümə edildiyi qeyd edilir.

İngilis dilində yeni sözlərin yaranması müxtəlif dillərdən çoxlu sayda affikslər alınmaqla da yaranır. İngilis dilində çoxlu sayda müxtəlif dillərdən alınan affiksləri də vardır. Məsələn, latın və fransız mənşəli affikslər -anti, -re, -pro, -counter, -ism, -age, -able, -ous, -fy, -ize və s. –ism-journalism, professionalism, humanitarianism, activism, idealism, and romanticism; -ize-actualize, categorize, characterize, civilize və s.

N.N. Amasova deyir: "Alınmaları tam mənimsənilmiş, ixtisaslaşmış sahələrdə istifadə olunan, dilin öz keçmiş bazası hesabına yaranan yeni sözlərdir" və o, digər tərəfdən də alınmaları "başqa dildə olduğu kimi qəbul edilən sözlər, alınma morfemlərlə düzələn sözlər, kalka yolu ilə keçən və "nisbi alınmalara" və dilin inkişafı zamanı mənbə dildəki semantik əlaqəsini itirmiş alınmalara bölür [6, s. 68].

Yeni söz və terminlərin bir dildən digər dilə keçməsinin əsas səbəblərdən biri də iki və ya çox dil öyrənən insanların dilə yerli-yersiz xarici sözlərin gətirməsi ilə bağlıdır. Bu o deməkdir ki, bir şəxs öz ana dilinə öyrəndiyi xarici dildən yeni sözlər gətirir və ondan asılı olmayaraq xarici sözləri nitqində işlədərək istər istəməz cəmiyyətdə yayılaraq işlənməsinə səbəb olur. Bu kimi dilə gələn yeni sözlər hər kəs tərəfindən eyni dərk edilmir və asan mənimsənilmir. Buna görə də dilə gələn belə yeni sözlər işlənmə tezliyi o qədər də yüksək olmur və belə yeni sözlər şəxsi maraq daşıdığı üçün tez unudulur.

Ümumiyyətlə, ingilis dilində yeni sözlərin alınması və onların işlənməsi hər kəs tərəfindən eyni qəbul edilmir və alınmaların çoxunun mənası çox vaxt orta səviyyədə ingilis dilində danışan insanlar üçün birbaşa aydın olmur. Buna görə də, alınma sözlər barədə fikirlər hər zaman mübahisəli olaraq qalmaqdadır. Alınmaların mübahisəli olmasının daha bir səbəbi onların kontekstdə hansı mənada işlədilməsindən ibarətdir. Yeni sözlər bəzən kontekstdən asılı olaraq müxtəlif mənalarda işlənir.

Alınmaların ən bariz səbəblərdən biri dildə olmayan, yeni anlayışları adlandırmaq üçün alınan sözlərdir. Bu proses dil tarixinin inkişafı boyu özünü göstərmişdir və yeni sözlər bir dildən digər dilə tələb nəticəsində keçmişdir. Dilin tarixi göstərir ki, dünya tarixində elmi-tərəqqi hansı

dövlətlərdə daha çox inkişaf etmişsə, o dövlətin dilində yaranan yeni sözlər daha çox yayılmağa başlamışdır. Alınmalar dilə iki yolla, ya bir başa ya da başqa dillərin vasitəsilə keçir.

"Alınmalardan danışarkən birbaşa alınma ilə dolayı alınmanı bir-birindən ayırd etmək lazımdır. Əgər bir dil bir sözü birbaşa başqa bir dildən götürürsə buna birbaşa alınma deyilir, fransız dilindən *omelette-omlet* sözü ingilis dilinə bir başa keçmişdir. Lakin, bir söz bir dildən digərinə və sonra başqa dilə keçirsə buna doloyı yolla alınma deyilir, məsələn, e.g. *kahveh (Turkish)>kahva (Arabic)>koffie>(Dutch)>coffee (English)-kahveh (Türkcə)>kahva (Ərəbcə)>koffie> (Hollandca)>qəhvə (İngiliscə)* kimi dolayı yolla ötürülə bilər" [4].

Belə ki, alınmalar dolayı yolla bir dildən digər dilə keçdikdə söz keçdiyi birinci dilin dil qaydalarına uyğun dəyişərək ikinci dilə keçir və alınan söz keçdiyi ikinci dildə yenidən dəyişməyə məruz qalır, bu da ikili alınma adlanır. Dildən dilə bu proseslə keçən sözlər birbaşa keçən sözlərə nisbətən daha çətin anlaşılır.

Nəticə: İngilis dilində alınmaların bir dildən digər dilə keçməsi linqvistik faktorla bərabər sosial faktorlarla da sıx bağlıdır. Dildə alınmaların statistik-riyazi hesablamada korpus dilçiliyinin üsul və metodlardan istifadə edərək dəqiq nəticə əldə edilə bilər. Ancaq, qeyd etmək lazımdır ki, alınmaların dildə hesab nisbəti daima dəyişir, çünki beynəlxalq əlaqələr inkişaf etdikcə dildə işlədilən yeni sözlərin kəmiyyət və dəyişmə nisbiliyi də artır. Linqvistik olaraq dilə gələn yeni sözlər fonetik, morfoloji və semantik xüsusiyyətləri ya keçdiyi dildə olduğu kimi işlənir ya da keçdiyi dilin qaydalarına uyğun olaraq dəyişilərək istifadə edilir. Dilin leksik sisteminə yeni sözlər keçərək bəzən sinonimlik yaratsa da zaman keçdikdən sonra alınan yeni söz ya leksik sistemdən çıxarılır ya da sinonimlik aradan qaldırılaraq dilin leksik fonuna yerləşərək alınma söz kimi işlədilir.

Ədəbiyyat siyahısı

1. Lalə Qurbanova Terminlərin mətndaxili koqnitiv xüsusiyyətləri. file:/// C:/Users/User/Downloads/term2024_1_27%20(9).pdf
2. Eva Maria Nunneman Borrowing in the English Language https://ru.scribd.com/document/686775576/Lecture-7.
3. Jeanine Treffers Daller Borrowing. https:// centaur. reading.ac.uk /20665/1/Borrowing_final.pdf
4. Katamba Francis English Words. https://pasca.uns.ac.id/s3linguistik/wpcontent/uploads/sites/44/2016/10/Francis_Katamba_English_Words.pdf
5. Sevinj Shukurlu The Role of Borrowed Words in the Development of the English. https: // www.ssoar. info/ssoar/bitstream/handle/document/102639/ssoarpos-2025-4-shukurlu-The_Role_of_Borrowed_Words.pdf?sequence=1
6. Амосова Н. Н. Этимологические основы словарного состава современного английского языка. М. : Изд-во лит. на иностр. яз., 1956. 218 с.
7. Аракин, В. Д. Очерки по истории английского языка. М: Просвещение, 2015. 348с.
8. Гринев-Гриневич, С. В. Терминоведение : учебное пособие для студ. высш. учеб. Заведений. М: Издательский центр «Академия», 2015. 304 с.
9. https://www.google.com/search?q=corpus+linguistics+and+borrowing&=&aqs=chrome.2.69i59i450l8.5878143j0j15&sourceid=chrome&ie=UTF-8.

Lala Gurbanova

The process of acquisition of words and terms in english

Summary

Borrowed words penetrate various areas of society, and this process is related to linguistic, lexical and social factors. Since the constant emergence of new words into the language is an active process, the study of the issue remains relevant. Due to the all-round development taking place in the world, the relationship between languages is also expanding, and this development further increases the dynamics of the word borrowing process in the language. The morphological method has a special role in the creation of new words in the language. Along with the above-mentioned facts, every person has the opportunity to use new words in the language, but the use of these words in the language is one of the issues that raises questions, because not every word borrowed into the language takes its place in the lexical system of the language. It is considered appropriate to conduct a statistical calculation of borrowings in each language, and the calculations are carried out using corpus linguistics. Borrowed words are formally and functionally adapted to the characteristics of the language they are used in, and they are also accepted as derived words. Borrowed words are used in accordance with the morphological, phonetic and lexical-semantic levels of the language they are used in.

Keywords: *personal borrowings, interlanguage contact, linguoculturology, relative borrowings, hybrid borrowings.*

Лала Курбанова

Процесс усвоения слов и терминов в английском языке

Резюме

Заимствованные слова проникают в различные сферы общества, и этот процесс связан с лингвистическими, лексическими и социальными факторами. Поскольку постоянное появление новых слов в языке является активным процессом, изучение этого вопроса остаётся актуальным. В связи с всесторонним развитием, происходящим в мире, расширяются и взаимоотношения между языками, что ещё больше увеличивает динамику процесса заимствования слов в языке. Морфологический метод играет особую роль в создании новых слов в языке. Наряду с вышеперечисленными фактами, каждый человек имеет возможность использовать новые слова в языке, но использование этих слов в языке является одной из проблем, вызывающих вопросы, поскольку не каждое заимствованное слово занимает своё место в лексической системе языка. Считается целесообразным проводить статистический подсчёт заимствований в каждом языке, и эти подсчёты проводятся с использованием корпусной лингвистики. Заимствованные слова формально и функционально адаптированы к особенностям языка, в котором они используются, и также принимаются в качестве производных слов. Заимствованные слова используются в соответствии с морфологическим, фонетическим и лексико-семантическим уровнями языка, в котором они употребляются.

Ключевые слова: *персональные заимствования, межъязыковые контакты, лингвокультурология, релятивные заимствования, гибридные заимствования.*

Çapa tövsiyə edən: ***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***professor İ.Məmmədli***
professor N.Seyidəliyev

UOT-811.512.162
Səhifə: 30-38
https://doi.org/10.59849/2663-8967.2026.1.30

Fizuli Mustafayev
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
filologiya elmləri doktoru
mustafayev.fizuli8@gmail.com

KİNO DİLİNDƏ YANAŞMA ƏLAQƏSİ

XÜLASƏ

Məqalə kino dilində yanaşma əlaqəsinə həsr olunur. Yanaşma əlaqəsinin yaranması üçün heç bir formal qrammatik vasitə iştirak etmir. Məqalədə verilmiş izaha görə tabelilik əlaqəli söz birləşmələrini əmələ gətirən sözlər arasında ancaq üç növ əlaqə qeyd edilir. Bunlardan ikisinin formal əlaməti vardır, birinin isə belə əlaməti yoxdur.

Məqalədə qeyd edilir ki, yanaşma əlaqəsi əsasında yaranmış birləşmələrin tabe olan tərəfi isə yanaşılan söz kimi qeyd edilir. Məlum olur ki, kino dilində yanaşan söz əvvəlcə, yanaşılan söz isə sonra gəlir. Aparılan tədqiqata görə yanaşma əlaqəsində plan sözlərin bir-birindən çox uzaqda durduğunu, onların arxasına başqa sözlərin daxil olduğu hər təsadüfdə müşahidə edilir.

Məqalədə yanaşma əlaqəsinin iki növündən danışılır. Tam yanaşma, tam olmayan yanaşma. Kino dilində tam yanaşma əlaqəsində olan sözlərin də yanaşma cəhətdən xüsusiyyətləri və fərqləri vardır. Tam olmayan yanaşma ilə bağlı hissədə isə başqa bir fikir söylənilir. Məqalədə göstərilir ki, yanaşan sözlə yanaşılan söz arasına müxtəlif sözlər daxil olur və bunlar arasına müxtəlif sözlər daxil ola bilər. Araya daxil olan bu sözlər yanaşma əlaqəli birləşmənin ikinci tərəfi ilə yanaşma əlaqəsində deyil, başqa əlaqədə olur. Məqalədən məlum olur ki, kino dilində yanaşma əlaqəsinin hüdudları çox genişdir. Burada yanaşma əlaqəsi müxtəlif nitq hissələrindən olan sözlər arasında özünü göstərir.

Məqalənin ərsəyə gəlməsi üçün kifayət qədər elmi-bədii əsərlər, monoqrafiyalardan və kino-filmlərdən istifadə edilmişdir.

Açar sözlər: *əlaqə, tabelilik, dilçilik, söz, uzlaşma, idarə, qrammatik birləşmə.*

Giriş: Kino dilində yanaşma əlaqəsinin yaranması üçün heç bir formal-qrammatik vasitə iştirak etmir. Məsələn, *yaxşı kitab* birləşməsindəki sözlər arasında yanaşma əlaqəsi vardır. Burada *yaxşı* sözü yanaşma əlaqəsi ilə *kitab* sözünə əlavə olunmuşdur. Göründüyü kimi, burada yanaşma əlaqəsini bildirən heç bir şəkli əlamət yoxdur. Buna görə yanaşma əlaqəsinə belə bir tərif verilir: tabellilik əlaqəsində olan iki söz arasında uzlaşma və idarə əlaqələri yoxdursa, bu sözlərin əlaqəsi yanaşmadır. Yanaşma əlaqəsinin belə izahı ona əsaslanır ki, tabelilik əlaqəli söz birləşmələrini əmələ gətirən sözlər arasında ancaq üç növ əlaqə qeyd edilir. Bunlardan ikisinin formal əlaməti vardır, birinin isə belə əlaməti yoxdur. Əgər belə sözlər arasında dördüncü əlaqə yoxdursa, bu halda uzlaşma və idarənin olmadığı yerdə yanaşma əlaqəsinin varlığı zəruridir. Buna görə də yuxarıdakı tərif yanaşma əlaqəsini müəyyənləşdirmək üçün kifayətləndiricidir.

Rus dilçi alimlərin kino dili haqqında yazdıqları əsərlərdə "yanaşma" xüsusi qrammatik əlaqə növü kimi nisbətən sonralar qeyd edilmişdir. Bu əlaqə əvvəllər uzlaşma əlaqəsinə daxil edilmiş, ilk dəfə olaraq F.İ.Buslayev praktik olaraq bu əlaqəni uzlaşma əlaqəsindən ayırmış, lakin ona ad verməmişdir. Bundan sonra yanaşma ayrıca bir əlaqə növü kimi müəyyənləşmiş və nəhayət, "A.A.Potyebnya, onun ardınca isə D.N.Ovsyaniko-Kulikovski və A.M.Peşkovski onu "yanaşma" adı ilə qeyd etmişdir" [1, s.172].

Kino dilində yanaşma əlaqəsindən çox istifadə olunur.

"Haqverdiyev: – Əhsən uşaqlar, yaxşı oxudunuz. *Artıq axşam yavaş-yavaş araya gəldi, gün qüruba yaxınlaşdı...*

Uşaqlardan biri: – Üzeyir heç oxumadı...

Haqverdiyev: – Hə Üzeyir doğrudan da oxumadı".

["Üzeyir ömrü"].

"Qərib: – Bəlkə yuxudayam? *Bəxt ulduzu, əcinnələr ölkəsi, var-dövlət...* Yox, yuxu deyil... *Gurultu qopur, göy guruldayır, şimşək çaxır, alov püskürə-püskürə aralanır. Çovğun qopur, ağaclar əsir, heyvanlar qaçışır....*"

["Qərib cinlər diyarında"]

Müxtəlif filmlərdən götürülmüş bu parçalarda olan bir çox sözlər yanaşma əlaqəsi ilə bir-birinə bağlanmışdır.

Yanaşma əlaqəsi əsasında yaranmış birləşmələrin tabe olan tərəfi yanaşan, tabe edən tərəfi isə yanaşılan söz kimi qeyd edilir. Azərbaycan dilində yanaşan söz əvvəlcə, yanaşılan söz isə sonra gəlir.

"Bəzi dillərdə yanaşma əlaqəsinin əhatəsi genişdir. Bu xüsusiyyət Azərbaycan dilində də belədir. Azərbaycan dilində nitq hissələrinin qrammatik cəhətdən zəif formalaşması, təyin yerində işlənən sözlərin dəyişməzliyi, onların aid olduqları sözlərlə qrammatik cəhətdən uyğunlaşmaması nəticəsində yanaşma əlaqəsinin əhatə dairəsi genişlənir". [2, s.15]

Kino dilində sözlərin yanaşması – yanaşı işlənməsi əsas götürülür: *gözəl insan, sarı don, çılpaq budaq, boz səma, dirənib durmaq* birləşmələrində olduğu kimi. Bu əlaqənin "Yanaşma" adlandırılması da elə bununla əlaqədardır. Lakin bu heç də o demək deyildir ki, yanaşma əlaqəli sözlər həmişə yanaşı işlənməlidir, onların arasına başqa sözlər daxil ola bilməz. Dilimizdə yanaşma əlaqəsində olan sözlərin bir-birindən çox uzaqda durduğunu, onların arasına başqa sözlərin daxil olduğunu hər təsadüfdə müşahidə edirik.

"Xalid: – Mən çox yekəyəm də. Sinifdə də nəyə toxunuramsa, düşür, sınır. Odur ki, utandığımdan *axşam məktəbdən evə qayıtmaq* istəmirəm".

["Dərs"]

"Dursun: – Sakit ol və mənə hər şeyi olduğu kimi danış. Saatlının harasındansan?

Səməd: – Dəmir yol stansiyasından.

Dursun: – Hərdən *təbiətin gözəlliyini seyr etmək* istəyirsənmi?"

["Arxada qalmış gələcək"]

"Müsyö Düpon: – O nə gözəl hədiyyədir. Sağ olun knyaz. *Kitabları dönə-dönə oxumaq* lazımdır.

Fətəli: – Xasay xan, o nə kitab idi, Müsyö Düponu sevindirdi?"

["Sabahın elçisi"]

Bu xüsusiyyətləri nəzərə alıb yanaşma əlaqəsinin iki növünü qeyd etmək olar: 1) tam yanaşma; 2) tam olmayan yanaşma.

1. *Tam yanaşma.* Bu elə yanaşmadır ki, burada əlaqədar olan sözlər arasına heç bir söz girə bilmir, ya da bunlar arasına elə sözlər daxil ola bilir ki, onlar da tabeedici sözlə yanaşma əlaqəsi saxlasınlar.

"II əsgər: – Hə, pis olmazdı. *Gəzməli yerlər* çoxdur.

Hacı: – Yox, mən ömrümdə dapros eləməmişəm".

["Sarı gəlin"]

"Tahir: – Sən komplimenti sevirsən? Məsələn, *maraqlı kitablar* çox oxuyursan...

Nərmin: – Xeyr, indi kitab oxuyan var ki...."

["Yalan"].

Məsələn, *gəzməli yerlər, maraqlı kitablar* birləşmələrinin tərəfləri arasındakı əlaqə tam yanaşmadır. Bu birləşmələrin tərəfləri arasına heç bir söz daxil ola bilmir. Belə sözlər tabe olduqları sözlərdən ancaq o zaman ayrı düşə bilir ki, onların arasına girən sözlər də onlarla eyni tipli olsun. Məsələn, *maraqlı və mənalı kitablar, gəzməli və yaşamalı yerlər, gözəl yaşıl bağlar.* Bu birləşmələr arasında olan *mənalı, yaşamalı* və *yaşıl* sözləri də *maraqlı, gəzməli* və *gözəl* sözləri kimi *kitablar, yerlər, bağlar* sözləri ilə tam yanaşma əlaqəsindədir. Bunlar da öz növbələrində *mənalı kitablar, yaşamalı yerlər, yaşıl bağlar* birləşmələrini əmələ gətirmişdir.

Kino dilində tam yanaşma əlaqəsində olan sözlərin də yanaşma cəhətdən xüsusiyyətləri və fərqləri vardır. Məsələn, *yaxşı kitab* birləşməsi ilə beş kitab birləşməsinin tərəfləri arasındakı ya-

naşmanın nisbəti eyni deyildir; bunlardan birincisində yanaşma daha qüvvətli, ikincisində ona nisbətən zəifdir.

Bunlar göstərir ki, *"...tam yanaşmanın özündə yanaşan sözlərin yanaşma nisbəti müxtəlif olur. Eyni sözə aid bir neçə yanaşan söz olduqda bunlardan biri daha yaxın, digəri isə nisbətən uzaqda olur, buna baxmayaraq onların hamısının əlaqəsi tam yanaşma əlaqəsi hesab olunur, çünki bunlar arasına tabeedici sözlə yanaşma əlaqəsində ola bilməyən sözlər daxil ola bilmir. Məsələn, həmin beş kitab deyə bildiyimiz halda, beş həmin kitab deyə bilmirik, belə desək, uyğunsuzluq meydana çıxar və fikir anlaşılmaz"*. [3, s.32]

Tam yanaşma əlaqəsində olan sözlərin belə düzülüşü, onlar arasına başqa əlaqəli sözlərin daxil ola bilməməsi dilin daxili inkişaf qanunlarından doğan, onun qrammatik quruluşu ilə bağlı olan bir hadisədir.

"*Tam yanaşma əlaqəsi öz mahiyyəti cəhətindən də, əhatə dairəsi cəhətindən də dilimizdə əsas yer tutur*". [4, 52] Kino dilində yanaşma əlaqəsi əksəriyyətlə tam yanaşma kimi çıxış edir.

2. *Tam olmayan yanaşma*. Burada yanaşan sözlə yanaşılan söz arasına müxtəlif sözlər daxil olur və yaxud bunlar arasına müxtəlif sözlər daxil ola bilir. Araya daxil olan bu sözlər yanaşma əlaqəli birləşmənin ikinci tərəfi ilə yanaşma əlaqəsində deyil, başqa əlaqədə olur.

"General qubernator Nakaşidze: – Arkadi Semyonoviç, əlimi sizdən üzmüşdüm. *Doğrudan da sənin gözlərin üstündə yavaş-yavaş nazik bir kül təbəqəsi əmələ gəlirdi. Sən həmişə yığıncaqlardan qaçır, öz hərəkətlərinlə ailənə ziyan toxundura biləcəyindən ehtiyat edirdin*".

"Qaçaq Nəni" bədii film. "Azərbaycanfilm" kinostudiyası. 1980.

"Kapitan: – Yaxşı, dayan, kruqom! Xülasə, *Olya bir ildə Tahir ağadan beş yüz min manat pul və bundan başqa əlavə baxşayışlar cəmləşmişdi*".

["Kapitanın xəzinəsi"]

"Leyla: Yox, belə olmaz. Valideynlərim nə deyər?

Eldar: – *İndi siz özünüz fikirləşin*, onlar heç nə bilməyəcək".

["Məhkumların cənnəti"].

Bu cümlələrdəki *yavaş-yavaş, həmişə, bir ildə, indi* sözləri ilə *əmələ gəlirdi, qaçır, cəmləmişdi, fikirləşin* sözləri arasında yanaşma əlaqəsi vardır. Lakin, göründüyü kimi, tam yanaşmadan fərqli olaraq, bu sözlər bir-birinin yanında gəlməmişdir; bunların arasına bir sıra başqa sözlər də daxil olmuşdur. Həm də araya girən həmin sözlər müxtəlif birləşmələr əmələ gətirə bilir ki, bu da tam yanaşmadakı sözlər silsiləsindən fərqlənir. Məsələn, *O, həmişə yığıncaqlardan qaçır* cümləsində yanaşma əlaqəsi saxlayan *həmişə* və *qaçır* sözləri arasında *yığıncaqlardan* sözü daxil olmuşdur. *Yığıncaqlardan* sözü isə *qaçır* sözü ilə yanaşma deyil, idarə əlaqəsindədir, daha doğrusu, *yığıncaqlardan* sözü *qaçır* sözü ilə idarə olunaraq *yığıncaqlardan qaçır* sözü kimi, idarə əlaqəli birləşmə əmələ gətirmişdir. Belə bir xüsusiyyəti tam yanaşma əlaqəsində görmək olmur.

Tam olmayan yanaşma əlaqəli sözlər bir-birinin yanında da işlənə bilər.

Filmlərdə yanaşı işlənmiş sözlərə diqqət edək.

"Dursun: – Nə danışırsan, mən də stansiyadanam, dayan görüm! Stansiyanın harasında, qəsəbədə? Hə, *Rəfiqə əvvəl elə hesab elədi ki, yenə gələn Həsəndir, sonra gördü ki, avtomobildən düşən öz əridir*". ["Arxada qalmış gələcək"]

"Mirzə Fətəli: – Mənim qəlbim elə atəşli qəlblərdəndir ki, nə sevincini, nə kədərini gizlədə bilir. Bəs *siz özünüz izdivac məsələsinin tez bitirilməsinə tələsirdiniz, indi nə oldu*".

["Sabahın elçisi"]

"II əsgər: – Nə var ki, on dəqiqəlik işdir.

I əsgər: – Hə, düz deyir. Qayışuvu aç, göstər ona, bəlkə gözü qorxdu, dili açıldı. Eh, şair yaxşı deyir ki, "*bu çərxi-fələk tərsinə dövran edir indi*".

["Sarı gəlin"]

Filmlərdən misal gətirdiyimiz sözlər yanaşı işlənmiş olsa da, yenə onların əlaqəsi tam yanaşma deyildir. İstənilən vaxt belə sözlər arasına başqa sözlər və söz qrupları əlavə etmək olar.

Kino dilində yanaşma əlaqəsinin hüdudları çox genişdir. Burada yanaşma əlaqəsi müxtəlif nitq hissələrindən olan sözlər arasında özünü göstərir. Bunları nəzərə alaraq, müxtəlif sözlər ara-

sındakı yanaşma əlaqəsini və həmin əlaqə prosesində yaranan birləşmələri aşağıdakı şəkildə qruplaşdırmaq olar.

"İsmin ismə yanaşması. İsmin ismə yanaşması bir neçə şəkildə olur. bunlardan biri atributiv isimlərin heç bir vasitə olmadan başqa isimlərlə yan-yana gələrək onlarla yanaşma əlaqəsində olmasıdır. Burada yanaşan isim daha çox sifətə bənzəyir, lakin sifət olmur". [5, s.72]

"Xalid: – Gördünüz ki, Çinarə məni görüb *dəri döşlüyünü açıb bir tərəfə atdı*. Odur ki, uşaqlar məni yaxın buraxmırlar. Heç məni öz adımla da çağırmırlar".

["Dərs"]

"Sahib: – Ay ana, vallah *Qərib dəli olub, məni yoldan qaytardı ki, yığışıb gedirik.*

Tükəz xala: – Hara, a bala?"

["Qərib cinlər diyarında"].

İsimlərin belə yanaşması sintaktik cəhətdən təyinlə təyin olunan arasındakı əlaqə kimi meydana çıxır və birinci növ təyini söz birləşmələri deyilən birləşmələr əmələ gətirir.

Dilimizdəki substantiv isimlər də yanaşma əlaqəsində iştirak edib başqa isimlərə yanaşaraq onlarla yanaşma əlaqəsi saxlayır. Bu xüsusiyyəti, əsasən ikinci növ təyini söz birləşmələri şəklində əlaqələnmiş sözlərin münasibətində görmək olur. İkinci növ təyini söz birləşmələrində birinci tərəf ikinci tərəfə yanaşır. Bu vaxt yuxarıdakından fərqli olaraq, isim atributivləşmir və tam isim kimi çıxış edir.

Qoşmaların köməyi ilə də isimlər isimlərə yanaşa bilir. Burada qoşma yanaşma əlaqəsində olan isimlər arasına daxil olur. Məsələn, *Nəbi kimi adam* ("Qaçaq Nəbi" bədii film) birləşməsində *Nəbi* sözü ilə *adam* sözü arasında yanaşma əlaqəsi vardır, lakin burada isimlər bilavasitə deyil, qoşma vasitəsi ilə yanaşmışdır. Əgər həmin birləşmədəki *kimi* qoşmasını atsaq, *Nəbi adam kimi* əlaqəsiz sözlər qalacaqdır. Belə əlaqəli birləşmələri *tək (təki)* qoşması ilə də əmələ gətirmək olur: *Nəbi təkli adam*. Kino dilində, eləcə də ümumxalq danışıq dilində belə birləşmələr çox işlənir.

"Həkim: – Əsəblərinizi, zati aliləri, yaman pozulub. *Bu gün gərək onu başa salım ki*, Nakaşidze kimi adam az-az tapılar.

Nakaşidze: – Pozular da, o quldurun əlindən rahatlığımız yoxdur".

["Qaçaq Nəbi"]

"Tapdıq: – Hə, onu deyirəm də, *çaxmaq kimi ayaqdadır* sənin fikirlərin. İndi də yapışıb yaxamdan ki, oğrunu tutmalısız, vəssalam. Filan qədər də borcum var ona".

["Kapitanın xəzinəsi"]

"Leyla: – Yox, bacarmaram, *Eldar təki insanı haradan tapacaqsan?* İstəmirəm. Mənə görə öz ata-ananı aldatma. Düzünü de, bu pulları hardan tapmısan?"

["Məhkumların cənnəti"]

Nakaşidze kimi adam çaxmaq kimi ayaqdadır, *Eldar təki insan* birləşmələrindəki *Nakaşidze* və *adam*, *çaxmaq* və *ayaqdadır*, *Eldar* və *insan* sözləri *kimi*, *təki* qoşmalarının köməyi ilə əlaqələnmiş və yanaşma əlaqəli birləşmələr yaratmışdır. Belə birləşmələrdə qoşma tabe sözə qoşulur və onunla birlikdə digər tabe sözə yanaşır. Çox vaxt bu birləşmələrin tərəfləri bir-birindən ayrılmır və cümlədə mürəkkəb bir üzv kimi çıxış edir. Məsələn, *Bu gün gərək onu başa salam ki, Nakaşidze kimi adam az-az tapılar* cümləsindəki *Nakaşidze kimi adam* birləşməsi birləşmə şəklində mürəkkəb mübtəda kimi çıxış edir. Buna görə də cümlə üzvləri arasındakı əlaqələri göstərərkən belə birləşmələrin öz tərəfləri arasındakı əlaqə gizli qalır, ona nəzər yetirilmir.

Sifətin ismə yanaşması. "Bir sıra başqa dillərdə ismin əvvəlinə gələn sifətlər isimlə uyğunlaşır, ismin halına, kəmiyyətinə və cinsinə görə xüsusi sifət şəkilçiləri qəbul edir və ismin dəyişməsi ilə dəyişməli olur. Bu da sifətin aid olduğu isimlə uzlaşması deməkdir". [2, s.17] Azərbaycan dilində isə belə xüsusiyyət yoxdur. Burada ismin əvvəlində işlənən sifət tam donuq hala düşür. İsmə yanaşmaq sifətin əsas vəzifəsi olduğundan belə birləşmələrdə sifətlər öz xüsusiyyətlərini olduğu kimi saxlayır və tam sifət kimi çıxış edir.

"Birinci arvad: – Görüblər ki, qayaların altında oğlanla qız marça-murç öpüşürlər.

Üçüncü arvad: – Vay, ətin tökülsün!

Birinci arvad: Mənim nöşün, az... Onların əti tökülsün də... *Əlabbas gənc və fəqir oğlandur*". ["Yuxu"]

"Abbas: – Sən mənim qəbir evinə qədər birinci və axırıncı arvadımsan!... Oğlanlara deyirəm ki, bizim bacarığımız yoxdursa, talantlı gənclər tapın... *Qara qaşlar, qara gözlər, al dodaqlar, qızarmış yanaqlar*, görürsünüz, nə qədər gözəl görünür?

Vəfa: – Bəs qəbir evindən sonra?.."

["Qırmızı bağ"]

Kino dilində ismin ismə yanaşmasına nisbətən sifətin ismə yanaşması bir qədər zəifdir. İsmin əvvəlinə onunla yanaşma əlaqəsində olan həm isim, həm də sifət artırdıqda bunu aydınca görmək olur. Sifətin ismə yanaşması ismin ismə yanaşmasına nisbətən çox zəif inkişaf etmişdir. Kino dilində bütün isimləri bir-biri ilə yanaşdırmaq və ya onları bilavasitə yanaşdırmaq mümkün deyildir, lakin bütün sifətləri isimlərə yanaşdırmaq olar.

"*Sifətlərin isimlərə yanaşması və bu əsasda yaranan birləşmələr müəyyən əşya və varlıqların xüsusiyyətlərini təsvir edərkən, onları daxili və xarici cəhətlərdən səciyyələndirərkən daha çox işlənir*". [3, s.41]

Kinofilmlərdən misallar:

"Qəmər Banu: – Soyumuzun Mahmud kimi bir saflığa dayanması sənə qürur verməli, Ziyad Əfəndi. Amma bilin ki, bəzi xan dediklərimiz *xain, zalım, paxıl* xislətli olurlar".

["Mahmud ilə Məryəm"]

"Buta: – Bəs külək niyə əsir?

Qoca: Allah istəyəndə ki, külək olsun, o zaman o, bax belə üfürür. Buta *gözəl, girdəsifət gənc* bir qızdı. Şərqli qızlara məxsus *qara, dərin, atəşli gözləri*, qələmə çəkilmiş kimi *qara qaşları, incə dodaqları* var".

["Buta"]

Yuxarıda dediyimiz formaların hamısında sifət ismə yanaşarkən birinci növ təyini söz birləşməsi deyilən birləşmə əmələ gətirir və sifət öz təyinlik xüsusiyyətini tamamilə mühafizə edir. Lakin sifətin substantivləşərək ismə yanaşmasına da rast gəlmək olur.

Sayın ismə yanaşması. "Saylar da sifətlər kimi isimlərin əvvəlində heç bir dəyişikliyə uğramır və isimlərin növ və xüsusiyyəti onlara təsir etmir. Bu vəziyyətdə saylar heç bir formal əlamət-şəkilçi qəbul etmir, buna görə də saylarla onların əlaqədə olduğu isimlər arasında yanaşma əlaqəsi olur". [5, s.81]

"Sədr: – Bir də ki ev yazıq neyləsin?! Çobav adamdı, səhərdən axşamacan çöldə-yamacda, qışı qışlaqda, yayı yaylaqda *bir külüngə* qarşı *on külüng* vurur. Ev də ki, qalır başlı-başına, baxanı yox, zadı yox".

["Babamın babasının babası"]

"Həkim: – Bağışlayın, zatı-aliləri *bir il* belə keçdi. *İkinci il* də elə. Məncə kəndlilərlə adam kimi rəftar olunarsa, heç kim qabırğasını güllə qabağına verməz".

["Qaçaq Nəbi"]

"Qorxmaz: – Səndən soruşuram, xahiş elədin?

Tapdıq: – Hə, xahiş elədim.

Birinci xahişdə heç nə etmədi. *Çox yalvarışların, çox sözlərin* onunçun bir əhəmiyyəti olmadı.

Qorxmaz: – Onda mən nə deyirəmsə, elə də elə".

["Kapitanın xəzinəsi"]

Qeyd etdiyimiz sözlər öz-özlüklərində isimlərə yanaşa bilməz, onların əksəriyyəti saylarsız öz əhəmiyyətini itirir. Buna görədir ki, onlar sayla isimlər arasına daxil olarkən oradakı yanaşma əlaqəsinə mane ola bilmir, əksinə, özləri də həmin şəraitə uyğun mövqe tuturlar.

Kino dilində sayların isimlərə yanaşma qüvvəsinə gəldikdə, qeyd edilməlidir ki, sayların isimlərə yanaşması həm isimlərin isimlərə, həm də sifətlərin isimlərə yanaşmasından zəifdir. Daha doğrusu, onların yanaşma sırası belədir: say–sifət–isim–isim.

"*İdarə əlaqəsindən danışılarkən qeyd edilmişdi ki, saylar idarə olunarkən substantivləşir. Bundan fərqli olaraq, saylar yanaşarkən heç bir yeni xüsusiyyət kəsb etmir, öz saylıq xüsusiyyətlərini tamamilə saxlayırlar*". [2, s.23] Buradan da belə bir nəticə çıxır ki, yanaşma sayların əsas xüsusiyyətlərindəndir. Yalnız *beş arzusu, iki qorxusu* kimi birləşmələrdə saylar substantivləşərək müəyyən qiymət dərəcəsi adını bildirir və yenə də isimlərə yanaşır.

Əvəzliyin ismə yanaşması. "Əvəzliklər də isimlərlə yanaşma əlaqəsində ola bilir. Lakin sifət və saylardan fərli olaraq, əvəzliklərin bütün növlərini isimlərə yanaşdırmaq mümkün deyildir". [3, s.58] Məsələn, şəxs əvəzlikləri ismin əvvəlində gəlib onunla yanaşma əlaqəsi saxlaya bilmir. Bu da ondan irəli gəlir ki, çəxs əvəzlikləri cümlədə təyin kimi çıxış etmir. İşarə və təyini əvəzliklər isə, demək olar ki, əksər hallarda isimlərə yanaşır və yanaşma əlaqəli birləşmələr yaradır.

"Eldar: – Moskvadakı evimi satıram.

Leyla: – *Bu evi* satmağın düzgün deyil.

Eldar: – *Bu işi* görməyim düzdür, düz deyil, bunun əhəmiyyəti yoxdur".

["Məhkumların cənnəti"]

"Üçüncü arvad: – Aaaz, *belə iş* olmaz. Mən də onları deyirəm də...

İkinci arvad: – Kişinin ürəyi davam gətirməyib, əmr eləyib ki, vur bunları...."

["Yuxu"]

"Orxan: – Vəfa, mənim otağım hansıdır? Yuxarıda. *Həmin yüksəklikdə...*"

["Qırmızı bağ"]

"Ziyad xan: – Bu taxt hamını yeyər bitirər xanım. Mahmud kimi bir kişini görən soyumuzu davam etdirərmi? Ona görə də mən öz *idealımdan, öz eşqimdən, öz taleyimdən, öz tanrımdan* intiqam almalı idim".

["Mahmud ilə Məryəm"]

Kino dilində sual əvəzliklərinin də bəziləri isimlərə yanaşır. Məsələn, *hansı kitab, necə şəhər, neçə tələbə* birləşmələrində *hansı, necə* və *neçə* sözləri sual əvəzlikləri olub *kitab, şəhər* və *tələbə* isimlərinə yanaşmışdır. Bu da ondan irəli gəlir ki, həmin sual əvəzlikləri isimlərə yanaşan isimləri, sifətləri, sayları əvəz edir və əvəz etdikləri sözlərin xüsusiyyətlərinə malik olur. Əvəz etdikləri sözlər digər sözlərə yanaşdıqlarına görə həmin əvəzliklər də eyni əlaqə münasibəti saxlamağa məcburdur.

Əvəzliyin ismə yanaşması həm ismin, həm də sifətin ismə yanaşmasından zəifdir. Məsələn, *bu qızıl qaşıq, həmin gözəl qız, həmin gözəl qızıl qaşıq*. Əvəzliklərin ismə yanaşması sayın ismə yanaşmasından da zəifdir.

"Feili sifətin ismə yanaşması. Adından göründüyü kimi, bu sözlər sifətlərə doğru meyl edir və sifətlər kimi bunlar da isimlərin əvvəlinə gəlib onlarla yanaşma əlaqəsi saxlaya bilir". [5, 98]

"Müxbir: – Necə yanı baxanı yoxdur.

Sədr: – Tək deyəndə ki, vallah *yanmış xarabalıq* oradan yaxşıdır... Özü də tək kimi bir şeydi. Bir özüdü, bir də Tapdıq".

["Babamın babasının babası"]

"Qorxmaz: – Kapitan, qarizonda torpaq görünür?

Rüstəm kişi: – Eey, şair demişkən *o duyan könüllər, düşünən başlar* torpaq görə bilməz.

Qorxmaz: – Yox. Hələ ki, ucsuz-bucaqsız okean görürəm.

["Kapitanın xəzinəsi"]

"*Feili sifətlər öz ətraflarına söz yığaraq tərkib təşkil edəndə də ismə yanaşa bilir, bu halda bəzən tərkib bütünlüklə ismi təyin etsə də, yanaşma əlaqəsi tərkibin bir sözü ilə feili sifətlə onun aid olduğu isim arasında gedir*". [2, s.40]

"Abbas: – Sənin üçün almışam. Dəftər-kitabını gətir, yığaq içinə.

Orxan: – Görürsən də, *bir tərəfdən otaqdakı bülbüllərin nəğmələri, o biri tərədən meşədə axan bulaqların səsi və gərdişin çöməldiyi Tahirə böyük bir ləzzət verirdi. Avqust ayı aralığa gəldi, hava soyuqlaşdı. Şəhərə gələn qonaqlar gündən-günə azaldı*".

["Qırmızı bağ"]

"Qoca: – Bax, onda külək olur, huşum, diqqətim qalır orada...

Buta: – Mən uçmaq istəyirəm, *göydən enmiş quşlar tək, şəhərdən qayıtmış təyyarə tək*".

["Buta"]

Göstərilmiş misallardakı *meşədə axan, şəhərə gələn, səfərdən qayıtmış* feili sifət tərkibləri *bulaqlar, qonaqlar* və *təyyarələr* sözlərinə aid olub, onları müəyyənləşdirməyə xidmət edir. Lakin burada bu yanaşma əlaqəsi *axan* sözü ilə *bulaqlar* sözü arasında, *gələn* sözü ilə *qonaqlar* sözü arasında, *qayıtmış* sözü ilə *təyyarələr* sözü arasındadır. Tərkibin daxilindəki meşədə, şəhərə, səfərdən

sözlərinə gəlincə, bunlarda bulaqlar, qonaqlar, təyyarələr sözləri arasında məna əlaqəsi olsa da, onlar arasında heç bir qrammatik əlaqə yoxdur. "Feili sifətlər istər təklikdə, istərsə də tərkib şəklində ismi təyin etsin, isimlə əlaqə cəhətindən heç bir fərqi yoxdur, hər iki halda ismə yanaşan feili sifət özüdür". [2, s.48]

Məsdərin ismə yanaşması. Müasir Azərbaycan dilində məsdərin ismə yanaşmasına çox rast gəlmək olmur. "*Məsdərin ismə yanaşması substantiv isimlərin ismə yanaşması kimidir. Daha doğrusu, substantiv isimlər ikinci növ təyini söz birləşmələrinin birinci tərəfi kimi çıxış edərkən ikinci tərəflərə yanaşdıqları kimi, məsdərlər də bəzən ikinci növ təyini söz birləşməsinin birinci tərəfi kimi çıxış edir və bu vaxt o, birləşmənin ikinci tərəfi olan ismə yanaşmış olur*". [5, 101]

"Qubernator: – Görürəm, Arkadi Semyonoviç, narodnayavolyaçılara rəğbətdən hələ də əl çəkməyibsən. *İş yerində çap elədiyin intibahnamələri kənara çıxarmaq məqsədilə bu tədbirləri uydurmuşdun*".

["Qaçaq Nəbi"]

Sədr: – Tapdıq kimin nəvəsidi?..

Müxbir: – Nəvə deyəndə ki, vallah elə nəvə kimi bir şeydi də....

Sədr: – *Fikirləşdikcə, yaxın qohumdan evlənmək məsələsi, getdikcə həkimlər də deyir ki, yaxın qohumdan evlənmək nəsli korlaya bilər. Kənddə bir qədər də Tapdıq kişinin başlı-gözlü yoxa çıxmaq xəbəri gəzdi*".

["Babamın babasının babası"]

Filmlərdən göstərdiyimiz cümlələrdəki *çıxarmaq məqsədi, evlənmək məsələsi, yoxa çıxmaq* xəbəri birləşmələrində olan *çıxarmaq, evlənmək, yoxa çıxmaq* sözləri məqsəd, məsələ və xəbər sözlərinə yanaşaraq onlara tabe olmuşdur.

Nəticə: Son olaraq bildirmək olar ki, ayrı-ayrı sözlərin ismə yanaşması əksər hallarda tam şəkildə olur. Buna görə də yuxarıda verilmiş bütün nümunələr, misallar tam yanaşma əlaqəsi əsasında olan birləşmələrdən ibarətdir. Lakin tam yanaşma əlaqəsinin əhatə dairəsi, işlənmə yerləri bununla bitmir. Yalnız isim deyil, başqa nitq hissələri də tam yanaşma əlaqəsinin tabe edən tərəfi kimi çıxış edə bilir. İsimlərdən sonra bu cəhətdən diqqəti cəlb edən sifətdir. Sifətlər tam yanaşma əlaqəsində tabe edən söz olaraq, əsasən zərflərlə əlaqəyə girir. Zərflər əlamətin əlamətini bildirmək xüsusiyyətinə də malikdir. Tam yanaşma əlaqəsində sayın saya yanaşması da maraqlıdır. Belə bir xüsusiyyət özünü ən çox mürəkkəb saylarda göstərir. Xüsusən mürəkkəb saylarda təkliklər yüzlüklərə, onluqlar və yüzlüklər minliklərə, yenə də onluqlar və yüzlüklər milyonluğa yanaşır. Azərbaycan dilində ayrı-ayrı sözlərin feillərə yanaşması da çox inkişaf etmişdir. Feillərlə ən çox yanaşma əlaqəsi saxlayan zərflərdir. Zərflərin bəzi növləri, yuxarıda qeyd edildiyi kimi, dəyişə, hallana bildiyindən feillər tərəfindən idarə olunur. Zərflərlə feillər arasında bəzən tam yanaşma əlaqəsi özünü göstərsə də, əsasən onlar arasında tam olmayan yanaşma əlaqəsi olur. Azərbaycan dilində, əsasən tərzi-hərəkət, kəmiyyət və zaman zərfləri ilə feillər arasında yanaşma əlaqəsi olur, lakin bəzən yer zərfləri də hallanmadıqları vaxt feillərə yanaşa bilir.

Feili bağlamalar da aid olduqları feillərlə yanaşma əlaqəsi saxlayır. Bu da feili bağlamanın dəyişməzliyindən doğan bir xüsusiyyətdir. Feili bağlama cümlənin harasında gəlirsə-gəlsin, hansı mənada çıxış edirsə-etsin, onunla əsas feil arasında yanaşma əlaqəsi olur.

Ədəbiyyat siyahısı

1. Виноградов В.В. Из истории изучения русского синтаксиса. Москва. 1962. с. 172.
2. Kazımov Q.Ş. Müasir Azərbaycan dili (Sintaksis). Bakı, "Təhsil" nəşriyyatı. 2007. s. 15.
3. Abdullayev Ə, Seyidov Y, Həsənov A. Azərbaycan dili (Sintaksis). Bakı, "Şərq-Qərb" nəşriyyatı. 2002. s. 32.
4. Həbibbəyov Ə. "Azərbaycan dilində yanaşma əlaqəsi haqqında monoqrafiya və monoqrafiya tədqiqat materiallarının tarixi haqqında" Bakı. 1982. APU nəşriyyatı. s.52.
5. Əliyev Ə. Azərbaycan dilində sintaktik əlaqələr. Bakı. "Maarif" nəşriyyatı. 1989. s.72.

Bədii filmlər

1. “Üzeyir ömrü”. 1983.
2. “Qərib cinlər diyarında”. 1977.
3. “Dərs”. 2015.
4. “Arxada qalmış gələcək”. 2005.
5. “Sabahın elçisi”. 2010.
6. “Sarı gəlin”. 1998.
7. “Yalan”. 2006.
8. “Qaçaq Nəbi”. 1980.
9. “Kapitanın xəzinəsi”. 2013.
10. “Məhkumların cənnəti”. 2012.
11. “Yuxu”. 2001.
12. “Qırmızı bağ”. 2012.
13. “Mahmud ilə Məryəm”. 2011.
14. “Buta”. 2004.
15. “Babamın babasının babası”. 1979.

Fizuli Mustafayev

Approach in the language of cinema

Summary

The article is devoted to the correlation of approaches in the language of cinema. No formal grammar is used to establish this approach. According to the explanation given in the article, only three types of connections are mentioned between the words forming the subordinate clauses. Two of them have a formal mark, and one has no such mark.

The article notes that the subordinate side of the connections formed on the basis of the approach relation is denoted as an additional word. It turns out that in the language of cinema, first comes the approaching word, and then the approaching one. According to the study, in the approach to approach, it is observed that the words of the plan are very far from each other, and every second word follows them. The article discusses two types of communication approaches. Complete approach, incomplete approach. In the language of cinema, words that have a complete approach also have characteristics and differences in terms of approach. The section on the incomplete approach expresses a different opinion. The article shows that the adjacent word includes different words, and there may be different words between them. These words do not refer to the other side of the approach, but to the other. It can be seen from the article that the boundaries of the approach in the language of cinema are very wide. Here, the convergence between words from different parts of speech is manifested. When creating the article, a sufficient number of scientific and artistic works, monographs and films were used.

Key words: *communication, subordination, linguistics, word, reconciliation, management, grammatical combination.*

Физули Мустафаев

О взаимосвязи подхода на языке кино

Резюме

Статья посвящена соотношению подходов в языке кино. Формальные грамматические средства не используются для установления этого подхода. Согласно приведенному в статье пояснению, между словами, образующими придаточные предложения, упоминаются только три типа связей. У двух из них есть формальный знак, а у одного такого знака нет. В статье отмечается, что подчиненная сторона соединений, образованных на основе отно-шения подхода, обозначается как добавочное слово. Оказывается, в языке кино сначала идет приближающееся слово, а потом - приближающееся. Согласно исследованию, в подходе наблюдается, что слова плана очень далеки друг от друга, и каждое второе слово следует за ними.

В статье рассматриваются два типа подхода к коммуникации. Полный подход, неполный подход. На языке кино слова, которые имеют законченный подход, также имеют особенности и различия с точки зрения подхода. В разделе о неполном подходе высказывается иное мнение. В статье показано, что в соседнее слово входят разные слова, и между ними могут быть разные слова. Эти слова относятся не к другой стороне подхода, а к другой. Из статьи видно, что границы подхода на языке кино очень широки. Здесь проявляется сближение между словами из разных частей речи. При создании статьи использовано достаточное количество научных и художественных работ, монографий и фильмов.

Ключевые слова: *связь, подчинение, языкознание, слово, примирение, управление, грамматическое сочетание.*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***professor N.Seyidəliyev***
dosent S.Novruzova

UOT-811.11-112
Səhifə: 39-43
https://doi.org/10.59849/2663-8967.2026.1.39

Nəsibə Abbasova
DTX-nin Heydər Əliyev adına Akademiyası,
filologiya üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0009-0007-0342-3112
abbasova64@internet.ru

DİLİN DİSKURSİV VAHİDLƏRİ VƏ ONLARIN TƏSNİFATI

XÜLASƏ

Məqalədə müasir Azərbaycan dilçiliyində qəbul edilmiş "diskursiv vahidlər və ya diskursivlər" anlayışının linqvistik şərhi verilir. Diskursiv vahidlərin öyrənilməsinin əsas metodları, habelə diskursivlərin təsnifat prinsipləri və onların təhlilinə əsas yanaşmalar təqdim edilir. Diskursiv vahidlərin həmçinin requlyativ ünsiyyət qurmağa, diskursun hissələri arasında əlaqələr yaratmağa, onun bütövlüyünü təmin etməyə və respientin (oxucu və ya dinləyicinin) diqqətini cəlb etməyə kömək etdiyi vurğulanır. Belə bir nəticəyə gəlinir ki, diskursiv vahidlərin təsnif edildiyi bəzi parametrləri ümumiləşdirərək(diskursun üslubi mövzular üzrə əhatə dairəsi; diskurs iştirakçıların ideoloji-kommunikativ məqsədləri: polemik, didaktik, monoloq, dialoq, poliloq və s.) problemi məhz dilçilik müstəvisində müəyyənləşdirmək mümkündür.

Açar sözlər: *diskurs, koqnitiv ardıcıllıq, diskursiv vahid, dildə implikatur vasitələr, diskurs markeri.*

Giriş: Dilin diskursiv vahidləri hər hansı bir mətnin koqnitiv uyğunluğunu(ardıcıllığını) təmin edən, yazarla oxucunun və ya danışanla dinləyicinin qarşılıqlı intellektual-ekspressiv münasibətlərini əks etdirən vahidlərdir. Belə vahidlər diskursda meydana gələn, yəni müəyyən bir vəziyyətdə müəyyən məqsədlər üçün yazılan və ya danışılan bir mətn yaratmağa "arxa planda" özünəməxsus xidmət edən spesifik nitq vahidləridir. Onlar həmçinin idraki və ya nizamlı ünsiyyət qurmağa, diskursun hissələri arasında əlaqələr yaratmağa, onun bütövlüyünü təmin etməyə və respientin (oxucu və ya dinləyicinin) diqqətini cəlb etməyə kömək edir.

Diskursiv sözlər ifadəsi müasir dilçilikdə bəlkə də daha az tanınan bir termindir. Onlar dilçiliyin nisbətən yeni bir sahəsini, canlı və mürəkkəb bir aləmini təmsil edirlər. Bu baxımdan daha tanış olan "diskurs" terminidir: diskurs müəyyən bir vəziyyətdə və müəyyən bir məqsəd üçün nəql edilən ardıcıl bir nitq(mətn) anlamında qəbul edilir və ya, əslində, dildən istifadə edərkən mübadilə etdiyimiz düşüncə məhsulu – diskursdur. "XX əsrin filoloji fəlsəfəsi çərçivəsində mövcud son analitik baxışlar nəticəsində diskurs anlayışı nitq və ya mətndə işlənmiş monoloji linqvistik konstruksiya kimi başa düşülür. ...Eyni zamanda belə konseptual yanaşma vasitəsilə diskursun daha çox dillə həyata keçirilən kommunikativ aktlardan: monoloq-dialoqlar, polemik söhbətlər və ya ümumi mövzulara (hüquqi, fəlsəfi, tarixi, ictimai və s.) həsr olunmuş yazılı mətnlərdən, daha doğrusu, qarşılıqlı koqnitiv istinadlardan ibarət olduğu qənaətinə gəlinir. ...Belə hesab edilir ki, diskurs konkret dil sferasına uyğun gələn dilin fəaliyyəti ilə bağlıdır və xüsusi lüğət sisteminə malikdir." [2] Dilin diskursiv vahidləri Vikipediyada əsasən "doldurucu sözlər" (müasir diskursiv sözlər, diskursivlər) deyə təqdim edilir, yəni belə diskursiv ifadələr sözlərlə təsvir edilən reallığı onu təşkil edən elementlər arasındakı əlaqələrdə deyil, dialoq və ya monoloqun struktur elementləri arasındakı implikatur (mətndə sözlə ifadə olunmayan fikir) əlaqələrdə əks etdirən ifadələrdir [1], həmçinin spontan, hazırlıqsız nitq üçün xarakterik olan və əsas semantik yük daşımayan sözlər bu qisim sözlərə aiddir.

Diskursivlərə ekspressiv-funksional nitq hissələri (köməkçi sözlər: "əvvəla", "birincisi", "guya ki", "sanki", "elə bil", "qısacası", "belə ki", "yaxşı ki", "bir sözlə" və s.), bəzi isimlər ("həqiqət", "nəticə" və s.), sifətlər ("doğru", "düzgün" və s.), daha çox zərflər ("aşağıda", "yuxarıda",

"onda" və s.) və ya ifadə-klişelər ("əslində belədir", "ümumiyyətcə bildirmək olar", "kəsəsi". "uzun sözün qısası" və s.) daxil edilir.

Aydındır ki, hər bir mətn sözlərdən ibarətdir və bu mənada, bəlkə də, bütün sözlər diskursivlik kəsb edir, lakin diskursiv vahidlər – dar mənada müəyyən söz qrupuna aiddir: belə deyək, semantik mənanı çatdırmaqda əsas yükü daşıyan isimlər, feillər, sifətlər və digər əsas nitq hissələri deyil, əksinə, köməkçi nitq hissələri, nidalar, yardımçı, anlaşılmaz və tərcüməsi çox çətin olan sözlərdir. İlk baxışdan bu sözlər, demək olar ki, "mətn doldurucu sözlər" kimi görünür, amma əslində onlar həm müəllif, həm də respient üçün vacib ifadələrdir, yəni onlar diskursun qurulmasına kömək edir və ya dilçilərin dediyi kimi, mətnin koqnitiv ardıcıllığını təmin edir. Onlar həmçinin diqqəti obyektlərə və ya hadisələrə cəlb etmək (və ya yayındırmaq), mümkün implikaturaları (mətndə sözlə ifadə olunmayan fikir) idarə etmək funksiyasına xidmət edirlər. Diskursivlərin sintaktik funksiyaları çox vaxt səbəb-nəticə əlaqələrini (belə ki, həm də ki, niyə ki, onunçün ki və s. ifadələri, hə də, hə də ki və s. zərrəcikləri), güzəştliliyi (olsun ki, yəqin ki, mümkün ki, yaxşı, nə isə, keçmiş olsun və s. ifadələr) və digər münasibətləri nümayiş etdirən diskurslar əsasında formalaşır [5].Yeri gəlmişkən, bəzən bu cür sözlərin heç bir aparıcı funksiyası olmadığı və semantik yük daşımadığı üçün onların lazımsız olduğu və nitqdən çıxarılmalı olduğu iddia edilir, buna görə də onlara "doldurucu sözlər" termini(rusca bu termin bir qədər qəribə səslənir: "слова-паразиты") tətbiq olunur.

Diskursiv vahidlərin ifadə vasitələrinin ierarxik istifadə səviyyəsini müəyyənləşdirdikdə məlum olur ki, daha çox zərflər, ədatlar, bağlayıcı və bağlayıcı sözlər, ara və yaxud modal sözlər və bəzi sintaktik ifadələr: frazeoloji ifadələr, habelə tam cümlələr də diskursivlərə aid ola bilir. Dilin diskursiv vahidlərinin cümlə tipli növlərinə paremioloji vahidlər (dilin sabit ifadələri), lakunalar, idiomlar, fərdi düşüncə və davranış stereotipləri hesab edilən sosial-üslubi ifadələri nümunə gətirmək olar. Demək lazımdır ki, adıçəkilən bu diskursivlərin hamısını nitqdə koqnitiv tənzimləyicilik və təşkilatçılıq rolu birləşdirir.

Ənənəvi dilçilikdə diskursiv sözlərə bəzən "modal hissəciklər" də deyilir. Maraqlıdır, "modal hissəciklər", "doldurucu sözlər" və s. bu kimi terminlərlə ikinci, arxa plan elementləri olan diskursiv sözlər niyə ciddi mövzu qismində öyrənilir? Çünki bir insanın bu sözləri nitqində və yaxud yazısında istifadə etməməsi qeyri-mümkündür. Bu sözlər olmadan hər hansı bir dildə danışıq qeyri-təbii, quru və saxta görünərdi. İctimai bir mühitdə necə ünsiyyət qurulduğuna nəzarət etsək görərik ki, istənilən diskurs *"hə", "yox" və ya "bax", "dur", "dayan görüm" "belə deyək", "yəni ki" və bu kimi nitq dəstəkləyici ifadələri, "eee", "aha"* və s. nidaları ilə başlayıb davam etdiriləcək. Doğrudur, belə sözlər "əhəmiyyətsiz" görünə bilər, amma əslində onların geniş ekspressiv-emosional mənaları var və bu mənaların kompleks öyrənilməsi çox vacibdir.

Diskursiv dil vahidləri hər hansı mətnin qavranılmasına bir neçə yolla təsir göstərir: onlar zehni danışıq modelinin qurulmasını, yəni fikir və mühakimələri "emal etməyi" və ya nəql etməyi asanlaşdırır.

Deməli, diskursiv dil vahidləri dedikdə bir dildə nitqin "istehsalı" zamanı müəyyən sintaktik qaydalara uyğun və onun yekunlaşdırıcı mahiyyətini əks etdirən köməkçi semantikalı ifadələr nəzərdə tutulur. Diskursiv marker və yaxud diskurs markeri dedikdə isə diskursun ifadə edilmə axınını və strukturunun idarə edilməsində rol oynayan söz və ya ifadələr nəzərdə tutulur. Mətn qurma mexanizmi kimi diskursiv markerlər diskurs vahidlərinin mühüm funksional sinfi olaraq qalmaqdadır. (Biz belə bir nəticəyə gəlirik ki, "diskursiv marker" termini bu diskurs elementləri üçün daha uyğundur, çünki bu termin onların funksional məzmununu dəqiq əks etdirir. Bundan əlavə, ümumi qəbul edilmiş termindən başqa, bu linqvistik vahidlərin vahid təsnifatı yoxdur və bu da onları Azərbaycan və rus dilli diskurs nəzəriyyəsi daxilində tədqiqatlar üçün zəngin bir sahəyə çevirir.) Diskurs markeri hər hansı bir mətndə mahiyyətcə əhəmiyyətli məna bloklarını qeyd edir və onların təfsir sərhədlərini, həmçinin diskursiv vahidlər arasında məntiqi əlaqələri müəyyənləşdirir.

Diskurs markerinin əsas funksiyası dili nitq və ya cümlə səviyyəsində deyil, düşüncəni diskurs səviyyəsində (nitq uyğunluğu) təyin etmək olduğu üçün, daha doğrusu, sintaksisdən nisbətən sərbəst fikrin müstəqil formasını və yaxud cümlənin şərti "həqiqi qiymətini dəyərləndirmək"dir.

"Başqa sözlə, diskursiv markerlər mətnin təşkilində semantik bütövlüyü təmin etməklə yanaşı, onun qlobal (əlaqəlilik) və lokal (əlaqəlilik) səviyyələrində də uyğunluğunu təmin edir. [2] Yuxarıda deyildiyi kimi, nitqin ardıcıllığını təmin edən diskursiv vahidlər dilin kontekstual-mətn qavranılmasına müəyyən yollarla təsir göstərir, yəni diskurs markerləri vasitəsilə mətn elementləri arasında həm mikro dərəcədə (cümlə, frazadan yuxarı vahid – fraqment,abzas səviyyəsində), həm də makro dərəcədə (bütöv mətn boyu) əlaqələr təmin edilir.

Diskursiv markerlərə misal olaraq – *belə ki,belə deyək ki, indi, onda/o zaman, yaxşı ki, bilirsiniz, zənnimcə, ola bilsin ki, tutaq ki və s.* modal sözləri; *və, lakin, və ya, halbuki və s.* bu kimi bağlayıcılar daxildir ki, respientə müəyyən ekspressiv təsir vasitəsi kimi xidmət edə bilirlər. Yəni diskursiv markerlər dilin və ya nitqin emosional-qiymətləndirici vahidləri vasitəsilə, mətnin bütün struktur və kontekstinin mənasını dəyişdirə, üslub xüsusiyyətlərini müəyyənləşdirə, mətnin(əsərin) personajının və ya müəllifin estetik baxışlarını ifadə edə bilirlər. Diskursiv meyarlar vasitəsilə müəyyən semantik sahədə diskurs yaradılır və dilin qrammatik qaydaları əsasında kommunikativ məqsədli nitq (mətn) çatdırılmağa başlanır. Doğrudur, diskurs markerləri mətnin (əsərin) əhəmiyyətli məna bloklarını, aparıcı abzasları, əsas informasiya və ya məlumatları (məsələn, dünya haqqında yeni biliklər) təqdim etməsələr də, vacib mühakimə və fikirləri vurğulayaraq oxucunun diqqətini ona yönəldirlər. Eyni zamanda diskurs markerləri mətnin əsas ideyasına diqqət yetirməyə kömək edir, yəni sadə üst quruluşa malik mətndə lazımsız detal və linqvistik "artıqlar"dan yayındırır, nəticə etibarilə, mətnin daşıyıcı informasiya mahiyyətinə cəlb edir və diskursiv vahidlər mətnin qavranılması prosesində mühüm rol oynayır, onun başa düşülməsinə və düzgün şərh edilməsinə kömək edir.

Diskursiv vahidlərin elmi təsnifatına aid bir qədər ziddiyyətli mövqelər mövcuddur, çünki dilçilikdə diskursiv vahidlərin denotativ mənaları olmadığı üçün onlar ünsiyyət sahəsinə, iştirak edənlərə, habelə mətndəki vahidlərin funksiyasına və ya onların strukturuna aid ola biləcək müxtəlif meyarlara görə təsnif edilir. Diskursların hansı aspektinin təsnifat üçün əsas götürülməsi barədə fikir birliyi yoxdur [2]. Diskursiv vahidlərin təsnif edildiyi bəzi parametrləri ümumiləşdirərək (diskursun üslubi mövzular üzrə əhatə dairəsi; diskurs iştirakçılarin ideoloji-kommunikativ məqsədləri: polemik, didaktik, monoloq, dialoq, poliloq və s.) problemi məhz dilçilik müstəvisində müəyyənləşdirmək mümkündür. Bunlara aşağıdakı diskursiv vahidləri aid etmək olar: 1)fonetik səviyyənin diskurs-komponentləri. Bunlara prosodik, intonasiya, vurğu, pauzalar, yüksələn və ya enən ton və digər nitq-səs vahidləri daxildir. Fonetik səviyyənin diskurs-komponentləri müxtəlif məntiqi əlaqələri ifadə edir, intonasiyanın köməyi ilə sadalama, qarşılaşdırma, aydınlaşdırma, səbəb-nəticə, qoşulma, yekunlaşdırma kimi arт funksional münasibətləri çatdırır. 2)Leksik-semantik səviyyənin diskurs komponentləri. Bunlar hər hansı bir diskursda xüsusi əhəmiyyətli semantik yük daşıyan sözlər və ya metaforik xarakterli ifadələrdir. 3)Morfoloji səviyyənin diskurs komponentləri. Bunlara paradiqmatik sıralanma daxilində və ondan kənarda morfoloji çevrilmələr, morfosemantik transpozisiyalar, başqa nitq hissəsinə çevrilmələr və s. aiddir. 4)Sintaktik səviyyənin diskus komponentləri. Onlar nitqin frazeoloji və ya klauzometrik (tam predikativlik) parametrlərini təşkil edirlər. Bu sintaktik genişlənmə və ya daralma prosesinə: dislokasiyalar(yerdəyişmələr), parselyasiyalar, ellipslər və sintaktik eksplisitliyi və implisitliyi çatdıran digər vasitələr daxildir. 5)Diskursun mikrostrukturu. Bu, nitqin minimal komponentlərinə – predikasiyaya və ya klauzlara bölünməsi deməkdir. 6) Diskursun makrostruktur komponentləri. Bu, mətnin əsas fraqmentlərə bölünmə prosesi olaraq: hekayədəki epizodlar, qəzet və ya jurnal məqaləsindəki paraqraflar, şifahi dialoqda replika sətirlərini ehtiva edir.

Nəticə: Beləliklə, dilin diskursiv vahidlərinin ümumi qəbul edilmiş mənada denotativ təsnifatı yoxdur, çünki onların mənaları obyektiv deyil və buna görə də yalnız istifadə ilə öyrənilə bilər. Başqa dildə, demək olar ki, dəqiq ekvivalentləri olmadığı üçün onlar çox vaxt "tərcümə olunmaz" sayılırlar. Üstəlik, bir sözün diskursiv və digər istifadə vasitələri arasında çox vaxt koqnitiv-semantik əlaqə olmur. Hətta diskursiv mənanın ziddiyyət təşkil etməsi də mümkündür.

Ədəbiyyat siyahısı

1. Abbasova N.H.“Diskurs” və ya “diskursivlik” fenomeninə elmi baxışın qısa məcmusu (müasir Azərbaycan və Avropa dilçilikləri mövqeyindən). AMEA, Nəsimi adına Diliçilik İnstitutu, “Dilçilik araşdırmaları”jurnalı, 2025, №2. ISSN: 2664-5432 s.171-180.
2. Википедия, “Слова-паразиты”.
3. Карасик, В.И. О типах дискурса, Языковая личность: институциональный и персональный дискурс: Сб. науч. тр. – Волгоград: Перемена, 2000 (а).4. Иванов В. Д. – автор монографии «Функции дискурсивных частиц в немецком языке» (2024). Изд.: «Прометей». 182 с. ISBN: 978-5-00172-556-5
5. Сабирова Л. Дискурсивные слова в русской и туркменской устной речи: сопоставительный аспект, ВПК.
6. Е.И. Голованова, Ю. И. Корсакова “Функциональная семантика дискурсивных маркеров устной речи:динамический аспект”, Челябинск, Россия. DOI .
7. 15826/izv2.2018.20.4.078,удК 811.161.1’373 + 81’42
8. Кытманова Е.А. «Системно-функциональная лингвистика М.А.К. Холлидея и теория жанра» // Преподаватель XXI века. 2024. № 3. Часть 2. С. 356–373. DOI: 10.31862/2073-9613-2024-3-356-373
9. Məmmədova M. “Parselyasiya cümlə üzvlərinin emosional və obrazlaşdırıcılıq norması kimi” Beynəlxalq elmi jurnal. 2021 / cild 15, say 7.e-ISSN: 2708 986X DOI:https: // www.doi.org/ 10.36719/2663-4619/68/20-25.
10. Дискурсивные слова русского языка: контекстное варьирование и семантическое единство: сб. ст. / под ред. К. Л. Киселевой, Д. Пайара. – М.: Азбуковник, 2003. – 206 с.

Nasiba Abbasova

Discursive units of language and their classification

Summary

The article “Discursive units of language and their classification” provides a linguistic interpretation of the concept of “discursive units or discursives” adopted in modern Azerbaijani linguistics. The main methods of studying discursive units, as well as the principles of classification of discursives and the main approaches to their analysis are presented. It is emphasized that discursive units also help to establish regulatory communication, create connections between parts of the discourse, ensure its integrity and attract the attention of the recipient (reader or listener). The author comes to the conclusion that by generalizing some parameters by which discursive units are classified (the scope of the discourse on stylistic topics; ideological-communicative goals of the discourse participants: polemic, didactic, monologue, dialogue, polylogue, etc.), it is possible to determine the problem precisely at the linguistic level.

Keywords: *discourse, cognitive sequence, discursive unit, implicature tools in language discourse marker.*

Насиба Аббасова

Дискурсивные единицы языка и их классификация

Резюме

В статье «Дискурсивные единицы языка и их классификация» представлена лингвистическая интерпретация понятия «дискурсивные единицы или дискурсивы», принятого в современной азербайджанской лингвистике. Представлены основные методы изучения дискурсивных единиц, а также принципы классификации дискурсивов и основные подходы к их анализу. Подчеркивается, что дискурсивные единицы также способствуют установлению регулятивной коммуникации, созданию связей между частями дискурса, обеспечению его целостности и привлечению внимания получателя (читателя или слушателя). Автор приходит к выводу, что путем обобщения некоторых параметров классификации

дискурсивных единиц (тематика дискурса по стилистическим темам; идеологико-коммуникативные цели участников дискурса: полемические, дидактические, монолог, диалог, полилог и др.) можно точно определить проблему на лингвистическом уровне.

Ключевые слова: *дискурс, когнитивная последовательность, дискурсивная единица, инструменты импликатуры в языке, дискурсивный маркер.*

Çapa tövsiyə edən: DTX-nin Heydər Əliyev adına Akademiyası

Rəyçilər: fil.e.d. Mayıl Əsgərov
fil.e.d. Rasim Heydərov

UOT-811.11-112
Səhifə: 44-50
https://doi.org/10.59849/2663-8967.2026.1.44

Rasim Heydərov
Nəsimi adına Dilçilik İnstitutu,
filologiya üzrə fəlsəfə doktoru, dosent
dr.rasimheydarov@mail.ru

DİALEKT FONETİKASININ TƏDQİQİNDƏ EKSPERİMENTAL METODLARIN TƏTBİQİ

XÜLASƏ

Məqalədə fonetikanın yalnız dil səslərini deyil, həm də vurğu, intonasiya kimi superseqment vahidləri, şifahi və yazılı nitq əlaqələrini öyrənən daha əhatəli bir elm olduğu vurğulanır. Dil səsləri təsadüfi fiziki hadisə olmayıb, hər bir dildə müəyyən sistem təşkil edir və dilin qrammatik quruluşunun maddi qabığını təşkil edir. Müasir fonetik tədqiqatlar, xüsusən də fərqli dillərin səsləri arasındakı incə fərqləri müəyyənləşdirmək üçün eksperimental metodların (instrumental fonetika) tətbiqini zəruri edir. Tədqiqatda Azərbaycan dilinin fonetik sisteminin, xüsusən də fonemlərin kombinasiyadakı dəyişiklikləri və intonasiyası baxımından hələ də lazımi səviyyədə, eksperimental üsullarla öyrənilmədiyi qeyd olunur. Təəssüflə bildirmək lazımdır ki, Azərbaycan dilçiliyində, xüsusən də dialekt fonetikasının tədqiqində eksperimental metodlardan (ossilloqrafiya, spektral analiz və s.) demək olar ki, istifadə edilməmişdir.

Nəticə olaraq, qeyd olunur ki, Azərbaycan dilinin zəngin dialekt səslərini və onların intonasiya özəlliklərini dəqiq öyrənmək, habelə dialekt nitqinin tanınması sistemlərini yaratmaq üçün müasir kompüter proqramlarından (Praat, Wave Assistant) istifadə etməklə eksperimental metodların dialekt fonetikasına tətbiqi vacibdir və bu cür tədqiqatların aparılması dilçiliyimiz üçün mühüm nəticələr vəd edir.

Açar sözlər: *fonetika, eksperimental fonetika, dil səsləri, superseqment vahidlər, vurğu, intonasiya, seqment sahidlər.*

Giriş: Fonetikanı, adətən, dil səslərindən bəhs edən elm kimi təqdim edirlər. Lakin fonetikanı yalnız dil səsləri ilə məhdudlaşdırmaq doğru olmazdı. Çünki "ünsiyyətin maddi qabığını təşkil edən bütün vasitələr – səslər, onların əmələ gəlməsi və fəaliyyəti, bir-biri ilə müəyyən əlaqəyə girməsi, habelə səslərin mövcud qayda-qanun əsasında birləşib bu və ya digər məfhumu bildirməsində ən mühüm amil olan vurğu, ayrı-ayrı sözlərin cümlə yaratmasında çıxış edən intonasiya və sair fonetikanın tərkib hissəsini təşkil edir" [10, s.3]. Fonetika eyni zamanda şifahi nitqlə yazılı nitq arasındakı əlaqələri öyrənir, çünki şifahi nitq olmadan yazılı nitqdə müşahidə olunan bəzi spesifik xüsusiyyətləri izah etmək mümkün deyildir.

"Beləliklə, fonetika dildəki səsləri, onların birləşməsi və bir-biri ilə əvəz olunması qaydalarını, bur birləşmədə ən mühüm rol oynayan vurğu və intonasiyanı, habelə yazılı nitqlə şifahi nitq arasındakı əlaqələri öyrənən bir elmdir [10, s.3].

Dil cəmiyyətlə birbaşa bağlı olduğundan ictimai hadisə hesab edilir və hər bir fərd öz fikrini ifadə edərkən səslərdən istifadə etmək zərurətini hiss edir. Bu zərurət isə dil səsləri vasitəsi ilə reallaşır. Dil səsləri isə insan tərəfindən bir işarə kimi dərk edilir və bu işarələri insan eşitmə orqanları ilə qəbul edir. Məlumdur ki, səslər insan nitqinin maddi qabığını təşkil edir və akustik cəhətdən işarələrdən ibarət olub bir-birilərindən fiziki-akustik xüsusiyyətlərinə - rənglərinə görə fərqlənirlər. Bu səslər ilk baxışdan nə qədər "mənalı" vahid kimi görünməsə də, onlar nitq prosesində xüsusi əhəmiyyətə malik səslərdir. L.Zinder yazır: "Səs cəhəti – bu, dilin üçüncü ünsürü deyildir, o yalnız sözlərin və qrammatik vasitələrin mövcud olmasının zəruri formasıdır. Beləliklə, lüğətdə və qrammatik vasitələrin mövcud olmasının zəruri formasıdır. Beləliklə, lüğətdə və dilin qrammatik quruluşunda səs cəhəti öz-özünə nəzərdə tutulur. Müəyyən mənada demək olar ki, lüğət və

qrammatik quruluş dilin məzmununu, səs cəhəti isə onun maddi qabığını, onun fiziki formasını təşkil edir" [16, s.8]. A.Axundov isə L.Zinderin bu fikrinə qarşı çıxaraq qeyd edir ki, alimin bu fikri ümumi dilçilik ənənəsinə qarşıdır və yalnız fiziki nöqteyi-nəzərdən doğrudur və səslər sözlərin və qrammatik quruluşun maddi qabığı olmaqla xüsusi mənaya malik olmayan hava dalğalarının müxtəlif hərəkətləridir. Alimin fikrincə, linqvistik cəhətdən isə, L.Zinderin bu fikirlə razılaşmaq olmaz. Çünki məsələnin göstərilən şəkildə qoyulması danışıq səslərinin linqvistik mahiyyətinin, onların funksional mövcudluğunun tamamilə inkar edilməsi deməkdir. "Məlum olduğu üzrə, danışıq səsləri akustik vahid olmaq etibarı ilə fiziki hadisə olsalar da, onlar başqa akustik xarakterli fiziki hadisələrdən tamamilə fərqlənirlər. Bu səslər insanın çıxardığı müxtəlif səslərdən ciddi surətdə ayrılır. Bunlar hər hansı səslər deyil, bu və ya digər dilin daxilində biri-biri ilə müəyyən əlaqədə olan, müəyyən sistem təşkil edən səslərdir. Məsələn, Azərbaycan dilində hər hansı gələcək bir zamanda, nəzəri olaraq deyək ki, "narış", "qaraq" və s. tipli sözlər əmələ gələ bilər. Lakin Azərbaycan dilində heç bir zaman "rşnaı", "qqraa" tipli sözlər əmələ gələ bilməz. Eyni xarakterli müxtəlif misalları Azərbaycan dilinin qrammatik quruluşuna aid də göstərmək olardı. Ümumiyyətlə, bu hal dünya dillərinə xas bir xüsusiyyətdir" [3, s.9].

Deyilənlərdən bir daha aydın olur ki, dildə səslərin ardıcıllığı xüsusi əhəmiyyət kəsb edir və hər bir dildə səslərin özünəməxsus ardıcıllığı vardır. Bu bir daha onu göstərir ki, dil səsləri heç də təsadüfi səslərdən ibarət deyil, əksinə hər bir səsin dil sistemində öz yeri vardır və onun bir halqasını təşkil edir. Yəni sözlər və qrammatik quruluş hər hansı maddi əsas təşkil edən səslərin təsadüfi birləşməsi olmayıb onların sistem daxilində müəyyən qanunauyğun birləşməsini əmələ gətirir. Bu mənada danışıq səsləri müəyyən bir sistem təşkil edərək, dilin ümumi strukturunda müstəqil bir mövqe tutur və dil sisteminin digər vahidlərinə - leksemlərə, morfemlərə və sintaqmlara qarşı durur. Bu mənada dilin səs sisteminin öyrənilməsi olduqca vacibdir. Digər tərəfdən "fonetika dilin səs vasitələri haqqında elm kimi, bir neçə elmin – dilçilik, psixologiya, fiziologiya, akustikanın qovşağında yerləşdiyi üçün ümumi fonetika məsələlərinin həllinə ayrıca tədqiqatların həsr olunmasını şərtləndirir" [13, s.3].

Dilin ayrı-ayrı səslərinin nitq axınında fərqləndirilməsi ancaq səslənmə ilə fərqlənmir. Eyni bir səs müxtəlif dillərin daşıyıcıları tərəfindən səslənmə baxımından müxtəlif cür qiymətləndirilə bilər. Məsələn, koreyalılar "r" və "l", ərəblər "o" və "u" səslərini fərqləndirməyə bilərlər. Eyni zamanda Azərbaycan dilində "ü" və "u" səslərini başqa dil daşıyıcıları fərqləndirməyə bilər. Bu mənada, ayrı-ayrı səslərin və onların eyni və ya müxtəlif səslər kimi qiymətləndirilməsi dil quruluşundan asılıdır.

Dilçi alimlərin fikrincə, dildə neçə fərqli səsin istifadə edildiyini bilmək üçün iki məsələni həll etmək lazımdır: 1. Nitq axınını ayrıca səslərə - minimal səs kəsiklərinə ayırmaq; 2. Hansı səslərin eyni, hansıların isə fərqləndiyini müəyyən etmək [13, s.6].

Müxtəlif dillərdə olan oxşar səslər ilk baxışda eynilik təşkil etsə də əslində hər bir dilin səsi müəyyən məxrəc sabitliyinə malikdir və dünyada hətta qohum dillərin səsləri belə çox vaxt eyniyyət təşkil etmir. Müxtəlifsistemli dillərdə isə bu fərqlər kifayət qədər ciddi olur. "Müqayisə göstərir ki, rus və Azərbaycan dillərinin sait sistemi əsaslı şəkildə bir-birindən fərqlənir. Əgər bu iki dildəki sait sistemini qəlib kimi təsəvvür etsək, həmin qəliblərdə a – a, ı – ı, o – o, i – i, e – e birbirinin üzərinə düşəcəkdir. Qeyd etmək lazımdır ki, burada söhbət eynilikdən deyil, oxşarlıqdan gedir. Bu o deməkdir ki, bir-birinə oxşar kimi qələmə verdiyimiz iki dil fonemi akustik və artukulyator baxımdan eynilik təşkil edə bilməz. Məsələn, əgər rus dilindəki /o/ saiti sözün əvvəlində /i/ saitinə bənzər elementdən başlayaraq diftonqoid xarakter kəsb edirsə, Azərbaycan dilindəki /o/ saitində bunu görmək mümkün deyildir. Üst-üstə yerləşdirilmiş iki dilin sait sistemləri sxemində elə sait fonemlər nəzərə çarpır ki, onlar qarşılaşdırılan dillərdən yalnız birinə mənsubdur. İlk dil saitlər sisteminin qarşılaşdırılması zamanı qarşıya çıxan fərqləri kontrastlar adlandırmaq olar" [8, s.6].

Bu cür səslərin fərqləndirilməsi üçün isə dil səslərinin müəyyən cihazlar vasitəsi ilə öyrənilməsi zərurəti yaranır. "Ümumiyyətlə, qeyd etmək lazımdır ki, dil vahidlərini nitq zəncirində eksperiment yolu ilə tədqiq etmədən həmin dilin fonetik xüsusiyyətləri haqqında konkret fikir söyləmək çətindir" [8, s.6].

Seqment və supraseqment vahidlərin təhlilində son zamanlar da eksperimental metodlardan geniş istifadə edilir. Xüsusən də son illər bu sahədə "Praat" "Wave Assistant" və digər bu kimi proqramların yaradılması bu sahədə ciddi irəliləyişlərin olması ilə nəticələnmişdir.

Amma qeyd olunmalıdır ki, eksperimental metodların bu qədər ciddi yayılmasına baxmayaraq, Azərbaycan dilinin dialekt fonetikası indiyə qədər hələ də eksperimental üsullarla tədqiqata cəlb edilməmişdir. Nəinki dialekt fonetikası heç ədəbi dilin fonetikası ilə bağlı da tam olaraq məsələlərin həll olunduğunu demək mümkün deyildir. Hələ ötən əsrin 80-ci illərində tədqiqatçılar bu sahədə ciddi boşluqların olduğunu qeyd etsələr də hələ də bu boşluqlar özünü göstərməkdədir. "Qeyd etmək lazımdır ki, Azərbaycan dilinin fonetik strukturu eksperimental fonetika və fonologiyanın, habelə ümumi dilçilik metodları və nəzəriyyələri baxımından hələ lazımi səviyyədə öyrənilmədiyi heç bir şübhə doğurmur. Açığını demək lazımdır ki, Azərbaycan dilinin fonem tərkibinin müəyyənləşdirilməsi kriteriyaları ilə də tam mənada razılaşmaq olmaz. Dilçilik ədəbiyyatında rast gəlinən mülahizələr birtərəfli xarakter daşıyır. Hələ indiyə qədər Azərbaycan dili orfoepiya lüğəti yoxdur. Əldə edilmiş nəticələr isə təcrid edilmiş səslərə əsaslanır. Fonemlərin kombinasiyada götürülməsi, mövqedən asılı olaraq dəyişikliyə uğraması və nitq zəncirində bu dəyişiklikləri təsbit edən amillərin aşkar edilib, fonetik cəhətdən öyrənilməsi Azərbaycan dilçiliyi qarşısında duran aktual məsələlərdəndir" [8, s.6].

Qeyd etmək lazımdır ki, deyilən fikirlərdən yarım əsərə qədər vaxt keçsə də bu fikirlər hələ də öz aktuallığını saxlayır. Doğrudur, bu dövrdə xeyli iş görülmüş, ciddi tədqiqatlar da aparılmışdır, amma ümumilikdə məsələnin həlli hələ də tam olaraq yekunlaşmamışdır.

1. Dialekt fonetikasında eksperimental metodlar. Eksperimental metodlardan istifadə fonetik tədqiqatların aparılmasında xüsusi əhəmiyyət kəsb edir. Çünki eksperimental metodların köməyi ilə fonetik tədqiqatlarda daha dəqiq nəticələr əldə edə bilərik. Artıq qeyd etdiyimiz kimi, ümumiyyətlə, eksperiment olmadan fonetik tədqiqatların aparılması müasir dövrdə heç də normal hal hesab edilmir. Nəzərə almaq lazımdır ki, müasir kompüter proqramları bu işin aparılmasını kifayət qədər asanlaşdırır. "Eksperiment elə incə məqamları tutmağa imkan verir ki, onları tədqiqatçı adi eşitmə ilə anlaya bilməz. Məsələn, həmişə adi eşitmə ilə Azərbaycan dilində söz sonunda /r/ səsinin xüsusiyyətlərini müəyyənləşdirmək mümkün olmur, amma qeyd edilən cihazların köməyi ilə bu hadisənin akustik mənzərəsini almaq olar" [14, s.6]. "Ekperimental fonetika müəyyən cihazlar köməyi ilə həm ayrı-ayrı dillərin həm də dil ailələrinin səslərinin akustik və fizioloji tərəflərini öyrənir" [12, s.497]. Bu səbəbdən də bəzən dilçilər arasında ekperimental fonetika anlayışının özü də birmənalı qarşılanmır. Belə ki, eksperimental fonetika çox vaxt insturimental fonetika anlayışı ilə ifadə olunur. Bu barədə danışarkən, M.V.Qordina yazır: "XIX əsrin 90-cı illərində geniş işlədilən "eksperimental fonetika" termininin əvəzinə O.Yespersenin "insturimental fonetika" terminini irəli sürür və haqlı olaraq göstərirdi ki, eksperiment xüsusi cihazlar olmadan da qoyula bilər" [15, s.479].

Tədqiqatçılar fonetika sahəsində tətbiq olunan metodları ümumiləşdirib aşağıdakı kimi qruplaşdırırlar:

1. Müşahidə metodu.
2. Somatik metod.
3. Pnevmatik metod.
4. Ossilloqrafik metod.
5. Spektral metod.
6. Kombinatır metod.

Tarixi-müqayisəli metod [8, s.3].

Məlumdur ki, dilin mövcudluq forması olan səslər mürəkkəb bir dil hadisəsidir. Öz mürəkkəbliyi ilə seçilən səslərin öyrənilməsinə dilçilikdə dörd aspektdən yanaşılır: 1. artikulyator və ya fizioloji; 2. akustik; 3. perseptiv və 4. funksional [10, s.3].

Dil səslərinin akustik planda öyrənilməsi üçün xüsusi rezonatorlar (Helmqolç rezonatorları) və komertonları istifadə edilir və onların köməyi ilə səsin əsas tonu kimi musiqi yüksəkliyi və ona xarakterik olan tembr tonu müəyyənləşdirilir.

Eksperimental fonetikanın daha bir üstün cəhəti isə səsləri təcrid olunmuş şəkildə deyil, digər səslərlə qarşılıqlı münasibətdə öyrənməyin mümkünlüyüdür. Səslərin ayrılıqda öyrənməyin qənaətbəxş olmadığını hələ F.Sössür öz tədqiqatında qeyd edirdi. "Fonologiya öz əsas prinsiplərinin axtarışında təcrid edilmiş səslərə üstünlük verirsə, bu sağlam təfəkkürə ziddir. İkitərəfli birləşmə ilə üz-üzə gəlincə fonologiya köməksiz qalır. Səs birləşmələri içərisində nəyin baş verdiyini başa düşmək üçün elə bir fonologiya yaratmaq lazımdır ki, burada bu səs birləşmələrinə cəbri bərabərliklər kimi yanaşılsın" [6, s.479]. "Ümumiyyətlə, qeyd etmək lazımdır ki, dil vahidlərini nitq zəncirində eksperiment yolu ilə tədqiq etmədən həmin dilin fonetik xüsusiyyətləri haqqında konkret fikir söyləmək çətindir" [8, s.6].

Eksperimental metodlar eyni zamanda supraseqment vahidlərin öyrənilməsində geniş istifadə olunur. Xüsusən, son illər Praat kimi kompüter proqramlarının yaradılması bu prosesi daha da asanlaşdırır. Bu tip proqramların köməyi ilə tədqiqatçı fonemləri həm tədric edilmiş halda, həm də istənilən dil vahidinin tərkibində öyrənə bilir.

Eksperimental metodla səslərin öyrənilməsinin uzun bir tarixi vardır. Qəbul olunmuşdur ki, fonetik tədqiqatlarda bu istiqamət XIX əsrin sonlarında meydana gəlmişdir. Həqiqətən də, XIX əsrin 80-90-cı illərində bir sıra instrumental metodlar hazırlandı, XX əsrin əvvəllərində isə bir sıra ölkələrdə səsin artikulyasiyasını və akustik xarakteristikasını öyrənmək üçün bir sıra cihazların istifadə olunduğu eksperimental fonetika laboratoriyaları yaradıldı. Lakin buna qədər səsin öyrənilməsi üçün bir sıra primitiv və dövrün tələblərinə cavab verən cihazlardan istifadə olunurdu. Bir sıra dilçilərin fikrincə, A.fon Halvaqın (A.Von Hellwag, 1786) əsəri eksperimental fonetikanın yaranması tarixində ilk addım kimi götürülə bilər. Həmin əsərdə saitlərin tələffüz məxrəci üzərində apardığı müşahidələrə əsasən müəllif ilk dəfə olaraq alman saitlərinin üçbucağını tərtib etmişdir. Bu üçbucaq indiyə qədər öz dəyərini itirməmişdir [8, s.71].

Əgər səslənən nitqin xüsusiyyətləri barədə müxtəlif obyektiv verilənləri və instrumental tədqiqatların çeşidli vasitələrini nəzərə alsaq instrumental metodikaların dörd tətbiq sahəsini nəzərdən keçirmək olar:

1) ayrı-ayrı səslərin artikulyasiyasının öyrənilməsi;
2) səsəmələgəlmənin öyrənilməsi (qırtlağın quruluşunu və fəaliyyəti);
3) intonasiya və vurğunun akustik əlamətlərinin tədqiqi;
4) sait və samitlərin akustik xüsusiyyətlərinin tədqiqi.


Artikulyasiyanın ilkin öyrənilməsi nitq orqanlarının hərəkətinin müşahidəsi ilə həyata keçirilirdi. Bu cür ilk olaraq dodaqların hərəkəti və vəziyyətinə nəzarət etmək olar. Bu zaman dilin də saitlərin yaranmasındakı rolunu da müşahidə etməmək olmurdu. Samitlərin artikulyasiyası isə daha asan hiss olunur. Bəlkə də buna görədir ki, artıq antik dövrlərdə nəyinki dodaq samitləri [p-b], eyni zamanda digər iki partlayan cütlüyün [t-d, k-g] təsviri düzgün verilmişdir. Amma görünən uc hissəsinə daha çox diqqət yetirildiyindən səhvlər də olurdu.

İnsanın anatomiyası və fiziologiyasının öyrənilməsinin inkişafı ilə bağlı nitq orqanlarının təsviri və şəklinin çəkilməsi ənənəsi meydana gəlir. XVI-XVII əsrlərdə yaşayan italyan həkimi və anatomu Fabrisiy ab Akvapendente nitq orqanlarının onların izahı ilə birlikdə şəklini nəşr etdirir və nitq səslərinin artikulyasiyasını təsvir edir. XVII əsrin ikinci yarısında isə Uilkins təsvir edilən səsin tələffüzü zamanı artikulyasiya orqanlarının vəziyyəti müəllifin öz təsəvvüründə olduğu kimi təsvir edilir.


XIX əsrin ortalarında artikulyasiya üzvlərinin vəziyyəti barədə dəqiqləşdirilmiş obyektiv məlumatları fizioloqlar tərəfindən zondlaşdırma vasitəsi ilə alınmışdır. Merkel bu vasitə ilə dilin [ʃ] səsinin tələffüzü zamanı aldığı vəziyyəti müəyyənləşdirmişdir. Zondlaşdırma həm də yumşaq damağın vəziyyətini müəyyənləşdirmək üçün də istifadə edilirdi. XIX əsrin 50-ci illərində fizioloq Çermak müxtəlif səslərin artikulyasiyası zamanı yumşaq damağın fəaliyyətini larinqoskop vasitəsilə öyrənmişdir. Bu metodla müəyyənləşmişdir ki, yumşaq damaq müxtəlif saitlərin səslənməsində eyni dərəcədə qalxmır: ən çox [i] səsidə, ən az [a] səsində qalxır [15, s.482].

Sonrakı mərhələdə dilçilikdə bu cihazlar artdı və ən son cihazlardan Azərbaycan dilçiliyində də istifadə olunur. Xüsusən, A.Axundovun tədqiqatlarında biz eksperimental metodların tətbiqinin dilin fonetik sistemində dəqiq nəticələrin alınmasına necə kömək olduğunu şahidi oluruq.

A.Axundov öz tədqiqatlarında dövrünün ən qabaqcıl texnologiyalarından istifadə edərək Azərbaycan ədəbi dilinin bütün fonetik sistemini olduqca dəqiq tədqiq edə bilmişdir. A.Axundov öz tədqiqatlarında eyni zamanda statistik metodlardan da istifadə etməklə Azərbaycan dilinin səs sistemini tədqiq etmişdir. Alim tədqiqatlarında eyni zamanda Azərbaycan dilinin intonasiyasını da tədqiq edərək sintaqmatik fonetika sahəsində də bir sıra yeni nəticələr əldə etmişdir. Alim "i" saitinin rentgenoqramını və fotoşəklini təqdim edir və yazır: "**İ** saitinin tələffüzü zamanı dil bütün gövdəsi ilə irəli verilir və onun ön və orta hissəsi damağa doğru qalxır. Yumşaq damaq burun boşluğunun yolunu tutur. Üst dodaq alt dodaqdan aralanaraq sədaya yol açmaq üçün bir qədər yuxarı qalxır" [8 s.27].




[i] səsinin rentgenoqramı




[i] saitinin tələffüzü zamanı dodaqların vəziyyəti.


[**i**] səsinin akustik xüsusiyyətlərini də esperimental metodlarla müəyyənləşdirən alim yazır: "**İ** saitinin maraqlı akustik xüsusiyyətləri də vardır. Söz tərkibindəki tutduğu mövqedən asılı olaraq, **i** saiti müxtəlif akustik kəmiyyət və keyfiyyətdə tələffüz olunur. Bu cəhətdən onun işləndiyi müxtəlif sözlərin kimoqrafik əyriləri maraqlı məlumatlar əldə etməyə imkan verir. Məsələn, *isti* sözünün kimoqrafik əyrisinə diqqət edək" [2, s.27].



İsti sözünün kimoqrafik əyrisinin izahından sonra, müəllif "**i**" saitinin vurğusuz hecadakı kəmiyyəti haqqında ossiloqrafik tədqiqat da eyni nəticəni vermişdir. Müəllif *ipək* sözündəki **i** saitinin kəmiyyəti cəmisi 94 m. san* olduğunu qeyd qeyd edir [2, s.28].



Məlum olduğu kimi, Azərbaycan dilində **i** saiti vurğulu hecada vurğusuz hecaya nisbətən kəmiyyətcə fərqlidir. Çünki bu səs öz akustik keyfiyyətini vurğulu hecada tapır. Bu fərqi müəllif ***biz*** sözünün ossioloqrafik əyrisində verir.



[biz] sözündə [**i**] səsinin ossioloqramı [15, s.29].

Alim Azərbaycan dilinin bütün səs sistemini bu qaydada təhlil edir.

Son illər Azərbaycan dilinin fonetikasının eksperimental yolla tədqiqi sahəsində bir çox dilçilərin, o cümlədən, F.Veysəlli də xeyli iş görmüşdür. Xüsusən də, onun Azərbaycan dilinin superseqment vahidlərinin tədqiqində rolu danılmazdır [Bax: 7].

Təəssüflə qeyd olunmalıdır ki, bu sözləri biz Azərbaycan dilinin dialekt fonetikası haqqında deyə bilmirik. Baxmayaraq ki, Azərbaycan dialektlərinin tədqiqi dilçiliyimizdə həmişə diqqət mərkəzində olmuş, bununla bağlı olduqca sanballı əsərlər yazılmışdır. Bəlkə də bu sahə dilçiliyi-

mizin ən öndə olan sahəsi olmuş və hazırda da bu sahədə yazılan əsərlər özünün fundamental xarakteri və hərtərəfliliyi ilə digər sahələrdən irəlidə gedir. Təkcə "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası"nın [8, s.479] və "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası"nın [9, s.479] nəşri dilçiliyimizdə bu sahənin nə qədər inkişaf etdiyini göstərir. Lakin bu tədqiqatlarda eksperimental metodlardan ya istifadə olunmur, ya da bu məsələlərə çox az yer verilir.

2016-cı ildə nəşr olunmuş M.Cəfərzadənin "Azərbaycan dilinin dialekt sintaksisi" [10] monoqrafiyası dialekt sintaksisini tam əhatə etsə də əsərdə intonasiyaya çox az yer verilir. Nəzərə alsaq ki, Azərbaycan dialektlərində intonasiyanın çox zəngin nümunələrinə rast gəlmək olur, onda bu sahənin tədqiqində eksperimental metodların nə qədər faydalı ola biləcəyini görə bilərik.

Məlumdur ki, dillərin təsvirində fonetik hadisələrə münasibət baxımından dilçilər fonologiyanın iki müxtəlif tədqiqat obyektini – fonematika və prosodiyanı fərqləndirirlər. Bununla əlaqədar olaraq, dilin fonoloji ünsürləri (elementləri) və ya vahidləri iki qrupa fonemlərə və prosedemlərə ayrılır. Birincilər seqment vahidlər, ikincilər isə superseqment (və ya supraseqment) vahidlər adlanır. Bu bölgüyə müvafiq fonologiyanın iki şöbəsi mövcuddur. Fonemləri, onların variantlarını, fərqləndirici (diferensial) əlamətlərini, habelə birləşmə və sıralanma xüsusiyyətlərini öyrənən sahə fonematika, prosedemləri (vurğu, ton, intonasiya, həmçinin səslərin kəmiyyətini) öyrənən sahə isə superseqment fonetika adlanır [1, s.3].

Superseqment fonetikanın tədqiqi seqment vahidlərin tədqiqinə nisbətdə daha çox çətinliklər törədir. "Nəzəri cəhətdən fonematik və prosodik hədlərin fərqləndirilməsi bir o qədər də çətin deyildir. Çətinliklər prosodik vasitələrin dəqiq öyrənilməsi, onların fiziki-akustik, həm də funksional mahiyyətinin tədqiqi zamanı özünü göstərir. Doğrudan da, bu və ya digər dildə danışan hər kəsə sait və samitin nə olduğu məlumdur. Halbuki ton, vurğu, intonasiya və s. nə olduğunu hətta professional dilçilərin özləri belə bir o qədər də qənaətbəxş şəkildə müəyyənləşdirə bilmirlər [5, s.3]. Bu mənada superseqment vahidlərin dialekt fonetikasında da öyrənilməsi üçün eksperimantal metodların tətbiqi yaxşı nəticələr verə bilər.

Eksperimental metodlar son illər dialekt nitqinin tanınması sistemlərinin yaradılması üçün də istifadə edilir [16]. Belə ki, məhz ekperimental üsullar və statistik metodların köməyi ilə bir sıra dillərin dialektlərinin tanınması sistemləri yaradılmışdır. Bununla bağlı Azərbaycanda da müəyyən işlər görülsə də təəssüflə qeyd olunmalıdır ki, bu tədqiqatlar birtərəfli aparılır və dilçi mütəxəssislərin iştirakı olmadan aparılan bu tədqiqatların ciddi nəticələr verəcəyinə ümid azdır [10]. Qeyd olunmalıdır ki, dialekt nitqinin tanınması kriminalistik ekspertiza sahəsində, hərbi vəziyyətlərdə diktorun identifikasiyası məsələsində və s. də geniş tətbiq olunur.

Nəticə: Nəticə olaraq onu qeyd edə bilərik ki, bu günə qədər Azərbaycan dilinin dialekt fonetikasının tədqiqində eksperimental metodlardan istifadə edilməmişdir. Lakin biz eksperimental metodlardan istifadə etməklə dilimizin zəngin dialekt səslərini daha dəqiq öyrənə bilər, eyni zamanda dialektlərinin intonasiyasını özəlliklərini tədqiqata cəlb edə bilərik. Bu cür tədqiqatların aparılması üçün isə ilk növbədə səs materialının toplanması və müasir kompüter proqramlarından istifadə mühüm əhəmiyyət kəsb edir. Qeyd olunmalıdır ki, səs materiallarının toplanması və dialekt korpusunun yaradılması baxımından son illər xeyli iş görülmüş, Naxçıvan dialekti, Şərqi Zəngəzur və Qarabağ atlaslarının hazırlanması zamanı xeyli material toplanmış, bu dialektlərin fonetik tərkibi də ənənəvi baxımdan təhlil edilmişdir. Lakin təəssüflə qeyd olunmalıdır ki, bu tədqiqatların aparılması zamanı da eksperimental metodlara müraciət olunmamışdır. Fikrimizcə, bu metodların tətbiqi dialekt fonetikasının tədqiqində də mühüm nəticələrin alınmasına kömək edə bilər.

Ədəbiyyat siyahısı

1. Вейсалли Ф. Я., Ахмедов Дж. С. Об эксперименте в фонетике и о некоторых вопросах экспериментальной фонетики. // F.Veysəlli. Seçilmiş əsərləri. I c. B., Mütərcim, 2009, s.21-33
2. А.Ахманова. Словарь лингвистических терминов. М., Изд. Сов. Энциклопедия, 1969, 608 с.
3. М.В. Гордина. История фонетических исследований (от античности до возникновения фонологической теории). СПб.: Филологический факультет СПбГУ, 2006, 538 с.

4. F.de Sössür. Ümumi dilçilik kursu. B., BDU, 2003, 408 s.
5. Z.Verdiyeva, F.Veysəlov, F.Ağayeva. Eksperimental fonetika. I c. B., ADU nəşr, 1980, 84 s.
6. A.Axundov. Azərbaycan dilinin fonetikası. B., Maarif, 1984, 392 s.
7. F.Veysəlli. Seçilmiş əsərləri. I cild, B., Mütərcim, 2009, 640 s.
8. Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası. B., Elm və təhsil, 2015, 312 s.
9. M.Cəfərzadə. Azərbaycan dilinin dialekt sintaksisi. B., Elm və təhsil, 2016, 380 s.
10. Ağayeva F. Azərbaycan dilinin intonasiyası. Bakı, APİ nəşri, 1978, 94 s.
11. Heydarov R.A., Jafarov A.G., Habibova K.A. Software for experimental methods in phonetic research. Advances in Economics, Business and Management Research, volume 81 / 1st International Scientific Conference "Modern Management Trends and the Digital Economy: from Regional Development to Global Economic Growth" (MTDE 2019)
12. Имамвердиев Я.Н., Сухостат Л.В. Распознавание диалектов на основе акустической модели. // İnformasiya texnologiyaları problemləri, 2016, №2, s. 40–45
13. Veysəlov F. Alman dilinin fonetikası. Maarif, 1980, 192 s.
14. Зиндер Л. Обшая фонетика. Л., 1960
15. Axundov A. Azərbaycan dilinin fonemlər sistemi. Bakı, Maarif, 1973, 304 s.

Rasim Heyderov

The application of experimental methods in the investigation of dialectal phonetics and their prevalence in the rescarch of dialects

Summary

The article tells about the prevalence of experimental methods in the prevalence of experimental methods in the investigation of dialectal phonetics/ in a whole the experiment gives the possibility to catch such weak points which the researcher cannot perceive by means of o simple audition. The application of these methods in the research of the Azerbaijani dialects will create conditions for improvement of the future investigations.

Key words: *Azerbaijani language, experiment, dialect, phonetics, experimental phonetics, dialectological atlas*

Расим Гейдаров

Применение экспериментальных методов в изучении диалектной фонетики и их преимущество в исследовании диалектов

Резюме

В статье говорится о преимуществе экспериментальных методов в исследовании диалектной фонетики. В целом эксперимент дает возможность уловить такое тонкие моменты, которые исследователь не может постичь с помощью простого прослушивания. Применение данных методов и в изучении азербайджанских диалектов создаст условия для усовершенствования будущих исследований.

Ключевые слова: *азербайджанский язык, экспериментальная фонетика, диалект, фонетика, экспериментальная фонетика, диалектологическая атлас.*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***professor İlham Tahirov***
fil.e.d.,dos.Nərmin Əliyeva

UOT-811.11-112
Səhifə: 51-58
https://doi.org/10.59849/2663-8967.2026.1.51

Pərvin Bayramova
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
filologiya üzrə fəlsəfə doktoru
hesenova-88@mail.ru

EFFEKTİV ÜNSİYYƏT PROSESİNDƏ DİLİN ROLU

XÜLASƏ

İnsanlar bir-birini daha yaxşı başa düşmək məqsədilə dildən istifadə edirlər və onun vasitəsilə dərk etmə prosesinə qoşulurlar. Effektiv ünsiyyət prosesində dildən düzgün şəkildə istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Dil ünsiyyət prosesinin gedişinə, davamına və nəticəsinə ciddi şəkildə təsir göstərir. Dil özünəməxsus müəyyən şifahi və yazılı forma ilə və ya müxtəlif simvolların vasitəsilə insan ünsiyyətini təmin edir. Dil elə bir sistemdir ki, burada sözlərin mənalı və dolğun şəkildə birləşməsi ilə insanlararası ünsiyyət reallaşmış olur. Dil insanları ünsiyyət prosesində birləşdirdiyi kimi eyni zamanda onları bir-birindən ayırır. Ünsiyyət prosesi üçün dil çox vacibdir. Dil vasitəsilə ünsiyyətə qoşulan insan özünü ifadə edir, tanıdır, digərlərini tanıtdırır, hətta dağınıq hesab olunan informasiyanı öz istəyinə uyğun dəyişdirərək ötürür və bütün proseslərin məntiqi yekunu kimi öz məqsədlərinə çatır.

Açar sözlər: *effektiv ünsiyyət, dil, koheziya, koherensiya.*

Giriş. Ünsiyyət prosesi sosioloji, psixoloji aspektlərdən araşdırılsa da, onun ən mühüm əlaqədə olduğu vasitələrdən biri də dildir. Dil ünsiyyət üçün olduqca vacib və ən zəngin vasitə hesab edilir. "*Dil duyğuların və düşüncələrin bir insandan digərinə ötürülməsinə kömək edən, səslər, simvollar, işarələr, duruş (bədən vəziyyəti) və müəyyən məna ifadə edən jestlər vasitəsilə baş verən, tamamilə insana xas bir fəaliyyət növüdür*" [1, s. 4]. Bir sözlə, ünsiyyət prosesində duyğu və düşüncələrin ötürülməsində dil insanlararası ünsiyyətdə əvəzsiz rol oynayır və insan fəaliyyətini dil olmadan təsəvvür etmək mümkün deyildir.

Dil cümlələri anlamaq üçün müəyyən elementlərin birliyindən ibarətdir və onlar birləşərək insanlar arasında sonsuz sayda mesajların göndərilməsini təmin edir. *"Fərqində olsaq da olmasaq da, siyasi, sosial, hüquqi və təhsil fəaliyyətləri də daxil olmaqla insanların çoxu ünsiyyətdə dildən güclü şəkildə istifadə edirlər. Dilin rolu insanın müxtəlif gündəlik fəaliyyətlərində çox dominant hal alır, dil olmadan heç bir hərəkət mövcud olmur. Dil həyat üçün yol göstərici kimi qəbul edilən, istifadə olunan məna və dəyərlər yaradır. Dünya sivilizasiyasının tarixi əslində dilin tarixidir"* [2, s. 46]. İnsanın fəaliyyət göstərdiyi və mövcud olduğu bütün sahələrdə dil vardır və dilin də olduğu istənilən yerdə kommunikasiya mövcuddur, çünki dil olmadan kommunikasiyadan danışmaq doğru olmaz. Doğurdan da, kommunikasiya prosesindən bəhs edərkən ilk ağıla gələn məsələ məhz dil olur, çünki informasiyanın əsas yükü dilin üzərinə düşür. "*İnsanlar dil vasitəsi ilə ünsiyyət qururlar. Baxmayaraq ki, dil ünsiyyətin yeganə vasitəsi deyil. Ünsiyyət haqqında düşünüləndə, onu həmişə dillə əlaqələndiririk. Dil fikirlərimizi, düşüncələrimizi, hisslərimizi, dünyagörüşümüzü təqdim etmək üçün istifadə etdiyimiz vasitədir*" [3]. Dil və ünsiyyət bir-biri ilə qarşılıqlı əlaqədədir, insanların ideyaları və düşüncələrinin ötürülməsində dil kimi ikinci vasitə yoxdur. Bu baxımdan əminliklə qeyd edə bilərik ki, dil olmadan həyatımızı təsəvvür edə bilmərik, çünki insanların fəaliyyətində dil hər şeyin təməlidir. Bütün münasibətlərin formalaşmasında, qorunub saxlanılmasında dilin mühüm rolu vardır, eləcə də bəzən münasibətlərin korlanması da dildən doğru şəkildə istifadə olunmamasının nəticəsidir. "*Dil həyatımızda çox vacib bir yer tutur. O, etdiyimiz hər şey üçün təməldir. Dil olmasaydı, bildiyimiz kimi, insan sivilizasiyası qeyri-mümkün olaraq qalardı. Dilin mənşəyi haqqında müxtəlif fikirlərə baxmayaraq, olduqca aydın olan bir şey, onun həyatımızın hər yerində mövcud olmasıdır. Bu, çox mürəkkəb bir fenomendir. Səslərdən və ya şərti simvol-*

lardan istifadə etməklə sistematik ünsiyyət vasitəsidir. Beləliklə, dilin əsas məqsədi ünsiyyətdir. O, məlumatı mənbədən qəbulediciyə ötürür, hər bir siqnalın ixtiyari, lakin şərti olaraq müəyyən edilmiş dəyəri olan bir sıra siqnallarla işləyir. Lakin dil yalnız ünsiyyət vasitəsi deyil; o, həmçinin bəzi digər əsas funksiyaları da yerinə yetirir" [4, s. 539]. Dilin əsas məqsədi ünsiyyət hesab olunur və o bütün vasitələrin köməyi ilə məlumat mübadiləsinə xidmət edir.

İnsan özünüdərk etməyə başladığı gündən etibarən düşünür, hiss və duyğularını digərləri ilə paylaşmaq ehtiyacı hiss edir və nəticədə, ünsiyyət prosesinin qurulması başlanılır. Hiss və düşüncələrin, arzu və istəklərin paylaşılması dilin vasitəsilə reallaşır. Ancaq dildən də elə istifadə etmək lazımdır ki, insanın ehtiyaclarını təmin etmiş olsun. "*Buna görə də, ünsiyyət üçün dilin strukturuna yiyələnmək kifayət deyil; ünsiyyətin aparıldığı qanun və qaydaları bilmək də tələb olunur. Onların köməyi ilə insan öz fikirlərini ən dəqiq şəkildə çatdıra və həmsöhbətdən istənilən cavabı ala bilər: onların anlayışı, empatiyası, köməyi və ya əksinə, onların uzaqlaşması və geri çəkilməsi. Buna görə də, filosofların və psixoloqların nümunəsinə əsasən, effektiv ünsiyyət problemlərinin dilçiləri, dilin strukturunun və tarixinin bütün aspektlərini kifayət qədər araşdırdıqdan sonra məşğul etməyə başlaması olduqca məntiqlidir*" [5, s. 8]. Şübhəsiz ki, təkcə dili bilməklə işi tamamlanmış hesab etmək doğru olmaz, kommunikasiya prosesində qarşıya çıxa biləcək problemlərin vaxtında seçilməsi və qarşısının alınması üçün ünsiyyətin qayda-qanunlarına, prinsiplərinə diqqətlə yanaşılmalıdır. Əgər adresant istəyirsə ki, onun fikirləri doğru şəkildə anlaşılsın və istədiyi informasiya əldə edilsin, ünsiyyətin tələb olunan qayda-qanunlarına əməl etməyi vacib amil kimi qarşısına məqsəd qoymalıdır. Müəllifin də fikri ilə razılaşmaq olar ki, dilin strukturunu və tarixini ətraflı öyrəndikdən sonra effektiv ünsiyyətlə maraqlanmaq lazımdır. Dilçiliyimizdə dilin strukturu, tarixi ilə bağlı çoxsaylı tədqiqatların olduğunu nəzərə alaraq qeyd edə bilərik ki, artıq effektiv kommunikasiya ilə bağlı araşdırmalar aparmağın tam məqamıdır və sözsüz ki, belə anda dilin rolunu önəmsəmək uğurlu nəticələrin əldə edilməsinin açarıdır.

İ.Ərdoğan dil və ünsiyyətin mahiyyətindən bəhs edərkən yazır ki, "*Dil, nitq və ünsiyyət bir-biri ilə funksional olaraq bağlıdır. Dil və nitq ünsiyyət üçün zəruri vasitəsidir. Dilin özü ünsiyyət deyil, dil ünsiyyət olmaz. Dildən istifadə edən insan ünsiyyət qurar. Dildən istifadə edən insandır. Dildən istifadə edən insan onu məqsədinə uyğun şəkildə istifadə edərək özünün və digərlərinin reallığını müəyyən edir*" [6, s. 203]. Dil mahiyyəti etibarı ilə ünsiyyət deyildir, onu ünsiyyət prosesinə qoşan insandır. İnsan dili ünsiyyətin əsas parçasına çevirir. N.Cəfərov dilin ünsiyyətə xidmət etmək funksiyasından bəhs edərkən vurğulayır ki, "*Əslində, dil ona görə yaranır ki, təfəkkürü formalaşdırıb ifadə etməklə insanlar arasında (cəmiyyətdə) ünsiyyəti (fikir mübadiləsini) həyata keçirsin. Ona görə də dil haqqındakı elm, tamamilə doğru olaraq, öz predmetinə iki əsas funksiya aid edir ki, onlardan biri ekspressiv, digəri kommunikativ funksiyadır. Dilin mövcud təcrübə, yaxud vərdişə uyğun şəkildə təfəkkürü formalaşdırıb fikir mübadiləsi üçün hazırlanması onun ekspressiv, həmin mübadiləni gerçəkləşdirməsi isə kommunikativ funksiya adlanır*" [7, s.75]. Dilin ən mühüm funksiyası kommunikativ funksiya hesab edilir və ünsiyyət onun əsasında formalaşır. İnsanı sosial varlığa çevirən kommunikativ funksiyadır. Kommunikativ funksiya dil və nitq məsələlərini bir-biri ilə əlaqələndirir. N.Cəfərov dilin kommunikativ funksiyasını bu şəkildə şərh edir. "*Dilin fikri formalaşdırıb ifadə etməsi (ekspressiv funksiya) nə qədər fəlsəfi məna daşıyırsa, ünsiyyət vasitəsi olması (kommunikativ funksiya) o qədər sosial məzmun kəsb edir. Və təsadüfi deyildir ki, dilin bu funksiyası həm dil-cəmiyyət, həm də dil-insan münasibətlərində mərkəzi mövqe tutmaqla ən müxtəlif baxımlardan kifayət qədər kütləvi səciyyə daşıyır*" [7, s. 76].

Məlumdur ki, insanlar dilin köməyi ilə ünsiyyətə başlayırlar və ünsiyyət prosesinin təməl prinsiplərindən hesab olunan dil insanın ideya, fikir, duyğu və düşüncələrini qarşı tərəfə onun istədiyi formaya salınıb göndərilməsinə təminat verir desək yanılmarıq. "*Kimliyimizin və varlığımızın mahiyyəti dildə əks olunur. Buna görə də bir ölkə, xalq və ya irq digərini fəth edəndə təsirlənəcək ilk şey fəth edilmiş xalqın dili olur. Əgər müstəmləkəçilər öz dillərini qitəyə yaymadan Afrikaya gəlsəydilər, siyasi hökmranlıq məsələsi mümkün olmazdı*" [8, s. 1].

İnsanlar bir-birini başa düşmək üçün dildən istifadə edirlər və onun vasitəsilə dərk etmə prosesinə qoşulurlar. Effektiv ünsiyyət prosesində dildən düzgün şəkildə istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Dil ünsiyyət prosesinin gedişinə, davamına və nəticəsinə ciddi şəkildə təsir

göstərir. Dil özünəməxsus müəyyən şifahi və yazılı forma ilə və ya müxtəlif simvolların vasitəsilə insan ünsiyyətini təmin edir. Dil elə bir sistemdir ki, burada sözlərin mənalı və dolğun şəkildə birləşməsi ilə insanlararası ünsiyyət reallaşmış olur. Dil insanları ünsiyyət prosesində birləşdirdiyi kimi eyni zamanda onları bir-birindən ayırır. Ünsiyyət prosesi üçün dil çox vacibdir. Dil vasitəsilə ünsiyyətə qoşulan insan özünü ifadə edir, tanıdır, digərlərini tanıtdırır, hətta dağınıq hesab olunan informasiyanı öz istəyinə uyğun dəyişdirərək ötürür və bütün proseslərin məntiqi yekunu kimi öz məqsədlərinə çatır. "*Dil ünsiyyət vasitəsidir. İnsanlar cəmiyyətdə bir-biri ilə ünsiyyət qurmaq üçün dildən istifadə edirlər. Dildən istifadə etməklə onlar fikirlərini ifadə edir, emosiyalarını mübadilə edir, dünya və gündəlik həyatdakı əşyalar haqqında məlumatları dəyişdirirlər, lakin dil ünsiyyəti səslər, sözlər və ya cümlələr kimi ayrı-ayrı dil vahidləri ilə əldə edilmir. İnsanlar, əsasən və mahiyyət etibarilə, şifahi ünsiyyətdə bütöv bir fikri ifadə etmək üçün bu dil vahidlərinin kombinasiyalarından istifadə edirlər*"[9,s.2663]. Kommunikasiya prosesi tək-tək sözlərin birləşməsindən yaranmır, effektiv ünsiyyətin qurulması üçün dilin bütün vahidləri bir-biri ilə birləşməli və informasiyanı lazımi səviyyədə qarşı tərəfə çatdırmalıdır. Qeyd edilən məsələnin nitqdə və informasiya mübadiləsində roluna qiymət verərkən L.Qurbanova qeyd edir ki, "*Deməli, ünsiyyətin alınması üçün bütün ünsürlər bir araya gəlir. Bu zaman insanlararası ünsiyyətdə informasiya çatdıran mesajların ötürülməsi baş verir, bu da tərəflərdən biri mesajı ötürən digəri isə qəbul edən kimi iştirak edir"* [10,s.14]. Qeyd edilən fikirlərə əlavə etmək olar ki, dil vahidlərinin bir-biri ilə zəncir kimi bağlanıb ünsiyyətə xidmət etməsi ilə yanaşı, kommunikasiyanın yaranmasında onların hər birinin ayrı-ayrılıqda rolunun olması, birbaşa ünsiyyət prosesinin təməlini təşkil edir və onlardan doğru şəkildə yararlanmaq isə effektiv kommunikasiyanı müəyyənləşdirir.

Dilin ilk elementi səslər hesab olunur. Dil səslərdən ibarətdir desək yanılmarıq, çünki səslərin birləşməsindən sözlər, sözlərin birləşməsindən cümlə yaranır. Səslər dildə fonem kimi qəbul edilir. Hər bir səs bir fonemi ifadə edə bilir. F.Veysəlli fonemdən bəhs edərkən yazır ki, "*Beləliklə, biz fonem deyəndə stabil, dəyişməz, relevant əlamətlərlə səciyyələnən, dil sistemində özü kimi başqa vahidlərə qarşı qoyulan, dildə sözləri, söz formalarını, istənilən dil ifadəsini fərqləndirməyə xidmət edən, struktur baxımdan bölünən, ancaq xətti baxımdan özündən kiçik hissələrə bölünə bilməyən, maddi varlığı səsdən ibarət olan ən xırda dil vahidini başa düşürük*" [11,s.105]. Deməli, dilin ilkin elementi fonemlərdir və onlar da birləşərək özündən böyük vahid hesab olunan sözləri yaradır və bununla da prosesin bir-biri ilə əlaqəli olan digər halqaları – söz birləşmələri, cümlələr, mətnlər formalaşır.

Məlum məsələdir ki, dil müxtəlif vahidlərdən təşkil olunmuşdur. Dilin ən kiçik vahidi hesab olunan fomendən başlayaraq cümləyə, mətnə kimi hər biri informasiyanın qurulmasında iştirak edir. Onlar bir-biri ilə birləşərək özlərindən daha böyük vahidlər yaradırlar və həmin vahidlər də ünsiyyətin qurulmasında yaxından iştirak edirlər. "*Dildə fonemdən mətnə qədər olan bütün dil vahidlərinin yaranmasında və nitqin baş tutmasında bu dil vasitələri zəncir kimi bir-birinə bağlanır. Kommunikasiyanın yaranmasında bu vasitələrin ayrı-ayrılıqda rolu vardır. Bu vasitələr təfəkkür və dil birliyindən keçərək nitqin yaranmasını həyata keçirir*" [12,s.174].

Fonemlərdən sonrakı mərhələdə gələn və dilin mühüm vahidi hesab olunan sözlər mənaları başa düşməyə kömək edir. "*Sözlərin mənanı anlamağa kömək edən müxtəlif qaydaları olur. Üç əsas qayda vardır: semantik, sintaktik və praqmatik*" [13,s.122]. Semantik qaydalar dedikdə sözün izahı, mənası nəzərdə tutulur, yəni sözlərin nə demək olduğu nəzərdə tutulur. Ancaq sözlər də işlədiyi kontekstdən asılı olaraq dəyişə bilər. Əlbəttə ki, bu onun işlənmə məqamından, kontekstdən asılıdır. Məsələn, Azərbaycan dilində "qol" sözü müxtəlif məna ifadə edir və onun mənaları yalnız kontekst daxilində tərəflər üçün aydınlaşır. Komandamız rəqib komandanın qapısından üç cavabsız *qol* keçirdi. Döyüşdə *qolundan* yaralanmışdı. Verilən nümunələrdən birincisində *qol* sözü qapıdan top keçirmək mənasında işlənmişdir. İkinci nümunədəki *qol* sözü isə insanın bədən üzvünü bildirir. Deməli, sözlərin mənası onları müxtəlif kontekstlərdə işlətdikdə daha aydın şəkildə üzə çıxır.

Sintaktik qaydalar isə istifadə edilən sözləri cümlədə düzgün şəkildə düzməklə bağlıdır. Sintaktik qaydalar ona əsaslanır ki, fikir və ideyaları daha effektiv şəkildə çatdırmaq üçün qrammatik qaydalardan, müxtəlif strukturlardan, durğu işarələrindən doğru şəkildə istifadə edilsin. Məsələn,

Sən gedirsən cümləsinin sonuna nöqtə işarəsi qoysaq əmr cümləsi, sual işarəsi qoysaq sual cümləsi olacaqdır. Bəzi məqamlarda cümlədə vergül işarəsinin düzgün qoyulmaması da böyük məna dəyişikliyinə səbəb ola bilər. Məsələn, Ana, vətən bizi səsləyir, döyüşə çağırır. Eyni cümləni Ana vətən bizi səsləyir, döyüşə çağırır kimi də işlədə bilərik. Birinci nümunədə "ana" insan anlayışı bildirmək üçün işlənmiş, anaya xitab edildiyi üçün ondan sonra vergül işarəsi qoyulmuşdur. İkinci nümunədə isə "ana" sözündən sonra vergül işarəsi qoyulmadığından "ana vətən" təyini söz birləşməsi birlikdə dərk edilir və başa düşülür.

Praqmatik qaydalar mesajları insanlar arasında mövcud olan qarşılıqlı əlaqəni nəzərə almaqla şərh etməyə kömək edir. Praqmatika anlayışı bir tərəfdən fəlsəfi mahiyyət kəsb etdiyi üçün kommunikasiya prosesində nəyin (hər hansı bir məlumatın) çatdırılması və necə, hansı formada çatdırılması məsələsi həmişə diqqət yetirilməli məsələlərdəndir. Məhz kontekst məsələsi də bu məqamda yaranır və kommunikasiya prosesinin vacib elementinə çevrilir. Danışıq aktı, presuppozisiya kimi anlayışlar hər biri kontekstlə əlaqəlidir və çox zaman kontekst dedikdə elə praqmatika ilə bağlı olan, ondan kənarda baş verməyən anlayış nəzərdə tutulur. "*Beləliklə, praqmatika əslində dilin istifadəsini daha geniş şəkildə öyrənmə imkanına malikdir, praqmatika mürəkkəb bir sistemə malikdir, onun tərkibinə daxil olan danışıq aktı, pressuppozisiya, deyksis və referns dilin istifadəsində böyük rola malikdir*" [10,s.154].

Praqmatik qaydalar sistemində istifadə edilən sözlər, həmin sözlərin necə istifadə edilməsi, danışan şəxslə münasibət və qurulacaq ünsiyyətin məqsədi mütləq nəzərə alınmalıdır. Məsələn, *Səni dərhal görməliyəm, danışılacaq vacib məsələ var*. İşlədiyi kontekstdən asılı olaraq bu cümlə müxtəlif cür başa düşülə bilər. Birinci mənasında müdir əsəbidir sizə ciddi xəbərdarlıq edəcək. İkinci mənası isə hər hansısa bir yaxın dostunuzun və ya tanışınızın sizi çağırması ola bilər. Təbii ki, birinci kontekstdə verilən cümlə sizi daha çox narahat edəcək, çünki müdir sizi çağırıbsa, ola bilsin ki, nə isə ciddi bir məsələdir və mənfi nəticəsi da ola bilər. Ancaq dostlarınız çağırdıqda o qədər də narahatlıq hissi keçirmirik. Düşünürük ki, müəyyən bir iş təklifi, səyahət və s. kimi məsələlər ola bilər. Lakin yenə də kontekstdən asılı olaraq müsbət gözlənilən bir şey mənfi, mənfi gözlənilən hər hansısa bir məsələ müsbət sonluqla tamamlana bilər. Burada şəxslərin status məsələsinin, zamanın, məkanın və s. amillərin kontekstə mühüm təsiri vardır. Məsələn, dostunuz sizi həmişə görüşdüyünüz kafeyə, restorana dəvət edirsə, deməli, elə də ciddi bir məsələ olmayacaq. Lakin israrla yox evdə görüşək, dediyim vaxtda bizdə olarsan deyirsə, deməli, çox ciddi məsələlərin müzakirəsi gedə bilər.

Praqmatik anlayışlar və ya qaydalar təcrübəni, mədəni fərqlilikləri də nəzərə almaya imkan verir. Məsələn, Azərbaycan dilində "düşmək" sözünün mənalarından biri də nəqliyyat vasitələrindən enmək kimi başa düşülür. Ancaq Türkiyə türkcəsində bu söz təyyarənin qəzaya uğraması kimi başa düşülür. Belə nümunələrin sayını kifayət qədər artırmaq olar.

Dil insan düşüncəsində reallığı formalaşdırır, çünki insanın inandıqları və hiss etdikləri reallığa müəyyən şəkildə təsirini göstərə bilər. Məsələn, sizə bir nəfərin şirindil olduğunu desələr, ancaq müəyyən bir vəziyyətdə onu fərqli şəkildə gördükdə deyilənlərə çox inanarıq, yoxsa şahidi olduğumuza. Əlbəttə ki, şahidi olduğumuz reallıq bizi tamamilə fərqli düşünməyə sövq edəcəkdir. Sözü doğru məqamında və düzgün şəkildə işlətmək lazımdır. Məhz bu səbəbdən siyasətçilər, biznesmenlər, tanınmış dövlət xadimləri göndərdikləri mesajların mahiyyətinin doğru anlaşılması üçün lazım olan sözü tapmağa cəhd edirlər.

Eyni mənanı ifadə edən sözlər doğru məqamda işlənmədikdə insanlar arasında kəskin narazılıqlar yaranır. Məsələn, qarşımızdakı insana *çox arıqlamısan belə sənə yaraşmır* demək kəskin səslənir. Ancaq eyni fikri *çox incəlmisən, bir az da çəki alsan hər şey qaydasına düşər* kimi işlətsək daha gözəl nəticələrə səbəb olar.

Sözlər insanlar arasında münasibətlərin də göstəricisi hesab olunur. Məsələn, bir insanı sevmədikdə onun haqqında neqativ fikirlər səsləndiririk. Lakin münasibətlər yaxşıya doğru getdikcə artıq müsbət fikirlər səsləndirməyə başlayırıq.

Dil mahiyyət etibarı ilə abstrakt anlayışdır. Məsələn, gözəldir, aydındır və s. kimi ifadələr müxtəlif cür başa düşülə bilər. Bu fikir ancaq kontekstdə tam şəkildə aydınlaşır. Gözəldir cümləsini hər hansı bir şeyin, həqiqətən də, gözəl olduğunu bildirməklə yanaşı, eyni zamanda istehzalı şə-

kildə də işlənə bilər. Yeni aldığınız paltarı rəfiqənizə göstərdikdə o, "gözəldir" yaxşı edib almısan deyir. Ancaq sevmədiyiniz bir məsələdə ironik şəkildə "Gözəldir" deməyimiz əslində heç də gözəl olmadığını bildirir.

Sözlər nitqdə müəyyən bir məna ifadə edir. Məlumdur ki, sözlərin denotativ və konnotativ mənaları vardır. Denotativ məna dedikdə sözün birbaşa mənası nəzərdə tutulur. İnsanların çoxu denotativ mənanı yaxşı bilirlər. Məsələn, kitab, ağac, çanta, alma və s. kimi sözləri hamı başa düşür.

Konnotativ məna isə sözün sonradan qazandığı üslubi mənadır. "*Hər dilin lüğət tərkibində işlənən sözlər və bunların mənaları xalqın təfəkkür tərzini, şüurunu, mədəni səviyyəsini əks etdirir. Odur ki, sözlərin əşyavi-məntiqi mənasını bir sıra əlavə üslubi mənalar da müşayiət edir. Həmin mənalar ayrıca, müstəqil vahidlərlə ifadə edilmir, bəlkə sözün əsas mənaları ilə birlikdə mövcud olur*" [14,s.272]. Deməli, konnotativ məna xalqın təfəkkür tərzi, şüuru və mədəni səviyyəsi ilə sıx bağlıdır və onlar sözlərin əsas mənasından başqa digər mənaları da ifadə edilər. Məsələn, dilimizdə işlənən *Aydan arı, sudan duru* ifadəsində *arı* arxaik sözü indiki mənasında həşərat kimi işlənməmiş, təmiz mənasını ifadə etmişdir.

Dildə ən mühüm informasiya daşıyıcısı cümlə hesab olunur. Q.Kazımov cümlədən bəhs edərkən onu ünsiyyət vasitəsi kimi dəyərləndirir. "*Cümlə dilin daxili qanunları əsasında formalaşan və bitmiş fikir ifadə edən sintaktik vahiddir. Cümlə fikir mübadiləsi və ən mühüm ünsiyyət vasitəsidir*" [15,s.531]. Dildə yaranan cümlələr həmin dilin qayda-qanunlarına əsaslanır və müəyyən bitmiş fikir ifadə etməyə yönəlir. Bitmiş fikir ifadə etməsi onun ünsiyyətin əsas elementinə çevrilməsinə səbəb olur.

Kommunikasiya prosesində sözlərin və cümlələrin mühüm rola malik olduğunu söyləyiriksə, deməli, söyləm anlayışına da diqqət yetirmək lazımdır. "*Söyləm – müəyyən fikir ifadə edən ünsiyyət vahididir. Söyləm əksərən cümləyə uyğun gəlsə də, bəzən cümlə çərçivəsindən kənara çıxır, dil sisteminin müstəqil vahidi sayılır və aşağı səviyyənin vahidi olan cümlədən fərqləndirilir. Bir cümlə kommunikativ funksiyasından asılı olaraq, bir neçə söyləmin ifadəsinə xidmət edə bilər. Qeyd olunanlar söyləmin kommunikativliyinə təsir göstərir. Mətn sintaksisində bu nitq vahidinin kommunikativ funksiyalarını necə yerinə yetirməsi daim müzakirə və mübahisə obyekti olmuşdur. Bilavasitə söyləmə dair bir çox tədqiqatlar aparılsa da, söyləmin kommunikativliyinin təyini məsələləri bu günə qədər öyrənilməmişdir*" [16,s.4]. Söyləm nitqlə sıx bağlı dil hadisəsi hesab olunur və müəyyən bir fikrin ifadə olunmasına kömək edir. Tədqiqatçı haqlı olaraq hesab edir ki, söyləm cümlədən daha yuxarı olan nitq vahididir, çünki fikri ifadə etmək üçün bir neçə cümlədən istifadə etmək lazım gəlir ki, onların da birliyi söyləmi təşkil edir. Söyləmlə bağlı bir çox məsələlər hələ də öz həlli yolunu tapmamışdır. Buna baxmayaraq onun kommunikativliyə xidmət etməsi heç bir şübhə doğurmur. Söyləm canlı ünsiyyət hesab edilə bilər ki, bu da onun dil vasitəsilə icra edildiyini söyləməyə əsas verir.

Mətndə sözlər və cümlələr müəyyən ardıcıllıqla verilir və söyləm isə onu canlı nitq parçasına çevirir. Burada sözlərin kim və kimlər tərəfindən deyilməsi, ifadələrin hansı məqamda seçilməsi, seçilmiş sözlərin kimə ünvanlanması, eyni zamanda adresantın onu hansı məqsədlə göndərməsi söyləmin əsas mahiyyəti hesab olunur. Məsələn, Səhər yuxudan oyananda *hava soyuqdur* deyilməsi evdəkilərə geyimlərinə fikir verməsinə çağırışdır. Ona görə də bu cümləni çağırış bildirən söyləmə aid etmək olar.

Kommunikasiya prosesində bir tərəf digərinə müxtəlif fikirlər çatdırır və onlar dağınıq şəkildə mövcud olan məlumatları bir yerə toplamaqla mətn yaradırlar. Mətnin kommunikasiya vasitəsi olması koheziya və koherensiya ilə bağlıdır. Məhz bu səbəbdən mətndə məna əlaqələrinin mövcudluğu kommunikasiyanın effektiv olmasına yol açır. Koheziyanın əsasını mətnin semantikasını üzə çıxarmaq dayanır. Mətndə koherentlik kommunikasiya iştirakçılarının nitqinin vacib xüsusiyyəti kimi dəyərləndirilə bilər, çünki mətndə məna əlaqələrinin yaranması koherentliklə bağlıdır. Koheziya dedikdə sadə formada müəyyən bir mətndə mövcud olan cümlələrin, fikir və ideyaların dilin vasitəsilə bir-biri ilə əlaqələnməsi nəzərdə tutulur. Buradan belə nəticəyə gəlmək olar ki, koheziya dil vasitəsilə müəyyən məlumatların əldə edilməsi prosesidir. Məsələn, *Reyhan səhər yuxudan oyandıqdan sonra pəncərədən həyətə baxdı, amma güclü külək və duman olduğun-*

dan ətraf aydın görünmürdü. Ətraf aydın görünmədiyi üçün o, həyatdəki maşınları da görə bilmədi, yenidən pəncərəni bağladı. Beş dəqiqə keçməmiş, təkrar pəncərədən həyətə baxmalı oldu, lakin o, yenə də heç nə görə bilmədi. Verilmiş kiçik abzasda Reyhan sözünü əvəzləyən o əvəzliyi, cümlələri bir-birinə bağlayan amma, və, lakin bağlayıcıları koheziyanın elementləri hesab oluna bilər, ona görə ki, həmin vasitələr kiçik və hətta daha böyük mətnlərin yaranmasına kömək edir.

Üzdən ağladığım yadıma gəlmir,
Ağlasam, göz yaşım ürəkdən gəlib.
***Sevgim** də, sözüm də, **məhəbbətim** də,*
*Nə varsa **beşikdən, bələkdən** gəlib* [17,s.57].

Zəlimxan Yaqubun "Gəlib" adlı şeirindən verilən nümunədə *sevgim, məhəbbətim, beşikdən, bələkdən* sözlərinin sinonim kimi işlədilməsi koheziyanın vasitəsilə yeni bir mətnin yaranmasına səbəb olur və sözsüz ki, şeirin növbəti misralarında da bunu aydın şəkildə görmək mümkündür.

Əgər koheziya mətnin dil vahidləri ilə əlaqələnməsidirsə, koherensiya mətnin məna baxımdan dərk edilməsi kimi qiymətləndirilir. Koherensiya koheziya vasitəsilə yaradılan mətndən lazımı mənanın çıxarılması prosesidir. Koheziya və koherensiya analayışlarını daha aydın şəkildə başa düşmək üçün aşağıdakı sitata diqqət yetirək. "*Koherensiya mətn, yaxud diskurs daxilində davamlılıq, məntiqi ardıcıllıq və anlaşıla bilən keyfiyyət kimi müəyyən edilir. İfadəli və daha başa düşülən anlamda koherensiyanı bina tikintisi ilə müqayisə edə bilərik. Binanı tikəndə düzgün olmayan ardıcıllıq, bağlılıq binanın məhvinə səbəb ola biləcəyi kimi, koherensiyanın olmadığı mətn də tam dolğun mətn hesab edilə bilməz. Koherentlikdən danışırıqsa, koheziyanı da xatırlamadan keçmək olmaz. Koheziya sankı koherentliyin bir sütunudur. Koherentliyin yuxarıda verdiyimiz məcazi bənzətməsində koheziya həmin tiklən binanın kərpicləri və sementi hesab edilə bilər. Onların birlikdə olması ilə bina qurula bildiyi kimi, koherentlik və koherensiyanın birlikdəliyindən də mətn tam şəkildə formalaşır*" [18]. Deməli, mətnin yaranması, ondan müəyyən mənanın dərk edilməsi və kommunikasiya prosesinin effektivliyinin mövcudluğu koheziya və koherensiya anlayışları ilə sıx bağlıdır. Mətnin düzgün şəkildə dərk edilməsi və mövzu ilə bağlı olaraq doğru mənanın qavranılması tərəflər arasında mümkün effektiv informasiya mübadiləsini təmin edir.

Dilin digər vahidləri ilə müqayisədə sintaktik vahidlər daha çox ünsiyyətə xidmət edir və insanın informasiyaya olan tələbatını təmin edir. "*Əgər dildə insan amilinin rolundan, insan nitqinin sintaksisdən başlandığını güman ediriksə, o zaman onun istənilən formasının mürəkkəbləşdirilmiş strukturu son nəticədə sintaksisə əsaslanmalıdır. Buraya fikrin, düşüncənin mürəkkəbləşməsini də aid edə bilərik. Belə ki, insan sintaktik mühitdə motivləşmə mərhələsində öz qavramında qurduğu cümləni, mətni yalnız onun komponent tərkibini genişləndirməklə, ona əlavə sözlər, birləşmələr artırmaqla fikir və ideyalarını yüksəldə bilər*" [19,s.12]. Deməli, əlavə fikir və ideyaların çatdırılmasında mətnin mühüm rolu vardır. Dilə hər zaman kommunikativ element kimi baxılmışdır.

Nəticə: Ünsiyyət prosesini sadəcə ayrı-ayrı sözlərin birləşməsindən yaranmır, effektiv ünsiyyətin formalaşması üçün dildə mövcud olan bütün vahidlər bir-biri ilə birləşməli və məlumatı istənilən səviyyədə qarşı tərəfə çatdırmalıdır. Ünsiyyət prosesində adresant adresata müxtəlif fikirlər, ideyalar çatdırır və onlar mövcud olan məlumatları bir yerə toplamaqla mətn kimi böyük dil vahidlərini yaradırlar. Mətnin ünsiyyət vasitəsi olması koheziya və koherensiya ilə sıx bağlıdır. Məhz qeyd edilən səbəbdən mətndə məna əlaqələrinin mövcudluğu ünsiyyətin effektiv olmasına imkan verir. Koheziyanın məğzini mətnin semantikasını üzə çıxarmaqdır. Mətndə koherentlik kommunikasiya iştirakçılarının nitqinin vacib xüsusiyyəti kimi dəyərləndirilə bilər, çünki mətndə məna əlaqələrinin yaranması koherentliklə sıx bağlıdır.

Ədəbiyyat siyahısı

1. https://www.scribd.com/document/482200263/LANGUAGE-AND-COMMUNICATION-Group-1
2. Apriyanto, A. (2020). LANGUAGE AS A COMMUNICATION TOOL IN HUMAN LIFE. Fox Just: Jurnal Ilmu Hukum, 10(02), 45–54. https://doi.org/ 10.58471/ justi.v10i02.91
3. https://www.scribd.com/doc/42837966/Relationship-Between-Language-and-Communication
4. https://www.academia.edu/35505596/LANGUAGE_AS_A_MEANS_OF_COMMUNICATION
5. Котовская С.С, Прагматика. Минск: БГУ, 2021, 139 s
6. Erdoğan İ. İletişimi anlamak. Ankara: Pozitiv matbaacılık. 2011, 510 s.
7. Cəfərov, N. Ümumi dilçilik. Bakı: Təhsil, 2023, 216 s
8. Thompson Olusegun Ewata. 2010. Relationship between language and communication. https://www.scribd.com/doc/42837966/Relationship-Between-Language-and-Communication
9. Lihong, Sh.. Context and Text. Theory and Practice in Language Studies, Academy publisher. 2012. Vol. 2, No. 12, pp. 2663-2669. https:// www. academypublication. com/ issues/past/tpls/vol02/12/28.pdf
10. Qurbanova, L. Mətn dilçiliyində cümləfövqü vahidlər. Bakı: Elm və təhsil. 2024, 192 s
11. Veysəlli, F. Dilçiliyin əsasları. Bakı: Mütərcim, 2013, 240 s
12. Qurbanova, L. Danışıq aktı praqmatikanın əsası kimi. Dilçilik araşdırmaları. Bakı: 2024, №1, s.174-179. http://doi.science.gov.az /pages/journals/ lingres/ pdf/ lingres 2024_1_174.pdf
13. https://www.scribd.com/document/500415986/Interpersonal-Communication-A-Mindful-Approach-to-Relationships
14. Adilov, M. Verdiyeva, Z. Ağayeva, F. Azərbaycan dilinin semasiologiyası. Bakı: Elm, 2019, – 304 s
15. Kazımov, Q.Ş. Azərbaycan dilinin qrammatikası. Bakı: Elm və təhsil. 2023, 1016 s
16. Babayeva, S.O. Söyləmin kommunikativliyinin müəyyən edilməsi. fil.ü.f.dok. almaq üçün dis. aftoreferat. Bakı: 2023, 29 s.
17. Zəlimxan, Y. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Şərq-Qərb, 2006, s. 248 s. s. 57
18. http://www.anl.az/down/meqale/bdu_dil_edebiyyat/2019/01/34(meqale).pdf
19. Kazımov, İ. Mətnin aktual problemləri. Bakı: Elm və təhsil. 2023, 404 s.

Parvin Bayramova

The role of language in the effective communication process

Summary

People use language to understand each other better and through it they participate in the process of understanding. The correct use of language is of great importance in the process of effective communication. Language seriously affects the course, continuation and result of the communication process. Language provides human communication with a specific oral and written form or through various symbols. Language is a system in which interpersonal communication is realized by the meaningful and complete combination of words. Language unites people in the process of communication, but at the same time separates them from each other. Language is very important for the communication process. A person who participates in communication through language expresses himself, introduces himself, introduces others, even transmits information that is considered scattered by changing it according to his wishes and reaches his goals as the logical conclusion of all processes.

Key words: *effective communication, language, cohesion, coherence.*

Парвин Байрамова

Роль языка в процессе эффективной коммуникации

Резюме

Люди используют язык, чтобы лучше понимать друг друга, и через него они участвуют в процессе взаимопонимания. Правильное использование языка имеет огромное значение в процессе эффективного общения. Язык серьезно влияет на ход, продолжение и результат процесса общения. Язык обеспечивает человеческое общение в определенной устной и письменной форме или с помощью различных символов. Язык - это система, в которой межличностное общение осуществляется посредством осмысленного и полного сочетания слов. Язык объединяет людей в процессе общения, но в то же время и отделяет их друг от друга. Язык очень важен для процесса общения. Человек, участвующий в общении с помощью языка, выражает себя, представляет себя, знакомит других, даже передает информацию, которая считается рассеянной, изменяя ее в соответствии со своими пожеланиями, и достигает своих целей как логического завершения всех процессов.

***Ключевые слова**: эффективная коммуникация, язык, когезия, когеренция.*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***fil.e.d.Lalə Qurbanova***
fil.e.d.Nərmin Əliyeva

UOT-811.512.162
Səhifə: 59-64
https://doi.org/10.59849/2663-8967.2026.1.59

Adilə Nəzərova
Azərbaycan Respublikası Təhsil İnstitutu,
filologiya üzrə fəlsəfə doktoru
Orcid: 0000-0002-4340-6882

SOSİAL ŞƏBƏKƏ DİLİ VƏ ƏDƏBİ DİLİN SƏRHƏDLƏRİ

XÜLASƏ

Sosial şəbəkələrdə yaranan yazı üslubu Azərbaycan dilində dinamik və qısaltmalara əsaslanan yeni ünsiyyət modelini göstərir. Bu üslub ədəbi dildən fərqlənsə də, onun inkişafına mane olmur, əksinə, dilin yenilənməsinə töhfə verir. Gənclərin gündəlik yazışmalarında istifadə olunan qısaltmalar tarixi səs qənaəti meylinin davamıdır. Sosial şəbəkə dili hələ norma sayılmasa da, gələcəkdə bəzi formaların qəbul olunması mümkündür.

Açar sözlər: *Sosial şəbəkə dili, ədəbi dil, abreviatura, dilin inkişafı, ixtisar.*

Giriş: Dil canlı sistemdir – zamanın, cəmiyyətin, texnologiyanın və mədəniyyətin təsiri altında daim dəyişir və yenilənir. Hər bir ictimai-siyasi mərhələ, eləcə də kommunikasiya vasitələrinin inkişafı dilin quruluşuna, leksikasına, sintaksisinə və üslubuna müəyyən təsir göstərmiş, yeni ünsiyyət formaları isə yeni ifadə modellərinin yaranmasına səbəb olmuşdur.

Xüsusilə, texnologiyanın sürətli inkişafı və rəqəmsal kommunikasiya mühitinin genişlənməsi dilin yenilənməsində mühüm rol oynayır. Son iyirmi il ərzində internet, sosial şəbəkələr və mobil kommunikasiya vasitələri insanların gündəlik ünsiyyətini köklü şəkildə dəyişmiş, yazı və nitq formalarına yeni dinamika gətirmişdir. Facebook, Instagram, X (keçmiş Twitter), TikTok kimi platformalarda formalaşan yazı üslubu yalnız gənc nəsil arasında deyil, həm də media, jurnalistika və ədəbi mətndə öz izini qoymağa başlamışdır.

Bu dövr dilin iki əsas funksiyasını açıq şəkildə göstərir: bir tərəfdən, ədəbi dil sabit norma və estetik dəyər kimi xalq dilini sistemləşdirir, digər tərəfdənsə sosial şəbəkə dili spontanlıq, sürət, qısalıq və ekspressivlik üzərində qurulan daha cəldik, qeyri-formal kommunikasiya formalarını təqdim edir. Bu iki üslub arasındakı qarşılıqlı təsir dilin təkamülünü daha aydın göstərir və eyni zamanda onun çoxfunksiyalı, adaptiv xarakterini ortaya qoyur.

Azərbaycan dil məkanında sosial şəbəkə dilinin qabarıq şəkildə formalaşması məhz həmin dövrlə bağlıdır. Bu mərhələdən etibarən mətnə şifahi ünsiyyət elementlərinin daxil olması, orfoqrafiya normalarına laqeyd yanaşma, aralıq dillərin (ingilis və rus dillərinin) təsiri və transliterasiya nəticəsində yeni hibrid yazı modelləri meydana çıxmışdır: gelirem, men bilirem, ok, tşk, superrr, bestdi (əladır) və s.

Sosial şəbəkə dilinin ən səciyyəvi xüsusiyyətlərindən biri yazı və tələffüz əsaslı - yəni, qrafik və fonetik ixtisarlara meyildir. Bu meyl Azərbaycan dilində yeni hadisə deyil, dilimizin fonetik və morfoloji inkişaf mərhələlərində ixtisar, sadələşmə və səs qənaəti kimi proseslər həmişə mövcud olmuşdur. Məsələn:

nə üçün → niyə,
bu gün → buğun,
mənəm → məm,
gəlirəm → gəlləm, gəlcəm,
deyir → diyir və s.

Rəqəmsal kommunikasiya sadəcə bu təbii meyli daha sürətli, sistemli və geniş müstəviyə daşıyır. Gənclərin yazışmalarında tez-tez rast gəlinən tşk (təşəkkür), xbr (xəbər), slm (salam), yaxşm (yaxşıyam) kimi formalar dilin öz strukturundan doğan qənaət mexanizminin elektron versiyasıdır.

Bununla yanaşı, sosial şəbəkə dilinə xarici mənşəli abreviaturalar da daxil olur *(thx, pls, lol, ok),* lakin bunlar ümumi sistemdə əsas tendensiyanı yaratmır. Hətta çox zaman Azərbaycan istifadəçiləri bu modelləri dilin fonetik qaydalarına uyğunlaşdırırlar: *thx → tşk, pls → zhm ol, ok → old.*

Bu fakt sosial şəbəkə dilinin əslində yad təsirlərin təqlidi deyil, dilin daxili inkişaf mexanizmləri ilə uzlaşan adaptasiya prosesinin nəticəsi olduğunu göstərir.

Ədəbi dil illər boyu norma və estetika mərkəzi kimi çıxış edib, xalq dilinin axarını sistemləşdirən bir çərçivə yaratdığı halda, sosial şəbəkə dili daha çevik, qeyri-rəsmi kommunikasiya formasıdır. Buna görə də iki dil forması arasında müəyyən ziddiyyətlər yaransa da, bu ziddiyyət daha çox inkişafın təbii qarşıdurması kimi qiymətləndirilə bilər. Bu yazı formaları yalnız gündəlik ünsiyyətdə deyil, bloqlarda, publisistik yazılarda, hətta bədii mətnlərdə də özünü göstərməyə başlamışdır.

Azərbaycan dilində müşahidə olunan ixtisar meyli dünya dillərindəki analoji proseslərlə səsləşir. Prof. Ülfət İbrahimin "L'abréviation et le procédé abréviatif dans le français contemporain..." monoqrafiyasında göstərilir ki, müasir fransız dilində bir çox sözlər ilkin tam formadan çox ixtisar variantı ilə işlənir:

auto → automobile
radio → radiodiffusion
taxi → taximètre (1, s.45)

Sözlərin ixtisar formasının ilkin formadan daha geniş yayılması təkcə fransız dilində deyil, Azərbaycan və Türkiyə türkcəsində də müşahidə olunur. Bir çox sözlər zamanla qısaldılmış forması ilə daha tanınmış və daha aktiv işləkliyə malik olmuşdur. Məsələn:

avto → avtomobil
moto → motosikl
foto → fotograf / fotoşəkil
video → videoyazı / videomaterial
info → informasiya
proq → proqram
uni → universitet
metro → metropoliten
komp → kompüter

Türkiyə türkcəsi mühitində də oxşar apokoplar (söz sonu ixtisarları) geniş yayılmışdır:

motor → motorsiklet
tv → televizyon
prof. → profesör
dr. → doktor
öğr. gör. → öğretim görevlisi
msj → mesaj, mesaj atmak (şəbəkə dilində "msj at").

Bu nümunələr göstərir ki, həm Azərbaycan, həm də Türkiyə türkcəsindəki qısaltmalar regional təzahürdür və sosial şəbəkə dilində yaranan abreviaturalar yalnız texnoloji təsirlərin deyil, ümumbəşəri dil inkişaf qanunauyğunluqlarının nəticəsidir. Beləliklə, sosial şəbəkə dilindəki ixtisarlar dilin deqradasiyası deyil, təbii inkişaf ritminin müasir texnoloji dövrdə aldığı yeni formadır.

Ədəbi dil sabit norma, sintaktik bütövlük və estetik funksionallıq üzərində qurulan sistemdir. Onun tarixi missiyası dilin ümumi mədəni səviyyəsini qorumaqdır. Sosial şəbəkə dili isə "dinamik zona"dır – sürətlə dəyişən, impulsiv şəkildə baş verən formalar yaradan, emosiya yüklənmiş bir kommunikasiya mühitidir. Lakin bu iki sahə bir-birini istisna etmir; əksinə, qarşılıqlı təsir mexanizmi yaradır: ədəbi dil sosial dilin formalarını süzgəcdən keçirərək yalnız mənimsənilməsi mümkün olanları qəbul edir; sosial dil isə ədəbi dilə çeviklik, tezlik və emosionallıq gətirir. Məhz bu mübadilə dilin təkamülünün özəyini təşkil edir.

Sosial şəbəkədə işlənən ixtisarlar hələ ədəbi norma sayılmır, amma gələcəkdə müəyyən qədər qəbul olunması mümkündür. Tarix bunu göstərir: "niyə", "bugün", "məm" kimi vaxtilə xalq danışığından gələn formalar sonradan ədəbi dilə daxil olmuşdur.

Eyni zamanda, terminlərin müəyyən bir elm sahəsi və ya sahə ilə əlaqəli ixtisaslaşmış sözlər olduğunu və bu sahədə çalışanlar arasında daha asan anlaşılmanı təmin etdiyini nəzərə alsaq, ümumi dildən istifadə edənlərin sahə terminləri ilə tanış olması effektiv düşüncə və kommunikasiya üçün vacibdir. Sosial medianın da öz "sahə dili" var – özünəməxsus sözləri, qısaltmaları və ifadələri ilə fərqlənir. Fərqi ondadır ki, bu terminlər yalnız mütəxəssislər arasında yox, demək olar ki, hamı tərəfindən işlədilir və artıq ümumi dilə çevrilməkdədir.

Sosial şəbəkə dili təsirini üslubi səviyyədə göstərir. Xüsusilə gənc yazıçılar dialoqlarda və sosial tematikaya bağlı nəsr nümunələrində gündəlik danışıq üslubunu, ixtisar formalarını və şəbəkə tipləşmələrini daha aktiv şəkildə istifadə edirlər. Bu, ədəbi dilin normativ sistemini pozmur, əksinə, onun sosial reallıqla əlaqəsini gücləndirir.

Universitet və məktəb mühitində də sosial şəbəkə dili təhsil prosesinə təsir edir. Məsələn, tələbələr dərs qeydlərində qısa və fonetik uyumlu formalar istifadə edir. Bu, həm sürəti, həm də öyrənmə prosesində informasiya səmərəliliyini artırır.

Ədəbi dilin və sosial dilin paralel mövcudluğu dilin zəifləməsinin deyil, çoxqatlı funksional sistemə çevrilməsinin göstəricisidir. Dil yalnız sabitliklə deyil, həm də dəyişmə qabiliyyəti ilə yaşaya bilir. Azərbaycan dilinin gücü məhz bu elastiklikdədir: daxili fonetik və leksik mexanizmlər yeni şəraitə uyğunlaşma üçün yetərli potensiala malikdir.

Müasir sosial kommunikasiya Azərbaycan dilinin yeni inkişaf mərhələsini müəyyən edir. Bu mərhələnin əsas xüsusiyyəti dilin daxili ixtisar və sadələşmə meylinin elektron mühitdə daha görünən forma almasıdır. Sosial şəbəkə dili ədəbi dil üçün təhlükə deyil, onun dinamik transformasiya potensialını aktivləşdirən, çevikliyini artıran amildir.

Ədəbi dil sabitliklə milli-estetik dəyərləri qoruyursa, sosial şəbəkə dili ona ekspressivlik, sürət və sosial çeviklik qatır. Bu iki sahənin tarazlığı Azərbaycan dilinin həm normativliyini, həm də müasirliyini qoruyaraq çoxfunksiyalı dil sistemi kimi inkişaf etməsinə şərait yaradır.

Sosial şəbəkə dili yalnız qısa mesajlarda deyil, həm də memlərdə, statuslarda, tweetlərdə, postlarda, story-lərdə özünü göstərir. Burada qısa forma, ekspressivlik və vizual üslub bir-birinə qarışır. Məsələn, "😂", "❤", "🔥" kimi emojilər sözlərin yerini tutaraq əlavə mənanı ifadə edir. Bu, ədəbi dilin klassik üslubu üçün yeni bir təcrübədir: sözün özü ilə yanaşı, vizual simvol da mesajı çatdırır.

Azərbaycan dilində bu fenomen daha maraqlıdır, çünki dilimizin zəngin morfoloji sistemi qısaldılmış formaların istifadəsini rahatlaşdırır. Gənclər həmçinin sözləri şəbəkəyə uyğunlaşdıra bilirlər. Məsələn: *"görüşəcəyik" → "görşrkk", "narahat olmayın" → "nrhmt"* və s. Bu, sadəcə sözə qənaət deyil, həm də yazışmaya ritm və emosional ton qatır.

Sosial mediada işlənən mürəkkəb fellər əsasən isim və ya isim kökü + köməkçi fel modelinə əsaslanır. Bu tip fellər Azərbaycan dilində əvvəllər də olub, sadəcə indi ingilis dilindən gələn sözlərlə daha çox görünür. Ən geniş işlənən nümunələr belədir:

- *Redaktə yapmaq – məzmunu düzəltmək, formalaşdırmaq: edit + yap-*
- *Bloq Açmaq – şəxsi paylaşım məkanı yaratmaq: blog + aç-*
- *Like atmaq – bəyən düyməsinə basmaq: like + at-*
- *Hekayə yaratmaq – story paylaşmaq: story + at-*
- *Post atmaq – paylaşım etmək: post + at-*
- *Reels yükləmək – qısa video paylaşmaq: reels + at-*
- *Heşteq açmaq – hashtag yaratmaq: hashtag + aç-*
- *Trendləşmək – populyar olmaq: trend + ol-*
- *Poke etmək – kimsə ilə "toxunub" ünsiyyət başlatmaq, dürtmək: poke + et-*
- *Timeline-a baxmaq – şəxsin zaman xəttini izləmək: timeline + bax-*
- *Challenge yapmaq – kiməsə çağırış etmək: challenge + yap-*
- *Selfie Çekmək – özünü çəkmək: selfie + çək-*
- *Story Atmaq – hekayə (story) paylaşmaq: story + at- və s.*

Əslində bu model bizim üçün yeni deyil. Ədəbi dilimizdə ərəb, fars və fransız mənşəli sözlərə əsrlər boyu köməkçi fellər artıraraq yeni ifadələr yaratmışıq. Bu gün isə qlobal mədəniyyətin təsiri ilə həmin prosesə ingilis dili də təbii şəkildə qoşulub. [5, s.81-82]

Ənənəvi media və sosial media hər ikisi geniş kütləyə çatsa da, bu gün dili formalaşdıran əsas güc sosial mediadır. Rəqəmsallaşma artdıqca sosial media həm gündəlik davranışları, həm mədəni zövqləri, həm də dili daha intensiv şəkildə dəyişir. Gözləniləndir ki, qarşıdakı illərdə sosial media təsiri ilə dilə daha çox yeni sözlər və yeni formalar daxil olsun.

Bu alınma sözlər əslində dilin başqa mədəniyyətlərlə təmasda olmasının, qlobal proseslərə verdiyi reaksiyanın təbii göstəricisidir. Sosial media isə bu prosesi həm sürətləndirir, həm də kütləviləşdirir. Lakin bütün hallarda dilin öz kimliyini qoruması üçün mümkün qədər Azərbaycan dilində işlək ekvivalentlərdən istifadə etmək vacibdir. Əslində bu proses artıq mediada hiss olunur: məsələn, uzun müddət "share etmək" kimi işlənən forma get-gedə "paylaşmaq" ifadəsi ilə əvəzlənib; "comment yazmaq" yerinə "rəy bildirmək" işlədilir; "download etmək" ifadəsi isə indi xəbərlərdə və rəsmi resurslarda tam şəkildə "yükləmək" kimi təqdim olunur. Bu misallar göstərir ki, dil öz daxilində uyğun qarşılıq tapdıqca onu qəbul edir, mənimsəyir və normaya çevirir.

Ədəbi dil və sosial şəbəkə dili arasındakı əlaqə yalnız söz bazası ilə məhdudlaşmır. Sintaksis səviyyəsində də təsir görünür. Gündəlik danışıqdan gələn qısa cümlələr, eləcə də qeyri-formal üslub ədəbi mətndə də işlənməyə başlayır. Misal üçün, müasir gənc yazıçılar roman və hekayələrdə personajlarının danışığını sosial şəbəkə stilinə uyğunlaşdırır*: "slm, necəsən?"* və ya *"bu axşam filmə gedirik, gəlirsən?"* Bu, dialoqlara realizm gətirir və oxucuda həm müasir həyatın ritmini, həm də emosional tonu yaradır.

Azərbaycanda müxtəlif bölgələrin dialektləri sosial şəbəkə mesajlarında daha geniş yayılmağa başlayır. Məsələn, Gəncə, Naxçıvan, Lənkəran və Şəki dialektlərinin bəzi ifadələri qısa mesajlarda işlənərək şəbəkə dilinə inteqrasiya olunur. Bu, yalnız əyləncə və sürət üçün deyil, həm də milli kimliyin təzahürü kimi maraqlıdır, çünki regional fərqlilikləri də ortaya qoyur. Məsələn, Bakı gəncləri ilə və ya Şəki gənclərinin mesaj yazışma üslubları fərqlidir. Bakı istifadəçisi *"yaxşıyıq"* deyirsə, digər regionlarda *"yaxşam" və ya "yaxcıyam"* kimi variantlar işlənir.

Daha bir maraqlı nüans sosial şəbəkə dili ilə texnologiyanın birləşməsidir. Video, audio mesajlar, GIF və memlər dilin vizual komponentlə zənginləşməsinə səbəb olur. Azərbaycan gəncləri video story-lərdə dialoq və fonetik ixtisarlardan istifadə edərək yazı və danışıq dilini birləşdirir. Bu, sosial şəbəkə dilinin multimodallığını göstərir. Avtomatik yazı düzəlişi, təklif sistemi, *"emoji"* və *"stiker"* funksiyaları gənclərin dilinə yeni formalar gətirir. Bu, dilin təbii ixtisar və qənaət meylini daha sürətli və kreativ şəkildə inkişaf etdirir. Misal üçün, *"maraqlıdır"* sözünün əvəzinə *"mrqldr"* yazmaq texnologiya sayəsində çox rahat və tez istifadə olunur.

Gənc yazarlar və blogerlər sosial şəbəkə dili ilə eksperimentlər aparırlar: romanlarda personajın emosional reaksiyasını göstərmək üçün abbreviaturalar, qısa cümlələr, emoji və vizual işarələrdən istifadə olunur. Bu, oxucuda həm müasir həyatın ritmini hiss etdirir, həm də ədəbi dilin ekspressiv potensialını artırır.

Müxtəlif elm sahələrinə mənsub terminlər içərisində çox komponentli söz birləşmələrinin işlədilməsi bəzi çətinliklər doğurur. Termin-söz birləşməsinin elmi mətndə tez-tez təkrarlanması istər-istəməz onun ixtisarını tələb edir. Məsələn, böyük elektron hesablama maşını - BEHM, ən böyük ortaq bölən- ƏBOB, ən kiçik ortaq bölən - ƏKOB. Bura həmçinin tam forması ilə ixtisar formasının (abbreviatur) paralel şəkildə işlədilməsi də aid edilə bilər. Abbreviaturalarla bağlı paralellik hadisəsinin yaranması fikrinə başqa əsərlərdə də rast gəlirik. [4, s.113]

Fəlsəfə terminologiyasında çoxsözlü terminlərin qısaldılması informasiyanın daha dəqiq və sürətli çatdırılmasına xidmət edir. Məsələn:

- FQF – Fəlsəfə qnoseoloji funksiyası.
- DM – Dialektik məntiq.
- MDM – Marksın dialektik metodu və s. [3, s.16]

Bu abbreviaturalar yalnız mütəxəssislər tərəfindən başa düşülür və termin sisteminin dəqiqliyini qoruyur. Sosial şəbəkə dilində yaranan qısaltmalar isə analoji funksiyanı daşıyır: yazışmanın sürətini artırır, çoxsözlülüyün qarşısını alır və informasiyanın çatdırılmasını yüngülləşdirir. Bu isə dilin daxili qənaət meylinin həm rəsmi, həm də qeyri-rəsmi ünsiyyətdə işlək olduğunun sübutudur. Daha dəqiq desək, terminlər adətən müəyyən bir sahəyə aid olur və həmin sahədə çalışan insanlar

üçün anlaşmanı asanlaşdırır. Yəni sahəyə uyğun terminləri bilmək həmin sahədə düzgün düşünmək və düzgün ünsiyyət qurmaq üçün vacibdir.

Sosial şəbəkə dili Azərbaycan dilinin fonetik və morfoloji qanunlarına uyğunlaşaraq milli xüsusiyyətlərini qoruyur. Məsələn, *"görüşəcəyik" → "görşrkk" və ya "narahat olmayın" → "nrhmt"* kimi formalar dilin elastikliyini və adaptasiya qabiliyyətini göstərir.

Sosial şəbəkə dili təkcə Azərbaycan dilində deyil, bütün dünyada oxşar qanunauyğunluqlara malikdir. İngilis *dilində "you" → "u", "before" → "b4", "2day" → "today", rus dilində "спасибо" → "спс"* kimi qısaltmalar gündəlik yazışmalarda geniş yayılıb. Bu, həm də göstərir ki, dilin ixtisar və qənaət meyli universaldır. Azərbaycan dili isə bu qlobal tendensiyanı milli fonetik və morfoloji qanunlara uyğunlaşdırmaqla özünəməxsus bir "sosial şəbəkə variantı" yaradır.

Sosial şəbəkə dili hələ tam norma statusu qazanmayıb, amma gələcəkdə müəyyən formaları ədəbi dilə daxil ola bilər. Tarix bunu göstərir: *"niyə", "bugün", "məm", "nəəm"* kimi formalar xalq danışığından gəlmiş və sonradan ədəbi norma halına çevrilmişdir. Eyni şəkildə, *"tşk", "yaxşm", "slm"* kimi yazışma formaları da gələcəkdə müəyyən kontekstlərdə ədəbi mətndə istifadə oluna bilər.

Əlavə olaraq, sosial şəbəkə dili ədəbi dilin sosial reallıqla əlaqəsini möhkəmləndirir. Müasir oxucu və yazıçı üçün bu dil üslubu, həyatın ritmini, emosional tonunu və sürətini ədəbi mətndə çatdırmaq üçün yeni imkanlar açır. Bu isə dilin funksional çoxqatlılığını artırır.

Nəticə: Sosial şəbəkə dili dilin adaptasiya və transformasiya qabiliyyətini göstərir. Azərbaycan dili bu bacarığı sayəsində həm texnoloji dövrün tələblərinə cavab verir, həm də tarixi-ədəbi ənənəsini qoruyur. Sosial şəbəkə dili ekspressivlik, sürət və cəldlik qatır, ədəbi dil isə sabitlik və estetik dəyər təmin edir. Bu iki forma bir-birini tamamlayaraq Azərbaycan dilinin müasir və çoxfunksiyalı sistem kimi inkişafını təmin edir.

Ədəbiyyat siyahısı

1. İbrahim, U.Z., Le fonctionnement et l'oralisation des sigles de la presse contemporaine française Kalbotyra, vol. 74, 2021 https://www.redalyc.org/articulo.oa?id=693973687006
2. Məmmədli, N.B. Müasir Azərbaycan dilində alınma terminlər. Filol.elm.dok.dis. Bakı, 2000, 292 s.
3. Nəzərova, A.H., Azərbaycan dilində fəlsəfə terminlərinin leksik-semantik təhlili, Avtoreferat. Bakı, Elm və təhsil, 2015, 28s.
4. Sadıqova, S., Azərbaycan dili terminologiyasının standartlaşdırılma formaları. Monoqrafiya. Bakı, "Elm", 2015, 484 s.
5. Önal Rabianur, Sosyal medya dilinde oluşan fiiller, Karabük Türkoloji Dergisi, 2024, 5/9, s.77-86.

Adila Nazarova

The boundaries of social media language and the literary language

Summary

The writing style emerging on social networks represents a dynamic and abbreviation-based communication model in the Azerbaijani language. Although this style differs from literary language, it does not hinder its development; on the contrary, it contributes to the renewal of the language. Abbreviations used by young people in everyday messaging continue the historical tendency of sound economy. Social network language is not yet a standard, but some of its forms may be accepted in the futur.

Keywords: *social network language, literary language, abbreviation, language development, shortening.*

Адила Назарова

Границы языка социальных сетей и литературного языка

Резюме

Языковой стиль, формирующийся в социальных сетях, представляет собой динамичную и сокращённую модель коммуникации в азербайджанском языке. Этот стиль отличается от литературного языка, но не мешает его развитию, а, напротив, способствует обновлению языка. Сокращения, используемые молодёжью в повседневной переписке, продолжают историческую тенденцию экономии звуков. Социальный сетевой язык пока не является нормой, но в будущем некоторые его формы могут быть признаны.

Ключевые слова: *язык социальных сетей, литературный язык, аббревиатура, развитие языка, сокращение*

Çapa tövsiyə edən: Azərbaycan Respublikası Təhsil İnstitutu

Rəyçilər: dosent Sima Quliyeva
dosent Natavan Hüseynova

UOT-811.512.162
Səhifə: 65-69
https://doi.org/10.59849/2663-8967.2026.1.65

Farizə Şahbazova
Azərbaycan İqtisadiyyat Universiteti,
filologiya üzrə fəlsəfə doktoru, dosent
fariza20@gmail.com

"MƏDƏNİYYƏT LEKSİKASI" ANLAYIŞI: İZAH VƏ TERMİNOLOJİ ÇƏRÇİVƏ

XÜLASƏ

"Mədəniyyət leksikası" anlayışı dilçilik və mədəniyyət araşdırmalarında mühüm və aktual mövzu olaraq diqqət mərkəzindədir. Bu anlayış dilin yalnız kommunikasiya vasitəsi kimi deyil, həm də milli-mədəni dəyərlərin, əxlaqi və estetik prinsiplərin, eləcə də cəmiyyətin tarixini və sosial həyatını əks etdirən vasitə kimi funksiyasını vurğulayır. Mədəniyyət leksikası milli kimliyi, etnik xüsusiyyətləri və mədəni dəyərləri əks etdirən söz və ifadələrdən ibarət olub, onların istifadəsi dili öyrənənlərin və istifadəçilərin mədəni kontekstdə məna və funksiyanı düzgün anlamasına yardım edir. Bu leksika həmçinin tarixi, sosial və etnik fonu nəzərə alaraq dil realiyalarını və mədəni realiyaları əhatə edir, həmçinin fonetik, semantik və leksik xüsusiyyətləri ilə fərqlənir. Terminoloji çərçivədə mədəniyyət leksikası dilin funksional və kommunikativ aspektlərini, həmçinin sosial və mədəni kontekstdə yaranan söz və ifadələrin rolu və istifadəsini əhatə edir. O, fərqli dövrlərdə formalaşan dil materiallarını birləşdirir və cəmiyyətin müxtəlif təbəqələrinin gündəlik həyatını, adət-ənənələrini və mədəni davranışlarını əks etdirir. Mədəniyyət leksikası tərcümə, tədris və tədqiqat prosesində mədəni informasiyanın ötürülməsində mühüm rol oynayır, çünki o, mədəniyyətlərarası kommunikasiya bacarıqlarının inkişafına, etnomədəni kompetensiyanın formalaşmasına və dilin estetik və funksional zənginliyinin anlaşılmasına kömək edir.

Açar sözlər: *mədəniyyət leksikası, dil realiyaları, mədəni realiyalar, etnomədəni kompetensiya.*

Giriş: Mədəniyyət leksikası milli və etnik identikliyin qorunması, dilin və mədəni irsin davamlılığının təmin edilməsi baxımından əhəmiyyətlidir. Onun tədqiqi, mədəni və tarixi kontekstin öyrənilməsi ilə yanaşı, tərcüməçilər üçün də vacibdir, çünki mədəni realiyaların digər dillərdə ekvivalenti olmadıqda tərcümə zamanı çətinliklər yaranır. Bu baxımdan, mədəniyyət leksikası həm dilin funksional zənginliyini, həm də mədəni məlumatların dəqiqliklə ötürülməsini təmin edir. Bu baxımdan müasir filologiyada mədəniyyət və dil arasındakı qarşılıqlı əlaqənin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də bir xalqın dünyagörüşünü, tarixi və mədəni xüsusiyyətlərini əks etdirən mədəni kodların daşıyıcısıdır. Bu kontekstdə "mədəniyyət leksikası" anlayışı xüsusi yer tutur. Mədəniyyət leksikası, bir dilin söz ehtiyatında mədəniyyətə xas olan, müəyyən xalqın həyat tərzi, adət-ənənələri, dəyərləri və sosial münasibətlərini əks etdirən leksik vahidlər toplusu kimi nəzərdən keçirilir. Həmçinin mədəniyyət leksikasının tipləri, funksiyaları və dilin mədəni kontekstdə rolunun öyrənilməsi məsələləri diqqətə çatdırılır. Məqsədimiz mədəniyyət leksikasının həm linqvistik, həm də mədəni aspektlərini sistemləşdirərək onun tədqiqi üçün terminoloji baza yaratmaqdır.

Dil, bir millətin mədəniyyətinin və mentalitetinin inikası olaraq, milli-mədəni kodu özündə ehtiva edir. Bu kod ən parlaq şəkildə mədəniyyətlə işarələnmiş leksika səviyyəsində təzahür edir. Belə leksika ikili rol oynayır: bir tərəfdən, xalqın ictimai həyatının unikal xüsusiyyətlərini və hadisələrini qoruyur, digər tərəfdən isə bu hadisələrin dəqiq təsvirinə və ötürülməsinə şərait yaradır, onları müəyyən etnokulturoloji icma ilə əlaqələndirməyə kömək edir [8, s. 111].

M.S.Qusykova vurğulayır ki, uğurlu mədəniyyətlərarası qarşılıqlı əlaqə təkcə dil biliklərini deyil, həm də mentalitetin, mədəni spesifikanın və tarixi-psixoloji amillərin nəzərə alınmasını tələb edir. Bu isə kommunikasiyada xalqın mədəni xüsusiyyətlərinin qorunması probleminin müasir dilçiliyin aktual məsələsinə çevrilməsinə səbəb olur [6, s. 123].

Mədəniyyətlə işarələnmiş leksika – mənasında milli-mədəni komponentlər daşıyan və müəyyən etnolingvistik icmanın mədəniyyətini, mentalitetini və həyat tərzini əks etdirən dil vahidlərinin (sözlərin, söz birləşmələrinin, sabit ifadələrin) məcmusudur. Bu vahidlər mədəni spesifikanın daşıyıcılarıdır və xalqın milli reallıqları, ənənələri, tarixi və sosial inkişafı ilə sıx şəkildə bağlıdır. Mədəniyyətlə işarələnmiş leksikanı ifadə etmək üçün termin seçimi onun mənaca nə dərəcədə dar və ya geniş başa düşülməsindən asılı olaraq dəyişir. Bu, mədəniyyətlə bağlı tərcümə problemlərinə müxtəlif elmi yanaşmaları əks etdirir:

Dildəki reallıqlar – müəyyən xalqın həyat tərzi, məişəti, ənənələri və mədəniyyətinin milli-spesifik xüsusiyyətlərini ifadə edən sözlər ;

Ekvivalentsiz leksika – başqa dildə tam və ya qismən qarşılığı olmayan, dilin mədəni-spesifik cəhətlərini əks etdirən söz və sabit birləşmələr toplusu;

Linqvokulturema – dil mənasını və mədəni məzmunu birləşdirən, linqvistik və ekstralingvistik səviyyələri əhatə edən kompleks vahid;

Mədəni–dil lakunaları – bir dildə milli reallıqları ifadə edən leksik ekvivalentlərin digər dildə olmaması, yəni mədəni fərqlərlə şərtlənmiş boşluqlar;

Ekzotik leksika – az tanınan dillərdən alınmış, lokal kolorit və mədəni spesifikanı ötürmək üçün işlədilən söz və ifadələr;

Kulturemalar – reallıq elementlərini forma, məzmun və mədəni kontekst vasitəsilə əks etdirən, linqvistik və ekstralinqvistik məzmunu birləşdirən leksik vahidlər;

Kulturonim – müxtəlif mədəniyyət elementləri ilə bağlı olan, konkret mədəniyyətə məxsus unikal obyektləri və hadisələri bildirən dil vahidi.

Aparılmış təhlilə əsaslanaraq, aşağıdakı anlayışların qarşılıqlı əlaqəsini müəyyənləşdirmək mümkündür: "realiya" və "dil reallığı" anlayışları milli mədəniyyətin unikal xüsusiyyətlərini əks etdirən, mədəniyyətə xas vahidləri təsvir edir və onların funksional və leksik unikallığına vurğu edir. *"Kulturonim"* və *"kulturema"* anlayışları *"realiya"* anlayışını genişləndirir, mədəni kontekstin ifadə və ötürülməsi ilə bağlı daha geniş dil və mədəni komponentləri əhatə edir, *"linqvokulturema"* isə linqvistik və ekstralingvistik məzmunu sintez edərək, dil və mədəniyyətin mədəniyyətlərarası kommunikasiya çərçivəsində vəhdətinin təhlili üçün əsas yaradır. Buradan belə nəticə çıxır ki, dilçilərin bu anlayışların öyrənilməsinə marağı kifayət qədər böyükdür. Bu maraq bir sıra səbəblərlə izah olunur: Mədəniyyətlə işarələnmiş leksikanın öyrənilməsi müxtəlif etnosların mentalitetini, ənənələrini və adətlərini daha dərindən anlamağa kömək edir, bu da mədəniyyətlərarası qarşılıqlı əlaqənin harmoniyasına (sosiomədəni kompetensiyaya) xidmət edir.

Hər bir xalqın dilindəki mədəniyyət leksikasının əsasını peşə və sənətlə bağlı leksik lay təşkil edir. "*Azərbaycan dilinin peşə-sənət leksikası xalqımızın maddi və mənəvi mədəniyyətini əks etdirir. Bu leksika qədim tarixə malik olub, yaranma tarixi başqa türk dillərində olduğu kimi, kənd təsərrüfatından sənətin ayrılması, müxtəlif sənət növlərinin meydana çıxması ilə əlaqədardır. Sonralar müəyyən əmək kollektivləri yaranmış və bu kollektivlərdə ünsiyyət üçün xüsusi terminlər yaradılmışdır. Bu terminlər də dilin leksikasında xüsusi bir lay, təbəqə yaratmışdır*" [1, s.9].

Bu leksika milli mədəniyyətin unikal xüsusiyyətlərini əks etdirir, onların öyrənilməsi mədəni irsin qorunması və ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Mədəniyyətlə işarələnmiş vahidlərin başa düşülməsi və təhlili digər dillərdə ekvivalentlərin olmaması səbəbindən yaranan tərcümə çətinliklərinin aradan qaldırılmasına kömək edir. Xüsusilə dil baryerlərinin aradan qaldırılmasında [7, s.23]. H. Əsgərov yazır: "*Xalqın tarixi inkişaf sürəti bu və ya digər dərəcədə dildə də öz əksini tapır. Bununla bərabər xüsusi qeyd etmək lazımdır ki, cəmiyyətin özünün sosialstrukturu, onun sosial təbəqələrinin və qrupların az və ya çox dərəcədə bir-birindən aralanması ümumxalq dilinə birbaşa təsir göstərir. Buradan aydın olur ki, ümumxalq dilinin sosial diferensiasiyası cəmiyyətin mürəkkəb sosial quruluşunun dildəki təbii nəticəsi və real təzahürüdür*" [2, s.8].

Kommunikativ aspektdə ingilisdilli nitq mədəniyyətinin öyrənilməsi bu dildə danışanın bilikləri, hadisələri və ifadələrin məcazi mənalarını təqdim etməyin münasib formalarını şüurlu şəkildə seçmək bacarığını əsas yerə qoyur. Burada məqsədli şəkildə həm verbal, həm də qeyri-verbal ünsiyyət vasitəsilə sosial qruplara uyğunlaşmaq da mühüm yer tutur. Bu isə şəxsin daxili resurslarının səfərbər olunmasını və şəxslərarası qarşılıqlı əlaqə şəraitində səmərəli kommunikativ aktın qurulmasını tələb edir. Bu kontekstdə kommunikativ aspektin strukturunda sosiomədəni kompetensiya mühüm rol oynayır. S.E. Balyutinanın fikrincə, bu kompetensiya [4, s. 191], L.A. Voroninaya görə beş növ sosiomədəni vahiddən istifadə bacarığı ilə reallaşır [5, s. 108].– *Linqvostranovedik leksik vahidlər* (ekvivalentləri olmayan, fon sözlər və realliyalar);

– *Situativ ifadə variantları və linqvopraqmatik normalar;*

– Qeyri-verbal vahidlər (somatizmlər, etiket kinosemlər);

– *Ölkəşünaslıq məzmunlu informasiya vahidləri;*

– *Situativ qarşılıqlı əlaqə ssenariləri.*

Tərcümə zamanı mədəni reallıqların nəzərə alınması mənanın təhrifinə yol vermədən, tərcümənin daha dəqiq və adekvat olmasını təmin edir. Mədəniyyətin ingilisdilli nitq mədəniyyətinin müəyyənləşdirilməsi probleminin əsas komponenti kimi anlaşılması "xaricidilli mədəniyyət" anlayışına insanlığın ümumi mədəniyyətinin bir hissəsi kimi istinad etməyə imkan verir. "Xaricidilli mədəniyyət" anlayışı da öz növbəsində dəqiq sərhədlərə və istifadə qaydalarına malik deyil və müasir metodikada müxtəlif cür şərh olunur. Əksər alimlər xaricidilli mədəniyyəti yalnız ictimai-iqtisadi formasiya səviyyəsində maddi və mənəvi inkişafın xüsusiyyəti kimi deyil, həm də fərdin fəaliyyətinin spesifik sahəsi kimi başa düşürlər. Xaricidilli mədəniyyətin mahiyyətini anlamağa yönəlmiş bəzi nəzəri yanaşmaları nəzərdən keçirək. N.İ. Almazovanın fikrincə, xaricidilli mədəniyyət bu anlayışın predmet məzmununu və fərdin yaradıcılıq, məsuliyyət, mədəni reallığı dərk etmə kimi şəxsi keyfiyyətlərini əks etdirən komponentlərin məcmusudur.

Müasir pedaqoji elmdə "xarici mədəniyyət" anlayışı da mövcuddur və bir sıra tədqiqatçılar onu "xaricidilli mədəniyyət" anlayışının sinonimi kimi qiymətləndirirlər. Lakin E.İ. Passov və N.E. Kuzovlevanın fikrincə, bu terminlər "hissə və bütöv" münasibətindədir, çünki xarici mədəniyyət müəyyən bir xalqın mədəniyyəti olmaqla yanaşı, dil ilə birlikdə yalnız xaricidilli mədəniyyətin idrak aspektinin obyektini təşkil edir, yəni daha geniş anlayış olan "xaricidilli mədəniyyət"in elementi, hissəsi, komponentidir [9, s. 40].

Beləliklə, mədəniyyətlə işarələnmiş leksika, mənasında milli-mədəni komponentlər daşıyan əsas kateqoriyadır və dil ilə mədəniyyətin qarşılıqlı əlaqəsinin öyrənilməsi üçün açar rolunu oynayır. Təhlil göstərir ki, "realiya", "kulturonim", "linqvokulturema" və digər anlayışlar bu leksikanın müxtəlif tərəflərini izah edir, onun mədəni spesifikanın əks etdirilməsi və ötürülməsindəki rolunu açır. "*Mədəniyyətin yaranması, inkişafı tarixində onu müxtəlif mövqelərdən şərh edən kulturoloqların nəzəriyyə, təlim və konsepsiyalarını ümumiləşdirən yeganə cəhət ondan ibarət idi ki, mədəniyyət – bəşəri, dünyəvi bir ictimai hadisə olmaqla cəmiyyətin həyatında mühüm rol oynamış, insan əqlinin, zəkasının məhsulu kimi dəyərləndirilməlidir*" [3,s.78].

Nəticə: Araşdırmanın nəticələrinə görə, mədəniyyət leksikası bir xalqın milli mədəniyyətini, tarixi və sosial həyatını əks etdirən leksik vahidlər sistemi kimi təqdim olunur. Bu leksik vahidlər dilin normalarını zənginləşdirir, mədəniyyətin öyrənilməsinə və qorunmasına xidmət edir, həmçinin fərqli xalqlar arasında mədəni və dil aspektlərində qarşılıqlı anlaşmanı asanlaşdırır. Terminoloji çərçivənin müəyyən edilməsi mədəniyyət leksikasının sinifləndirilməsi, təhlili və tədrisi üçün əhəmiyyətlidir. Eyni zamanda, mədəniyyət leksikasının öyrənilməsi dilçilik, tərcüməçilik, mədəniyyətşünaslıq və təhsil sahələrində tətbiqi imkanları genişləndirir. Nəticədə, mədəniyyət leksikası həm dilin, həm də milli mədəniyyətin qorunması və inkişaf etdirilməsi üçün mühüm bir vasitədir.

Ədəbiyyat siyahısı

1. Abdullayeva M.Ə. Azərbaycan dilində xalçaçılıq leksikası. Bakı, 1988. 159 s
2. Əsgərov H. Azərbaycan dilində maddi mədəniyyət leksikası/ –Bakı: Bakı Universiteti Nəşriyyatı, 2006, – 448 s.
3. Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik M.J.Manafova, N.T.Əfəndiyeva və S.A.Şahhüseynovanın ümumi redaktəsilə. Bakı: Sabah nəşriyyatı (2008), 2010, 876 səh.
4. Балютина С.Е. О содержательном наполнении термина-понятия «социокультурная компетенция» // Вестник Воронеж ского государственного университета. Серия: Лингвистика и межкультурная коммуникация. 2008. № 3. С. 187–192.
5. Воронина Л.А. Формирование социокультурной компетенции при обучении устно-речевому общению на корейском языке на основе видеосюжетов (на начальном этапе обучения в неязыковых вузах) : дис. … канд. пед наук. СПб., 2004. 254 с.
6. Гуськова М.С., Вишнякова О.Д. Культурно-маркированная лексика как отражение культуры нации // Фундаментальные и прикладные научные исследования: актуальные вопросы, достижения и инновации. – 2021. – С. 121 124;
7. Макеева А.Д. Теоретические основы понятия культурно-маркированной лексики в лингвистике//Международный научный журнал «ВЕСТНИК НАУКИ» № 12 (81) Том 1. ДЕКАБРЬ 2024 г.
8. Пассов Е.И. Принципы иноязычного образования, их система и иерархия [Электронный ресурс]. Липецк, 2015. URL: http://ru.mapryal.org/wp-content/uploads/ 2015/07/ passov-principi-in-yaz.pdf (дата обращения: 20.10.2017).
9. Поповичева, И.В. Культурно-маркированная лексика на уроках рки (практический аспект изучения) / И.В. Поповичева // Экология языка и речи : Материалы X Международной научной конференции, Тамбов, 08–09 декабря 2022 года / Науч. редактор А.Л. Шарандин, отв. за выпуск Т.А. Дьякова. Тамбов: Издательский дом "Державинский", 2023. – С. 111-114;

Fariza Shahbazova

"Cultural lexicon": definition and terminological framework

Summary

The concept of "cultural lexicon" is a significant and current topic in linguistics and cultural studies. This concept emphasizes language not only as a tool for communication but also as a carrier of national and cultural values, moral and aesthetic principles, as well as the history and social life of a community. The cultural lexicon comprises words and expressions reflecting national identity, ethnic characteristics, and cultural values, helping language learners and users understand meaning and function within the proper cultural context. It also encompasses linguistic and cultural realities, taking into account historical, social, and ethnic backgrounds, and is distinguished by phonetic, semantic, and lexical features.

Terminologically, the cultural lexicon covers functional and communicative aspects of language, as well as the role and usage of words and expressions formed in the social and cultural context. It unites language material developed over different periods, reflecting the daily life, traditions, and cultural behaviors of various social strata. The cultural lexicon plays a crucial role in translation, teaching, and research, as it facilitates intercultural communication skills, the development of ethnocultural competence, and understanding the aesthetic and functional richness of language.

Key words: *cultural lexicon, linguistic realities, cultural realities, ethnocultural competence.*

Фариза Шахбазова

«Культурный лексикон»: определение и терминологическая основа

Резюме

Понятие «культурная лексика» является важной и актуальной темой в лингвистике и культурологии. Этот термин подчеркивает, что язык является не только средством общения, но и носителем национально-культурных ценностей, моральных и эстетических принципов, а также истории и социальной жизни общества. Культурная лексика включает слова и выражения, отражающие национальную идентичность, этнические особенности и культурные ценности, помогая изучающим язык правильно понимать значение и функции в культурном контексте. Она охватывает языковые и культурные реалии, учитывая исторический, социальный и этнический фон, и отличается фонетическими, семантическими и лексическими характеристиками.

В терминологическом плане культурная лексика охватывает функциональные и коммуникативные аспекты языка, а также роль и использование слов и выражений, сформированных в социальном и культурном контексте. Она объединяет языковой материал, сформированный в разные эпохи, отражая повседневную жизнь, традиции и культурные практики различных социальных слоев. Культурная лексика играет важную роль в переводе, преподавании и исследовании, поскольку способствует развитию межкультурной коммуникации, формированию этнокультурной компетенции и пониманию эстетического и функционального богатства языка.

Ключевые слова: *культурная лексика, языковые реалии, культурные реалии, этнокультурная компетенция.*

Çapa tövsiyə edən: ***Azərbaycan İqtisadiyyat Universiteti***

Rəyçilər: ***fil.e.d.,dosent Qətibə Mahmudova***
dosent Elnarə Əliyeva

UOT-811.11-112
Səhifə: 70-76
https://doi.org/10.59849/2663-8967.2026.1.70

Гюнай Багирова
Азербайджанский Университет Языков,
доктор философии по филологии
Orcid: 0009-0003-8194-0255

ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ И ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЙ ПОДХОД К ЯЗЫКОВЫМ МОДЕЛЯМ

РЕЗЮМЕ

В статье рассматривается роль искусственного интеллекта в формировании языковых моделей с позиции лексико-семантического подхода. Современные системы искусственного интеллекта, в частности крупные языковые модели, основанные на нейронных сетях, функционируют на основе обработки семантической структуры лексических единиц и их контекстуальных связей. В исследовании анализируются такие понятия, как лексико-семантическое поле, семантическая сеть, концептуальная структура и многозначность, а также их реализация в алгоритмах искусственного интеллекта. Подчеркивается, что эффективность языковых моделей определяется не только статистическими параметрами, но и глубинной организацией семантических связей.

Ключевые слова: *моделирование языка, токенизация, мешок слов, словесные векторы, контекстуальные модели.*

Введение: В современном мире технологических нововведений искусственный интеллект занимает особое место. ИИ интегрирует во все области науки, в том числе и в область лингвистики. Ранее основывающиеся на традиционные лингвистические методы, исследования в современное время основываются на различные возможности информационных технологий. Такое развитие технологии изменило методы исследований и создало новые возможности. Цель выявления путей применения и научного потенциала искусственного интеллекта в науке лингвистики дает основу для изучения функций и перспективы технологических новшеств.

Воздействие ИИ на лингвистику явно выявляется не только в теоретической, но и в практической областях. Искусственный интеллект предлагает возможность моделировать с помощью систем ИИ человеческий язык математическими и статистическими методами. В образовании таких языковых моделей сформировались два основных, дополняющих друг друга, подхода: лексический (форма слова зачитывается основным) и семантический (значение слова зачитывается основным) подходы.

В статье рассматриваются билингвизм и диглоссия как важнейшие социолингвистические явления, возникающие в условиях языковых контактов. Анализируются причины формирования билингвизма, его основные типы и формы, а также особенности функционирования языков в двуязычной среде. Особое внимание уделяется разграничению понятий билингвизма и диглоссии, которые, несмотря на тесную взаимосвязь, отражают различные аспекты языкового сосуществования. Билингвизм трактуется как владение двумя языками и их активное использование в коммуникативной практике, тогда как диглоссия понимается как функциональное распределение форм одного языка или близкородственных языков в обществе. В работе также рассматриваются психолингвистические и когнитивные аспекты двуязычия, проблемы интерференции и языкового переключения, а также влияние билингвизма на формирование языковой личности. Подчеркивается необходимость комплексного подхода к изучению билингвизма с учетом социальных, культурных и психологических факторов.

***Ключевые слова**: билингвизм, диглоссия, интерференция, языковое переключение, социолингвистика, психолингвистика.*

Çapa tövsiyə edən: ***Bakı Slavyan Universiteti***

Rəyçilər: ***dosent S.Süleymanova***
dosent N.Hüseynova

UOT-811.11-112
Səhifə: 88-91
https://doi.org/10.59849/2663-8967.2026.1.88

Nigar Həbibullayeva
Azərbaycan Turizm və Menecment Universiteti
nigar.habibullayeva@atmu.edu.az
ORCID iD: 0009-0006-9692-185X

BEYNƏLXALQ ELM VƏ MEDİADA İNGİLİS DİLİNİN HEGEMONLUĞU

XÜLASƏ

Məqalədə ingilis dilinin qlobal ünsiyyət, akademik araşdırma və media istehsalının formalaşmasında necə dominant dilə çevrildiyi tədqiq olunmuşdur. Bu dil üstünlüyünə töhfə verən tarixi, iqtisadi və texnoloji amillər vurğulanır və onun biliklərin yayılmasına və mədəni müxtəlifliyə təsirləri araşdırılır. İngilis dili qlobal mübadilə və əməkdaşlığı asanlaşdırsa da, ingilis dilində danışmayan alimləri mədəniyyətləri də kənara qoyur. Belə nəticəyə gəlinir ki, linqvistik əlçatanlığın çoxdilli daxilolma ilə balanslaşdırılması qlobal elm və mediada daha fəal iştirakı üçün vacibdir.

Açar sözlər: *qlobal dil, diskurs, hegemonluq, beynəlxalq elm, media.*

Giriş: İngilis dili elmin və və medianın əsas qlobal dilinə çevrilərək, sərhədlər arasında sürətli ünsiyyət və bilik mübadiləsini təmin edir. Bununla belə, onun üstünlüyü dərin bərabərsizliklər yaradır, yerli və yüksək səviyyəli natiqlərə üstünlük verir və digər dil icmalarını marginallaşdırır. İngilis dilinin hegemonluğunun tarixi inkişafını, onun akademiya və mediada qorunub saxlanması mexanizmlərini və epistemik ədalət, dil müxtəlifliyi və mədəni identiklik üçün təsirlər yaradır. XXI əsrdə ingilis dili elmi tədqiqatların, ali təhsilin və kütləvi ünsiyyətin dominant qlobal dili kimi mövqeyini möhkəmləndirdi. Bu, əksər beynəlxalq jurnalların, konfransların və media orqanlarının əsas dilidir və müxtəlif dil mənşəli tədqiqatçılara və auditoriyaya səmərəli ünsiyyət qurmağa imkan verən lingua franca rolunu oynayır. Bununla belə, alimlər bu hökmranlığın xeyirxah linqvistik təkamül və ya linqvistik imperializmin bir formasını təşkil edib-etmədiyini getdikcə daha çox şübhə altına alırlar [4]. Əsas narahatlıq təkcə ingilis dilinin geniş yayılması deyil, onun üstünlüyünün qanuni bilik sayılanları, ona kimin çıxışı olduğunu və onun qlobal miqyasda necə yayılmasını formalaşdırır.

İngilis hegemonluğu tarixi, siyasi və iqtisadi qüvvələrin - Britaniya İmperiyasının mirası, ABŞ-ın müharibədən sonrakı təsiri və elm və texnologiyanın qloballaşmasının birləşməsindən yarandı. Bu məqalədə bu qüvvələrin beynəlxalq ünsiyyətin linqvistik nizamını necə formalaşdırdığı araşdırılır, xüsusən də elmi nəşrlərdə və qlobal mediada.

İngilis dilinin qlobal dil kimi yüksəlişini Britaniya müstəmləkəçiliyinin tarixi yayılmasından və 20-ci əsrdə ABŞ-ın geosiyasi gücündən ayırmaq olmaz. Britaniya imperiyasının təsiri bütün qitələrə yayıldıqca, ingilis dili bir çox bölgələrdə inzibati və təhsil dili kimi möhkəmləndi. İkinci Dünya Müharibəsindən sonra ABŞ-ın elm, texnologiya və əyləncə sahəsindəki yüksəlişi ingilis dilinin qlobal nüfuzunu daha da gücləndirdi [5, s.65]. Empirik məlumatlar ingilis dilinin elmi nəşrdə qeyri-adi üstünlüyünü vurğulayır. Beynəlxalq jurnal və konfransların əksəriyyəti ingilis dilində fəaliyyət göstərir; Hesablamalar indekslənmiş elmi məqalələrin 80%-dən çoxunun ingilis dilində nəşr olunduğunu göstərir [8, s.45]. Bu linqvistik konsentrasiya özünü gücləndirən bir dövr yaratdı: görünürlük, prestij və sitat göstəriciləri daha çox təqdimat və maliyyə cəlb edən ingilisdilli nəşrlərdə cəmləşibdir.

Konsentrasiya müəyyən üstünlüklər təklif edir - o, tərcümə maneələrini minimuma endirərək, sərhədlər arasında sürətlə yayılmağa və əməkdaşlığa imkan verir. Bununla belə, bu üstünlüklər baha başa gəlir. Qeyri-ana dili ingiliscə danışan alimlər tez-tez əhəmiyyətli maneələrlə

üzləşirlər: redaktə üçün əlavə vaxt və maliyyə resursları, dil problemlərinə görə daha yüksək imtina nisbətləri və yüksək səviyyəli jurnallarda daha az təmsilçilik [8, s. 72].

Media sənayesi əyləncə, xəbərlər və rəqəmsal platformalar vasitəsilə ingilis dilinin qlobal təsirini gücləndirir. İngilisdilli məzmun beynəlxalq film, televiziya və onlayn yayım bazarlarında üstünlük təşkil edir. BBC, CNN və Reuters kimi əsas agentliklər hadisələrin dünya miqyasında necə şərh edildiyini formalaşdırmaqla qlobal xəbər povestləri üçün ton təyin edir. Netflix, YouTube kimi yayım platformaları ingilis dilində məzmuna üstünlük verməklə və ya ingilisdilli auditoriya üçün subtitrlərlə ingilis dilinin mədəni mərkəziliyini daha da gücləndirir.

T.van Deyk "güc" anlayışından bəhs edərkən əsərlərində "nəzarət" sözündən istifadə etməyə üstünlük vermişdir. O, nəzarətin bir neçə formasını qeyd etmişdir. Onun fikrincə, nəzarət təkcə ictimai təcrübə kimi diskursa münasibətdə deyil, həm də idarə olunanların şüuruna münasibətdə — yəni onların biliyi, fikirləri, münasibətləri, ideologiyası və s. Müvafiq olaraq qeyd etmək olar ki, diskursa nəzarət etməklə insanların şüurunu, yəni biliyini, ideologiyasını, norma və dəyərlərini idarə etmək mümkündür [9,s.38].

N.Ferkloufun tərifinə görə, ideologiya güc, hökmranlıq, istismar kimi anlayışların formalaşmasına və yaradılmasına mühüm töhfə verən qlobal aspektlərin təmsilidir. Mətn təhlili ideoloji təhlil və tənqidin mühüm aspektlərindən biridir [3,s.27].

İdeologiya Amerika diskursunda üstünlük təşkil edir və buna görə də diskurs iştirakçıları ilk növbədə müvafiq diskurs növünün daşıdığı ideoloji yükü nəzərə alırlar. Diskurs biliyin formalaşması və onun cəmiyyət daxilində dövriyyəsinin davam edən prosesidir. Diskurs mətnlərdə, söhbətlərdə və ya müzakirələrdə görünə və ya eşidilə bilər. Söhbət düşüncələrimiz daxilində sakitcə öz işini davam etdirir; fərdi şəkildə istifadə edildikdə belə, cəmiyyətin sosial həyatının ayrılmaz hissəsi olaraq qalır. Biz diskursdan həm sosial dünya haqqında təsəvvürümüzü formalaşdırmaq, həm də fərdləri cəmiyyətlə əlaqələndirmək üçün istifadə edirik. Diskurs, ümumiyyətlə, həm nəzəri anlayışa, həm də onun daxilindəki konkret anlayışa aid olan termindir. Diskurs sosial istifadədə olan dildir. Diskurs təhlili linqvistik təhlildən onunla fərqlənir ki, o, onların necə formalaşmasından daha çox "ifadə və ifadələrin" nədən ibarət olduğuna diqqət yetirir. Diskurs müxtəlif sosial şərtlərlə formalaşır və müəyyən edilir.

Gücün müəyyən etdiyi şərtlər altında diskurs vasitəsilə şəxslərarası ünsiyyətdə güc müzakirə edilir, manipulyasiya edilir, ifadə edilir, rədd edilir və mübahisələndirilir. N.Ferkllоun fikrincə, diskursun arxasında duran qüvvə ilə diskursdakı güc, yəni status və rolu müəyyən edən, tərcüməçinin diskursunu və şərh strategiyasını yönləndirən gizli güc arasında fərq vardır [3, s.42]. Mediada və siyasətdə həm kooperativ, həm korporativ, həm də iyerarxik şəbəkələr tərəfindən tənzimlənən institusional və iş yerindəki diskursların çoxsaylı tədqiqatları bu hüququn necə həyata keçirildiyini və institutların diskurs formalarını necə mənimsədiyini və inhisara aldığını, bununla da məhdud olan mallara, məhsullara, xidmətlərə və qərar qəbuletmə imkanlarına çıxışı olan "gizli" imtiyazlı insanlar qrupu, fərdlər yaratdığını nümayiş etdirmişdir. Dominant qrupların gücünün əsasını təşkil edən resurslar arasında ictimai diskursa çıxış getdikcə daha vacib amilə çevrilir, çünki o, ictimai rəyə nəzarət mexanizmlərinə çıxış imkanı verir. Müasir cəmiyyətlərdə nitqə çıxış razılığın əldə edilməsinin əsas şərti və deməli, dominantlığın həyata keçirilməsinin ən effektiv yoludur [2]. Qrup sosial təmsilləri (biliklər, münasibətlər) ideoloji cəhətdən təşkil edilə bilər.

İdeologiya, tərifinə görə, ümumi və mücərrəddir(abstrakt), çünki onun müxtəlif sosial sahələrdəki müxtəlif sosial vəziyyətlərlə əlaqə qurma qabiliyyəti çox vacibdir. Alimlər ingilis dilinin yayılmasına neytral qlobal lingua franca, yoxsa linqvistik imperializmin bir forması kimi baxılmalı olduğuna dair fikir ayrılığı qalır. Keçmiş mövqeyin tərəfdarları iddia edirlər ki, ingilis dilinin üstünlüyü əsasən praqmatikdir: elm, diplomatiya və biznes sahəsində əməkdaşlığı asanlaşdıran ortaq kod [6, s.55]. Əksinə, R.Phillipson və Pennycook kimi tənqidi dilçilər ingilis hegemonluğunun qlobal bərabərsizlikləri davam etdirdiyini iddia edirlər. Onlar iddia edirlər ki, linqvistik imperializm Qərbin hökmranlığını gücləndirən təhsil sistemləri, nəşriyyat strukturları və mədəniyyət sənayeləri vasitəsilə fəaliyyət göstərir. [4, 5, s.427]

Beynəlxalq elm və mediada ingilis dilinin hegemonluğu həm ünsiyyət gücünü, həm də qloballaşmanın bərabərsizliklərini əks etdirir. İngilis dili xalqlar arasında həyati körpü rolunu oynasa

da, onun qeyri-bərabər üstünlüyü digər səsləri kənara qoyur və qlobal bilik sistemlərini qeyri-bərabər şəkildə yenidən formalaşdırır. Bu asimmetriyanın tanınması islahatlara doğru ilk addımdır. Məqsəd ingilis dilini azaltmaq yox, onu demokratikləşdirmək olmalıdır - qlobal ünsiyyətin dil ədaləti və mədəni müxtəliflik hesabına baş verməməsini təmin etmək.

İqtidar təkcə diskursda "içində" və ya "vasitəsilə" həyata keçirilmir, həm də diskursdan "kənarda" qüvvə kimi mövcuddur. Bu mənada diskurs və güc arasındakı əlaqə bir sinfin, qrupun və ya qurumun gücünün bilavasitə təzahürü kimi təzahür edir və həm də onların iştirakçılarının mövqeyindən və ya statusundan asılıdır. Diskursda hakimiyyətin həyata keçirilməsi üsullarını təhlil edək:

1. Fəaliyyətə birbaşa nəzarət diskursun təsiri ilə, məsələn, təhdidlər, qanunlar, əmrlər, qaydalar, göstərişlər və məsləhət və tövsiyələr kimi daha az birbaşa formalar vasitəsilə əldə edilir.

2. Reklam və təbliğat kimi inandırıcı diskursiv formalar da alıcının hərəkətlərinə birbaşa təsir etmək məqsədi daşıyır. Onların gücü iqtisadi və maliyyə resurslarına əsaslanır və kütləvi informasiya vasitələrinə çıxış və tamaşaçıların diqqətini cəlb etməklə həyata keçirilir.

3. Məcburi nitq formaları ilə yanaşı, nəzərdə tutulan hərəkətlərə təsir mümkün hadisələrin, vəziyyətlərin və hərəkətlərin təsviri ilə, məsələn, proqnozlar, planlar, ssenarilər, proqramlar və xəbərdarlıqlar şəklində həyata keçirilə bilər ki, bu da çox vaxt müxtəlif növ məsləhətlərlə birləşdirilir. Bu zaman güc qrupları peşəkarlardır ("ekspertlər") və güc bilik və texnologiyanın idarə edilməsində ifadə olunur.

4. Romanlar və ya filmlər kimi məşhur və təsirli mətnlərin və ya əsərlərin müxtəlif növləri gələcək hərəkətlərin arzuolunan və ya arzuolunmaz xarakterini təsvir edə bilər və dramatik və ya emosional təsvir ritorikasından istifadə edə bilər. Bu diskurs sinfinin fərqli xüsusiyyəti mediada təkcə cari hadisələri və onların mümkün nəticələrini təsvir etmir, həm də siyasi, iqtisadi, hərbi və sosial güc qruplarının hərəkətlərini əhəmiyyətli dərəcədə qiymətləndirən və fikirlərini ifadə edən xəbərlərdir.

Gücün əsası ilk növbədə bu üsul vasitəsilə inkişaf etdirilir, geniş auditoriya kimin hakimiyyətdə olduğunu və nə istədiklərini öyrənir [10, s. 45] .

Bu, həm hakimiyyətin ideoloji əsasının, həm də müxtəlif müqavimət formalarının mövcudluğunun əsas şərtidir. Bu tipologiyadan belə çıxır ki, hakimiyyətin diskursiv həyata keçirilməsi ilk növbədə inandırıcı xarakter daşıyır. Güclü qruplar və institutlar nadir hallarda daha az güclü qrupların nə etməli olduğunu diktə etməyə məcbur olurlar, baxmayaraq ki, bu cür direktivlər dövlət idarəçiliyində olduğu kimi başqalarının idarə olunmasında da həlledici rol oynaya bilər. Onlar iqtisadi, siyasi, sosial və əxlaqi arqumentlərdən istifadə etməklə və müvafiq məlumatlara nəzarət etməklə inandırırlar. Bu baxımdan, informasiya güc elitasının maraqlarına uyğun təqdim olunmaqla və ya onların maraqları ilə ziddiyyət təşkil edirsə, məhdudlaşdırılmaqla subyektivləşə bilər. Bu məqsədlərə ritorik və ya bədii ifadə vasitələri ilə nail olmaq olar.

Ədəbiyyat siyahısı

1. Canagarajah, S.A. Resisting linguistic Imperialism in English Teaching/S.A. Canagarajah. – Oxford: Oxford University Press, – UK. – 1999. – 216 p.
2. Crystal, D. English as a Global Language / D.Crystal. – USA: Cambridge University Press – 2012. – 224 p.
3. Fairclough, N. Language and Power / N.Fairclough. – New York, USA: Routledge, – 2013. p. 225
4. Pennycook, A. Global Englishes and transcultural flows / A.Pennycook – London: by Routledge, – 2007. – 183 p.
5. Phillipson, R. Linguistic imperialism / R.Philipson. – Oxford: Oxford University Press, – 2002. – 427 p
6. Preston, D. Linguistic profiling: The linguistic point of view, Language allegiances and bilingualism in the US / D.Preston. – USA: John Benjamins, – 2003. –79 p.

7. Seidlhofer, B. ELF: English in a global context / B.Seidlhofer. – Abingdon and New York: Routledge, – 2016. – 170 p.
8. Seidlhofer, B. English as a Lingua Franca in European Multilingualism, Exploring the dynamics of multilingualism/ B.Seidlhofer. – Amsterdam: John Benjamins, – 2013. – 406 p.
9. Talbot, M. Media discourse: Representation and Interaction / M.Talbot. – Edinburgh: Edinburgh University Press , – 2007. –208 p.
10. Teun, A. Dijk. Discourse and Context. A socio-cognitive approach / Teun, A. Dijk. – Cambridge: Cambridge University Press, – 2008. – 267 p.
11. Teun, A. Djik. A Paradigm for Cognition/ Teun, A. Djik, W.Kintsch. – Cambridge: Cambridge University Press, – 1998. – 459 p.

Nigar Habibullayeva

The hegemony of the english language in international science and media

Summary

The article 'The Hegemony of the English Language in International Science and Media' explores how English has become the dominant language shaping global communication, academic research, and media production. It highlights the historical, economic, and technological factors that contributed to this linguistic dominance and examines its effects on knowledge dissemination and cultural diversity. While English facilitates global exchange and collaboration, it also marginalizes non-English-speaking scholars and cultures. The paper concludes that balancing linguistic accessibility with multilingual inclusion is essential for more equitable participation in global science and media.

Key words: *global language, discourse, hegemony, international science, media.*

Нигяр Габибуллаева

Гегемония английского языка в международной науке и СМИ

Резюме

В статье «Гегемония английского языка в международной науке и СМИ» рассматривается, как английский язык стал доминирующим языком, определяющим глобальную коммуникацию, академические исследования и медиа. В статье рассматриваются исторические, экономические и технологические факторы, способствовавшие этому языковому доминированию, а также изучается его влияние на распространение знаний и культурное разнообразие. Хотя английский язык способствует глобальному обмену и сотрудничеству, он также маргинализирует учёных и культуры, не говорящие по-английски. В статье делается вывод о том, что баланс между языковой доступностью и многоязычной инклюзивностью имеет решающее значение для более равноправного участия в глобальной науке и СМИ.

Ключевые слова: *глобальный язык, дискурс, гегемония, международная наука, СМИ.*

Çapa tövsiyə edən: ***Azərbaycan Turizm və Menecment Universiteti***

Rəyçilər: ***fil.e.d. Lalə Qurbanova***
fil.üz.f.d. Sevinc Şükürova

UOT-811.11-112
Səhifə: 92-95
https://doi.org/10.59849/2663-8967.2026.1.92

Solmaz Əhmədova
Azərbaycan Dillər Universiteti
konulahmedova0@gmail.com

QLOBALLAŞAN DÜNYADA ANTROPOSENTRİK PARADİQMDƏ DİL-MƏDƏNİYYƏT ƏLAQƏLƏRİ VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR

XÜLASƏ

Məqalədə antroposentrik paradiqmdə dil-mədəniyyət, etnik-milli mənsubiyyət və milli-mənəvi dəyərlərdən bəhs olunur. Dünya getdikcə qloballaşır. Dil və mədəniyyət xalqın adət-ənənəsini, etnik və milli mənsubiyyətini araşdıran bir istiqamətdir. V.fon Humboldt dili xalq ruhunun ifadəsi hesab edirdi. Amerika dilçisi E.Sepirin fikrincə, mədəniyyət bizim yaşayış tərzimizi xarakterizə edən sosial ümumilikdir. Millətlər öz mədəniyyətləri ilə tanınırlar. Müasir dilçiliyin ümumi antropoloji tərəfini idrak və mədəni aspektlər təşkil edir. Hazırda dünyada qloballaşma ilə bağlı dil də dəyişir və dünyaya uyğunlaşır.

Açar sözlər: *antroposentrizm, dil, mədəniyyət, paradiqm, qloballaşma.*

Giriş: Bir problem kimi paradiqm məsələsinə 1962-ci ildə T.Kunun "Elmi inqilabların strukturu" kitabında geniş yer verilmişdir. T.Kun paradiqmi müəyyən biliklərin məcmusu kimi qəbul edirdi. Humanitar sahədə paradiqmlər bir-biri ilə yanaşı inkişaf edir və bir-birlərini inkar edirlər. Dilçilikdə ilk elmi paradiqm müqayisəli-tarixi dilçilik idi. Antroposentrik paradiqm isə fəlsəfi istiqamət kimi insanı dildə və dili insanda araşdırır. İ.A.Boduen de Kurtene qeyd edirdi ki, "Dil yalnız müəyyən dil cəmiyyətini təşkil edən fərdin beynində və psixologiyasında mövcuddur". Müasir dilçilikdə dilin antroposentrik ideyası öndədir. Dil insan cəmiyyətində çoxşaxəli hadisədir: o (dil) həm sistem, həm antisistem, həm fəaliyyət, fəaliyyətin məhsulu, həm ruh, həm də təbii inkişaf edən nizamlanmış bir hadisə və törəmədir. Antroposentrik mövqedən insan dünyanı, özünü dərk etməklə, nəzəri və cismi fəaliyyəti ilə öyrənir. İnsanın özünü bir meyar kimi düşünməsi ona belə bir nəticə çıxarmağa əsas verir ki, insan öz təfəkküründə antroposentrik nizam yaratsın və özünü elmi səviyyədə təsdiq etsin.

Antroposentrik paradiqmda adətlərin-ənənələrin və mədəniyyətin mərkəzində duran, bütün dəyişikliklər fərdi dil daşıyıcısı ilə bağlıdır. Beləliklə, antroposentrik paradiqm insanı ön planda görür, dil isə insan xüsusiyyətinin əsası kimi qəbul edilir. Antroposentrik paradiqm çərçivəsində müasir dilçiliyin əsas istiqamətlərindən biri olan koqnitiv dilçilik, dil və mədəniyyətdir ki, bunlar dildə mədəniyyət amili və insanda dil amilinə yönəlmişdir. Nəhayət, dil və mədəniyyətin qarşılıqlı əlaqəsi dilçilikdə inkişaf edən antroposentrik paradiqmin məhsuludur. Dil və mədəniyyət, dilçilik və kulturologiyanın kəsişdiyi bir nöqtədə meydana gəlmişdir və etnosun təfəkküründə kök salmış mədəni hadisələri tədqiq edən dilçilik sahəsidir. Etnolinqvistik tədqiqatlar sahəsində dilçilikdə Avropada V.fon Humboldtun, Amerikada F.Boasın, E.Sepirin, B.Uorfun böyük xidmətləri olmuşdur. Etnolinqvistika dil və mədəniyyətin qarşılıqlı əlaqəsini dünyanın dil mənzərəsini, xalqların adət-ənənələrini, etnik və milli mənsubiyyətlərini araşdıran bir istiqamətdir. Dil birliyi, mədəni və psixi xüsusiyyətlər, qrup birliyi, özünüdərketmə etnosa xas olan xüsusiyyətlərdir. Dil və mədəniyyət etnosun tarixini, həm də dil amillərini mənəvi mədəniyyət aspektində təhlil edir.

Güclü arsenal olan dil sosial institutdur. Dil və mədəniyyət etnopsixolinqvistika ilə də sıx bağlıdır. Etnopsixolinqvistika müəyyən adətlərlə bağlı davranış elementlərinin danışıq zamanı ortaya çıxmasını müxtəlif dil daşıyıcılarının verbal və qeyri-verbal davranışının fərqini təhlil edir. [1, s.19-23]

Müasir cəmiyyətdə dil və mədəniyyətin əlaqəsi milli tarix, dövlətçilik və adət-ənənələrlə bağlı olub, təcrübə və informasiyanın toplanmasında, qorunub saxlanmasında özünü göstərir. Dil

və mədəniyyət həm kulturologiyada, həm də dilçilikdə müxtəlif şəkildə qavranılmışdır. XIX əsrdə alman almi V fon Humboldt dili "Xalq ruhunun ifadəsi" hesab etmişdir. XX əsrdə ABŞ alimi H.Boas Amerika hindu qəbilələrinin mədəniyyət və məişətini, adət-ənənələrini tədqiq edərək, belə bir nəticəyə gəlmişdir ki, dil necədirsə, mədəniyyət də elədir. Dil etnosla birlikdə inkişaf edərək qəbilə, tayfa, xalq və nəhayət milli dillər şəklində mövcud olur. Beləliklə, dil ictimai hadisə kimi təzahür edir. Dillə ifadə olunan sözlər insan təfəkküründün aynasıdır. [2, s.19]

Dil və mədəniyyət probleminin həllinə A.A.Potebniyanın, Y.Qrimm qardaşlarının tədqiqatlarında da rast gəlinir. Dilin mədəniyyətlə əlaqəsini "Dildə ruh və mədəniyyət" (1925) kitabında estetik idealizm məktəbinin banisi Alman filoloqu K.Fossler geniş şəkildə araşdıraraq dilin din və poeziya ilə əlaqəsini də tədqiq etmişdir. K.Fossler mətnləri və danışıq nitqini mədəniyyətin tarixi kontekstində öyrənirdi.

Amerikan dilçisi E.Sepirin fikrincə, mədəniyyət bizim yaşayış tərzimizi xarakterizə edən, praktiki bacarıq və ideyaların sosial ümumiliyidir. Dil ilkindir, yoxsa mədəniyyət? E.Sepir izah edirdi ki, dil mədəniyyətdən öncə yaranmışdır və məna bildirir. Dil müəyyən vaxtda və müəyyən yerdə yaşayan xalq mədəniyyətinin bir hissəsidir, sosial davranışın hər bir mədəni stereotipi kimi kommunikasiyaya daxil olur. Nəhayət, E.Sepir qeyd edir ki, dil sosiallaşmış mədəniyyətin parçasıdır. Dil və mədəniyyətin ümumi xüsusiyyətləri nədən ibarətdir? Həm nitq, həm də mədəniyyət konseptual seçim tələb edir. E.Sepir qeyd edirdi ki, lüğətlər mədəniyyətin inkişafının səviyyəsini əks etdirir. Lüğətlər milli mədəniyyətin göstəricisidir. [3, s.473]

Dil insanın insana və dünyaya münasibətinin ali formasıdır, xalqın ruhu onda gizlənir. Söz güzgüdür, əşya onda görünür, deyərkən, məşhur alman filosofu Qadamer bunu anlatmaq istəyirdi. İdrak öz mövcudluğu ilə dilə minnətdardır: onun məzmunu funksiya və norma, məna və sistemdən ibarətdir. Bu məzmun qrammatikada əksini tapır. Tarixi yaddaş, mədəniyyət və sivilizasiya, ünsiyyət dilsiz ağlasığmazdır. Dil fikrin ifadə vasitəsidir. Dildən istifadə həqiqəti olduğu kimi dərk etməkdir. Linqvistik analitiklər dili qrammatika sənəti adlandırırdılar. Dil – mədəniyyətin tərkib hissəsidir, mədəniyyətin özüdür. Ona görə də mədəni və tarixi hadisələr dildə öz təsirini göstərir. Dil bəşər mədəniyyətinin şərti və məhsuludur. Dil mədəni – tarixi kollektivin – xalqın mənəvi yaradıcılığının məhsullarından biridir. Yazı, elm, incəsənət, əxlaq ilə bir cərgədə dayanır, digər mədəni təşkilatların şərtini təşkil edir, təkrarolunmaz tarixi əlamət kimi mədəni sistemə aiddir. Beləliklə, dil mədəniyyətin komponenti və ya mədəniyyətin aləti kimi qəbul oluna bilər və mədəniyyətlə qarşılıqlı əlaqədə avtonomdur. [4, s.255.]

Mənəvi dəyərlər bir xalqın, toplumun minilliklər, əsrlər boyu formalaşan tarixi keçmişini, mədəniyyətini, adət-ənənələrini, onun şüurunu, dilini, dinini inanclarını, davranış qaydalarını əhatə edən topludur. Bunlar uzun bir tarixi dövr ərzində, müəyyən tarixi, coğrafi, sosial, iqtisadi, siyasi, mədəni təsirlərin şəraitində, birgəyaşayış mühitində formalaşan, keçmişdən gələn və nəsildənnəslə davam edən, zamanla bir qisim dəyişikliklərə məruz qalan dəyərlərdir. Mənəvi dəyərlər tarixi köklərə, keçmişə söykənsə də, onun dəyişməz olduğunu iddia etmək çətindir, çünki bir toplumun ətrafında və ya onunla bağlı olaraq baş verən ictimai-siyasi proseslər, dünyadakı dəyişikliklər müəyyən qədər mənəvi dəyərlər sisteminə təsir göstərir.

Hər hansı bir ölkədə xalqın mənəvi dəyərlərinin qorunması və mədəniyyətinin inkişaf etdirilməsi toplumun milli birliyinin təmin olunmasına xidmət edir. Xalqın mədəniyyətinin inkişafında, milli şüurunun təşəkkülündə yaranmış milli-mənəvi dəyərlər mühüm rol oynayır.

Millətlər öz mədəniyyətləri ilə tanınırlar. Ortaq coğrafiya və ortaq inanclar kimi mövzularda milli mədəniyyətlər arasında bəzi oxşarlıqlar olsa da eyniyyət təşkil edə bilməz. Milli mədəniyyət fərqli millətlərdə mədəniyyətin vəziyyəti və forması mənasını verdiyindən, eyni zamanda bir millətin digər millətlərdən fərqlənməsində rol oynayan və bu millətə özünəməxsus kimliyini verən xüsusiyyəti də mövcuddur. Bir cəmiyyət digər mədəniyyətlərlə təmasa girdiyi zaman özünün fərqliliyini dərk edir və kimliyini qorumaq şüurunu artırır. [5, s.53-74]

Mədəniyyətin qloballaşmasını nəinki mümkün, hətta əhəmiyyətli sayan M.Uoters hesab edirdi ki, qloballaşmaya daha çox məruz qalmış sferalardan biri də mədəni məkandır, çünki, mədəniyyət obraz və simvollar məkanı olub iqtisadiyyat və siyasət kimi ərazi bağlılığı olan sferalardan daha tez yayılır. O, mahiyyətcə gələcəkdə vahid, ümumbəşəri mədəniyyətin formalaşacağını

mümkün sayır. Tədqiqatçı iddia edir ki, ümumdünya mədəniyyəti təbii yolla və könüllülük əsasında formalaşacaq. Lakin, eyni zamanda o qeyd edir ki, yeni formalaşacaq mədəniyyət Qərb dəyərlərinin və milli mədəniyyətlərin deqradasiyası əsasında formalaşacaq. M.Uoters vahid bir mədəniyyətin olduğu yeni bir ekstraterritorial gerçəklikdən bəhs edir. Onun fikrincə, onun formalaşması təbii və könüllü bir şəkildə baş verəcəkdir. Nəticədə, Qərb dəyərləri əsasında və milli mədəniyyətlərin dəyər parçalanması səbəbindən ortaq bir insan mədəniyyəti formalaşacaqdır.

Dil mədəni dəyərlərin zirvəsindədir, mədəni təcrübəni nəsildən-nəslə daşıyan bir vasitədir. Daha əhəmiyyətlisi isə odur ki, millət deyilən ictimai varlığı, ancaq eyni dili danışan insanlar yaradır, mədəni birliyi dil birliyi təmin edir. Bu baxımdan dil insan icmalarını digərindən fərqli hala gətirən, tamın içində kütlə olmaqdan qurtaran, dünya coğrafiyasında fərqli xalqların varlığını əhəmiyyətli edən ən vacib nişandır. Milli kimlik və ya milli şəxsiyyət kimi müəyyən edilən milli kimlik konsepsiyasının formalaşmasında dil mühüm rol oynayır. Ulu öndər Heydər Əliyev qeyd etmişdir ki, "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir".

Professor Fəxrəddin Veysəlli ingilis dilinin dünyadakı hegemonluğunu bu cür qiymətləndirir. "… qloballaşma şəraitində ingilis dilinin hökmranlığı bu dilin anası sayılan ABŞ-ın və Böyük Britaniyanın iqtisadi, siyasi və hərbi vasitələrdən istifadə etməklə həmin dilin qəbul etdirilməsinə gətirib çıxardır ki, bununla da başqa xalqların dillərinə və mədəniyyətlərinə öldürücü zərbə dəymiş olur" [6, s.11].

Qloballaşma obyektiv bir sosial prosesdir, onun məzmunu milli iqtisadiyyatların, siyasi və sosial sistemlərin, milli mədəniyyətlərin, eləcə də insanların ətraf mühitlə qarşılıqlı əlaqəsinin artması və qarşılıqlı asılılığıdır. Qloballaşma bütün ziddiyyətlərinə baxmayaraq, kimin ona necə münasibət bəsləməsindən asılı olmayaraq müasir dünyanın hesablaşması lazım olan bir reallığın, qarşısıalınmaz bir prosesin, bəşəriyyətin müasir inkişaf meyillərinin nəticəsidir.

Bu gün azərbaycançılıq ideologiyası Azərbaycan xalqının milli kimliyi olaraq ölkəmizdə yaşayan, etnik mənşəyindən, dilindən, dinindən, irqindən asılı olmayaraq bütün insanlarımızı bir bayraq altında, bir amal uğrunda birləşdirir. Azərbaycançılıq xalqımızın bütün kimlik xüsusiyyətlərini – mədəniyyətini, milli-mənəvi dəyərlərini, onun ayrı-ayrı komponentlərini özündə ehtiva edir.

Azərbaycan dövləti, xalq öz kimliyinin, mənəvi dəyərlərinin qloballaşmanın aşınmalarından, qloballaşma adı altında müəyyən aparıcı qüvvələrin yeritdiyi "mədəni", "ictimai" ideoloji təsirlərdən qorunmaq istiqamətində də mühüm addımlar atır. Azərbaycan bu gün dünyada öz milli kimliyinə, mənəvi dəyərlərinə sadiqlik nümayiş etdirərək, bu dəyərlər sisteminin bir qolu olan multikulturalizm, tolerantlıq siyasətini dünyada nümayiş etdirir. Bütün bunlar isə Azərbaycan dövlətinin hər hansı qlobal güclərin, mərkəzlərin tətbiq etdiyi və ya müəyyən qrup dövlətlərin maraqlarına xidmət edəcək eksponsionist və çoxmənalı olan qloballaşma prosesindən uzaq dayanaraq, bütün bəşəriyyətin ümumi rifahına, xalqların, onlara məxsus mədəniyyətlərin bərabər şəkildə inkişafına, mövcudluğuna şərait yaradacaq birmənalı qlobal dünya nizamının formalaşmasına yanaşmasını göstərir. [7. Dövlət müstəqilliyi və Azərbaycan dilinin inkişafı. (http://www.anl.az/down/meqale/xalqqazeti/2010/avqust/130514.htm)]

Müasir dilçiliyin ümumi antropoloji tərəfini idrak və mədəni aspektlər təşkil edir. Dilə davranış aləti kimi, kodlaşdırma sistemi kimi və mədəni – semantik informasiyanın ötürülməsi kimi baxılır. Hazırda, dünyada qloballaşma ilə əlaqədar olaraq dil də dəyişir və dünyaya uyğunlaşır. Bu transformasiya prosesi dilə, mədəniyyətə və milli – mənəvi dəyərlərə müəyyən təsir göstərir.

Ədəbiyyat siyahısı

1. Cahangirov F. Dil və mədəniyyət. Elm və təhsil. Bakı. 2014. 306 səh.
2. Səfərova N. Kulturologiyanın əsasları. Dərs vəsaiti. Bakı. 2013. 69 səh.
3. Rəcəbov Ə. Dilçilik tarixi. Bakı. 540 səh.
4. İsmayılov F. Dilin metafizikası. Linqvistik analiz fəlsəfəsi. Bakı 2002. 543 səh.
5. Nəhmədov A. Qloballaşma və mənəvi dəyərlər. Bakı. 2019. 105 səh.
6. Veysəlli F. Qloballaşma şəraitində dil problemi. Xalq cəbhəsi qəzeti. 31.10.2014.
7. Sadıqova S. Dövlət müstəqilliyi və Azərbaycan dilinin inkişafı. (http://www. anl.az/down/meqale/xalqqazeti/2010/avqust/130514.htm).

Solmaz Ahmadova

Language-cultural relations and national-moral values in anthropocentric paradigm in a globalizing world

Summary

The article deals with the study of language – culture and ethno – spiritual values as well as tolerance relations within anthropocentric paradigm. The world becomes more globalized. Language and culture is afield which deals with the traditions of people, their ethnic and national identities. W. von Humboldt believers that language is a spirit of people. E.Sapir considers culture as a social unity characterized by our way of life. Nations are famous for their cultures. General anthropological aspect of the contemporary linguistics includes cognition and culture. Currently, language is changing under the impact of globalization.

Keywords: *anthropocentrism, language, culture, paradigm, globalization.*

Солмаз Ахмедова

Языково-культурные связи и национально-моральные ценности в антропоцентрической парадигме в глобализирующемся мире

Резюме

Статья посвящена исследованию языка – культуры и этно – духовных ценностей, а также толерантных отношения в рамках антропоцентринной парадигмы. Мир становится глобальным. В рамках языка и культуры рассматривая традиции народа, их этническое и национальная идентичность. В.фон Гумбольдт считал, что язык является духом народа. Согласно, Э. Сепиру, культура представляет собой социальную общность которое характеризует наш образ жизни. Нация ассоциируется своей культурой. Общей антропологический аспект современной лингвистики составляет когниция и культура. В настоящее время язык и глобализация влияет на изменение в языке.

Ключевые слова: *антропоцентризм, язык, культура, парадигма, глобализация.*

Çapa tövsiyə edən: ***Azərbaycan Dillər Universiteti***

Rəyçilər: ***professor Fikrət Cahancirov***
dosent Esmira Ağamirzəyeva

UOT-811.11-112
Səhifə: 96-100
https://doi.org/10.59849/2663-8967.2026.1.96

Gülnar Bəşirova
Azərbaycan Dövlət Dəniz Akademiyası
bashirovagulnar@adda.edu.az
ORCID: 0009-0007-9211-1865

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ DƏNİZ TERMİNLƏRİNİN SEMANTİK ANALİZİ

XÜLASƏ

Bu məqalədə Azərbaycan və ingilis dillərində dənizçilik terminologiyasının müqayisəli-linqvistik təhlili təqdim olunur. Tədqiqat dənizçilik terminlərinin hər iki dildə lüğət mövqeyi, semantik strukturu, mənşə xüsusiyyətləri və funksional imkanlarını sistemli şəkildə araşdırır. Məqalədə terminlərin milli və alınma leksik vahidlər kimi formalaşma yolları, terminoloji sistem daxilində qarşılıqlı əlaqələri və çoxmənalılıq, sinonimlik, omonimlik və antonimlik kimi əsas semantik proseslər təhlil edilir.

Tədqiqat müasir dil materialları, sahəvi terminoloji və izahlı lüğətlər, eləcə də elmi-nəzəri mənbələr əsasında aparılmışdır. Müqayisəli təhlil göstərir ki, dənizçilik terminologiyası hər iki dildə açıq və dinamik sistem kimi fəaliyyət göstərir və yalnız dilin daxili inkişaf qanunauyğunluqları ilə deyil, həm də beynəlxalq dil əlaqələrinin təsiri ilə zənginləşir. İngilis dilinin beynəlxalq dənizçilik dili kimi rolu Azərbaycan dənizçilik leksikasının formalaşmasına və beynəlmiləlləşməsinə mühüm təsir göstərir. Nəticələr göstərir ki, dənizçilik terminləri yalnız texniki-peşə sahələrini əhatə etmir, eyni zamanda hüquqi, iqtisadi və kommunikativ funksiyalar daşıyır, beləliklə, dilin ümumi leksik-semantik sisteminə töhfə verir. Araşdırma terminoloji sistemlərin qarşılıqlı təsirini, semantik paralelləri və sahəvi terminologiyanın inkişaf meyillərini üzə çıxarmaq baxımından elmi əhəmiyyət kəsb edir.

Açar sözlər: *dənizçilik terminologiyası, leksik-semantik təhlil, müqayisəli dilçilik, alınma terminlər, frazeologiya, terminoloji sistem.*

Giriş: Müasir dilçilikdə terminologiyanın öyrənilməsi xüsusi aktuallıq kəsb edir, çünki terminlər yalnız müəyyən sahəyə aid anlayışların adlandırılması vasitəsi kimi deyil, həm də elmi biliklərin sistemləşdirilməsi, saxlanılması və ötürülməsi mexanizmi kimi çıxış edir. Terminoloji sistemlər dilin xüsusi alt sistemi kimi formalaşaraq ümumi leksik fondla qarşılıqlı əlaqədə inkişaf edir və bu qarşılıqlı təsir nəticəsində dilin semantik imkanları genişlənir. Bu baxımdan dənizçilik terminologiyası həm tarixi inkişaf dinamikası, həm funksional çoxşaxəliliyi, həm də beynəlxalq xarakteri ilə dilçilik tədqiqatlarında xüsusi maraq doğuran sahələrdən biridir [1].

Dənizçilik fəaliyyəti qədim dövrlərdən etibarən iqtisadi, siyasi və mədəni münasibətlərin inkişafında mühüm rol oynamışdır. Dəniz yolları vasitəsilə ticarət əlaqələrinin genişlənməsi, yeni coğrafi ərazilərin kəşfi və beynəlxalq əməkdaşlığın formalaşması bu sahənin terminoloji bazasının zənginləşməsinə səbəb olmuşdur. Bu inkişaf prosesi nəticəsində dənizçilik terminologiyası yalnız gəmiçilik və naviqasiya ilə məhdudlaşmayaraq logistika, hüquq, iqtisadiyyat və kommunikasiya sahələrini də əhatə edən kompleks sistemə çevrilmişdir [2].

Azərbaycan dili üçün dənizçilik terminologiyasının formalaşması ölkənin coğrafi mövqeyi və iqtisadi prioritetləri ilə sıx bağlıdır. Xəzər dənizi regionunda yerləşən Azərbaycan üçün dəniz nəqliyyatı, enerji resurslarının daşınması və liman infrastrukturu strateji əhəmiyyət daşıyır. Bu sahələrdə istifadə olunan terminlər həm dilin daxili inkişaf qanunauyğunluqları, həm də beynəlxalq təsirlər əsasında formalaşır və inkişaf edir [3].

Müasir dövrdə ingilis dili beynəlxalq dənizçilik dili kimi çıxış edir. Beynəlxalq dənizçilik standartlarının, texniki sənədlərin və peşəkar kommunikasiya vasitələrinin böyük əksəriyyəti ingi-

lis dilində formalaşdığı üçün bu dilin terminoloji sistemi digər dillərə, o cümlədən Azərbaycan dilinə güclü təsir göstərir. Bu təsir nəticəsində terminlərin alınması, uyğunlaşdırılması və semantik transformasiyası prosesi baş verir [4].

Tədqiqat Azərbaycan və ingilis dillərində dənizçilik terminologiyasının leksik-semantik xüsusiyyətlərini müəyyənləşdirmək məqsədilə müqayisəli-linqvistik yanaşma əsasında aparılmışdır. Bu yanaşma terminlərin semantik strukturu, mənşə xüsusiyyətləri və funksional imkanlarının paralel şəkildə təhlilinə imkan verir. Empirik baza kimi sahəvi terminoloji lüğətlər, izahlı lüğətlər, monoqrafiyalar və müasir elmi mətnlərdən istifadə olunmuşdur [5,6,7].

Araşdırma göstərir ki, dənizçilik terminologiyası açıq və dinamik sistem kimi fəaliyyət göstərir. Bu sistem yalnız dilin daxili resursları hesabına deyil, həm də beynəlxalq əlaqələr və qloballaşma prosesləri nəticəsində inkişaf edir. Terminoloji sistem daxilində çoxmənalılıq, sinonimlik, omonimlik və metaforikləşmə kimi leksik-semantik proseslər aktiv şəkildə müşahidə olunur [8,9].

Dənizçilik terminologiyasının formalaşmasında əsas mexanizmlərdən biri semantik üsuldur. Bu üsul sözlərin mövcud mənalarının dəyişdirilməsi, genişləndirilməsi və ya qısaldılması yolu ilə yeni terminlərin yaranmasını təmin edir. Qasımovun qeyd etdiyi kimi, semantik üsul bəzən çoxmənalılığa səbəb olsa da, yeni anlayışların ifadəsi üçün ən məhsuldar vasitələrdən biri hesab olunur [10].

Semantik üsulla yaranan terminlər dənizçilik leksikasında geniş yayılmışdır və onların inkişafı bir neçə əsas istiqamətdə müşahidə olunur. İlk növbədə, ümumişlək sözlərin terminoloji məna qazanması diqqəti cəlb edir. Məsələn, "yük", "beşik", "köynək" kimi sözlər gündəlik dildə istifadə olunsa da, dənizçilik sahəsində xüsusi terminoloji məna kəsb edir. Bu tip semantik transformasiya dilin daxili imkanları hesabına terminoloji sistemin zənginləşməsini təmin edir.

Digər mühüm istiqamət sözlərin mənasının xüsusiləşməsi ilə bağlıdır. Bu zaman ümumi anlayış bildirən söz konkret sahəyə aid terminə çevrilir. Məsələn, "borc", "müflisləşmə", "apron" kimi terminlər iqtisadi və hüquqi kontekstdən çıxaraq dənizçilik sahəsində spesifik məna qazanır. Bu proses terminoloji sistemin dəqiqləşməsinə və funksional differensiasiyasına xidmət edir.

Semantik inkişafın digər istiqaməti metaforikləşmə ilə bağlıdır. Metaforikləşmə dilin ən məhsuldar semantik mexanizmlərindən biri kimi çıxış edir və yeni terminlərin yaranmasında mühüm rol oynayır. Bu proses nəticəsində sözlər yeni məcazi mənalar qazanaraq terminoloji sistemə daxil olur. Məsələn, ingilis dilində "sea dog", "sea eagle", "sea-goat" kimi ifadələr metaforik əsasda formalaşmışdır. Azərbaycan dilində isə "dəniz ömrü", "dalğaların pıçıltısı" kimi ifadələr bu prosesin nəticəsidir [8].

Metaforikləşmə prosesi motivləşmə ilə sıx bağlıdır. Motivləşmə sözün daxili formasının onun semantik strukturu ilə əlaqəsini təmin edir və terminlərin mənasının dərk olunmasını asanlaşdırır. Bu baxımdan metaforikləşmə yalnız ifadə vasitəsi deyil, həm də düşüncə və idrak mexanizmi kimi çıxış edir. Əfəndiyevanın qeyd etdiyi kimi, metafora dilin terminoloji leksikasının zənginləşməsində mühüm rol oynayan vasitələrdən biridir [11].

Semantik dəyişmə prosesində iki əsas istiqamət müşahidə olunur: bir tərəfdən ümumişlək sözlər terminoloji məna qazanır, digər tərəfdən isə mövcud terminlər yeni semantik çalarlar əldə edərək genişlənir və ya qısalır. Bu proses terminoloji sistemin inkişafında mühüm rol oynayır və onun dinamik xarakterini təmin edir.

Dənizçilik terminologiyasında çoxmənalılıq geniş yayılmış leksik-semantik hadisələrdən biridir. Çoxmənalılıq terminlərin müxtəlif kontekstlərdə fərqli mənalar ifadə etməsi ilə xarakterizə olunur. Məsələn, "course" termini həm gəminin istiqamətini, həm də tədris proqramını ifadə edə bilər. Azərbaycan dilində də "kurs", "liman", "axın" kimi sözlər həm terminoloji, həm də ümumi leksik mənalarda işlənir [9].

Omonimlik də dənizçilik terminologiyasında mühüm yer tutur. İngilis dilində "ship", "dock", "draft" kimi sözlər həm isim, həm də fel kimi işlənərək fərqli semantik funksiyalar yerinə yetirir. Bu hal terminlərin funksional çevikliyini artırsa da, bəzən peşəkar kommunikasiya zamanı anlaşılmazlıqlara səbəb ola bilər.

Sinonimlik isə terminoloji sistemdə paralel adlandırmaların mövcudluğunu göstərir. Məsələn, ingilis dilində “ship”, “vessel”, “craft”, Azərbaycan dilində isə “gəmi”, “üzən vasitə” kimi terminlər eyni anlayışı ifadə edir. Lakin onların istifadə tezliyi və kontekstual funksiyaları fərqli ola bilər.

Dənizçilik terminologiyasında jarqon leksikası da xüsusi yer tutur. Peşə jarqonları müəyyən sosial və peşə qrupları daxilində istifadə olunur və əsasən ekspressiv və kommunikativ funksiyalar yerinə yetirir. Məsələn, “kap”, “mex”, “dok” kimi qısaldılmış formalar dənizçilər arasında geniş yayılmışdır. Həsənovun fikrincə, jarqon leksikası dilin ekspressiv imkanlarını genişləndirsə də, onun normativ strukturuna müəyyən mənfi təsirlər göstərə bilər [12].

Dənizçilik terminologiyasının mühüm xüsusiyyətlərindən biri də onun bədii ədəbiyyatda istifadəsidir. Dəniz mövzusu həm Azərbaycan, həm də ingilis ədəbiyyatında geniş şəkildə işlənmişdir. Bu kontekstdə dənizçilik terminləri metaforikləşərək emosional və estetik məna kəsb edir. Məsələn, “fırtına”, “mayak”, “dalğa” kimi sözlər bədii mətnlərdə insan həyatının müxtəlif aspektlərini ifadə edən simvollara çevrilir.

Terminoloji sistemin inkişafı dinamik xarakter daşıyır. Texnoloji yeniliklər, beynəlxalq əməkdaşlıq və qloballaşma prosesləri nəticəsində yeni terminlər yaranır, mövcud terminlər isə semantik dəyişikliklərə məruz qalır. Bu baxımdan dənizçilik terminologiyası açıq və dəyişkən sistem kimi qiymətləndirilə bilər.

Beləliklə, Azərbaycan və ingilis dillərində dənizçilik terminlərinin semantik analizi göstərir ki, bu terminoloji sistemlər həm struktur, həm funksional, həm də semantik baxımdan qarşılıqlı təsir şəraitində inkişaf edir. Müqayisəli-linqvistik yanaşma bu proseslərin daha dərindən anlaşılmasına və terminoloji sistemlərin standartlaşdırılması istiqamətində yeni perspektivlərin müəyyənləşdirilməsinə imkan yaradır.

Nəticə: Azərbaycan və ingilis dillərində dənizçilik terminologiyası açıq, dinamik və çoxsəviyyəli sistem kimi fəaliyyət göstərir. Bu sistem həm dilin daxili resurslarından, həm də beynəlxalq kommunikasiya və standartlardan təsirlənərək formalaşır və inkişaf edir.

İngilis dilinin beynəlxalq dənizçilik dili kimi rolu Azərbaycan terminologiyasının zənginləşməsinə və beynəlmiləlləşməsinə mühüm təsir göstərir.

Dənizçilik leksikası semantik zənginliyi, funksional çevikliyi və terminoloji sabitliyi ilə professional ünsiyyətin effektivliyini təmin edir. Terminlər yalnız texniki anlayışları ifadə etməklə kifayətlənmir, həm də hüquqi, iqtisadi və mədəni sahələrlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Müqayisəli-linqvistik təhlil terminoloji sistemlərin qarşılıqlı təsirini, inkişaf meyillərini və standartlaşdırma perspektivlərini müəyyənləşdirməyə imkan verir və gələcək tədqiqatlar üçün nəzəri baza yaradır.

Ədəbiyyat siyahısı

1. Məmmədli, N. Alınma terminlər (1920-1995-ci illər). Bakı: Elm, 1997. 312 s.
2. Sadıqova S. Azərbaycan dilində terminologiyanın standartlaşdırma formaları. Bakı, “Elm” nəşriyyatı, 2015, 484 səh.
3. Sadıqova S. Müstəqillik illərində Azərbaycan dilində terminologiyanın inkişafı. Bakı, “Avropa” nəşriyyatı, 2016, 396 səh.
4. Crystal, D. The Cambridge Encyclopedia of English Language. Cambridge University Press, 2019. ISBN: 978-1-108-42359-5
5. Pənahi, M.A., Osmanova, N.L., Bəşirova, G.R. İngiliscə–Azərbaycanca dəniz terminləri lüğəti. Bakı. 2012. 506 s.
6. Sager, J.C. A Practical Course in Terminology Processing. John Benjamins, 1990. https://doi.org/10.1075/z.44
7. Cabré, M.T. Terminology: Theory, Methods and Applications. John Benjamins, 1999. https://doi.org/10.1075/tlrp.1

8. Lyons, J. Linguistic Semantics: An Introduction. Cambridge University Press, 1995. https://doi.org/10.1017/CBO9780511810213
9. Kövecses, Z. Metaphor: A Practical Introduction. Oxford University Press, 2010. https://doi.org/10.7764/onomazein.61.12
10. Qasımov, M. Terminologiyanın əsasları. Bakı. 1997.
11. Əfəndiyeva, T. Azərbaycan dilinin leksikası. Bakı. 2005.
12. Həsənov, H. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı.2000.

Gulnar Bashirova

Semantic analysis of maritime terms in Azerbaijani and english

Summary

This article presents a comparative linguistic analysis of maritime terminology in the Azerbaijani and English languages. The study systematically examines the lexical position, semantic structure, origin features, and functional capabilities of maritime terms in both languages. The article analyzes the formation of terms as national and borrowed lexical units, their interrelations within the terminological system, and key semantic processes such as polysemy, synonymy, homonymy, and antonymy.

The research is based on modern linguistic materials, specialized terminological and explanatory dictionaries, as well as scientific and theoretical sources. The comparative analysis shows that maritime terminology functions as an open and dynamic system in both languages and is enriched not only by the internal developmental patterns of the language but also by the influence of international linguistic interactions. The role of English as an international maritime language significantly impacts the formation and internationalization of Azerbaijani maritime vocabulary. The findings indicate that maritime terms encompass not only technical and professional domains but also carry legal, economic, and communicative functions, thereby contributing to the overall lexical-semantic system of the language. The study is of scientific importance in revealing the interaction of terminological systems, semantic parallels, and development trends in specialized terminology.

Keywords: *maritime terminology, lexical-semantic analysis, comparative linguistics, borrowed terms, phraseology, terminological system.*

Гюльнар Баширова

Семантический анализ морских терминов в азербайджанском и английском языках

Резюме

В данной статье представлен сравнительно-лингвистический анализ морской терминологии в азербайджанском и английском языках. В исследовании системно рассматриваются лексическое положение, семантическая структура, особенности происхождения и функциональные возможности морских терминов в обоих языках. В статье анализируются пути формирования терминов как национальных и заимствованных лексических единиц, их взаимосвязи внутри терминологической системы, а также основные семантические процессы, такие как полисемия, синонимия, омонимия и антонимия.

Исследование выполнено на основе современных языковых материалов, специализированных терминологических и толковых словарей, а также научно-теоретических источников. Сравнительный анализ показывает, что морская терминология функционирует в обоих языках как открытая и динамичная система и обогащается не только за счёт внутренних закономерностей развития языка, но и под влиянием международных языковых контактов. Роль английского языка как международного языка мореплавания оказывает существенное влияние на формирование и интернационализацию

азербайджанской морской лексики. Результаты показывают, что морские термины охватывают не только технически-профессиональную сферу, но и выполняют правовые, экономические и коммуникативные функции, тем самым внося вклад в общий лексико-семантический строй языка. Исследование имеет научную значимость с точки зрения выявления взаимодействия терминологических систем, семантических параллелей и тенденций развития специализированной терминологии.

Ключевые слова: *морская терминология, лексико-семантический анализ, сравнительное языкознание, заимствованные термины, фразеология, терминологическая система.*

Çapa tövsiyə edən: ***Azərbaycan Dövlət Dəniz Akademiyası***

Rəyçilər: ***professor İ.Tahirov***
dosent M.Mürsəlova

UOT-811.512.162
Səhifə: 101-106
https://doi.org/10.59849/2663-8967.2026.1.101

Ramilə Süleymanova
Azərbaycan Dövlət Aqrar Universiteti,
filologiya üzrə fəlsəfə doktoru, dosent
ramile_suleymanova@list.ru

ORTA ƏSRLƏR YAZILI MƏNBƏLƏRİNDƏ İSMİN HAL VƏ XƏBƏRLİK ƏLAMƏTLƏRİ

XÜLASƏ

Xalq dilinin təzahür formalarından biri ədəbi dildir. Azərbaycan ədəbi dili bütün dövr və mərhələlər üzrə eyni olmayan norma xüsusiyyətləri ilə xarakterizə olunur. Özünəməxsus norma keyfiyyəti dilin bütün səviyyələrini – fonetika, leksika, morfologiya və sintaksisi əhatə edir. Bunların bir hissəsi müasir ədəbi-kommunikativ sistem üçün arxaikləşsə də, bütövlükdə Azərbaycan dilinin fonetik, leksik-semantik və qrammatik quruluşu ciddi dəyişikliyə uğramamışdır. Ümumiyyətlə, hansı dövrə aid olmasından asılı olmayaraq norma yenilənir, başqası ilə əvəz olunur. Nəticədə bir yüzillik üçün norma sayılan bu və ya digər xüsusiyyət növbəti yüzilliklərdə işlənməyə bilir. Bəzi arxaik xüsusiyyətlər qohum türk dillərinin materialı kimi aktual qalsa da, Azərbaycan türkcəsində onların işlənmə dairəsi şivələrə doğru daralmışdır. Odur ki, həm şivələr, həm də orta əsrlər yazılı abidələri Azərbaycan dilinin tarixi üçün əvəzedilməz mənbələrdən sayılır.

Azərbaycan dilinin orta əsrlər yazılı mənbələrində morfoloji quruluş xüsusiyyətləri baxımından müasir dilimiz ilə müqayisədə ciddi fərqlənmələr özünü göstərmir. Hal kateqoriyası qrammatik məzmunu və formal göstəriciləri baxımından dilimizin tarixi inkişafı boyu əsasən sabit qalsa da, bəzi fərqlilikləri də ehtiva edir. Yiyəlik halın müəyyənlik və qeyri-müəyyənlik bildirən növləri ilə yanaşı şəkilçisiz və tam formalı ifadə variantları özünü göstərir. XIII-XIV yüzillərə aid mənbələrdə yiyəlik halın dodaqlanan saitli variantları norma hüququnda çıxış edir. Mənsubiyyət kateqoriyasının morfoloji əlamətindən sonra təsirlik hal sonluğu çox az halda müşahidə olunur. Yiyəlik və təsirlik hallarda ədəbi dil normasından kənara çıxmalar, yaxud kənar təsirlər müşahidə olunur. Qədim yönlük-istiqamət halın şəkilçisinə rast gəlinir. Yönlük və təsirlik hal şəkilçiləri bəzi mənbələrdə arxa sıra, ön sıra ahəngindən asılı olmayaraq bir variantda işlənir.

Açar sözlər: *forma, hallar, norma, morfoloji xüsusiyyətlər, şəkilçilər, ahəng.*

Giriş: Müasir Azərbaycan dilində olduğu kimi tarixən də altı halın varlığından bəhs etmək mümkündür. Bununla belə, dil tarixçiləri birgəlik-vasitə adlandırılan qrammatik halın varlığını da qeyd edir. Adlıq halın qrammatik funksional təbiəti bütün türk dillərində eynidir. Orta əsrlər yazılı abidələrində də ismin adlıq halı canlı və cansız varlığı, hadisəni adlandırmağa xidmət edir. Dəli Qarçar aydır [8, s.57]. Qanı ğəflət şərabından bir ayıq [10, s.54]. Vəzirlər məsləhət gördü sözünü [8, s.33].

Sonrakı dövrlərdən fərqli olaraq orta əsrlər yazılı abidələrinin dilində yiyəlik halın bir neçə ifadə forması özünü göstərir. Şəkilçi formalar özünəməxsus işlənmə xüsusiyyətləri ilə səciyyələnlir. Müasir Azərbaycan dilində olduğu kimi, yiyəlik halın sait və samit sonluqlu sözlərə əlavə olunma fərqlərini əks etdirən tam və yarımçıq formaları işlənir. Müasir Azərbaycan dilindən fərqli olaraq orta əsrlər yazılı abidələrində müəyyən yiyəlik halın -nıŋ, -niŋ, -nuŋ, -nüŋ, -ıŋ, -iŋ, -uŋ, -üŋ əlamətlərinin fonetik tərkibində "sağır nun" samiti iştirak edir. Ulu oğlınıŋ adı Əgrək idi [8, s.110; oğlınıŋ]. Qazan bəgiŋ qartaşı Qaragünə çapar yetdi [8, s.49; bagiŋ]. Şahənşah dedi: Ey canım parası, Ki, sənsən gözümüŋ ağı, qarası [1, s.38; gözümüŋ]. Doqquzunuŋ başın kəsdi o dilbər [1, s.24; doqquzunuŋ]. Dilbərüŋ yolında, ey salik, ikilik pərdədür [10, s.204; dilbərüŋ]. Həbibüŋ tələtidür mahi-xavər [10, s.204; həbibüŋ]. Müşahidələr göstərir ki, Nəsimi qəzəllərinin dilində yiyəlik halın dodaqlanan saitli -uŋ, -üŋ variantları norma hüququndadır və XIII-XIV əsrlər Şirvan şivəsinin

koyne xüsusiyyətini əks etdirir. "Dastani-Əhməd Hərami" və "Kitabi-Dədə Qorqud" abidələrində isə dodaq saitli şəkilçi formalar müşahidə edilmir. Xətaidə: Möminin aynası duman gərəkməz [11, s.310; möminin]. Cahanşah Həqiqidə: Cənnətin kuyindəsən məşuqeyi-pünhan dedi [7, s.100; cənnətin]. Füzulidə: Qanda olsam ey pəri, könlüm sənin yanındadır [3, s.28; sənin].

Qeyri-müəyyən yiyəlik hal növü müəyyənlik bildirən yiyəlik haldan fərqli olaraq konkretlik bildirmir. Bu cür sözlərin qrammatik mənasında, bir qayda olaraq, ümumilik ehtiva olunur. Ər yükü gövhərdir, saman gərəkməz [11, s.311; ər yükü]. Eşq atəşinə budur əlamət [4, s.25; eşq atəşi]. Ta biləsən bu surətin hüsnü nədir, cəmalı nə? [7, s. 88; surətin hüsnü]. Anın dil zikrini etmək gərəkdir [1, s.15; dil zikri]. Eşq əlindən gəl, şərabi-səlsəbilü gövhər iç [10, s.114; eşq əlindən]. Oğuz bəgləri ilə Tondaz sağa dəpdi [8, s.76; oğuz bəğləri]. Aslan yatağı üzərinə gəldilər [8, s.98; Aslan yatağı]. "Kitabi-Dədə Qorqud"da eyni birləşmə daxilində eyni söz həm müəyyən, həm də qeyri-müəyyən yiyəlik halda işlənir: Qazan qardaşı Qaragünə-Qazanın qardaşı Qaragünə [8, s.99]. Müasir Azərbaycan dilində olduğu kimi, orta əsrlər yazılı abidələrində də birinci şəxsin tək və cəmini bildirən əvəzliklər ismin yiyəlik halında ənənəvi -in şəkilçi yox, -im əlaməti ilə işlənir. Məsələn: Bənim şəhrimə əzm edərmisən sən? [1, s.55; bənim].

Yiyəlik halın digər forması mənsubiyyət şəkilçili (və qrammatik məzmunlu) leksik vahidlərdə özünü göstərir. Burada yiyəlik hal şəkilçiləri işlənməsə də sahiblik, yiyəlik anlayışı ehtiva olunur. Ayağın torpağıdır həqq əhlinin başında tac [11, s.60; ayağın-ayağının]. Güclü belim qüvvəti, canım oğul", "Qarannu gözlərim aydını oğul" [8, s.75; belim-belimün qüvvəti, gözlərim-gözlərimin aydını]. Bərü gəlgil başım bəxti, evim təxti ("Kitabi-Dədə Qorqud"da; başım-başımın bəxti, evim-evimin təxti). İki aləmün vücudi ayağun tozinə dəgməz [10, s.326; ayağun-ayağunun tozinə].

Yiyəlik halın tam və yarımçıq formaları sait və samitlə qurtaran leksemlərə əlavə olunur. Orta əsrlər yazılı mənbələrində tam forma – -nın şəkilçisi samitlə bitən sözlərə də qoşulur. Fələknin gərdişindən tadü fəryad [11, s.32; fələknin]. Didəmni zarü –giryan eyləyən şah [11, s.155]. Oğuz qrupu türk dillərindən fərqli olaraq qıpçaq, bulqar, karluq-uyğur qruplarında yiyəlik halda yalnız tam şəkilçili forma işlənir. Məsələn: özbək dilində: kitobnin, qazax dilində: juldızının/juldızdın, altay dilində: koçkornın "qoyunun» və s. Müvafiq yiyəlik hal formasının Azərbaycan ədəbi dilində yan təsir olmaq ehtimalı da var. T.Hacıyev yazır: "…elə hallar ola bilər ki, ədəbi dil normasında bəzi ünsürlər kənardan düşsün, dilin öz daxili sistemindən gəlməsin. Məsələn, XV-XVI əsrlərdə ədəbi dilimizdə işlənən hal şəkilçiləri (-ğa, -nı, -dın) başqa türk dillərindən, cağataycadan alınmadır. Başqa bir ədəbi dilin materialı kimi hazır götürülmədir. Ərəb, fars dillərindən ədəbi dil dairəsində fəaliyyət göstərib, xalq dilinə girə bilməyən söz və söz birləşmələri (izafətlər), yaxud XX əsrin əvvəllərində müxtəlif üslubların materialı kimi istifadə olunan Türkiyə türkcəsi elementləri də bu qəbildəndir" [5, s.26].

Yönlük hal da müasir Azərbaycan dilindəki kimi -a, -ə, -ya, -yə şəkilçiləri ilə düzəlir. Eşidənlər bulur dərmanı dərdə [1, s. 66; dərdə]. Bir növ ilə oldu xəlqə rüsva [4, s.39; xəlqə]. Dilbəra, dərdimə dərman səndən özgə kimsə yox [11, s. 30; dərdimə]. Bu hüsnü surətə həm xəttü xal beylə gərək [7, s.48; surətə]. Qazana bu söz xoş gəldi [8, s.46; Qazana]. Mişkin saçınla can ilə sevdayə düşməyən [10, s.224; sevdayə]. Nümunələr içərisində yönlük halın morfoloji əlaməti yalnız Nəsimi şeirində fərqli şəkildə, ahəng qanunundan asılı olmayaraq dilönü saitli variantda işlənir (sevda-sevdayə).

Tədqiqatlarda yönəlmə–istiqamət, yaxud yönlük-istiqamət kimi adlandırılan hal formasının Orxon-Yenisey abidələrində işləndiyi məlumdur: ilqerü "şərqə", birqerü "cənuba", kağanğaru "xaqana tərəf", ebgərü "evə tərəf" [bax: 12, s.94] və s. Tarixi inkişaf nəticəsində şəkil dəyişikliyinə uğramış -aru, -ru, -rı formaları yazılı abidələrimizdə bəzi sözlərin tərkibində işlənir. Taşra- Qazan hələlın əlin tutub taşra çıqar (Kitabi-Dədə Qorqud). Yuqarı- Bən yuqarı qulpa yapışuram (Kitabi-Dədə Qorqud). Xancaru "hara" -Xancaru baxsam gözümdə yer yüzü sudur mana [11, s.17].

Azərbaycan dilinin orta əsr mənbələrində təsirlik hal -ı, -i, -u, -ü, -yı, -yi, -yu, -yü şəkilçiləri ilə təmsil olunur. Qızlar bu qaftanla məni tanıdılar [8; s. 26, 65; məni], Oğlanı ata bindirdilər [8, s.39; oğlanı]. Borcluyı borcından qurtardı [8, s.35]. Şahənşah danladı işbu xəyalı [1, s.26; xəyalı]. Ərliyini isbat etdin, Dədəm xoş gəldin, xoş gəldin [11, s.329; ərliyini]. Vəslüni arzularam, dəxi

bütün yanərəm [10, s.129; Nəsimi, vəslüni]. Yaxdı Həqiqini qəmi-eşqin fəraq ilə [7, s.67; Həqiqini]. Ahəng qanunundan asılı olmadan təsirlik hal şəkilçisinin dilönü saitli variantının işləndiyi müşahidə olunur: Çün on kişi bu hali böylə gördi… [1, s.18; hali]. Mənsubiyyət şəkilçisindən sonra təsirlik halın morfoloji əlaməti, bir qayda olaraq, işlənmir. Bu cür dil faktına orta əsrlər mənbələri ilə yanaşı XIX əsr və XX əsrin əvvəllərinə aid şeir dilində təsadüf edilir. Fil yükün yüklətmə, qarınca çəkməz [11, s.327; yükün]. Seyr et özgə ərənlərin görəsin [11, s.327; ərənlərin]. "Dastani-Əhməd Hərami"də: Güləndamın sözün şahə ilətdi [1, s.38]. Ağalar dedigin tutmaq gərəkdir [1, s.44]. Nəsimidə: Kimsə halın bilməz anun üştə hali bəndədür [10, s.203; halin]. Füzulidə: Bimarının istədi əlacın [4; s.15, 62; əlacın]. Qazanın qızın ərliklə alan… Qaragünə oğlı Qarabudaq çapar yetdi [8, s.49; qızın]. Atın çapıb səgirdir [1, s.54; atın]. Mənsubiyyət şəkilçisindən sonra təsirlik hal sonluğunun işləndiyinə çox az halda təsadüf edilir. Əzəldən canımı qurban verərdim [11, s.78; canım]. Bu qədim dil xüsusiyyətini Orxon-Yenisey abidələrində müşahidə etmək olur: süçiq sabın (şirin sözlərini), ilin, törüsin (dövlətini, qanununu), kanın (atasını), süsin (qoşununu), ebin [2, s.30; evini].

Müasir Azərbaycan dilindən fərqli olaraq saitlə bitən sözlər təsirlik halın -yı, -yi şəkilçisini qəbul edir. Ey həvəs eyləyən kişi bəndən eşit bu nüktəyi [10, s.27, 517; Nəsimidə]. Samit sonluqlu sözlərdən sonra təsirlik halın tam variantına orta əsrlər mənbələrində təsadüf olunur. Tiği eşqin yürəgimni səd hezaran parələr [11, s.35; yürəgimni]. Cümlələrni yarlığayan kamil insanim, mədəd [11, s.33; cümlələrni], Tigi cəfa ilən bağrımnı parə-parə qılur [7, s.26; bağrımnı].

Təsirlik halın qeyri-müəyyənlik forması konkretlik bildirmir. Quş uçurıb, ağ avlayub, öldirə görgil [8, s.375; quş-quşı, av-avı]. Qələm əldə, yazar yazı [1, s.21; yazı-yazını]. Sərsəri girmə meydana, Aşiq, səndən yol istərlər [11, s.325; yol-yolu]. Çıqar pambıq qulağundan, gözün aç [10, s.160; pambıq-pambığı].

Yerlik halın -da, -də morfoloji əlaməti orta əsrlər mənbələrində norma xüsusiyyətidir. Eşqi-rüxündə dilbərini ol irişür murada kim [7, s.85; rüxündə]. Nüçum elmində də qadirdi qayət [1, s.17; elmində]. Həq bilür kim, ta əbəd könlümdə vardır ol həvəs [11, s. 94; könlümdə]. Bu xəstə Nəsimi gör yolunda can qalur fəda [10, s.145; yolunda]. Çəməndə hərzə bitən sərvi-bustani nedər [8, s.145; çəməndə]. Oğuzda bir yigit vardı [8, s.110; Oğuzda]. Ol obada bir yaxşı-xub yigit sayru düşmüş idi [8, s.79; obada].

Çıxışlıq halın norması isə -dan, -dən şəkilçisi ilə müəyyən edilir. Ağ-boz atın üzərindən yerə engil [8, s.11; üzərindən]. Arslanlardan yana yüz tutdu getdi [1, s.75; arslanlardan]. Ondan sonra bizim ilə olasan mehman, dedilər [11, s.326; ondan]. Zərbindən dedün kim, qurtulam, Səbr edər, isəm böhtanə bən [10, s.149; zərbindən]. İçmüşəm yarın ləbindən layəzalın xəmrini [7, s.71; ləbindən].

Xətai şeirlərində Azərbaycan dilinin çıxışlıq hal şəkilçisi yerinə bəzən fars dilinə məxsus qrammatik göstəricidən istifadə edilir. Ancaq belə əvəzlənmə orta əsrlər mənbələrində geniş yayılmış hal deyildir. Məsələn: Sübh oldu, dedim irişmədi bad, Uşşaqi məgər çıxardı əz yad [11, s.242]. Nümunənin ikinci misrasının sonunda farscanın sözönü işlənmişdir. Fars dilinə aid əz sözönü Azərbaycan dilində -dan, -dən çıxışlıq hal şəkilçisinin qrammatik mənasına uyğundur. Verilmiş nümunədə yad dilə aid ünsürdən üslubi məqsədlə istifadə edilir. Sonuncu misranın axırında işlənən yad sözü əvvəlki misra ilə qafiyəlilik yaradan sözdür (bad-yad). Yad sözünün çıxışlıq hal şəkilçisi ilə işlənməsi fonetik tərkibin uyğunluğuna maneə olduğu üçün əz sözönü ondan əvvəl gəlir: bad və əz yad.

Orta əsrlər mənbələrində halların əvəzlənməsi geniş yayılmış qrammatik göstəricilərdəndir. Yönlük halın yerlik halı əvəz etməsi müşahidə olunur. Qara yerin üzərinə ağ otaqların dikdirmişdi ("Kitabi-Dədə Qorqud"da; üzərinə-üzərində). Yerlik hal çıxışlıq hal əvəz edir. Məsələn: "Yüzində, todağında öpən ilək oğlı Alp Ərən çapar yetdi" (yüzində, todağında- üzündən, dodağından).

Xəbərlik şəkilçiləri Azərbaycan dilinin inkişafı boyu əsasən sabit fonetik tərkib və qrammatik məzmun ilə səciyyələnir. Orta əsrlər yazılı abidələrimizdə xəbərlik kateqoriyasının morfoloji əlamətləri şəxslər üzrə aşağıdakı kimi özünü göstərir:

I şəxsin qrammatik norması samit və sait sonluqlu sözlərdən sonra müvafiq olaraq -am, -əm, -yam, -yəm əlamətinin işlənməsidir. Bağbörə bəg oğlı Bamsı Beyrək dedikləri mənəm. Əmma

mən Banıçiçəgin dadısıyam [8, s.54; mənəm, dadısıyam]. Bənəm güzbüz yağıları dağıdan [1, s. 23; bənəm]. Mənəm bir tən vəleykin can anındır [11, s. 56; mənəm].. Şol şəmi gör ki, narinə pərvanəyəm yenə, Baş oynamaqda yoluna mərdanəyəm yenə [9, s.123; pərvanəyəm, mərdanəyəm]. Mənəm ki, qafiləsalari-karivani-qəməm [3, s. 270- mənəm, qəməm]. Xəbərlik şəkilçisinin ahəng qanununa tabe olmayan dilönü saitli variantda iştirakı müşahidə olunur. Talibi-yarəm əzəldən, yara müştaqam yenə, Cənnətin kuyində ol dildara muştaqam yenə [7, s. 91; talibi yarəm].

II şəxsdə şəkilçi paradiqması abidələrin dilində -san, -sən əlaməti ilə təmsil olunur. Oğuzda kimün nəsisən [8, s. 54]. Müasir dilimizdə fərqli olaraq şəkilçinin fonetik tərkibində velyar n samiti iştirak edir. Dilbərin yolunda gər əhlisən olgil canfəda [7, s. 31; əhlisən]. İsayi-zəmanü xoş nəfəssən, Kim qalsa piyadə, sən fərəssən [11, s. 239; nəfəssən, fərəssən]. Əgər süsənləyin əbkəm deyilsən, nitqə gəl, söylə [9, s. 56]. Sən nə afətsən mənə, ey əqli –bədfərcam, kim, Bulmaq olmaz surəti-qürbündə asari-nişat [4, s. 290- afətsən].

II şəxsin xəbərlik şəkilçisi sırasında norma olmayan variant qapalı saitli -sın, -sin formasıdır. Nə yerdənsin, səni heç kimsə bilməz, Məgər cənnət kibi hüddül-vətənsin? [yerdənsin, vətənsin; 9, s. 203]. Morfoloji əlamət Azərbaycan dilinin ayrım şivəsində müşahidə olunur: tələbəsin, burdasın və s.).

III şəxsin xəbərlik əlaməti ikili formada üzə çıxır:

a) -dır, -dir, -dur, -dür şəkilçiləri. Anın hikmətləri qullara boldur [1, s. 15; boldur]. Əbübəkr, Ömər, Osman, Əlidir, Eyi dirliklidir bular Vəlidir [1, s. 16; Əlidir, Vəlidir]. Mənəm bir tən, vəleykin can anındır; kəlamın ismi Qurandır, hədis Allahü-Əkbərdir [11, s. 56, 81- anındır, Qurandır, Əkbərdir]. Zülfü rüxsarındadır nuri-hicabı könlümün [7, s. 51- rüxsarındadır]. Həmin budur nəzər, ey şahi-mən, rəvayəti-eşq [7, s. 47]. Ey Füzuli, qəddimiz qıldı fələk xəm, yəni, Vəqtdir çıxmağa dünya qapısından, əyilin [4, s. 117; Vəqtdir]. Həbibim fəsli-güldür bu, axar sular bulanmazmı [4, s. 134; fəsli-güldür]. Məna bu yaradan ölüm yoqdır [8, s. 39; yoqdır]. Ğəmzəsi bimarı, eyni natəvandır, sanma kim, Kimsə halin bilməz anun, üştə hali bəndədir (Nəsimi, natəvandur, bəndədür [9, s. 203]. Gördüyümüz kimi, III şəxs xəbərlik şəkilçisinin ahəngdən asılı olmayaraq dodaqlanan saitli -dur, -dür variantları işlənir.

b) -durur, -dürür. Akad.T.Hacıyevə görə şəkilçi formada üçqat indiki zaman əlaməti mövcuddur [ad/əd+ur+ur; 6. s.63-66]. III şəxsə aid hər iki xəbərlik şəkilçisinin müvazi işlənməsi XIII-XVI əsrlər ədəbi dilimizdə müşahidə olunur. Özü gürbüzdürür yavlak bahadır, Bahadırlıq yolunda key bəhadır [1, s. 16; güzbürdürür]. Bulap padişəhindürür bəxşi [1, s. 30; padişahindürür]. Eşqiniz, canu, bu könlüm təxtinə sultandurur [11, s. 59; sultandurur]. Bildi km, yüzün sifəti ayəti-Qurandurur [11, s. 59; Qurandurur]. Ol həqqi tanı kim, yüzünə Kəbədür, derəm, Mənidə oldurur, əhli-səfa derəm [oldurur; 9, s. 202].

Nəticə: Göründüyü kimi, Azərbaycan dilinin yazılı abidələrində hal və xəbərlik kateqoriyalarına aid morfoloji quruluş xüsusiyyətləri müasir dilimiz ilə müqayisədə ciddi fərqlənmələr nümayiş etdirmir.

Ədəbiyyat siyahısı

1. Dastani-Əhməd-Hərami. Bakı: Gənclik, 1978.
2. Əliyev Y. V. Qədim dil. Dərslik. Bakı: Elm və təhsil, 2019
3. Füzuli M. Seçilmiş əsərləri. I c., Bakı: Azərnəşr, 1988
4. Füzuli. Seçilmiş əsərləri, II c., Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1988
5. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. Bakı: Elm, 2012
6. Hacıyev T.–dürür/-türür şəkilçisinin mənşəyinə dair. Türk dillərinin tarixi morfologiyasına dair araşdırmalar. Bakı: Bakı universiteti nəşriyyatı, 1990
7. Həqiqi Cahanşah – Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1986
8. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1986
9. Qəhrəmanov C. Nəsimi «Divanı»nın leksikası. Bakı: Elm, 1970
10. Nəsimi İ. Seçilmiş əsərləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1973

11. Şah İsmayıl Xətai. Bakı, 2006
12. Vəliyeva G. Qədim türk dili. Bakı: Elm və təhsil, 2013

Ramila Suleymanova

Noun case and predicative suffixes in medieval written sources

Summary

One of the forms of manifestation of the folk language is the literary language. The Azerbaijani literary language is characterized by norm features that are not the same across all periods and stages. The unique norm quality covers all levels of the language - phonetics, lexis, morphology and syntax. Although some of them have become archaic for the modern literary-communicative system, the phonetic, lexical-semantic and grammatical structure of the Azerbaijani language as a whole has not undergone serious changes. In general, regardless of the period to which it belongs, the norm is updated, replaced by another. As a result, this or that feature that was considered the norm for one century may not be used in the next centuries. Although some archaic features remain relevant as material for related Turkic languages, their scope of use in Azerbaijani Turkish has narrowed to dialects. Therefore, both dialects and medieval written monuments are considered irreplaceable sources for the history of the Azerbaijani language.

In medieval written sources of the Azerbaijani language, there are no serious differences in terms of morphological structure compared to our modern language. Although the case category has remained largely stable throughout the historical development of our language in terms of grammatical content and formal indicators, it also contains some differences. Along with the types of possessive case expressing certainty and uncertainty, suffix-free and full-form expression variants are also present. In sources dating back to the 13th-14th centuries, variants of the possessive case with labial vowels are present in the norm. After the morphological sign of the category of belonging, the accusative case ending is observed in very few cases. In the possessive and accusative cases, deviations from the literary language norm or external influences are observed. The ancient form of the directional-directional case is encountered. In some sources, the accusative and accusative case suffixes are used in one variant, regardless of the intonation.

Key words: form, cases, norm, morphological features, suffixes, harmony.

Рамиля Сулейманова

Падежные окончания и предикативные аффиксы имени существительного в средневековых письменных источниках

Резюме

Литературный язык является одной из форм проявления народного языка. Азербайджанский литературный язык характеризуется различными нормативными особенностями на всех этапах и периодах своего исторического развития. Специфическое качество норм охватывает все уровни языка– фонетику, лексику, морфологию и синтаксис. Несмотря на то, что часть этих особенностей стала архаичной для современной литературно-коммуникативной системы, в целом фонетический, лексико-семантический и грамматический строй азербайджанского языка не подвергся коренным изменениям. В целом, независимо от исторической эпохи, нормы постоянно обновляются и замещаются новыми. Вследствие этого те или иные признаки, считавшиеся нормой в одном столетии, могут выйти из употребления в последующие века. Хотя некоторые архаичные черты сохраняют свою актуальность в материалах родственных тюркских языков, в азербайджанском тюркском сфера их использования сузилась до уровня диалектов. В связи с этим как диалекты, так и средневековые письменные памятники считаются незаменимыми источниками для изучения истории азербайджанского языка.

В средневековых письменных источниках азербайджанского языка не наблюдается существенных отличий в морфологической структуре по сравнению с современным

состоянием языка. Хотя категория падежа в силу своего грамматического содержания и формальных показателей оставалась в основном стабильной на протяжении исторического развития языка, она все же содержит определенные различия. Наряду с определенным и неопределенным видами родительного падежа, встречаются как бесфиксные, так и полноформенные варианты выражения. В источниках XIII–XIV веков варианты окончаний родительного падежа с губными гласными выступают в качестве правомерной нормы. После морфологического признака категории принадлежности окончание винительного падежа наблюдается крайне редко. В формах родительного и винительного падежей прослеживаются отклонения от норм литературного языка или же внешние влияния. Встречаются аффиксы древнего направительно-директивного падежа. В некоторых источниках показатели дательного и винительного падежей употребляются в одном варианте, независимо от гармонии гласных переднего или заднего ряда.

Ключевые слова: *форма, падежи, норма, морфологические особенности, аффиксы, гармония гласных.*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər*:** ***fil.e.d.,dosent Y.Əliyev
fil.f.d.,dosent S.Axundov

UOT 811.512.162
Səhifə: 107-113
https://doi.org/10.59849/2663-8967.2026.1.107

Aytən Bəylərova
AMEA Nəsimi adına Dilçilik İnstitutu
filologiya üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0000-0002-7515-4229
ayten_beylerova@mail.ru

KONNOTASİYA ANLAYIŞININ LİNQVİSTİK MAHİYYƏTİ, KOMPONENTLƏRİ VƏ FUNKSİYALARI

XÜLASƏ

Məqalədə müasir dilçiliyin aktual problemlərindən biri olan konnotasiya anlayışının linqvistik mahiyyəti, komponentləri və funksional xüsusiyyətləri sistemli şəkildə araşdırılır. Tədqiqatda konnotasiya dil vahidlərinin məna strukturunda emosional, ekspressiv, qiymətləndirici və mədəni çalarları ehtiva edən mühüm semantik qat kimi təhlil olunur. Konnotasiyanın semiotik mənşəyi və denotasiya ilə qarşılıqlı əlaqəsi nəzərdən keçirilir, onun leksik-semantik sistemdə mövqeyi və mətn daxilində reallaşma mexanizmləri müəyyənləşdirilir. Xüsusi olaraq vurğulanır ki, konnotativ məna qatları dilin praqmatik və kommunikativ imkanlarını genişləndirməklə yanaşı, informasiyanın təsir gücünü və bədii-estetik dəyərini əhəmiyyətli dərəcədə artırır. Məqalədə konnotasiyanın emotiv, aksioloji, ekspressiv-obrazlı, kumulyativ və üslubi funksiyaları bədii və publisistik materiallar əsasında şərh olunur. Aparılan araşdırmalar konnotasiyanın təkcə semantik deyil, həm də üslubi və mədəni bir fenomen kimi çıxış etdiyini, dilin daxili potensialının üzə çıxarılmasında həlledici rol oynadığını təsdiqləyir.

Açar sözlər: *konnotasiya, denotasiya, semantika, semiotika, praqmatika, dilçilik*

Giriş: Müasir dilçilikdə semantik tədqiqatların prioritet istiqamətlərindən biri dil vahidlərinin konnotativ məna qatlarının araşdırılmasıdır. Bu zərurət ondan irəli gəlir ki, dil yalnız informasiya ötürmə vasitəsi deyil, həm də danışanın subyektiv münasibətini və sosiomədəni dəyərlər sistemini əks etdirən mürəkkəb semiotik strukturdur.

Dilçilikdə konnotasiya anlayışının məzmunu və hüdudları ilə bağlı müxtəlif elmi baxışlar mövcuddur. Bəzi tədqiqatçılar (N.G.Komlev, İ.A.Sternin, İ.V.Arnold və b.) konnotasiyanı sözün əsas (denotativ) mənasına əlavə olunan bütün semantik və assosiativ çalarların məcmusu kimi səciyyələndirirlər. Bu konsepsiyaya görə, konnotasiya yalnız emosional-ekspressiv və qiymətləndirici çalarlarla məhdudlaşmır; o həm də üslubi, ideoloji, sosial və mədəni xüsusiyyətləri ehtiva edən elementləri özündə birləşdirir. Lakin konnotasiyanın bu dərəcədə geniş şərhi bir sıra dilçilər tərəfindən mübahisəli hesab olunur. Onların fikrincə, belə yanaşma konnotasiyanın semantik mahiyyətinin aydınlaşdırılmasını çətinləşdirir və leksik mənanın strukturunda bu fenomenin yerini dəqiq müəyyənləşdirməyə imkan vermir. Bu səbəbdən dilçilərin bir qismi konnotasiyanın əsasını emosional-qiymətləndirici və ekspressiv çalarlarda görür, digər qismi isə onu emosional ton və obrazlılıq müstəvisində izah edərək, həmin elementlərin sözün daxili strukturunda xüsusi funksional rol oynadığını vurğulayırlar (A.V.Filippov, V.İ.Şaxovski və b.).

Leksik vahidlərin məna strukturunda əlavə semantik qat yaradan konnotasiya, bir qayda olaraq, denotasiya ilə qarşılıqlı əlaqədə nəzərdən keçirilir. Denotasiya sözün obyektiv, neytral və ümumişlək mənasını ifadə edirsə, konnotasiya həmin məzmuna əlavə olunan emosional, qiymətləndirici, ekspressiv və mədəni çalarlardan ibarətdir. Konnotativ komponentin formalaşmasında ekstralinqvistik (dilxarici) faktorlar həlledici rola malikdir; bu fenomen dilin daxili qanunauyğunluqlarından daha çox, cəmiyyətin, mədəniyyətin və fərdi təfəkkürün təsiri ilə təşəkkül tapır. Xalqın dini inancları və tarixi keçmişi, həmçinin coğrafi mühit və sosial normalar neytral nominativ vahidlərə yeni məna çalarları qazandıraraq, onları konnotativ məna sisteminin elementlərinə çevirir. Beləliklə, sözün denotativ nüvəsi sabit qalsa da, onun konnotativ periferiyası (ətrafı) dinamik

və hüdudsuz bir assosiativ sahə kimi çıxış edir. Bu sahənin mərkəzində kollektiv şəkildə qəbul edilmiş ümumi assosiasiyalar, periferiyasında isə fərdi təcrübə və konkret kontekstlə bağlı dəyişkən çalarlar yer alır. Məsələn, *ilan* sözü denotativ olaraq konkret sürünən növünü bildirsə də, assosiativ baxımdan "xainlik", "məkr", "təhlükə" kimi mənfi konnotasiyalar yaradır.

Konnotativ məzmunun təşəkkülündə assosiativliklə yanaşı, intensiya, yəni danışanın kommunikativ niyyəti də dil vahidlərinin seçimini istiqamətləndirən aparıcı faktorlardan biridir. Bu semantik transformasiya bədii kontekstdə özünü daha qabarıq büruzə verir. Məsələn, S.Rəhimovun "Mehman" povestindəki "Qaloş" obrazı müəllifin bədii niyyətinə uyğun olaraq mənfi insani keyfiyyətlərin və cəmiyyətdəki nöqsanların ümumiləşmiş rəmzinə çevrilmişdir [1]. Beləliklə, söz artıq konkret bir əşyanı deyil, "ikiüzlülük" və "qanunsuzluq" kimi mürəkkəb konnotativ çalarları ifadə edir. Nəticədə, sözün lüğəvi mənası arxa plana keçir, mətndə dominantlıq edən aksioloji (qiymətləndirici) komponent ön plana çıxır.

Konnotasiya anlayışının nəzəri əsasları:

Konnotasiya anlayışının genezisini müəyyənləşdirmək üçün dili çoxqatlı işarələr sistemi kimi nəzərdən keçirmək zəruridir. Struktur-semiotik yanaşmalara görə, leksik vahidin mənası sabit və monosemantik deyil; o, diskurs mühitində semantik və praqmatik amillərin qarşılıqlı təsiri nəticəsində dinamik şəkildə genişlənir. V.İ.Şaxovski bədii mətnlərin təhlilinə əsaslanaraq qeyd edir ki, situativ kontekstdə gizli, potensial emotiv semaların aktuallaşması nəticəsində neytral sözlər də konnotativ məna qazana bilər [2, s.77]. Bu, konnotasiyanın dilxarici amillərin təsiri ilə daim yenidən formalaşa bilən bir dil hadisəsi olduğunu təsdiqləyir.

Amerika strukturalizminin banisi L.Blumfild "Dil" (1933) adlı fundamental əsərində konnotasiya anlayışını geniş şəkildə izah etmiş və onun müxtəlif növlərini fərqləndirmişdir. Tədqiqatçı sözün əsas mənasına əlavə olunan sosial, emosional və üslubi çalarları konnotasiya kimi səciyyələndirərək, bu fenomeni bir tərəfdən leksik qruplarla, digər tərəfdən isə dil vahidlərinin işlənmə mühiti ilə şərtləndirir [3, s.156-164].

Semiotikada konnotasiya anlayışının nəzəri əsasları 1943-cü ildə Danimarka dilçisi, Kopenhagen qlossematika məktəbinin banisi L.Yelmslev tərəfindən işlənmişdir. Alimin fikrincə, konnotativ komponent dil işarəsinin denotasiyasına kənardan mexaniki şəkildə əlavə olunan ünsür deyil. L.Yelmslev dil işarəsinin ifadə və məzmun planından ibarət ikili təbiətinin konnotativ sistemin formalaşması üçün obyektiv baza təşkil etdiyini qeyd edir və bu sistem daxilində yaranan ikinci dərəcəli mənanı "konnotator" adlandırır [4, s.138]. O vurğulayır ki, dildə konnotasiyadan tamamilə kənarda qalan ifadə, demək olar ki, yoxdur. Bu isə onu göstərir ki, hər bir leksik vahid müxtəlif kontekstlərdə spesifik konnotativ çalarlar qazanmaq potensialına malikdir.

L.Yelmslevin bu konsepsiyası sonralar U.Ekonun (1962) tədqiqatlarında inkişaf etdirilmişdir. Alim konnotasiyanı işarənin sadə daxili strukturu kimi deyil, mürəkkəb və çoxlaylı hadisə kimi xarakterizə edir. Onun konsepsiyasına görə, konnotativ məna o zaman formalaşır ki, ilkin denotativ vahid bütöv şəkildə yeni semantik qatın ifadə vasitəsinə çevrilir [5, s.69].

R.Bart (1975) konnotasiyanı semiotik müstəvidə mədəni kodların ifadə vasitəsi və ideoloji stereotiplərin daşıyıcısı kimi izah edir [6; 7]. O, konnotativ semiotikaya belə tərif verir: "... konnotativ sistem elə bir sistemdir ki, onun ifadə planının özü bir işarə sistemidir" [6, s.297]. Bu struktur yanaşma mahiyyət etibarilə Y.Lotmanın irəli sürdüyü "ikinci dərəcəli modelləşdirici sistem" konsepsiyası ilə nəzəri paralellik təşkil edir [8, s.18]. Hər iki nəzəriyyə təbii dilin üzərində daha mürəkkəb semantik qatların yaranma mexanizmini aydınlaşdırır. Belə bir semiotik model çərçivəsində leksemlər ilkin mənalarından kənara çıxaraq, mənsub olduqları ictimai-mədəni mühitdə əlavə məna çalarları ilə zənginləşir. Nəticədə həmin dil vahidləri, sadəcə, obyektləri adlandırmaqla kifayətlənmir, eyni zamanda müəyyən mədəni-ideoloji kontekstlərin ötürücüsü funksiyasını yerinə yetirir.

Qərb semiotikasında inkişaf etdirilmiş bu elmi istiqamətlər Azərbaycan dilçiliyində konnotasiyanın dar "üslubi çalar" hüdudlarından çıxarılaraq müstəqil semantik-praqmatik kateqoriya kimi tədqiqinə zəmin yaratmışdır. Sözügedən nəzəri baza konnotasiyanın strukturunu formalaşdıran müxtəlif funksional komponentlərin təbiətini və onların leksik məna daxilindəki iyerarxik münasibətlərini yenidən dəyərləndirməyi zəruri edir. Bu iyerarxiya, ilk növbədə, denotativ nüvə ilə kon-

notativ periferiya arasındakı tabelik münasibətlərini, həmçinin konnotasiyanı təşkil edən elementlərin bir-birini şərtləndirmə ardıcıllığını ehtiva edir.

Konnotasiyanın struktur komponentlərinə nəzəri yanaşmalar:

Müxtəlif tədqiqatçılar konnotasiyanın daxili quruluşu və komponentlərinin təsnifatına dair fərqli mülahizələr irəli sürmüşlər. Bu fərqlilik, əsasən, konnotasiyanın hansı funksiyasına üstünlük verilməsi ilə bağlıdır.

N.G.Komlev konnotasiyanın strukturuna subyektiv təsəvvürləri, hissləri, mədəni komponenti, bilik səviyyəsini və dünyagörüşünü daxil etməklə geniş tipologiya təqdim edir [9, s.105-130]. İ.A.Sternin konnotasiyanın əsas komponentlərini emosional, qiymətləndirici, ekspressiv, üslubi və honorifik olaraq müəyyənləşdirir [10, s.129]. İ.V.Arnold isə honorifik (ehtiram bildirən, hörmət ifadə edən) komponenti istisna edərək, konnotasiyanı emosional, qiymətləndirici, ekspressiv və üslubi komponentlərin vəhdəti kimi xarakterizə edir [11, s.110]. A.V.Filippov konnotasiyayanın hüdudlarını yalnız emosional və üslubi xüsusiyyətlərlə məhdudlaşdırır [12, s. 60].

Rusiyada emotiv linqvistikanın banisi V.İ.Şaxovski konnotasiyanın nüvəsini emosional ton və obrazlılığın təşkil etdiyini bildirir. Onun yanaşmasına görə, obrazlılıq denotativ mənanın periferiyasında yerləşən semaların "emosional ton"un təsiri ilə aktuallaşması nəticəsində təzahür edir, ekspressivlik isə bu obrazın təsir gücünü artırır [2, s.58].

Mövcud yanaşmalar göstərir ki, üslubi komponent çox vaxt ekspressivliyin təzahürü kimi qiymətləndirilir. Lakin ekspressivlik üslubi çalarlarla yanaşı, sözün obrazlılıq xüsusiyyəti ilə də sıx bağlıdır. Bu baxımdan üslub və obrazlılıq komponentlərini fərqləndirmək, ayrı-ayrılıqda nəzərdən keçirmək daha məqsədəuyğundur. Belə ki, üslub sözün hansı funksional mühitə aid olduğunu ("harada"), obrazlılıq isə onun daxili formasına əsaslanan qavranılma və vizuallaşdırma üsulunu ("necə") müəyyən edir.

N.A.Lukyanova ekspressivliyi semantik və praqmatik xüsusiyyətlərin vəhdətindən ibarət semantik-funksional (və ya funksional-semantik) kateqoriya kimi səciyyələndirir [13, s.198]. O vurğulayır ki, bu fenomen həm ümumdil hadisəsi, həm də leksik, frazeoloji, morfoloji və sintaktik səviyyələrdə ortaya çıxan xüsusi kateqoriyadır [13, s.184]. N.A.Lukyanovanın qənaətinə görə, leksik vahidlərin semantik quruluşu ilə sıx bağlı olan ekspressivlik müasir dilçilikdə, əsasən, konnotativ təbiətə malik linqvistik kateqoriya kimi qəbul olunur. Bununla belə, konnotasiyanın mahiyyəti və ekspressiv təsir yaradan konnotativ semaların strukturu fərqli aspektlərdə şərh edildiyindən, ekspressivliyin nəzəri əsasları da müxtəlif cür izah olunur [13, s.189].

N.A.Lukyanova ekspressiv leksik vahidlərin semantik quruluşunda intensivlik, emotivlik və emotiv qiymətləndirməni konnotasiyanın tərkib hissəsi hesab edir [13, s.189]. Obrazlılığı isə həm konnotativ, həm də denotativ-siqnifikativ məzmunla əlaqəli olan, leksik mənanın nisbətən müstəqil və bütöv komponenti kimi qiymətləndirir. Onun fikrincə, obrazlılıq sözün daxili formasına əsaslanaraq həm əşyəvi mənanı (denotatı), həm də ona qarşı subyektiv münasibəti (konnotasiyanı) əhatə edir [13, s.197].

Emosional və qiymətləndirici komponentlərin sərhədlərinin müəyyənləşdirilməsi də dilçilikdə mürəkkəb məsələlərdən biridir. Çünki insanın obyektə verdiyi qiymət, adətən, emosional yaşantılarla bağlı olur, gerçəkliyə münasibət forması sayılan emosiyalar isə, demək olar ki, hər zaman müəyyən qiymətləndirmə ilə müşayiət edilir. Buna görə də "emosional qiymətləndirmə" termini geniş istifadə olunur. Məsələn, *qurd kimi acmaq* ifadəsində həm emosional gərginlik, həm də mənfi qiymətləndirmə eyni vaxtda aktuallaşır. Bu kimi dil faktları konnotativ komponentlərin sərhədlərini təyin etməyin mürəkkəbliyini nümayiş etdirir.

Görkəmli frazeoloq A.V.Kunin bu qarşılıqlı əlaqəni belə izah edir: "Emotivlik – dildə əks olunan emosionallıqdır, yəni obyektin emosional (hissi) qiymətləndirilməsi, insanın hiss, ovqat və yaşantılarının dil və ya nitq vasitələri ilə ifadəsidir. ... Ekspressivlik– sözün və ya frazeologizmin obrazlılıq, intensivlik və ya emotivliklə şərtlənən ifadəli-təsviri keyfiyyətləridir" [14, s.178]. O, hesab edir ki, emotivlik hər zaman ekspressivlik və qiymətləndirməni özündə birləşdirə bilər, lakin hər bir ekspressiv və ya qiymətləndirici vahid mütləq emotiv xarakter daşımır [14, s.178]. Başqa sözlə, emosiya daxili qiymətləndirməni ehtiva etdiyi halda, hər bir rasional qiymətləndirmə

(məsələn, "faydalı", "effektiv") emosional çalara malik olmaya bilər. Beləliklə, emotivlik və obrazlılıq ekspressivliyin formalaşmasına zəmin yaradan əsas amillər kimi qiymətləndirilir.

Dil faktlarının təhlili göstərir ki, konnotativ struktur daxilində emosionallıq, qiymətləndirmə və ekspressivlik bir-biri ilə dialektik əlaqədə olsa da, funksional baxımdan fərqlənən semantik elementlərdir. Məhz bu fərqliliklər nəzərə alınaraq, konnotasiyanın strukturu aşağıdakı beş komponentin vəhdəti kimi müəyyənləşdirilir:

1. Emotiv komponent (emosionallıq) dil vahidinin hiss və duyğularla bağlı semantik qatını əhatə edir. Bu ünsür sevinc, kədər, nifrət, heyranlıq, mərhəmət və s. kimi psixoloji reaksiyaların dil vasitəsilə inikasıdır. D.E.Rozentalın qeyd etdiyi kimi, emosional çalar "hisslərin, əhval-ruhiyyənin və subyektiv münasibətin ifadəsi ilə bağlı olan" məna xüsusiyyətidir [15, s.615].

2. Qiymətləndirmə (aksioloji) *komponenti* obyektə qarşı müsbət, mənfi və ya neytral münasibəti (sosial, etik, estetik dəyərləndirməni) əks etdirir və kommunikativ təsirin formalaşmasında mühüm rol oynayır.

3. Ekspressiv-obrazlı komponent ifadənin təsir gücünü və intensivliyini artırır. Obrazlılıq ekspressivliyin reallaşmasını təmin edərək, sözün daxili formasına əsaslanan assosiativ təsəvvür yaradır. İ.V.Arnoldun qeyd etdiyi kimi, əgər söz ifadə olunan fikri öz obrazlılığı ilə və ya digər vasitələrlə gücləndirirsə, o, ekspressiv komponentə malikdir [11, s.110].

4. Milli-mədəni komponent ortaq tarixi təcrübə, etnik təfəkkür və kollektiv stereotiplər əsasında formalaşan assosiasiyaları ehtiva edir. Bu komponent bəzi dil vahidlərinin başqa dillərə adekvat tərcüməsini çətinləşdirən spesifik mədəni-semantik xüsusiyyətləri özündə birləşdirir.

5. Üslubi komponent dil vahidinin işlənmə mühitini (məişət, elmi, rəsmi, publisistik və s.) və nitq situasiyasına uyğunluğunu müəyyən edir. Bu komponent əsas (denotativ) mənanın üzərinə əlavə olunaraq sözə müəyyən üslubi çalar verir və onun hansı şəraitdə işlədildiyini göstərir.

Təqdim olunan bu model sözün semantik strukturundakı implisit (gizli) məna çalarlarını sistemli şəkildə təsvir etməyə imkan verir. Konnotativ komponentlər sözün semantik bazasında potensial şəkildə mövcud olsa da, onların funksional aktuallaşması mətndən və konkret nitq şəraitindən asılıdır.

Konnotasiyanın funksiyaları:

Konnotasiya dil vahidinin semantik strukturunda yer alan komponentlərin nitq prosesində reallaşması nəticəsində dinamik xarakter qazanır. Dil sistemində mövcud olan bu ünsürlər kommunikasiya zamanı müəyyən funksiyalar yerinə yetirir. Dilçilik ədəbiyyatında həmin funksiyalar müxtəlif aspektlərdən təsnif edilsə də [16; 17, 13 və b.], onları aşağıdakı istiqamətlər üzrə sistemləşdirmək olar:

1. Emotiv funksiya. Konnotasiyanın emosional komponenti danışanın daxili aləmini, hisslərini və psixoloji vəziyyətini əks etdirməklə emotiv funksiyanı yerinə yetirir. Dil vahidlərinin, sadəcə, obyekti adlandırmaqla kifayətlənməyib, eyni zamanda ona qarşı emosional münasibəti (sevinc, nifrət, ikrah və s.) ifadə etməsi bu funksiyanın mahiyyətini təşkil edir. K.İzardın diferensial emosiyalar nəzəriyyəsinə görə, emosiyalar neyrofizioloji, ekspressiv və fenomenoloji komponentlərin qarşılıqlı təsiri əsasında formalaşan mürəkkəb sistemdir [18, s.64]. Müəllif vurğulayır ki, bu komponentlər yalnız vəhdət halında tam emosional prosesi gerçəkləşdirir [18, s.83]. K.İzardın yanaşmasına əsasən, emosiyalar mücərrəd "emosionallıq" kimi deyil, konkret hisslər –xoşbəxtlik, qəzəb, qorxu, kədər, ikrah və ya həyəcan şəklində təzahür edir [18, s.48]. Deməli, emotiv funksiyanın əsas məqsədi obyektin xüsusiyyətlərini qiymətləndirmək deyil, danışanın həmin andakı emosional durumunu dil vasitəsilə çatdırmaqdır. Məsələn, *göynəmək* feili denotativ mənada fiziki ağrını bildirsə də, bədii kontekstdə mənəvi iztirabın ifadəsinə çevrilir: *İlahi, bütün bu dayaz fəlsəfələr nəyə gərəkdir? İki ildən artıqdır ki, içimi lim-həlim dolduran, hər an məni çuğlayan, göynədən yazını günü günə, saatı saata sata-sata yubadıb uzaqlaşdırıram...* [19, s.5]. Eynilə *boğulmaq* feili də ilkin fiziki mənasından uzaqlaşaraq, uzunmüddətli sosial-mədəni məhdudiyyətlərin yaratdığı daxili sıxıntını, tənhalığı və basqı hissini göstərir: *Bu gün kişilər içində rəqs edən bu qız sanki əsrlərlə qara çadralar altında boğulan qadınlıq hissinin ən kövrək, ən xəfif, ən incə gizlinlərindən, sirlərindən, intizarlarından danışırdı* [20, s.67]. Nəticə etibarilə, denotativ mənanın emosional məzmunla zənginləşməsi emotiv funksiyanın reallaşmasına şərait yaradır.

2. Aksioloji funksiya (qiymətləndirmə). Konnotasiyanın qiymətləndirmə komponenti obyekt və ya hadisələrin subyektiv dəyərlər sistemi (yaxşı/pis, müsbət/mənfi) çərçivəsində səciyyələndirilməsini təmin edərək aksioloji funksiyanı reallaşdırır. Eyni bir hərəkətin fərdi və ya sosial baxış bucağından asılı olaraq müxtəlif cür dəyərləndirilməsi bu funksiyanın reallaşmasına zəmin yaradır. Məsələn, *"O, əsl yırtıcıdır"* ifadəsində *yırtıcı* sözü öz ilkin mənasından (heyvana xas bioloji xüsusiyyətdən) fərqli bir semantik yük daşıyaraq, insana aid edilən "amansızlıq" və "qəddarlıq" semalarını ön plana çıxarır. Yaxud *tülkü* leksemi "hiyləgərlik" və "yaltaqlıq", *buz* isə "soyuqluq" və "laqeydlik" kimi neqativ qiymətləndirici çalarların daşıyıcısına çevrilir. Bu növ semantik yerdəyişmələr dinləyici və ya oxucunun təfəkküründə obyektə qarşı müəyyən münasibət formalaşdırır. Göründüyü kimi, sözün ifadə etdiyi mənaya nitq subyektinin müsbət və ya mənfi qiymətləndirici münasibətinin daxil olması aksioloji funksiyanı gerçəkləşdirir.

3. Ekspressiv-obrazlı funksiya. Leksik vahidin semantik strukturundakı ekspressiv çalarlar denotativ məzmunun intensivləşdirilməsi və obrazlı təqdimatı yolu ilə ekspressiv-obrazlı funksiyanın gerçəkləşməsinə xidmət edir. Burada əsas məqsəd informasiyanın daha yaddaqalan şəkildə çatdırılmasını təmin etməkdir. Məsələn, *sürünmək* feilinin denotativ mənası fiziki hərəkəti bildirsə də, kontekst daxilində o, "mənəvi alçalma", "acizlik" kimi mənfi konnotativ çalarlar qazanır: *"O da məni itirməmək üçün yalvarır, ağlayır, bir sözlə, sürünürdü"* [21]. Bu nümunədə feilin semantik transformasiyası nitqin təsir gücünü (ekspressivliyini) artırır. "Yalvarır" və "ağlayır" leksemləri emosional gərginliyi mərhələli şəkildə yüksəldərək qradasiya (tədricilik) effekti yaradır; "sürünürdü" feili isə bu gərginliyin kulminasiyasını ifadə edərək oxucunun təsəvvüründə bitkin bir mənəvi tənəzzül mənzərəsi canlandırır. Deməli, leksik vahidin semantik strukturunda baş verən bu cür keyfiyyət dəyişiklikləri nitqdə ekspressiv-obrazlı funksiyanın reallaşması ilə nəticələnir.

4. Kumulyativ funksiya (milli-mədəni yaddaş). Konnotasiyanın milli-mədəni komponenti kollektiv təcrübənin dilin lüğət tərkibində toplanma və qorunması prosesini təmin etməklə kumulyativ funksiyanın təzahürünə şərait yaradır. Latınca cumulatio ("toplama", "yığma") sözündən götürülən bu anlayış xalqın adət-ənənələrinin və etnik təfəkküründün dil vahidlərində kodlaşdırılmasını nəzərdə tutur. Məsələn: Azərbaycan dilində rəng komponentli ifadələr vasitəsilə insan xarakterinin səciyyələndirilməsi bu funksional vəzifənin bariz nümunəsidir və leksem ətrafında əsrlər boyu toplanmış sosiomədəni təcrübəni (yaddaş qatını) üzə çıxarır: *göy adam* (xəsis), *qırmızı adam* (həyasız və ya açıq danışan), *boz adam* (kobud, nəzakətsiz) və s. Beləliklə, dil vahidlərində etnik-mədəni məlumatların kumulyasiyası (toplanması) milli-mədəni yaddaş vəzifəsinin icrasını, yəni kumulyativ funksiyanın reallaşmasını təmin edir.

5. Üslubi funksiya. Konnotasiyanın üslubi komponenti dil vahidlərinin müəyyən ünsiyyət mühitinə uyğun seçilib istifadə edilməsini tənzimləməklə üslubi funksiyanı təzahür etdirir. Bu funksiya danışanın konkret nitq situasiyasına və janr tələblərinə uyğun leksik seçim etməsini şərtləndirir. Məsələn, *eşələnmək* sözü neytral kontekstdə fiziki hərəkəti bildirsə də, danışıq dilində ləngliyin mənfi emosional qiymətləndirilməsi (vaxt itirmək, ləngimək) kimi işlədildikdə xüsusi üslubi çalar qazanır və nitqin qeyri-rəsmi xarakterini aşkara çıxarır. Yekun olaraq, dil vahidinin konkret funksional üslubun tələblərinə və kommunikativ məqsədə uyğunlaşdırılması üslubi funksiyanın həyata keçirilməsini təmin edir.

Beləliklə, konnotasiyanın komponentləri nitq prosesində funksional xarakter qazanır və dilin praqmatik imkanlarını reallaşdırır. Bu qarşılıqlı əlaqə konnotasiyanın həm statik (dil sistemi), həm də dinamik (nitq) təbiətini nümayiş etdirir.

Nəticə: Aparılan təhlillər sübut edir ki, konnotasiya dilin ictimai-mədəni mahiyyətini müəyyən edən mühüm semantik qatdır. Əgər denotasiya dilin koqnitiv bazasını təşkil edirsə, konnotasiya onun kommunikativ-praqmatik potensialını formalaşdırır. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, konnotasiyanın komponentləri ünsiyyət prosesində konkret funksional istiqamətlərə çevrilərək dil vahidlərinin ifadə imkanlarını genişləndirir.

Söz nitq prosesində təkcə informasiya ötürmür, eyni zamanda danışanın subyektiv münasibətini əks etdirir, dinləyiciyə emosional təsir göstərir, obyektləri ictimai-etik dəyərlər əsasında

qiymətləndirir və xalqın çoxəsrlik mədəni yaddaşını mətnə inteqrasiya edir. Belə bir dialektik vəhdət təsdiqləyir ki, konnotasiya toplumun tarixi təcrübəsini canlı ünsiyyətə daşıyan universal semiotik mexanizmdir. Məhz bu mexanizm sayəsində dil sadə informasiya ötürücüsü olmaqdan çıxaraq, bədii-estetik təsir gücünə malik və milli kimliyi əks etdirən mürəkkəb semiotik sistem kimi çıxış edir.

Ədəbiyyat siyahısı

1. Rəhimov S. Seçilmiş əsərləri: 2 cilddə, II cild. Bakı: "Şərq-Qərb", 2005, 312 s.
2. Шаховский В.И. Лингвистическая теория эмоций. М.: Гнозис, 2008, 416 с.
3. Блумфилд Л. Язык. М.: Прогресс, 1968, 606 с.
4. Ельмслев Л. Пролегомены к теории языка. Перевод с английского. Серия «Лингвистическое наследие XX века». М.: изд-во КомКнига, 2006, 248 с.
5. Эко У. Отсутствующая структура. Введение в семиологию. Санкт-Петербург: Издательство "Симпозиум", 2006, 538 с.
6. Барт Р. Французская семиотика: От структурализма к постструктурализму / Пер. сфр. и вступ. ст. Г.К. Косикова. М.: Издательская группа "Прогресс", 2000, 536 с.
7. Барт Р. S/Z. Пер. с фр. 2-е изд., испр. Под ред. Г. К. Косикова. М.: Эдиториал УРСС, 2001, 232 с.
8. Лотман Ю. М. Лекции по структуральной поэтике. Введение, теория стиха // Труды по знаковым системам. Тарту: Изд-во Тартуского гос. ун-та, 1964, вып. 1, 194 с.
9. Комлев Н.Г. Компоненты содержательной структуры слова. М.: Изд-во МГУ, 1969, 192 с.
10. Стернин И. А. Проблемы анализа структуры значения слова. Воронеж: Изд-во Воронежского гос. университета, 1979, 156 с.
11. Арнольд И.В. Стилистика современного английского языка. Л.: Просвещение, 1981, 295 с.
12. Филиппов А. В. К проблеме лексической коннотации // Вопросы языкознания. М.: Наука, 1978, № 1, с.57-63.
13. Лукьянова Н. А. Экспрессивная лексика разговорного употребления в семантическом аспекте // Вестн. Новосиб. гос. ун-та. Серия: История, филология, 2015, Т. 14, вып. 9: Филология, с.183–201.
14. Кунин А.В. Курс фразеологии современного английского языка: Учеб. Для ин-тов и фак. иностр.яз. М.: Высш. шк., Дубна: Изд.центр "Феникс", 1996, 381 с.
15. Розенталь Д.Э., Теленкова М.А. Справочник по русскому языку. Словарь лингвистических терминов. М.: ООО "Издательский дом "ОНИКС 21 век": ООО "Изд-во "Мир и Образование", 2003, 623 с.
16. Телия В.Н. Русская фразеология: Семантический, прагматический и лингвокультурологический аспекты. М.: Школа "Языки русской культуры", 1996, 288 с.
17. Арнольд И.В. Функции коннотативных компонентов значений в поэтическом тексте // Структура и семантика предложения и текста в германских языках. Межвуз. Сб. Научн. Тр. ЛГПИ им. А. И. Герцена. Л: 1989, с. 3-9.
18. Izard C.E. Human emotions. New York: Plenum Press, 1977, 495 p.
19. Anar. Əsərlər. III cild, Bakı: Nurlan, 2004, 689 s.
20. Anar. Əsərlər. I cild, Bakı: Nurlan, 2003, 578 s.
21. https://525.az/news/133217-olum-sessizliyi-turkan-turandan-yeni-yazi.

Aytan Baylarova

Linguistic essence, components and functional characteristics of the concept of connotation

Summary

The article systematically explores the linguistic essence, components and functional characteristics of the concept of connotation, which is one of the pressing problems of modern linguistics. In the study, connotation is analyzed as an important semantic layer in the structure of meaning of linguistic units, encompassing emotional, expressive, evaluative, and cultural shades. By reviewing the semiotic origin of connotation and its interrelation with denotation, its position in the lexico-semantic system and the mechanisms of its realization within the text are identified. It is particularly emphasized that connotative meaning layers not only expand the pragmatic and communicative possibilities of language, but also significantly enhance the impact and artistic-aesthetic value of information. The article interprets the emotive, axiological, expressive-figurative, cumulative, and stylistic functions of connotation based on literary and journalistic materials. The research confirms that connotation functions not only as a semantic phenomenon, but also as a stylistic and cultural one, playing a decisive role in revealing the internal potential of language.

Keywords: *connotation, denotation, semantics, semiotics, pragmatics, linguistics*

Айтен Бейлярова

Лингвистическая сущность, компоненты и функциональные особенности понятия коннотации

Резюме

В статье систематически исследуются лингвистическая сущность, компоненты и функциональные особенности понятия коннотации с точки зрения современной лингвистики. В исследовании коннотация анализируется как важный семантический слой в структуре значения языковых единиц, включающий эмоциональные, экспрессивные, оценочные и культурные оттенки. Рассматриваются семиотическое происхождение коннотации и её взаимоотношение с денотацией, определяется её место в лексико-семантической системе и механизмы реализации в тексте. Особо подчеркивается, что коннотативные смысловые слои не только расширяют прагматические и коммуникативные возможности языка, но и значительно усиливают воздействующую силу и художественно-эстетическую ценность информации. В статье на основе художественных и публицистических материалов интерпретируются эмотивная, аксиологическая, экспрессивно-образная, кумулятивная и стилистическая функции коннотации. Проведенные исследования подтверждают, что коннотация выступает не только как семантический, но и как стилистический и культурный феномен, играя решающую роль в раскрытии внутреннего потенциала языка.

Ключевые слова: *коннотация, денотация, семантика, семиотика, прагматика, лингвистика*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***professor N.Məmmədli***
dosent İ.Salehova

UOT-811.11-112
Səhifə: 114-118
https://doi.org/10.59849/2663-8967.2026.1.114

Sevinc Hüseynova
AMEA Nəsimi adına Dilçilik İnstitutu

SOSİOLİNQVİSTİKADA QLOBALLAŞMA KONSEPTİ

XÜLASƏ

Qloballaşma müasir sosiolinqvistikada əsas anlayışa çevrilmiş, dil istifadəsinin, linqvistik müxtəlifliyin və dillə əlaqəli güc münasibətlərinin modellərini kökündən dəyişdirmişdir. Güclənmiş qlobal mobillik, rəqəmsal kommunikasiya və transmilli qarşılıqlı təsir dilin sabit, ərazi baxımından bağlı bir sistem kimi ənənəvi baxışlarını dəyişmişdir. Nəticədə sosiolinqvistika getdikcə dəyişkən linqvistik təcrübələrə, çoxdilli repertuarlara və dəyişən dil ideologiyalarına diqqət yetirir. Bu tədqiqatın məqsədi qloballaşmanı sosiolinqvistik bir fenomen kimi araşdırmaq və onun dil təcrübələrinə, iyerarxiyalarına və kimliklərinə təsirini təhlil etməkdir. Tədqiqat qlobal dillərin yüksəlişi, linqvistik bərabərsizlik, qlobal və yerli linqvistik resurslar arasında qarşılıqlı təsir kimi məsələləri əhatə edir. Tədqiqatın aktuallığı qloballaşmanın təhsilə, miqrasiyaya, mediaya və rəqəmsal kommunikasiyaya artan təsirini vurğulayır, bu da onun linqvistik nəticələrinin anlaşılmasını dil siyasəti və sosial birlik üçün vacib edir. Tədqiqatın yeniliyi onun inteqrativ perspektivindədir. Bu da qloballaşmanı milli sərhədlərdən kənarda dili formalaşdıran dinamik, ideoloji vasitəçilik prosesi kimi konsepsiyalaşdırır. Dil dəyişikliyini sosial, siyasi və texnoloji amillərlə əlaqələndirməklə, tədqiqat sosiolinqvistikada qloballaşmanı daha dərindən başa düşülməsinə töhfə verir.

Açar sözlər: *qloballaşma, sosiolinqvistika, milli dillər, dil iyerarxiyası, sosial qrup.*

Giriş: Qloballaşma müasir sosiolinqvistikada mərkəzi analitik çərçivələrdən birinə çevrilmiş, dilin müasir cəmiyyətlərdə necə başa düşüldüyünü, istifadə olunduğunu və idarə olunduğunu yenidən formalaşdırmışdır. Liberallaşma və texnoloji tərəqqi qloballaşma tempini sürətləndirmiş, rəqabət və qarşılıqlı asılılıq qlobal iqtisadiyyatın xarakterik xüsusiyyətlərinə çevrilmişdir [1, s.99]. "Qloballaşma" termini ilk dəfə 1960-cı illərdə ortaya çıxmışdır. Onun müəllifi "qlobal kənd" anlayışını təqdim edən və ona öz şərhini verən Kanadalı filosof və mədəniyyət nəzəriyyəçisi Maykl MakLuhans hesab olunur. O, qloballaşmanın qaçılmaz olaraq mədəni inteqrasiyaya gətirib çıxaracağını və milli mədəniyyətlərə və dillərə təsir göstərmək üçün güclü bir vasitəyə çevriləcəyini proqnozlaşdırmışdır [3]. Qloballaşma termini o qədər geniş və çoxmənalıdır ki, bir icma üzvlərinin həmin icmanın hüdudlarından kənara çıxmağa çalışdıqları hər hansı bir halı təsvir etmək üçün istifadə edilə bilər [4]. Bununla belə, "qloballaşma" termini bu gün sosial-tarixi inkişafın hazırkı mərhələsinin müxtəlif aspektlərini, o cümlədən linqvistik qloballaşma proseslərini, yəni ingilis dilinin dünya miqyasında yayılması proseslərini təsvir etmək üçün ən çox istifadə edilən terminlərdən birinə çevrilmişdir [5]. "Qloballaşma" termini dilin hazırkı vəziyyətinin şərhində paradiqmatik dəyişiklik və bir çox mövcud linqvistik anlayışların yenidən nəzərdən keçirilməsi və dəqiqləşdirilməsi, eləcə də yenilərinin hazırlanması zərurətini nəzərdə tutan yeni sosiolinqvistik reallıqları əks etdirir [7, s.2]. P.C.Albax və C.Nayt qloballaşmanı iyirmi birinci əsrin reallıqları olan iqtisadi və akademik tendensiyaların konteksti kimi qəbul edir. Qloballaşma mürəkkəb, çoxqatlı və ziddiyyətli proses kimi bir-biri ilə əlaqəli bir neçə aspekti əhatə edir: mədəni-psixoloji, sosial-siyasi, iqtisadi, informasiya-texnoloji və etnik [8]. Bütün bu aspektlər bir-biri ilə sıx bağlıdır və ayrılmazdır. Sosiolinqvistik baxımdan qloballaşma yalnız iqtisadi inteqrasiyaya və ya texnoloji irəliləyişlərə deyil, həm də dünyada dil təcrübələrinə, dil iyerarxiyalarına və ideologiyalarına dərin təsir göstərən insanların, ideyaların, diskursların və semiotik resursların transmilli axınlarına aiddir. Bu konsepsiya əvvəlki millət-dövlət mərkəzli dil modellərinə yenidən nəzər salmağa və dil hadisələrini dinamik, proses yönümlü şəkildə anlamağa çağırır.

Ənənəvi olaraq, sosiolinqvistika dilləri məhdud cəmiyyətlər, ərazilər və sosial qruplarla əlaqələndirən nisbətən sabit çərçivələr daxilində fəaliyyət göstərirdi. Dillər tez-tez millət-dövlətlər, etnik qruplar və ya aydın şəkildə müəyyən edilmiş nitq icmaları ilə əlaqəli diskret sistemlər kimi öyrənilirdi. Qloballaşma dil istifadəsinin müəyyənedici xüsusiyyətləri kimi mobillik, hibridlik və axıcılığı təqdim etməklə bu modeli pozur. Qloballaşan dünyada danışanlar tez-tez fiziki və virtual məkanlarda hərəkət edərək, dil resurslarını özləri ilə daşıyır və bu resursları yeni ünsiyyət mühitlərinə uyğunlaşdırır. Nəticədə dil artıq tək bir yerə və ya homogen bir icmaya bağlı kimi tam başa düşülə bilməz.

Qloballaşmanın əsas sosiolinqvistik təsirlərindən biri dil repertuarlarının transformasiyasıdır. Fərdlər tək bir "dil"də səriştəyə sahib olmaq əvəzinə, getdikcə daha çox heterojen dil xüsusiyyətləri, üslubları, reyestrləri və kodları istifadə edir. Bu repertuarlar miqrasiya, təhsil, mediaya məruz qalma və rəqəmsal ünsiyyət tərəfindən formalaşır. Beləliklə, sosiolinqvistika diqqətini məhdud dillərdən kod dəyişdirmə, translinqvistika və üslub dəyişikliyi kimi təcrübələrə yönəldir, bu da danışanların mürəkkəb qloballaşmış kontekstlərdə hərəkət etmək qabiliyyətini əks etdirir.

Qloballaşma yeni linqvistik iyerarxiyalar yaradır. Qloballaşma beynəlxalq ünsiyyətin durmadan artmasını tələb edir ki, bu da ünsiyyət vasitəsi olan dilin (dillərin) təbiətinə əhəmiyyətli dərəcədə təsir edir [1]. Bəzi dillər tez-tez qlobal və ya beynəlxalq dillər adlandırılır; simvolik, iqtisadi və kommunikativ güc qazanır, digərləri isə marjinallaşır. Xüsusilə ingilis dili akademiyada, biznesdə, texnologiyada və mədəniyyətdə dominant qlobal lingua franca kimi fəaliyyət göstərir. Sosiolinqvistik baxımdan bu dominantlıq neytral deyil: resurslara çıxışa, qlobal bilik istehsalında iştiraka və müxtəlif linqvistik çeşidlərə verilən nüfuza təsir göstərir. Buna görə də qloballaşma dil bərabərsizliyini gücləndirir, dillər və onların danışanları arasında asimmetrik güc münasibətləri yaradır. Qloballaşma sadəcə linqvistik homogenləşməyə gətirib çıxarmır. Qlobal dillər genişlənərkən, yerli və milli dillər tez-tez yenidən təsdiqlənmə və kontekstləşmə proseslərindən keçir. Sosiolinqvistlər qloballaşmanın əvəzlənmədən daha çox gərginlik yolu ilə hərəkət etdiyini vurğulayırlar; qlobal və yerli qüvvələr qarşılıqlı təsir göstərir və dil istifadəsinin hibrid formalarını yaradır. Bu fenomen tez-tez qlobal linqvistik resursların yerli mədəni və sosial şəraitə necə uyğunlaşdırıldığını vurğulayan "qlokallaşma" kimi anlayışlar vasitəsilə təsvir olunur. Beləliklə, qloballaşma eyni zamanda linqvistik müxtəlifliyi təhdid edə və dilin qorunmasına və kimliyinə yenilənmiş marağı stimullaşdıra bilər.

Sosiolinqvistikada qloballaşmanın digər vacib aspekti ideologiyanın roludur. Dil ideologiyaları – dilin düzgünlüyü, nüfuzu, faydalılığı və orijinallığı haqqında inanclar – qlobal şəraitdə yenidən formalaşır. Bu ideoloji konstruksiyalar dil siyasətinə, təhsil seçimlərinə və fərdi dil təcrübələrinə təsir göstərir. Sosiolinqvistika bu cür ideologiyaların qloballaşan dünyada media, qurumlar və siyasi diskurslar vasitəsilə necə yayıldığını araşdırır. Bununla belə, qloballaşmanın mənfi tərəfləri də mövcuddur. Bu barədə V.M.Alpatov qeyd edir: "ikinci ana dili"nin yayılması təbii insan ehtiyacını - kimliyə olan ehtiyacı pozur, yəni bütün hallarda erkən uşaqlıqda qazanılmış öz dilindən istifadə etmək istəyi yaranır [2].

Rəqəmsal kommunikasiya qloballaşmanın linqvistik təsirlərini daha da gücləndirir. Onlayn platformalar milli və linqvistik sərhədlər arasında ani qarşılıqlı əlaqəni təmin edir, linqvistik formaların, memlərin və diskursiv üslubların yayılmasını sürətləndirir. Rəqəmsal sosiolinqvistika qloballaşmanın onlayn dil təcrübələrində, o cümlədən ssenarilərin qarışdırılmasında, qlobal gənclər üçün dillərin yaranmasında və müəyyən dillərin rəqəmsal məkanlarda dominantlığında necə təzahür etdiyini öyrənir. Eyni zamanda, rəqəmsal texnologiyalar daha az danışılan dillərin dirçəldilməsi üçün vasitələr təmin edə bilər və linqvistik tənəzzülün sadələşdirilmiş ssenarilərini çətinləşdirir.

Nəzəri baxımdan, qloballaşma sosiolinqvistikanı fənlərarası və tənqidi yanaşmalara sövq edir. Dil getdikcə siyasi iqtisadiyyat, qloballaşma tədqiqatları, media tədqiqatları və postkolonial nəzəriyyə ilə əlaqəli şəkildə təhlil edilir. Alimlər qloballaşmanın qeyri-bərabər və tarixi köklü olduğunu, müstəmləkə mirası, iqtisadi güc və geosiyasi münasibətlər tərəfindən formalaşdığını vurğulayırlar. Nəticə etibarilə, sosiolinqvistika yalnız dillərin necə yayıldığını deyil, həm də qlobal dil tənzimləmələrinin kimin maraqlarına xidmət etdiyini və kimin səslərinin marjinallaşdırıldığını araşdırır.

Dil siyasəti və planlaşdırılması qloballaşmanın dərin təsirinə məruz qalır. Dövlətlər qlobal ünsiyyətdə iştirakla milli və azlıq dillərinin qorunması arasında tarazlıq yaratmaq çətinliyi ilə üzləşir. Sosiolinqvistik təhlillər göstərir ki, dil siyasəti çox vaxt ideoloji mübarizə meydançalarıdır və burada qloballaşma ya beynəlxalq inteqrasiya üçün fürsət, ya da dil və mədəni suverenliyə təhdid kimi təqdim olunur. Buna görə də sosiolinqvistikada qloballaşmanı anlamaq gündəlik dil istifadəsi ilə yanaşı, institusional təcrübələrə, qanunvericiliyə və təhsil sistemlərinə də diqqət yetirməyi tələb edir.Qlobal dil orijinal milli və ya etnik sərhədlərindən kənarda fəaliyyət göstərən və beynəlxalq ünsiyyətdə geniş istifadə olunan bir dildir. Bu cür dilləri belə səciyyələndirmək olar: a) geniş coğrafi yayılma; b) təhsil, elm, diplomatiya və texnologiyada institusional dəstək; c) yüksək simvolik və iqtisadi dəyər; ç) mobillik, modernləşmə və qlobal iştirakla əlaqə.

İngilis dili hazırda qlobal linqvistik iyerarxiyada ən yüksək mövqe tutur. Beynəlxalq akademiya, biznes, rəqəmsal kommunikasiya və mədəniyyətə hakimdir. Lakin onun qlobal rolu linqvistik üstünlükdən daha çox, müstəmləkə genişlənməsi, iqtisadi dominantlıq və texnoloji liderlik kimi tarixi proseslərin nəticəsidir. Fransız, ispan, ərəb, rus və Çin kimi digər dillər daha məhdud təsir dairələrinə malik olsalar da, qlobal və ya transregional dillər kimi fəaliyyət göstərir. Onların statusu siyasi gücdən, demoqrafik çəkidən, mədəni istehsaldan və regional inteqrasiyadan asılı olaraq dəyişir.

İyerarxik struktur hansı dillərin ali təhsil, elmi nəşriyyat və qlobal media kimi yüksək nüfuzlu sahələrə çıxış əldə etdiyini, hansılarının özəl və ya yerli istifadə ilə məhdudlaşdığını müəyyən edir. "İngilis dilini lingua franca kimi istifadə edən insanlar dünyada ən böyük qrupu təşkil edir və sayca təkcə ana dili danışanlardan deyil, həm də ingilis dilini ikinci dil kimi istifadə edənlərdən (immiqrantlardan) xeyli çoxdur. İngilis dili danışanların yalnız dörddə birinin ana dilidir, ona görə də ünsiyyət əsasən ana dili olmayanlar arasında baş verir" [9]. "Qloballaşma dövründə ingilis dilinin hökmranlığı bu dilin anası sayılan Böyük Britaniya və A.B.Ş.-ın iqtisadi, siyasi və hərbi vasitələrdən istifadə etməklə həmin dilin qəbul etdirilməsinə gətirib çıxarır ki, bununla da başqa xalqların dillərinə zərbə dəymiş olur. Nəticədə dominant dillərdə danışanlar daha çox dil kapitalından istifadə edir, daha az güclü dillərdə danışanlar isə struktur çatışmazlıqları ilə üzləşirlər" [11].

Qeyd etmək lazımdır ki, bu iyerarxiyalar məktəblər, universitetlər, media və beynəlxalq təşkilatlar kimi qurumlar vasitəsilə qorunur. Məsələn, akademik nəşrlərdə ingilis dilinin dominantlığı digər dillərdə çalışan alimlər üçün sistemli maneələr yaradır və qlobal bilik istehsalına təsir göstərir.

Qloballaşma qlobal dillərin funksional sahələrini genişləndirməklə dil bərabərsizliyini artırır. Çoxdillilik praktikada artsa da, çox vaxt asimmetrik forma alır: qlobal dillər iqtisadi zərurət üçün öyrənilir, yerli və ya azlıq dilləri isə istifadə sahələrini itirir. Bu proses dilin dəyişməsinə, nəsillərarası ötürülmənin azalmasına və nəticədə dilin təhlükə altına düşməsinə səbəb ola bilər. Eyni zamanda, dil iyerarxiyaları statik deyil. Siyasi və demoqrafik dəyişikliklər texnoloji inkişaf dillərin nisbi statusunu dəyişdirə bilər. Məsələn, rəqəmsal platformalar həm qlobal dillərin dominantlığını gücləndirə, həm də marjinal dillərin görünməsi üçün yeni məkanlar təmin edə bilər.

Sosiolinqvistik tədqiqatlar həmçinin qlobal dil iyerarxiyalarına müqavimət formalarını da vurğulayır. Dövlətlər milli dilləri qorumaq, çoxdilli təhsili təşviq etmək və ya yerli və azlıq dillərinin ictimai iştirakını gücləndirmək üçün dil siyasəti həyata keçirə bilər. Fərdi səviyyədə danışanlar kimlik və aktivliyi təsdiqləmək üçün qlobal və yerli linqvistik resursları strateji olaraq birləşdirə bilər. Beləliklə, qloballaşma təkcə dominantlıq deyil, həm də danışıqlara köməklik edir. Dil iyerarxiyaları sosial təcrübə, siyasət və ideologiya vasitəsilə davamlı olaraq təkrarlanır və yenidən qurulur.

Nəticə: Sosiolinqvistikada qloballaşma dil təcrübələrini, iyerarxiyalarını, ideologiyalarını və kimliklərini yenidən formalaşdıran mürəkkəb, çoxölçülü bir proses kimi başa düşülür. Qloballaşma vahid qlobal dilə gətirib çıxarmaq əvəzinə, qlobal və yerli qüvvələrin davamlı olaraq qarşılıqlı təsir göstərdiyi qatlı və mübahisəli dil mənzərələri yaradır. Bu dinamikaya diqqət yetirərək, sosiolinqvistika dilin müasir dünyada sosial dəyişiklikləri necə əks etdirdiyinə və təşkil etdiyinə dair kritik bir fikir verir.

Qloballaşma kontekstində dillər bərabər şərtlərlə dövriyyədə deyildir. Sosiolinqvistika qlobal səviyyədə dillər arasında gücün, prestijin və funksionallığın qeyri-bərabər paylanmasını təsvir

etmək üçün dil iyerarxiyaları anlayışından istifadə edir. Bəzi dillər qlobal status və geniş ünsiyyət əhatəsi qazanır, digərləri isə yerli olaraq məhdud qalır və ya marjinallaşır. Qlobal dillər tarixi güc münasibətləri və müasir qloballaşma ilə formalaşan mürəkkəb dil iyerarxiyaları daxilində imtiyazlı mövqelər tutur. Bu iyerarxiyalar resurslara çıxışa, qlobal ünsiyyətdə iştiraka və dil müxtəlifliyinin yaşamasına təsir göstərir. Buna görə də, sosiolinqvistikada qlobal dilləri anlamaq, dili güc, bərabərsizlik və sosial strukturla əlaqələndirən, eyni zamanda qlobal dil nizamının dinamik və mübahisəli təbiətini qəbul edən kritik bir perspektiv tələb edir.

Ədəbiyyat siyahısı

1. Ağaməmmədova B. Qlobal ingilis dili beynəlxalq birlikdə dil plüralizminin faktoru kimi. İpək yolu, No.4, 2023, səh.98-102
2. Алпатов В.М. Глобализация и развитие языков. URL: http://anti-glob.narod.ru/st/alpatov.htm
3. Кириллова Е. Б. Некоторые языковые и коммуникативные особенности современного общества. - https://rep.polessu.by /bitstream/ 123456789/21730/ 1/Nekotorye_ iazykovye _i_ kommunikativnye_osobennosti.pdf
4. Малахов Е.В. Английский язык как инструмент глобального доминирования. Мир науки. Социология, филология, культурология. Выпуск 4 – 2017. URL статьи: https://sfk-mn.ru/PDF/11SFK417.pdf
5. Ривлина А.А. Глобализация английского языка и формирование массового русско-английского билингвизма. Вестник Череповецкого государственного университета. 2014, No 4, с.104-108.
6. Altbach, P.G., & Knight, J. The internationalization of higher education: Motivations and realities. // Journal of studies in international education, – 2007. No11(3-4), – p.290-305
7. Blommaert, J. The Sociolinguistics of Globalization /J. Blommaert. – Cambridge; N.Y., 2010.
8. https://www.academia.edu/76230102/Qloballaşma_və_onun_dünya_dillərinə_təsiri
9. https://elib.bsu.by/bitstream/123456789/241111/1/Нижнева%20Д.А._АНГЛИЙСКИЙ%20ЯЗЫК%20В%20КОНТЕКСТЕ%20ГЛОБАЛИЗАЦИИ.pdf
10. https://mgimo.ru/upload/iblock/b4d/b4db1c6194977b87261acf9b20ccabab.pdf?utm_source=google.com&utm_medium=organic&utm_campaign=google.com&utm_referrer=google.com
11. www.xalqqazeti.com/ news/ education/ Azərbaycan dili qloballaşan dünyada/ 7 iyun, 2013.

Sevinc Huseynova

The concept of globalization in sosiolinguistics

Summary

The notion of globalization has assumed a pivotal role within the domain of contemporary sociolinguistics, precipitating profound transformations in the patterns of language utilisation, linguistic diversity, and language-related power dynamics. The advent of intensified global mobility, digital communication, and transnational interaction has precipitated a paradigm shift in conventional perceptions of language as a stable, territorially bound system. Consequently, sociolinguistics is increasingly focusing on fluid linguistic practices, multilingual repertoires, and shifting language ideologies. The objective of this study is to examine the phenomenon of globalization from a sociolinguistic perspective and to analyse its impact on language practices, hierarchies, and identities. The research addresses issues such as the rise of global languages, linguistic inequality, and the interaction between global and local linguistic resources. The present study is grounded in the notion that the influence of globalization on education, migration, media, and digital communication is increasing. This phenomenon renders it imperative to comprehend the linguistic consequences of globalization for the purposes of language policy and social cohesion. The novelty of the study lies in its integrative perspective, which conceptualizes globalization as a dynamic, ideologically mediated process shaping language beyond national

boundaries. The present study contributes to a deeper understanding of globalization in sociolinguistics by linking linguistic change to social, political, and technological factors.

Keywords: *globalization, sociolinguistics, national languages, language hierarchy, social group.*

Севиндж Гусейнова

Концепт глобализация в социолингвистике

Резюме

Понятие глобализации заняло ключевое место в современной социолингвистике, вызвав глубокие трансформации в моделях использования языка, языковом многообразии и динамике власти, связанной с языком. Интенсификация глобальной мобильности, цифровой коммуникации и транснационального взаимодействия привела к сдвигу парадигмы в традиционном восприятии языка как стабильной, территориально ограниченной системы. Вследствие этого социолингвистика все больше фокусируется на изменчивых языковых практиках, многоязычных репертуарах и меняющихся языковых идеологиях. Цель данного исследования – изучить феномен глобализации с социолингвистической точки зрения и проанализировать его влияние на языковые практики, иерархии и идентичности. Исследование затрагивает такие вопросы, как рост глобальных языков, языковое неравенство и взаимодействие между глобальными и локальными языковыми ресурсами. Настоящее исследование основано на представлении о том, что влияние глобализации на образование, миграцию, СМИ и цифровую коммуникацию возрастает. Это явление делает крайне важным понимание лингвистических последствий глобализации для целей языковой политики и социальной сплоченности. Новизна исследования заключается в его интегративном подходе, который рассматривает глобализацию как динамичный, идеологически опосредованный процесс, формирующий язык за пределами национальных границ. Настоящее исследование способствует более глубокому пониманию глобализации в социолингвистике, связывая языковые изменения с социальными, политическими и технологическими факторами.

Ключевые слова: *глобализация, социолингвистика, национальные языки, языковая иерархия, социальная группа.*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***dosent G.Hüseynova***
dosent R.Heydərov

UOT-811.11-112
Səhifə: 119-124
https://doi.org/10.59849/2663-8967.2026.1.119

Nərgiz Musayeva
AMEA, Nəsimi adına Dilçilik İnstitutu

EKOLİNQVİSTİKAYA AİD NƏZƏRİ BAXIŞLAR

XÜLASƏ

Məqalədə ekolinqvistika adlanan ən yeni dilçilik paradiqmasının linqvistik mahiyyətinə həsr olunan konsepsiyalardan, nəzəri baxışlardan bəhs edilir. Burada Eynar İnqvald Hayqenin, Maykl Hallideyin, Arran Stibbenin, Edvard Sepirin ekolinqvistika ilə bağlı nəzəri-metodoloji fikirləri analiz olunur. Bu fikirlərdən məlum olur ki, ekoloji reallıqların koqnitiv strukturlarının xüsusiyyətləri və onların verbal ifadə vasitələri, metaforik təqdimetmə spesifikası müəyyənləşdirilməmişdir; terminologiya sisteminin əsas vahidlərinin semantik-koqnitiv təsviri, onların dil vasitəsilə kateqoriyalaşdırılmasında iştirakı və digər məsələlər üzrə də araşdırmalar mövcud deyil. Mövcud ekoloji reallıqlar ekoloji mənzərənin sistemyaradan tərkib hissələri kimi kompleks və çoxaspektli analizə cəlb olunur və müasir koqnitiv dilçilik, ekolinqvistika, diskurs nəzəriyyəsi və digər istiqamətlər baxımından tədqiq edilir. Bu sahənin gələcəkdə inkişaf etdirilməsi yeni elmi paradiqmaların təşəkkülünə yol açır. Müasir linqvistik tədqiqatların hazırkı vəziyyətinin təhlili göstərmişdir ki, onun əsas xüsusiyyəti fənlərarası xarakter daşıması və biliklərin əlaqəli sahələri ilə sıx əməkdaşlıq etməsidir. Müasir elmi araşdırmaların istiqamətinin dəyişməsi yeni elmi sahənin ekolinqvistikanın yaranmasına səbəb olmuşdur. Bu sahənin əsas məqsədi təbiət və dilin mövcudluğunun harmoniyalaşdırılması, balanslaşdırılması ekoloji şüurun formalaşdırılmasıdır.

Açar sözlər: *ekolinqvistika, dilçilik, nəzəri baxış, termin, ekologiya, yeni paradiqma.*

Giriş: Dilçiliyin yeni sahələrindən biri olan ekolinqvistika ekologiya, biologiya və dilçilik (linqvistika) elmlərinin inteqrasiyasına əsaslanır. Belə ki, bu dilçilik sahəsində həm linqvistikanın, həm də ekologiyanın qanunları və konsepsiyaları tətbiq olunur. Bu dilçilik sahəsi yarandığı ilk illərdə daha çox dilin sosiolinqvistik cəhətdən ekologiya kimi yaşadığı problemləri, yəni dil əlaqələrini, dillərin bir-birinə təsiri nəticəsində yaranmış dil pozuntularını araşdırırdı. Sonradan isə ekoloji mətnlər, ekoloji diskurs bu elmin əsas tədqiq sahələrindən birinə çevrildi. Təbiət və insan münasibətləri də ekolinqvistikanın tədqiq sahələrinə aiddir. Əslində, dilçiliyin bu yeni sahəsi dilə bioloji orqanizm kimi baxılması səbəbindən yaranmışdır.

1.Eynar İnqvald Hayqenin ekolinqvistika haqqında görüşləri.

Eynar İnqvald Hayqen 1972-ci ildə yazdığı "Dilin ekologiyası" (The Ekolocy of Language) əsərində ekolinqvistikanın ilkin nəzəri əsaslarından və metodologiyasından bəhs etmişdir [4, s.325]. Eynar İnqvald Hayqen norveç mənşəli Amerika dilçisidir və daha çox sosiolinqvistik konsepsiyaları ilə tanınmışdır. E.İ.Hayqen bu monoqrafiyada dilin ekologiyası problemini Skandinav mühacirlərinin Amerikada yaşadığı zaman onların dillərinə ingilis dilinin təsiri aspektindən şərh etmişdir [4, s.37-59]. O, bu termini daha çox psixolinqvistik və sosiolinqvistik aspektlərdən işlətmişdir. Ancaq bu əsərdə sosiolinqvistik meyil daha güclüdür.

E.İ.Hayqen "Dilin ekologiya" adlı monoqrafiyasında dil və immiqrasiya, mədəni artifaktlar, ikidillilik (bilinqvizm), dilçilik və dil planlaşdırılması, dialekt, dil və millət, milli və beynəlxalq dillər problemlərinə toxunmuşdur [4, s.1-255]. Onun linqvistika tarixində rolu ondan ibarətdir ki, E.İ.Hayqen ekologiya ilə bağlı terminləri dilçiliyə gətirərək multidissiplinar elm sahəsi yaratmağa nail olmuşdur. E.İ.Hayqen dilin çirklənməsinə ekologiyanın çirklənməsi kimi yanaşırdı. Bir sözlə, o, ekoloji problemlər kimi dilin yad təsirlərə məruz qalmasını sosiolinqvistik və psixolinqvistik səbəblərlə yanaşı, ekologiyanın qanunları ilə izah edilməsinə çalışırdı. Məhz bu zərurətdən *dilin ekologiyası* anlayışı və termini yaranmış oldu. Bir sözlə, E.İ.Hayqen dilçiliklə ekologiyanın kombinasiyasından yeni bir elm sahəsi yaratmışdır. Ümumiyyətlə, E.İ.Hayqenin dilçilik baxışları bir

neçə istiqamətdə olmuşdur. O, ilk növbədə, ikidillilik problemini araşdırmışdır və miqrantların (mühacirlərin) dili ilə yerli dillərin çarpazlaşmasının dil əlaqələrinin mühüm elementi kimi səciyyələndirmişdir. Onun linqvistik araşdırmalarında dil planlaşdırılması, Skandinaviya dillərinin quruluşu və tarixi, dil ekologiyası problemləri öyrənilmişdir. E.İ.Hayqenin konsepsiyalarının dilçilik tarixində mühüm əhəmiyyəti ondan ibarətdir ki, o, ilk dəfə olaraq kompleks şəkildə dil və ətraf mühit məsələsini aktuallaşdırdı və bu problemi ekologiya kontekstindən araşdırdı. Beləliklə də, o, dünya dilçiliyində ən innovativ dilçilik paradiqmasının əsasını qoymuş oldu.

O, dillərin interferensiyası problemini şərh edərək bu nəticəyə gəldi ki, dillərin müstəqil şəkildə yaşamı üçün ətraf mühit amili çox mühümdür. E.İ.Hayqen ekstralinqvistik faktorların dildə çox böyük izlər buraxdığını xüsusi vurğulayırdı. E.İ.Hayqen ekolinqvistika terminini multidissiplinar məfhum kimi işlətmişdir. O, dillərin bir-birinə təsiri nəticəsidə yaranan problemləri ekoloji anlayışlar sistemi ilə müqayisə etmiş və həmin problemləri analoji proseslər kimi şərh etmişdir. Məhz o, dilə ilk dəfə ekologiya prinsiplərindən yanaşan dilçi olmuşdur. Onun nəzəri konsepsiyasının əsasında bilinqivizm, yəni ikidillilik məsələsi dayanır. E.İ.Hayqenin fikrincə, dilin ekologiyası bir neçə aspekti ehtiva edir. Bunlardan birincisi, dilin təkamülü və tipoloji inkişafı məsələsidir. Digər bir aspekt isə, ekolinqvistik analizdir. Başqa bir aspekt isə dilin inkişafında sosiolinqvistik amillərin nəzərə alınmasıdır. Yəni bu üç problem dilin ekologiyasını əhatə edərək sistem yaradır. Burada dil planlaması məsələsi də çox önəmlidir. Eyni zamanda dilin ekologiyası məsələsinin şərhində dil siyasəti də mütləq nəzərə alınmalıdır .

E.İ.Hayqenin araşdırmaları ekolinqvistikaya ilk istiqamət verdi. Sonralar onun işlətdiyi ekolinqvistika anlayışı daha geniş anlam qazanmağa başladı. Yəni bu termin yalnız dil müxtəlifliyini, dillərin bir-birinə təsirini deyil, eyni zamanda dillə təbiətin təması, dilin təbiətin qorunmasındakı rolu, ekoloji diskursun linqvistik mahiyyəti məsələlərini də əhatə etmiş oldu. Beləliklə də, ekolinqvistika anlayışı daha geniş bir məfhuma çevrildi.

Onun araşdırmalarında müstəmləkə xalqların dillərinin bir-birinə təsiri, dilə ekoloji cəhətdən yanaşma prinsipləri mühüm amil kimi diqqəti cəlb edir. E.İ.Hayqen dilə bioloji modellərin tətbiqini vacib amil kimi dəyərləndirir. Onun bu yanaşması çox maraqlıdır. O yazır ki, hazırda bioloji model dilçilər arasında geniş qəbul edilmir. Bu model yalnız metaforik xarakter daşıyırdı və dillə bioloji orqanizmlər arasında müəyyən paralellər aparmağa imkan verirdi, lakin bu yanaşmanı həddindən artıq ümumiləşdirmək mümkün deyildi. Sözügedən model əsasında dil haqqında irəli sürülən nəticələr açıq-aşkar yanlışdır: dil nəfəs almır, onu istifadə edən subyektlərdən kənarda müstəqil mövcudluğu yoxdur və bioloji orqanizmlərə xas olan konkret maddi xüsusiyyətlərə malik deyil [6, s.58]. Onun fikrincə, burada dilin ekoloji problemlərinin bütün tərəflərini ətraflı izah etmək mümkün deyil. Ona görə də dillərin öyrənilməsi və istifadəsi ilə bağlı bəzi ümumi prinsipləri qəbul etməliyik. Uşaq həyatının ilk illərində hansı dilə və ya dil variantına məruz qalırsa, onu mənimsəyir. Hər bir uşağın qazandığı dil biliyi digər uşaqlardan fərqlidir. Uşağın passiv dil biliyi aktiv dil biliyindən daha genişdir, yəni özü deyə bilmədiyi söz və ifadələri başa düşə bilir. Yaş artdıqca böyüklərin yeni dilləri öyrənmək qabiliyyəti və ya istəyi müəyyən qədər azalır. Bundan başqa, cəmiyyətlər dillərin öyrənilməsini müxtəlif yollarla məhdudlaşdırır və nəzəri cəhətdən sonsuz ola bilən dil əlaqələrini praktik baxımdan minimum səviyyəyə endirir [6, s.60].

E.İ.Hayqen qeyd edir ki, dil ekologiyasının təhlili yalnız hər bir dilin sosial və psixoloji vəziyyətini təsvir etməklə kifayətlənmir, həm də bu vəziyyətin dilin özünə necə təsir etdiyini araşdırır. Əvvəlcə hazırda hansı dillərin təsir mənbəyi olduğunu göstərmək lazımdır. Bu təsir dillərdə yaranan yeni sözlərdə və köhnə sözlərin əvəzlənməsində aydın görünür. Adətən, bunu müəyyənləşdirmək çətin olmur, çünki bu cür yeniliklər tez-tez müzakirə və mübahisə mövzusuna çevrilir. Daha geniş izah üçün dilin lüğət tərkibinə baxmaq lazımdır. Məsələn, ingilis dilində iki əsas qat var: german mənşəli sözlər və qeyri-german, əsasən Aralıq dənizi mənşəli (fransız, latın, yunan, italyan) sözlər. Tarix boyu müəyyən dövrlərdə nüfuzlu insanlar başqa dilləri öyrənmiş və həmin dilləri nümunə götürərək öz dillərini zənginləşdirmişlər (bəzilərinə görə isə, bu, dili korlamışdır). Eyni proses fin və macar dillərində də müşahidə olunur: bu dillər Qərbi Avropa qonşularından sözlər götürərək hind-Avropa dillərinin təsiri altına düşmüşdür [6, s.63]. Deməli, E.İ.Hayqen eko-

linqvistikaya daha çox dil əlaqələrini, dillərin bir-birinə təsiretmə mexanizmini öyrənən sahə kimi yanaşmışdır.

E.İ.Hayqen dil ekologiyasını düzgün olaraq multidissiplinar bir elm kimi səciyyələndirir. O qeyd edir ki, dil ekologiyası insan ekologiyası ilə bağlı tədqiqatların təbii davamıdır və bu mövzu uzun illərdir psixolinqvistika, etnolinqvistika, linqvistik antropologiya, sosiolinqvistika və dil sosiologiyası sahələrində öyrənilir [4, s.327]. Göründüyü kimi, E.İ. Hayqen dil ekologiyasına kompleks şəkildə yanaşır. Yekun olaraq bu nəticəyə gəlirik ki, E.İ.Hayqenin nəzəri konsepsiyaları sonradan bu sahə ilə bağlı yaranan fikirlər üçün ilkin zəmin yaratmış oldu. O, dil siyasətinin və dil planlamasının düzgün təşkilinin ekolinqvistika üçün mühüm əhəmiyyət kəsb etdiyini təsbit etmişdir. Onun fikirləri sübut edir ki, dilə hər hansı bir müdaxilə dil sistemində ekoloji tarazlığı poza bilər. O, düzgün olaraq dilə böyük bir ekosistem kimi yanaşırdı. Dilin ekosisteminin korlanması onun məhvinə gətirib çıxarda bilər. E.İ.Hayqen bu nəticəyə gəlir ki, dil qapalı deyil, açıq sistemdir. Buna görə də dilə müdaxilə hər zaman təhlükəli ola bilər. Bu amili də dil siyasətində nəzərə almaq lazımdır. Başqa bir tərəfdən, dilə analoji olaraq ekosistem kimi yanaşan E.İ.Hayqen bu qənaətə gəlir ki, ekosistemlər yox olduğu kimi, dillər də canlıdır, onların da yoxolma təhlükəsi var.

2.Arran Stibbenin ekolinqvistik konsepsiyası.

Dünya dilçiliyində ekolinqvistika ilə bağlı nəzəri müddəaların müəlliflərindən biri də Arran Stibbedir. Arran Stibbenin digər ekolinqvistlərdən əsas fərqi odur ki, onun baxışlarında daha çox dilin təbiətə münasibəti necə qurulmalıdır məsələsinə aydınlıq gətirilir. 2015-ci ildə Arran Stibbe tərəfindən yazılan "Ekolinqvistika: Dil, ekologiya və biz yaşadığımız hekayələr" adlı monoqrafiyada dilin insanlarda təbiətə münasibət haqqında təfəkkürü necə formalaşdırması təhlil olunur. O, həmin əsərində göstərir ki, dil həm də ekosistemlərə münasibət ifadə edir. Ekolinqvistika ilə bağlı araşdırmaların ümumi nəticəsi bundan ibarətdir ki, məhz dil cəmiyyətdə ekoloji davranışların təşəkkülünə mühüm təsir edə bilir. A.Stibbe ekomədəniyyəti və ekoetikanı təbliğ edirdi. Əslində, bu konsepsiya çox düzgündür. Çünki bədii diskursda, media diskursunda, həmçinin akademik diskursda təbiəti qorumaq haqqında olan çağırışlar, ekoloji məzmunlu təşviqlər istər-istəməz insanların şüurunda ekologiyaya həssas yanaşmaq hissini formalaşdırır, sivilizasiyanı gələcək təhlükələrdən qoruyur. Yəni insanlarda ekoloji şüurun formalaşdırılması, təbiətin qorunması konsepsiyası məhz linqvistik vasitələrlə reallaşdırılır.

Arran Stibbe bu qənaətə gəlir ki, bu cür ekodilçilik təhlilinin nəticələri, təbii ki, istifadə olunan ekofəlsəfənin etibarlılığından, tətbiq edilən dilçilik alətlərinin uyğunluğundan və məlumatların təmsilediciliyindən asılı olacaqdır. Bu yanaşmanın insanların və digər növlərin gələcəkdə sağ qalması və rifahı üçün zəruri olan sosial dəyişikliklərə töhfə vermək qabiliyyəti barədə qəti iddialar irəli sürmək mümkün deyil. Lakin iddia edilə bilən odur ki, ekodilçiliyin bu forması ən azı insanları həyatı dəstəkləyən daha geniş sistemlərin daxilində ekoloji baxımdan yerləşmiş varlıqlar kimi nəzərə alır və məhz bu səbəbdən, bu yerləşməni nəzərə almayan təhlillərlə müqayisədə ekoloji məsələləri daha yaxşı şəkildə araşdırmaq imkanına malikdir [5, s.184]. Bir sözlə, Arran Stibbe ekolinqvistikaya ekofəlsəfə aspektindən yanaşır.

3.Edvard Sepirin ekolinqvistik mahiyyətli mülahizələri.

Edvard Sepir "Dil və mühit" adlı yazısında dil daşıyıcılarının leksik fonduna onları əhatə edən təbii mühitin necə təsir etməsi məsələsinə aydınlıq gətirmişdir. Belə ki, E.Sepir dil və mühit probleminə praqmatik şəkildə yanaşır və qeyd edir ki, dil simvollar sistemi olduğundan ətrafdakı fiziki və sosial hadisələri əks etdirir və buna görə də ətraf mühit anlayışına həm fiziki, həm də sosial faktorları şamil etmək olar. Fiziki mühit anlayışına, ilk növbədə, coğrafi xüsusiyyətləri, məsələn, ölkənin topoqrafiyasını (su sahillərini, dərələri, düzləri, yayla və dağlıq əraziləri), iqlimi, insanların təsərrüfat fəaliyyətini əhatə edən flora və faunanı, mineral resursları aid etmək olar. Sosial mühit anlayışına isə hər bir fərdin həyat tərzini və təfəkküründü formalaşdıran müxtəlif ictimai faktorlar aiddir [5, s.271]. Əslində, E.Sepir dil və mühit deyərkən özünün də şərh etdiyi kimi, dil və təbiət münasibətlərini analiz etmişdir. E.Sepir bu qənaətə gəlir ki, dil daşıyıcılarını əhatə edən təbii mühit onların leksik fonduna ciddi təsir edir. Yəni iqlim, flora, fauna ilə bağlı anlayış və leksemlər dil daşıyıcılarını əhatə edən təbii mühitlə sıx bağlıdır. Onların dilinin təşəkkülünə, xüsusilə etnosun leksikonunun formalaşmasına məhz bu amillər çox ciddi təsir edə bilir. E.Sepir söz ehti-

yatı zəngin olan (ingilis, fransız dilləri kimi) dillərlə söz ehtiyatı zəif olan dilləri müqayisə edir və bu nəticəyə gəlir ki, mühit amili dilin leksik fondunun təşəkkülündə mühüm rol oynayır. Beləliklə də, E.Sepir dil və ətraf mühit əlaqələrinin linqvistik izahını vermişdir. Həmin izahda dil və təbiət münasibətləri ümumu mühit aspektindən dəyərləndirilmişdir. Təsadüfi deyil ki, Alvin Fill Edvard Sepiri ekolinqvistikanın ilk nümayəndəsi adlandırır [6, s.2]. Əslində, dünya dilçiliyində geniş yayılmış Sepir-Uorf nəzəriyyəsi dilin təfəkkürə təsirini ifadə edən bir konsepsiyadır. Bu nəzəriyyəyə əsasən, düşüncəni formalaşdıran dildir.

4.Maykl Hallideyin ekolinqvistik görüşləri.

Funksional və semiotik dilçilik sahəsində özünəməxsus konsepsiyaları ilə tanınan ingilis alimi Maykl Hallidayın 1978-ci ildə nəşr olunan "Dil və sosial semiotika" əsərində ekolinqvistik fikirlər də irəli sürülmüşdür. Həmin əsərdə o, dilə bütöv bir sosial semiotik sistem kimi yanaşır. M.Hallidayın ekolinqvistika haqqında fikirləri daha çox sosiolinqvistik prinsiplərə əsaslanır. O yazır ki, ətraf mühit həm fiziki, həm də sosial olur və insanların rifahı ətraf mühitlə harmoniyada olmağa bağlıdır. Yəni yaxşı yaşamaq həm fiziki, həm də sosial uyğunluq tələb edir. Ətraf mühitlə bağlı tədqiqatlar məhz bu rifah halının təbiətini öyrənir. On il əvvəl 'erqonomika' ilə tanış olduq – insanların işlədiyi mühiti öyrənən və ona nəzarət edən sahə. Çoxları London Transport-un reklamını xatırlayar: "Avtobus sürücüsü nə qədər böyükdür?"- bu şüar yeni avtobusların "erqonomik prinsiplərə" uyğun dizayn edildiyini bildirirdi. O dövr üçün ətraf mühit anlayışı belə idi. Bu gün isə rifahın sosial tərəflərinə daha çox diqqət yetirilir. Heç kim avtobus sürücüsünün oturacağının önəmsiz olduğunu deməz, amma bu artıq tam hekayə deyil. Ətraf mühitin dizaynında başqa aspektlər də ən azı bu qədər önəmlidir və onları tənzimləmək daha çətindir. Məsələn, çirklənmə problemi – zibil, havanın və suyun çirklənməsi – fiziki çirklənmənin ən təhlükəli formaları belə, sosial mühitdə yaranan problemlər qədər idarə olunması çətin deyil [3, s.9]. O, dilin çirklənməsi prosesinə adekvat olaraq ekoloji çirklənmə kimi yanaşırdı.

M.Hallidey ekoloji çirklənməni sosial fenomen kimi izah edir. Onun fikrincə, məsələn, çirklənmə problemini götürək – bu, ətraf mühit dizaynının müdafiəçi tərəfidir. Zibil yığılması, havanın və suyun çirklənməsi, hətta fiziki çirklənmənin ən ölümcül formaları belə, sosial mühitdə yaranan çirklənmə qədər mürəkkəb deyil. Sosial mühitdəki çirklənməyə isə irq, mədəniyyət və sinif fərqliliyi üzündən yaranan mühakimə və düşmənçilik səbəb olur. Bu problemləri "mühəndislik üsulları ilə" həll etmək mümkün deyil. Bu sahədə ortaya çıxmış "sosial mühəndislik" anlayışı xüsusilə təhlükəlidir. Təhlükə yalnız insanların pis niyyətlə manipulyasiya olunması ilə bağlı deyil – insanlar buna qarşı diqqətlidirlər – əsas təhlükə ondan ibarətdir ki, sosial mühitin fiziki mühit kimi, söküntü və tikinti üsulları ilə formalaşdırıla biləcəyinə inanılır, sadəcə, kifayət qədər böyük və mürəkkəb planlar və maşınlar olsa kifayətdir.

Belə düşüncənin bəzi mənfi nəticələri zaman-zaman dil və təhsil sahəsində özünü göstərmişdir. Lakin sosial rifah bu üsullarla tərif edilə bilməz və əldə edilə bilməz.

Əsas məqamlar:

1. Sosial çirklənmə – irq, mədəniyyət və sinif fərqliliklərindən yaranan düşmənçilik – fiziki çirklənmədən daha çətindir.
2. Sosial mühəndislik – cəmiyyəti fiziki mühit kimi "tikib - sökmək" cəhdi – təhlükəlidir və uğursuzluq doğurur.

Sosial rifah yalnız texniki və fiziki üsullarla əldə edilə bilməz; bunun üçün insan münasibətlərinə və sosial harmoniyaya diqqət ayırmaq lazımdır [3, s.9].

Maykl Hallideyin ekolinqvistika ilə bağlı fikirlərinin tənqidi analizi göstərir ki, ekoloji fəlakətlərin başlıca səbəbi dildir. Əlbəttə, bu fikir o qədər də inandırıcı səslənmir. Əgər E.İ.Hayqen dillə cəmiyyəti vahid bir ekosistem kimi qəbul edirdisə, M.Hallidey dilin ideoloji gücünün təbiətə düzgün münasibət formalaşdırdığını bildirirdi. A. Stibbe isə ekofəlsəfənin mahiyyətini izah edirdi. E. Sepir isə mühit deyərkən, təbiətin dilə təsirini daha çox vurğulayırdı.

Nəticə: Beləliklə də, ekolinqvistikaya aid nəzəri fikirləri nəzərdən keçirdik. Müxtəlif alimlərin bu sahədə irəli sürdükləri elmi-nəzəri konsepsiyalar sübut edir ki, bu sahənin gələcəkdə inkişaf etdirilməsinə, bu sahədə yeni nəzəriyyələrin yaradılmasına böyük zərurət var.

Ədəbiyyat siyahısı

1. Нечипоренко, В.Ф. Лингвофилософские основы эколингвистики. Калуга: КГПУ, 2008. 210 с.
2. Сепир, Э. Избранные труды по языкознанию и культурологии / Сепир, Э. Москва: Прогресс, 1993. 656 с.
3. Halliday, M.A.K. Language and social Semiotic. New York: University Park Press, 1978. 265 p.
4. Haugen, E. The ecology of language. Standford: Standford University Press, 1972. 366 p.
5. Stibbe, A. Ecolinguistics. Language, ecology and the stories we live by. London and New York: By Taylor and Francis Books, 2015.
6. The Ecolinguistics Reader. Language, Ecology and Environment / Edited by Alwin Fill and Peter Mühlhausler. London and New York, Continuum, 2001. 296 p.

Nargiz Musayeva

Theoretical views on ecolinguistics

Summary

The article discusses the concepts and theoretical views devoted to the linguistic essence of the newest linguistic paradigm, called ecolinguistics. It analyzes the theoretical and methodological opinions of Einar Inchwald Hayenin, Michael Hallide, Arran Stibbenin, Edward Sepire on ecolinguistics. It is from these ideas that the characteristics of cognitive structures of ecological realities and their verbal means of expression and specificity of metaphorical presentation have not been determined; research is also not available on the semantic-cognitive description of the basic units of the terminology system, their participation in categorization through language, and other issues. Current ecological realities involve complex and multidisciplinary analysis as components of the ecological landscape from systematic to multidisciplinary, and are explored in terms of contemporary cognitive linguistics, ecolinguistics, discourse theory, and other areas. The development of this field in the future paves the way for the development of new scientific paradigms. An analysis of the current state of modern linguistic studies has shown that its main characteristic is its interdisciplinary nature and its close cooperation with related fields of knowledge. The change in the direction of modern scientific research has led to the emergence of a new scientific field — ecolinguistics. The main goal of this field is the formation of ecological consciousness, harmonizing and balancing the existence of nature and language.

Keywords: *ecolinguistics, linguistics, theoretical review, term, ecology, new paradigm.*

Наргиз Мусаева

Теоретические взгляды на эколингвистику

Резюме

В статье рассматриваются понятия и теоретические взгляды, посвященные лингвистической сущности новейшей лингвистической парадигмы, получившей название эколингвистики. Анализируются теоретико-методологические мнения Эйнара Инчвальда Хайенина, Майкла Халлиде, Аррана Стиббена, Эдварда Сепире по эколингвистике. Именно из этих представлений не определены характеристики когнитивных структур экологических реалий и их словесных средств выражения и специфика метафорического представления; также отсутствуют исследования по семантико-когнитивному описанию основных единиц терминологической системы, их участию в категоризации через язык и другим вопросам. Современные экологические реалии включают комплексный и междисциплинарный анализ как компоненты экологического ландшафта от систематического до междисциплинарного и исследуются с точки зрения современной когнитивной лингвистики, эколингвистики, теории дискурса и других областей. Развитие этой области в будущем открывает путь для разработки новых научных парадигм. Анализ

современного состояния современных лингвистических исследований показал, что его основной характеристикой является его междисциплинарный характер и тесное взаимодействие со смежными областями знаний. Изменение направления современных научных исследований привело к появлению нового научного направления — эколингвистики. Основной целью данного направления является формирование экологического сознания, гармонизация и уравновешивание существования природы и языка.

Ключевые слова: *эколингвистика, лингвистика, теоретический обзор, термин, экология, новая парадигма.*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***fil.e.d.,dos. A.Məşədiyeva***
fil.e.d.,dos. B.Məhərrəmli

UOT-811.11-112
Səhifə: 125-129
https://doi.org/10.59849/2663-8967.2026.1.125

Fəqanə Əhmədova
AMEA Nəsimi adına Dilçilik İnstitutu

KONSEPTUALLAŞDIRMA TƏCRÜBƏSİNİN VAHİDİ KİMİ CÜMLƏ

XÜLASƏ

Bu məqalədə koqnitiv dilçilik çərçivəsində konseptuallaşdırma təcrübəsinin əsas vahidi kimi cümlə araşdırılır. Müasir linqvistik tədqiqatlar getdikcə antroposentrik paradiqmaya diqqət yetirir, bu da dilin yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də reallığın idrakı və təfsiri üçün bir vasitə kimi başa düşülməsinə səbəb olur. Bu kontekstdə cümlənin insanların hadisələri, halları və münasibətləri necə başa düşdüyünü əks etdirən koqnitiv modellərin təmsil forması kimi öyrənilməsi xüsusilə vacibdir. Bu tədqiqatın aktuallığı cümlənin formal sintaktik təsvirindən onun konseptual və semantik məzmununun təhlilinə keçmək zərurətindən irəli gəlir. Cümlə danışanın qavrayış, zehni və mədəni təcrübəsinin qarşılıqlı təsirinin nəticəsi kimi qəbul edilir və bu da onun sintaktik təşkilatının əsas koqnitiv əsaslarını müəyyən etməyə imkan verir. Məqalənin məqsədi cümlənin koqnitiv təbiətini və insan təcrübəsinin konseptuallaşdırılmasındakı rolunu müəyyən etməkdir. Bu tədqiqatın elmi yeniliyi cümlənin vahid konseptual mənzərəni təmsil edən koqnitiv vahid kimi hərtərəfli araşdırılmasındadır. Bu, cümlənin koqnitiv parametrlərini təcrübənin konseptuallaşdırılmasının vahid modeli daxilində sistemləşdirmək üçün atılan addımdır. Bu tədqiqatın nəticələri koqnitiv dilçilik, nəzəri qrammatika və mədəni dilçilik kurslarında istifadə edilə bilər.

Açar sözlər: *cümlə, koqnitiv dilçilik, konseptuallaşma, dil, gerçəklik*

Giriş: Müasir humanitar elmlərdə fənlərarası bir sahə olan koqnitiv dilçilik dili yalnız işarələrin formal sistemi kimi deyil, həm də insan təcrübəsini təmsil etmək, strukturlaşdırmaq və şərh etmək vasitəsi kimi nəzərdən keçirir. Koqnitiv dilçiliyin bir elm kimi meydana çıxdığı andan etibarən, insanların reallığı necə qavradığını və dünya haqqında bilik sistemini formalaşdırdığını öyrənən psixologiya ilə sıx əlaqəsi vurğulanmışdır [4]. Məlumat və məna, idrak və şərh [1], sözlərin konseptual və denotativ mənaları, semantika və praqmatika [5], düşüncə prosesləri ilə dil vahidlərinin mənaları [3] arasında birbaşa əlaqə müəyyən edilmişdir. Bu sahənin əsas konsepsiyası konseptuallaşdırmadır. Bu anlayışda dil sadəcə məlumat ötürmək üçün bir vasitə deyil, həm də dünyanın idrakı, təsnifatı və modelləşdirilməsi üçün vacib bir mexanizmdir. "Konseptuallaşma prosesi təbiətcə iyerarxikdir, yəni yeni qazanılmış təcrübəyə əsaslanaraq şüurda ortaya çıxan hər bir yeni konsepsiya əvvəllər formalaşmış konsepsiyalara əsaslanır və fərdi idrak sisteminin müəyyən bir strukturuna inteqrasiya olunur" [6, 182]. Konseptuallaşma fenomeni dörd aspekt (əlaqə) ilə təsvir edilə bilər: 1) struktur (fərdi konseptual təcrübənin vahidləri kimi konseptual strukturlar); 2) funksional ("yuva qurma" prinsipinə uyğun olaraq təşkil edilən konseptual - semantik, kateqoriyalı, konseptual - qabiliyyətlərin inkişaf səviyyəsi; 3) prosedur (konseptuallaşma prosedurları); 4) nəticəli (baş verənlərin konseptual modeli). Ümumiyyətlə, konseptuallaşma "yeni varlıqların embrionunu" kəşf etməyi və "yeni varlıq növlərinin yaradılması" üçün resurs kimi "layihələr" qurmağı hədəfləyir [7, s.65].

Koqnitiv dilçilikdə konseptuallaşmanın öyrənilməsi insanların duyğu və sosial təcrübəni sabit anlayışlara, çərçivələrə, ssenarilərə və məcazi sxemlərə necə çevirdiyini və sonra bunların linqvistik şəkildə ifadə olunduğunu ortaya qoyur. Bu yanaşma çərçivəsində cümlə idrak səhnəsinin təmsil olunduğu vahid və beləliklə, konseptuallaşmanın linqvistik təcəssümü forması kimi qəbul edilir.

"Konseptuallaşma" termini insanın ətraf aləmi şərh etdiyi, əhəmiyyətli elementləri müəyyən etdiyi, aralarında əlaqələr qurduğu və vəziyyətin ardıcıl mənzərəsini formalaşdırdığı mürəkkəb zehni prosesi təsvir etmək üçün istifadə olunur. Konseptuallaşma "insan beynində onu əhatə edən

dünyanın, sonuncuda mövcud olan obyektlərin, hərəkətlərin, vəziyyətlərin, əlaqələrin və onlar arasında münasibətlərin əks olunması" prosesi kimi şərh olunur [2, s.35]. Koqnitiv dilçilikdə konseptuallaşma qavrayış, mədəni, sosial və fərdi təcrübəyə əsaslanan dinamik bir proses kimi başa düşülür.

R.Lanqakerə görə, konseptuallaşma qavrayış, təxəyyül, duyğu və düşüncə də daxil olmaqla istənilən zehni təcrübədir və linqvistik mənanın əsasını təşkil edir. Bu zaman linqvistik vahidin mənası muxtar və özünü təmin edən deyil, reallığı konseptuallaşdırmanın müəyyən bir yolunu əks etdirir. C.Lakof insan təfəkküründün mahiyyətcə metaforik olduğunu və buna görə də konseptuallaşmanın biliklərin bir təcrübə sahəsindən digərinə ötürülməsinə əsaslandığını vurğulayır. Bu, mücərrəd anlayışların konkret obrazlar vasitəsilə anlaşılması yollarını müəyyən edən konseptual metaforaların formalaşmasına gətirib çıxarır. L.Talmi konseptuallaşmaya hadisələrin idrak modelləşdirilməsi prosesi kimi baxır, bu prosesdə hərəkət, məkan, qüvvə, səbəbiyyət və təsir kimi parametrlər fərqləndirir. Onun fikrincə, dil obyektiv reallığı deyil, subyektiv şəkildə şərh olunan idrak səhnəsini kodlaşdırır. Beləliklə, koqnitiv dilçilikdə konseptuallaşma düşüncənin fundamental mexanizmi kimi başa düşülür və hissi qavrayışdan mücərrəd qavrayışa keçidi təmin edir. Koqnitiv dilçiliyin əsas prinsiplərindən biri dilin reallığın özünü deyil, insanların onu necə qavradığını əks etdirməsi tezisidir. Dil sistemi konseptuallaşmanın nəticələrini əks etdirir və beləliklə, mədəni cəhətdən şərtləndirilmiş dünyagörüşü modelləri onun daxilində möhkəmlənir. R. Lanqaker iddia edir ki, dil insanın ümumi idrak qabiliyyətinin bir hissəsidir və digər idrak formaları ilə eyni prinsiplərə tabedir. Qrammatik strukturlar, leksik mənalar və sintaktik nümunələr kateqoriyalaşdırma, sxemləşdirmə və perspektivləşdirmə kimi idrak əməliyyatlarının əks olunması kimi qəbul edilir.

Linqvistik vahidlər sadəcə obyektləri və hadisələri adlandırmır; onlar danışanın zehnində müəyyən konseptual strukturları - çərçivələri, ssenariləri və prototipləri aktivləşdirirlər. Məsələn, "səyahət" sözü bir sıra, məsələn, yol, məqsəd, maneələr, hərəkət, dəyişiklik kimi assosiasiyalar zəncirini oyadır. Bu elementlər daha sonra cümlə və ya mətndə inkişaf etdirilə bilən idrak modelini təşkil edir. Bu zaman dil reallığın güzgüsü kimi deyil, insanın təcrübəni təşkil etdiyi və şərh etdiyi idrak vasitəsi kimi çıxış edir.

Koqnitiv dilçilik çərçivəsində cümlə yalnız formal-sintaktik vahid kimi deyil, əsasən hadisələri və vəziyyətləri konseptual şəkildə təmsil etmək vasitəsi kimi qəbul edilir. Dilçilik obyektiv reallığı əks etdirmir, əksinə, danışanın zehnində formalaşmış bir hadisənin subyektiv olaraq başa düşülən idrak modelini əks etdirir. Bu kontekstdə cümlə hadisə modelinin linqvistik təsvir forması kimi çıxış edir, iştirakçıları, hərəkətləri, məkan-zaman parametrlərini və səbəb-nəticə əlaqələrini strukturlaşdırır. Koqnitiv kateqoriya kimi hadisə dinamikanı, iştirakçıları, onların rollarını, hərəkətin istiqamətini və nəticəsini əhatə edən vahid zehni konstruksiyadır. Dil bu parametrləri kodlaşdırmaq üçün vasitələr sistemi təmin edir və cümlə onların şifahi şəkildə ifadə olunduğu əsas sintaktik formadır.

Koqnitiv dilçilikdə hadisələr insan təcrübəsinin fundamental forması hesab olunur. İnsanlar dünyanı təcrid olunmuş obyektlər kimi deyil, obyektlərin qarşılıqlı təsir göstərdiyi, dəyişdiyi və bir vəziyyətdən digərinə keçdiyi hadisələr axını kimi qəbul edirlər. "Fərqli insanlar eyni hadisəni və ya vəziyyəti təsvir etdikdə, çox güman ki, onu təsvir etmək üçün fərqli sözlərdən istifadə edirlər, çünki səhnənin müxtəlif aspektlərini vacib və ya maraqlı hesab edə bilərlər. Natiqin istifadə etdiyi sözlər, səhnənin hansı aspektlərinin danışma anında ən uyğun, əlaqəli və ya təsirli olduğunu göstərir" [10, s.17]. Hadisə reallığın dinamik təbiətini əks etdirən əsas idrak kateqoriyasıdır. Hadisə modeli: a) hadisənin iştirakçıları (agent, xəstə, ünvanlanan və s.); b) hərəkət və ya vəziyyət; c) zamanın lokallaşması; ç) məkan parametrləri; d) səbəb-nəticə əlaqələri kimi komponentləri əhatə edir. Bu elementlər danışan tərəfindən konsepsiyalaşdırılan və sonra cümlədə təmsil olunan idrak səhnəsini təşkil edir. Beləliklə, cümlə bir hadisənin zehni modelinin tutulduğu linqvistik formadır.

Hadisə modelinin mərkəzi elementi təklifdir, yəni iştirakçılar və predikat arasındakı əlaqəni əks etdirən mücərrəd struktur. Təklif cümlənin idrak çərçivəsini təmsil edir və deyim məzmununu təşkil edir. Məsələn, "Oğlan qapını açdı" cümləsində təklif agent, hərəkət və hədəfi əhatə edir. Lakin idrak səhnəsi yalnız bu elementlərlə məhdudlaşmır. O, əlavə: agentin niyyəti, hərəkət tərzi, məqsədi, emosional qiymətləndirməsi və kontekstual şərtlər kimi parametrləri əhatə edə bilər.

Bütün bu komponentlər cümlədə müxtəlif sintaktik və leksik vasitələrdən istifadə etməklə ifadə edilə bilər. Təklif strukturu hadisə modelinin əsasını təşkil edir və onun ətrafında daha mürəkkəb idrak təmsilçiliyi təşkil olunur.

Xüsusi təyinatından asılı olmayaraq, cümlənin əsas strukturuna ənənəvi olaraq riyazi məntiq baxımından predikat və bir sıra arqumentlərdən ibarət təklif kimi baxılır. Cümlənin verbosentrik konsepsiyasında predikat təklifin müəyyənedici elementi, cümlənin struktur-semantik mərkəzi kimi tanınır və müəyyən arqumentlər əlavə etməklə cümlə ilə təyin olunmuş vəziyyətin strukturunu ifadə edə bilir. Arqumentlər və predikat arasındakı semantik əlaqələr agent, xəstə, alət və s. kimi "dərin hallar" baxımından təmsil olunur. Predikat və arqumentlər ekstralinqvistik (denotativ) vəziyyətin iştirakçıları və onları birləşdirən əlaqə ilə əlaqəli olan (və sintaktik strukturun elementləri - aktantlar ilə ifadə olunan) semantik səviyyənin elementləri kimi baxılır. Başqa sözlə, təklif "qeyri-linqvistik formasiyanın linqvistik analoqu, çərçivə" kimi qəbul edilir.

Hadisə modelini təmsil etməyin vacib bir aspekti iştirakçıların və onların rollarının profilləşdirilməsidir. Koqnitiv dilçilikdə agent, pasient, alət, adresat, mənbə, hədəf və digər konseptual rollar fərqləndirilir. Bu rollar obyektlərin hadisədə funksional iştirakını əks etdirir. İngilis dilində subyektlər məcburi elementlərdir və sərbəst şəkildə buraxıla bilməz [8]. Cümlədə qrammatik subyekt və obyektin seçimi təsadüfi deyil, müəyyən bir idrak səhnəsində hansı iştirakçının ən əhəmiyyətli kimi profilləndirilməsi ilə müəyyən edilir. Məsələn, "Müəllim mövzunu şagirdlərə izah etdi", "Şagirdlərə mövzu izah edildi" profilləşdirmə agentdən adresata keçir və eyni vəziyyəti konsepsiyalaşdırmanın müxtəlif yollarını əks etdirir. Cümlənin sintaktik quruluşu danışanın hadisənin hansı elementlərinin mərkəzi hesab edilməsi ilə bağlı idrak seçimlərini əks etdirir.

Hadisə modeli statik və ya dinamik kimi təmsil oluna bilər. Statik modellər vəziyyətləri və münasibətləri, dinamik modellər isə prosesləri, hərəkətləri və dəyişiklikləri əks etdirir. Feilin aspekt xüsusiyyətləri hadisənin dinamikasını təmsil etməkdə əsas rol oynayır. Aşağıdakı cümlələrə nəzər salaq:

- "O, kitabı oxudu" – hadisə bitmiş kimi təsəvvür edilir.
- "O, kitabı oxuyur" – proses zamanla davam edən kimi təqdim olunur.
- "O, kitabı yenidən oxuyur" – proses təkrarlığı vurğulanır.

Qrammatik aspekt hadisə dinamikasını modelləşdirmək üçün idrak vasitəsi kimi çıxış edir. Hər bir hadisə modeli zaman və məkanda müəyyən bir lokalizasiyanı nəzərdə tutur. Cümlədə bu parametrlər zərflər, önlüklər, hal formaları və feil zamanları ilə ifadə edilə bilər. Zaman perspektivi bizə bir hadisəni nitq anı ilə əlaqələndirməyə və onun digər hadisələrlə əlaqəli ardıcıllığını müəyyən etməyə imkan verir.

Məkan lokallaşması idrak səhnəsinin koordinatlarını müəyyən edir və hərəkətin yerini anlamağı formalaşdırır. Məsələn, a) "Uşaqlar dünən parkda futbol oynadılar"; b) "Qatar bir saatdan sonra stansiyaya çatacaq". Bu cümlələr sadəcə faktları ifadə etmir, hadisələri müəyyən bir zaman-məkan çərçivəsində modelləşdirir.

Nəticə: Tədqiqat bizə cümləni yalnız dilin formal qrammatik vahidi kimi deyil, həm də insan təcrübəsinin konsepsiyalaşdırılmasının əsas forması kimi nəzərdən keçirməyə imkan verir. Koqnitiv dilçilik çərçivəsində cümlə insanların ətrafdakı reallıqdakı hadisələri, vəziyyətləri və münasibətləri anladıqları zehni modelləri təmsil etmək vasitəsi kimi qəbul edilir. Dil strukturu, reallığın subyektiv təfsirini əks etdirən kateqoriyalaşdırma, profilləşdirmə və perspektivləşdirmə kimi idrak əməliyyatlarının nəticələrini əks etdirir.

Təhlil göstərir ki, cümlə iştirakçıları, onların konseptual rollarını, hərəkətin dinamikasını, məkan-zaman koordinatlarını, səbəb-nəticə əlaqələrini və nəticəni də əhatə edən bir hadisə səhnəsini modelləşdirir. Sintaktik strukturun, qrammatik formaların və leksik resursların seçimi yalnız dil normaları ilə deyil, həm də danışanın idrak münasibəti, onların ünsiyyət niyyətləri və diskursiv konteksti ilə müəyyən edilir. Beləliklə, cümlə vahid idrak konstruksiyasının linqvistik təcəssümü kimi çıxış edir.

Konsepsiyalaşdırmanın subyektiv təbiəti anlayışı vacibdir, buna əsasən eyni vəziyyət danışanın perspektivindən, qiymətləndirməsindən və diqqət mərkəzindən asılı olaraq müxtəlif sintaktik modellərdə təmsil oluna bilər. Bu, koqnitiv dilçiliyin antroposentrik fokusunu təsdiqləyir və

linqvistik mənanın şərhi təbiətini vurğulayır. Təhlil nəticəsində aydın olur ki, cümlə təkcə kommunikativ deyil, həm də idraki funksiyaya xidmət edir, təcrübənin strukturlaşdırılması və şərhi üçün bir vasitə kimi xidmət edir. Cümləni konsepsiya vahidi kimi nəzərdən keçirmək sintaksis, semantika və praqmatikanın qarşılıqlı əlaqələrində öyrənilməsi üçün yeni perspektivlər açır və dilin idrak və dünyanı modelləşdirmək mexanizmi kimi vahid bir anlayışının formalaşmasına töhfə verir.

Ədəbiyyat siyahısı

1. Демьянков В. З. Когнитивная лингвистика как разновидность интерпретирующего подхода // Вопросы языкознания. 1994, № 4, с. 17-33.
2. Залевская А. А. Психолингвистические исследования. Слово. Текст: Избранные труды. М.: Гнозис, 2005.
3. Кибрик А. Е. Лингвистическая реконструкция когнитивной структуры // Вопросы языкознания. 2008, № 4, с. 51-77.
4. Кубрякова Е. С. Начальные этапы становления когнитивизма: лингвистика – психология – когнитивная наука // Вопросы языкознания. 1994, № 4, с. 34-47.
5. Селиверстова О. Н. Когнитивная семантика на фоне общего развития лингвистической науки // Вопросы языкознания. 2002, № 6, с. 12-26.
6. Филясова Ю.А. Концептуализация и категория концепта в когнитивной теории Р. Лангакера и Л. Талми: интеграция когнитивных и языковых структур. Теоретическая и прикладная лингвистика, 2024, 10 (2), с.173-190.
7. Эпштейн М.Н. Знак пробела: о будущем гуманитарных наук. М.: Новое литературное обозрение, 2004.
8. Ando S, Ono T, Seisei Bumpo Yogo Jiten. Generative grammar terminological dictionary. Tokyo, Japan: Taishuukanshyoten, 1993.
9. Neuman, W. L., Robson, K. Basics of social research, qualitative and quantitative. 2012.
10. Verspoor M.H., Kassenberg T., Keijzer M., Gregory J. English Sentence Constructions. John Benjamins Publishing Company Amsterdam/Philadelphia, 2022.

Fagana Akhmadova

Sentence as a unit of conceptualization experience

Summary

The article examines the sentence as the fundamental unit of conceptualization experience within the framework of cognitive linguistics. Contemporary linguistic research is increasingly centered on the anthropocentric paradigm, leading to the conception of language not only as a medium of communication, but also as a means of cognition and interpretation of reality. In this context, it is imperative to examine the sentence as a manifestation of cognitive models that reflect how individuals comprehend phenomena, situations and relationships. The necessity for this research is predicated on the imperative to transition from the formal syntactic description of the sentence to the analysis of its conceptual and semantic content. The sentence is regarded as the result of the interaction of the speaker's perceptual, mental and cultural experience, which allows us to identify the main cognitive foundations of its syntactic organization. The objective of the present article is twofold: firstly, to ascertain the cognitive nature of the sentence; and secondly, to determine its role in the conceptualization of human experience. The scientific novelty of this research lies in the comprehensive study of the sentence as a cognitive unit representing a single conceptual picture. This constitutes a progression towards the systematization of the cognitive parameters of the sentence within a unified model of the conceptualization of experience. The findings of this study can be utilized in courses on cognitive linguistics, theoretical grammar, and cultural linguistics.

Keywords: *sentence, cognitive linguistics, conceptualization, language, reality.*

Фагана Ахмадова

Предложение как единица опыта концептуализации

Резюме

В данной статье рассматривается предложение как фундаментальная единица опыта концептуализации в рамках когнитивной лингвистики. Современные лингвистические исследования все больше сосредотачиваются на антропоцентрической парадигме, что приводит к пониманию языка не только как средства коммуникации, но и как средства познания и интерпретации реальности. В этом контексте крайне важно рассматривать предложение как проявление когнитивных моделей, отражающих то, как индивиды понимают явления, ситуации и отношения. Необходимость данного исследования обусловлена необходимостью перехода от формального синтаксического описания предложения к анализу его концептуального и семантического содержания. Предложение рассматривается как результат взаимодействия перцептивного, психического и культурного опыта говорящего, что позволяет нам определить основные когнитивные основы его синтаксической организации. Цель данной статьи двояка: во-первых, установить когнитивную природу предложения; и во-вторых, определить его роль в концептуализации человеческого опыта. Научная новизна данного исследования заключается в всестороннем изучении предложения как когнитивной единицы, представляющей собой единую концептуальную картину. Это представляет собой шаг вперед к систематизации когнитивных параметров предложения в рамках единой модели концептуализации опыта. Результаты данного исследования могут быть использованы в курсах по когнитивной лингвистике, теоретической грамматике и культурной лингвистике.

Ключевые слова: *предложение, когнитивная лингвистика, концептуализация, язык, реальность.*

Çapa tövsiyə edən: AMEA Nəsimi adına Dilçilik İnstitutu

Rəyçilər: dosent N.Əliyeva
dosent R.Heydərov

UOT-811.11-112
Səhifə: 130-134
https://doi.org/10.59849/2663-8967.2026.1.130

Aytən Rəhimli
Azərbaycan Dillər Universiteti
rehimliayten2@gmail.com
ORCID:https//orcid.org/0000-0003-1574-1250

DİALOJİ DİSKURSDA KOMMUNİKATİV NİYYƏTLƏR, STRATEGİYALAR VƏ TAKTİKALAR

XÜLASƏ

Dialoq iki və ya daha çox insanın bir-biri ilə danışması zamanı reallaşır, lakin diskurs insanın nitqini və davranışını müəyyən edən bir sıra təlimləri ehtiva edir. Ümumiyyətlə, diskurs müəyyən bir məsələ ilə bağlı rəsmi və ya qeyri-rəsmi formada ifadə edilən fikrin məzmunudur. Dialoji diskurs isə bu fikrin və rəyin dialoqlar şəklində təzahür etməsi ilə bağlıdır. Dialoji diskurs gündəlik fəaliyyətimizdə söhbətlərimiz, müsahibələrimiz, müzakirələrimiz, forumlarımız və s. vasitəsilə baş verir. Eyni zamanda həm də yazılı mətbuat, manifestlər, yazışmalar və ümumilikdə ədəbiyyat kimi bütün yazılı diskursların əsasını təşkil edir.

Məqalədə dialoji diskursda kommunikativ niyyətlər, strategiyalar və taktikalar barədə məlumat öz əksini tapmışdır. Dialoji diskursda ünsiyyət insan fəaliyyətinin unikal formasıdır. Bu baxımdan kommunikativ niyyətin bir çox funksiyaları var, onlardan ən vacibi məlumat ötürməkdir. Dialoji diskursun uğurlu şəkildə reallaşmasında natiqlik qabiliyyəti də mühüm rol oynayır. Məhz bu baxımdan nitq taktikalarının araşdırılması da müvafiq məsələnin həllində önəmli mövqeyə malikdir. Dialoji diskursda ünsiyyət dil, mətn və qeyri-verbal simvollardan istifadə etməklə reallaşır və bu proses müxtəlif mühitlərdə baş verir. Dialoji diskurs zamanı qarşı tərəfi inandırmaq və effektiv ünsiyyət qurmaq üçün bu mühüm nüanslara diqqət yetirmək lazımdır. Digər dillərdə olduğu kimi ingilis dilində də müvafiq məsələlərin araşdırılması dilçiliyin inkişafında əhəmiyyətli rol oynayır.

Açar sözlər: *dialoji diskurs, diskurs analizi, kommunikativ niyyət, dialoq strategiyası, nitq taktikası.*

Giriş: Dialoq yunan dilindən tərcümədə iki və ya daha çox insanın qarşılıqlı ünsiyyəti deməkdir. Dialoq zamanı qarşı tərəfi tənqid etmək və ya onun ittihamlarına cavab vermək üçün müxtəlif üsullardan istifadə olunur. Dialoq monoloqdan daha çox səy tələb edən nitq formasıdır. Ünsiyyət zamanı öz mövqeyini aydın ifadə etməyi, ən uyğun arqumentləri seçməyi, həmsöhbəti inandırmağı, rəqibin iradlarına tez reaksiya verməyi bacarmaq lazımdır. Bəzən dialoq prosesində həmsöhbətin fikrini dəyişməsi və qarşı tərəflə razılaşması, səhvlərini etiraf etməsi halları da baş verir. İstənilən halda insanlar bir-biri ilə danışır, dialoqa girir. Bununla belə, demək olar ki, həmişə dialoq zamanı iştirakçıların əvvəlcədən formalaşmış mühüm bir rəyi olur və onlar mümkün olan ən inandırıcı arqumentlər gətirərək öz rəylərini müdafiə etməyə çalışırlar.

Diskurs isə şifahi və ya yazılı formalarda baş verən kommunikativ aktın formal ifadəsidir. Dilçilikdə özünəməxsus mövqeyə malik olan diskurs nitq və yazılar toplusundan ibarət nəzəri strukturdur. "Dialoji diskurs, iki və ya daha çox kommunikatorun iştirak etdiyi, qarşılıqlı əlaqə rejimində fikir mübadiləsi apardığı nitq fəaliyyətinin bir formasıdır" [7, s.185]. Formal nöqteyi-nəzərdən diskurs adətən bir sıra cümlələrdən ibarətdir, lakin məna baxımından dinamik xarakter daşıyır. Diskurs kommunikativ məqsədi olan prosesdir, buna görə də dialoq diskursda mühüm rol oynayır. İki nəfər arasında söhbət tək bir danışıq əsasında və ya iki fərqli diskurs çərçivəsində ola

bilər. Dialoji diskursun araşdırılması müasir dilçilikdə aktual əhəmiyyət kəsb edən məsələlərdən biridir. Dialoji diskurs məlumatlandırmaq, inandırmaq və ya əyləndirmək məqsədi ilə auditoriyaya ünvanlanan təqdimatdır. Müxtəlif konfranslarda, mərasimlərdə, peşəkar təqdimatlarda və akademik tədbirlərdə istifadə olunan güclü vasitədir. Diskursun effektivliyi onun auditoriya ilə əlaqə qurmaq və aydın mesaj çatdırmaq bacarığı ilə xarakterizə olunur.

Dialoji diskursda kommunikativ niyyətlər mühüm rol oynayır. "İngilis dilinin tədrisində kommunikativ sərbəstlik əsas sayılan məsələlərdəndir" [6, s. 53]. Kommunikativ bacarıqları, istər müştərilərlə, istər komanda üzvləri ilə, istərsə də gündəlik şəxsiyyətlərarası münasibətlərlə üzləşən hər kəsin öyrənməli olduğu bir qabiliyyət olmalıdır. Aydın kommunikativ bacarıqlara sahib olmaq başqalarının sizə inamını artıra və tez bir zamanda konsensusa çata bilər, bu da sizə insanlar arasında daha rahat ünsiyyət qurmağa imkan verir.

Gündəlik həyatda və ya fərdlərarası ünsiyyətdə biz qarşı tərəfin işlətdiyi sözlərin hərfi mənasını deyil, həm də o sözlərin arxasında dayanan kommunikativ niyyəti də başa düşməliyik. Ünsiyyət zamanı dialoq strategiyası və nitq taktikasından istifadə etmək dialoji diskursun daha inandırıcı olmasında mühüm rol oynayır. Qarşı tərəfin kommunikativ niyyətini dəqiq başa düşmək uğurlu və səmərəli sosial qarşılıqlı əlaqə üçün çox vacibdir. Demək olar ki, hər gün insanlarla ünsiyyət qurarkən, koordinasiya edəndə kommunikativ bacarıqlarından istifadə edirik. "Kommunikasiyasız diskurs formalaşmır. Yəni kommunikasiya diskursun zəruri şərtidir" [5, s. 238]. Kommunikativ bacarıqlar münaqişələrin həllində, komanda işinin koordinasiyasında və ya digər insanların qərar qəbul etməsinə təsir etməkdə istifadə edilə bilər. Yaxşı kommunikativ bacarıqlar uğurun təməl daşı və komanda işini təşviq etmək üçün güclü vasitədir.

Başqaları ilə ünsiyyət qurarkən düzgün kommunikativ metoddan istifadə etmək də vacibdir. Müasir dünyada kommunikasiyalar cəmiyyətin tərəqqi və inkişafında müstəsna rol oynayır. Onların arasında ən mühüm və səmərəli ünsiyyət forması kimi dialoq xüsusi yer tutur. İctimaiyyətlə əlaqələr, auditoriya ilə effektiv ünsiyyət sənəti və elmi olaraq, dialoqun gücündən istifadə etmədən məqsədlərinə çata bilməz.

Dialoji diskurs fikir mübadiləsi aparmaq, müxtəlif perspektivləri anlamaq, fərdlər və qruplar arasında anlaşma yaratmaq imkanı verir. "Dialoji diskursun öyrənilməsi sayəsində insanı, onun cəmiyyətdəki rolunu və ictimai ünsiyyəti araşdırmaq üçün yeni imkanlar açılır" [8, s.1016]. Məhz dialoq vasitəsilə problem və mübahisələrin kökləri müəyyən edilə və onların həllinə köməklik edilə bilər. Şəffaf və dürüst dialoq ünsiyyət tərəfləri arasında etimadın yaradılması və möhkəmləndirilməsi üçün zəmin yaradır. Kommunikasiya insanları müxtəlif qərarların qəbul edilməsində və fəaliyyətlərdə iştirak etməyə təşviq edir. Diskurs təhlilində kommunikativ niyyətlər natiqin və ya yazıçının müəyyən kontekstdə dildən istifadəsinin əsasını təşkil edən motivlərə istinad edir. "Niyyətləri anlamaq vacibdir, çünki onlar dilin müəyyən nəticələr əldə etmək, başqalarına təsir göstərmək məqsədilə necə istifadə olunduğunu formalaşdırır" [3]. Açıq və ya gizli olan bu niyyətlər çox vaxt ünsiyyətin strukturunu, tonunu və məzmununu istiqamətləndirir.

Tədqiqatın mənbəyi və üsulları. Dialoq ünsiyyətdə mühüm elementdir və ictimaiyyətlə əlaqələr üzrə peşəkarlar üçün vacib vasitədir. Dialoqun gücündən istifadə etməklə biz anlaşmanın yaradılmasına, problemlərin həllinə, etimadın gücləndirilməsinə, iştirakın artırılmasına, fərdi və sosial inkişafa töhfə verməyə kömək edə bilərik. Dialoji diskursun əhəmiyyətini nəzərə almaqla, cəmiyyətdə ünsiyyət səviyyəsinin yüksəlməsinin, ictimaiyyətlə əlaqələrin daha da inkişafına nail olmaq mümkündür.

Dialoji diskursda mübahisələri konstruktiv şəkildə həll etmək çox vacibdir. Münaqişənin həlli üçün strategiyaların kəşf edilməsi cəmiyyətin dinamikasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərə bilər. İngilis dilində qarşılıqlı əlaqəni asanlaşdıran strategiyalar aşağıdakı cədvəldə öz əksini tapmışdır. İngilis dilində qarşılıqlı əlaqəni asanlaşdıran strategiyalar [9 , s. 36].

Solidarity	Request to share a judgement / Demonstrating willingness to cooperate / Reassurance / Intimate interaction / Requesting emotional support
Scaling up the recipient's status	Expressing interest in the content of the conversation / Praise / Compliment
Establishing positive interaction mode	Expressing positive emotional state / Positive assertion / Emotional support

Müasir dövrdə cəmiyyətdəki fərdlər arasında tarazlığın qorunması mühüm əhəmiyyət kəsb edir. Müvafiq məsələnin həlli üçün effektiv strategiyaların qəbul edilməsi cəmiyyətdə əməkdaşlıq, sevinc və məmnunluq hallarının yaranmasında vəsilə rolunu oynaya bilər. Cəmiyyətdə sosial statusundan asılı olmayaraq bütün insanlar ünsiyyət bacarıqlarını bilməlidirlər. Ünsiyyət bacarıqları bu gün insanların müvəffəqiyyət qazanması üçün ən vacib vasitələrdən biridir. Kommunikasiyanın saysız-hesabsız faydalarından yararlanmaq üçün ilk növbədə başqaları ilə effektiv ünsiyyət qurmaq lazımdır.

Dünyanın ən böyük natiqləri nitq texnikalarını geniş şəkildə tətbiq ediblər və indi onların hər bir çıxışı digərindən fərqlidir. "Nitq texnikası mahiyyət etibarı ilə bir sənət növüdür, təsirli nitq üsullarını əhatə edir, natiqlik qaydaları ilə dəstəklənir, ifadələrin seçilməsi və çatdırılmasında bacarıq tələb edir" [2]. Nitq qabiliyyəti konkret olaraq düzgün tərtib, aydın məna, uyğun quruluş, yığcam cümlələr, ardıcıl mətn, məntiq normalarına uyğun obyektiv anlayışları qrammatik qaydalara əməl etməklə ifadə etmək bacarığıdır.

Birbaşa nitq, dolayı nitq və sərbəst dolayı nitq (birbaşa və dolayı) personajların nitqlərini və düşüncələrini təqdim etmək üçün istifadə olunan diskurs növləridir. Onların istifadəsi natiqin niyyətindən asılı olaraq dəyişir. Birbaşa nitqdə natiq öz nitqini dayandırır və personajın nitqindən sitat gətirməyə başlayır. Bu cür nitqin məqsədi həqiqiliyi çatdırmaqdır. Beləliklə, natiq deyilənlərə görə məsuliyyət daşımadan özünü diskursdan uzaqlaşdırır. Birbaşa nitq insanın dəqiq sözlərini göstərir. Dırnaq işarələri ("....") sözlərin bir insanın işlətdiyi dəqiq sözlər olduğuna işarədir. Məsələn: "Hai asked, "Where are you going?" Manny replied, "I'm going home." [10].

Birbaşa nitq çox vaxt iki fərqli diskurs aktı ilə xarakterizə olunur, dolayı diskurs isə vahid mərkəzli diskurs aktı hesab edilir. Dolayı nitq üçüncü şəxs tərəfindən nəql olunur. İngilis dilində dolayı nitq üçün to answer, to ask, to inquire, to declare, to exclaim kimi feillərindən istifadə olunur. Sərbəst dolayı nitqdə nitq növlərinin (birbaşa və dolayı) birləşməsi baş verir. Sərbəst dolayı nitqdə həm birbaşa nitqin, həm də dolayı nitqin xüsusiyyətləri öz əksini tapmışdır. "Sərbəst dolayı diskurs personajın daxili fikirlərini birbaşa ifadə etməkdənsə, onları hekayənin içərisinə daxil etməklə çatdırmaq üsuludur" [4]. Bütün bunlarla yanaşı, birbaşa nitqin dolayı nitqə və ya dolayı nitqin birbaşa nitqə keçməsi halları da mövcuddur.

Birbaşa nitqin dolayı nitqə köçürülməsi:

Birbaşa nitq	**Dolayı nitq**
I need to go out for a few minutes. (1st person statement)	He said he had to go out for a few minutes. (Said in the 3rd person)
I am the person you were talking about earlier. (present tense)	He said that this was the person he had just spoken to.
I didn't read the newspaper today. (the past simple tense)	He said he hadn't read the newspaper. (the past perfect tense expression)

Nitq texnikasına malik olmaq fərdlərə öz fikirlərini auditoriyaya effektiv şəkildə çatdırmağa imkan verir. Nitq texnikasını dərindən öyrənmək natiqlik məharəti ilə ilə sıx bağlıdır. Cəmiyyətdə fərdlər arasında sağlam münasibətlərin tənzimlənməsində natiqlik həlledici mövqeyə malikdir. "Əsas məqam ondan ibarətdir ki, ictimai həyatda ünsiyyət ehtiyacını ödəyən yeganə amillərdən biri də nitqdir" [1, s. 44]. Natiq olmaq üçün ən vacib strategiyalardan biri hərtərəfli hazırlığa malik

olmaqdır. Natiq olmaq üçün təcrübə, hazırlıq və dinləyicilərin diqqətini cəlb etmək lazımdır. Bu əsas strategiyalara əməl edən şəxs təsirli təqdimatlar vermək, auditoriyanı cəlb etmək və mesajı inamla çatdırmaq üçün lazım olan bacarıqları əldə etmiş olur.

Nəticə: Ümumiyyətlə, ünsiyyət müxtəlif diskurslar arasında qarşılıqlı əlaqə və mübadilə prosesi, həmçinin diskursun yayılması prosesidir. Diskurs tək bir müddəadan ibarət deyil, bir neçə təklifin birlikdə işləməsindən ibarətdir. Bu təkliflər bir-birinə uyğundur, çünki hər bir müddəa bütün digərləri ilə əlaqəni nəzərdə tutur. Diskurs cəmiyyətdə əsas rol oynayır, çünki ideyalar, inanclar və dəyərlər onun vasitəsilə ötürülür. Diskurs insanların dünyanı necə qavramasına, onların fikir və davranışlarına təsir göstərə bilər. Diskurs anlayışı dilçilik, ədəbiyyat və fəlsəfə kimi bir çox müxtəlif elmlərdə istifadə olunur. Diskursun öyrənilməsi ingilis dilinin tədrisində həlledici rol oynayır, çünki diskurs effektiv ünsiyyət və dil öyrənmək üçün əsasdır. Bu ardıcıl nitq qurmaq, mətn xüsusiyyətlərini anlamaq, kompozisiya strategiyalarını tətbiq etmək və akademik yazı haqqında bilikləri tətbiq etmək bacarığını əhatə edir. Diskurs səriştəsinin inkişafı akademik yazıya yiyələnməyə, ünsiyyət bacarıqlarını təkmilləşdirməyə və kontekstdə dil strukturlarını başa düşməyə kömək edir.

Ədəbiyyat siyahısı

1. Xuduyeva G. (2024). Diskursun kommunikativ mənzərəsi. İpək yolu. No.1, səh.235-243 https://doi.org/10.30546/1810-911X.2024.1.235
2. İbrahimova H. (2025). İngilis dilinin tədrisində kommunikativ metoddan istifadə. Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 5 Sayı: 4 / 52-56 Scientific Research International Scientific Journal. 2025 / Volume: 5 Issue: 4 / 52-56.
3. İsmayılova S. (2024). Rəqəmsallaşma dövründə dialoji və monoloji diskursların təkamülü. "Vətəni sevməyən insan olmaz" mövzusunda Respublika elmi konfransının materialları. 184-188 s. Bakı: ADPU Şamaxı filialı, – 432 səh.
4. Başcı, A. (2019). Hitabet Sanatı ve Eski Yunan-Roma, Türk ve Cahiliye Dönemi Arap Hitabeti. Afyon Kocatepe Üniversitesi Sosyal Bilimler Dergisi, 21(1), 31-48. https://doi.org/10.32709/akusosbil.409189
5. Diksiyon Akademi. (2025). Konuşma teknikleri. 12 temmuz 2025. https:// diksiyonakademi.com/konusma-teknikleri.
6. Discourse Analyzer. (2024). Intentions in Discourse Analysis. https:// discourseanalyzer.com/intentions-in-discourse-analysis/ August 18, 2024.
7. Free indirect discourse: what it is and why you should use it (2024). https://thehistoryquill. com/free-indirect-discourse-what-it-is-and-why-you-should-use-it/.Last updated Sep 5, 2024.Blog
8. İsmayilova S. (2024). The Study on Dialogic Discourse.Path of Science.2023. Vol. 9.No 6. 1016-1020 p. https://doi.org/10.22178/pos.93-15
9. Malyuga, E. N., & Tomalin, B. (2017). Communicative strategies and tactics of speech manipulation in intercultural business discourse. Training, Language and Culture, 1(1), 28-45. https://doi.org/10.29366/2017tlc.1.1.2
10. St. Louis Community College. (2025). Direct Speech and Reported Speech. https://stlcc.edu/student-support/academic-success-and-tutoring/writing-center/writing-resources/reported-speech-and-direct-speech.aspx.

Ayten Rahimli

Communicative intentions, strategies and tactics in dialogical discourse

Summary

Dialogue occurs when two or more people talk to each other, but discourse includes a number of teachings that determine a person's speech and behavior. In general, discourse is the content of an idea expressed in a formal or informal form on a certain issue. Dialogic discourse is associated with the manifestation of this idea and opinion in the form of dialogues. Dialogic

discourse occurs in our daily activities through our conversations, interviews, discussions, forums, etc. At the same time, it also forms the basis of all written discourses such as the written press, manifestos, correspondence, and literature in general.

The article reflects information about communicative intentions, strategies, and tactics in dialogic discourse. Communication in dialogic discourse is a unique form of human activity. In this regard, communicative intention has many functions, the most important of which is to transmit information. Oratory skills also play an important role in the successful implementation of dialogic discourse. It is from this perspective that the study of discourse tactics also has an important position in solving the relevant issue. In dialogic discourse, communication is realized using language, text, and nonverbal symbols, and this process takes place in various environments. During dialogic discourse, it is necessary to pay attention to these important nuances in order to convince the other party and communicate effectively. As in other languages, the study of relevant issues in English plays an important role in the development of linguistics.

Key words: *dialogic discourse, discourse analysis, communicative intention, dialogue strategy, speech tactics.*

Айтен Рагимли

Коммуникативные намерения, стратегии и тактики в диалогическом дискурсе

Резюме

Диалог происходит, когда два или более человека разговаривают друг с другом, но дискурс включает в себя ряд поучительных моментов, определяющих речь и поведение человека. В общем, дискурс – это содержание идеи, выраженное в формальной или неформальной форме по определенному вопросу. Диалогический дискурс связан с проявлением этой идеи и мнения в форме диалогов. Диалогический дискурс происходит в нашей повседневной жизни посредством наших разговоров, интервью, дискуссий, форумов и т. д. В то же время он также составляет основу всех письменных дискурсов, таких как печатная пресса, манифесты, переписка и литература в целом.

В статье представлена информация о коммуникативных намерениях, стратегиях и тактиках в диалогическом дискурсе. Коммуникация в диалогическом дискурсе — это уникальная форма человеческой деятельности. В этом отношении коммуникативное намерение выполняет множество функций, важнейшей из которых является передача информации. Ораторские навыки также играют важную роль в успешной реализации диалогического дискурса. Именно с этой точки зрения изучение тактики дискурса также занимает важное место в решении соответствующей проблемы. В диалогическом дискурсе общение осуществляется с использованием языка, текста и невербальных символов, и этот процесс происходит в различных средах. В ходе диалогического дискурса необходимо обращать внимание на эти важные нюансы, чтобы убедить другую сторону и эффективно общаться. Как и в других языках, изучение соответствующих вопросов в английском языке играет важную роль в развитии лингвистики.

Ключевые слова: *диалогический дискурс, дискурс-анализ, коммуникативное намерение, стратегия диалога, речевая тактика.*

Çapa tövsiyə edən: ***Azərbaycan Dillər Universiteti***

Rəyçilər: ***dosent Ş.Mahmudova***
dosent A.Muradova

UOT-811.11-112
Səhifə: 135-140
https://doi.org/10.59849/2663-8967.2026.1.135

Samirə Əmrahova
AMEA Nəsimi adına Dilçilik İnstitutu
samire.amrahova@gmail.com
ORCID:0009-0007-4546-8845

DİLDƏ MƏDƏNİ KOD ANLAYIŞININ FƏLSƏFİ VƏ LİNQVOKULTUROLOJİ ŞƏRHİ

XÜLASƏ

Məqalə dildə mədəni kod anlayışının fəlsəfi və linqvokulturoloji şərhinə həsr olunmuşdur. Tədqiqatda mədəni kod mədəniyyətin semantik və simvolik məzmununu özündə ehtiva edən, dil vasitəsilə nəsildən-nəslə ötürülən mürəkkəb informasiya sistemi kimi dəyərləndirilir. Fəlsəfi aspektdə mədəni kod insanın dünyanı qavrama və mənalandırma mexanizmi ilə əlaqələndirilir, kollektiv yaddaş və milli şüur anlayışları ilə izah olunur. Linqvokulturoloji baxımdan mədəni kodun dil vahidlərində leksik, frazeoloji, paremioloji və diskursiv strukturlarda təzahür etdiyi göstərilir. Bu vahidlər vasitəsilə xalqın tarixi təcrübəsi, dəyərlər sistemi, davranış modelləri və dünyagörüşü kodlaşdırılır. Məqalədə mədəni kodun dilin semantik strukturlarında sabitləşməsi və kommunikativ prosesdə aktuallaşması xüsusi vurğulanır. Araşdırma nəticəsində müəyyən edilir ki, mədəni kod dil və mədəniyyətin qarşılıqlı təsir mexanizmini izah edən əsas anlayışlardan biridir və onun öyrənilməsi mədəni identikliyin qorunması, tərcümə problemlərinin həlli və mədəniyyətlərarası kommunikasiya baxımından mühüm elmi əhəmiyyət daşıyır.

Açar sözlər: *mədəni kod, dil və mədəniyyət, linqvokulturologiya, fəlsəfi yanaşma, milli şüur, kollektiv yaddaş.*

Giriş: Müasir dilçilikdə dilin yalnız kommunikativ vasitə kimi deyil, eyni zamanda mədəniyyətin daşıyıcısı, qoruyucusu və ötürücüsü kimi öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Qloballaşma şəraitində mədəniyyətlərarası əlaqələrin intensivləşməsi dil və mədəniyyət münasibətlərinin daha dərindən tədqiqini zəruri edir. Bu kontekstdə mədəni kod anlayışı dilin mədəni informasiya daşıyıcısı kimi funksional mahiyyətini izah edən əsas terminlərdən biri kimi çıxış edir. Fəlsəfi baxımdan mədəni kod insanın dünyanı dərk etmə üsullarını, kollektiv şüurda formalaşmış dəyərlər sistemini və simvolik təfəkkürü əks etdirən konseptual mexanizmdir. Dil isə bu mexanizmin ən sistemli və sabit ifadə formasıdır. Linqvokulturoloji yanaşmada mədəni kod dil vahidlərində sözlərdə, frazeologizmlərdə, metaforalarda, paremioloji vahidlərdə və diskurs strukturlarında reallaşır. Elmi mənbələrdə mədəni kod anlayışı fəlsəfi-epistemoloji və linqvokulturoloji prizmalardan təhlil edilir və onun dil vasitəsilə necə formalaşdığı və ötürüldüyü araşdırılır. Mədəni kod anlayışı ilk növbədə fəlsəfi-semiotik düşüncə kontekstində formalaşmışdır. Mədəniyyət burada yalnız maddi və mənəvi dəyərlər toplusu deyil, həm də insanın dünyanı qavrama və şərh etmə mexanizmi kimi çıxış edir. Bu baxımdan mədəni kod reallığın insan şüurunda simvollaşdırılmış modelidir. Fəlsəfi yanaşmaya görə, insan dünyanı birbaşa deyil, mədəniyyətin yaratdığı işarələr sistemi vasitəsilə dərk edir. Bu ideya semiotikanın klassik nümayəndələrinin əsərlərində xüsusi yer tutur. Xüsusilə Yuri Lotman mədəniyyəti çoxsəviyyəli işarələr sistemi kimi təqdim edərək, mədəni kodu bu sistemin struktur elementi hesab edirdi. Onun fikrincə, mədəniyyət "kollektiv yaddaş" funksiyasını yerinə yetirir və bu yaddaş dil vasitəsilə qorunur [5, s. 78].

Fəlsəfi planda mədəni kod eyni zamanda kollektiv şüur, mentalitet və dünyagörüşü anlayışları ilə sıx bağlıdır. Hər bir xalqın tarixi təcrübəsi, mifoloji təsəvvürləri, dini baxışları və sosial dəyərləri mədəni kod şəklində sabitləşir və dil bu kodun əsas daşıyıcısına çevrilir. Beləliklə, mədəni kod dilin semantik strukturlarında dərin qat kimi mövcud olur və kommunikasiya prosesində aktu-

allaşır. Semiotik baxımdan mədəni kod işarə-mənalandırma münasibətlərinə əsaslanır. Dil bu münasibətlərin ən universal və sistemli formasıdır. İşarə yalnız denotativ məna daşımır, eyni zamanda mədəni konnotasiyalarla zənginləşir. Bu konnotativ qat mədəni kodun əsas göstəricisi hesab olunur. Məsələn, ayrı-ayrı leksik vahidlər müəyyən mədəni assosiasiyalar yaradır və həmin assosiasiyalar başqa dillərə birbaşa tərcümə zamanı itə bilər. Bu fakt mədəni kodun dilə məxsus spesifik fenomen olduğunu sübut edir. Umberto Eco mədəni kodu mətnin interpretasiyası üçün zəruri olan mədəni biliklər toplusu kimi izah edir və qeyd edir ki, bu biliklər olmadan mətnin mənası tam açıla bilməz. Dil mədəni kodu yalnız saxlamır, eyni zamanda onu yenidən formalaşdırır. Tarixi və sosial dəyişikliklər dilə təsir etdikcə, mədəni kodun strukturu da transformasiyaya uğrayır. Bu isə mədəni kodun dinamik xarakter daşıdığını göstərir.

Linqvokulturologiya dil və mədəniyyətin qarşılıqlı təsirini tədqiq edən inteqrativ elm sahəsi kimi mədəni kod anlayışına xüsusi əhəmiyyət verir. Bu yanaşmada dil vahidləri mədəni mənaların daşıyıcısı kimi araşdırılır. Viktor Vorobyov mədəni kodu dil vasitəsilə obyektivləşən mədəni dəyərlər sistemi kimi xarakterizə edir [10, s.108].

Linqvokulturoloji tədqiqatlarda mədəni kod əsasən aşağıdakı dil səviyyələrində təhlil olunur: leksik səviyyədə (milli-realliyaları ifadə edən sözlər), frazeoloji səviyyədə (sabit birləşmələr və deyimlər), paremioloji səviyyədə (atalar sözləri və zərb-məsəllər), diskurs səviyyəsində (mədəniyyətə xas nitq modelləri).

Bu vahidlərdə xalqın həyat tərzi, dəyərlər sistemi, etik normaları və sosial münasibətləri kodlaşdırılır. Məsələn, ailə, torpaq, şərəf, qonaqpərvərlik kimi anlayışlar türk dillərində xüsusi mədəni kod daşıyıcıları kimi çıxış edir. Bir çox alimlərin V.N.Teliya, V.V.Krasnıx və Y.M.Lotmanın əsərlərində səciyyələndirilmiş linqvokulturoloji kodlar verbal və mədəni elementləri özündə birləşdirən mürəkkəb strukturlar kimi çıxış edir. Bu kodların elmi dövriyyəyə daxil edilməsi mədəniyyətlərarası ünsiyyət və dillərin tədrisi proseslərinə yeni prizmadan baxmağa imkan vermişdir. İlk baxışda "kod" termininin yalnız dəqiq elmlər sahəsində işlədildiyi təəssüratı yarana bilər. Lakin "hazırda *kod* leksemi humanitar bilik sahəsində istifadə olunan terminoloji sistemin tərkib hissəsinə çevrilmişdir" [6, s.335]. Dilçilikdə "kod" termini ilk dəfə R. O.Yakobson tərəfindən poetik mətnlərin təhlili üçün tətbiq edilmişdir [12, s.200]. Linqvokulturologiyada isə bu terminin istifadəsinin əsası V. N. Teliya tərəfindən qoyulmuş, hazırda onun davamçıları V. V. Krasnıx, D. B. Qudkov, M. L. Kovşova və başqaları tərəfindən fəal şəkildə inkişaf etdirilir [9, s.356].

Linqvokulturoloji kodların tərifləri və təsnifatına yanaşmalar müxtəlif olsa da, onları birləşdirən ümumi cəhət dil və mədəniyyətin qarşılıqlı əlaqəsidir və bu əlaqə kodların mədəni mənaları dil vasitələri ilə ötürmək qabiliyyətində təzahür edir. Linqvokulturoloji kodlar müəyyən mədəni mühit çərçivəsində fəaliyyət göstərən və mədəni mənaların ötürülməsi üçün vasitə rolunu oynayan kompleks dil-mədəni konstruksiyalardır. Bu kodlara sabit mədəni assosiasiya və əhəmiyyət daşıyan dil obrazları, simvollar, metaforalar və idiomlar daxil ola bilər. Beləliklə, linqvokulturoloji kod dil və mədəniyyət arasında körpü rolunu oynayaraq, müxtəlif mədəni kontekstlərdən olan fərdlər arasında ünsiyyəti və qarşılıqlı anlaşmanı asanlaşdırır.

Linqvokulturoloji kodlar dil və mədəniyyət arasındakı əlaqəni əks etdirən müxtəlif elementləri özündə birləşdirir. Onlar sadə söz və ifadələrdən tutmuş mürəkkəb mədəni praktikalar və simvollara qədər müxtəlif formalarda təzahür edə bilər. V.A.Maslovanın qeyd etdiyi kimi, "*mədəniyyət kodlarının siyahısı bu gün üçün açıqdır*" [9, s.356] və bu da sözügedən istiqamətdə aparılan tədqiqatların aktuallığını şərtləndirir.

Linqvokulturoloji kodlar mədəni fərqlərin dərk edilməsi və mədəniyyətlərarası ünsiyyətin yaxşılaşdırılması baxımından açar əhəmiyyətə malikdir. Onlar dildə gizli mənaların açılmasına imkan verir ki, bu da mədəniyyətlərarası ünsiyyətdə mesajların düzgün şərhi üçün zəruridir. Bu bilik beynəlxalq biznes, diplomatiya, təhsil və media kommunikasiyaları kimi sahələrdə xüsusi əhəmiyyət kəsb edir [2, s.118]. Linqvokulturoloji kodlar mədəniyyətdə təzahür formalarına və funksiyalarına görə verbal, real və aksional kodlar daxil olmaqla təsnifləndirilir ki, bu da dil ilə mədəniyyətin qarşılıqlı təsirini daha dərindən anlamağa kömək edir.

Linqvokulturoloji kodlar mədəniyyətlərarası ünsiyyətdə mərkəzi rol oynayaraq, müxtəlif mədəni kontekstlərdən olan insanlar arasında qarşılıqlı anlaşmanı ya asanlaşdırır, ya da çətinləşdi-

rir. Bu kodlar effektiv ünsiyyət üçün körpü rolunu oynaya bildiyi kimi, anlaşmaya mane olan baryerə də çevrilə bilər. Kodların oxşarlıq və fərqlilik dərəcəsi xalqların mədəni yaxınlığı və ya uzaqlığını əks etdirir [8,s.140].

Hər bir dildəki mədəni kodlar kommunikasiyada çox mühüm əhəmiyyət daşıyır. Mədəni kodlardan istifadə ünsiyyətin asanlaşdırılmasında mühüm rol oynayır. Ümumi kontekstin formalaşdırılması və linqvokulturoloji kodlar ünsiyyət iştirakçıları arasında ortaq kontekst yaradır, eyni zamanda mesajları daha anlaşılan və mənalı edir. Sosial əlaqələrin qurulmasındakı ümumi kodlar oxşar dəyərləri və inancları əks etdirdiyi üçün daha dərin sosial bağların yaranmasına şərait yaradır. Yanlış anlama, qarşı tərəfin linqvokulturoloji kodlarını bilməmək anlaşılmazlıq və hətta münaqişələrə səbəb ola bilər. Mədəni həssaslıq da mədəni kodların mənimsənilməzdə böyük əhəmiyyət daşıyır. Mədəni kodlara diqqətsizlik başqa mədəniyyətə hörmətsizlik kimi qəbul edilə və ünsiyyətin keyfiyyətini azalda bilər [3, s.194].

Mədəni kodların mənimsənilməsində mədəni kodların da böyük əhəmiyyəti vardır. Təhsil proqramları, linqvokulturoloji kodların tədrisə daxil edilməsi tələbələrin mədəniyyətlərarası ünsiyyətə daha yaxşı hazırlaşmasına kömək edir. Treninqlər və ustad dərsləri mühüm kodların mənimsənilməsinə yönəlmiş xüsusi proqramlar multikultural mühitdə effektiv qarşılıqlı fəaliyyəti gücləndirir. Kodların analizi və modifikasiyası kodların formalaşması və dəyişməsi mexanizmlərinin anlaşılması daha səmərəli kommunikativ strategiyaların hazırlanmasına imkan verir. Dilçilərin, kulturoloqların, psixoloqların birgə araşdırmaları dil və mədəniyyət əlaqələrinin dərkini dərinləşdirir və yeni uyğunlaşma metodlarının yaranmasına şərait yaradır. Mədəni kodun ən mühüm funksiyalarından biri milli identikliyin qorunması və ötürülməsidir. Dil vasitəsilə formalaşan mədəni kod fərdin özünü müəyyən etnosun üzvü kimi dərk etməsinə şərait yaradır. Wilhelm von Humboldt dilin "xalqın ruhu"nu əks etdirdiyini qeyd edərək, dil və milli kimlik arasındakı ayrılmaz əlaqəni vurğulamışdır [4,s.96].

Müasir dövrdə qloballaşma və kütləvi kommunikasiya mədəni kodların homogenləşməsi təhlükəsini yaradır. Bu şəraitdə milli dillərin və onlarda mövcud olan mədəni kodların qorunması xüsusi aktuallıq qazanır. Linqvokulturoloji tədqiqatlar bu prosesin elmi əsaslarla izlənilməsinə və mədəni müxtəlifliyin saxlanılmasına imkan verir.

Mədəni kod – bu tip mədəniyyətin dərk edilməsinin açarıdır [7,s.112]. O, şüurda müəyyən stereotiplər kompleksi ilə bağlı olan obrazlar toplusunu müəyyən edir. Bu, mədəni şüuraltıdır – deyilən və ya aydın şəkildə dərk edilən deyil, anlayışdan gizli qalan, lakin davranışlarda təzahür edən məzmundur. Millətin mədəni kodu onun davranış reaksiyalarını anlamağa kömək edir və xalq psixologiyasını müəyyənləşdirir.

Qlobal mədəni kodların üç tipi fərqləndirilir: yazıdan əvvəlki (ənənəvi), yazılı (kitab) və hazırda formalaşma mərhələsində olan ekran kodu. Hər bir mədəni tipdə dəyişməyə və sosial kodların strukturları ilə əlaqəsinə görə yeni, ikinci dərəcəli mədəni kodların öz-özünə yaranmasına açıq olan əsas mədəni kod mövcuddur. Mədəni-simvolik kod tarixi-mədəni tipin şəxsiyyətinin, sosial qrupun və s. identikliyini səciyyələndirən mədəni arxetiplər toplusunu ifadə edir.

Mədəniyyət folklor elementləri toplusu deyil, milli identikliyin dərin kodudur; o, ekzogen ideoloji təsirlərə qarşı "immun sistemi" funksiyasını yerinə yetirir, tarixi təcrübənin saxlanıldığı məkan və xarici siyasətdə "yumşaq güc" mənbəyidir. A. S. Puşkinin, N. V. Qoqolun, L. N. Tolstoyun, F. M. Dostoyevskinin, İ. S. Turgenyevin, A. P. Çexovun yaradıcılığı rus identikliyinin unikal mədəni kodunu formalaşdırdığı kimi, Səməd Vurğunun, İsmayıl Şıxılının, İlyas Əfəndiyevin, Mir Cəlalın yaradıcılığı Azərbaycan dilinin identikliyinin, Namik Kamalın, Rəşad Nuri Güntəkinin, Tanpınarın əsərləri Türkiyə türkcəsinin, Berdi Kerbabayevin əsərləri türkmən dilinin mədəni identikliyinin göstəricisidir.

Dildəki sabit ifadələrdə mədəni kod konsepsiyası dilin (frazeologizmlər, atalar sözləri, paremiyalar) xalqın dərin dəyərlərini, simvollarını, stereotiplərini və kollektiv təcrübəsini necə daşıyıb ötürdüyünü anlamaqdır. Bu yanaşma linqvo-mədəni markerlərdə gizlənmiş milli dünyagörüşünü, ənənələri və identikliyi "deşifrə etməyə" imkan verir. Sabit ifadələr mədəniyyətin tarixini, etik normalarını və dünyanı qavrama modelini yığcam, "kodlaşdırılmış" formada əks etdirərək mədəniyyəti anlamağın açarı kimi çıxış edir.

Dil mədəni kodun ilkin daşıyıcısıdır, sabit ifadələr isə etnosun özünəməxsus cizgilərini əks etdirən konkret təzahürləridir [11,s.54]. Mədəni kod mədəniyyəti identifikasiya etməyə imkan verən simvollar və dəyərlər sistemidir; sabit ifadələr isə bu kodun "açarlarıdır". O, kollektiv təcrübəni, mifoloji təsəvvürləri, tarixi və xalqın dünyagörüşünü kodlaşdıraraq nəsildən-nəslə ötürür. *"Ata ocağı sönməz; Qohum-əqrəba dar gündə tanınar; Böyükdən hörmət görməyən, kiçikdən hörmət gözləməz; Ev yiyəsi qonağın quludur*" tipli atalar sözlərində sadəcə tövsiyə deyil, həmin mədəniyyət üçün səciyyəvi olan əməyə dəyərvermə münasibəti ifadə olunur.

Milli əşya, hadisə və ya realiləri bildirən sözlərin işlədilməsi, onların spesifik mədəni məna daşıması stereotiplər və *simvollarla reallaşır. Arxetiplərə əsaslanan ifadələr, məsələn, "Bərkə*-boşa düşən adam" (təcrübəli şəxs) və ya *"Boş-boşuna vaxt keçirmək*" (tənbəllik etmək); *"Nə əkərsən, onu biçərsən"* (məsuliyyət prinsipi) və ya *"Allaha güvən, amma özün də çalış*" (imanla əməyin vəhdəti) kimi ifadələr.

Mədəni kodların ən intensiv şəkildə reallaşdığı dilçilik vahidləri sabit birləşmələrdəir. "Frazeologizmlərdə milli mədəniyyət müxtəlif kodlarla təzahür edir" [1, s.201]. Q. Mahmudova frazeologizmlərin müəyyən kodlar əsasında formalaşdığını qeyd edir. Alimin fikrincə, Azərbaycan dilindəki frazeologizmlər məişət və gündəlik həyat kodlarını, əxlaqi və mənəvi dəyər kodlarını, dini dünyagörüşü və mifoloji kodları, təbiət və coğrafi təsəvvür kodunu özündə ehtiva edir. Mədəni kodun sabit ifadələr vasitəsilə dərk edilməsi mədəniyyətlərarası ünsiyyət üçün zəruridir, xalqın mentalitetini, tarixini və dəyərlər sistemini daha dərindən anlamağa kömək edir, həmçinin bədii mətnlərdə oxucuya təsir göstərmək üçün dilin səmərəli istifadəsini təmin edir.

Aparılan tədqiqat göstərir ki, mədəni kod anlayışı dil və mədəniyyət münasibətlərinin izahında fundamental elmi kateqoriya kimi çıxış edir. Fəlsəfi baxımdan mədəni kod insanın dünyanı dərk etmə, mənalandırma və qiymətləndirmə proseslərinin əsasını təşkil edir və kollektiv şüurun formalaşmasında mühüm rol oynayır. Linqvokulturoloji yanaşma isə bu kodun konkret dil vahidlərində necə reallaşdığını, mədəni informasiyanın hansı mexanizmlərlə kodlaşdırıldığını üzə çıxarır.

Nəticə: Araşdırma sübut edir ki, dil mədəni kodun qorunması və ötürülməsində ən etibarlı vasitədir. Leksik-semantik sistem, frazeologiya, paremiologiya və diskurs strukturları mədəni dəyərlərin sabitləşdiyi əsas sahələrdir. Bu baxımdan mədəni kodun öyrənilməsi milli identikliyin dərk edilməsi, mədəniyyətlərarası anlaşmanın təmin olunması və tərcümə prosesində adekvatlığın qorunması üçün xüsusi əhəmiyyət kəsb edir. Nəticə etibarilə, mədəni kod anlayışının fəlsəfi və linqvokulturoloji təhlili müasir dilçilikdə inteqrativ yanaşmaların inkişafına töhfə verir və dilin mədəni fenomen kimi öyrənilməsinə yeni elmi perspektivlər açır.

Ədəbiyyat siyahısı

1. Mahmudova, Q. Frazeoloji vahidlər–xalqın düşüncə və mədəniyyət kodu // – Dilçilik araşdırmaları, Bakı, №2,-2025, s. 200-204.
2. Umberto Eco. A Theory of Semiotics. – Bloomington: Indiana University Press, 1976. – 354 p.
3. Viktor Vorobyov. Лингвокультурология. – Москва: РУДН, 2008. – 336 s.
4. Wilhelm von HumboldOn Language: On the Diversity of Human Language Construction and Its Influence on the Mental Development of the Human Species / –Cambridge University Press, – 296 səh.
5. Yuri Lotman. Семиосфера. – Санкт-Петербург: Искусство, 2000. – 704 s.
6. Королева Е. В. Место лексемы код в лингвистической терминосистеме // Преподаватель XXI век. 2015. № 4. С. 332–340.
7. Культурный код // Кононенко Б. И. Большой толковый словарь по культурологии. – М: Вече, 2003 - 512 с.
8. Мамонтов А. С., Морослин П. В. Зоометафоры как лингвокогнитивная составляющая процесса межкультурной коммуникации (на материале русско-турецких сопоставлений) // Вестник РУДН. Серия «Теория языка. Семиотика. Семантика». 2016. № 1. С. 139-143.

9. Маслова В. А. Числовой код в коммуникации: лингвокультурный образ числа «семь» // Ученые записки Таврического национального университета им. В. И. Вернадского. Серия «Филология. Социальные коммуникации». 2012. Том 25 (64). №1. Часть 1. С. 355-358.
10. Маслова, В. А. Лингвокультурология. – Москва: Академия, 2001. – 208 s.
11. Телия, В. Н. Русская фразеология. Семантический, прагматический и лингвокультурологический аспекты. – Москва: Школа «Языки русской культуры», 1996. – 288 s.
12. Якобсон Р. О. Лингвистика и поэтика // Структурализм: «за» и «против». / Под ред. Е. Я. Басина и М. Я. Полякова. Москва: Прогресс, 1975. С. 193-228.

Samira Amrahova

Philosophical and linguocultural interpretation of the concept of cultural code in language

Summary

The article is devoted to the philosophical and linguoculturological interpretation of the concept of cultural code in language. The study considers the cultural code as a complex system of semantic and symbolic meanings that reflect cultural experience and are transmitted through language from generation to generation. From a philosophical perspective, the cultural code is interpreted as a mechanism of cognition and conceptualization of reality, closely connected with collective consciousness and national identity. Within the framework of linguoculturology, the cultural code is analyzed through its manifestation in linguistic units such as lexical items, phraseological expressions, proverbs, metaphors, and discourse structures. These units serve as means of encoding historical experience, value systems, behavioral norms, and worldview of a particular linguistic community. The article emphasizes that language not only reflects culture but also actively shapes and preserves it by fixing cultural meanings in stable linguistic forms.

The research demonstrates that the cultural code functions as an intermediary between language and culture, ensuring the continuity of cultural memory and facilitating intercultural communication. The study highlights the importance of analyzing cultural codes for understanding national mentality, solving translation problems, and interpreting culturally marked texts. The concept of the cultural code is thus presented as a key theoretical tool in modern linguistics and cultural studies.

Key words: *cultural code, language and culture, linguoculturology, philosophical approach, national identity, collective memory.*

Самира Амрахова

Философская и лингвокультурологическая интерпретация понятия культурного кода в языке

Резюме

Статья посвящена философскому и лингвокультурологическому осмыслению понятия культурного кода в языке. В исследовании культурный код рассматривается как сложная система смыслов и символов, отражающая культурный опыт народа и передающаяся из поколения в поколение посредством языка. С философской точки зрения культурный код интерпретируется как механизм познания и осмысления действительности, связанный с коллективным сознанием и национальной идентичностью.

В лингвокультурологическом аспекте показано, что культурный код реализуется в различных языковых единицах – лексических, фразеологических, паремиологических и дискурсивных структурах. Эти единицы аккумулируют историческую память, систему ценностей, модели поведения и мировоззрение определённого этноса. В статье подчёркивается, что язык не только отражает культуру, но и активно участвует в её сохранении и трансляции, закрепляя культурные смыслы в устойчивых языковых формах.

В результате исследования делается вывод о том, что культурный код является ключевым понятием для понимания взаимосвязи языка и культуры, а его изучение имеет важное значение для межкультурной коммуникации, переводоведения и анализа национально маркированных текстов.

Ключевые слова: *культурный код, язык и культура, лингвокультурология, философский подход, национальная идентичность, коллективная память.*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***fil.e.d. Aynel Məşədiyeva***
dosent Dilbər Camali

UOT-811.11-112
Səhifə: 141-145
https://doi.org/10.59849/2663-8967.2026.1.141

Ləman Şükürova
Azərbaycan Turizm və Menecment Universiteti
shukurova.leman@atmu.edu.az

BRİTANİYA İNGİLİSCƏSİNDƏ SOSİAL DİALEKTLƏRİN QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Məqalədə Britaniya ingiliscəsindəki dialektlərin sosial və regional olaraq bölünməsindən və sosial dialektlərin qrammatik xüsusiyyətlərindən bəhs olunur. Sosial dialektlərin əsas qruplarına "Kokni (Cockney)", "Skaus (Scouse)" dialektlərini və "Multikultural London İngiliscəsini (Multicultural London English - MLE)" aid edə bilərik. Sosial dialektlər regional dialektlərdən fərqli olaraq eyni bölgənin müxtəlif sosial qrupları tərəfindən istifadə olunur və onların öyrənilməsində sosial icmaların öz dilindən çıxan söz və cümlələr, eyni zamanda "My Fair Lady" filmində qəhrəmanların nitqlərinin təhlili mühüm rol oynayır.

Açar sözlər: *Sosial dialektlər, regional dialektlər, sosiolektlər, Kokni dialekti, Skaus dialekti, multikultural London ingiliscəsi, standart ingilis dili.*

Giriş: Regional dialektlərin XIX əsrin sonlarından etibarən tədqiq olunmasına baxmayaraq, sosial dialektlərin tədqiqi keçən əsrin 60-70-ci illərinə təsadüf edir. Bu dövrdə sosial dialektlərlə bağlı araşdırmalar ilk növbədə ABŞ-da aparılmışdır. U. Labov və digər dilçilər bu araşdırmaları apararaq o zamanlar üçün yeni dilçilik sahəsi olan sosiolinqvistikanın əsasını qoymuşlar. Sosiolinqvistikanın müstəqil bir elm sahəsi olaraq formalaşmasında William Labov, Basil Bernstein və Dell Hymes kimi alimlərin mühüm rolu olmuşdur.

Qeyd etmək lazımdır ki, sosial dialektlərin araşdırılması Böyük Britaniyada da tədricən geniş miqyas almağa başlamışdır. Bu ölkədə sosial dialektlərdən ən məşhurları Standart İngilis dili və Kokni dialektləridir. Standart İngilis dili Londonun yuxarı təbəqələri arasında işlədilirdi və özündə Saksonların xüsusiyyətlərini daşıyırdı. Aşağı təbəqənin aksenti olaraq Kokni dialekti qəbul edilmişdir və o, XVIII-XIX əsrlərdə Londandan kənarda da istifadə olunmağa başlanmışdır. [1, s.13]

P. Trudgill dil davranışının vacib olan iki tərəfini sosial baxımdan dəyərləndirmişdir. Onlardan biri dilin sosial münasibətlərin yaranmasındakı rolu, digəri isə danışan şəxs haqqında ötürdüyü informasiyadır. Bu da dilin cəmiyyətdəki rolunu və onların qarşılıqlı əlaqəsini göstərir. Buna nümunə olaraq iki bir-birini tanımayan ingilisin hər hansı bir sosial qrupda ilk qarşılaşmalarında adətən sağlamlıq və hava haqqında danışmalarını qeyd edə bilərik. Bu da ilk görüş zamanı yaxşı ab-hava yaratmaq, vəziyyəti yumşaltmaq və qarşılıqlı münasibətlər qurmağa xidmət edir. Trudgil-ə görə qarşı tərəflə ünsiyyətdə olmaq insanın nə işlə məşğul olduğunu, hansı təbəqə və ya sosial statusa aid olduğunu öyrənməyə kömək edir. Danışıq tərzi insanın haralı olduğu və necə bir şəxs olduğu haqqında məlumatlar ötürür. [6, s.111]

Dialektlərin qrammatik xüsusiyyətlərini öyrənmək bizə danışan haqqında müəyyən məlumatlar verir. Sosial dialektlərin qrammatik xüsusiyyətləri araşdırılarkən bir neçə amil diqqətə alınır: cümlədə işlədilən feillərin forması və zamanı, inkarlıq, söz sırası, əvəzlik seçimləri və s.

1. I done it last night – burada işlənən "done" feili Standart İngilis dilində qrammatik cəhətdən doğru deyil, lakin ingilisdilli ölkələrin müəyyən bölgələrində işlədilir. Bu forma Amerikanın cənubunda, ən yayğın formada Afrika Amerika Danışıq İngiliscəsində və İngiltərənin şimalında istifadə olunur.
2. I did it last night – burada işlədilən "did" feili Standart İngilis dilində istifadə olunur, yəni həm Amerika, həm də Britaniya ingiliscəsində doğru qəbul olunur.

Bu iki cümlə arasındakı qrammatik fərqlilik bizə onların müxtəlif dialektlərə aid olduğunu göstərir. [4, s. 5]

İngilis dilli şifahi diskursda dialektlərin qrammatik xüsusiyyətlərini bir neçə ölkənin danışıq tərzində izah etmək mümkündür. Bu dialektlərin qrammatik fərqlilikləri aşağıdakı kimidir:

Britaniya ingiliscəsi bir çox aspektlərdən daha formal və konservativdir.

- İndiki bitmiş zaman forması (present perfect) yaxın zamanda bitmiş hərəkətlərin göstərilməsində daha çox istifadə olunur. Məsələn, I have just done my homework- mən ev tapşırığımı indicə qurtarmışam. Bu hərəkət yaxın keçmişi vurğulamaq üçün istifadə olunur.
- Kollektiv isimlər tək formada işlənmələrinə baxmayaraq bir qrup insana aid olduğu üçün cəm feillərlə işlədilir. Məsələn, the team are not doing their best- Komanda əlindən gələnin ən yaxşısını etmir. Komanda sözü morfoloji or leksik cəhətdən tək isim sayılsa da, Britaniya ingiliscəsində bu söz cəm olaraq qəbul edilir.
- "Have got" (var, vardır) ifadəsinin günlük danışıqlarda daha çox istifadə olunduğunu görürük. Məsələn, I have got a lot of pencils- mənim çoxlu karandaşlarım var.

Amerikada yaşayan insanlar ingilis dilini daha sadə istifadə etməyə çalışırlar:

- Keçmiş sadə zamandan (past simple) yaxın zamanda tamamlanmış hərəkətləri göstərmək üçün istifadə olunur. Məsələn, I just arrived- mən indicə gəldim. Burada tamamlanmış hərəkət təsvir olunur.
- Toplu isimlərə bir vahid kimi baxılır və onlar tək feillərlə işlədilir. Məsələn, the team is not doing his best? - komanda əlindən gələnin ən yaxşısını etmir.
- "Have" feilinə mənsubluq bildirəndə və formal kontekstlərdə üstünlük verilir. Məsələn, they have new furniture- onların yeni mebeli var.

Avstraliya ingiliscəsi özündə Amerika və Britaniya ingiliscəsinin xüsusiyyətlərini birləşdirir və özünəməxsus elementlər yaradır:

- Sualın təsdiqini göstərmək üçün sonu "yeah" və ya "eh" ilə bitən cümlələr istifadə olunur. Məsələn, it is cold today, yeah?- bu gün hava soyuqdur, hə/elədir?
- Onlar ingilis dilində "you" (siz) əvəzliyini cəmdə işlətmək üçün "youse" sözündən istifadə edirlər. Məsələn, youse all coming?- siz hamınız gəlirsiniz?
- Qısaldılmış sözləri günlük və qeyri-rəsmi münasibətlərdə tez-tez işlədirlər. Məsələn, "barbecue" (kabab) sözünün qısaltması kimi "barbie" sözünün işlədilməsi buna nümunə ola bilər. Afrika-Amerika Vernakulyar (yerli dil) ingiliscəsinin özünəməxsus qrammatikası var:
- Təkrarlanan hərəkətləri göstərmək üçün onlar "be" feilindən istifadə edirlər. Məsələn, you be missing French classes- sən həmişə fransız dili dərslərini buraxırsan.
- İkiqat inkar formasını mənanı gücləndirmək üçün istifadə edirlər. Məsələn, I ain't never done this kind of thing- mən belə bir şeyi heç vaxt etməmişəm.
- Bəzi cümlələrdə isə "to be" bağlayıcı feilinin ixtisarına rast gəlinir. Məsələn, she so kind- o çox yaxşı. [8]

İngiltərənin sosial quruluşu müxtəlif sosial siniflər əsasında formalaşmışdır. Sosial sinifləri aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. Aşağı təbəqə (Underclass).
2. Fəhlə sinfi (Working class) - ixtisaslı və ixtisassız olaraq alt qruplara bölünür.
3. Orta sinif (Middle class) – aşağı orta sinif, orta sinif və yuxarı orta sinif bu sinfin alt qruplarını təşkil edir.
4. Yuxarı sinif (Upper class).

Hər bir sosial sinfin özünəməxsus "sosiolektləri" var. Dialekt və sosiolekt arasındakı fərq ondan ibarətdir ki, dialektlər daha çox coğrafi bölgü əsasında, lakin sosiolektlər isə sosial qrupların danışıq tərzi olaraq müəyyənləşdirilir. Onlar insanın yaşı, cinsi və etnik mənsubiyyəti ilə bağlı ola bilər. Dil baxımından eyni norma və qaydalardan istifadə edən insanlar "nitq icması" yaradır. Dil və cəmiyyət arasındakı əlaqəni öyrənən insanlar sosiolinqvistlər adlanır.

Aşağı və fəhlə sinfin istifadə etdiyi sosial dialektlərə nümunə olaraq Skaus, Kokni dialektlərini və Multikultural London İngiliscəsini (MLİ) göstərə bilərik. Skauz aksenti daha çox şimal-

qərbi İngiltərədə yerləşən Liverpul şəhərinin Mersey ətrafı ərazilərində yayılmış işçi sinfin istifadə etdiyi dialekt növüdür. Kokni dialekti də İngiltərənin şərqində işçi sinif tərəfindən istifadə olunan dialekt növünə nümunədir. Multikultural London İngiliscəsi isə daha çox işçi sinfin gənc nümayəndələri tərəfindən istifadə olunur. Eyni zamanda bu dialekt Karib dillərinin xüsusiyyətlərini özündə birləşdirən "hibrid dil" hesab olunur. Bu dialektlərin hər birinin özünəməxsus leksik, qrammatik və fonetik xüsusiyyətləri mövcuddur [7].

Skaus dialektinin özünəməxsus fonetik, leksik və qrammatik xüsusiyyətləri vardır, lakin o, müəyyən qədər Kokni dialekti ilə qrammatik cəhətdən oxşarlıq təşkil edir. Skaus dialektinin daşıyıcıları da ikiqat inkardan istifadə edirdilər. Məsələn, *I didn't take no rent of her* – Mən ondan heç kirayə pulu almadım. Nümunədə ikiqat inkarı göstərmək üçün "didn't" və "no" sözləri verilmişdir. Digər fərqlərdən biri you əvəzliyinin cəmdə "youse" kimi işlədilməsidir – "Wot youse up to?". Bu cümlənin Standart İngilis dilindəki qarşılığı belədir: "What are you up to?" – "Nə edirsiniz?"[9].

Bunlardan əlavə, Skaus dialektində danışan insanlar "my" əvəzliyi yerinə "me" əvəzliyini, keçmiş zamanda "were" feili əvəzinə "was" feilini, "those" işarə əvəzliyi yerinə "them" əvəzliyini işlədirlər və bir çox cümlədə köməkçi feilləri ixtisar edirlər.

Multikultural London İngiliscəsi (MLİ) də müəyyən qədər Kokni dialekti və Skaus dialekti ilə oxşarlıq təşkil edir. Yuxarıda da qeyd edildiyi kimi bu dialekt daha çox gənc işçi qruplar arasında yayılmışdır. Multikultural London İngiliscəsinin qrammatik fərqliliklərini nümunələr üzərində göstərmək daha məqsədə uyğundur. Aşağıdakı cümlələr müxtəlif dünya görüşü olan və fərqli irqlərə malik müğənnilər tərəfindən ifa olunmuş 50-dən çox mahnıdan seçilmiş müəyyən hissələrdir və onlar əsasında bu dialektin qrammatik xüsusiyyətlərini müşahidə edə bilərik.

1. *You was at the top but you slipped off* - Sən zirvədə idin, lakin sürüşüb düşdün. Bu nümunədə Standart İngilis dilindən fərqli olaraq "you" şəxs əvəzliyi ilə "was" köməkçi feili istifadə olunmuşdur. Halbuki Standart İngilis dilində biz "you" əvəzliyini "were" köməkçi feili ilə işlədirik.

2. *But that don't mean I don't take you serious* – Amma bu o demək deyil ki, səni ciddi qəbul etmirəm. Bu nümunədə "don't" köməkçi feili və "serious" sözləri Standart İngilis dilindən fərqli işlədilmişdir. Bu cümləni qrammatik cəhətdən düzgün yazmaq istəsək, "don't" köməkçi feili "doesn't"-la və "serious" sifəti "seriously" zərfi ilə əvəz olunmalıdır: "But that doesn't mean I don't take you seriously".

3. *You know that ain't really wise* – Sən bilirsən ki, bu həqiqətən ağıllı deyil. Digər dialektlərin çoxunda da rast gəlindiyi kimi burada da is not /are not köməkçi feillərinin inkarı əvəzinə "ain't" istifadə olunub. Lakin cümlə Standart İngilis dilində "You know that is not / isn't really wise" şəklində yazılmalı idi.

4. *Man got money and moved area* – Adam (o) pul qazandı və başqa yerə köçdü. Bu nümunəni bu şəkildə tərcümə etmək daha düzgün olar, çünki burada "man" sözü ümumi bir insana işarə olaraq işlədilmişdir. Ümumiyyətlə, Multikultural London İngiliscəsində "man" sözü əvəzlik olaraq istifadə olunur. I, me və hər hansı bir üçüncü şəxsi işarə edir [2, s. 11].

Dialektlərin qrammatik xüsusiyyətlərini analiz edərkən "My Fair Lady" filmi əsasında onları yenidən nəzərdən keçirmək bizə Kokni dialektinin Standart İngilis dilindən fərqli cəhətlərini öyrənməyə kömək edir. Burada yüksək sosial təbəqə ilə işçi sinif arasındakı danışıq fərqləri özünü açıqca göstərir. Onların qurduqları cümlələr, istifadə etdikləri qrammatik cəhətdən düzgün olan və olmayan cümlə tipləri bizə Standart İngilis dili ilə Kokni dialekti arasındakı fərqləri göstərir.

Filmin əsas qəhrəmanı olan Eliza filmin əvvəllərində nizamsız, qeyri-standart və qrammatik cəhətdən düzgün hesab edilməyən cümlə strukturlarından istifadə edir, eyni zamanda onları qəribə ton və intonasiyalarda işlədir. Eliza Henri üçün vacib hesab edilən yığıncaqda xalasının ölümü haqqında danışarkən *"done her in" – "onu öldürdü"* və ya *"I ain't done nothing wrong"- "Mən səhv bir şey etməmişəm"* kimi yanlış cümlə quruluşları işlədir. Birinci cümlənin feili düzgün işlədilməyib və cümlə quruluşu da yanlışdır. İkinci cümlədə iki inkar eyni cümlədə istifadə olunub və cümlənin feili də yanlışdır. Digər epizodlardan birində *"I don't want to have no truck with him"- "Mən onunla heç bir əlaqə qurmaq istəmirəm"* cümləsini işlətmiş və bunun kimi bir çox qeyri-

standart və düzgün olmayan cümlələrdən istifadə etmişdir. Bu tip danışıq sərgiləyən personajlar o dövrdə İngiltərədə yaşayan aşağı sosial təbəqəyə mənsub və təhsilsiz insanları canlandırırdı.

Filmdə Eliza-dan fərqli olaraq düzgün, səlis, standart normalara uyğun və fonetik cəhətdən düzgün sözlər işlədən və cümlələr quran obraz professor Henri Higgens-dir. O, Received Pronunciation (Qəbul edilmiş tələffüz forması) dialektinin bütün xüsusiyyətlərini nümayiş etdirən yuxarı sinif nümayəndəsidir və film boyu Eliza-nın yüksək təbəqəyə mənsub insanlar kimi danışması üçün ona təlimlər keçir. Ümumiyyətlə, Received Pronunciation (Qəbul edilmiş tələffüz forması) cəmiyyət tərəfindən sosial statusun və elmi nailiyyətlərin bir simvolu kimi qəbul edilir. Bu dialektin daşıyıcıları sözləri aydın tələffüz edir, standartlaşmış və fonetik normalara uyğun şəkildə danışırlar. Bunlarla yanaşı, yuxarı təbəqə nümayəndələri geniş, dəqiq və akademik cəhətdən zəngin lüğət bazasından istifadə edərək qrammatik cəhətdən düzgün cümlələrlə danışırlar. Henri mürəkkəb lakin düzgün cümlə quruluşlarından istifadə edərək, geniş lüğət bazasına əsaslanaraq səlis danışır və sosial normalara da əməl edir [3, s.217].

Kokni dialektinin əsas göstəriciləri seçilmiş cümlələrin bəsit və ya qısaldılmış olması, cümlələr qurularkən istifadə edilməsi vacib köməkçi sözlərin (fellərin) buraxılması, qeyri-standart söz sırasından istifadə və günlük ifadələrin üstünlük təşkil etməsidir. Eliza-nın Kokni dialektindən RP (Received Pronunciation)-ya keçidi onun aşağı sosial təbəqədən yuxarı sosial təbəqəyə keçidini də göstərir [5].

Elizanın nitqində qeyri-standart cümlələrin çoxluğu, yəni qrammatik cəhətdən düzgün olmayan cümlələrin istifadəsi onun nitqinin anlaşılmasını çətinləşdirirdi. Bundan əlavə, əsərdə Eliza "ledilərə xas olmayan" tərzdə danışıq sərgiləyirdi və o, bu xüsusiyyətlərə görə aşağı sosial təbəqəyə aid edilirdi. Onun sosial davranışlarının çatışmazlığını göstərən digər əlamətlərdən biri də Elizanın atasına üsyan olaraq dilini çölə çıxarıb "ahh" deməsidir. Eyni zamanda Eliza əsəbini və narazılığını bildirmək üçün "Aooow" səsini çox işlədir. Aşağıdakı nümunə bunu izah edir:

- "Aooow! I ain't dirty. I washed me face n' 'ands afore I come, I did," - "Aooow! Mən çirkli deyiləm. Mən üzümü gəlməmişdən qabaq yumuşam". Bu nümunədə Eliza "am not" feili əvəzinə "ain't", "my" əvəzliyi əvəzinə "me", "before" zərfi əvəzinə "afore", "came" feili əvəzinə isə "come" sözlərini işlədir.

Yuxarıda verilmiş nümunə qrammatik, leksik və fonetik cəhətdən düzgün deyil. Cümlədə feilin inkar formasının və əvəzlik seçiminin yanlış edilməsi, bununla yanaşı feilin zamanının düzgün seçilməməsi və buna görə zaman uzlaşmasının pozulması cümləni əsasən qrammatik cəhətdən yanlış edir. Cümləni qrammatik cəhətdən səhv edən amillərdən biri də Eliza-nın bəzi cümlələrinin sonuna əminlik yaratmaq üçün "I did" ifadəsini əlavə etməsidir. Bu nitq üslubundan istifadəyə Standart İngilis dilində rast gəlinmir. Kokni dialektinin istifadəçiləri bu tip danışıq üslubunu daha çox işlədirlər.

Bunlardan əlavə, cümlədə "before" əvəzinə "afore" sözünün istifadəsi onu leksik və "and" əvəzinə " n' ", "hands" yerinə " 'ands" sözlərinin işlədilməsi isə onu fonetik cəhətdən səhv edir.

Nəticə: Yuxarıda nəzərdən keçirdiyimiz sosial dialektlərin hamısının müəyyən ortaq və fərqli xüsusiyyətləri vardır. Əksər sosial icmalar ikiqat inkardan istifadə edir, cümlə daxilindəki köməkçi feilləri ixtisar edir və şəxs əvəzliyini obyekt əvəzliyi ilə əvəzləyirlər. Lakin onlar arasındakı fərqliliklər də onların hansı sosial icmalara məxsus olduğuna işarə edir.

Ədəbiyyat siyahısı

1. S.Məmmədzadə, Social and Regional Variations of English Language, Global Journal of HUMAN-SOCIAL SCIENCE: G Linguistics & Education Volume 15 Issue 12 Version 1.0, 2015, s. 13-16.
2. B. D. S. Haiett, Attitudes towards Multicultural London English in Greater Manchester: How Mancunians Approach Multicultural London English, Universitat de les Illes Balears, Grau d'Estudis Anglesos, 2021-2022 – p. 1-23.
3. Di Wang, Sociolinguistic Perspectives on English Phonetic Dialects: A Case Study of My Fair Lady, School of Foreign Languages, Henan University of Technology, 2024.

4. J. K. Chambers, University of Toronto, Peter Trudgill, Université de Lausanne, Switzerland, Dialectology Second edition, Cambridge University Press, 1998
5. "My Fair Lady" 1964 film based on George Bernard Shaw's play "Pygmalion", 1912.
6. Thren, A.T. Sociolinguistic Analysis of Societal Class Differentiation in "My Fair Lady"// In Proceedings of the 3rd International Conference on Social Sciences, Laws, Arts and Humanities - Volume 1: BINUS-JIC- 2018 - p. 110-118.
7. https://languageawarenessbyrosalie.weebly.com/.
8. https://library.fiveable.me/fundamentals-of-the-grammar-of-standard-english/unit-15/major-dialects-english-grammatical-features/studyguide/ iSAQyXT70Rk0lcMB
9. https://scousesite.wordpress.com/a-bit-of-grammar/#_ftn3.

Shukurova L.F

Grammatical features of social dialects in british english

Summary

The article examines the social and regional stratification of dialects in British English and the grammatical features of social dialects. The main groups of social dialects include "Cockney", "Scouse", and "Multicultural London English (MLE)". Unlike regional dialects, social dialects are utilized by different social groups within the same geographical area. In studying these dialects, particular importance is attached to the analysis of authentic speech produced by members of specific social communities, as well as the speech of characters in the film My Fair Lady, plays an important role.

Keywords: *Social dialects, regional dialects, sociolects, Cockney dialect, Scouse dialect, Multicultural London English, Standard English.*

Шукурова Л.Ф

Грамматические особенности социальных диалектов в Британском английском языке

Резюме

Статья рассматривает социальную и региональную стратификацию диалектов в британском английском языке, а также грамматические особенности социальных диалектов. Основными группами социальных диалектов являются "Cockney", "Scouse" и "Multicultural London English (MLE)". В отличие от региональных диалектов, социальные диалекты используются различными социальными группами в пределах одной и той же географической территории. При изучении этих диалектов особое значение придается анализу аутентичной речи, производимой представителями конкретных социальных сообществ, а также речи персонажей фильма "My Fair Lady", что играет важную роль в понимании функционирования социальных диалектов и их грамматических особенностей.

Ключевые слова: *социальные диалекты, региональные диалекты, социолекты, диалект Cockney, диалект Scouse, Multicultural London English, стандартный английский язык.*

Çapa tövsiyə edən: ***Azərbaycan Turizm və Menecment Universiteti***

Rəyçilər: ***professor A.Məmmədov***
dosent Ə.Məmmədova

UOT-811.11-112
Səhifə: 146-150
https://doi.org/10.59849/2663-8967.2026.1.146

Nəzrin Mustafayeva
Bakı Dövlət Universiteti
nezrinmustafayeva9@gmail.com

DİLİN MƏNİMSƏNİLMƏSİNİN LİNQVOPSİXOLOJİ PROBLEMLƏRİ: PSİXOLOJİ VƏ LİNQVİSTİK ASPEKTLƏR

XÜLASƏ

Dilin mənimsənilməsi məsələsi müxtəlif – linqvistik, psixoloji, bioloji, sosioloji cəhətləri əhatə etsə də, onun mərkəzində psixoloji və linqvistik aspektlər dayanır. Hər iki aspekt görkəmli Amerika "dil mühəndisi" Noam Xomskinin keçən əsrin ortalarından başlayan, 90-cı illərdən daha dərin metodoloji əhəmiyyət kəsb edən araşdırmaları ilə öz prinsipial mövqelərini qərarlaşdırmışdır. Dilin (dillərin) universal təbiəti, alt və üst strukturlar arasındakı transformativ əlaqələr dil və təfəkkür münasibətlərinin mümkün qədər daha emprik, daha sadə və dilin mənimsənilməsi probleminin həlli üçün daha optimal baxışlar sisteminin formalaşmasına imkanlar açmışdır.

Doğrudur, N.Xomskinin "Minimalist nəzəriyyə"sində sual doğuran bir sıra məqamlar vardır, ancaq dilin mənimsənilməsi probleminin izahı üçün təklif olunan digər nəzəriyyələr, əvvəla, bu qədər ardıcıl deyil, ikincisi, dillə təfəkkürü qarşılıqlı əlaqədə almaqda bu qədər texniki dəqiqliyi özündə ehtiva etmir. Odur ki, son dərəcədə mürəkkəb problemin həllinə kömək edəcək prinsiplərin təkmilləşdirilməsində N.Xomski "layihə"si nəinki elmi nüfuzunu qoruyub saxlamaqda, eyni zamanda müəyyən "törədicilik" imkanları nümayiş etdirməkdədir.

Açar sözlər: *N.Xomski, dilçilik, psixoloji aspekt, linqvistik aspekt, V.Humboldt, antroposentrik dilçilik, törədici qrammatika.*

Giriş: Dilçilik elminin antroposentrik inkişaf paradiqmasına daxil olduğu keçən əsrin ortalarından sonra dilin mənimsənilməsi probleminin həllinə çox müxtəlif elmi istiqamətlərin nüfuzu, humanitar, təbiət və texniki araşdırma metodlarının əməkdaşlıq cəhdləri konkret nəticələrin alınması üçün müəyyən ümidlər versə də, etiraf etmək lazımdır ki, tədqiqat prosedurunun özünü də xeyli dərəcədə mürəkkəbləşdirmişdir.

A.Məmmədov yazır: "Məlum olduğu kimi, psixolinqvistika iki elm sahəsinin – dilçilik və psixologiyanın qovşağında yaranmış və onun predmeti dil və nitqin psixoloji tərəflərinin tədqiqidir. Maraqlıdır ki, psixolinqvistik baxışların təşəkkül tapdığı dövrlər ABŞ- da biheviorist (davranış) psixologiyasının sürətli inkişafı ilə bağlıdır. O dövrdə psixolinqvistikaya sırf psixoloji və sırf linqvistik aspektdən yanaşma mövcud idi" [1, s. 14].

A.Məmmədov ilk yanaşmanın Ç.Osqudun davranış nəzəriyyəsinə əsaslandığını qeyd edirsə, digər tərəfdən N.Xomskinin yeni yanaşma – transformasion törəmə (linqvistika) modeli təklif etdiyini xatırlatdıqdan sonra əlavə edir ki, "ümumiyyətlə törədici dilçiliyin fərqləndirici xüsusiyyətlərindən biri bu təlimdə dilçiliyin dil haqqındakı elm kimi deyil, dili bilmək haqqında elm kimi nəzərdən keçirilməsidir. Bu dilçilikdə nitqə hər hansı bir abstrakt anlayış kimi deyil, insan təfəkkürünün, onun bir hissəsi olan insanın dil aparatının bir xüsusiyyəti qismində baxılır" [1, s. 14].

Törədici qrammatika ilk planda linqvistik aspekti çıxarır, digər tərəfdən arxa planda isə bioloji, psixoloji və sosioloji aspektləri inkar etmir və onları danılmaz fakt olaraq, insan mövcudluğunun üzvi elementləri sayır. Bununla yanaşı dilin araşdırılması zamanı "Dil və təfəkkür" müəllifi linqvistik və psixoloji aspektlərin birbaşa qarşılıqlı əlaqəsindən bəhs edir və yazır: "Düşünürəm ki, dil təliminin uzun müddətli əhəmiyyəti ondadır ki, bu təlimdə psixologiyanın bəzi mərkəzi məsələlərinin nisbətən dəqiq və aydın formulasını vermək və onların çoxsaylı sübutunu gətirmək mümkündür. Daha əhəmiyyətlisi isə dil təliminin hal-hazırda unikal mahiyyət daşımasıdır" [1, s. 105].

N.Xomski göstərir ki, bəhs olunan unikallığın dil haqqındakı yeni təlim (törədici dilçilik) məlumat bazasının zənginləşməsi ilə yanaşı, problemlərin həllində psixologiya ilə linqvistikanın strateji əməkdaşlığında, habelə köklü, əsaslı problemlərin bərabər müəyyənləşdirilməsində özünü göstərir və həmçinin heyvandan insana doğru inkişafın düzgün olub-olmaması probleminə də məhz bu baxımdan yanaşmağı təklif edir:

"...İnsan dilinin intellektual qabiliyyətinin daha aşağı səviyyələrində özünü büruzə verən çox primitiv sistemlərdən təkamüllə yarandığını izah edən problemləri qaldırmaq kifayət qədər mənasızdır" [1, s. 106].

Amerika dilçisi həmin mənasızlığı izah edərkən mövcud araşdırmalara , daha doğru desək, onların tənqidi təhlilinə əsaslanmağa çalışır və bunun üçün ilk olaraq analitik fəlsəfənin avstriyalı nümayəndəsi K.Popperin "dilin digər orqanizmlərdə aşkar olunana bənzər daha sadə sistemlərdən təkamülü" haqqındakı fikrini diqqət mərkəzinə alaraq yazır:

"Popper iddia edir ki, dil təkamülü bir neçə mərhələdən keçmişdir. Məsələn, "aşağı mərhələ"də səsli jestlər emosional vəziyyətin ifadəsi üçün istifadə olunur, "yuxarı mərhələ"də isə tələffüz edilən səslər fikrin, Popperin terminlərində, təsvir və tənqidi dəlil məqsədilə ifadəsi üçün istifadə olunur" [1, s. 106].

Aydın olur ki, K.Popperin ayırdığı "birinci mərhələ"də, əgər belə demək mümkünsə, dil psixikanın, "ikinci mərhələ"də isə, əksinə, psixika dilin təsiri altında olur. Ehtimal olunur ki, N.Xomski bu cür əks münasibəti nəzərə alaraq yazır: "Onun dilin təkamül mərhələləri haqqındakı fikirləri belə bir ardıcıllıq nəzərdə tutur, lakin faktiki olaraq o, aşağı ilə yuxarı mərhələlər arasında heç bir əlaqə müəyyənləşdirmir və keçidin bir mərhələdən digərinə adlaya bilməsi mexanizmini təklif etmir" [1, s. 106-107].

Əslində, K.Popperin müəyyənləşdirdiyi bu "təkamül mərhələləri" arasında "Dil və təfəkkür" müəllifinin dediyi kimi, nəinki üzvi, məntiqi bir əlaqə də yoxdur, həmçinin həmin "mərhələlər"in praktik olaraq varlığından danışmaq da şübhəlidir; yəni "səsli jestlərin emosional vəziyyətin ifadəsi üçün istifadəsi" öz-özlüyündə hansısa bir "təkamül vəziyyəti"ni əks etdirə bilmədiyi kimi "tələffüz edilən səslə fikrin təsvir və tənqidi dəlil məqsədilə ifadəsi üçün istifadə" də son dərəcə absurd adlandırıla bilər. Burada mürəkkəb olduğu qədər də təbii linqvistik-psixoloji məsələyə, bir növ, mexaniki və ya sxematik baxışın yer aldığını da qeyd etmək lazım gəlir.

Öz fikirlərinin izahına çox zaman V.fon Humboldta istinadən başlayan "Dil və təfəkkür" müəllifi onun "dil forması" barədəki təsəvvür-təlimini xatırladır. Orada göstərilirdi ki, "dil forması" tələffüz edilən, struktur cəhətdən təşkil olunmuş siqnalları fikrin ifadəsinədək qaldırmaq kimi əqli fəaliyyətə işarə edən daimi və dəyişməyən proseslər sistemidir" [1, s.111]. Bu istinaddan sonra öz qrammatikasının linqvistik və psixoloji təhlil imkanlarını aşağıdakı şəkildə dəyərləndirir:

"Hər bir belə qrammatikada xüsusi, şəxsi səciyyələndirən elementlər var və onların seçilməsi bir spesifik insan dilini təyin edir; onda həmçinin "universal qrammatika"nın tədqiqinin predmetini müəyyənləşdirən hər hansı bir insan dilinin formasını və təşkilini şərtləndirən ümumi universal elementlər mövcuddur" [1, s. 111].

Müasir koqnitiv dilçilik araşdırmaları təsdiq edir ki, dilin mənimsənilməsi biliklərin toplanması, sistemə salınması və ötürülməsi proseslərindən kənarda baş verə bilməz. "Məlum məsələdir ki, dil öz-özlüyündə dünyanı dərk edib onun mənzərəsini yaradacaq bir mexanizm deyil. Burada həlledici işi təfəkkür – dərrakə – şüur (və yaddaş) fenomeni görür, dil isə kifayət qədər fəal bir şəkildə həmin işin nəticələrini təsbit edir" [2, s. 188]. Əlbəttə, bu son mülahizəyə də mexaniki yanaşılmamalıdır. Hər şeydən əvvəl ona görə ki, dilin təfəkkürlə münasibəti yalnız son dərəcə yüksək fəlsəfi- metodoloji mücərrədləşmə əsasında təsəvvür və ya təyin edilə bilər.

N.Xomski törədici qrammatikanın səriştə konsepsiyasının inkişafındakı rolunu qiymətləndirərkən əlavə etmişdir ki, "biz səriştənin, yəni ayrı-ayrı dillər üçün formalaşmış fraqmentar törədici qrammatikaların izahı sahəsində ilk addımları atmışıq. Dil təlimi inkişaf etdikcə biz əminliklə gözləyə bilərik ki, həmin qrammatikalar həcm və dərinlik baxımından genişlənəcək" [1,s.119].

"Dil və təfəkkür" müəllifinin törədici qrammatikanın gələcək imkanları barədəki mülahizələrində dilin mənimsənilməsi problemi ilə bağlı maraq doğurmayan cəhətlərdən biri də törədici

qrammatikanın nə dərəcədə linqvistik və nə dərəcədə psixoloji olub-olmaması sualıdır. Verilən izahlar belə bir nəticəyə gətirir ki, burada da kəskin hüdudlandırma qoymaq mümkün deyil.

Yenidən biliklə təcrübə arasındakı münasibət məsələsinə qayıdan N.Xomski "anadangəlmə strukturu müəyyənləşdirmə"yə ona görə xüsusi cəhd göstərir ki, "bu struktur mövcud zaman və faktiki materialın əldə olunması məhdudiyyətləri çərçivəsində emprik olaraq əsaslandırılmış generativ qrammatikaların formalaşmasını izah edə bilər" [1,s.120]. Görkəmli dilçi-mütəfəkkir əmindir ki, "dilin mənimsənilməsini mümkün edən bu anadangəlmə mental strukturun həqiqi təbiətinə dair baxış fərqləri"ni müəyyənləşdirmək üçün mövcud "faktiki vəziyyət kifayət qədər dumanlı" olsa da, həmin məsələnin emprik olması şübhəsizdir və... həll edilə bilər" [1, s.120].

"Dil və təfəkkür" kitabında öz əksini tapmış mülahizələr, ümumiyyətlə, belə bir təsəvvür doğurur ki, N.Xomski dilin mənimsənilməsi məsələsinə dair qənaətlərində çox nadir hallarda nəzəri-fəlsəfi, yaxud metodoloji mövqe sərgiləməyə cəhd göstərir. Onun əsas məqəsədi problemi mümkün qədər özünün emprik təhlilə gələn tərəfləri ilə həll etməkdən ibarətdir. Amerika filosofları N.Qudmən və H.Putnəmin baxışları ilə polemikaya girərkən də, prinsip etibarilə, həmin mövqedən çıxış edir.

N.Qudmənin dilin mənimsənilməsi barədə Kartezian dövründən başlayaraq meydana çıxmış "anadangəlmə" doktrinasının tarixini düzgün başa düşməməkdə ittiham edən N.Xomski deyir: "Tarixi məsələləri kənara qoysaq mən düşünürəm ki, Qudmən əhəmiyyətli problemi də səhv şərh edir. O, mülahizə irəli sürür ki, birinci dilin öyrənilməsi uşağa real problem yaratmır, çünki bu dili öyrənməzdən əvvəl o, ətraf mühitlə adi münasibətlərində simvollar sistemi haqqında bəsit bilikləri artıq mənimsəyir. Beləliklə, birinci dilin öyrənilməsi ikinci dilin öyrənilməsi ilə o mənada analogiya təşkil edir ki, fundamental addım artıq atılmışdır və detallar mövcud çərçivədə nəzərdən keçirilə bilər" [1, s.122].

N.Qudmənin bu "təfsir"ində ciddi qüsurların olduğunu göstərən N.Xomski ilk növbədə ona görə haqlıdır ki, "o, bundan əvvəl dilin heyvanlararası ünsiyyətdən yaranması arqumentilə əlaqədar müzakirəyə çıxarılmış ikili mahiyyətə əsaslanır" [1,s.123]. İkincisi, N.Qudmən, bir tərəfdən, "dil" terminini heyvanlara münasibətdə metaforik mənada işlətməklə kifayətlənmir, eyni zamanda, "onun arqumenti tamamilə "simvolik sistem" terminindən qeyri-müəyyən istifadəyə əsaslanır və həmin arqument bu terminə dəqiq məna verməyə cəhd edən kimi alt-üst olur" [1, s. 123].

Məsələyə, obyektiv yanaşma bir tərəfdən, anlayışları düzgün anlayıb elmi təhkiyəyə daxil edilməsi ilə bağlıdırsa, digər tərəfdən, mühakimənin dəqiq anlayışlar əsasında yürüdülməsindən asılıdır. N.Qudmənin "dilə qədərki simvol sistemləri" anlayışı şübhəlidir. Çünki N.Qudmən "simvolik sistem" dedikdə "daxilində jestlərin", sensor hərəkətlərin və bütün növ dərketmə siqnalları kimi funksiya daşıyan elementar dilə qədərki simvollar sistemlərini" nəzərdə tutur [1, s. 123].

İnsanın bioloji və ya fizioloji "dil"inin insan dili tarixində ayrıca bir dövr olduğu fikrində israr etmək öz-özlüyündə nə qədər maraqlı olsa da, bunu dil təkamülünün təbii bir hadisəsi saymaq o qədər yanlışdır. Vaxtilə sovet dövründə yeni dil nəzəriyyəsi və ya təlimi iddiası ilə ortaya çıxan N.Y.Marr da belə bir yanlışlığa, yaxud spekulyasiyaya yol vermişdi.

Odur ki, N.Xomski heç bir tərəddüd etmədən bildirir ki, "dilə qədərki simvollar sistemləri "birinci dilin – ikinci dilin öyrənilməsində istifadə olunması şəklində izah və öyrətmə üçün istifadə oluna bilməz. Beləliklə, hətta onun az əsaslandığına müraciət etsək belə, Qudmənin dəlilləri mənasızdır" [1, s.123].

H.Putnəmə gəldikdə isə N.Xomski deyir: "Putnəm iddia edir ki, əgər dillər arasında əhəmiyyətli eyniliklər aşkarlansa belə anadangəlmə universal qrammatikadan, yəni onların ümumi mənşəyindən daha sadə şərh olar, lakin bu təklif nəzərdən keçirilən problemin ciddi şəkildə başa düşülməsini ehtiva edir" [1, s. 128].

Eyni zamanda onu da bildirir ki, "dilin qrammatikası uşaq tərəfindən ona təqdim edilmiş materialdan aşkarlanmalıdır. Öncə qeyd olunduğu kimi, emprik problem ilkin struktur haqqında fərziyyə tapmalıdır. Bu fərziyyə spesifik qrammatikanın uşaq tərəfindən formalaşdırdığı faktı izah etmək üçün kifayət olsa da, dillərin məlum müxtəlifliyinin saxtalaşdırılması üçün kifayət deyil" [1, s.128].

Fərdin sərəncamında olan dil, heç şübhəsiz, bütün hallarda onun ümumən dilə hakim olmasını şərtləndirmədiyinə görədir ki, dilin mənimsənilməsi məsələsində fərdi olanla universal olanı bir-birindən fərqləndirmək lazımdır. "Biz, görünür ki, uşağın dildən normal şəkildə istifadə etmək qabiliyyətini izah etməyə çalışarkən ona bu qrammatikanı aid etməyə sövq edilirik" [1, s. 128].

Dilin mənimsənilməsinin linqvopsixoloji problemləri barədə N.Xomskinin son qənaət və mülahizələri onun "Təbiət və dil haqqında" kitabında (Kembric Univrsiteti, 2002; rusca nəşri, 2005) verilmişdir. Kitaba redaktor- tərtibçilərin yazdığı birinci fəsildə müəllifin görüşləri ümumiləşdirilmişdir ki, burada dilin mənimsənilməsi mövzusundan bəhs edən belə bir strateji fikir öz əksini tapır: "Dili mənimsəmək – dərrakənin törətdiklərindən mümkün olanlar arasından onları seçmək deməkdir ki, təcrübə əsasında alınıb, digərləri isə atılır. Beləliklə, dil bilgisinin elementini mənimsəmək – dərrakənin a priori təklif etdiklərindən başqa bütün mümkün olanları atmaqdır" [4, s. 33].

Nəticə: Deməli, dillərin universal xarakteri, yəni alt və üst strukturlar arasındakı transformativ əlaqələrin olması dil və təfəkkür münasibətlərinin mümkün qədər daha emprik, daha sadə və dilin mənimsənilməsi probleminin həlli üçün daha optimal baxışlar sisteminin formalaşmasına imkanlar açır.

Ədəbiyyat siyahısı

1. Xomski N. Dil və təfəkkür, Bakı, "Kitab aləmi", 2006, 152 səh.
2. Cəfərov N. Ümumi dilçilik, Bakı, "Təhsil", 2023, 216 səh.
3. Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri lüğəti, Bakı, "Elm və təhsil", 2020, 656 səh.
4. Хомский Н. О природе и языке, Москва, КомКнига, 2005, 288 стр.
5. Belyanin V.P. Psixolinqvistika, Bakı, "Elm və təhsil", 2020, 264 səh.
6. Norman B.Y. Psixolinqvistikanın əsasları, Bakı, "Elm və təhsil", 2021, 160 səh.
7. Zalevskaya A.A. İkidillilik nəzəriyyəsinin məsələləri, Bakı, "Elm və təhsil", 2020, 212 səh.
8. Savaş B. Dilbilimde Yeni Yönelişler, Ankara, Papatya, 2017, 200 səh.

Nazrin Mustafayeva

Psycholinguistic problems of language acquisition: psychological and linguistic aspects

Summary

The issue of language acquisition encompasses various dimensions, including linguistic, psychological, biological, and sociological aspects; however, psychological and linguistic factors occupy a central position in its analysis. These two aspects acquired their principal theoretical foundations through the research of the prominent American linguist Noam Chomsky, whose studies, initiated in the mid-twentieth century and gaining deeper methodological significance in the 1990s, have played a crucial role in modern linguistics.

The universal nature of language and the transformational relationships between deep and surface structures have enabled the development of more empirical, simplified, and methodologically optimal approaches to understanding the relationship between language and thought, as well as to addressing the problem of language acquisition.

Although Chomsky's Minimalist Program contains a number of debatable points, alternative theories proposed to explain language acquisition are, first, less consistent and, second, do not demonstrate the same level of technical precision in analyzing the interaction between language and cognition. Therefore, Chomsky's theoretical framework not only retains its scientific authority but also demonstrates significant generative potential in refining principles that may contribute to solving this highly complex problem.

Keywords: *N. Chomsky, linguistics, psychological aspect, linguistic aspect, W. Humboldt, anthropocentric linguistics, generative grammar.*

Назрин Мустафаева

Психолингвистические проблемы усвоения языка:
психологические и лингвистические аспекты

Резюме

Проблема усвоения языка охватывает различные аспекты — лингвистические, психологические, биологические и социологические, однако центральное место в её исследовании занимают психологический и лингвистический подходы. Эти аспекты получили своё принципиальное теоретическое обоснование в трудах выдающегося американского лингвиста Ноама Хомского, чьи исследования, начавшиеся в середине XX века и приобретшие особую методологическую значимость в 1990-е годы, сыграли важную роль в развитии современного языкознания.

Идея универсальной природы языка, а также трансформационные связи между глубинными и поверхностными структурами способствовали формированию более эмпирических, упрощённых и методологически оптимальных представлений о соотношении языка и мышления и о решении проблемы усвоения языка.

Несмотря на наличие ряда дискуссионных положений в «Минималистской программе» Н. Хомского, альтернативные теории, предлагаемые для объяснения усвоения языка, отличаются меньшей последовательностью и не обладают сопоставимой технической точностью в анализе взаимодействия языка и мышления. В связи с этим теория Хомского не только сохраняет свою научную значимость, но и демонстрирует значительный порождающий потенциал в совершенствовании принципов, способствующих решению данной сложной проблемы.

Ключевые слова: *Н.Хомский, лингвистика, психологический аспект, лингвистический аспект, В.Гумбольдт, антропоцентрическая лингвистика, порождающая грамматика.*

Çapa tövsiyə edən: ***Bakı Dövlət Universiteti***

Rəyçilər: ***professor N.Cəfərov***
fil.ü.e.d. C.Muradov

UOT-811.11-112
Səhifə: 151-155
https://doi.org/10.59849/2663-8967.2026.1.151

Kəmalə Quliyeva
AMEA Nəsimi adına Dilçilik İnstitutu

LİNQVOKULTUROLOGİYADA NƏZAKƏTLİLİK KATEQORİYASI

XÜLASƏ

Bu məqalə mədəniyyətlərarası ünsiyyətdə nəzakəti ifadə etməyin milli və mədəni xüsusiyyətlərini təhlil etmək üçün linqvakultural yanaşma tətbiq edir. Tədqiqatın aktuallığı artan qloballaşma, beynəlxalq əlaqələrin genişlənməsi və ünsiyyətin əhəmiyyətli bir hissəsinin rəqəmsal mühitə keçməsi ilə müəyyən edilir. Tədqiqatın məqsədi linqvakultural analitik modellərdən istifadə edərək müxtəlif linqvistik və mədəni ənənələrdə nəzakəti ifadə etməyin milli və mədəni xüsusiyyətlərini müəyyən etmək və təsvir etməkdir. Çünki nəzakəti öyrənməyə linqvakultural və praqmatik yanaşmalar inteqrasiya edir və onun şifahi, qeyri-şifahi və mədəni-semantik aspektlərini hərtərəfli başa düşməyə imkan verir. Tədqiqatın yeniliyi həmçinin ənənəvi nəzakət modellərinin mədəni normaların hibridləşməsi kontekstində necə dəyişdiyinin araşdırılmasından irəli gəlir ki, bu da müasir dilçilikdə məhdud diqqət çəkən bir mövzudur.

Açar sözlər: *milli, dilçilik, nəzakət, mədəni kod, ünsiyyət.*

Giriş: Nəzakət fenomeni sosiolinqvistlər və praqmatistlər tərəfindən davamlı olaraq araşdırılan mövzu olmuşdur. Müxtəlif perspektivlərdən olan tədqiqatçılar nəzakətin mədəni variasiyalarını nəzərə alaraq onu araşdırmaq üçün daha əhatəli və universal tətbiq olunan bir çərçivə hazırlamağı hədəfləyirlər. Lakoff [10], Braun və Levinson [2], Liç [11], Freyzer [4] və Yassinin [15] əsərləri də daxil olmaqla çoxsaylı tədqiqatlar nəzakət nəzəriyyələrinin formalaşdırılmasına yönəlmişdir. Hill və digərlərinin [9] və Yassinin [15] əsərlərində müşahidə edildiyi kimi, digər tədqiqatlar mədəniyyətə xas kontekstləri və nəzakət taktikalarını araşdırmışdır. Bundan əlavə, tədqiqatçılar bir neçə tədqiqatda [3; 6; 8; 13; 14] nümunə göstərildiyi kimi, mövcud çərçivələri müxtəlif mədəni mühitlərə tətbiq etmişlər. Bundan əlavə, bəzi tədqiqatlar Braun və Levinsonun çərçivəsinin anql-sakson mədəniyyətinə əsaslandığını və onun Asiya mədəniyyətləri ilə uyğunluğunu məhdudlaşdırdığını iddia edir [7; 12].

linqvistik presuppozisiyaları paylaşdıqları təqdirdə, invektiv vahidlər kommunikativ balanssızlıq yaratmır. Belə vəziyyətlərdə söyüş sözlərinin invektiv yükü zəifləyir və onların ekspressivliyi əhəmiyyətli dərəcədə azalır. Məsələn, aşağıdakı ifadədə kobud leksika mənfi qiymətləndirmə deyil, şəxsi təcrübənin emosional təsviri funksiyasını yerinə yetirir: "Ah, mən bədii gimnastika ilə məşğul olurdum, qızımı heç vaxt ora göndərməzdim. Bəli, üstünlükləri çoxdur -intizam, fiqur -lakin mənfi cəhətləri də var: uşaqların dartılma ağrısından, bağların cırılmasından, kobudluqdan və məşqçinin qışqırığından (hətta vura bilərdi) göz yaşları. İlk il ağladım; valideynlərim məni məcbur aparırdılar, amma sonra öyrəşdim".

İnvektivlər xüsusilə yüksək emosional və fiziki gərginliklə müşayiət olunan qeyri-standart situasiyalarda xüsusi funksional əhəmiyyət kəsb edir. Məsələn, tibb diskursunda bu hal aşağıdakı şəkildə izah olunur: "Əməliyyatlar zamanı heç söyüş söyməmək psixika üçün daha çətindir. Səs çıxarmaq gərginliyi azaltmaq, cərrahların çətin vəziyyətlərdə kəskin ehtiyac duyduğu daxili tarazlığı qorumaq deməkdir. Nəzarətə gəldikdə isə, əməliyyat zamanı söyüş söyən heç bir cərrah özünə nəzarəti itirmir. O, bunu şüurlu şəkildə edir. İnanın, bu, doğrudur" [1, s.74].

İnvektivliyin bu funksiyası-psixoloji və emosional gərginliyin azaldılması - tədqiq olunan bütün institusional diskurs növlərində müşahidə olunmuşdur. İnvektiv ifadələr xüsusilə çoxsaylı səhvlərin baş verdiyi, avadanlığın sıradan çıxdığı və ya ekstremal şərait yarandığı hallarda intensivləşir. Məsələn: "Saat 10:41-də uçuş qeyd cihazları təyyarənin meşəlik əraziyə toqquşmasının səsini qeydə aldı. İkinci pilotun "əyri" deyə qışqırığı eşidilir. Dispetçer son anda vəziyyəti xilas etməyə çalışaraq çarəsizcə "Dayan!" deyə səslənir. Bir saniyə sonra isə kabinədə olan direktor Kazananın dəhşətli qışqırığı eşidilir: "Əyri…". Beləliklə, peşəkar ünsiyyətdə invektiv vahidlər yalnız aqressiyanın ifadəsi deyil, eyni zamanda ekstremal şəraitdə psixoloji tarazlığın qorunmasına xidmət edən funksional-pragmatik vasitə kimi çıxış edir. İnstitusional və gündəlik diskursların kəsişməsində yaranan münaqişəli kommunikativ vəziyyətlər xüsusi göstərici xarakter daşıyır. Məsələn, həkim–xəstə ünsiyyətində müşahidə olunan aşağıdakı ifadə buna nümunə ola bilər: "Dəli olmusunuz? Dərhal uzanın! Uşağın başının üstündə niyə dayanırsınız?". Bu tip hallarda invektiv, qeyri-mütəxəssis ünsiyyət iştirakçısının statusunun aşağı salındığı, onun "zərərçəkmiş" mövqeyində təqdim edildiyi kommunikativ situasiya yaradır. Bununla yanaşı, təhqiramiz ifadələrin istinad dairəsi məhdud xarakter daşımır: belə ki, onlar ünsiyyət iştirakçısının intellektual səviyyəsi və peşəkar keyfiyyətləri ilə yanaşı, zahiri görünüşü, sosial mənşəyi, yaxın ətrafı və hətta ona məxsus əşyaların keyfiyyətləri ilə bağlı şəkildə də reallaşa bilər. Əgər müqayisəli mədəniyyətlərarası baxımdan qeyd etsək, rusdilli mədəniyyətdə kobudluq ingilisdilli mədəniyyətlə müqayisədə daha açıq və intensiv formada təmsil olunur. Bu iki kateqoriya arasında aralıq mərhələnin olmaması onları demək olar ki, qarşı-qarşıya qoyulan qütblərə çevirir: rus mədəniyyətində kobud olmayan davranış çox vaxt avtomatik olaraq nəzakətli davranış kimi qiymətləndirilir. İngilisdilli mədəniyyətdə isə ifadələrin məqbulluğu baxımından təsnifat ikili deyil, üçpilləli xarakter daşıyır və nəzakətli, nəzakətsiz və sosial cəhətdən məqbul kateqoriyalarını əhatə edir [18]. Bu kontekstdə müəyyən bir icma tərəfindən invektiv və ya normativ kimi qiymətləndirilən leksik vahid və ifadələrin dərəcəlilik (graduality) xüsusiyyəti xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bir sıra kommunikativ hadisələr sərt qarşıdurma nöqtələrində deyil, "qütblər arasında yerləşən davamlılıq xətti üzərində" mövcud olur [7, s.4].

İnvektivliyin tədricənlik xüsusiyyəti əsasən qeyri-müəyyən (ambivalent) mətnlər üçün xarakterikdir və bu tip mətnlərin əsas xüsusiyyəti onların mənasının müxtəlif interpretasiya modellərinə açıq olmasıdır. Belə mətnlərdə invektiv məna mütləq deyil, interpretativ variantlardan ən azı birində aktualizə olunur. Qeyd edildiyi kimi, "bu cür mətnlərin (ifadələrin) invektiv mənası interpretativ variantlardan ən azı birində təzahür edir. Bu mətnlərin qeyri-müəyyənliyi həm orijinal – yəni müəllifin kommunikativ niyyəti ilə şərtlənmiş, həm də ondan asılı olmayan xarakter daşıya bilər" [8, s.233].

Bir qayda olaraq, söhbət peşəkar icma daxilində normativ və ya hətta nəzakətli kimi qəbul edilən, lakin icmadan kənarda təcavüz və ya kobudluq kimi şərh edilən kommunikativ davranış nümunələrindən gedirsə, bu baxımdan institusional diskursda interpretativ asimmetriya xüsusilə nəzərə çarpmaqdadır. Məsələn, diaqnostik prosedurların aparıldığı otağa başqa bir xəstəyə baş

çəkmək məqsədilə həkimin daxil olması, peşəkar komanda üzvləri tərəfindən kommunikativ pozuntu və ya aqressiya aktı kimi deyil, situativ əsaslandırılmış və funksional davranış kimi dəyərləndirilir. Halbuki bu hərəkət kənar müşahidəçi üçün təzyiq və müdaxilə aktı təsiri bağışlaya bilər. Göstərilən dialoqda həkimin davranışının komanda üzvü və icmadan kənar şəxs tərəfindən interpretasiyası köklü şəkildə fərqlənir. Komanda üzvü üçün həmin davranış tamamilə anlaşılandır, qarşılıqlı fəaliyyət normalarını pozmur və kommunikativ münaqişə yaratmır. Bu interpretasiya çərçivəsində şifahi aqressiya və ya antidialoji münasibət aktuallaşmır. Əksinə, davranış peşəkar empatiya, məsuliyyət və situativ zərurətlə izah olunur. Kənar şəxs üçün isə eyni davranış potensial konflikt mənbəyi kimi qavranıla bilər ki, bu da institusional diskursla gündəlik diskurs arasındakı semantik və praqmatik fərqlərin nəticəsidir.

Nəticə: Son olaraq onu qeyd etmə olar ki, peşəkar ünsiyyətdə invektivliyin istənilən forması istər açıq şəkildə invektiv leksik vahidlərdən istifadə olunsun, istərsə də yalnız normativ dil vasitələri ilə reallaşdırılsın yalnız verbal aqressiyanı (devalvasiya, zorakı təsir, adresatın statusunun aşağı salınması, manipulyativ strategiyalar) katalizləşdirmir. O, eyni zamanda bir sıra əlavə praqmatik funksiyalar da yerinə yetirir: kommunikasiya iştirakçılarını "biz" və "onlar" kimi qruplaşdırır, psixoloji gərginliyin azaldılması üçün azadlaşdırıcı mexanizm rolunu oynayır, ifadənin potensial invektiv mənalarını neytrallaşdıra və ya "qısalda" bilir, həmçinin fiziki zorakılığın qarşısını almağa və ya onu tamamilə aradan qaldırmağa xidmət edə bilər.

Ədəbiyyat siyahısı

1. Артюхов, А. В. Криминальные практики России сквозь призму культуры Ростов н/Д : РГПУ, 2004. – 375 с.
2. Бодуэн де Куртенэ, И. А. Избранные труды по общему языкознанию : в 2 т. М. : АН СССР, 1963. – Т. 1. – 384 с
3. Волошин, Ю. К. Общий американский сленг: состав, деривация и функции (лингвокультурологический аспект) : дис. … д-ра филол. Наук / Волошин Юрий Константинович. – Краснодар, 2000. – 341 с.
4. Hüseynova, Ü. İnvektiv anlayişi və invektivlərin təyini məsələləri haqqinda. Bakı: Azərbaycan Elm Mərkəzi. 2022. Cild: 16, Sayı: 3 s. 53
5. Коровушкин, В. П. Контрастивная социодиалектология как автономная лингвистическая дисциплина / В. П. Коровушкин // Язык в современных общественных структурах (социальные варианты языка – IV) : материалы Междунар. науч. конф., 21–22 апр. 2005 г., Н. Новгород. – Н. Новгород : НГЛУ, 2005. – С. 7–13.
6. Ларина, Т. В. Категория вежливости и стиль коммуникации. Сопоставление английских и русских лингвокультурных традиций / Т. В. Ларина. – М. : Яз. слав. культур, 2009. – 512 с.
7. Наминова, Г. А. Политический дискурс в современной России : Проблемы достижения общественного согласия : дис. ... канд. полит. Наук / Наминова Гелла Александровна. – М., 2001. – 192 с.
8. Романов, А. А. Речежанровая специфика эмоциогенного фактора вербальной агрессии / А. А. Романов, Л. А. Романова //Лингвистика речи. Медиастилистика. – М. : ФЛИНТА, 2013. – С. 233–245.
9. Фельде, О. В. Проблемы и перспективы лексикографического описания русского профессионального субстандарта / О. В. Фельде // Вестник Челябинского государственного университета. Филология. Искусствоведение. – 2011. – № 33 (248), вып. 60. – С. 209–213.
10. Чудинов, А. П. Россия в метафорическом зеркале: когнитивное исследование политической метафоры (1991–2000) / А. П. Чудинов. – Екатеринбург : Изд-во Урал. гос. пед. ун-та, 2001. – 238 с.

Ulvuyye Huseynova

Pragmalinguistic aspects of invective speech in professional communication

Summary

This article examines the main features and functions of invective in professional discourse – in fields such as aviation, maritime affairs, firefighting, sports, oil, transport, and others. Lexical analysis of the texts revealed that offensive and insulting language units, swear words, and slang expressions occurred in only 11% of the analyzed materials. In most cases, the invective meaning arises from vocabulary belonging to the standard national and professional lexicon, shaped by the specific conditions and situational characteristics of communication. A distinctive feature of invective in professional communication, as a functional-semantic category, is its relativity. This relativity becomes apparent when an expression is evaluated differently by a member of a professional community and by someone outside that community. Finally, it was found that invectives of any type in professional communication – whether they contain explicit invective elements or are expressed through normative lexis – not only intensify verbal aggression (such as devaluation, verbal violence, lowering the addressee's status, or manipulation), but also serve to distinguish participants in communication as "us" versus "them." Furthermore, they act as a means of psychological release, compensate for the invective effects created by context, and in some cases help to reduce or even eliminate physical violence.

Keywords: *invective, professional communication, discourse, degree of invective, verbal aggression.*

Ульвия Гусейнова

Прагмалингвистические аспекты инвективной речи в профессиональной коммуникации

Резюме

В данной статье рассматриваются основные особенности и функции инвективы в профессиональном дискурсе – в таких областях, как авиация, морское дело, пожарная охрана, спорт, нефтяная промышленность, транспорт и другие. Лексический анализ текстов показал, что оскорбительные и унизительные языковые единицы, ругательства и сленговые выражения встречались лишь в 11% проанализированных материалов. В большинстве случаев инвективное значение возникает из лексики, принадлежащей к стандартному национальному и профессиональному лексикону, сформированной специфическими условиями и ситуационными характеристиками коммуникации. Отличительной чертой инвективы в профессиональной коммуникации как функционально-семантической категории является её относительность. Эта относительность проявляется, когда выражение оценивается по-разному членом профессионального сообщества и человеком вне этого сообщества. В заключение было установлено, что инвективы любого типа в профессиональной коммуникации – независимо от того, содержат ли они явные инвективные элементы или выражены с помощью нормативной лексики – не только усиливают вербальную агрессию (например, обесценивание, вербальное насилие, снижение статуса адресата или манипуляция), но и служат для различения участников коммуникации как «нас» и «них». Более того, они выступают в качестве средства психологической разрядки, компенсируют инвективные эффекты, создаваемые контекстом, и в некоторых случаях помогают уменьшить или даже устранить физическое насилие.

Ключевые слова: *инвектива, профессиональная коммуникация, дискурс, степень инвективности, вербальная агрессия.*

Çapa tövsiyə edən: ***Bakı Dövlət Universiteti***

Rəyçilər: ***professor A.Abbasov***
dosent G.Kərimova

UOT-811.512.1.
Səhifə: 167-173
https://doi.org/10.59849/2663-8967.2026.1.167

Ülkər Əfəndiyeva
Bakı Dövlət Universiteti
ulker.efendiyeva@list.ru
https://orcid.org/0000-0003-4041-354X

QAZAX DİLİNİN FRAZEOLOJİ SİSTEMİNDƏ MƏİŞƏT LEKSİKASI

XÜLASƏ

Bu məqalədə qazax dilinin frazeoloji sistemində məişət leksikasına əsaslanan sabit ifadələr struktur və semantik baxımdan ətraflı şəkildə təhlil olunur və Azərbaycan dili materialları ilə müqayisəli aspektdə araşdırılır. Tədqiqatın əsas məqsədi gündəlik məişət həyatı ilə bağlı leksik vahidlərin frazeoloji sistem daxilində qazandığı məcazi məna qatlarını, onların formalaşma mexanizmini və milli-mədəni kontekstlə qarşılıqlı əlaqəsini müəyyənləşdirməkdir. Araşdırmada xüsusilə *көйлек* [köylek], *бесік* [besik], *қазан* [kazan], *етек* [yetek], *төсек* [tösek], *жастық* [jastık] kimi məişət əşyalarını bildirən sözlər əsasında yaranmış frazeoloji birləşmələr sistemləşdirilir, onların struktur modeli, semantik inkişaf istiqaməti və funksional yükü geniş şəkildə izah olunur.

Tədqiqat göstərir ki, məişət leksikası frazeoloji sistemdə yalnız nominativ baza rolunu oynamır, həm də metaforik və simvolik transformasiya yolu ilə sosial münasibətlərin, ailə institutunun və mənəvi dəyərlərin ifadəsinə xidmət edir. Müqayisəli təhlil nəticəsində qazax və Azərbaycan dillərində mövcud olan frazeoloji paralellərin ortaq tarixi-mədəni zəminlə bağlı olduğu müəyyən edilir. Bununla yanaşı, bəzi vahidlərdə semantik diferensiasiya prosesi müşahidə olunur ki, bu da dillərin daxili inkişaf dinamikasını əks etdirir. Nəticə etibarilə, araşdırma türk dillərində məişət əsaslı frazeoloji vahidlərin tipoloji baxımdan öyrənilməsi üçün elmi əsas yaradır və müqayisəli frazeologiya istiqamətində gələcək tədqiqatlara zəmin formalaşdırır.

Açar sözlər: *frazeoloji vahidlər, məişət leksikası, qazax dili, türk dilləri, semantik təhlil.*

Giriş: Frazeoloji vahidlər dilin leksik tərkibində xüsusi yer tutan və milli mədəniyyətin, dünyagörüşünün, tarixi təcrübənin dil vasitəsilə ifadə olunmasında mühüm rol oynayan strukturlardır. Bu sahə dilçilikdə geniş şəkildə tədqiq edilmişdir, lakin hələ də tam aydınlaşdırılmamış və müxtəlif baxış bucaqlarından izah olunan məsələlər mövcuddur. Xüsusilə frazeoloji birləşmələrin semantik bütövlüyü və sintaktik xüsusiyyətləri ilə bağlı müzakirələr elmi ədəbiyyatda davam etməkdədir. Struktur baxımından frazeoloji birləşmələr bir neçə komponentdən ibarət olsa da həmin komponentlər bir araya gələrək vahid leksik məna yaradır. Bu cür birləşmələrdə ayrı-ayrı sözlərin ilkin mənası ya zəifləyir, ya da tamamilə arxa plana keçir və nəticədə bütöv ifadə sabit, bölünməz semantik vahid kimi çıxış edir. Məhz bu xüsusiyyət frazeoloji birləşmələrin adi söz birləşmələrindən fərqləndirici cəhətidir.

Frazeoloji vahidlərin cümlə daxilindəki funksiyası ilə bağlı da müxtəlif elmi mövqelər irəli sürülmüşdür. Bəzi tədqiqatçılar komponentlərin formal olaraq ayrı-ayrı sözlər kimi göründüyünü və sintaktik baxımdan müəyyən müstəqillik daşıdığını qeyd etmişlər. Lakin V.V. Vinoqradov frazeoloji birləşmələrin əsas xüsusiyyətini onların semantik vahidliyində görərək göstərmişdir ki, bu vahidlik komponentlər arasında canlı və sərbəst sintaktik əlaqənin olmaması ilə qorunur. Onun bu yanaşması rus dilçiliyində frazeologiya nəzəriyyəsinin formalaşmasına ciddi təsir göstərmiş və məsələni daha sistemli şəkildə izah etməyə imkan vermişdir [3, s.150].

"Kenesbayevin fikrinə görə frazeoloji birləşmələrin struktur quruluşu və onların komponentlərinin qarşılıqlı əlaqə üsulları təsadüfi xarakter daşımır. Bu birləşmələr müəyyən dil qanunauyğunluqları əsasında formalaşır və zaman keçdikcə semantik baxımdan sistemli bir bütövlük təşkil edir" [5, s.9]. Bu yanaşma göstərir ki, dilin sabit ifadələri təsadüfi şəkildə yaranmır, onların təşəkkülü və semantik inkişafı cəmiyyətin yaşayış tərzi, sosial münasibətləri və təbii mühiti ilə bila-

vasitə bağlıdır. Frazeoloji birləşmələrin formalaşması xalqın gündəlik həyat təcrübəsi, məişət mühiti və tarixi yaddaşı ilə qarşılıqlı təsir şəraitində baş verir.

Qazax və Azərbaycan dilləri, eləcə də digər türk dilləri eyni dil ailəsinə mənsub olduqları üçün onların leksik və frazeoloji sistemlərində çoxlu ortaq elementlərə rast gəlinir. Bu oxşarlıqlar yalnız dil quruluşu ilə məhdudlaşmır, həm də ortaq etnik-mədəni zəminlə şərtlənir. Hər iki dilin frazeoloji tərkibi həmin xalqların tarixi inkişaf yolu, məişət ənənələri və dünyagörüşü ilə sıx bağlı şəkildə formalaşmışdır. Türk dillərində frazeoloji paralellər, xüsusilə atalar sözləri və məsəllər səviyyəsində daha aydın şəkildə müşahidə olunur. Bu sahədə bəzi ifadələr həm quruluş, həm də məna baxımından tam uyğunluq göstərir, digərləri isə formal fərqlərə baxmayaraq semantik yaxınlıq nümayiş etdirir. Belə oxşarlıqlar türkdilli xalqların tarixi-mədəni bağlılığının dil faktları ilə təsdiqidir. Onlar ortaq dünyagörüşünün, dəyərlər sisteminin və düşüncə tərzinin frazeoloji səviyyədə necə əks olunduğunu göstərir. Bu baxımdan frazeoloji uyğunluqlar yalnız dil hadisəsi deyil, həm də mədəni yaddaşın və kollektiv təcrübənin ifadə forması kimi çıxış edir.

Qazax və Azərbaycan dillərinin frazeoloji sistemlərini müqayisəli şəkildə nəzərdən keçirdikdə aydın olur ki, bəzi ifadələr hər iki dildə eyni məzmunu ifadə edir, digərləri isə yalnız semantik yaxınlıq səviyyəsində uyğunluq göstərir. Bu cür paralellər təsadüfi xarakter daşımır, onlar ortaq etnik kökə, tarixi inkişaf yoluna və folklor ənənələrinə söykənən ümumi mədəni təməlin nəticəsidir.

Frazeoloji vahidlərin uyğunluğu xüsusilə qədim dövrlərdən formalaşmış şifahi xalq yaradıcılığı, məişət ənənələri və dünyagörüşü ilə sıx bağlıdır. Qazax və Azərbaycan dillərində işlənən frazeoloji birləşmələrin müqayisəli şəkildə təhlil olunması, onların struktur və məna baxımından oxşar və fərqli cəhətlərinin konkret faktlar əsasında təhlili frazeoloji vahidlərin sosial-mədəni mühitlə qarşılıqlı əlaqəsini daha aydın şəkildə ortaya qoymağa imkan verir. Məişət leksikasına aid geyim adlarından biri olan *көйлек* [köylek] qazax dilində həm qadın, həm də kişi tərəfindən geyinilən, əsasən gündəlik istifadə üçün nəzərdə tutulmuş üst geyimini, donu bildirir [9, s. 220-221]. Sözün semantik həcmi kifayət qədər genişdir və müxtəlif biçim və funksiyalı geyimləri əhatə edə bilir.

Bu leksik vahidin Azərbaycan dilində qarşılığı *köynək* formasında işlənir. Lakin semantik baxımdan müəyyən fərq müşahidə olunur. Azərbaycan dilində *köynək* əsasən bədənin yuxarı hissəsinə geyinilən yüngül geyimi ifadə edir [2, s. 765]. Beləliklə, eyni mənşəli söz hər iki dildə mövcud olsa da, məna dairəsi baxımından tam üst-üstə düşmür. Həm *көйлек*, həm də *köynək* sözləri qazax və Azərbaycan dillərinin frazeoloji sistemində fəal iştirak edir və müxtəlif sabit ifadələrin tərkibində işlənərək məcazi məna qazanır. Bu fakt geyim adlarının yalnız nominativ funksiya daşımadığını, eyni zamanda dilin obrazlı qatında da mühüm yer tutduğunu göstərir.

Ақ көйлек [ak köylek] ifadəsi qazax dilində məcazi məna daşıyaraq "saf qəlbli", "təmiz niyyətli", "xeyirxah insan" anlamlarında işlədilir [4, s. 24]. Bu birləşmə adətən insanın daxili paklığını, səmimiyyətini və mənəvi saflığını vurğulamaq məqsədilə istifadə olunur. İfadənin semantik yükü komponentlərin məcazi potensialı ilə bağlıdır. *Ақ* "ağ" sözü türk dillərində ənənəvi olaraq təmizlik, dürüstlük, halallıq və mənəvi saflıq anlayışları ilə əlaqələndirilir. *Көйлек* isə nominativ mənada geyim adı olsa da məcazi müstəvidə insanın zahiri görkəmi ilə yanaşı, onun xarakteri və cəmiyyət içindəki mövqeyi ilə bağlı assosiasiyalar yarada bilir. Azərbaycan dilində "ağ köynək" birləşməsi eyni sabit frazeoloji məna daşımır. Lakin semantik baxımdan uyğun ifadələr mövcuddur. Məsələn, *təmiz qəlbli, pak niyyətli, nur üzlü* kimi ifadələr eyni məzmunu fərqli leksik vasitələrlə ifadə edir. Bu fakt göstərir ki, ortaq simvolik təfəkkürə baxmayaraq, frazeoloji formalaşma yolları dillər arasında müəyyən fərqlilik göstərə bilir.

Қанды көйлек [kandı köylek] ifadəsi qazax dilində "ən yaxın dost", "ayrılmaz yoldaş" mənasında işlədilir [4, s.315]. İfadə komponentlərinin birləşməsi nəticəsində bütöv, bölünməz semantik məna formalaşır. *Қанды* sözü *қан* "qan" kökündən yaranmışdır və burada söz birbaşa deyil, məcazi məna daşıyır. Türk mədəniyyətində *qan* anlayışı həyat, qohumluq, sədaqət və dərin bağlılıq rəmzi kimi qəbul edilir. *Көйлек* isə insanın bədəninə ən yaxın olan geyim növlərindən biri kimi yaxınlıq və ayrılmazlıq assosiasiyası yaradır. Bu iki komponentin semantik yükü birləşərək güclü dostluq və mənəvi bağlılıq anlayışını ifadə edir.

Məzmun baxımından bu ifadə Azərbaycan dilindəki "can dostu", "qan qardaşı" kimi birləşmələrlə uyğunluq təşkil edir. Qazax dilində eyni semantik sahəyə aid olan *қанды көйлек жолдас* [kandı köylek joldas] ifadəsi də işlədilir və mənanı daha da konkretləşdirir. Bununla yanaşı, *қанды көйлек жау* [kandı köylek jau] birləşməsi əks semantik çalar daşıyaraq "ən yaxınından çıxan düşmən" mənasını ifadə edir [4, s. 315]. Bu nümunə göstərir ki, eyni struktur modeli həm müsbət, həm də mənfi emosional çalar qazana bilir.

"Ən yaxın dost" mənasında işlədilən digər ifadə *ет көйлек* [yet köylek] formasında qeydə alınır [4, s. 171]. Burada *ет* "ət" sözü də məcazi məna daşıyır və insan varlığının, canlılığın simvolu kimi çıxış edir. *Qan* və *ət* komponentləri türk dünyagörüşündə həyatın və fiziki-mənəvi bağlılığın əsas göstəricilərindən sayıldığı üçün bu tip frazeoloji birləşmələr dərin mədəni-semantik kökə malikdir.

Struktur baxımından qeyd olunan vahidlər təyini söz birləşməsi modelinə uyğun gəlir. Birinci komponent sifət və ya sifətləşmiş söz, ikinci komponent isə isimdir. Lakin burada əsas olan formal sintaktik quruluş deyil, bütöv ifadənin semantik sabitliyidir. Komponentlər ayrı-ayrılıqda deyil, birlikdə vahid anlayışı ifadə edir və konkret sosial-mənəvi münasibətin dil modeli kimi çıxış edir. Azərbaycan dilində də köynək komponenti ilə formalaşmış məsəllər və sabit ifadələr mövcuddur. Məsələn, *köynəyindən keçirmək, bir köynək yaxın olmaq, bir köynək aralı olmaq, qanlı köynəyini başına dolamaq, bir köynək ət tökmək, bir köynəkdə çalmaq* [1, s.56].

Məişət leksikasına aid ev əşyalarından biri olan *бесік* [besik] "beşik" sözü qazax dilində yalnız nominativ məna daşımır, həm də frazeoloji sistemdə aktiv şəkildə iştirak edir. Eyni leksik vahid Azərbaycan dilində də mövcuddur və müəyyən məcazi kontekstlərdə işlədilə bilir. *Beşik* türk xalqlarının maddi-mədəni irsində mühüm yer tutur, ənənəvi olaraq körpələrin yatırılması üçün istifadə olunan xüsusi yataq növüdür [6, s. 295].

Qazax dilində *алтын бесік* [altın besik] frazeologizmi "vətən", "doğma yurd" mənasını ifadə edir (4, s. 38; 11). Bu birləşmədə hər iki komponent isim olsa da, bütöv halda məcazi məna kəsb edir. *Алтын* "qızıl" sözü burada yüksək dəyər, müqəddəslik və əzizlik semantikasını gücləndirir, *бесік* isə insanın dünyaya göz açdığı ilkin məkanı simvolizə edir. Beləliklə, ifadə vətəni insanın mənəvi başlanğıcı və müqəddəs məkanı kimi təqdim edir.

Azərbaycan dilində "beşik" sözü də metaforik mənada işlədilir. Məsələn, "Azərbaycan muğam sənətinin beşiyidir" cümləsində "beşik" anlayışı müəyyən bir sahənin formalaşdığı, inkişaf etdiyi ilkin məkan mənasında çıxış edir [6, s. 295]. Bu nümunə göstərir ki, hər iki dildə sözün semantik inkişaf istiqaməti oxşar mədəni assosiasiyalara əsaslanır.

Ev-məişət əşyaları sırasına daxil olan digər leksik vahid *қазан* [kazan] "qazan" sözüdür. Qazax dilində bu söz yemək bişirmək üçün istifadə olunan qab mənasını bildirir və Azərbaycan dilindəki qarşılığı ilə semantik baxımdan üst-üstə düşür [6, s. 739]. Hər iki dildə "qazan" sözü frazeoloji birləşmələrdə geniş şəkildə işlədilir və məcazi mənalar qazanaraq sosial, iqtisadi və məişət münasibətlərini ifadə edən sabit ifadələrin tərkib hissəsinə çevrilir. Bu fakt məişət əşyalarının frazeoloji sistemdə məhsuldar semantik baza rolunu oynadığını göstərir.

Қазан асу [kazan asu] qazax dilində ilkin olaraq "yemək bişirmək", "qazanı ocağa qoymaq" mənalarını ifadə edən sabit birləşmədir [4, s.304]. Bu ifadə Azərbaycan dilində *qazan asmaq* formasında işlədilir və əsas semantik məzmun baxımından uyğunluq göstərir. Hər iki dildə ifadənin əsasında həm müstəqim, həm də sonradan formalaşmış məcazi məna qatları dayanır.

Tarixi-məişət kontekstində *qazan asmaq* açıq ocaq üzərində yemək hazırlanması üsulu ilə bağlıdır. Keçmişdə insanlar qazanı ocaq üzərindən asaraq bişirmə prosesinə başlayırdılar. Qazan gündəlik həyatın və kollektiv məişətin əsas atributlarından biri olduğu üçün onun asılması yemək hazırlığının başlanğıc mərhələsini bildirirdi. Bu mərhələdə ifadə birbaşa, real hərəkəti ifadə edən müstəqim məna daşıyırdı.

Zaman keçdikcə ifadə məcaziləşmiş və semantik genişlənmə baş vermişdir. Müasir istifadədə *qazan asmaq* yalnız yemək bişirmək anlamı ilə məhdudlaşmır, daha ümumi şəkildə "işə başlamaq", "hazırlıq görmək", "bir işi başlatmaq" kimi məna çalarları qazanmışdır [1, s. 186]. Bu fakt məişət leksikasının frazeoloji sistemdə necə semantik transformasiyaya uğradığını və real həyat təcrübəsindən abstrakt məna qatına keçdiyini aydın şəkildə göstərir.

Қазаны көтерді [kazanı köterdi] ifadəsi qazax dilində məcazi məna daşıyan frazeoloji vahiddir və "ölüm mərasimi ilə bağlı bütün məsuliyyəti öz üzərinə götürdü" anlamında işlədilir. Burada *қазан* sözü ilkin olaraq yemək bişirmək üçün istifadə olunan məişət əşyasını bildirir. Lakin frazeoloji kontekstdə söz birbaşa qab mənasını deyil, yas mərasiminin təşkili ilə bağlı ənənəvi sosial öhdəliyi simvolizə edir.

Türk xalqlarının mərasim ənənələrində yas süfrəsinin hazırlanması, qonaqlar üçün yemək bişirilməsi və mərasim xərclərinin qarşılanması xüsusi məsuliyyət sayılmışdır. Bu baxımdan *qazan* yalnız mətbəx əşyası deyil, kollektiv mərasim yükünün rəmzi kimi çıxış edir. *Көтерді* "qaldırdı, götürdü" komponenti isə burada fiziki hərəkəti deyil, "məsuliyyəti üzərinə almaq" mənasını ifadə edir. Beləliklə, ifadə bütöv halda konkret hərəkətdən daha çox sosial-mənəvi öhdəliyin qəbul edilməsini bildirir. Struktur baxımından bu vahid isim + fel modelinə əsaslanan sabit birləşmədir. Lakin komponentlərin müstəqil mənası arxa plana keçir və bütöv ifadə frazeoloji vahid kimi qəbul olunur. *Қазаны көтерді* qazax dilinin milli-mədəni xüsusiyyətlərini əks etdirən ifadələrdən biridir. Azərbaycan dilində onun tam leksik ekvivalenti olmasa da, "yas işlərini boynuna götürdü", "yasın bütün məsuliyyətini üzərinə aldı" kimi ifadələr semantik baxımdan yaxın qarşılıq sayıla bilər [4, s. 304].

Azərbaycan dilində də qazan komponenti ilə bağlı çoxsaylı sabit ifadələr və frazeoloji birləşmələr mövcuddur. Məsələn, *qazan asmaq, qazan dibi yalamaq, qazan qaynatmaq, qazan örtülü qaynamaq, qazan dedi dibim qızıldır, çömçə dedi, gəzib gəlmişəm* [1, s.186].

Qazax dilində məişət leksikasına aid geyim adlarından biri olan *емек* [yetek] sözü Azərbaycan dilində *ətək* formasında işlənir [7, s. 464]. Hər iki dildə söz əsasən geyimin aşağı hissəsini bildirən nominativ məna daşıyır.

Bununla yanaşı, *емек/ətək* leksik vahidi yalnız konkret geyim detalını ifadə etməklə məhdudlaşmır, frazeoloji sistemdə də fəal şəkildə iştirak edir. Qazax və Азərbaycan dillərində bu sözün iştirakı ilə yaranmış sabit birləşmələr müxtəlif məcazi çalarlar qazanaraq sosial münasibətləri, davranış modellərini və emosional vəziyyətləri ifadə edir.

Етегінде сәжде қылу (намаз оқу) [yeteqinde səjde kılu (namaz oku)] ifadəsi qazax dilində ironik çalar daşıyan frazeoloji vahiddir. Bu birləşmə kiminsə qarşısında həddindən artıq itaətkar davranmağı, onu ideal və qüsursuz bir şəxs kimi təqdim etməyi bildirir. Lakin ifadənin semantik yükündə istehza elementi mövcuddur: göstərilən hörmət və sədaqət əslində buna layiq olmayan, mənəvi baxımdan zəif və ya mənfi xüsusiyyətlərə malik bir şəxsə yönəlmiş olur. Beləliklə, frazeologizm sosial münasibətlərdə kor-koranə itaətin və yanlış dəyərləndirmənin tənqidi kimi çıxış edir [4, s. 170].

Struktur baxımından ifadə isim + feil modelinə əsaslanır və dini leksikanın məişət komponenti ilə birləşməsi nəticəsində formalaşmışdır. Burada *емек* "ətək" sözü fiziki yaxınlıq və aşağı mövqe assosiasiyası yaradır, *сәжде қылу* isə yüksək itaət və ibadət aktını bildirir. Bu iki komponentin birləşməsi məcazi planda həddindən artıq təzim və alçalma mənasını ifadə edir.

Azərbaycan dilində "ətəyində namaz qılmaq" ifadəsi mövcuddur, lakin semantik istiqamət fərqlidir. Azərbaycan dilində bu birləşmə adətən saf, təmiz, dindar və dürüst insanlara münasibətdə işlədilir və istehza çaları daşımır [1, s. 120]. Beləliklə, eyni struktur modeli hər iki dildə işlək olsa da, onların semantik inkişaf istiqaməti fərqli olmuşdur. Bu fakt frazeoloji vahidlərin milli-mədəni kontekstdə fərqli çalarlar qazana bildiyini göstərir.

Етегінен айрылмайды [yeteqinen ayrılmaydı] ifadəsi qazax dilində "ətəyindən ayrılmamaq", "möhkəm yapışıb qalmaq" mənalarını bildirən frazeoloji vahiddir [4, s. 170]. Bu birləşmə bir şəxsin və ya obyektin arxasınca fasiləsiz hərəkət etməyi, ondan asılı vəziyyətdə qalmağı və ya həddindən artıq bağlılıq göstərməyi ifadə edir. Burada *емек* "ətək" komponenti fiziki yaxınlıq və təmas assosiasiyası yaradır, bütöv ifadə isə psixoloji və sosial asılılıq məzmunu qazanır.

Azərbaycan dilində *ətəyinə yapışmaq* ifadəsi semantik baxımdan bu frazeologizmə uyğun gəlir. Həmin birləşmə də kiməsə yalvarmaq, kömək istəmək və ya bir şəxsin arxasınca əl çəkmədən getmək mənasında işlədilir. Eyni zamanda ifadə psixoloji zəiflik, həddindən artıq asılılıq və minnət davranışı ilə əlaqələndirilə bilər [1, s. 120]. Beləliklə, hər iki dildə "ətək" komponenti yaxınlıq və asılılıq semantikasının formalaşmasında əsas rol oynayır.

Ev-məişət leksikasına aid digər sözlər – *төсек* [tösek] və *жастық* [jastık] da qazax dilində frazeoloji sistemdə məhsuldar vahidlər kimi çıxış edir. *Төсек* "döşək" mənasında işlənir və yatmaq üçün nəzərdə tutulmuş yumşaq yer anlayışını ifadə edir [10, s. 361]. Bu söz Azərbaycan dilindəki "döşək" anlayışı ilə semantik baxımdan uyğunluq təşkil edir. *Жастық* isə içinə tük və ya digər yumşaq material doldurulmuş, baş və ya çiyin altına qoyulan əşyanı bildirir və Azərbaycan dilində "yastıq" qarşılığına malikdir [8, s. 166].

Төсегімен көтерді [töseqimen köterdi] ifadəsi qazax dilində məcazi məna daşıyan frazeoloji vahiddir və "gəlin gəldiyi il hamilə qaldı", "tezliklə ana oldu" anlamında işlədilir [4, s. 518]. Burada *төсек* "döşək, yataq" komponenti ailə quruluşunun və nikah münasibətlərinin rəmzi kimi çıxış edir. Türk mədəniyyətində yataq ailə qurmanın və birgə həyatın başlanğıcının əsas atributlarından sayıldığı üçün bu komponent ifadənin semantik mərkəzini təşkil edir.

Көтерді "qaldırdı" feili isə bu kontekstdə birbaşa fiziki hərəkəti deyil, "hamilə qalmaq" mənasını bildirir. Beləliklə, ifadə bütöv halda yeni qurulan ailədə qısa müddət ərzində övlad gözlənilməsini vurğulayır. Qazax cəmiyyətində gəlinin tezliklə ana olması müsbət qarşılandığından, frazeologizm də pozitiv semantik çalar daşıyır. Struktur baxımından birləşmə isim + feil modelinə əsaslanır. *Төсегімен* "döşəyi ilə" komponenti burada cehiz və ailə qurma rəmzi kimi çıxış edir. Türk xalqlarında evlənən qız üçün cehiz hazırlanması, yataq dəstinin xüsusi olaraq sırıqlanması qədim ənənədir. Bu mədəni kontekst nəzərə alındıqda, *төсегімен көтерді* ifadəsi hərfi mənada "döşəyi ilə (gəldiyi kimi) hamilə qaldı" anlamını versə də, məcazi planda "yeni ailədə tezliklə övlad sahibi oldu" semantikasını ifadə edir.

Төсекте басы қосылды [tösekte bası kosıldı] ifadəsi qazax dilində "ailə qurdu", "bir yerdə yaşamağa başladı", "mənəvi və fiziki yaxınlıq əsasında birləşdi" mənalarında işlənən frazeoloji vahiddir [4, s. 519]. Bu birləşmə yalnız nikah münasibətlərini deyil, daha geniş mənada iki insan arasında möhkəm bağın yaranmasını da ifadə edə bilər. Burada *төсек* "yataq, döşək" komponenti ailə həyatı və birgə yaşayışın simvolu kimi çıxış edir. Türk mədəniyyətində yataq ailə birliyinin və evliliyin əsas atributlarından biri hesab olunduğu üçün söz frazeoloji müstəvidə fiziki yaxınlıqla yanaşı, mənəvi bağlılığı da bildirir. *Басы қосылды* "başları birləşdi" isə məcazi şəkildə insanların talelərinin, həyat yollarının birləşməsi anlamını ifadə edir. Beləliklə, ifadə bütöv halda ailə qurma və ya daimi birlik yaratma semantikasını daşıyır.

Azərbaycan dilində "bir yastığa baş qoymaq" ifadəsi semantik baxımdan bu frazeologizmə uyğun gəlir və evlilik, birgə həyat qurmaq mənasında işlədilir. Hər iki dildə yataq və yastıq komponentlərinin ailə birliyinin rəmzi kimi çıxış etməsi ortaq mədəni təfəkkürün göstəricisidir.

Ev-məişət leksikasına aid olan *жастық* [jastık] "yastıq" sözü də qazax dilində müxtəlif frazeoloji birləşmələrin tərkibində fəal şəkildə işlədilir. Bu söz yalnız məişət əşyasını bildirməklə kifayətlənmir, həm də yaxınlıq, ailə münasibətləri və insan həyatının müxtəlif mərhələləri ilə bağlı məcazi mənalar qazanaraq frazeoloji sistemdə məhsuldar vahid kimi çıxış edir.

Жастықтан басын көтерді [jastıqtan basın köterdi] ifadəsi qazax dilində "xəstəlikdən sağaldı", "yataqdan qalxdı", "özünü toparladı" mənalarında işlənən frazeoloji vahiddir [4, s. 191]. Bu birləşmə əsasən uzunmüddətli xəstəlikdən sonra insanın əvvəlki halına qayıtmasını ifadə edir.

Burada *жастық* "yastıq" komponenti birbaşa məişət əşyasını bildirsə də frazeoloji kontekstdə xəstəlik səbəbi ilə yatağa bağlı qalma vəziyyətini simvolizə edir. Türk dillərində *yataq* və *yastıq* anlayışı çox vaxt zəiflik, halsızlıq və xəstəliklə əlaqələndirilir. *Басын көтерді* "başını qaldırdı" isə məcazi şəkildə güc toplamaq, ayağa qalxmaq və əvvəlki həyat fəaliyyətinə dönmək mənasını ifadə edir.

Beləliklə, ifadə bütöv halda fiziki və mənəvi dirçəlişi bildirir. Bu tip frazeoloji vahidlər məişət leksikasının insan həyatının müxtəlif mərhələlərini – xəstəlik, zəiflik və sağalma prosesini obrazlı şəkildə ifadə etmək imkanına malik olduğunu göstərir.

Qazax və Azərbaycan dillərinin frazeoloji sistemlərinin müqayisəsi göstərir ki, bu dillərdə sabit birləşmələrin quruluşunda müşahidə olunan oxşarlıqlar və fərqlər onların ortaq tarixi-mədəni zəminini əks etdirir. Eyni zamanda müəyyən semantik ayrılmalar hər bir dilin özünəməxsus inkişaf yolu və sosial-mədəni mühiti ilə bağlıdır. Bu baxımdan məişət leksikasına əsaslanan frazeoloji vahidlərin təhlili türk dillərinin daxili əlaqələrini daha aydın şəkildə üzə çıxarır.

Nəticə: Aparılan araşdırma göstərir ki, həm qazax, həm də Azərbaycan dilində məişət əşyaları ilə bağlı leksik vahidlər obrazlı ifadə vasitəsinə çevrilərək müxtəlif semantik çalarlar qazanmışdır. Xüsusilə *көйлек* [köylek] "köynək", *бесік* [besik] "beşik", *қазан* [kazan] "qazan", *етек* [yetek] "ətək", *төсек* [tösek] "döşək", *жастық* [jastık] "yastıq" sözləri əsasında formalaşmış frazeoloji birləşmələr hər iki dildə həm struktur, həm də məna baxımından müqayisə edilmişdir. Bu sözlər məişət leksikasına aid olmaqla, gündəlik həyatla bağlı konkret anlayışları ifadə etsə də frazeoloji sistemdə məcazi məna qazanaraq sosial münasibətləri, ailə institutunu, mənəvi dəyərləri və psixoloji vəziyyətləri əks etdirir. Qazax və Azərbaycan dillərində frazeoloji vahidlər ortaq köklərə əsaslansa da, semantik inkişaf istiqamətində müəyyən fərqlər meydana çıxmışdır. Bu isə gələcəkdə daha geniş müqayisəli və tipoloji tədqiqatların aparılması üçün zəmin yaradır.

Ədəbiyyat siyahısı

1. Azərbaycan frazeologiya lüğəti. Bakı: Altun kitab, 2018, 288 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. 2-ci cild. Bakı: Şərq-Qərb, 2006, 792 s.
3. Виноградов В.В. Лексикология и лексикография. Москва: Наука, 1977, 310 с.
4. Кеңесбаев І. Қазақ тілінің фразеологиялық сөздігі. Алматы: Ғылым, 1977, 712 б.
5. Кеңесбаев І. Қазақ тілінің фразеологиялық сөздігі. Алматы: ҚазАқпарат, 2007, 356 б
6. Қазақ әдебі тілінің сөздігі. Он бес томдық. 3-том. Б. Сүйеркұлова, С. Жапақов, Т Жанұзақов және т.б. Алматы: Арыс, 2006. 744 б.
7. Қазақ әдебі тілінің сөздігі. Он бес томдық. 5-том. Б Әбілқасымов, С Визақов, Ә Жүнісбеков және т.б. Алматы: Арыс, 2007, 752 б.
8. Қазақ әдебі тілінің сөздігі. Он бес томдық. 6-том. Ж.Қоңыратбаева, Ғ.Қалыиев, Қ.Есенова және т.б. Алматы: 2011, 752 б.
9. Қазақ әдебі тілінің сөздігі. Он бес томдық. 8-том. Қ.Күдерінова, О.Жұбаева, М.Жолшаева және т.б. Алматы: Арыс, 2011, 744 б.
10. Қазақ әдебі тілінің сөздігі. Он бес томдық. 14-том. М Малбақов, Қ Есенова, Б Хинаят және т.б. Алматы: Арыс, 2014, 800 б.
11. https://az.wikipedia.org/wiki/Be%C5%9Fik.

Ulkar Afandiyeva

Household lexican in the phraseological system of the Kazakh language

Summary

In this article, phraseological units in the Kazakh language based on household vocabulary are analyzed in detail from both structural and semantic perspectives and examined in comparison with corresponding material from the Azerbaijani language. The primary aim of the study is to identify the figurative semantic layers acquired by lexical units related to everyday domestic life within the phraseological system, to determine the mechanisms underlying their formation, and to clarify their interaction with the national and cultural context. Particular attention is paid to phraseological combinations formed on the basis of household terms such as *көйлек* [koylek], *бесік* [besik], *қазан* [kazan], *етек* [yetek], *төсек* [tosek], and *жастық* [jastık]. These units are systematized, and their structural patterns, semantic development, and functional load are comprehensively explained.

The study demonstrates that household vocabulary within the phraseological system functions not merely as a nominative base, but also as a means of expressing social relations, family institutions, and moral values through processes of metaphorical and symbolic transformation. Comparative analysis reveals that the phraseological parallels observed in Kazakh and Azerbaijani are rooted in a shared historical and cultural foundation. At the same time, semantic differentiation is evident in certain units, reflecting the internal dynamics of linguistic development. Ultimately, the research provides a scholarly basis for the typological study of

household-based phraseological units in Turkic languages and establishes a foundation for further investigations in the field of comparative phraseology.

Key words: *Phraseological units, Household vocabulary, Kazakh language, Turkic languages, Semantic analysis.*

Улкар Афандиева

Домашний лексик в фразеологической системе казахского языка

Резюме

В данной статье фразеологические единицы казахского языка, сформированные на основе бытовой лексики, подробно анализируются с структурной и семантической точек зрения и рассматриваются в сопоставлении с материалом азербайджанского языка. Основной целью исследования является выявление образных семантических слоёв, приобретённых лексическими единицами, связанными с повседневной бытовой жизнью, в составе фразеологической системы, определение механизмов их формирования и уточнение их взаимодействия с национально-культурным контекстом. Особое внимание уделяется фразеологическим сочетаниям, образованным на основе таких бытовых терминов, как *көйлек*, *бесік*, *қазан*, *етек*, *төсек* и *жастық*, данные единицы систематизируются, а их структурные модели, семантическое развитие и функциональная нагрузка всесторонне объясняются.

Исследование показывает, что бытовая лексика в составе фразеологической системы функционирует не только как номинативная основа, но и служит средством выражения социальных отношений, семейных институтов и нравственных ценностей посредством процессов метафорической и символической трансформации. Сопоставительный анализ выявляет, что фразеологические параллели, обнаруженные в казахском и азербайджанском языках, связаны с общим историко-культурным фундаментом. В то же время в ряде единиц наблюдается семантическая дифференциация, отражающая внутреннюю динамику языкового развития. В конечном итоге исследование создаёт научную основу для типологического изучения бытовых фразеологических единиц в тюркских языках и закладывает базу для дальнейших исследований в области сопоставительной фразеологии.

Ключевые слова: *Фразеологические единицы, Бытовая лексика, Казахский язык, Тюркские языки, Семантический анализ.*

Çapa tövsiyə edən: ***Bakı Dövlət Universiteti***

Rəyçilər: ***professor E.Əzizov***
fil.e.dok. Şəbnəm Həsənli-Qəribova

UOT-811.11-112
Səhifə: 174-179
https://doi.org/10.59849/2663-8967.2026.1.174

Aynurə Məmmədzadə
ADNSU-nun nəzdində Sənaye və Texnologiya kolleci

QEYRİ-VERBAL ÜNSİYYƏTİN SPESİFİK XÜSUSİYYƏTLƏRİNƏ DAİR

XÜLASƏ

Məqalə qeyri-verbal ünsiyyətin spesifik xüsusiyyətlərinin elmi-nəzəri təhlilinə həsr edilmişdir. Tədqiqatda qeyri-verbal ünsiyyət verbal nitqlə paralel fəaliyyət göstərən müstəqil informasiya kanalı kimi nəzərdən keçirilir və onun kommunikasiya prosesindəki rolu açıqlanır. Qeyd olunur ki, qeyri-verbal vasitələr - mimika, jest, poza, yeriş, səsin tembri, intonasiya və məkan davranışı nitqin semantik məzmununa mühüm təsir göstərir, emosional və qiymətləndirici informasiyanın ötürülməsini təmin edir. Məqalədə qeyri-verbal ünsiyyətin polisencop xarakteri, şüuraltı və qeyri-ixtiyari olması, dil baryerlərindən asılı olmaması kimi əsas xüsusiyyətlər təhlil olunur. Həmçinin qeyri-verbal kodların mədəni-tarixi zəminlə sıx bağlı olduğu vurğulanır və bu səbəbdən onların universal xarakter daşımadığı göstərilir. Tədqiqat nəticəsində belə qənaətə gəlinir ki, kommunikativ effektivlik və adekvat qarşılıqlı anlaşma məhz verbal və qeyri-verbal vasitələrin vəhdəti ilə mümkündür. Qeyri-verbal ünsiyyətin öyrənilməsi mədəniyyətlərarası kommunikasiya, nitq davranışı və tədris prosesində praktiki əhəmiyyətə malikdir.

Açar sözlər: *qeyri-verbal ünsiyyət, kommunikasiya, kinesika, proksemika, polisencopluq, mədəni kod.*

Giriş: Müasir dilçilik və kommunikasiya nəzəriyyəsində qeyri-verbal ünsiyyət insan qarşılıqlı münasibətlərinin ayrılmaz və fundamental komponenti kimi qiymətləndirilir. Verbal ünsiyyət məlumatın məzmun tərəfinin ötürülməsində mühüm rol oynasa da, kommunikasiya prosesinin emosional, qiymətləndirici və münasibət bildirən aspektləri əsasən qeyri-verbal vasitələr vasitəsilə reallaşır. Jestlər, mimika, bədən duruşu, səsin tembri, intonasiya, vizual kontakt və məkan davranışı ünsiyyət iştirakçıları arasında əlavə informasiya kanalı formalaşdırır və nitqin semantik yükünü ya gücləndirir, ya da zəiflədir. "Kommunikasiya prosesi məlumat və ideyaların (fikirlərin) mübadiləsi, qarşı tərəflərin bir-birinə informasiyanı ötürməsi və qarşılığında müvafiq cavabların alınmasını nəzərdə tutur, bunların danışıq, vizual (görüntü), siqnallar, yaxud davranış vasitəsilə çatdırmasıdır" [1, s.34].

Qeyri-verbal ünsiyyətin təbiəti, şüuraltı xarakteri və mədəni-spesifikliyi onu tədqiqat baxımından xüsusilə aktual edir. Bu sahənin öyrənilməsi yalnız dilçilik deyil, həm də psixologiya, sosiologiya, kulturologiya və kommunikasiya nəzəriyyəsi üçün mühüm əhəmiyyət kəsb edir. Nitq ünsiyyəti prosesində qeyri-verbal kommunikasiya ilə paralel şəkildə həyata keçirilir və ünsiyyət sistemində sözə nisbətdə ikinci informasiya kanalı kimi çıxış edir. XX əsrin 50-ci illərində formalaşmış "qeyri-verbal kommunikasiya" anlayışı işarə sistemləri nəzəriyyəsinə (semiotikaya) yaxınlaşır və informasiyanın ötürülməsinin dildənkənar forma və vasitələr sistemi kimi müəyyənləşdirilir. Qeyri-verbal kommunikasiya nitq ünsiyyətinin çox vacib aspektidir; çünki o, ya sözün semantik məzmununu xeyli dərəcədə gücləndirə, ya da əhəmiyyətli şəkildə zəiflədə bilər.

Şəxslərarası kommunikasiya üçün səciyyəvi cəhətlər bunlardır: 1) mövzunun tez-tez dəyişməsi; 2) tərəflərdən birinin daha fəal olması səbəbi ilə dominant mövqe tutması və digərinin tabe olması; 3) kommunikativ istiqamətin dəyişməsi; 4) əvvəlki mövzuya qayıtmaq imkanının olması; 5) yekun mərhələnin mütləq olmaması [9].

Qeyri-verbal kommunikasiyanın özəlliyi ondadır ki, o, müxtəlif sensor sistemlərin iştirakı ilə reallaşır: görmə, eşitmə, dad və qoxu və termoresepsiya (isti və soyuq hissi). Hər bir sensor sis-

temə beynin müəyyən sahəsi cavabdehdir və daxil olan informasiya həmin sahələrdə eşitmə, görmə, qoxu, istilik və dəri-taktil hisslər kimi dekodlaşdırılır.

İnsanın həm ünsiyyət prosesində, həm də ətraf mühitdə orientasiyasında ən mühüm rol oynayanlar məsafəli sensor sistemlərdir, yəni görmə və eşitmə. Məlumdur ki, xarici aləmdən gələn informasiyanın təxminən 80%-i görmə vasitəsilə qəbul edilir. Bununla belə, insanın intellektual sferasının formalaşması üçün daha əhəmiyyətli olan məhz eşitmədir. Qeyri-verbal kommunikasiya polisencop təbiətə malikdir; bu isə insana ətraf mühitdən həm bioloji, həm də sosial baxımdan əhəmiyyətli informasiya əldə etməyə imkan verir. "Ənənəvi olaraq belə hesab olunur ki, qeyri-verbal davranışın özü elə bir fenomendir ki, onun strukturunun böyük hissəsini şüursuz, qeyri-niyyətli, qeyri-ixtiyari, lakin eyni zamanda insanın psixoloji xüsusiyyətləri ilə bağlı olan hərəkətlər təşkil edir; bu hərəkətlər vahid bir bütöv yaratdığı üçün praktik olaraq ayrıca elementlərə parçalanmır" [5, s. 23].

Qeyri-verbal kommunikasiyanın inkişaf tarixindən bəhs etdikdə, tədqiqatçıların əksəriyyəti yekdilliklə bildirir ki, qeyri-verbal "dil" verbal dildən daha əvvəl yaranmış, nitq və nitq fəaliyyəti isə məhz onun əsasında formalaşmışdır. Psixolinqvist A. R. Luriyanın qeyd etdiyi kimi, nitqin paleontologiyasının ən erkən mərhələsində dil hələ informasiyanın ötürüldüyü sabit kodlar sistemi deyildi. Mesajın ötürülməsində əsas rolu dildənkənar amillər – işarəedici jestlər, intonasiya, mimika və situasiyanın bilinməsi oynayırdı. Dilin sonrakı təkamülü isə dildənkənar vasitələrdən tədricən "azadlaşma" və mürəkkəb kodların inkişafı prosesini təmsil edir [5, s. 275].

V. P. Morozovun fikrincə, qeyri-verbal kommunikasiyaya onu verbal nitqdən kəskin şəkildə fərqləndirən bir sıra xüsusiyyətlər xasdır. Bu isə onu kommunikasiya sistemində (geniş mənada) xüsusi informasiya kanalı kimi nəzərdən keçirməyə əsas verir. Morozov qeyri-verbal kommunikasiyanın aşağıdakı xüsusiyyətlərini ayırd etmişdir:

1. polisencop təbiətə malik olması;
2. verbal nitqlə müqayisədə təkamül-tarixi baxımdan daha qədim olması;
3. nitqin semantikasından asılı olmaması;
4. yüksək dərəcədə qeyri-ixtiyari və şüuraltı xarakter daşıması;
5. dil baryerlərindən asılı olmaması;
6. akustik kodlaşdırma vasitələrinin özünəməxsusluğu [7, s. 6].

V. P. Morozov müxtəlif növ qeyri-verbal informasiyanın ötürülməsinin akustik vasitələrini tədqiq etmiş və onların əsaslarını belə fərqləndirmişdir:

a) səsin tembri; onun fiziki ekvivalenti səs spektridir, yəni səsin tezlik (oberton) tərkibinin qrafik təsviri;

b) nitqin melodikası (səsin hündürlüyünün zamanla dəyişməsi);

c) nitqin temp-ritmik xüsusiyyətləri;

d) tələffüzün atipik fərdi xüsusiyyətləri (gülüş, boğaz təmizləmə, kəkələmə və s.).

A.R.Luriya qeyri-verbal "dillər" kimi bunları göstərir: kinesika, proksemika, fiziki xarakteristikalar, vokalika, haptika, xronemika, olfaktika, estetika və artefaktlar [6]. V.N. Labunskayanın işində qeyri-verbal kommunikasiya vasitələrinin daha dəqiq təsnifatı təqdim olunur:

1. kinesika**:**
   - vizual kontakt (kontaktın tezliyi, baxışın istiqaməti, pauzanın uzunluğu);
   - ekspressiv-ifadəli hərəkətlər (jest, mimika, poza, yeriş);
2. prosodika və ekstralinqvistika (səsin gücü, intonasiya, tembr, ah çəkmə, pauza, ağlama, öskürmə, gülüş);
3. proksemika (məsafə, orientasiya);
4. takesika (əl sıxma, çiynə toxunma/patpatlama, öpüş) [5, s. 87].

Nitqdə qeyri-verbal informasiyanın kodlaşdırılmasının ən mühüm xüsusiyyəti müxtəlif akustik vasitələrin qarşılıqlı təsiridir. Başqa sözlə, qeyri-verbal informasiyanın hər hansı bir növü, adətən, tək bir akustik vasitə ilə deyil, eyni zamanda bir neçəsinin köməyi ilə ötürülür. Məsələn, danışanın emosional vəziyyətinin fərqli olması təkcə səsin tembrində (yəni spektrində) deyil, həm də hər bir emosiya üçün səciyyəvi olan səs hündürlüyü, gücü, temp-ritm xüsusiyyətlərinin dəyişməsində ifadə olunur. Çoxdan məlumdur ki, kommunikasiya prosesində bütün hiss orqanları işti-

rak edir: insan informasiyanı həm görmə ilə, həm eşitmə ilə, həm də qoxu vasitəsilə qavrayır. V. P. Morozovun tədqiqatlarına görə, məhz qeyri-verbaliyanın polisencop təbiəti ətraf mühitdən bioloji və sosial baxımdan əhəmiyyətli informasiyanın demək olar ki, hamısının qəbuluna imkan verir. Qavrayışın yüksək adekvatlıq dərəcəsi və ünsiyyət zamanı səmərəli qarşılıqlı anlaşma, nitq qarşılıqlı təsiri prosesində həm qeyri-verbal informasiya növlərinin bir-biri ilə, həm də onların bilavasitə verbal (nitqi) informasiya ilə qarşılıqlı təsir etməsi ilə şərtlənir. Qeyri-verbal kommunikasiya ümumilikdə ikonik (təsviri) xarakter daşıyır. Qeyri-verbal kommunikasiyanın ikonik təbiəti dil baryerlərindən asılı deyil və ümumi anlaşıqlılıqla səciyyələnir. Verbal kommunikasiya ilə müqayisədə Qeyri-verbal kommunikasiya dil baryerlərindən və nitqin semantikasından asılı olmadığından, onu nəzarətdə saxlamaq daha çətindir. Nitqin qeyri-verbal aspekti müəyyən xalqın mədəni-tarixi zəminə əsaslandığı üçün qeyri-verbal kommunikativ kodlar tərif etibarilə universal ola bilməz; onları təsnifləşdirmək və şərh etmək kifayət qədər mürəkkəbdir.

Beləliklə, verbal və qeyri-verbal kommunikasiya vasitələrinin faiz nisbətini göstərsək, aşağıdakı mənzərə alınır: 7% – sözlər, 38% – tonallıq və intonasiya, 55% – üz ifadəsi, bədən vəziyyəti və jestlər [4]. Deməli, kommunikasiya zamanı qeyri-verbal vasitələrin məzmun payına 93%, verbal mesajların məzmununa isə cəmi 7% düşür. Məhz qeyri-verbal vasitələr insanın düşüncələrini sözlərdən daha dəqiqliklə ötürə bilir.

Müasir insan gün ərzində otuz min sözdən artıq ifadə işlədir və bu sözləri qeyri-verbal hərəkətlərlə müşayiət edir. Nitq, şübhəsiz ki, ünsiyyətin ən universal növüdür, lakin o, informasiyanın cəmi 40%-ni ötürür, qalan hissə isə qeyri-verbal vasitələrlə tamamlanır. Tədqiqatçıların məlumatına görə, ilk görüş zamanı səs informasiyanın 38%-ni, bədən hərəkətləri 55%-ni, sözlər isə cəmi 7%-ni çatdırır.

Qeyri-verbal kommunikasiya bəzən "jestlər dili" adlandırılır, lakin bu termin, bizim fikrimizcə, tam dəqiq deyil. Çünki adətən biz bu cür qeyri-verbal işarələrdən yalnız sözlə deyilənləri təkzib etmək və ya tamamlamaq üçün istifadə edirik. Qeyri-verbal kommunikasiya (lat. *verbalis* – şifahi; *communicatio* – ünsiyyət) – ünsiyyətdə olan fərdlərin qarşılıqlı münasibətinin xarakteri və emosional vəziyyətləri haqqında siqnal verən davranışdır. Qeyri-verbal kommunikasiya informasiyanın daha dəqiq ötürülməsi üçün istifadə edilən qeyri-verbal simvollar, işarələr və kodlar sistemidir və bu sistem müəyyən dərəcədə şəxsiyyətin psixoloji və sosial-psixoloji keyfiyyətlərindən müstəqildir [8, s.65].

Beləliklə, qeyri-verbal ünsiyyət sözsüz ünsiyyət növüdür. Tədqiqatçıların fikrincə, o, daha informativ və daha etibarlıdır, çünki qeyri-iradidir və nəzarətə çətin tabe olur. Mimika, jest, poza kimi qeyri-verbal ünsiyyət vasitələri ilə insan öz hisslərini, emosiyalarını, əhval-ruhiyyəsini ifadə edir, baş verən hadisələrə qiymət verir. Hələ təkamül nəzəriyyəsinin banisi Çarlz Darvin bildirirdi ki, emosiyaların ifadə olunmasının əsas modelləri Yer kürəsindəki bütün insanlar üçün eynidir. Bu nəzəriyyənin həm tərəfdarları, həm də əleyhdarları vardır. Bizim fikrimizcə, bütün mədəniyyətlər, yaxud heç olmasa onların əksəriyyəti üçün səciyyəvi olan jest və ya pozalar mövcud deyil. Hər halda, bu indiyədək sübut edilməmişdir. Qeyri-verbal kommunikasiya işarələrinin mədəni baxımdan spesifik olması faktı mədəniyyətlərarası ünsiyyətdə çətinliklər yaradır, anlaşılmazlıqlara səbəb olur və bu məqalənin aktuallığını müəyyənləşdirir. Qeyri-verbal kommunikasiya vasitələrindən danışarkən qeyd etmək lazımdır ki, onların vahid təsnifatı yoxdur. Məsələn, psixologiyada qeyri-verbal kommunikasiyanın dörd forması fərqləndirilir: kinesika, paralingvistika, məkan-zaman təşkilatı və vizual ünsiyyət. Tədqiqatımızın spesifikliyini nəzərə alaraq, biz qeyri-verbal kommunikasiyanın aşağıdakı növləri üzərində dayanacağıq: proksemik, kinesik, taktil və paraverbal.

Proksemika kommunikativ kontekstdən, ünsiyyət iştirakçılarının qarşılıqlı münasibətlərindən, statusundan, yaşından, vəziyyətdən, ünsiyyətin məkan və zamanından asılı olaraq dəyişən məkan münasibətlərinə əsaslanan qeyri-verbal kommunikasiya növüdür. E. Holl bu növ qeyri-verbal kommunikasiyada dörd zona müəyyən etmişdir: intim, şəxsi, sosial və ictimai. Bəzi tədqiqatçıların məlumatına görə, ingilis kommunikantları dost və ya yaxın qohum olmadıqda bir-iki metr məsafədə dayanırlar. Azərbaycanlılarda isə ünsiyyət zamanı daha kiçik məsafə müşahidə olunur. Kiçik məsafəyə alışmış azərbaycanlıların davranışı ingilislər tərəfindən şəxsi təhlükəsizlik üçün təhdid kimi qəbul edilə bilər.

Şəxsi məsafə ünsiyyətdə ən mühüm rol oynayır və insan bu sahəyə başqalarını buraxmır. Məlumatlarımıza görə, Qafqaz xalqlarında şəxsi məkan Avropa xalqları ilə müqayisədə minimaldır və demək olar ki, bədənin hüdudlarından kənara çıxmır.

Kinesika – ünsiyyətin ifadəli vasitələrini tamamlayan bədən hərəkətləri, jestlər və pozalar toplusudur. Onun əsas elementləri mimika, poza, jest və baxışlardır və bunlar fizioloji və ya sosiomədəni mənşəyə malikdir [3, s.76].

Mimika üz əzələlərinin hərəkətləridir. İnsanın üz ifadəsindən onun emosional vəziyyətini – sevincli, əsəbi, həyəcanlı və ya təəccüblü olub-olmadığını müəyyən edirik. Son tədqiqatlar göstərir ki, üzün sol və sağ tərəfləri emosiyaları fərqli şəkildə əks etdirir: nəzarət etdiyimiz hisslər daha çox sağ tərəfdə, real yaşantılar isə sol tərəfdə ifadə olunur. Tədqiqatçıların çoxu qərblilərin mimikasını təmkinli və az intensiv hesab edir.

Müxtəlif xalqlar arasında davranış fərqləri gülümsəmədə də özünü göstərir. İngilis mədəniyyətində gülümsəmə ünsiyyət elementidir. Azərbaycanlılarda isə gülümsəmə adətən həyatdakı müsbət hadisələrə təbii reaksiya kimi meydana çıxır. Buna görə də səbəbsiz gülümsəyən insan anlaşılmazlıq yarada bilər.

Kinesikanın mühüm elementlərindən biri də vizual kontaktdır, çünki informasiyanın 87%-i görmə analizatoru vasitəsilə qəbul olunur. Vizual kontakt göz bəbəklərinin genişliyinin dəyişməsi, gözlərin açıqlıq dərəcəsi, baxışın istiqaməti və hərəkəti ilə ifadə olunur. Müşahidələrimizə görə, insanlar danışdıqlarından daha çox dinlədikləri zaman vizual kontaka meyilli olurlar [2, s.54].

Dünyanın bir çox xalqında birbaşa baxış diqqət və maraq əlamətidir. Bu zaman gözlər adətən sabit olur və bir nöqtəyə fokuslanır. Əgər qərb xalqlarında bəzən gözlərini qırpmaqla həmsöhbətə onu dinlədiklərini və başa düşdüklərini bildirirlərsə, Şərq xalqlarında isə bu vəziyyətdə başları ilə təsdiq edirlər.

Jestlər də nitqi tamamlayır. Jest – əllərin və ya biləklərin hərəkətidir. N.İ. Smirnova onları kommunikativ, vurğulayıcı və modal jestlərə ayırır. Azərbaycanlılar jestlərdən geniş istifadə edir, əl hərəkətləri böyük amplitudaya və geniş məkan tutumuna malikdir. Avropa mədəniyyətində isə jestlər daha məhdud şəkildə işlədilir və məhdud jestikulyasiya tərbiyə və yaxşı davranış əlaməti hesab olunur.

Taktil sistem – toxunma, əl sıxma, qucaqlaşma və öpüşləri əhatə edir. Bu ünsiyyət formaları təsdiq və emosional dəstək funksiyasını daşıyır. Avropa xalqları bir-birinə nadir hallarda toxunur, azərbaycanlılar isə daha tez-tez toxunmadan istifadə edirlər. Qafqaz xalqlarında görüş və sağollaşmanın vacib atributu əl sıxmadır, lakin bu əsasən kişilərə məxsusdur.

Paraverbal sistem səsin keyfiyyəti, diapazonu, tonu, davamlılığı, gücü, ritmi və tembrini əhatə edir. Məsələn, Avrapa xalqlarının aksentasiyası Qafqaz xalqlarının aksentasiyası ilə müqayisədə daha dinamikdir. İngilislər adətən sakit səslə, bir-birini kəsmədən danışırlar və uzun sükutlara dözümsüzdürlər. Azərbaycanlılar daha ləng danışır, lakin kişilər istisna olmaqla, onlar da sakit ton seçirlər. Avropa xalqlarının nitqi emosional baxımdan daha təmkinlidir, azərbaycanlıların nitqi isə daha emosional xarakter daşıyır.

Beləliklə, qeyri-verbal davranışa təsir edən ümumi amillər sırasında milli mənsubiyyət, sağlamlıq vəziyyəti, peşə, mədəni səviyyə, sosial status, yaş və cins mühüm rol oynayır.

Nəticə: Aparılan təhlil göstərir ki, qeyri-verbal ünsiyyət kommunikasiya prosesində yalnız əlavə vasitə deyil, semantik və emosional informasiyanın əsas daşıyıcılarından biridir. Verbal nitqlə qarşılıqlı əlaqədə fəaliyyət göstərən qeyri-verbal vasitələr ünsiyyətin effektivliyini, adekvat anlaşmanı və psixoloji rahatlığı təmin edir. Qeyri-verbal ünsiyyətin polisencop və mədəni-spesifik xarakteri bu sahənin həm nəzəri, həm də praktik baxımdan daha dərindən araşdırılmasını zəruri edir. Xüsusilə mədəniyyətlərarası ünsiyyət və tədris mühitində qeyri-verbal davranışların düzgün interpretasiyası kommunikativ uğurun əsas şərtlərindən biri kimi çıxış edir.

Ədəbiyyat siyahısı

1. Bayramov P. Kommunikasiya prosesində qeyri-verbal ünsiyyət vasitələrinin rolu / –Bakı: Elm və təhsil, 2024.
2. Ekman P. Facial Expressions. Handbook of Cognition and Emotion. – New York. – 1999.
3. Hall E. The Silent Language. Greenwich, CT, 1959. – 192 p.
4. https://studme.org/181007137229/etika_i_estetika/klassifikatsiya_osobennosti_osnovnyh_zhestov. – Дата доступа: 17.12.20
5. Лабунская, В.А. Невербальное поведение: структура и функции / В.А. Лабунская // Социальная психология: учеб. Пособие / Е.П. Белинская, О.А. Тихомандрицкая. –М: Аспект Пресс, 2003. – 475 с.
6. Лурия, А.Р. Лекции по общей психологии / А.Р. Лурия. – Спб.: Питер, 2006. – 320 с.
7. Морозов, В.П. Искусство и наука общения: невербальная коммуникация. / В.П. Морозов. – М.: ИПРАН, 1998. – 155 с
8. Поваляева М.А., Рутер О.А. Невербальные средства общения. – Ростов н/Д.: Феникс, 2004. – 352 с.
9. Стернин, И.А., Ларина Т.В., Стернина М.А. Очерк английского коммуникативного поведения / И.А. Стернин, Т.В. Ларина, М.А. Стернина. «Истоки». Воронеж, 2003. – 185 с.

Aynura Mammadzada

On the specific characteristics of non-verbal communication

Summary

The article is devoted to the analysis of the specific features of non-verbal communication as a fundamental component of human interaction. Non-verbal communication is considered an independent information channel that functions in parallel with verbal speech and significantly influences the interpretation of meaning. The study emphasizes that gestures, facial expressions, posture, gait, intonation, and voice quality play a crucial role in conveying emotional and evaluative information.

Special attention is paid to the polysensory nature of non-verbal communication, its unconscious and involuntary character, and its relative independence from language barriers. The article highlights that non-verbal codes are deeply rooted in cultural and historical contexts, which makes them culturally specific rather than universal. This cultural specificity often causes difficulties in intercultural communication.

The research concludes that effective communication and mutual understanding are achieved through the interaction of verbal and non-verbal means. The study of non-verbal communication is of great importance for linguistics, psychology, communication studies, and intercultural interaction, as it contributes to a deeper understanding of human communicative behavior.

Key words: *non-verbal communication, interpersonal interaction, gestures, body language, cultural specificity, polysensory nature.*

Айнуре Мамедзаде

О специфических характеристиках невербальной коммуникации

Резюме

Статья посвящена анализу специфических особенностей невербальной коммуникации как важнейшего компонента межличностного общения. Невербальная коммуникация рассматривается как самостоятельный информационный канал, функционирующий параллельно с вербальной речью и оказывающий значительное влияние на интерпретацию смысла высказывания. В работе подчеркивается, что жесты, мимика, поза, походка,

интонация и тембр голоса играют ключевую роль в передаче эмоционально-оценочной информации. Особое внимание уделяется полисенсорной природе невербальной коммуникации, ее непроизвольному и подсознательному характеру, а также относительной независимости от языковых барьеров. Отмечается, что невербальные коды формируются в рамках определенной культурно-исторической традиции, что обусловливает их национально-специфический характер и затрудняет универсальную интерпретацию.

В статье делается вывод о том, что эффективность коммуникации и взаимопонимание между собеседниками достигаются за счет взаимодействия вербальных и невербальных средств. Изучение невербальной коммуникации имеет большое значение для лингвистики, психологии, социологии и межкультурного общения.

Ключевые слова: *невербальная коммуникация, межличностное общение, жест, мимика, культурная специфика, полисенсорность.*

Çapa tövsiyə edən: ADNSU-nun nəzdində Sənaye və Texnologiya kolleci

Rəyçilər: ***dosent E.Əliyeva***
dosent S.Cumayeva

UOT-811.11-112
Səhifə: 180-185
https://doi.org/10.59849/2663-8967.2026.1.180

Könül Salmanova
Azərbaycan Turizm və Menecment Universiteti
konul.salmanova@atmu.edu.az
https://orcid.orı/0009-0000-7907-5424

İNGİLİS DİLİNDƏ MƏCAZLAŞMA PROSESİNDƏ METAFORA VƏ METONİMİYANIN ROLU

XÜLASƏ

Bu məqalədə ingilis dilində məcazlaşma prosesi linqvistik və semantik aspektdən təhlil olunur. Tədqiqatın əsas məqsədi dil vahidlərinin məna genişlənməsində və yeni semantik əlaqələrin formalaşmasında məcazlaşmanın rolunu müəyyənləşdirməkdir. Məqalədə məcazlaşma fenomeni ümumi çərçivədə araşdırılır, əsas diqqət isə metafora və metonimiya kimi aparıcı məcaz növlərinə yönəldilir. Metafora konseptual sahələr arasında analoji əlaqələr qurmaq yolu ilə abstrakt anlayışların ifadəsinə imkan yaradan əsas idrak mexanizmi kimi dəyərləndirilir. Metonimiya isə eyni konseptual sahə daxilində hissə-bütöv, səbəb-nəticə və yaxınlıq münasibətlərinə əsaslanan semantik köçürmələr vasitəsilə dilin ifadə imkanlarını genişləndirən vasitə kimi təhlil edilir. Məqalədə metafora və metonimiyanın qarşılıqlı əlaqəsi, eləcə də onların leksik-semantik dəyişmələrdəki funksiyası göstərilir.

Açar sözlər: *məcazlaşma prosesi, konseptual metafora, metonimiya, metaforik xəritələşmə, mənbə sahəsi, hədəf sahəsi.*

Giriş: Məcaz insanın dil vasitəsilə dünyanı qavrama üsullarından biridir. O, dilin həm poetik, həm də konseptual səviyyəsində formalaşaraq ünsiyyətin əsas semantik mexanizmlərindən birinə çevrilir. Xüsusilə ingilis dili kimi uzun tarixə və zəngin yazılı ənənəyə malik olan bir dildə məcazlaşma prosesi dilin mənaca inkişafını, semantik transformasiyalarını və diskursiv strukturlarını öyrənmək üçün mühüm açar rolunu oynayır.

Dildə olan məcazlar həm insanların gündəlik nitqlərində həm də daha spesifik yəni, bədii və yaradıcı mətnlərdə işlənir. Dil çoxvariantlı hadisədir. Bu o deməkdir ki, insanlar aid olduqları sosial qrup, cəmiyyət, məkan və digər faktorlardan asılı olaraq şifahi və yazılı nitq nümayiş etdirirlər. Keyfiyyətli yazılmış bir bədii yazı nümunəsində sözlərin vərdiş etdiyimiz mənasından daha geniş və artistik tərzdə istifadəsini görə bilərik. Ancaq bu söz və ifadələrin mənaları nə qədər genişlənsə də oxucu kütlə tərəfindən asanlıqla başa düşülür. Hətta bəzi yazıçı və şairlərin öz əsərlərində işlətdiyi metaforik ifadələr dilin unikal və parlaq vahidlərinə çevrilmişdir. U.Şekspir, E.Dikinsonun metaforaları insanların yüksək koqnitiv bacarıqlarının mövcudluğunu sübut edir. Bu səbəbdən də keyfiyyətli ədəbi əsərlər həm dilçilərin, həm də koqnitiv sahə üzrə tədqiqatçıların daim diqqət mərkəzində olmuşdur. İngilis dilində məcazlaşma prosesi dilçilik elmində müxtəlif nəzəri yanaşmalar çərçivəsində təhlil olunmuşdur. Ənənəvi ədəbi yanaşmalar məcazı bədii üslubun estetik elementi kimi dəyərləndirirdilərsə, müasir dilçilikdə məcaz daha geniş – koqnitiv, funksional, korpus və sosial kontekstlərdə nəzərdən keçirilir. Bu yanaşmaların hər biri məcazlaşma prosesinin fərqli aspektlərini üzə çıxararaq, onun dilin struktur və funksional inkişafındakı rolunu dərindən anlamağa imkan verir.

Ənənəvi dilçilər, xüsusilə XIX və XX əsrin əvvəllərində, məcazları ədəbi dildə bədii-estetik məqsədlərlə istifadə olunan ikinci dərəcəli vasitə kimi qəbul edirdilər. Bu dövrdə məcazlar əsasən poetik nitqə aid edilir, gündəlik və elmi diskurslardan kənar tutulurdu. Strukturalist dilçilər, xüsusilə F.Sössürün təsiri ilə, məcazlaşmanı dil sisteminin sintaktik və semantik elementləri arasındakı münasibətlər fonunda təhlil edirdilər. Onlar məcazın məna transferi prosesini müəyyən leksik və sintaktik quruluşlara bağlayırdılar. Lakin bu yanaşma məcazların konseptual əsaslarını və idrakla bağlı tərəflərini izah etməkdə kifayət qədər dərinliyə malik deyildi.

Son dörd onillikdə məcazlaşma prosesi və təfəkkür birgə araşdırılmış və onların qarşılıqlı əlaqəsi əsas diqqət mərkəzində olmuşdur. 1980-ci illərdə C.Ləkof və M.Consonun təqdim etdiyi Konseptual Metafora Nəzəriyyəsi (Conceptual Metaphor Theory – CMT) məcazlaşma prosesinin tədqiqində əsas dönüş nöqtəsi oldu. Onlara görə, məcazlar yalnız dilin bir hissəsi deyil, insan təfəkkürünün strukturunu təşkil edir. İnsanlar abstrakt anlayışları konkret təcrübələr əsasında dərk edir və bu, metafora vasitəsilə mümkün olur. Məsələn, *"Time is money"* (Zaman puldur) kimi konseptual metafora düşüncədəki sistemli bir strukturun dilə necə yansıdığını göstərir. Kognitiv yanaşma, məcazlaşmanı semantik dəyişmədən daha çox idraki proses kimi qiymətləndirir və bu sahədə tədqiqatlara psixologiya, neyroelm və fəlsəfə kimi fənlər də daxil olur [5, s. 3-7].

Son illərdə korpus əsaslı tədqiqatlar məcazlaşma prosesinə statistik və empirik baxış gətirmişdir. Bu yanaşma müxtəlif dövrlərə və diskurs janrlarına aid böyük mətn bazalarında məcaz nümunələrinin tezlik, kollokasiya və kontekstual xüsusiyyətlərini araşdırmağa imkan verir. Korpus əsaslı yanaşmalar müxtəlif metafora modellərinin real dil istifadəsindəki əksini ortaya qoymuşdur. Bu yanaşma təkcə metafora ilə deyil, metonimiya, sinekdoxa, hiperbola, litota və ironiya kimi digər məcaz növləri ilə də işləməyə şərait yaradır. Məsələn, semantik dəyişmələrin və ifadə tezliyinin zamanla necə dəyişdiyini göstərən diaxron analizlər, məcazlaşmanın tarixi inkişaf xəritəsini təqdim edir [4, s. 174].

Funksional və diskurs təhlilləri isə məcazları kommunikativ məqsəd daşıyan diskurs elementləri kimi şərh edir. Məcaz burada yalnız semantik yox, həm də sosial və ideoloji alət kimi çıxış edir. Critical Metaphor Analysis (CMA) çərçivəsində təhlillər göstərir ki, metaforalar siyasi, iqtisadi və sosial diskurslarda müəyyən mənaları ideoloji şəkildə "normal" kimi təqdim edir [2, s. 98]. Məsələn, mühacirətlə bağlı *"flood of immigrants"* (immiqrant axını) metaforası, təhlükə və nəzarətsizlik ideyasını yaymaq üçün istifadə olunur. Beləliklə, məcaz sadəcə dil hadisəsi deyil, sosial güc strukturunun bir hissəsinə çevrilir.

Bu yanaşmalar bir-birini inkar etmir, əksinə, bir-birini tamamlayaraq məcazların dil, düşüncə və cəmiyyət kontekstində necə fəaliyyət göstərdiyini anlamağa imkan verir. Müasir tədqiqatlar bu yanaşmaların sintezini həyata keçirərək məcazlaşmanın həm idraki, həm də sosial-funksional aspektlərini ortaya qoyur. Məcazlar və məcazlaşma prosesi haqqında danışarkən ilk öncə məcazı həqiqi mənadan ayırmağı bacarmalıyıq. Bu isə bəzən düşündüyümüzdən çətin ola bilər. Çünki məhz bu anda bəziləri məcazlara yalnız ədəbiyyatın elementləri olaraq yanaşır, bəziləri isə onları gündəlik həyatımızdakı nitqimizin ayrılmaz parçaları hesab edirlər. Bu məcazların arasında ən sıx istifadə olunan və daha çox tədqiqat obyektinə çevrilən metaforalardır. Ona görə də metaforalar bu baxımdan daha çox müzakirə obyekti olmuşdur.

Əgər biz məcazlaşma prosesindən danışırıqsa metaforik xəritələşmə anlayışına xüsusi yer verməliyik. Metaforik xəritələşmə, kognitiv dilçilikdə əsas anlayışlardan biridir və bir konseptual sahənin digərinə sistematik şəkildə ötürülmə prosesini izah edir. [5, s.171]. Başqa sözlə, metaforik xəritələşmə mənbə sahəsi (source domain), yəni adətən daha konkret və təcrübəyə əsaslanan sahə ilə hədəf sahəsi (target domain), yəni daha abstrakt anlayışlar sahəsi arasında uyğunluq və əlaqə yaradır. Bu zehni mexanizm mürəkkəb və ya qeyri-maddi ideyaların tanış, konkret təcrübələr vasitəsilə başa düşülməsinə imkan verir. Məsələn, "*time is money"* (zaman puldur) konseptual metaforasında mənbə sahəsi olan pul sahəsinin xüsusiyyətləri (xərcləmək, qənaət etmək, israf etmək) hədəf sahəsi olan zaman anlayışına köçürülür. Nəticədə "*spend time*" (zaman sərf etmək), "*waste time*" (zamanı israf etmək), "*save time*" (zamana qənaət etmək) kimi ifadələr gündəlik dilin təbii hissəsinə çevrilir. Ancaq bu ifadələr metaforik mənaya əsaslanır. Belə xəritələşmələr insanın konkret təcrübələrə əsaslanaraq abstrakt düşüncəni strukturlaşdırmasını göstərir.

Linqvistik baxımdan, metaforik xəritələşmələr təsadüfi və ya yalnız bəzək məqsədli deyil; onlar bir dil icmasında sistematik və konvensional xarakter daşıyır. Xüsusilə ingilis dilində metaforik strukturlar yüksək dərəcədə ardıcıldır. Məsələn, "*knowing is seeing"* (bilmək görməkdir), "*life is a journey"* (həyat səyahətdir) və "*argument is war"* (mübahisə müharibədir) kimi konseptual metaforalar təkcə ifadələrə deyil, həm də düşüncə və diskurs nümunələrinə təsir göstərir. Məsələn, "*argument is war"* metaforası "*defend your position*"(mövqeni müdafiə etmək), "*attack an idea*" (fikrə etiraz etmək) "*win an argument*" (mübahisəni qazanmaq) kimi ifadələri yaradır. Bura-

da "*war*" (müharibə) sahəsinin strukturu abstrakt "*argument*" (mübahisə) anlayışına köçürülərək onu rəqabətli fəaliyyət kimi təsvir edir [1, s. 88-90].

Beləliklə, metaforik xəritələşmə yalnız üslub və ya bəzək vasitəsi deyil. Bu, insanın təcrübə və abstrakt anlayışları birləşdirərək mənalar yaratmaq qabiliyyətini əks etdirən zehni bir prosesdir. Bu xəritələşmələrin müxtəlif kontekstlərdə ardıcıl təzahür etməsi, metaforanın yalnız dil səviyyəsində deyil, konseptual səviyyədə işlədiyini göstərir. Bu səbəbdən ifadə formaları fərqli olsa da metaforik düşüncə mədəniyyətlər arasında da universaldır.

İngilis dilində metaforik xəritələşmə zamanla inkişaf etmiş və diaxronik olaraq dəyişmişdir. Erkən ingilis ədəbiyyatında, məsələn "Beowulf" epik mətnində, metaforik ifadələr əsasən fiziki və sosial təcrübələrə bağlı olmuşdur. Burada "*life is a journey"* və "*death is sleep"* kimi metaforalar həm gündəlik həyat, həm də mənəvi anlayışlarla bağlı idi. Bu dövrdə metaforik ifadələr daha çox konkret təsvirlər üzərində qurulmuş, lakin eyni zamanda abstrakt ideyaları izah etməyə xidmət etmişdir [6].

Orta və Yeni İngilis dövründə isə metaforik xəritələşmələr daha mürəkkəb və sistematik hala gəlmişdir. Məsələn, "*time is money"* konseptual metaforası bu dövrdə geniş yayılmış və gündəlik dilin hissəsi olmuşdur. Bu dövrdən etibarən bir çox metaforik ifadələr konvensionallaşaraq həm yazılı, həm də danışıq dilində mütəmadi istifadə olunmağa başlamışdır.

Müasir ingilis dilində metaforik xəritələşmə daha sistematik və konseptual səviyyədə özünü göstərir. Konseptual metaforalar, məsələn *"knowing is seeing", "argument is war", "ideas are food"*, həm dilin ifadə imkanlarını, həm də düşüncə tərzini formalaşdırır. Bu metaforik strukturlar yalnız fərdi ifadələrdə deyil, həm də mədəni və intellektual kontekstlərdə ardıcıl olaraq görünür. Müasir korpus tədqiqatlarında isə tədqiqatçılar böyük məlumat dəstlərini analiz edərək metaforik xəritələşmələrin diaxronik olaraq necə inkişaf etdiyini müəyyən edirlər. Zamanla bir çox metaforik xəritələşmə adiləşir və onların məcazi təsiri itir, beləliklə "ölü" metaforalara çevrilir. Məsələn, "*fall in love*" (aşiq olmaq) və "*grasping an idea*" (fikri tutmaq) kimi ifadələr artıq gündəlik dilin hissəsi kimi qəbul olunur, baxmayaraq ki, onların mənşəyi fiziki təcrübələrə əsaslanan metaforik ötürmələrdir.

Nəticə etibarilə, metaforik xəritələşmə ingilis dilində konseptual baxımdan formalaşmanın əsas mexanizmidir. Bu, insanın qavrayışı, təcrübəsi və düşüncəsini birləşdirərək fiziki və abstrakt sahələr arasında körpü yaradır. Bu xəritələşmələri öyrənmək, dilçilərə dilin düşüncəni necə əks etdirdiyini və metaforik düşüncənin insan anlayışını necə formalaşdırdığını anlamağa imkan verir.

Belə bir fikri qeyd edə bilərik ki, bəzən ifadələrin məcazi mənada olub olmaması məsələsinə fərqli yanaşmalar olmuşdur. Ləkof və Conson (1980) əsərlərində Berkeley Universitetində Ləkofun 1970-ci illərdə apardığı dərsə istinad edirlər. Həmin dərsdə o, tələbələrə bir mübahisənin təsvirini təqdim edərək, onlardan metaforaları müəyyən etmələrini istəyib. O, tələbələrin "*shoot down someone else's argument*" (başqasının arqumentini alt-üst etmək), "*bring out the heavy artillery*" (mübahisə vaxtı qarşı tərəfi cavab atəşinə tutmaq) və ya "*blow below the belt*" (bel altına zərbə endirmək, gözləniməz zərbə endirmək) kimi ifadələri metaforik ifadələr olaraq yanaşacaqlarını gözləyirdi. Lakin bəzi tələbələr bu yanaşmaya qarşı çıxaraq bildirdilər ki, bunlar mübahisə zəminində nitqin adi və gündəlik ifadə üsullarıdır. Başqa sözlə, bu ifadələr yeni deyil, gündəlik dildə işlədildiyinə görə də metaforik hesab edilə bilməz [3, s. 3].

Bu cür yanaşmanı sual altına qoyan bir sıra səbəblər mövcuddur. Konvensionallıq və gündəlik istifadənin sərhədlərini hərfi və məcazi mənalarla fərqləndirmək lazımdır. Bu məsələlərdən biri də mənaların zamanla dəyişməsidir. Tarixi dilçilər uzun müddətdir ki, bəzi məna dəyişikliklərinin metaforik və ya metonimik xarakter daşıdığını qəbul edirlər. Məsələn, dünyanın müxtəlif dillərində "görmək" mənasını verən sözlər zamanla "anlamaq" və ya "bilmək" mənasını daşımağa başlamışdır. Bəzi hallarda isə ilkin məna tamamilə unudulmuşdur: məsələn, müasir ingiliscədə "*wit*" sözü intellektual qabiliyyət mənasını versə də, onun mənşəyi görmə anlamı daşıyan hind-avropa kökünə dayanır. Lakin bəzi hallarda ilkin mənalar qorunub saxlanmışdır. Məsələn, "*I see what you mean*" (Mən sənin nə demək istədiyini anlayıram) cümləsində olduğu kimi, "görmək" burada idrak sahəsinə aid olan metaforik "anlamaq" mənasını daşıyır.

"Knowing is Seeing" (görmək bilməkdir) metaforaları ingilis dilində son dərəcə məhsuldar sayılır. Bu metaforik ifadələr gözümüzlə görərək topladığımız informasiyaya beynimizin daha çox etibar etməsini yansıdır. Məsələn, "*I see how*" (bir işin necə və hansı yolla icrasını bilmək), "*shortsighted*" (gələcəyi və işin mümkün nəticələrini öncədən görə bilməyən), "*blind to*" (həqiqəti görə bilməyən), "*to have an eye for*" (qeyri adi və xüsusi şeyləri görüb tanıya bilmək) kimi ifadələr bu silsilədən sayılır. *Transparent* (şəffaf), *opaque* (bulanıq), *illuminate* (işıqlandırmaq) və *shed light on* (aydınlıq gətirmək) kimi söz və ifadələr həm görmə duyğusuna, həm də idraka dair məna daşıyır və bu iki sahə arasında körpü yaradır. Bu tip sözlər artıq dilin gündəlik istifadəsinə daxil olduğundan, onların hələ də metaforik olub-olmadığı sual altına alınır. Əgər bir ifadə artıq adiləşibsə, biz onu metafora kimi dəyərləndirməliyikmi? Ləkof və Consonun yanaşmasına görə, bəzi sözlər – məsələn *wit* (zəka) – artıq metaforik mənasını itirib, amma "*shed light on*" kimi ifadələr hələ də metaforik potensialını qoruyur. Bu cür ifadələrin adiləşmiş olması onların yenilikçi istifadəsini və mənalandırma gücünü zəiflətmir, əksinə, belə metaforalar gündəlik danışıqda məna yaratmaq üçün aktiv olaraq istifadə olunur [5, s. 75].

Metafora və metonimiya dil vahidlərinin mənasında geniş və məcazlaşmış əlaqələr yaratmaq baxımından mühüm rol oynayır. Burada məcazlaşma dedikdə, bir sözün başqa bir mənaya köçürülərək yeni kontekstdə işlənməsi nəzərdə tutulur. Həqiqi məna isə sadəcə gündəlik və sıravi istifadə demək deyil, həmçinin, məcazlaşma yolu ilə yaranmamış, birbaşa və ilkin mənanı ifadə edir. Dilçilikdə polisemiya, yəni bir sözün çoxsaylı, amma qarşılıqlı əlaqəli mənalara malik olması adətən məcazi xarakter daşıyır. Məsələn, "*see*" feli ingiliscədə həm fiziki görməni, həm də anlama və idrakı ifadə edir. *Can you see the street signs*? (Yol nişanlarını görürsənmi?) və *Do you see what I mean*? (Nə demək istədiyimi anlayırsanmı?) cümlələri bu çoxmənalılığın yaxşı nümunələridir.

Ənənəvi qrammatikalar metonimiyanı əsasən "hissə-bütöv" münasibətləri kontekstində izah edir və çox vaxt metonimiya ilə sinekdoxa arasında fərq qoyurdular. Ancaq bu fərqlər hər zaman eyni şəkildə müəyyənləşdirilmirdi. Sinekdoxa bəzən konkret olaraq hissənin bütövü əvəzlədiyi hallara aid edilir (məsələn, hands – "işçilər" mənasında). Metonimiya isə həm bütövün hissəni bildirdiyi, həm də daha geniş assosiativ əlaqələr çərçivəsini əhatə edə bilər. Digər yanaşmalara görə, metonimiya əsasən assosiativ münasibətlərə (məsələn, suits (kostyumlar) – "iş adamları" mənasında) əsaslanır, sinekdoxa isə "hissə-bütöv" və "bütöv-hissə" münasibətlərini ifadə edir [3, s. 4].

Koqnitiv dilçilik sahəsində aparılan tədqiqatlar göstərir ki, metonimiyanın öyrənilməsi bu fenomenlərin bir-biri ilə əlaqəli şəkildə təsnifləşdirilməsini və eyni zamanda əvvəlki yanaşmalardan fərqli şəkildə alt bölmələrə ayrılmasını məqsədəuyğun hesab edir. Buna görə də bu tədqiqatlarda müasir koqnitiv dilçiliyin metonimik hadisələrə verdiyi tərifl ər əsas götürülür.

Metonimik hadisələrin təsnifatında diqqətəlayiq bir fərqləndirmə kateqorial metonimiya və çərçivə metonimiyası arasında aparılır. Kateqorial metonimiya dilin mənalandırma sistemində xüsusi bir hadisə kimi çıxış edir və bir kateqoriyanın digər kateqoriya vasitəsilə təmsil olunması prinsipinə əsaslanır. Bu növ metonimiya adətən eyni konseptual sahəyə daxil olan anlayışlar arasında yaranır, yəni bir varlığın müəyyən xüsusiyyəti, funksiyası və ya tipik nümayəndəsi bütöv kateqoriyanı ifadə etmək üçün istifadə olunur. Məsələn, "*the university decided* (universitet qərar verdi)" cümləsində "*university*" sözü həmin qurumda qərar verən şəxsləri – rəhbərliyi və ya idarə heyətini – təmsil edir. Bu tip semantik keçidlərdə məna dəyişməsi metaforik yox, məhz konseptual yaxınlıq üzərində qurulur. Beləliklə, bu hadisə yalnız leksik mənada deyil, həm də idrak səviyyəsində kateqoriyaların bir-birinə çevik şəkildə bağlı olduğunu nümayiş etdirir. Əsasən, kateqorial metonimiyalarda bir arada rast gəldiyimiz şeylər arasında avtomatik assosiasiya yaranır və birinin adı digərini xatırladır. Məsələn, biz "Kleenex" brendini salfetlərlə əlaqələndirə bilərik və nəticədə "kleenex" sözü ümumi "salfet" mənasında işlədilə bilər.

Çərçivə metonimiyasında (frame metonymy) isə məna keçidi eyni konseptual çərçivənin daxilində baş verir. Yəni bir hadisə və ya anlayış həmin çərçivənin başqa bir elementi vasitəsilə təmsil olunur. Bu baxımdan, çərçivə metonimiyası konseptual bütövlük içərisindəki hissələrin və ya hissə–bütöv münasibətlərinin idrak səviyyəsində fəallaşması nəticəsində formalaşır. Biz bu cür metonimiyalara "*deck hands"* və "*field hands"* ifadələrindəki *hands* sözünün hər iki halda orada

çalışan insanları nəzərdə tutmasını misal çəkə bilərik. Həmçinin, "*two heads are better than one"* (iki baş bir başdan yaxşıdır) ifadəsində *two heads* iki insanı bildirir. Bu cür əlaqələr arasında ən maraqlı nümunələrdən biri eyni anda baş verən hadisələr əsasında formalaşan assosiasiyalardır. Məsələn, bir restoran işçisi digərinə "*The chicken sandwich wants another soda*" (yəni "toyuqlu sendviç bir kola da istəyir") dedikdə, burada "*toyuqlu sendviç*" deyərkən əslində həmin yeməyi sifariş etmiş müştəri nəzərdə tutulur. Çünki bu tip mühitlərdə işçilər adətən müştərinin adını bilməsələr də, sifariş və şəxs arasında konkret bir əlaqə olur.

"See" (görmək) feilinə dair müzakirəni davam etdirsək görərik ki, bu feil metaforik məna ilə yanaşı həm də çərçivə-metonimik məna daşıya bilər. Yəni görməyə aid olmayan hallarda belə bu feil situativ və ya kontekstual assosiasiyalarla işlədilə bilər. Məsələn, "*I need to see a dentist*" (diş həkimi ilə görüşməliyəm) dedikdə, biz əslində həmin şəxsi fiziki olaraq görməyi nəzərdə tutmuruq. Deməli, burada "görmək" sözü həm də kontekstdə üzbəüz təmas, məkan paylaşımı və ya konsultasiya ideyasını ehtiva edir [3, s.103].

Məcazlaşma ingilis dilində çoxmənalılığın formalaşmasında aparıcı mexanizmdir. Metafora konseptual sahələr arasında xəritələşmə yaratmaqla, metonimiya isə eyni sahə daxilində assosiativ əlaqələri genişləndirməklə sözlərin diapazonunu artırır. Müasir ingilis dilində çoxmənalı sözlərin əksəriyyətinin mənşəyi məcazlaşmaya dayanır. Buna səbəb isə odur ki, metaforalar konseptual əlaqələr yaradır, metonimiyalar əlaqəli obyektləri bir çərçivə daxilində birləşdirir, dil istifadəçiləri isə bu əlaqələri asanlıqla qəbul edir. Nəticədə zamanla metaforik mənalar adiləşir və sözün lüğəvi anlamına çevrilir. Bu prosesin linqvistik əhəmiyyəti vardır. Çünki, məcazlaşma prosesi nəticəsində yaranan çoxmənalılıq nəticəsində kontekstual çeviklik artır, yeni anlayışların adlandırılması asanlaşır, nitqdə daha az sözlə daha çox məna ötürmək olur.

Nəticə: Aparılan təhlil nəticəsində müəyyən olunur ki, metafora və metonimiya ingilis dilində yalnız bədii ifadə vasitələri deyil, həm də gündəlik ünsiyyətdə və konseptual düşüncə sistemində mühüm rol oynayan əsas mənayaradıcı mexanizmlərdir. Tədqiqatın nəticələri məcazlaşmanın dilin dinamik inkişafında və semantik strukturunun formalaşmasında əhəmiyyətli yer tutduğunu göstərir.

Ədəbiyyat siyahısı

1. A Method for Linguistic Metaphor Idendification / J.G.Steen [et al.] – Amsterdam: John Benjamins Publishing Company, - 2010. – 239 p.
2. Charteris-Black, J. Corpus Approaches to Critical Metaphor Analysis / J.Charteris-Black. – New York: Palgrave Macmillan, - 2004. – 278 p.
3. Dancygier, B. Figurative Language / B.Dancygier, E.Sweetser. – UK: Cambridge University Press, - 2014. – 242 p.
4. Geeraerts, D. Theories of Lexical Semantics / D.Geeraerts. – UK: Oxford University Press, - 2010. - 364 p.
5. Lakoff, G. Metaphors we live by / G.Lakoff, M.Johnson. –USA: The University of Chicago, - 1980. - 242 p.
6. https://www.somanybooks.org/eng205/Beowulf.pdf

Konul Salmanova

The role of metaphor and metonymy in the process of metaphorization in english

Summary

This article analyzes the process of metaphorization in English from a linguistic and semantic perspective. The main goal of the study is to determine the role of metaphor in the expansion of the meaning of language units and the formation of new semantic relations. The article examines the phenomenon of metaphorization in a general framework, focusing on such leading metaphor types as metaphor and metonymy. Metaphor is considered as a basic cognitive

mechanism that allows the expression of abstract concepts by establishing analogous relationships between conceptual areas. Metonymy is analyzed as a means of expanding the expressive capabilities of language through semantic transfers based on part-whole, cause-effect and proximity relationships within the same conceptual area. The article shows the mutual relationship of metaphor and metonymy, as well as their function in lexical-semantic changes.

Key words: *metaphorization process, conceptual metaphor, metonymy, metaphorical mapping, source domain, target domain*

Конуль Салманова

Роль метафоры и метонимии в процессе формирования переносных значений в английском языке

Резюме

В данной статüе анализируется процесс метафоризации в английском языке с лингвистической и семантической точек зрения. Главная целü исследования – определитü ролü метафоры в расширении значения языковых единиц и формировании новых семантических отношений. В статüе рассматривается феномен метафоризации в общем контексте, с акцентом на такие ведущие типы метафор, как метафора и метонимия. Метафора рассматривается как базовый когнитивный механизм, позволяющий выражатü абстрактные понятия путем установления аналогичных отношений между концептуалüными областями. Метонимия, с другой стороны, анализируется как средство расширения выразителüных возможностей языка посредством семантических переносов, основанных на отношениях «частü-целое», «причина-следствие» и «близостü» в рамках одной и той же концептуалüной области. В статüе показана взаимосвязü метафоры и метонимии, а также их функция в лексико-семантических изменениях.

Ключевые слова: *процесс метафоризации, концептуалъная метафора, метонимия, метафорическое отображение, исходная областü, целевая областъ*

Çapa tövsiyə edən: ***Azərbaycan Turizm və Menecment Universiteti***

Rəyçilər: ***dosent Ə.Q.Məmmədova***
f.ü.f.d. N.F.Həbibullayeva

UOT-811.11-112
Səhifə: 186-191
https://doi.org/10.59849/2663-8967.2026.1.186

Türkan Quluzadə
Naxçıvan Dövlət Universiteti
quluzadeturkann@gmail.com
Orchid:0009-0006-9255-452X

DİLÇİLİK DƏRSLİKLƏRİ AKADEMİK DİSKURS JANRI KİMİ

XÜLASƏ

Bu məqalədə diskurs analizi anlayışının yaranması, inkişafı və xüsusilə tədris materialları – dərsliklər kontekstində tətbiqi araşdırılır. Diskurs termini ilk dəfə strukturçu dilçi Z. Harris tərəfindən işlədilmiş və dilin geniş kontekst daxilində araşdırılmasının vacibliyi vurğulanmışdır. Daha sonra Halliday və Matthiessenin sistemli–funksional dilçilik yanaşması dilin sosial qarşılıqlı əlaqələri qurmaq və insan təcrübəsini mətn vasitəsilə formalaşdırmaq gücünə diqqət çəkmişdir Bu nəzəri çərçivə dərslik mətnlərinin yalnız məlumat ötürən resurs deyil, həm də ideoloji, sosial və psixoloji təsir vasitəsi olduğunu göstərir. Məqalədə yazılı və şifahi diskursun fərqləri və akademik mətnlərin nominalizasiya və leksik sıxlıq kimi xüsusiyyətlərlə seçildiyi də qeyd olunur Eyni zamanda tətbiqi dilçilikdə diskurs analizinin artan rolu tələbələrin akademik yazı bacarıqlarının inkişafına verdiyi töhfə vurğulanır. Swales-in CARS modeli elmi məqalələrdə giriş hissəsinin effektiv qurulması üçün ritorik strategiya kimi geniş tətbiq olunur

Açar sözlər: *Diskurs analizi, dərslik janrı, akademik diskurs, tətbiqi dilçilik.*

Giriş: "Diskurs analizi" termini ilk dəfə 1952-ci ildə strukturçu dilçi Zellig Harris tərəfindən işlədilmişdir. Harrisə görə, dil "tək-tük söz və ya cümlələr şəklində deyil, bir sözlü ifadədən tutmuş çoxcildli əsərə qədər uzanan əlaqəli diskurs formasında mövcuddur". Bu yanaşma dilin yalnız cümlə səviyyəsində deyil, daha geniş kontekstdə öyrənilməsinin vacibliyini göstərmişdir. Diskurs anlayışı dilçilikdə iki əsas mənada işlədilir: Cümlədən yuxarı dil səviyyəsi [7, s.11]; İstifadə olunan dil – məqsəd, funksiya və forma baxımından [2, s.6].

Halliday və Matthiessenə görə, dil sosial və funksional hadisədir, insanlar dili istifadə etməklə təcrübə qurur və qarşılıqlı ünsiyyətə girirlər. Bu səbəbdən diskurs araşdırmaları dilin məzmunu ilə yanaşı onun sosial və funksional tərəflərinin də öyrənilməsində mühüm rol oynayır [6, s.21].

Tədqiqatlar göstərir ki, şifahi dil yazılı dildən daha az strukturlaşmış hesab edilsə də, əslində hər iki forma özünəməxsus mürəkkəbliyə malikdir:

Cədvəl 1. Yazılı və şifahi formanın fərqləri.

Dil forması		Mürəkkəblik növü
Yazılı dil		Leksik sıxlıq yüksəkdir (abstrakt və terminoloji ifadələr çoxdur)
Şifahi dil		Qrammatik mürəkkəblik yüksəkdir (çoxlu cümlə birləşmələri var)

Halliday bunu belə xülasə edir: Yazılı mətnin mürəkkəbliyi leksikdə, danışığın isə qrammatika səviyyəsində özünü göstərir.

Yazılı formal diskursda tez-tez nominalizasiya (fel və ya cümlələrin isimləşdirilməsi) istifadə olunur ki, bu da elmi və akademik diskursun əsas xüsusiyyətlərindən biridir [5, s.12].

Diskurs tədqiqatları müxtəlif nitq icmalarında istifadə olunan janrları da araşdırır. Janrların sosial xarakteri Martin və Rose tərəfindən belə izah olunur [9, s.18]. "Janr – mərhələli, məqsədyönlü sosial prosesdir."

Bu araşdırmalar akademik savadlılığın artırılması üçün dərsliklərin və tədris materiallarının hazırlanmasında geniş tətbiq olunur.

Tətbiqi dilçiliyin ən mühüm istiqamətlərindən biri dilin öyrədilməsi və öyrənilməsidir və diskurs araşdırmaları bu sahənin inkişafında mühüm rol oynayır. Berns və Matsuda qeyd edirlər ki, Şimali Amerika və Avropa kimi regionlarda tətbiqi dilçilik yalnız dil tədrisi ilə məhdudlaşmasa da, dünyanın digər bölgələrində tətbiqi dilçilərin əsas fəaliyyət sahəsi hələ də dilin öyrədilməsi və öyrənilməsi olaraq qalır [1, s.87]. Qloballaşma prosesləri nəticəsində ingilis dilinin dünyada geniş yayılması, universitetlərdə və akademik mühitlərdə birinci ünsiyyət və elmi nəşr dili kimi qəbul olunması ingilis dilinin tədrisinə daha çox diqqət ayrılmasına gətirib çıxarmışdır. Bu səbəbdən, xüsusilə ingilis dilinin xarici və ya ikinci dil kimi öyrədilməsi sahəsinə böyük sərmayə qoyulur.

Diskurs analizi dil tədrisində çox vacib bir tədqiqat alətinə çevrilmişdir. Poole kimi tədqiqatçılar vurğulayırlar ki, real və kontekstə bağlı dil istifadəsinin öyrənilməsi tələbələrin və müəllimlərin dilin necə işlədiyini daha dərindən anlamalarına şərait yaradır [10, s.828].

Bu yanaşma EAP (English for Academic Purposes – Akademik Məqsədlər üçün İngilis dili) kimi sahələrdə xüsusilə əhəmiyyətlidir, çünki bu sahə tələbələrin elmi mətnləri başa düşməsini və professional akademik yazı bacarıqlarını inkişaf etdirməsini hədəfləyir. Universitetlərdə müəllim və tədqiqatçıların beynəlxalq konfranslarda çıxış etmək, yüksək impakt faktorlu jurnallarda məqalə dərc etdirmək tələbləri artdıqca, tədqiqat məqalələrinin yazılması və dərc edilməsi akademik karyerada əsas şərtlərdən birinə çevrilmişdir [8]. Buna görə də, tələbələr və tədqiqatçılar tez-tez elmi janrlarda yazarkən çətinliklərlə qarşılaşırlar, xüsusilə də məqalə və dissertasiya kimi janrların struktur və ritorik tələblərini yerinə yetirməkdə. Bu çətinliklər ingilis dili ana dili olmayan tədqiqatçılarda daha da güclü şəkildə özünü göstərir. Elmi məqalənin hər hissəsi fərqli kommunikativ məqsəd daşıdığı üçün giriş hissəsi daha çətin qəbul olunur. Çünki giriş yalnız mövzu təqdim etmir, həm də oxucunu tədqiqatın əhəmiyyətinə inandırmalı, mövcud bilik sahəsində boşluğu göstərməlidir.

Diskurs tədqiqatlarının dil tədrisinə verdiyi ən mühüm töhfələrdən biri Swales-in [11,s.142] elmi məqalə girişlərinin quruluşu ilə bağlı modelləridir. Swales-in araşdırmaları göstərir ki, uğurlu giriş hissəsi müəyyən ardıcıl ritorik addımlar (move) üzərində qurulur və bu addımlar müəllifə akademik mətn daxilində öz tədqiqatı üçün yer – yəni "araşdırma məkanı" yaratmağa imkan verir. Bu məqsədlə Swales "CARS" (Create A Research Space) adlanan modelini təklif etmişdir. Bu modeldə müəllif əvvəlcə sahə ilə bağlı mövcud biliyi və tədqiqatları təqdim edir, daha sonra həmin araşdırmalarda mövcud boşluğu və ya həll olunmamış problemi göstərir, sonda isə öz tədqiqatının məqsəd və aktuallığını ortaya qoyur. Bu yanaşma elmi yazının strukturunu şagirdlərə daha aydın və sistemli şəkildə öyrətməyə imkan yaratdığı üçün EAP kurslarında geniş tətbiq olunur.

Beləliklə, diskurs analizi dil tədrisində yalnız mətnin məzmununa deyil, həm də onun ritorik quruluşuna, ünsiyyət məqsədinə və sosial funksiyasına diqqət yetirir. Bu isə şagirdlərin yalnız qrammatika və söz ehtiyatından deyil, həm də akademik diskursun qaydalarından xəbərdar olaraq yazmalarını təmin edir və onları beynəlxalq elmi mühitdə daha uğurlu edir.

"Systemic Functional Linguistics" yanaşmasına əsasən, dil mətndə ideational funksiya vasitəsilə insanın təcrübəsini və reallığı ifadə edir. Bu baxımdan dərslik – xüsusilə də tarix və dilçilik dərslikləri – müəyyən bir dövrü, hadisəni və ya bilik sahəsini dil vasitəsilə sistemli şəkildə təqdim edən xüsusi bir diskurs formasıdır. Dərslikdə təqdim olunan mətnlər material dünyanı, sosial münasibətləri və düşüncə dünyasını dil səviyyəsində qurur və oxucuya müəyyən baxış bucağı təqdim edir.

Dərslik diskursu iki əsas qatdan ibarətdir:

1. **Semantik qat** – mövzuların seçimi, onların necə təşkil olunması və hansı məzmun çərçivəsində təqdim edilməsi.
2. **Leksik-grammatik qat** – seçilmiş semantikanın dil vasitəsilə necə ifadə olunması.

Semantik quruluş adətən narrativ formaya əsaslanır. Narrativ struktur isə üç əsas komponent üzərində qurulur:

- **Aktantlar (subyektlər)** – "biz" və "onlar" qarşılaşdırması.
- **Məkan və zaman** – hadisələrin baş verdiyi kontekst.

• **Süjet** – hadisələr arasında əlaqəni təmin edən hərəkət xətti.

Bu quruluş oxucuda müəyyən ideoloji qənaətlərin formalaşmasına şərait yaradır. Məsələn, bir çox tarix dərsliklərində "digərləri" mənfi, "biz" isə müsbət xüsusiyyətlərlə təqdim olunur.

Dərslik diskursu təkcə məzmunla deyil, həm də dil seçimi ilə manipulyasiya edilə bilər.

Leksik səviyyədə – söz seçimi reallığı spesifik şəkildə dəyərləndirir: *"Baskı", "zülm", "ədalətsizlik"* – mənfi aktorların təsviri; *"İnkişaf", "tərəqqi", "proqres"* – müstəqillik və ya müsbət dövrlər üçün.

Qrammatik səviyyədə – kim agentdir, kim passiv tərəfdir, kim nə edir suallarına görə reallıq qurulur: Aktiv cümlə → günahkarı açıq göstərir; Passiv cümlə → məsuliyyəti gizlədir. Nominalizasiya → prosesləri "təbiiləşdirir" (məsələn: "işğal", "sömürü"). Beləliklə, qrammatika ideologiya daşıyan vasitəyə çevrilir.

Dərsliklərdə çox zaman milli kimlik formalaşdırılması aparılır: "Biz" → qorunan, əziyyət çəkən, mübarizə aparan tərəf; "Onlar" → təhdid yaradan, hücum edən, assimilyasiya edən tərəf. Bu kimi qarşılaşdırmalar oxucunun kollektiv yaddaşına təsir edir və sosial münasibətlərin gələcəkdə necə qurulacağına yön verə bilər. Dərslik diskursu müxtəlif bilik sahələrinin təhsil mühitinə daşınması nəticəsində formalaşır və bu zaman diskurslar yalnız ötürülmür, eyni zamanda yeni məqsədlərə uyğun yenidən qurulur. Bu baxımdan Azərbaycan dərslikləri də siyasi diskurs, akademik tarixşünaslıq, ədəbiyyat və arxeologiya kimi fərqli sahələrin ideyalarını mənimsəyərək şagirdlərə təqdim edir. Bu proses interdiskursivlik və rekontekstləşmə (recontextualization) nəzəriyyələri ilə izah edilir: bilik bir sahədən ayrılır və tədris kontekstinə uyğunlaşaraq ideoloji xarakter qazanır. Azərbaycan tarix dərsliklərində milli kimliyin formalaşdırılması mühüm yer tutur. Məsələn: "Bizim ulu torpaqlarımız", "Azərbaycan xalqının iradəsi", "düşmən" və "istilalar", "müstəqillik uğrunda mübarizə" kimi ifadələr siyasi narrativlərlə əlaqəlidir. Burada məqsəd yalnız məlumat vermək deyil, həm də milli həmrəylik hissini möhkəmləndirməkdir. Xüsusilə Ermənistanla münaqişəyə dair bölmələrdə: "Erməni təcavüzkarları", "işğal", "qanlı qırğın" kimi leksik vahidlər "biz və onlar" qarşıdurmasını diskurs səviyyəsində formalaşdırır. Bu diskurs şagirdin: milli özünüdərkini gücləndirir, tarixi travma yaddaşını ötürür, Vətənpərvərliyi tədrisin bir hissəsinə çevirir.

Azərbaycan tarix dərsliklərində: Kitabi-Dədə Qorqud; Oğuz türkləri; Qobustan petroqlifləri; Atropatena və Qafqaz Albaniyası iris kimi mövzular elmi deyil, identitet qurucu resurslar kimi təqdim edilir. Məsələn, dərsliklərdə Qobustan haqqında belə ifadələrə rast gəlinir: *"Qobustan rəsmləri xalqımızın minillik dövlətçilik və mədəniyyət tarixinin sübutudur."* Halbuki bu fikirlər: akademik diskursda fərqli interpretasiyalara açıqdır; bir çox detalları tədqiqat müzakirəsi mövzusudur. Lakin, dərslikdə danılmaz həqiqət kimi verilir.

Azərbaycan dərslikləri sadəcə tarixi bilik vermir - şagirdə: "biz kimik?"; "biz nəyi müdafiə etməliyik?"; "bizim düşmən və dostlarımız kimdir?". kimi anlayışları şüuraltı olaraq ötürür. Dərsliklərin dilində qəhrəmanlıq, qurbanlıq, azadlıq motivləri şəhidlik mədəniyyətinin ideallaşdırılması, milli dəyərlərin müqəddəsləşdirilməsi ön plana çıxır. Bu isə kollektiv yaddaşın tarixi mətn vasitəsilə qurulması deməkdir.

Hər bir dərslik yalnız bilik ötürən vasitə deyil, eyni zamanda müəyyən sosial reallığı formalaşdıran, qoruyan və ya dəyişdirən diskurs məkanıdır. Məşhur sosioloq Stüart Hall qeyd edir ki [3, s.45], hər bir diskurs müəyyən mövzu haqqında "doğru" danışma tərzini qəbul etdirir, bununla yanaşı fərqli izah yollarını isə məhdudlaşdırır və kənarlaşdırır. Bu fikir Azərbaycan dərslikləri üçün də tam keçərlidir.

Digər tərəfdən, dilçilik və ana dili dərslikləri də bəzi köhnəlmiş dil baxışlarının yenidən nəzərdən keçirilməsinə imkan yaradır. Məsələn, əvvəlki dövrlərdə yazılan dərsliklərdə dil daha çox normativ sistem kimi təqdim edilir, şagirdlərdən yalnız qaydaları əzbərləmək və standart formaya uyğun danışmaq tələb olunurdu. Müstəqillikdən sonrakı yeni nəsil dərsliklərdə isə dilin canlı sosial hadisə olması, kommunikativ məqsədlərə və kontekstə bağlı şəkildə dəyişməsi fikri daha çox vurğulanmağa başlanmışdır. Bu dəyişiklik dilçilik dərsliklərinin dilin təbiətinə dair daha elmi və müasir təsəvvürləri formalaşdırmaq gücündə olduğunu göstərir. Dilçilik dərslikləri müxtəlif nəzəri istiqamətləri və dil modellərini özündə birləşdirən çoxqatlı diskurs sahəsidir. Bəzən bu müxtəliflik mətn daxilində nəzəri baxışların ziddiyyətli şəkildə təqdim olunmasına səbəb olur. Məsələn, həm

ənənəvi qrammatika kateqoriyaları, həm də funksional dilçilik yanaşmaları eyni mənbədə yanaşı təqdim edilə bilir. Bu cür nəzəri qarşıdurmalar dərslik müəllifləri tərəfindən adətən kompromis yanaşma ilə yumşaldılır. Dil həm sistem kimi qorunur, həm də ünsiyyət, şəxsiyyət və cəmiyyət quru-cu fenomen kimi təqdim olunur. Bu yanaşma müasir tətbiqi dilçilik tələbləri ilə üst-üstə düşür. Dil dərslikləri yalnız mövcud dil faktlarını təqdim etmir, həm də şagirdlərə dil müxtəlifliyini dərk etməyi, dialekt və ünsiyyət formalarına hörmətlə yanaşmağı öyrədir. Multikultural və çoxdilli mühitdə bu, sosial inteqrasiyanın və tolerant ünsiyyət mədəniyyətinin inkişafına töhfə verir. Yeni dərsliklərdə real ünsiyyət nümunələri, müxtəlif üslublar, texnoloji kommunikasiya formaları (məsələn, rəqəmsal yazışma, sosial media dili) daha çox yer alır ki, bu da şagirdə müasir dil reallığını tanıdır.

Dilçilik və dil öyrənilməsi üzrə dərsliklər yalnız bilik ötürən material deyil, həm də müəllif, öyrənən və bilik arasında sosial münasibətləri formalaşdıran xüsusi diskurs janrıdır. Dərsliklər dilin strukturunu, normativ çərçivəsini, sosial funksiyasını və kommunikativ bacarıqları necə təqdim etmələri ilə tədris prosesinə yön verirlər. Dərsliyin quruluşu müəllifin hansı bilikləri əsas hesab etməsi, hansı dəyərləri tədrisə daxil etməsi və öyrənəni hansı mövqedə nəzərdə tutması ilə birbaşa bağlıdır. Bu baxımdan dilçilik dərslikləri müəyyən pedaqoji, ideoloji və sosial prinsiplərin daşıyıcısıdır. Dərslik janrı tarixi inkişafı boyunca iki əsas modeldə formalaşıb: ənənəvi və müasir yanaşmalar. Ənənəvi dərsliklər bilikləri yekcins və qəti həqiqət kimi təqdim edir. Müəllif diskursu avtoritar və qayda-mərkəzli olur, şagird isə passiv qavrayıcı kimi təqdim edilir. Qrammatik qaydalar və normativ ifadələr dominantdır, açıq suallara və alternativ yanaşmalara yer verilmir. Məsələn, "*Practical English Grammar"* kitabında qrammatik qaydalar qəti şəkildə verilir və tapşırıqlar çox vaxt boşluq doldurma və transformasiya tipindədir. "*English Grammar in Use*" dərsliklərinin erkən nəşrlərində müəllif-oxucu münasibəti bir qədər distantdır, tənqidi düşüncə və refleksiya üçün az imkan yaradılır. Bu yanaşmada öyrənən dilin hazır normalarını qəbul edən şəxs kimi formalaşır.

Müasir dərsliklər isə biliklə qarşılıqlı əlaqəyə əsaslanır və öyrənəni aktiv iştirakçı kimi təqdim edir. Burada müəllifin rolu təlimi istiqamətləndirən partnyor olmaqdır. Tapşırıqlar problemyönlü və dialoq qurucu xarakter daşıyır, interaktiv fəaliyyətlər üstünlük təşkil edir və tənqidi düşüncə üçün imkanlar yaradılır. "*New English File"* və "*Speakout"* dərsliklərində şagirdlər real həyat nümunələri əsasında interaktiv tapşırıqlar yerinə yetirir, müəllif diskursu isə tərəfdaşlıq tonunda olur. "*Cutting Edge"* dərslikləri layihə əsaslı fəaliyyətləri təşviq edir və öyrənənlərin müstəqil fikir yürütməsini stimullaşdırır. Bu modeldə öyrənən bilik yaradıcısı və dilin sosial alət kimi istifadəsinə sahib olan şəxs kimi formalaşır.

Aşağıdakı cədvəl dərsliklərdəki fərqləri daha vizual göstərir və öyrənənin mövqeyi, müəllifin rolu, dil funksiyası, tənqidi düşüncənin inkişafı və ideoloji çərçivə baxımından müqayisə təqdim edir:

Cədvəl 2. Ümumi mətn diskursunun təhlili

Məqsəd / Xüsusiyyət	**Ənənəvi Dərsliklər (məsələn, *Practical English Grammar,* erkən nəşrlər *English Grammar in Use*)**	**Müasir Dərsliklər (məsələn, *New English File, Speakout, Cutting Edge*)**
Şagird mövqeyi	Passiv qəbul edən	Aktiv öyrənən və yaradan
Müəllifin rolu	Otoritet, hökm verən	Bilik quruculuğuna rəhbər, təlim partnyoru
Dil funksiyası	İnformasiya ötürən	Sosial qarşılıqlı əlaqə yaradan, interaktiv
Tənqidi düşüncə	Yoxdur	Var, problemləri həll etməyə yönəlmiş
İdeologiya	Normativ, qismən gizli və ya açıq	Pluralist, çoxsəslilik, müxtəlif mədəni perspektivlər

Cədvəldə göründüyü kimi, ənənəvi dərsliklərdə öyrənən passiv qəbul edici rolunda olur, müəllif isə biliklərin qəti rəhbəri kimi çıxış edir. Dil əsasən informasiya ötürmək vasitəsi kimi istifadə olunur və tənqidi düşüncə inkişaf etdirilmir. Müasir dərsliklərdə isə öyrənən aktiv və bilik yaradıcısıdır, müəllif öyrənənlə partnyor kimi işləyir, dil sosial qarşılıqlı əlaqə və kommunikasiya

vasitəsi kimi istifadə olunur. Bu model öyrənənlərin tənqidi və refleksiv düşünmə bacarıqlarını, kommunikativ qabiliyyətlərini və sosial-mədəni yetkinliyini gücləndirir.

Nəticə: Aparılan təhlil göstərir ki, ingilis dili dərslikləri yalnız dil biliklərinin ötürülməsi vasitəsi deyil, həm də öyrənənlərin sosial və mədəni inkişafına təsir edən, ideoloji və pedaqoji prinsipləri əks etdirən diskurs məkanıdır. Ənənəvi normativ yanaşma ilə müasir, interaktiv və kommunikativ model arasında düzgün balans yaratmaq öyrənənlərin həm bilikləri mənimsəməsi, həm də sosial-mədəni yetkin fərd kimi formalaşması üçün mühüm rol oynayır.

Ədəbiyyat siyahısı

1. Berns, M. S., & Matsuda, P. K. (2010). Introduction to the field of applied linguistics. In N. H. Hornberger & S. L. McKay (Eds.), Sociolinguistics and language education (pp. 85-108). Multilingual Matters.
2. Brown, G., & Yule, G. (1983). Discourse analysis. Cambridge University Press pp. 1-39.
3. Hall, S. (1997). Representation: Cultural representations and signifying practices. Sage pp. 13-74.
4. Halliday, M.A.K. (1989). Spoken and written language. Oxford University Press. pp. 5-34.
5. Halliday, M.A.K. (2004). The language of science. Continuum. (Originally published 1997) pp. 3-45.
6. Halliday, M. A. K., & Matthiessen, C. (2014). Halliday's introduction to functional grammar (4th ed.). Routledge pp. 30-65.
7. Harris, Z. (1952). Discourse analysis. Language, 28(1), pp.1-30.
8. Hyland, K. (2009). Academic discourse: English in a global context. Continuum pp.57-112.
9. Martin, J. R., & Rose, D.(2007/2008).Genre relations: Mapping culture. Equinox pp.1-40.
10. Poole, D. (2010). Discourse analysis in teaching and learning. In B. McGraw et al. (Eds.), International encyclopedia of education (3rd ed., pp. 828-833). Elsevier.
11. Swales, J. M. (1981). Aspects of article introductions. The University of Aston Language Studies Unit pp. 1-37.
12. Swales, J. M. (1990). Genre analysis: English in academic and research settings. Cambridge University Press pp. 137-166.
13. Swales, J. M. (2004). Research genres: Explorations and applications. Cambridge University Press pp. 199-230.

Turkan Guluzadeh

Linguistics textbooks as a genre of academic discourse

Summary

This article examines the emergence and development of the concept of discourse analysis, with particular emphasis on its application in the context of educational materials, especially textbooks. The term *discourse* was first introduced by the structural linguist Z. Harris, who highlighted the importance of studying language within a broader contextual framework. Subsequently, the systemic–functional linguistic approach developed by M. Halliday and C. Matthiessen drew attention to the role of language in constructing social interactions and shaping human experience through text. Within this theoretical framework, textbook texts are viewed not merely as resources for information transmission but also as instruments of ideological, social, and psychological influence. The article also addresses the distinctions between written and spoken discourse and notes that academic texts are characterized by features such as nominalization and high lexical density. Furthermore, the growing role of discourse analysis in applied linguistics and its contribution to the development of students' academic writing skills are emphasized. Swales' CARS model is widely employed as an effective rhetorical strategy for structuring the introduction sections of scholarly articles.

Key words: *discourse analysis, textbook genre, academic discourse, applied linguistics.*

Туркан Гулузаде

Лингвистические учебники как жанр академического дискурса

Резюме

В данной статье рассматриваются становление и развитие понятия дискурс-анализа, а также особенности его применения в контексте учебных материалов – прежде всего учебников. Термин «дискурс» впервые был введён структурным лингвистом З. Харрисом, который подчеркнул необходимость изучения языка в широком контекстуальном пространстве. В дальнейшем системно-функциональный подход М. Халлидея и К. Маттиссена акцентировал внимание на способности языка формировать социальные взаимодействия и конструировать человеческий опыт посредством текста. Данная теоретическая рамка позволяет рассматривать тексты учебников не только как средство передачи информации, но и как инструмент идеологического, социального и психологического воздействия. В статье также отмечаются различия между письменным и устным дискурсом, а также такие характерные особенности академических текстов, как номинализация и высокая лексическая плотность. Кроме того, подчёркивается возрастающая роль дискурс-анализа в прикладной лингвистике и его вклад в развитие академических письменных навыков обучающихся. Модель CARS Дж. Суэйлза широко применяется как эффективная риторическая стратегия при построении вводной части научных статей.

Ключевые слова: *дискурс-анализ, жанр учебника, академический дискурс, прикладная лингвистика.*

Çapa tövsiyə edən: Naxçıvan Dövlət Universiteti

Rəyçilər: professor A.Məmmədov
fil.e.d.,dos.Q.Mahmudova

UOT-811.512.1
Səhifə: 192-198
https://doi.org/10.59849/2663-8967.2026.1.192

Mehriban Əbdürrəhimova
Bakı Dövlət Universiteti
abdurrahimovamehriban@gmail.com
https://orcid.org/0009-0000-2290-2425

MÜASİR TÜRK VƏ AZƏRBAYCAN DİLİNDƏ HƏRBİ TERMİNLƏRİN NOMİNASİYASI

XÜLASƏ

Məqalədə müasir türk və Azərbaycan dillərində hərbi terminlərin nominasiya prinsipləri və formalaşma vasitələri müqayisəli şəkildə təhlil olunmuşdur. Hər iki dildə hərbi leksikanın yaranma yolları, struktur xüsusiyyətləri və semantik inkişafı müəyyən edilmişdir. Araşdırma göstərir ki, hərbi terminologiya əsasən leksik, morfoloji və sintaktik nominasiya vasitələri vasitəsilə formalaşmışdır. Məqalədə hərbi terminlərin tematik qrupları, terminləşmə prosesi və bəzi terminlərin semantik transformasiyası təhlil edilir. Türk və Azərbaycan dillərində hərbi terminlərin bir hissəsi ortaq mənşəyə malikdir, digər hissəsi isə müxtəlif dillərlə qarşılıqlı təsir nəticəsində formalaşmışdır. Müqayisəli təhlil göstərir ki, hərbi terminologiya dilin leksik sisteminin mühüm tərkib hissəsidir və onun inkişafı tarixi və sosial amillərlə sıx bağlıdır.

Açar sözlər: *hərbi terminologiya, nominasiya, terminləşmə, leksik sistem, semantik transformasiya, türk dili, Azərbaycan dili*

Giriş: Nominasiya dilin əsas funksiyalarından biri olub, əşyaların, hadisələrin və anlayışların adlandırılması prosesini ifadə edir. Başqa sözlə, nominasiya dilin adlandırma funksiyasıdır və dil vasitəsilə gerçəklikdə mövcud olan obyektlərin müəyyən adlarla ifadə olunmasını təmin edir. Dilçilikdə nominasiya prosesi yalnız yeni sözlərin yaranması ilə məhdudlaşmır, həm də mövcud sözlərin yeni semantik məna qazanması və müxtəlif terminoloji sistemlərdə işlədilməsi ilə əlaqədardır. Azərbaycan dilinin leksikologiyasında ən müxtəlif adlandırma üsullarından istifadə olunur. Bu üsullar sırasında sadə sözlər, düzəltmə sözlər, mürəkkəb sözlər, söz birləşmələri və hətta cümlə formasında ifadə olunan nominativ vahidlər xüsusi yer tutur. Dilin bu imkanları müxtəlif sahələrdə terminologiyanın formalaşmasına və zənginləşməsinə şərait yaradır.

Hərbi terminologiya da dilin leksik sisteminin mühüm tərkib hissələrindən biridir. Hərbi sahədə istifadə olunan terminlər yalnız xüsusi terminoloji vahidlərdən ibarət deyil, həm də ümumi dil leksikasının müəyyən semantik transformasiya nəticəsində terminləşməsi yolu ilə yaranır. Bu baxımdan hərbi leksika dilin inkişafı ilə paralel şəkildə formalaşan və daim yenilənən dinamik leksik sahə hesab olunur. Hərbi sahədə müxtəlif adlandırma üsulları birləşir, qovuşur və mürəkkəbləşir. Bu proses nəticəsində yaranan terminlər yalnız fərqləndirmə funksiyası daşımır, həm də müəyyən sosioloji, üslubi və estetik xüsusiyyətləri özündə əks etdirir. Bu isə hərbi terminologiyanın yalnız texniki terminlər toplusu olmadığını, eyni zamanda dilin ümumi leksik sisteminin ayrılmaz hissəsi kimi fəaliyyət göstərdiyini göstərir [4, s.551].

Hərbi sahəyə aid nominativ vahidlər dilin həm diaxron, həm də sinxron səviyyəsində mövcud olan əsas adlandırma vasitələrindən biridir. Bu vahidlər müxtəlif hərbi texnika, silah növləri, qoşun bölmələri, hərbi rütbələr, idarəetmə strukturları və digər anlayışları ifadə edir. Tari-

xi inkişaf prosesində hərbi terminologiya müxtəlif dillərin qarşılıqlı təsiri nəticəsində zənginləşmiş və yeni terminlərlə tamamlanmışdır. Bu baxımdan türk və Azərbaycan dillərinin hərbi leksikası həm ortaq mənşəli terminləri, həm də müxtəlif dillərdən alınmış terminoloji vahidləri özündə birləşdirir.

Müasir dövrdə hərbi terminologiyanın öyrənilməsi dilçilik elmi üçün mühüm əhəmiyyət kəsb edir. Bu sahədə aparılan tədqiqatlar terminlərin yaranma mexanizmlərini, onların struktur və semantik xüsusiyyətlərini, eləcə də müxtəlif dillər arasında terminoloji paralelləri müəyyən etməyə imkan verir. Xüsusilə türk və Azərbaycan dillərində hərbi terminlərin nominasiya prinsiplərinin müqayisəli şəkildə araşdırılması bu terminlərin formalaşma yollarını və dil sistemində tutduğu mövqeyi daha aydın şəkildə müəyyənləşdirməyə kömək edir.

Əsas hissə: Nominasiyanın leksik vasitələri. Hər hansı hərbi anlayış leksik vahidlərlə ifadə olunur. Məs.: türk dilində *"emir",* Azərbaycan dilində *"əmr",* Türk dilində *"küvet",* Azərbaycan dilində *"hərbi qüvvə və ya güc strukturu"* və s.

Nominasiyanın morfoloji vasitələri. Bu vasitə ilə terminin düzəltmə forması yaranır. *Məs.: emrile, emirname, bölük, bölmə, karargâh (T), burğu, burma, addımlamaq, nişançı (A)*

Nominasiyanın sintaktik vasitələri. "Emir" (əmr) nominasiyasının sintaktik vasitələri kimi iki komponentli və çoxkomponentli söz birləşmələri çıxış edir. Məsələn, feili söz birləşmələri: emir almaq, emir vermek, emrialtında bulunmak, emri geri almak, emri icra (ifa) etmek, emrinde bulunmak, emri tekrarlamak, emri yapmak (T), əmr vermək, əmrə əməl etmək, əmri pozmaq, əmrə riayət etmək (A).

Çoxkomponentli struktur: komutanın emriyle yerine getirmek, hükmü her zaman için muteber emir, ileri doğru kaydırmak (T), irəli tərəfə addımlamaq, əmrə müntəzir olmaq, əsgərlikdən imtina etmək (A).

Bu tip nominasiyalar I, II və III tip söz birləşmələri formasında olur:

I növ təyini söz birləşməsi şəklində olanlar: *gizli emir, günlük emir, hususi emir, özel emir (T), gizli əmr, gündəlik əmr, xüsusi əmr, özəl əmr (A) və s.*

II növ təyini söz birləşməsi şəklində olanlar: *harp emri, haraket emiri, hazırlık emri, ordu emiri, ordugâh emiri (T), komandir əmri, ordu əmri, dağılışma əmri (A)*

III növ təyini söz birləşməsi şəklində: *komutanın emiriyle, intizamın mesuliyeti (T), rotanın əmri, intizamın məsuliyyəti (A)*

Digər birləşmələr: *emiri altında, ağızdan rapor verme, durum raporu, iki kademli roket, kanatsız roket, kanatlı roket (T)*

Nominasiyanın başqa sintaktik vasitələri də mövcuddur: 1) mürəkkəb terminlər (monoenerjetik, monokromatik, radiyoaktiv, elektromanyetik, radyometre, raporverme), 2) qoşa terminlər, 3) səs təqlidi sözlər.

"Emir" (əmr) sözü birləşmənin sonunda işlənir: *açılma emri, ağızdan muharibe emri, ağızdan (verilen) emir, ağızdan (verilmiş) emir, aksi emri, alay emri, ateş emri, bölük emri, celp emri, çekiliş (çekilme) emri, genel emir, geri çekilme emri, idari emir (T), atəş əmri, şifahi əmr, polk əmri (A)*

Cümlə formasında olanlar: Əmr cümləsi şəklində: *emri tekrarlayın! (komanda), mermini saklayın! Ortamenzilli roketden kullanmak gerek!, radyo ile idare ediyorun! və s.*

Azərbaycan dilinin hərbi leksikası XX yüzilin 90-cı illərindən etibarən milli əsaslar üzərində inkişaf edərək zənginləşmişdir. Ölkəmizdə müstəqil ordu quruculuğu ilə əlaqədar görülən işlərin sürəti hərbi leksikanın da inkişafına təkan vermişdir. Hazırda Azərbaycan dilində hərbi leksikanın yaranaraq inkişaf etməsi həm bu sferada leksik-terminoloji vahidlərlə əlaqədar qarşıya çıxan mürəkkəb vəziyyəti aradan qaldırır, həm də bu sferaya aid leksik-terminoloji vahidlər sisteminin, tam halda dilin lüğət tərkibinin zənginlik qazanmasına imkan verir.

Bu dinamika hərbi leksikanın çağdaş zamanda bir sıra zəngin semantik qruplarının yaranmasına gətirib çıxarmışdır. Bunlar hərbi nominasiyalardır. Bu leksikanın özünəməxsus semantik qrupları, nominasiya sistemi və prinsipləri vardır. Bunlara aşağıdakıları misal göstərmək olar:

1) Hərbi idarə və təşkilat adları: *Azərbaycan Respublikası Silahlı Qüvvələri, Ali Baş Komandanlıq, Ali Hərbi Dənizçilik Akademiyası, Hərbi Dəniz Donanması (A); Talim Merkezi, Müttefik Taktik Hava Kuvvetleri, Güney Avrupa Müttefik Deniz Kuvvetleri, Güney Avrupa Müttefik Hava*

Kuvvetleri (T)

2) Qoşun növləri və hərbi hissə adları: *erkan (ştab, idarə), karagâh, erkanı harb (harbiye), erkanı (harbiye) ümumiye, bölük erkanı, karargâh erkanı, ordu erkanı, tabur erkanı, takım erkanı (T), ştab, qərargah, ordu ştabı (A)*

3) Hərbi texnika, silah və sursat adları: *esliha (silah), ağızdan dolma esliha, birlikte taşınabilir esliha(şəxsi silah), harb eslihası, refakat eslihası, tedafül eslihası (T)*

4) Hərbi geyim və döyüşçü ləvazimatlarının adları: *elbise (kiyafet), angariye elbisesi, anti elbisesi, askeri elbise, basınç elbisesi, birtakım yazlık elbisesi, dahili elbise, dalğıç elibisesi, dış elbisesi, feza elbisesi, gazkeçmez elbise, gaz elbisesi, gizleme elbisesi, gündelik (günlük) elbise, harici elbise, hizmet elbisesi, iç elbise, kar elbisesi, kışlık elbisesi, kış elbisesi, koruma elbisesi, koruyucu elbise, maske elbisesi, merasim elbisesi, muhafaza elbisesi, paraşüt (paraşütçü) elbisesi, resmi elbise, rüzgâr elibisesi, selamlık elbisesi, tâlim elbisesi, yazlık elbisesi, yaz elbisesi; eldiven, koruma eldivenleri (T), əyin (bədənin başdan qeyri bütün hissəsi), paltar, üst-baş, qış geyimi, xidməti geyim, paraşütçü geyimi, salamlaşmaq geyimi, daxili geyim, yaz geyimi, yay geyimi, qoruyucu geyim, sukeçirməyən geyim, əlcək, qoruma əlcəyi (A)*

5) Hərbi rütbə adları: *erbaş (kiçik komandir), gedikli erbaş, gözetleme erbaşı, kıdemli erbaş, kıdemsiz (mükellef) erbaş, otomakinisti erbaşı, sıhhiye erbaşı bombardımancı, elektrikçi (əsgər mantyor), yazıcı (pisar), topcu, erat (yefreytor), nişancı və s.*

6) Hərbi əşyaların saxlandığı yerlərin adı: *anbar (kladovşik), bölük anbarı, engebe, engebeli, engebelik (depo) (T), anbar, hissə anbarı, ərzaq anbarı (A).*

7) Hərbi tibbi sahə ilə bağlı: *hastabakıcı erkek (sanitar), sanitarka, hərbi həkim, herbi doktor və s.*

8) Hərbi ərzaq sahəsi ilə bağlı: *erzak (rızık, yemək məhsulları), dayanıklı erzak, demirbaş erzak, günlük erzak, yedek erzak (T), ərzaq, hərbçi ərzağı (A)*

9) Hərbi komanda və əmrlər: *Bir işin görülməsi üçün verilən hökm, göstəriş: emir, emir almak, emre vermek, emri almak, emri altında bulunmak, emri geri almak, emri icra (ifa) etmek, emriyle, emrinde bulunmak, emri yapmak, komutanın emriyle, emri vermek, emri yerine yetirmek, açılma emri, ağızdan muharebe emri, ağızdan verilmiş emir, aksi emri, alay emri, ateş emri, bölük emri, celp emri, çekiliş (çekilme) emri, genel emir, geri çekilme emri, gizli emir, günlük emir, harp emri, hareket emri, hazırlık emri, hüsusi emir, hükmü her zaman için muteber emir, idari emir, ihzari emir, ileri karakol emri, emirlik, karargâh emiri, keşif emri, muharebe emri, mudafaa emri, ordu emri, ordugâh emri, ön emir, özel emir, personel emri, saldırış emri, savaş emri, savunma emri, yürüyüş emri, emirber, emirname, beekip (komanda), grup, tim (T), əmr, əmrə baş əymək, əmr kimi yerinə yetirmək, əmr etmək, əmr vermək, əmrdən çıxmaq (A) Əmr cümləsi biçimində: emret komutanım!*

10) Hərbi sənaye işləri ilə bağlı: *endüstri, askeri endüstri, atom endüstrisi, harp endüstrisi, hava (havacılık) endüstrisi, savaş endüstrisi, tank endüstrisi (T), sənaye, hərbi sənaye (A)*

11) Hərbi silahların hazırlandığı məkanların adları: *fabrika, zavod, hərbi zavod, hərbi sənaye zavodu və s.*

12) Hərbi təlim: *eğitim, hazırlık, tâlim, terbiye, askeri eğitim, atış eğitimi, beden eğitimi, el bombası ile eğitim, ferdi eğitim, gizleme eğitimi, hususi eğitim, manga eğitimi, müharebe eğitimi, müşterek eğitim, öğretim ve eğitimi, özel eğitim, ruhi eğitim, savaş eğitim, tabiyevi eğitim, teker eğitimi, teknik eğitim, temel eğitimi, uçuş eğitimi, yanaşık düzen eğitimi, yaya eğitimi (T), təlim, hərbi təlim, siyasi təlim, özəl bilik, xüsusi bilik (A)*

13) İctimai asayişlə, təhlükəsizliklə, sakitliklə bağlı: *emniyet, himaye, bomba emniyetli, bombaya karşı emniyetli, emniyeti sağlamak (temin etmek), mermiye karşı emniyetli, parça emniyetli, çereçevre (çevre) emniyetli, dahili emniyet, denizaltı emniyet, harici emniyet, hava emniyeti, iç emniyet, istirahat halinde emniyet, muharebe emniyeti, sabityan emniyeti, uçuş emniyeti, uçak emniyeti, yürüyüş emniyeti (T), əmniyyə, əmniyyə başı, əmniyyət (A)*

14) Radiolokasiya terminləri: *eko siqnal, radyo siqnal, radyo aktivlik və s.*

15) Hərbi-dənizçilik terminləri: *eğlenmek, Türk Deniz Kuvvetleri, deniz savaşları, Herbi-*

Deniz Donanması, dəniz döyüşləri və s.

16) Aviasiya terminləri: *eleron(1.təyyarənin arxa hissəsində manevr hərəkətlərini təmin edən kiçik qanad,2.Rusiya istehsalı olan, qısamənzilli, quyruqsuz,delta formalı pilotsuz uçuş aparatıdır PUA), elevator, aviasiya ateşi, aviasiya eğitimi, aviasiya təlimi və s.*

17) Artilleriya terminləri: *uzun ateş, dağılma emsalı, atış, ateş açmak, ateş altına almak, ateş altında tutmak, ateşi dağıtmak, düşman ateşini susturmak, ateşe maruz kalmak, açık ateş və s.*

18) Nitq hissələri üzrə: *sifətdən ibarət olanlar: elverişli, askere (askerliğe elverişli, askerliğe bulunmayan elverişli, askerliğe elverişli olmak, askerlik hizmetine elverişli, silahlı hizmete elverişli, uçuculuğa elverişli, uçuşa elverişli, elverişlilik; emekli və s.*

19) Metaforlaşmış terminlər: *engin (açıq deniz), engine açılmak və s.*

20) Terminoloji lüğətlərdə bir çox hallarda sırf hərbi sözlərdən kənar leksik vahidlər də yer alır. Məs.: *esinti (rüzgâr), Güney, Kuzey, şimal, hafif esinti (xəfif külək) (T), külək, cənub, xəzri (A)*

Leksik-semantik xüsusiyyətlər. Leksik-semantik cəhətdən hərbi leksikanı aşağıdakı tematik qruplara ayırmaq olar:

1) Hərbi hərəkətin tətbiq olunduğu yer adları: koğuş (kazarma), (T) *barrikada, zastava, qala, lager, düşərgə, atəşxətti, front (A)* və s.

2) Hərbi hərəkət vasitələrinin adları: *təcavüz, təcavüzkarlıq, döyüş, hücum, blokada, şturm, desant, müdafiə, atəş, bombalamaq,mişen(bülöv daşı, kəsici alətləri itiləmək üçün daş,alət) turnir* və s. (30 faiz)

3) Hərbi, ordu hissə və bölmələrinin adları: *armada, ordu, batereya, divizion (diviziya), legion, vzvod (rota, eskadron və ya batareya bölməsi) və s.*

4) Ordu bölmələrini yaradan vasitələrin adları: *kalonna, flanq və s.*

5) Döyüşə hazırlığı müəyyən edən elementlərin adları: *təcavüzkarlıq (aqressivlik), döyüş vasitələri, döyüş həvəsi, mobilizasiya (səfərbərlik) (ümumi səfərbərlik, məcazi mənada: səfərbər etmə; ölkənin bütün qüvvələrini səfərbər etmə (toplama, yığma), daxili ehtiyat qüvvələri səfərbər etmək (məcazi) və s.*

6) Döyüşdə iştirak edən şəxsin adı, vəzifəsi: *topcu, (T); qəhrəman, igid, döyüşçü, bombardir, veteran, qoruyucu, kapitan, komendant, legioner, marşal, partizan, pilot, sekundant, snayperçi, flaqman, ştrafnik, şturman, ekipaj və s. (25 faiz); çarhacı (T), partizan, pilot, flaqman (A)*

7) Döyüş növü və ixtisasının adı: Kara Kuvvetleri, Deniz Kuvvetleri, Tank Birlikleri *(T), artilleriya (topçu briqadası), pexota (piyada qoşun) (15 faiz) (A)*

8) Silah növləri, elementləri və onların saxlandığı yerin adları (15 faiz): *tüfek, (T); ambrazura, arsenal, bomba, bulava, qranat, kalibr, karabin, mina, puşka, roqatka, snaryad, strela (atəş), taran, şit (A)*

9) Hərbi incəsənət anlayışlarının adları: *manevr, strategiya, taktika və s.*

10) Hərbi qələbədən sonrakı nəticə və prosesin adları: *fişek (T); qələbə (biz qələbə fişəngləri atılanda doğulmuşuq, Haqqa qurban kəsiləndə doğulmuşuq (İ.İmanzadə), parad, məğlubiyyət (basılma), trofey (qənimət).*

Dilin leksikasındakı lüğəvi vahidlər hazır biçimdə müəyyən zərurət nəticəsində terminləşmə prosesi keçirir, yəni söz terminə çevrilir, bu zaman eyni qəlib semantikasında müəyyən dəyişmələr baş verir. Sözün terminə transformasiyası semantik dəyişmə və elmi anlayışın dəqiqləşməsi funksiyasını kəsb edir.

Ateş-atəş. Bu termin Türk və Azərbaycan dilində iki mənada istifadə olunur: 1. Mürəkkəb fiziki hadisə. Tullayıcı partlayıcı maddənin alışması zamanı yaranan qazların enerjisinin təsiri nəticəsində artilleriya topunun (minaatanın, qumbaratanın) lüləsindən mərminin (güllənin, minanın, qumbaranın) atılması. 2.Gəmi lövbərdə dayanan zaman qayıq və katerlərin bağlanması və eləcə də şəxsi heyətin tüfəng və ya topdan atəş açması. *"Hər atəşdə, hər hücumda düşmənlərə hər səfər, "Hədiyyələr" göndərirdik isti-isti güllələr!* S.Rüstəm [1, s.159].

Türk dilində "ateş" sözünün iştirakı ilə xeyli sayda terminoloji vahidlər yaradılmışdır. Məs.: *ateş açmak, ateş almak, ateş altına almak, ateş altında bulunmak, ateş altında ilerlemek, ateş altında tutmak, karşılıklı ateş desteğini sağlamak və s.* Bu sözlə əlaqədar, müasir dövrdə "atəşkəs" termini də yaradılmışdır: *atəşkəsə əməl etmək, atəşkəsi pozmaq və s.* Sinonimləri: *endaht, top endahtı (fars mənşəli sözdür, atmaq, fırlatmaq, atəş etmək mənasını bildirir)-ateş-atış (etmek).*

Omonim, paronim: *esir-əsir (müharibədə ələ keçirilən düşmən əsgəri, zabiti və s. əsr (dövr), esir, esir almak, esir düşmek, esir etmek, esiri sorğuya çekmek, kendini esir etmek, esir olmak, alınan esir, harb esiri, esirlikten kaçmak, esgerlikten kaçmak (T), hərbi əsir, əsir düşmək, əsir tutmaq, əsirlərin azad edilməsi (Hərbi əsirlər vətənlərinə döndülər).*

Hərbi termin kimi işlənən "əsir" sözünün Azərbaycan dilində *kölə, qul, məhkum; dustaq, azadlıqdan məhrum edilmiş; vurğun, məftun (eşq əsiri, gözəllik əsiri və s.)* mənaları da var.

Branda (T) - brander (A) (brezent). Bu alman mənşəli və orfoqrafik cəhətdən fərqlənən termin hər iki dildə "yelkənli donanma dövründə yanacaq və partlayıcı maddələrə yüklənib, düşmən gəmilərinin yandırılması üçün istifadə edilən gəmi" mənasında işlədilir.

Çoxmənalılığa meyl edən adi söz bir çox sahələrdə işləklik qazanır və mənalar bunun hesabına artıb-çoxalır.

Məsələn, *baraban (təbil)* sözü həm Türk, həm də Azərbaycan dilində bir neçə mənada işlənir:

1.Hərbi orkestrin tərkibində zərb aləti. 2.Hərbi texnikanın və ya silahın müəyyən bir hissəsi. Revolver sistemli atıcı silahların xəzinəsi. Məsələn, qüllə barabanı (maşın qülləsinin oturacağı), telefon-teleqraf məftilini sarımaq üçün baraban və s. Baraban-iki üzünə dəri çəkilmiş, içi boş, enli, silindr şəkilli, ağacla vurularaq çalınan çalğı aləti, təbil - nağaradır. "*Axşamüstü Tərlan yenə baraban səsi eşidib yola sarı baxdı" (M.Hüseyn).* 3. Müxtəlif maşınlarda və mexanizmlərdə içi boş silindir şəklində detal sarımaq üçün baraban və s. [1, s.219].

Türk dilində "bel" sözü çoxmənalı vahid kimi 3 mənanın daşıyıcısıdır: bel I -işarə, siqnal; bel II-dağ beli, gəminin orta hissəsi.

Atıcı. 1. Atıcı və ya bir sıra başqa silahdan (kaman, qundaqlı ox-yaydan və s.) atmağı öyrənmiş şəxs. Xüsusi sərrast atəş açmaq ustalığı olan atıcı snayper adlanır. 2. Bəzi dövlətlərin silahlı qüvvələrində ixtisas və vəzifə. Məs.: *ordunun motorlaşdırılmış atıcısı, böyük atıcı, atıcı qumbaraatan* və s. **[**5, s.290].

Snayper. İngilis mənşəli termin "dəqiq atəş açmaq, maskalanmaq və müşahidə bacarığı olan atıcı" anlamında işlədilir.

Semantik transformasiya yolu: "*Dilin lüğət tərkibindəki müəyyən sözlərin semantik transformasiyaya uğraması ayrı-ayrı terminlərin bir sahə leksikasından ayrılaraq digər sahənin leksik sisteminə daxil olması, sahələr arası termin "gəzişməsi" daha çox milli dilin daxili imkanları hesabına, onun mövcud vəziyyəti əks etdirmə gücünə, işləkliyinə və anlaşıqlıq səviyyəsinə əsaslanır* [3, s.218].

Dava ərəb mənşəli "dəva" sözündəndir, "müharibə" sözü ilə sinonimdir.

Hücum (ər.) Bu söz üç sahədə-məişətdə, hərbidə və idmanda işlədilir. Məişətdə "ittihamla yaxud qərəzlə birinin üstünə düşmə, ağır sözlərlə üzərinə həmlə etmə". Məs., "*Onun hücumlarından qorunurdum"* cümləsində məcazi mənada işlənən *"hücumundan qorunmaq"* özünə tabe etmək və ya qarşısını almaq üçün göstərilən ciddi fəaliyyət və əməliyyat mənasındadır: *Pələng nərə çəkir hücumdan qabaq; Bir anda bir yerdə durmayaraq"* (B.Vahabzadə). Bu sözə digər məcazi mənalarda da rast gəlmək olur. "*acgözlüklə yeməli bir şeyin üstünə döşənmək, tələsə-tələsə götürüb yemək. Kababın üstünə hücum etdilər.; irəliləyərək böyük bir sahəni, ərazini tutmaq. Dənizin şıltaq ləpələri hücum edib izləri yalayır"* (H.Seyidbəyli) [2, s.407].

Hərbidə *"irəliləmək məqsədilə qoşunların düşmənə qarşı apardığı hərbi əməliyyat"; həmlə: cəbhə boyu hücum.*

İdmanda "futbol, xokkey, şahmat və s. oyunlarda: xal qazanmaq üçün daha fəal hərəkətə keçmə, irəliləməyə çalışma, mübarizəni gərginləşdirmə, rəqibi sıxışdırma. Boksçunun gözlənilməz hücumu və s.

Çağırışçı. Hərbi xidmətə çağırılan adam (gənc). *Bakıda Firidunu növbəti çağırışçılara qoşub, Tbilisiyə göndərdilər (Mir Cəlal).* [1, s.436]

Bu düzəltmə sözün kökü digər mənalarda da istifadə olunur. Məs.: çağırma, səsləmə; bir rəhbər ideyanı, siyasi tələbi qısa şəkildə ifadə edən müraciət; şüar; *Qızıl Arslanın çağırışına birinci növbədə mən səs verirəm (M.S.Ordubadi). Bir işi görmək, vəzifəsini yerinə yetirmək üçün tələb və ya xahişlə bir yerə gəlmək. Həqiqi hərbi xidmətə çağırış; çağırış vərəqəsi* [1, s.436].

Çaxmaq sözü omonim söz olaraq bir neçə mənada işlənir; 1) odlu silahlarda zərb mexanizminin hissəsi; yay. Tapançanın çaxmağı; 2) Keçmişdə çaxmaq daşına vurub qığılcım çıxararaq qovu yandıran çox bərk daş, yaxud dəmir (polad) parçası. Omonim kimi digər məna; 1) Atəş açmaq üçün tüfəngin, tapançanın çaxmağını çəkib buraxmaq; atəş açmaq; 2) Birdən-birə işıldamaq, parıldayıb bərk şaqqıldamaq (ildırım, şimşək haqqında) və s. "*Bütün ümidlərin alt - üst olduğunu görən Vəli tüfənginin çaxmağını çəkdi*" (M.Hüseyn) [1, s.437].

Hədəf (A) - hedef (T). Hər iki dildə ərəb sözü kimi işlədilən ("hədəf" həm əsl terminoloji anlamında (tüfəng, top və s. atarkən güllənin, mərminin və s. dəyməli, vurmalı olduğu şey, yer; nişanə, hədəfi nişan almaq), həm də metaforikləşərək (təqib, yaxud töhmət, istehza, müzakirə və s. obyekti olan adam; (*Kiçik oğrulardır hədəfin sənin; Böyük oğrulardan xəbərsizmisən? (B.Vahabzadə))* işlədilir. Bundan əlavə, başqa bir məcaziləşmiş mənanı da ifadə edir. Həmin məna, məqsəd, qəsd, məram kimi götürülən şey *(Hər bir hədəfimiz bir dilək adası idi. (C.Cabbarlı)* [2, s.352].

Türk dilinə məxsus hərbi leksikaya rus dilində də çox rast gəlmək olur. Ünal Kerami namizədlik dissertasiyasında türk mənşəli hərbi leksikanın rus dilində də işləndiyini qeyd etmişdir. Bunlara misal olaraq aşağıdakıları göstərə bilərik: *aman, asker, baranta, barantaq, başıbuzuk-(başıpozuqlar, Osmanlı dövlətində hərbi yürüşlər zamanı nizami orduya qoşulan könüllü əsgərlərə deyilirdi), baloban, buturlux, def, cirit, elman, kalqay, kalxan, konçar, kutaz, matrabaz, melik, merqen, naib, nişan, olberı, paşa, sancaq, serdar, tuluk, tulun, çauş, tüfek, firman, şubaş, alpaut, ataman, baraban, basmaç, kazak (atlıkazaklar), karaul, kazna, kandalı, katorqa, kinjal (xəncər), boqatır, kolvımaqa, koştan, tabun, tabor, tamqa, tovar, maydan, kulak* [7, s.293, s.223].

Hərbi sözlərin derivatları: *baranta-(Orta Asiya türk boylarında adət ənənəyə görə hər hansı ədalətsizliyə qarşı çıxmadır)-barantaç-barantacı, top-topcu, süngü-süngülü, bağ-bağlantı, motor-motörcü-motör-generator-motörlendirilmiş-motörlü, saparta(T) - (İtalyanca gəmi göyərtəsindəki top yuvalarını, bir batareya topun eyni vaxtda atəş etməsini ifadə edən hərbi dəniz termini) - saparta çekmek (hərbi-dənizçilikdə), sabotaj (diversiya), sabotajcı-diversant, salyut (A) və s.*

Hərbi sözlərin variantları: *hüzme-huzme(şüa), tuluk-tulum (əsgərin rahatlığını təmin edən xüsusi geyim forması)-tulup, kutas-kutaz(qotaz, öküzün quyruğundan hazırlanıb atların boynuna asılan bəzək əşyası), dolaan-doliman-dolman(XVI əsrdə macar süvariləri tərəfindən geyilən, sinəsi və qolları hörgü ilə bəzənən paltar) və s.*

Hərb işində diferensiallaşan sözlər: *mişen(bülöv daşı)-nişan, saray-seral (fars dilində ser-baş, al-ol, baş olan, lider olan mənasında), kazak-kazax, serdal(baş, lider)-sardar (baş komutan) və s.*

Silah kökündən törəyən sözlər: *silah, yaraq, silahlanma, silahlandırmaq, yaraqlandırmaq, silahlanma dərəcəsi, təchiz olunmaq, silahlı, yaraqlı, durbin, silahlı bitərəflik, silahlı qüvvələr-qoşunlar.*

Məcazi mənada: *silahlandırmaq- əleyhinə qaldırmaq, təhrik etmək.*

Silah adları hərbi leksikanın mühüm bir hissəsini təşkil edir. Türk dillərində bu leksika xeyli zəngindir. Aparılan tədqiqat göstərir ki, müasir türk və Azərbaycan dillərində hərbi terminologiya mürəkkəb və çoxşaxəli leksik sistem təşkil edir. Bu sistemin formalaşması və inkişafı dilin daxili imkanları, tarixi təcrübə, eləcə də hərbi sahədə baş verən sosial və texnoloji dəyişikliklərlə sıx bağlıdır. Hərbi terminlərin yaranmasında əsasən leksik, morfoloji və sintaktik nominasiya vasitələri mühüm rol oynayır. Bu vasitələr vasitəsilə həm yeni terminlər formalaşır, həm də mövcud sözlər terminoloji məna qazanaraq hərbi leksikanın tərkibinə daxil olur.

Nəticə: Müqayisəli təhlil göstərir ki, türk və Azərbaycan dillərində hərbi terminlərin əhəmiyyətli hissəsi ortaq mənşəyə malikdir və struktur baxımından bir-birinə yaxın xüsusiyyətlər nümayiş etdirir. Bununla yanaşı, hər iki dilin tarixi inkişafı və müxtəlif dillərlə qarşılıqlı əlaqəsi nəticəsində terminoloji sistemdə müəyyən fərqlər də formalaşmışdır. Hərbi leksikada semantik transformasiya, çoxmənalılıq və metaforlaşma kimi proseslər də müşahidə olunur ki, bu da terminlərin funksional imkanlarını genişləndirir. Beləliklə, müasir türk və Azərbaycan dillərində hərbi terminlərin nominasiya prinsiplərinin öyrənilməsi terminologiya və ümumi dilçilik baxımından mühüm əhəmiyyət kəsb edir və hərbi leksikanın inkişaf qanunauyğunluqlarını daha aydın şəkildə müəyyən etməyə imkan verir.

Ədəbiyyat siyahısı

1. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə]. Bakı: Şərq-Qərb, c. 1. 2006. 740 s.
2. Azərbaycan dilinin izahlı lüğəti: [4 cilddə]. Bakı: Şərq-Qərb, c. 2. 2006. 790 s.
3. Hacıyeva, İ. Dil quruculuğunun nəzəri problemləri / İ.Hacıyeva. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2005.400 s.
4. İzahlı dilçilik terminləri lüğəti / Sadıqova S., Hüseynova N., Novruzova S. Həsənli-Qəribova Ş. Bakı: Elm, 2019. 1200 s.
5. Seyidov, M.M. Rusca-azərbaycanca izahlı hərbi terminlər lüğəti / M.M.Seyidov. Bakı: Azərnəşr, 1993. 336 s.
6. Лосева-Бахтиярова, Т.В. Военная лексика тюркских языков: названия вооружения: / дис. кандидата филологических наук. / Москва, 2005. 293 с.
7. Юнал Керами. Военно-административная лексика турецко-тюркского поисхождения в русском языке: / дис. кандидата филологических наук. / Бирск, 2002. 293 с.

Mehriban Abdurrahimova

Nomination of military terms in modern turkish and Azerbaijan languages

Summary

This article analyzes the nomination principles and formation mechanisms of military terminology in modern Turkish and Azerbaijani languages from a comparative perspective. The aim of the research is to identify the structural features and semantic development of military lexical units in both languages. The study demonstrates that military terminology is mainly formed through lexical, morphological, and syntactic nomination methods. The article examines thematic groups of military terms, the process of terminologization, and semantic transformation of certain lexical units. Comparative analysis shows that many military terms in Turkish and Azerbaijani have a common origin, while others have developed under the influence of different languages. The study concludes that military terminology occupies an important place in the lexical system and reflects historical and social processes.

Keywords: *military terminology, nomination, terminologization, lexical system, semantic transformation, Turkish language, Azerbaijani language*

Мехрибан Абдуррахимова

Назначение военных терминов на современном турецком и азербайджанском языках

Резюме

В статье рассматриваются принципы номинации и способы формирования военной терминологии в современном турецком и азербайджанском языках. Цель исследования состоит в выявлении структурных особенностей и семантического развития военных терминов в обоих языках. Анализ показывает, что военная терминология формируется преимущественно лексическими, морфологическими и синтаксическими средствами. В работе рассматриваются тематические группы военной лексики, процессы терминологизации и семантической трансформации отдельных терминов. Сравнительный анализ показывает, что значительная часть военных терминов в турецком и

азербайджанском языках имеет общее происхождение, тогда как другие появились под влиянием различных языков. Установлено, что военная терминология занимает важное место в лексической системе языка и отражает исторические и социальные процессы развития военной сферы.

Ключевые слова: *военная терминология, номинация, терминологизация, лексическая система, семантическая трансформация, турецкий язык, азербайджанский язык*

Çapa tövsiyə etdi: ***Bakı Dövlət Universiteti***

Rəyçilər: ***professor R.Rüstəmov***
professor Ə.Rəsulov

UOT-811.11-112
Səhifə: 200-205
https://doi.org/10.59849/2663-8967.2026.1.200

Natəvan Rəhmanova
AMEA Nəsimi adına Dilçilik İnstitutu
natavanrahmanova@anas.az

AZƏRBAYCAN DİLİNDƏ QOŞMALI FEİLİ BİRLƏŞMƏLƏRİN NLP SİSTEMİ ÜÇÜN MODELLƏŞDİRİLMƏSİ

XÜLASƏ

Məqalədə Azərbaycan dilində qoşmalı feili birləşmələrin struktur xüsusiyyətləri və onların təbii dilin avtomatik emalı (NLP) sistemləri üçün modelləşdirilməsi məsələsi araşdırılmışdır. Tədqiqatın əsas məqsədi Azərbaycan dilində geniş yayılmış sintaktik konstruksiyalardan biri olan qoşmalı feili birləşmələrin formal strukturunu müəyyənləşdirmək və onların kompüter dilçiliyi sistemlərində avtomatik identifikasiyası üçün modellər təklif etməkdir. Məqalədə göstərilir ki, qoşmalı feili birləşmələrin avtomatik müəyyənləşdirilməsi təbii dilin emalı prosesində əsasən sintaktik qruplaşdırma mərhələsində həyata keçirilir. Bu mərhələdə morfoloji analiz nəticəsində əldə olunan nitq hissələri və qrammatik kateqoriyalar haqqında məlumatlardan istifadə olunur. Tədqiqat göstərir ki, təklif olunan modellər Azərbaycan dili üçün müxtəlif NLP tətbiqlərində istifadə oluna bilər. Bu tətbiqlərə morfoloji analiz sistemləri, sintaktik qruplaşdırma alqoritmləri, avtomatik sintaktik təhlil sistemləri, maşın tərcüməsi modelləri və milli korpusların avtomatik morfoloji və sintaktik annotasiyası daxildir. Qoşmalı feili birləşmələrin formal modelləşdirilməsi Azərbaycan dilində mürəkkəb sintaktik konstruksiyaların avtomatik analizinə imkan yaradır və kompüter dilçiliyi baxımından Azərbaycan dili üçün NLP texnologiyalarının inkişafına mühüm töhfə verir.

Açar sözlər: *söz birləşməsi, qoşmalı feili birləşmələr, morfoloji modelləşdirmə, sonlu avtomat morfologiyası, qaydalara əsaslanan NP, NLP.*

Giriş: Azərbaycan dilində müxtəlif növ söz birləşmələri vardır ki, onların sistemli şəkildə öyrənilməsi əsasında müəyyən modellərin yaradılıb NLP-də, həmçinin maşın tərcüməsi sistemində, milli korpusların qurulmasında, sözlərin avtomatik sıralanmasının bir çox məsələlərinin həllində tətbiqi xüsusi maraq doğurur. Bu məqalənin məqsədi Azərbaycan dilində qoşmalı feili birləşmələrin struktur modellərini müəyyənləşdirmək və onların təbii dilin avtomatik emalı sistemlərində istifadə oluna biləcək formal təsvirini təqdim etməkdir.

Azərbaycan dilindəki qoşmalı feili birləşmələrin modelləşdirməsi təyini söz birləşmələri ilə müqayisədə ümumi strukturu qurub formallaşdırmaq baxımından nisbətən çətindir.

Azərbaycan dilində əsas tərəfin nitq hissəsi ifadəsinə görə söz birləşmələrini üç növə ayırırlar. Bu növlərə ismi, feili və zərf birləşmələri daxil edilir [5, s. 42].

Dilçiliyimizdə söz birləşmələrinin tədqiqi, onların müəyyən formal əlamətlərə görə bölgüsü məsələsi ilk olaraq ismi birləşmələr əsasında aparılmışdır. İsmi söz birləşmələri "təyini söz birləşmələri" adı altında birləşdirilmiş, üç növ təyini söz birləşməsi fərqləndirilmişdir [7; 8].

Azərbaycan dilində sözün strukturunun ümumi modelini aşağıdakı kimi təsəvvür etmək olar: Kök + sözdüzəldici affiks +...+ sözdüzəldici affiks+ sözdəyişdirici affiks+ ...+ sözdəyişdirici affiks

Bu modeli kanonik şəkildə belə göstərmək mümkündür:

K+Sd + ... + Sd + Sdf + ... + Sdf

Burada K=kök, Sd=sözdüzəldici affiks, Sdf=sözdəyişdirici affiksdir.

Kök sözdüzəldici şəkilçi qəbul edərək yeni mənalı sözə çevrildikdə bu struktura malik söz əsas adlanır (Ə = K + Sd). Təhlil göstərir ki, əsas sözdüzəldici şəkilçi qəbul edərək yeni mənalı sözə çevrilmək imkanına malikdir. Bu hal yeni düzəltmə sözdə kökdən sonra iki fərqli sözdüzəldici şəkilçinin olmasına uyğun gəlir: $Ə = Ə_1 + Sd = K + Sd_1 + Sd_2$; $Sd_1 \neq Sd_2$.

Sözdüzəldici şəkilçi üçün qəbul etdiyimiz işarəni indeksli dəyişənlə (Sd_n) əvəz etmək olar. Buradakı "n" indeksi dəyişir. Onun dəyişmə intervalı fərqli ola bilər. Təhlil və araşdırmalar göstərir ki, bu indeksin 3-dən böyük qiymət almasına rast gəlinmir. Sözdəyişdirici şəkilçi üçün "m" indeksini seçmək olar. Məsələn, dəmir, dəmirçi, dəmirçilik sözləri aşağıdakı modelə uyğun gələcəkdir: K = dəmir, K+ Sd_1 = dəmir + çi = dəmirçi, K+ Sd_1 + Sd_2 = dəmir + çi + lik = dəmirçilik.

Bu cür halları nəzərə alsaq, ümumi model aşağıdakı kimi olacaqdır:

$$\mathbf{K+Sd_1 + ... + Sd_n + Sdf_1 + ... + Sdf_m}$$

Modelin ümumi formulundakı "n" və "m" əlavə olunan affiksin sayından asılı olaraq dəyişəcəkdir. Beləliklə, Azərbaycan dilinin söz-forması üçün ümumi struktur model SF = $\mathbf{K+Sd_1 + ... + Sd_n + Sdf_1 + ... + Sdf_m}$ olacaqdır. Ümumiləşdirmə aparsaq, Azərbaycan dilində söz-formaların altı fərqli modelini ayıra bilərik:

I. $\mathbf{S = K}$

II. $\mathbf{S = K + Sd_n}$

III. $\mathbf{S = K+Sd_1 + ... + Sd_n}$

IV. $\mathbf{SF = K + Sf_n}$

V. $\mathbf{SF = K + Sd_1 +... + Sd_n}$

VI. $SF = K+Sd_1 + ... + Sd_n + Sdf_1 + ... + Sdf_m$

Azərbaycan dilində söz-formanın strukturunun $\mathbf{K + Sd_1 \ \dots + Sdf}$□ modeli ilə ifadə olunması morfoloji analiz üçün son dərəcə əlverişli formal baza yaradır. Bu cür struktur təsviri müasir kompüter dilçiliyindəki sonlu avtomat morfologiyası (FSM) ilə tam uyğunluq təşkil edir [9, s.7]. FSM modelində sözün quruluşu ardıcıl keçidlər sistemi kimi təsvir olunur: kök halından başlanaraq sözdüzəldici və daha sonra sözdəyişdirici şəkilçilərin artırılması vəziyyətlərarası keçid kimi modelləşdirilir [2]. Aqlütinativ dillərdə şəkilçilərin ardıcıllığının sabitliyi bu modelin tətbiqini xüsusilə effektiv edir.

Təqdim edilən SF = K + Sd_1 + … + Sdn + Sdf_1 + … + Sdfm modeli Azərbaycan dili üçün FSM əsaslı morfoloji analizatorun nəzəri təsviri funksiyasını yerinə yetirir və söz-formaların həm avtomatik analizi, həm də avtomatik sintezində tətbiqini tapa bilər.

Azərbaycan dilçiliyində söz birləşmələrini Y.Seyidov kompleks şəkildə tədqiq etmişdir. O, dilin söz birləşmələrini 3 qrupa – ismi, zərf və feili söz birləşmələrinə bölmüş, feili birləşmələrdə qoşmalı feili birləşmələri ayrıca qrup şəklində təqdim etmişdir [7, s. 322-331].

Y.Seyidov qoşmalı feili birləşmələri formaca "müstəqil mənalı söz + qoşma + feil" şəklində təqdim etmişdir. Müəllif qoşmaların feili birləşmələrdəki rolunu səciyyələndirərkən dörd fərqli xüsusiyyəti diqqət mərkəzinə çəkmişdir.

Birinci xüsusiyyət olaraq *can, cən, dək* qoşmalarının, eləcə də ilə qoşmasının ixtisar formasının sözlə bitişik yazılması qeyd olunmuşdur. Məsələn, evədək qaçmaq, evəcən getmək, qələmlə yazmaq [7, s. 322-323]. Təhlil göstərir ki, ilə qoşmasının bitişik deyil ayrı yazılması halı da mümkündür. Məsələn, *araba ilə getmək, metro ilə getmək* və s.

Y.Seyidov ikinci xüsusiyyəti şərh edərkən yazmışdır: " Qoşmalar öz-özlüyündə feillə əlaqə saxlaya bilməyən, feilin tələblərinə tabe olmayan yiyəlik halın feillə əlaqəsini təmin edir; məs.: *onun kimi oxumaq, bizim kimi yaşamaq*" [7, s. 323].

Çıxışlıq hallı feili birləşmələrdə qoşma hal birinci komponentdən sonra birləşməyə əlavə oluna bilir. Məsələn, *günortadan bəri yatmamaq, evdən bəri gəlmək, evdən sarı darıxmaq* və s.

Qeyd edilmiş üç xüsusiyyətin qoşmalı feili birləşmələrin modelləşdirilməsində nəzərə alınması vacibdir. Əgər qoşmalı feili birləşmələrin ümumi modelini **MMS + Q+ F** götürsək (MMS - müstəqil mənalı söz, Q – qoşma, F – feil), onda MMS + hal şəkilçisi + qoşma + feil, MMSQ + feil modellərinin mövcudluğunu da qeyd etməliyik. MMSQ + feil modelinə *evəcən getmək, avtobusla getmək, qələmlə yazmaq*, MMS + hal şəkilçisi + qoşma + feil modelinə aid *günortadan bəri yatmamaq, evdən sarı darıxmaq* nümunələrini göstərmək olar.

Q.Kazımov feili birləşmələrdən bəhs edərkən qoşmalı feili birləşmələri də təhlilə cəlb etmişdir. O, qoşmalı feili birləşmələrdə adlıq, yiyəlik, yönlük və çıxışlıq hallarda olan sözlərin işlənməsini qeyd edir [5, s.59]. Adlıq hal ümumi modelə (MMS + Q+ F) uyğun gəlir. Digər halların işlənməsi əlavə üç modelin mövcud olduğunu təsdiq edir:

1. Ad + yiyəlik hal şəkilçisi + qoşma + feil; A + YHŞ + Q + F modeli
2. Ad + yönlük hal şəkilçisi + qoşma + feil; A + YNHŞ + Q + F modeli
3. Ad + çıxışlıq hal şəkilçisi + qoşma + feil; A + ÇHŞ + Q + F modeli

Verilmiş modellərdə A – ad, YNŞ – yiyəlik hal şəkilçisi, YNHŞ – yönlük hal şəkilçisi, ÇHŞ – çıxışlıq hal şəkilçisi kimi başa düşülməlidir.

Hər üç modelə aid nümunələr vermək olar: *onun kimi oxumaq, bizim kimi yaşamaq, sizin kimi işləmək, mənim kimi düşünmək; evə tərəf getmək, məktəbə sarı getmək, küçəyə tərəf dönmək, evədək getmək, qapıyacan ötürmək və s.; çörəkdən sarı getmək, yeməkdən ötrü almaq, günortadan bəri görünməmək, səhərdən bəri yeməmək* və s.

Qoşmalar köməkçi nitq hissələridir və onlar şəkilçiləşməyə doğru inkişaf edirlər. M.Hüseynzadə dörd qrupa ayırmışdır. Onun bölgüsünə görə, birinci qrup həm əsas nitq hissəsi kimi, həm də qoşma kimi işlənənlər, ikinci qrupa həm qoşma, həm də bağlayıcı kimi işlənənlər, üçüncü qrupa yalnız qoşma olanlar, nəhayət, dördüncü qrupa həm qoşma, həm də şəkilçi kimi işlənənlər daxildir. Birinci qrupda *əvvəl, sonra, qabaq, bəri, tərəf, başqa, özgə, ayrı, əlavə, qeyri, qarşı* və s. qoşmaları, ikinci qrupda *ilə, üçün, görə, ötrü,* üçüncüdə *kimi, tək, sarı, içrə, aid, dair, məxsus,* dördüncü qrupda isə *ilə (-la/-lə), -can/-cən* qoşmaları yer almışdır [3, s. 293-294].

Qoşmaların bu qruplar əsasında ayrılması modelləşdirməyə də eyni aspektdən yanaşmağa zəmin yaradır. Modelləşdirməni bu şəkildə aparmaq üçün əvvəlcə qoşmalı feili birləşmələrin əsas ümumi modellərini qurmaq lazım gəlir.

QFB = MMS + Q + F ümumi modeldir. Qeyd olunduğu kimi MMS-dən asılı olaraq ümumi model dörd alt modelə bölünür:

I alt model: **QFB = Ad + Q + F** (Ad + qoşma + feil);
II alt model: QFB = İ + YHŞ + Q + F (İsim + yiyəlik hal şəkilçisi + qoşma + feil);
III alt model: **QFB = İ + YNHŞ + Q + F** (İsim + yönlük hal şəkilçisi + qoşma + feil);
IV alt model: QFB = İ + ÇHŞ + Q + F (İsim + çıxışlıq hal şəkilçisi + qoşma + feil).

Qeyd edildiyi kimi şəkilçiləşmiş qoşmanın bilavasitə müstəqil mənalı sözə bitişməsi halı da vardır ki, bu beşinci alt model olacaqdır.

V alt model: QFB = MSMQ + F (müstəqil mənalı söz şəkilçiləşmiş qoşma + feil).

Beləliklə, modelləşdirmənin birinci mərhələsində beş alt model müəyyənləşir. Aşağıdakı cədvəldə alt model və ona aid nümunələr verilmişdir (Cədvəl 1).

Cədvəl 1.

	Alt model	**Nümunə**
1.	QFB = Ad + Q + F	ev üçün almaq; maşın kimi sürmək
2.	QFB = İ + YHŞ + Q + F	onun üçün almaq, sənin kimi demək
3.	QFB = İ + YNHŞ + Q + F	dağa sarı baxmaq, qapıya doğru getmək
4.	QFB = İ + ÇHŞ = Q + F	Sizdən ötrü çalışmaq, maşından sonra gəlmək
5.	QFB = MSMQ + F	Evədək getmək, qapıyacan ötürmək

Qoşmalı feili birləşmələrin qeyd edilən modellərində feilin bilavasitə qoşmadan sonra işlənməsi hallarını əhatə edir. Dildə qoşmalı feili birləşmələrdə qoşma ilə feil arasına sözlərin girməsi mümkündür. Məsələn, ev üçün çörək almaq, sizin üçün kitab almaq, sizdən ötrü gecə-gündüz çalışmaq, evəcən piyada getmək və s. Göründüyü kimi qoşma ilə feil arasına bir və daha artıq sözün daxil olması mümkündür. Bu cəhət qoşmalı feili birləşmələrin komponent tərkibinə görə modellərin çoxluğunu təsdiq edir.

Qoşmalı feili birləşmələrin birinci tərəfinin təyini söz birləşməsi ola bilir. Məsələn, daş hasar üçün almaq, daş hasar üçün sement almaq, maşın təkəri üçün getmək, maşın təkəri üçün mağazaya getmək, maşının təkəri üçün usta çağırmaq və s. Bu tipli modellər iki model əsasında formalaşan mürəkkəb modellərə uyğun gəlir və TSB + QFB şəklində ümumi mürəkkəb model kimi qeydə alına bilər.

NLP sistemində sadə və mürəkkəb modellərin avtomatik təyini məsələləri bir-birindən fərqlənir və təbii ki, sadə modellərin aşkara çıxarılması daha sadə prosesdir.

Aparılmış tədqiqat göstərir ki, təbii dilin avtomatik emalı sistemlərində mürəkkəb sintaktik vahidlərin avtomatik müəyyənləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan dilində qoşmalı feili birləşmələr sintaktik strukturların mühüm növlərindən biri olduğuna görə onların formal modellərinin müəyyənləşdirilməsi avtomatik analiz sistemlərinin qurulması üçün vacibdir.

NLP sistemlərində mətnin emalı adətən bir neçə mərhələdən ibarət olur. Bu mərhələlər aşağıdakı ardıcıllıqla həyata keçirilir: mətn → tokenizasiya → morfoloji təhlil → morfoloji omonimlik → sintaktik qruplaşdırma → sintaktik təhlil.

Qoşmalı feili birləşmələrin avtomatik müəyyənləşdirilməsi əsasən sintaktik qruplaşdırma mərhələsində həyata keçirilir. Bu mərhələdə morfoloji analiz nəticəsində əldə edilmiş nitq hissəsi və qrammatik kateqoriyalar haqqında məlumatdan istifadə olunur [6, s. 123].

Azərbaycan dili aqlütinativ dil olduğuna görə sözlərin morfoloji quruluşu əvvəlki bölmədə göstərildiyi kimi formal model əsasında təsvir edilə bilər:

$SF = K + Sd_1 + \ldots + Sdn + Sdf_1 + \ldots + Sdfm$

Bu model əsasında qurulan morfoloji analizator sözün kökünü və şəkilçilərini avtomatik müəyyənləşdirir. Morfoloji analiz nəticəsində hər bir söz üçün aşağıdakı kimi etiketlənmiş struktur əldə edilir:

ev/isim üçün/qoşma almaq/feil

maşın/isim kimi/qoşma sürmək/feil

onun/əvəzlik kimi/qoşma danışmaq/feil

Bu məlumat əsasında sintaktik strukturların müəyyənləşdirilməsi mümkün olur. Qaydalara əsaslanan sistemlərdə qoşmalı feili birləşmələrin müəyyənləşdirilməsi üçün xüsusi qaydalar tətbiq olunur. Bu qaydalar sintaktik model əsasında qurulur. Qoşmalı feili birləşmələrin əsas modeli aşağıdakı kimi formal şəkildə göstərilə bilər:

QFB → MMS + Q + F; Bu model NLP sistemində daha ümumi şəkildə aşağıdakı sintaktik qayda ilə ifadə edilə bilər:

Qoşmalı feili birləşmələrin modelləri maşın tərcüməsi sistemləri üçün də mühüm əhəmiyyət daşıyır. Azərbaycan dilində qoşma ilə ifadə olunan münasibətlər bir çox dillərdə ön qoşma və ya sintaktik konstruksiya vasitəsilə ifadə olunur. Məsələn:

ev üçün almaq → buy for the house

sənin kimi danışmaq → speak like you

qapıya doğru getmək → go towards the door

Bu səbəbdən qoşmalı feili birləşmələrin struktur modelləri avtomatik tərcümə sistemlərində sintaktik transformasiya qaydalarının qurulmasına imkan yaradır.

Beləliklə, qoşmalı feili birləşmələrin formal modelləşdirilməsi Azərbaycan dili üçün NLP sistemlərinin aşağıdakı komponentlərində istifadə oluna bilər:

- morfoloji analiz sistemlərində
- sintaktik qruplaşdırma alqoritmlərində
- avtomatik sintaktik təhlil sistemlərində
- maşın tərcüməsi modellərində
- milli korpusların sintaktik annotasiyasında.

Bu modellər Azərbaycan dilində mürəkkəb sintaktik konstruksiyaların avtomatik identifikasiyası üçün formal baza yaradır və kompüter dilçiliyi baxımından praktiki tətbiq imkanlarını genişləndirir.

Müasir kompüter dilçiliyində aqlütinativ dillərin morfoloji quruluşunun modelləşdirilməsində ən geniş istifadə olunan formal metodlardan biri sonlu avtomatlar nəzəriyyəsinə əsaslanır və sözlərin morfoloji quruluşunu vəziyyətlər və keçidlər sistemi kimi təsvir edir [1, p.85].

Sonlu avtomat formal olaraq aşağıdakı şəkildə müəyyən olunur:

$$\mathbf{A = (Q, \Sigma, \delta, q_0, F)}$$

Burada Q – vəziyyətlər çoxluğu; Σ – giriş əlifbası (simvollar və ya morfemlər çoxluğu); δ– keçid funksiyası; q_0 – başlanğıc vəziyyət; F – son vəziyyətlər çoxluğudur [4, 58-59].

Morfoloji analizator qurularkən sözün quruluşu morfemlərin ardıcıl qoşulması kimi təsvir edilir. Azərbaycan dili aqqlütinativ dil olduğu üçün sözün quruluşu aşağıdakı ümumi model ilə ifadə edilə bilər: **SF = K + Sd_1 + … + Sdn + Sdf_1 + … + Sdfm**

Sonlu avtomat modelində bu struktur ardıcıl vəziyyətlər sistemi kimi təsvir olunur. Başlanğıc vəziyyətdə kök seçilir və daha sonra şəkilçilər ardıcıl keçidlər vasitəsilə əlavə olunur. Bu proses aşağıdakı sxemlə göstərilə bilər:

q_0 → K → Sd_1 → Sd_2 → … → Sdn → Sdf_1 → … → Sdfm → qf

Burada q_0 başlanğıc vəziyyət, qf isə son vəziyyəti göstərir.

Bu modeldə hər bir morfoloji element avtomatın keçidlərini təşkil edir. Məsələn, aşağıdakı sözün morfoloji quruluşuna baxaq: **dəmirçilikdən.** Bu sözün morfoloji strukturu belə təsvir edilə bilər: dəmir + çi + lik + dən. Bu struktur FSM modelində aşağıdakı keçidlər ardıcıllığı ilə ifadə olunur:

q_0 → dəmir → çi → lik → dən → qf; Burada dəmir – kök, çi – sözdüzəldici şəkilçi, lik – ikinci sözdüzəldici şəkilçi, dən – çıxışlıq hal şəkilçisidir.

Beləliklə, FSM modelində sözün morfoloji analizi kökdən başlayaraq şəkilçilərin ardıcıl şəkildə tanınması prosesi kimi həyata keçirilir.

Sonlu avtomat modelinin mühüm xüsusiyyətlərindən biri morfoloji təhlil və morfoloji sintez proseslərinin eyni formal sistem əsasında qurulmasıdır. Analiz zamanı söz forması morfemlərə parçalanır, sintez zamanı isə morfemlər birləşdirilərək yeni söz forması yaradılır.

FSM modelinin Azərbaycan dili üçün tətbiqi xüsusilə əlverişlidir. Bunun əsas səbəbləri aşağıdakılardır:

• Azərbaycan dilinin aqlütinativ quruluşu;
• şəkilçilərin ardıcıl və nisbətən sabit düzülüşü;
• morfoloji kateqoriyaların aydın formal göstəricilərə malik olması.

Bu xüsusiyyətlər sonlu avtomat əsaslı morfoloji analizatorun qurulmasına imkan verir. Belə analizatorlarda hər bir kök xüsusi lüğət bazasında saxlanılır, şəkilçilər isə ayrıca morfoloji qaydalar sistemi vasitəsilə təsvir olunur.

Sonlu avtomat modeli Azərbaycan dili üçün aşağıdakı NLP sistemlərində tətbiq oluna bilər:

• morfoloji analizatorların yaradılması;
• morfoloji omonimlik sistemləri;
• sintaktik analiz və qruplaşdırma alqoritmləri;
• maşın tərcüməsi sistemləri;
• milli korpusların avtomatik morfoloji annotasiyası.

Beləliklə, FSM əsaslı morfoloji modelləşdirmə Azərbaycan dilinin morfoloji quruluşunun formal təsvirini təmin edir və qoşmalı feili birləşmələr kimi mürəkkəb sintaktik strukturların avtomatik analizində ilkin mərhələ kimi mühüm rol oynayır.

Qoşmalı feili birləşmələrin mətndən avtomatik seçilməsi tokenizasiyanın konkret qoşma əsasında aparılmasını aktuallaşdırır. Məsələn, tokenləmə **sonra** qoşması üzrə gedirsə, onda mətndə həmin söz axtarılır. Bu söz tapıldıqdan sonra onun qoşma və ya müstəqil mənalı söz olması yoxlanılır. Burada qoşmanın müəyyənləşdirilməsi üçün sözdən sonra durğu işarəsinin işlənməsinin, sözün böyük hərflə yazılmasının yoxlanması əgər deyilən markerlər olarsa, onda sonra müstəqil mənalı söz kimi götürülür və növbəti **sonra** sözü axtarılır. Qeyd edilən markerlər olmadıqda, qoşmadan əvvəlki söz götürülür və morfoloji analizatordan keçirilir. Növbəti addımda **sonra** sözündən sonrakı sözün yoxlanması həyata keçirilir. Əgər bu söz feil forması olarsa, onda qeyd edilən üç sözdən ibarət söz birləşməsi qoşmalı feili birləşmə kimi qəbul edilir. Təbii ki, verilmiş şərh üçkomponentli qoşmalı feili birləşmələrə aiddir.

Nəticə: Aparılmış tədqiqat Azərbaycan dilində qoşmalı feili birləşmələrin struktur xüsusiyyətlərinin sistemli şəkildə modelləşdirilməsinin mümkün olduğunu göstərir. Araşdırma zamanı Azərbaycan dilinin aqlütinativ quruluşu nəzərə alınaraq söz-formaların ümumi morfoloji modeli (SF = K + Sd_1 + … + Sdn + Sdf_1 + … + Sdfm) müəyyənləşdirilmiş və bu modelin sonlu avtomat morfologiyası prinsipləri ilə uyğunluğu əsaslandırılmışdır. Bu yanaşma Azərbaycan dili üçün morfoloji analizatorların qurulmasına formal nəzəri baza yaradır.

Tədqiqatın mühüm nəticələrindən biri qoşmalı feili birləşmələrin struktur modellərinin müəyyənləşdirilməsi olmuşdur. Təhlil nəticəsində qoşmalı feili birləşmələrin ümumi modeli (QFB = MMS + Q + F) və onun müxtəlif qrammatik formalar əsasında yaranan alt modelləri müəyyən edilmişdir. Bu alt modellər müstəqil mənalı sözün müxtəlif hallarda işlənməsi və qoşmaların şəkilçiləşmiş formaları ilə əlaqədar olaraq formalaşır. Bundan əlavə, qoşma ilə feil arasında əlavə sözlərin daxil olması və birləşmənin birinci komponentinin təyini söz birləşməsi şəklində çıxış etməsi kimi hallar da nəzərə alınmışdır ki, bu da qoşmalı feili birləşmələrin struktur müxtəlifliyini göstərir.

Məqalədə göstərilmiş modellər təbii dilin avtomatik emalı sistemlərində sintaktik qruplaşdırma mərhələsində istifadə oluna biləcək formal qaydalar sisteminin qurulmasına imkan verir. Morfoloji analiz nəticəsində əldə olunan qrammatik etiketlər əsasında qoşmalı feili birləşmələrin avtomatik identifikasiyası mümkün olur. Bu isə sintaktik analiz sistemlərinin dəqiqliyinin artırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Araşdırmada həmçinin göstərilmişdir ki, qoşmalı feili birləşmələrin modelləri maşın tərcüməsi sistemlərində də vacib rol oynayır. Azərbaycan dilində qoşmalar vasitəsilə ifadə olunan münasibətlər digər dillərdə müxtəlif sintaktik vasitələrlə ifadə olunduğundan bu modellər sintaktik transformasiya qaydalarının qurulmasına imkan verir.

Nəticə: Qoşmalı feili birləşmələrin formal modelləşdirilməsi Azərbaycan dili üçün NLP sistemlərinin morfoloji analiz, sintaktik qruplaşdırma, avtomatik sintaktik təhlil, maşın tərcüməsi və milli korpusların sintaktik annotasiyası kimi komponentlərinin inkişafı üçün mühüm nəzəri və praktiki baza yaradır. Gələcək tədqiqatlarda bu modellərin geniş mətn korpusları üzərində tətbiqi və statistik üsullarla inteqrasiyası Azərbaycan dili üçün daha inkişaf etmiş NLP sistemlərinin yaradılmasına imkan verə bilər.

Ədəbiyyat siyahısı

1. Beesley K. R., Karttunen, L. Finite-State Morphology. Stanford: CSLI Publications, 2003.
2. Faggella D. What is Machine Learning? // Emerj. URL:https://emerj.com/aiglossary-terms/what-is-machine-learning/
3. Hüseynzadə, M. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, Maarif, 1973, 358 s.
4. Jurafsky D., Martin, J. H. Speech and Language Processing**.** 2nd ed. Pearson, 2009.
5. Kazımov Q. Müasir Azərbaycan dili. Bakı: "Ünsiyyət", 2000, 496 s.
6. Mahmudov M. Türk dillərinin milli korpusları / M.Mahmudov. – Bakı: "Elm və Təhsil", 2018. – 392 s.
7. Seyidov, Y. Azərbaycan ədəbi dilində söz birləşməsi / Y.Seyidov. – Bakı: Maarif, 1966. – 340 s.
8. Xəlilov B. Müasir Azərbaycan dilinin sintaksisi. / B.Xəlilov. – Bakı: Elm, 2008. – 346 s.
9. Барашко Е.Н. Храпцов, Д.А. Современные системы машинного перевода / Е.Н.Барашко, Д.А.Храпцов. // Актуальные проблемы развития естественных и технических наук. – Саратов: Академия Бизнеса, 2018. – с. 5 – 11.

Natavan Rahmanova

Modeling of postpositional verbal constructions in the Azerbaijani language for NLP systems

Summary

The article investigates the structural characteristics of postpositional verbal constructions in the Azerbaijani language and their modeling for natural language processing (NLP) systems. Special attention is given to the role of such constructions within the syntactic structure of Azerbaijani and to the possibilities of their formal representation for computational processing of texts. Since Azerbaijani is an agglutinative language, its word forms are characterized by a clear morphological structure consisting of a root and a sequence of derivational and inflectional

affixes. Based on this property, the study proposes a general morphological model of Azerbaijani word forms and demonstrates its compatibility with the principles of Finite State Morphology.

The research identifies the general structural pattern of postpositional verbal constructions and describes several sub-models depending on the grammatical case forms of the nominal component and the functional characteristics of postpositions. These constructions are formally represented by syntactic patterns that can be applied in rule-based NLP systems. The study also examines cases where additional lexical elements occur between the postposition and the verb, as well as constructions in which the nominal component itself is expressed by an attributive phrase, resulting in more complex syntactic structures.

Key words: *word combination, Postpositional Verbal Constructions, morphological modeling, Finite State Morphology, Rule-based NP chunking, NLP.*

Натаван Рахманова

Моделирование послеложных глагольных словосочетаний азербайджанского языка для системы NLP

Аннотация

В статье исследуются структурные особенности послеложных глагольных словосочетаний в азербайджанском языке и вопросы их моделирования для систем автоматической обработки естественного языка (NLP). Основной целью исследования является определение формальной структуры послеложных глагольных словосочетаний, являющихся одной из широко распространённых синтаксических конструкций в азербайджанском языке, а также предложение моделей для их автоматической идентификации в системах компьютерной лингвистики. В исследовании, с учётом агглютинативной структуры азербайджанского языка, определена общая морфологическая модель словоформ и показано её соответствие принципам морфологии конечных автоматов (Finite State Morphology). Исследование показывает, что предложенные модели могут быть использованы в различных NLP-приложениях для азербайджанского языка. К таким приложениям относятся системы морфологического анализа, алгоритмы синтаксической группировки, системы автоматического синтаксического анализа, модели машинного перевода, а также автоматическая морфологическая и синтаксическая аннотация национальных корпусов.

Таким образом, формальное моделирование послеложных глагольных словосочетаний позволяет осуществлять автоматический анализ сложных синтаксических конструкций в азербайджанском языке и вносит важный вклад в развитие технологий NLP для азербайджанского языка с точки зрения компьютерной лингвистики.

Ключевые слова: *словосочетания, постпозиционные глагольные конструкции, морфологическое моделирование, конечные автоматы, сегментация именных групп на основе правил, НЛП.*

Çapa tövsiyə edən: ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

Rəyçilər: ***professor M.Mahmudov***
professor İ.Tahirov

UOT-811.512.1
Səhifə: 206-212
https://doi.org/10.59849/2663-8967.2026.1.206

Könül Eyvazova
Bakı Dövlət Universiteti
kenul.khalil93@mail.ru
https://orcid.org/0009-0009-5797-2699

TÜRK VƏ AZƏRBAYCAN DİLLƏRİNİN DİALEKTLƏRİNDƏ MEYVƏ ADLARI İFADƏ EDƏN AREAL SÖZLƏR

XÜLASƏ

Türk və Azərbaycan dillərinin şivələrində areal səciyyəli meyvə adlarının leksik-semantik xüsusiyyətlərinin müqayisəli şəkildə araşdırılması geniş tədqiqat mövzusu olmamışdır. İlk növbədə, hər iki dilin areal leksikasını və şivələrin inkişaf tarixini öyrənmək, lüğət tərkibini müqayisəli aspektdə təhlil etmək baxımından meyvə adlarının tədqiqi xüsusi maraq doğurur. Bu cəhətdən araşdırmada Türk və Azərbaycan dillərinin şivələrində meyvə adlarının linqvistik xüsusiyyətləri müasir dilçilik metodları əsasında araşdırılır.

Məlumdur ki, təbii-coğrafi və sosial faktorların təsiri altında meyvələrin adlandırılmasında dialekt fərqlərinin meydana gəlməsi dilin lüğət tərkibinin areal səciyyəsini ortaya qoyan amillərdən biridir. Türk və Azərbaycan dillərinin şivələrindəki meyvə adları bu dillərin tarixindəki regional fərqlilikləri, fonetik və morfoloji dəyişiklikləri əks etdirir. Hər iki türk dilinin şivələrində alma, armud, gavalı, gilas, üzüm, ərik və s. meyvələrin adlarını bildirən çox sayda areal xarakterli sözlərə rast gəlmək mümkündür. Bu cəhətdən araşdırmanın məqsədi türk və Azərbaycan dillərinin şivələrində meyvə adlarının müxtəlifliyi və bu müxtəlifliyin fonetik, leksik-semantik səbəblərini təhlil etməkdir. Məqalədə həm də dilin areal xüsusiyyətləri nəzərə alınaraq, müəyyən şivələrdəki meyvə adlarının yayılma xüsusiyyətləri, kökən əlaqələri və tarixdən gələn dil təsirləri araşdırılır.

Açar sözlər: *türk dili, Azərbaycan dili, şivələr, areal leksika, meyvə adları.*

Giriş: Qohum dillər arasındakı tarixi əlaqələri və bənzərlikləri öyrənmək baxımından leksik-semantik sahəni əhatə edən qruplardan biri kimi bitki adları vacib leksik vahidlərdən sayılır. Hər bir xalqın təbiət leksikası özünə xas sözlərlə zəngindir ki, türk dilləri də bu baxımdan müstəsna əhəmiyyət kəsb edir. Çağdaş türk dillərinin lüğət tərkibində müxtəlif növ bitki adlarını bildirən sözlər işlənir ki, bunların bir qismi qədim türkcəyə məxsus olan ortaq və ya izləri ayrı-ayrı türkcələrdə müşahidə olunan kəlmələr, bir qismi hər bir türk dilinə məxsus spesifik, digər bir qismi isə ümumtürk bazasına daxil olan leksik vahidlərdir. Türk dillərinin oğuz qrupuna daxil olan türkcələrin söz varlığında belə paralelliklər xüsusilə daha çox müşahidə olunur. Bu baxımdan Türk və Azərbaycan dillərinin şivələrində işlənən bitki adları, o cümlədə tədqiqata cəlb edəcəyimiz meyvə adları həm ortaq, həm də areal səciyyəyə malikdir. Hər iki türkcənin həm ədəbi dili, həm də dialektləri səviyyəsində bənzər və ya fərqli leksik vahidlərlə ifadə olunan meyvə adlarına rast gəlmək olar ki, bu qrup söz-terminlər türk dillərinin müqayisəli-dialektoloji tədqiqi baxımından aktuallıq kəsb edir.

1. Areal leksika və ya sözlərin struktur-semantik cəhətdən areallaşması.

Məlumdur ki, areal dilçilik linqvistik coğrafiyanın metodlarından istifadə edərək, dil hadisələrinin müəyyən məkan miqyasında paylanmasını və dillərarası, dialektlərarası qarşılıqlı əlaqəni öyrənən dilçilik sahəsidir. Qarşılıqlı təsirə malik dillərin faktlarının ərazi baxımından təsvirində müəyyənedici prinsip onların frontal əhatə olunmasıdır. Areal dilçiliyin əsas vəzifəsi linqvistik xüsusiyyətlərin ərazi bölgüsünü xarakterizə etmək və izoqlosları şərh etməkdir. Nəticədə dillər, o cümlədən dialektlər arasında qarşılıqlı əlaqə sahələri - ümumi struktur xüsusiyyətləri ilə xarakterizə olunan dil kontaktları müəyyən edilir.

Digər tərəfdən, areal leksika anlayışı, müəyyən bir coğrafi ərazidə yaşayan insanlara məxsus olan və həmin ərazinin dilində istifadə olunan leksik vahidlərdən ibarət dil fenomenidir. Bu leksika yalnız dilin ümumi leksikonunda deyil, həm də dilin fərqli dialektlərində özünü göstərir. Areal leksika, xüsusilə bir regionda yaşayan insanların sosial və mədəni həyatı ilə sıx əlaqədə olan, bəzən isə ətraf mühitin xüsusiyyətlərindən, təbiət şəraitindən, yerli ənənələrdən və tarixdən qaynaqlanan dil elementləridir.

Ümumən, areal leksika dilin lüğət tərkibinin müəyyən bir bölgədə və ya coğrafi ərazidə necə inkişaf etdiyini – hansı struktur və məzmunda sistemləşdiyini göstərir. Bu leksik vahidlər, bir dilin xüsusi bir coğrafi şəraitdə necə formalaşdığını və müxtəlif şivələrdə necə fərqləndiyini göstərir. Areal leksika yalnız sözlərin özlərini deyil, həm də onların mənalarını və istifadə dairəsini öyrənir.

Türk dillərində areal leksika anlayışının təhlili müxtəlif türkcələr və onların şivələri arasında leksik-semantik fərqlilikləri tarixi-müqayisəli aspektdən izah etməyə kömək edir. Bu sahə yalnız dialekt fərqlərinin öyrənilməsi deyil, həm də dilin təbiətinin, inkişafının və zənginliyinin aydınlaşdırılması baxımından önəmlidir. Türk dillərinin areal leksikasına dair tədqiqatların aparılması həm türkcələrin tarixi inkişafını, həm də müasir dövrdəki dəyişiklikləri koqnitiv baxımdan şərh etməyə imkan verir.

Türk və Azərbaycan dillərinin şivələrində işlənən bitki adları da areal leksikanın mühüm hissəsini təşkil edir. Ayrı-ayrı bölgələrdə iqlim və biomüxtəlifliyin təsiri ilə hər iki türkcədə fərqli bitki, o cümlədən meyvə adları meydana gəlmişdir: bəziləri dilin daxili imkanları hesabına yaranmış, bəziləri isə başqa xalqların dillərindən alınmışdır. Bu kontekstdə bitki adlarının dialektlərdə necə dəyişdiyini öyrənmək areal dilçiliyin əsas mövzularından biridir. Sözügedən məqamları diqqətə alaraq qeyd etmək lazımdır ki, hər iki türkcənin şivələrinin lüğət tərkibinə daxil olan meyvə adları öz zənginliyi ilə seçilir: bunların müəyyən bir hissəsi ortaq, əksəriyyəti isə areal xarakterli leksik vahidlərdir.

2. Şivələrdə işlənən meyvə adlarının linqvistik təhlili.

Qədim türk dilində müasir fonoformaya uyğun qeydə alınan "üzüm" sözü çağdaş türk dillərinin əksəriyyətində öz şəklini saxlamaqla yanaşı, *yüzüm* və *jüzüm* variantları ilə də müşahidə olunur ki, leksem "İbn Mühənna lüğəti"ndə də *yüzüm* formasında verilmişdir. Bununla yanaşı, qədim türkcədə *üzüm* anlamında "bodu", *üzümçü, üzümlük* mənasını verən *borluğ, borçı* sözləri işlənmişdir ki, buradakı *bor* kökünün "çaxır, şərab" olduğu qeyd edilir [5, s. 474]. Ümumən, türk dillərində, o cümlədən Azərbaycan və Türkiyə türkcələrinin şivələrində bu meyvə adını ifadə edən areal xarakterli sözlərə rast gəlmək mümkündür.

Azərbaycan dilinin şivələrində ***üzüm*** və onun növlərinin adlarını bildirən müxtəlif leksik vahidlər işlənir ki, bunlar da areal səciyyəyə malik termin-sözlərdir: *abasbeyi* (Bakı), *ağadayı* (Bakı, Xaçmaz), *ağamiri* (Göyçay, Mingəçevir), *ağcaqız* (Salyan), *ağcaqura* "tezyetişən üzüm" (Göyçay), *ağşeşə* (Ağcabədi), *bərx'saflax* (Tərtər) "şirin, qırmızımtıl rəngli üzüm", *gülmərəndə* (Füzuli), *gürdəx'i* (Cəbrayıl, Zəngilan) "iri üzüm salxımı", *hazarı* (Ağdam, Tərtər), *hənəqırna* (Culfa), *hüseyni* (Culfa), *xəlbəcər* (Bakı), *xanüzümü* (Ağcabədi) "xırdagilə şirin üzüm", *xatınbarmağı* (Goranboy, Tərtər), *xayvan* (Ucar), *xotxoti* (Bakı), *irəxansilə* (Ağdaş), *kavra* (Cəbrayıl, Zəngilan) "iri giləli ağ üzüm", *keçiəmcəyi* (Ağdam, Bakı, Cəbrayıl, Göyçay, Mingəçevir, Ucar) "uzun giləli üzüm" [1].

Türk dilinin şivələrində də üzüm və onun növləri ilə bağlı müxtəlif leksik vahidlərə rast gəlmək mümkündür. Belə ki, üzüm bitkisi ilə bağlı *bığılık* "üzüm dənəsi" (Elazığ), *cimbi* "üzüm salxımı" (Toqat), *çaşıt* "üzüm", *çilgi* "qara üzüm" (İstanbul), *çirtik* "quş üzümü" (Sivas), *çoklum* "üzüm salxımı" (Qaziantep), *alagöz* "xırda dənəli üzüm" (Van, Afyon) sözləri ilə yanaşı, bu meyvə növünün adlarını bildirən sözlər də öz rəngarəngliyi ilə seçilir: a) **millət adı ilə bağlı**: frenk üzümü, yapon üzümü, macar üzümü; b) **insan adı ilə bağlı**: *Bektaşi üzümü, peygamber üzümü*; c) **peşə-sənət adı ilə bağlı**: *avcı üzümü, çoban üzümü, değirmenci üzümü*; ç) **heyvan adları ilə bağlı**: *ayı üzümü, domuz üzümü, it üzümü, köpek üzümü, kuş üzümü*; d) **yer adları ilə bağlı**: *kaya üzümü, dağ üzümü, deniz üzümü*; e) **ölkə, şəhər adları ilə bağlı**: *Amerika üzümü, Bandırma üzümü, Besni üzümü, İstanbul üzümü, Şam üzümü* və s. [9].

Məlumdur ki, türkcələrdə *alça* lekseminin işlənməsində fərqli məqamlar özünü göstərir. Bəzi dillərdə, məsələn: qaraçay-balkar, karaim, qırğız və qazax türkcələrində *alça*ya ərik (erik/örik) deyilir. F.Zeynalova görə, bu söz farscaya məxsus *alu* leksemi ilə bağlıdır. Türk dillərində "alı//alu" komponentinin işləndiyi meyvə adlarına rast gəlmək mümkündür. Məs.: qara alı (qərəli - Ordubad), albuxara (alı+buxara), Buaxra alısı, sarı alı və s. [10, s. 51]. "Kodeks Kummanikus"da da ərik "alça" anlamında qeyd alınmışdır [6, s. 93]. Qədim türk dilində də "ərik"in *alça* mənasında işləndiyi göstərilir [5, s. 487]. Bu məqamı türk və Azərbaycan dillərinin şivələrində həmin meyvə adını ifadə edən kəlimələrdə müşahidə etmək olar.

Azərbaycan dilinin dialektlərində ***gavalı*** növünü bildirən müxtəlif termin-sözlərə rast gəlmək mümkündür: *albuxara* (Təbriz), *alı/ alu* (Şərur), *cancul* (Başkeçid, Borçalı, Hamamlı), *curumbul* (Oğuz), *daşalı* (Ağdam), *xətəmi* (Salyan), *qəbjin* (Dərbənd), *qimqar* (Tabasaran), *mazandərən* (Ağdam), *şahdi* (Tabasaran), *şəhdi* (Dərbənd), *şələli* (Ağcabədi), *vəziralı* (Ordubad) [1].

Azərbaycan dilində "alça" və" gavalı" adlandırılan meyvə növü türk ədəbi dilində "erik" leksemi ilə ifadə olunur. Konya şivəsində "fiskilen", Ərzincan şivəsində "çeremük ~ çerenük" adlandırılan *gavalı* növlərinə dair dialektlərdə fərqli söz-terminlərə rast gəlmək mümkündür: türbe eriği, Yusuf eriği, Yunus eriği, damat eriği, Çerkez erigi, can eriği = er erük, dağ eriği = çatal eriği = deli erük = domuz eriği = yaban eriği, emesgen = domaskene = mürdüm eriği, gög erük = gögem eriği, ot eriği = ilk erük = er erük və s. [9].

Qeyd edək ki, Azərbaycan dilinin şivələrində ***alça*** növünün adlarını bildirən sözlər də ayrıca leksik vahidlərlə ifadə edilir: *alımça* (Qazax), *aluc* (Quba), *ərik* (Dərbənd, Quba) "cır alça", *göycə* (Naxçıvan), *göycəsultan* (Borçalı, Qazax), *mahmudu* (Ağdaş) [1]. Maraqlıdır ki, Quba və Dərbənd şivələrində "alça" həm də *ərik* anlamında işlədilir. Türk dillərində "armud" sözü işlək leksik vahidlərdən biridir. Bulqar (və ya qıpçaq) qrupuna daxil olan türkcələrdə *kertme//qertme* sözü müşahidə olunduğu kimi, başqırd və tatar dillərində ruscaya məxsus olan "qruşa" leksemi də özünə yer tutmuşdur. Bununla bərabər, özbək dilində bu meyvə adını bildirən "nok, naşvati", uyğur dilində isə "nəşput" kəlimələri işlənir. "İbn Mühənna lüğəti"ndə *armut*, "Kodeks Kummanikus"da *armut-kertme* şəklində qeydə alınmışdır. Qeyd edək ki, *armud* oğuz, *kertme* isə qıpçaq qrupu türk dilləri üçün səciyyəvidir və "Dəşti-qıpçağın müasir türk sakinlərinin (başqırd, tatar) dillərində qorunub saxlanmışdır" [6, s. 93].

Azərbaycan dilinin şivələrində ***armud*** növünün adlarını bildirən sözlər öz müxtəlifliyi ilə seçilir: *abasbəyi* (Quba), *çaxma* (Quba), *çaqqalarmıdı* (Ağdaş) "cır armud", *hulu* II (Cəlilabad) "cır armud", *göhəri* (Qubadlı), *xırdaxani* (Kürdəmir), *qirmiztumi* (Dərbənd), *qomazi* (Kürdəmir), *mancalax* (Zaqatala), *savatil* (Quba), *zurup* (Oğuz) "cır armud" [1]. Burada diqqət çəkən məqam odur ki, *abasbeyi* Quba şivəsində *armud*, Bakı şivəsində isə *üzüm* növünün adı kimi qeydə alınmışdır [1, s. 11].

Türk dili şivələrində *aksulu* (Kars), *aşı* (Burdur), *bozuk* (Malatya) leksemləri ilə ifadə olunan *armud* növlərinin dialektlərdə fərqli dil vahidləri ilə işləndiyini görmək olar: küp armudu, gerdek armudu, Arap armudu, Kara Çepni armudu, Laz armudu, Sultan Ahmet armudu, Sultan Mustafa armudu, boz armut= dağ armudu, er armut = erce armut = ilk armut, küp dusen = küpdüdu vb.; kuş armudu = karga armudu, köpekbaş armudu = köpekbaşı, saru armut = saruca armut = Sarı Bekir armudu, sulu armut = suluca armut, yaban armudu = yaban aflatı = ahlat = çakal armudu = çördük vb. [9].

"Alma" türk dillərinin lüğət tərkibində sabitləşmiş sözlərdən biridir. Qaqauz dilində *elma*, özbəkcədə *olma*, çuvaşcada *ulma*, qaraçay-balkarcada *almıla* formalarında işlənən bu meyvə adı Sibir türklərinin dilində ruscaya məxsus "yablok" sözü ilə ifadə olunur. F.Zeynalov yazır ki, "abidələrdə qədim variant kimi *almıla* sözü işlənmişdir" [10, s. 50]. "İbn Mühənna lüğəti"ndə də *alma* şəklində qeydə alınmışdır [3, s. 70].

Azərbaycan dilinin şivələrində ***alma*** növünün adlarını bildirən müxtəlif leksik vahidlərə rast gəlinir: *cicmay* (Qax) "cır alma", *ağlama* (Şamaxı), *buzoyburnu* (Oğuz), *qabələ* (Dərbənd), *quzugörən* (Oğuz), *pang* (Quba), *yayalması* (Ordubad) "yayda yetişən alma" [1]. Təkcə Quba şivəsində alma növlərinin adlarını bildirən xeyli sayda leksik vahidin işləndiyini (qəndi sinab, qəndabi, gög turş və s.) görmək olar [7, s. 387].

Azərbaycan ədəbi dilində olduğu kimi, türk dilinin əksər şivələrində də bu meyvənin adı eynilə "alma" fonormasında işlədilir. Lakin *alma* sözü türkcənin Ərzincan şivəsində həm də "ərik" mənasında özünü göstərir. Türk dili şivələrində *bulgarsıktı* "yer alması" (İzmir), *ebeli* "yer elması" (Trabzon) leksemləri ilə yanaşı, bu meyvə növünün adını ifadə edən digər sözlər də öz işləkliyi ilə seçilir: eşek elması, mayıs elması, yaz elması, küpelması, gelin elması, gelin güveyi elması, Osman elması, Mahmut elması, acı elma = yaban elması, ak elma = beyaz elma, gelin elması = gelin güveyi elması, kızıl elma = kırmızı elma vb. [9].

Azərbaycan dilinin şivələrində ***gilas*** növünün adlarını bildirən areal səciyyəli sözlər öz müxtəlifliyi ilə seçilir: *ba:lı* (Balakən, Qax, Şəki), *məhləb* (Dərbənd) "cır gilas", *şine:r* (Kəlbəcər), *tumruz* (Quba) "cır gilas" [1].

Türk dili şivələrində "gilas" və onun növünü bildirən akcıllıgarabalı, alamelek ~ alamelik ~ alamerik (Artvin), altı parmak (Edirne), alyanak (Isparta), atdili, bimbal ~ binbal (Artvin), buli (Sivas), curta (Artvin) kimi sözlər yer almışdır [9].

Maraqlıdır ki, *altı parmak* sözü türkcənin Denizli, Aydın, Çanakkale və b. şivələrində "qumaşdan tikilən gəlin palтarı", Elazığ şivəsində "ayağıağır adam", *alyanak* leksemi Kastamonu şivəsində "lobya", Elazığ, Ankara və Niğde şivələrində "ərik", Muğla şivəsində "üzüm", Ədirnə şivəsində isə "alma" növlərinin adını bildirir [9].

Azərbaycan dilinin şivələrində ***albalı*** növünün adlarını bildirən bu sözlər ünsiyyətə xidmət edir: *alabəhli* (Qəbələ, Quba), *bəhli* (Zərdab), *nargilə* (Qazax), *şorba:lı* (Şəki), *tuşbalı* (Balakən, Zaqatala) [1].

Türk ədəbi dilində *albalı* sözü rus dilində işlənən "вишня" (vişne) leksemi ilə əvəzlənir. Şivələrdə bu meyvəni ifadə edən *albalı* (Kars), *ekşi kiraz, fişna* (Elazığ, Isparta), *fişne* (əksər şivələr), *güven* (Ankara), *turşkiraz* (Kars) kimi sözlər işlənir [9]. Qeyd edək ki, rus dilinə məxsus *vişnə* sözü canlı danışıqda da öz işləkliyini qoruyub saxlayır.

F.Zeynalov qeyd edir ki, ***çiyələk*** sözü türk dillərində meyvə anlayışını da ifadə edir [10, s. 51]. Azərbaycan dilinin şivələrində *çiyələk* növünün adlarını bildirən bu sözlərə rast gəlmək olar: *çəqələm* (Zaqatala), *kürə* (Qax), *müri* / *nəki* (Quba) [1].

Türk ədəbi dilində *çilek* şeklində işlənən leksemin şivələrdə arnavutköy çileği, cilek, col ~ cola (Artvin), çeküm çileği (Giresun), çiğelek ~ çiġelek (Artvin), çile, çinek, frenk çileği, gandgu (Rize), kambokiraz (Trabzon), su çileği (Sivas), yer kirazı (Trabzon) kimi fonoforması və leksik variantları vardır [9]. *Çiğelek* sözü eyni zamanda Amasya şivəsində "qorxmuş bir şəxsə içirilən şəkər və nişastadan hazırlanmış şərbət"in adını bildirir.

Azərbaycan dilinin şivələrində ***ərik//qaysı*** növünün adlarını bildirən müxtəlif sözlər qeydə alınmışdır: *qaysı* (Bakı), *mişmişi* (Dərbənd, Xudat, Quba), *toxmişəms* (Ordubad), *meşmeşi* (Dəvəçi, Quba, Ordubad, Sabirabad) "qaysı, qurudulmuş ərik", *badamcan* (Kəlbəcər) "bağlarda bitən cır ərik" [1].

Türk dilinin şivələrində ərik və onun növlərini ifadə edən müxtəlif adlar işlənir: camıs cicî; can eriği: genellikle yeşilken yenen sert sulu bir tür erik; kayısı; cancur ~čančur ~ çançur; kırmızı siyah erik; caneriği (Sivas); ça-al eriği; çağla ~ çağala ~ çala; çakaleriği; aşma, basmaca ~ basmaça, berge ~ berġe ~ berke, bitirge, can eriği, çiruru (Sivas), ġaysı ~ gaysi: Kayısı və s. [9].

Azərbaycan dilinin şivələrində ***yemiş*** və onun növlərinin adlarını bildirən areal səciyyəli müxtəlif sözlərə rast gəlmək olar: *bozax* (Füzuli), *dosducan* (Qazax, Mingəçevir, Şəki), **s***arıköynəx'* (Ağdam), *şveynaz* (Naxçıvan), *yemiş* (Dərbənd, Tabasaran), *dilcıran* (Qazax) [1]. Azərbaycan dilinin Dərbənd və Tabasaran şivələrində bu söz "meyvə" məzmununu da ifadə edir: *Alma teregin kəsdim, yemiş vermiyədi* [8, s. 71].

Qeyd edək ki, əksər türk dillərində *yemiş* sözü meyvə anlamında işlənir. Qədim türk dilində "yemiş, məhsul" anlamlarını [5, s. 574]. verən bu leksem monqolcaya da keçərək eyni mənada işlənir. Hətta "Oğuznamə"də də eynilə meyvə məzmununu ifadə etmişdir: "Yemişini ye, ağacını sorma" [4, s. 142]. *Yemiş* sözü Azərbaycan dilinə məxsus olub, "aş" sözü kimi mənası daralaraq, *qovun* sözünün sinonimi kimi qalmışdır" [6, s. 93]. F.Zeynalov yazır ki, *"meyvə* sözü özbək və türkmən dillərində də işlənir. Qədim türk dilində *meyvə* sözünün sinonimi kimi *kat/qat* sözü işlənmişdir. *Qat* sözünə müasir Tuva dilində də rast gəlinir" [10, s. 51]. Beləliklə, "*yemiş* sözü Azərbaycan ədəbi dilində "qovun"; "hər cür quru meyvə" mənalarını ifadə edir" [8, s. 71].

Azərbaycan ədəbi dilində *yemiş* leksemi ilə paralel işlənən *qovun* sözü türk ədəbi dilinə məxsus spesifik leksik vahiddir. Düzdür, türk ədəbi dilində "meyvə", "quru meyvə" mənasında "yemiş" sözü vardır. Ancaq daha çox türk dilində "kavun" fonoformasında işlənən bu meyvə adını və onun növünü bildirən sözlər şivələrdə də öz müxtəlifliyi ilə seçilir: *çemiş, çırlangıç, çiğirdek, çitili kavun, destimik, dilburan, dilve, ebece ~ ebeçe, eşemene // eşşemene, gavın ~ ġavın* və s. [9].

Çemiş İstanbulun Bakırköy şivəsində "yemiş", digər şivələrdə "ballanmış armud" (Kastamonu), "tut qurusu" (Tokat, Artvin, Erzincan), "quru üzüm" (Erzincan, Tokat), "bir yaşında keçi balası" (Sivas, Afyon) mənalarında işlənməkdədir.

Qeyd edək ki, "yemiş" ifadəsi türk dilinin şivələrində müxtəlif meyvələrin adlandırılmasında da ünsiyyətə xidmət edir. Belə ki, türk dilinin əksər dialektlərində bu leksem "əncir", "kuruyemiş" (Hatay, Ankara), "söyüd ağacının meyvəsi" (Kırşehir), "qovun" (Qars), "ləbləbi" (Ankara kənd şivələri), "meyvə qurusu", "çərəz" (Diyarbakır), "təzə əncir" (Uşak bölgəsi) mənalarında işlənməkdədir.

Bundan başqa, *dilburan* bəzi şivələrdə (Kütahya, Bolu) "göbələk", *eşemene* isə Konya, İçəl dialektlərində "turşməzə, yaşılla qara rəngin qarışığı olan qabıqdan ibarət, çox xoş qoxusu olan meyvə" növünün adını bildirir [9].

Azərbaycan dilinin şivələrində ***qarpız*** növünün adlarını bildirən areal xarakterli bu sözlərə təsadüf olunur: *çiyid* (Cəbrayıl) "kal, yetişməmiş qarpız", *gö:şəni* (Bakı), *həllə-hüllə* (Ağdaş). Maraqlıdır ki, ədəbi dildə meyvə anlamı verən *qarpız* sözü Masallı şivəsində "çıraqda neft tökülən hissə" mənasında işlənilir [1, s. 284].

Türk ədəbi dilində "karpuz" fonoformasında işlənən bu leksemin şivələrdə fərqli ifadə şəkilləri vardır: hırt ~ hırtı; holluk ~ höllek ~ höllük; kelek (yetişməmiş qarpız, qovun; keleyh (xam qovun, qarpız); kevek (ağır olmayan, yüngül qovun, qarpız); kökençeli; kütür (yetişmiş qarpız); sulucagümbet; topoç və s. [9].

Manisa şivəsində işlənən "topoç" sözü Qaziantep dialektində "qovrulduqdan sonra yağla dondurulmuş qıyma", Qars şivəsində "yüngül qarpız" anlamında işlənən *keleyh* sözü bu dialektdə həm də "hiylə, fırıldaq", *kütür* termini isə Ordu şivəsində "kiçik sac çörəyi" məzmununu ifadə edir.

Şaftalı lekseminin də türk dillərində maraqlı işlənmə özəllikləri vardır. F.Zeynalov göstərir ki, "leksemin *şaptal* formasına bulqar (və ya qıpçaq) qrupu türk dillərində, *hülü* variantına isə Azərbaycan dilində rast gəlinir" [10, s. 51]. Ancaq qeyd edək ki, hər iki variant türk dilinin şivələrində müşahidə olunsa da, şaptal "qaysı" mənasında işlədilir.

Azərbaycan dilinin dialektlərində şaftalı növü və onun adını bildirən areal səciyyəli müxtəlif leksik vahidlər müşahidə olunur: ağkərdi (Gəncə), alanayı, nazlı, tərəli (Ordubad), güşdi (Ordubad), hulu, bəlgə (Bakı) "şaftalı qaxı" [1].

Türk dilinin şivələrində şaftalı və onun növünün adını bildirən rəngarəng sözlər işlədilməkdədir. Məs.: alabacak (Isparta), berge ~ berġe ~ berke (Sivas), cüvür (Kars), çătelik, çefdelı, hülü (Bursa), kızmemesi, sakalçürüten, sakalçürüten (Samsun), sarı yemiş, seftali ~ sefteli, suluzartlak, şabbalıt, şefdelü, tiltompak, tilye və s. [9].

Göründüyü kimi, *hülü* və *bəlgə* (berge) leksemləri hər iki türkcənin şivələrində müşahidə olunur. Ancaq "alabacak" sözü Ispartada eyni zamanda *bibər*, Balıkesirdə *oyun növü*, "berge" Amasyada *qaysı, ərik*, "hülü" Trabzonda *yağmur*, "kızmemesi" Alanyada *qreyfurt*, "tilye" Ankarada *ıhlamur* (cökə) məzmununu ifadə edir.

Nəticə: Türk və Azərbaycan dillərinin şivələrində işlənən meyvə adlarının müqayisəli, təsviri və tarixi təhlili onu deməyə əsas verir ki, hər iki türkcənin dialektlərində qeydə alınan sözlər ədəbi dil səviyyəsində fonoforması baxımından əsasən müəyyən dərəcədə bənzərlik təşkil etsələr də, şivələr səviyyəsində meyvə növlərinin adlarını bildirən leksemlər areal səciyyəyə malikdir. Hər iki türkcənin şivələrində üzüm, alma, armud, ərik, alça, şaftalı, qarpız, yemiş və s. meyvə növlərinin adlarını ifadə edən çox sayda leksemlər ünsiyyətə xidmət edir ki, bunların da, demək olar ki, əksəriyyəti areal xarakterə malik dil vahidləridir. Xüsusilə meyvə adını bildirən ümumi sözlərin abidələrlə müqayisəsi bu dil faktlarının ümumtürk bazasına söykəndiyini faktlaşdırsa da, ayrı-ayrı meyvə çeşidlərinin adlarını bildirən leksik vahidlər dilin sonrakı inkişafı dövrünün məhsulu kimi areal səciyyə daşıyır.

Ədəbiyyat siyahısı

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Şərq-Qərb, 2007, 568 s.
2. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı: Elm və təhsil, 2016, 348 s.
3. İbn Mühənna S.C. Hilyətül-insan və həlbətül-lisan. Tərt. ed.: T. Hacıyev. Bakı: Kitab aləmi, 2008, 160 s.
4. Xəlilov B. 224 qədim türk sözü. Bakı: Elm və təhsil, 2010, 350 s.
5. Xudiyev N. Qədim türk yazılı abidələrinin dili. Bakı: Elm və təhsil, 2015, 596 s.
6. Quliyev İ. "Kodeks Kummanikus" və kuman dilinin leksikası. Bakı: Elm və təhsil, 2023, 208 s.
7. Məmmədli M. Azərbaycan dialektologiyası. Bakı: "Zərdabi Nəşr" MMC, 2019, 352 s.
8. Teymurlu Z. Azərbaycan dilinin dialekt leksikası (türk ədəbi dili ilə ərtaq sözlər). Bakı: BMU, 2017, 122 s.
9. Türk Dil Kurumu Sözlükleri: https://sozluk.gov.tr/ (29.01.2026)
10. Zeynalov F. Türk dillərinin müqayisəli qrammatikası. I hissə. Bakı: "MBM" nəşriyyatı, 2008, 354 s.

Konul Eyvazova

The areal words denoting fruit names in the turkish and Azerbaijani dialects

Summary

The comparative study of the lexical-semantic features of regional fruit names in the Turkish and Azerbaijani dialects has not been a subject of extensive research. First of all, the study of fruit names is of particular interest in terms of studying the areal lexicon of both languages and the history of the development of dialects, and analyzing the vocabulary content in a comparative aspect. In this regard, the linguistic features of fruit names in Turkish and Azerbaijani dialects are investigated on the basis of modern linguistic methods.

It is known that the emergence of dialect differences in the naming of fruits under the influence of natural-geographical and social factors is one of the factors that reveal the areal nature of the vocabulary of the language. Fruit names in the dialects of the Turkish and Azerbaijani languages reflect regional differences, phonetic and morphological changes in the history of these languages. In the dialects of both Turkic languages, it is possible to find a large number of areal words denoting the names of fruits such as apple, pear, plum, cherry, grape, apricot, etc. In this regard, the aim of the study is to analyze the diversity of fruit names in the dialects of the Turkish and Azerbaijani languages and the phonetic, lexical-semantic reasons for this diversity. The article also examines the distribution characteristics of fruit names in certain dialects, their etymological connections, and historical linguistic influences, taking into account the areal characteristics of the language.

Keywords*: Turkish language, Azerbaijani language, the dialects, the areal lexicon, the fruit names*.

Конул Ейвазова

Ареальные слова, обозначающие названия фруктов в диалектах турецкого и азербайджанского языков

Резюме

Сравнительное изучение лексико-семантических особенностей региональных названий фруктов в турецких и азербайджанских диалектах не было предметом обширных исследований. Прежде всего, изучение названий фруктов представляет особый интерес с точки зрения изучения ареального лексикона обоих языков и истории развития диалектов, а также анализа словарного состава в сопоставительном аспекте. В этой связи языковые особенности названий фруктов в турецких и азербайджанских диалектах исследуются на основе современных лингвистических методов.

Известно, что возникновение диалектных различий в наименовании фруктов под влиянием природно-географических и социальных факторов является одним из факторов, раскрывающих ареальный характер лексики языка. Названия фруктов в диалектах турецкого и азербайджанского языков отражают региональные различия, фонетические и морфологические изменения в истории этих языков. В диалектах обоих тюркских языков можно обнаружить большое количество ареальных слов, обозначающих названия фруктов, таких как яблоко, груша, слива, вишня, виноград, абрикос и т. д. В связи с этим целью исследования является анализ разнообразия названий фруктов в диалектах турецкого и азербайджанского языков и фонетические, лексико-семантические причины этого разнообразия. В статье также рассматриваются особенности распространения названий фруктов в отдельных диалектах, их этимологические связи и исторические языковые влияния с учетом ареальных особенностей языка.

***Ключевые слова**: турецкий язык, азербайджанский язык, диалекты, ареальная лексика, названия фруктов.*

Çapa tövsiyə edən: ***Bakı Dövlət Universiteti***

Rəyçilər: ***professor M.Mahmudov***
fil.e.f.d. P.Eyvazov

YENİ NƏŞRLƏR:

Qətibə Mahmudova
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
filologiya elmləri doktoru

I ÜMUMİTTİFAQ TÜRKOLOJİ QURULTAYIN 100 İLLİK YUBİLEYİNƏ DƏYƏRLİ TÖHFƏ

2026-cı ilin fevral ayında I Ümumittifaq Türkoloji Qurultayın 100 illik yubileyi bütüm türkdilli dövlətlər çərçivəsində keçirilməkdədir. I Türkoloji Qurultayın 100 illik yubileyi münasibətilə müxtəlif əsərlər hazırlanmışdır. Belə əsərlərdən biri də Türkiyəli alim, Azərbaycanın dostu, Türk Dil Qurumunun keçmiş rəhbəri, professor **Şükürü Haluk Akalının *"100 Yılında 100 Soruda Birinci Türkoloji Kurultay" əsəridir. (Ankara: Erkmen Yayınçılık, 2025. –300 səh.)***. Əsər I Türkoloji Qurultay haqqında yazılmış ən orijinal və özünəməxsus kitab sayıla bilər. Çünki əsər 100 sual əsasında hazırlanmışdır və Türkoloji Qurultayın 100 illik yubileyinə həsr edilmiş mükəmməl bir hədiyyə, ərməğan sayıla bilər.

Buradan belə bir sual meydana çıxa bilər ki, əsərin digər bu mövzuda yazılmış kitablardan fərqi v ə özünəməxsusluğu nədir?.

Əvvəla əsər 100 sual əsasında hazırlanıb. Müəllif kitabda 100 sual qoyur. Və bu 100 sual çərçivəsində türkoloji qurultayın elə bir əlaməti, qurultayda baş vermiş elə bir hadisə, qurultayda iştirak etmiş elə bir şəxs yoxdur ki, Şükrü bəy ona toxunmasın. Nəinki toxunmaq, toxunduğu hər bir detal haqqında ətraflı şəkildə məlumat verir. Kitabda birinci sual "Türkoloji qurultayın tam adı nədir?", 100-cü sual isə "Türkoloji qurultayda iştirak edən nümayəndələrin aqibəti necə oldu?" suallarıdır. Düzdür, suallar içərisində indiyə qədər bizə - türkoloji aləmə bəlli olan, cavabları məlum olan suallar da çoxluq təşkil edir. Lakin müəllif bizə məlum olan sualın cavabında da gizlənmiş bəzi məqamları izah edir. Məsələn, 2-ci sual belədir: "*Türkoloji nə deməkdir?"*. Müəllif izah edir: Türkoloq yalnız bugünkü Türkiyə türkcəsi və ədəbiyyatı mütəxəssisi deyil. Türkoloq türklərin tarixi, dili, mədəniyyəti, ədəbiyyatı, coğrafiyası ilə məşğul olan elm adamlarıdır. Türkoloq və türk dilləri mütəxəssisi eyni zamanda Azərbaycan dili, qazax dili, yakut dili, qaqauz dili ilə və s. türk dillərilə, onların tarix və etnoqrafiyası ilə məşğul olan alimlərdir. Və yaxud 4 cü sual: "*Türkoloji qurultayın keçirilməsi fikri nə vaxt və neçə meydana çıxdı?"*. Şükrü bəy bu sualın cavabını 1905-ci ildə Rusiyada keçirilmiş Rusiya Müsəlmanları Konqresi ilə əlaqələndirir. Bu qurultayı keçirmək ideyasının ilkin rüşeymləri məhz bu konfransdan doğmuşdir. Bu ideyanın ilk müəllifi isə rus türkoloqu A.N. Samoyleviç olmuşdur. A.N. Samoyleviç Bakıda dərc olunan "Maarif və mədəniyyət" jurnalında "Türkoloji qurultay lazımdır" adlı məqalə ilə çıxış edir.

Qurultayla bağlı ən kiçik bir detal belə müəllifin nəzərindən qaçmamışdır. Hətta iclasların niyə bir salonda keçirilməsi, türk dillərində olan çıxışların stenoqrafiyasının niyə bu günümüzə gəlib çatmamağının səbəblərini müəllif ətraflı şəkildə şərh edir. Qurultayın keçirilməsi üçün məkan seçilməsindən bəhs edən alim İsmailiyyə binasının tam tarixini təqdim edir. Nəzərə alsaq ki, bu əsər bu gün ortaq türkcə olma yolunda irəliləyən Türkiyə türkcəsində yazılıb və bu əsərdən bütün türkdilli ölkələrin türkoloqları bəhrələnəcək biz, Azərbaycan alimləri Şükrü hocaya minnətdar olmalıyıq. Çünki müəllif bu kitabda təkcə türkoloji qurultayın tarixini deyil, eyni zamanda Bakının, o dönəmin Bakısının elmi və ictimai, eyni zamanda mədəni həyatını bütün türkdilli ölkələrə çatdırır.

Kitabda mənim nəzərimi bəzi suallar cəlb etdi ki, bu sualların cavabları bu gün də müasir türkologiyada bir növ müəmmalı olaraq qalır.

16-cı sual: *"Qurultayın rəsmi bir dili varmı?"*. Türk dilindəki çıxış və məruzələr niyə stenoqrafiyaya alınmamışdır? Türk soylu xalqların dilini və ədəbiyyatını mövzu edən, Sovet Türk respublikalarının əksəriyyətinin nümayəndələrinin iştirak etdiyi Birinci Türkoloji Qurultayda çı-

xışların Türk dillərinin olması təbii idi. Sovetlər Birliyində nizamlanma prosesi nəticəsində rus dili də təbii olaraq işlək dilə çevrilmişdi. Lakin türk ləhcələri arasında qarşılıqlı anlaşıqlılıq nisbətinin aşağı olması, hər kəsin rus dilini bilməməsi səbəbindən Qurultayın ortaq bir ünsiyyət dili formalaşa bilməmişdi. Qeydlərdə və ümumi iclas müzakirələrində Birinci Türkoloji Qurultayda rus dilinin yeganə dil kimi nəzərdə tutulmadığı açıq şəkildə göstərilir. Lakin zaman keçdikcə çıxışların çox uzanması və eyni mövzuların təkrarlanması bu qaydanın tətbiqini çətinləşdirmişdi. Bu səbəbdən ən mühüm məruzələr üçün xülasələrin verilməsi qərara alınmışdır.

Hər kəsin müəyyən edilən türk dilində xülasə verilməsi düşünülmüşdü. Buna qarşılıq, müxtəlif türk toplumlarından gələn iştirakçılar üçün Türkiyə türkcəsi və ya Anadolu türkcəsinin seçilməsi uyğun hesab edilməmişdi. Əslində, əvvəldən yalnız Türkcə danışılmasının mümkünsüzlüyü deyil, çıxışların anlaşıla bilməsi üçün yenidən rus dilinə müraciət edilməsi də vacib idi. Buna görə rus dilinə tərcümənin aparılması zəruri görülmüşdü. Qurultayda müxtəlif türk dillərinin eyni anda rus dilinə tərcümə edilməsi də vacib idi. Müxtəlif türk dillərini bir-birindən fərqləndirən, lakin eyni zamanda onları bir araya gətirən rəngarəng bir mühit yaranmışdı. Rus dili bu mühitdə bir növ vasitəçi rolunu oynayaraq, iştirakçıların bir-birinə yaxınlaşmasına, onların öz xüsusiyyətlərini qorumaqla qarşılıqlı ünsiyyət qurmasına imkan verirdi. Türk dilinin, ədəbiyyatının və tarixinin müzakirə mövzusu olduğu bir toplantıda türk dilləri ilə aparılan çıxışların qeydə alınmaması mümkün deyildi. Lakin türk dillərində aparılan çıxışlar tam şəkildə qeydə alınmamışdır. Bunun əsas səbəbi Sovet İttifaqında yaşayan türk soylu xalqların öz dillərində apardıqları çıxışların geniş miqyasda qeydə alınmasının müəyyən çətinliklər yaratması idi. Bu vəziyyət qeydlərin daha çox rus dilində aparılmasını zəruri etmişdi. Rusca xülasə istənilməsinə baxmayaraq, türkcə aparılan çıxışların rusca xülasələrinin verilməsi sonrakı mərhələlərdə də tətbiq edilmişdir. Məsələn, F.Ağazadənin türkcə çıxışının xülasəsi daha sonra rus dilində təqdim edilmişdir. Bəzi çıxışçılar üçün rusca xülasə tərtib edilmiş, bəzilərinin isə çıxışları birbaşa rus dilinə tərcümə olunaraq stenoqram materiallarına salınmışdır. Bu məsələnin əsas səbəbi katiblərin və stenoqrafların türk ləhcələrinin hamısına tam şəkildə bələd olmamaları idi. Türk dünyasının müxtəlif bölgələrindən gələn iştirakçıların danışdıqları dillər və ləhcələr arasındakı anlaşıqlılıq səviyyəsinin aşağı olması da bu vəziyyəti daha da mürəkkəbləşdirirdi.

21-ci sual belədir: "*Ənvər paşa birici türkoloji qurultaya gəldimi?".*

Şükrü bəy birmənalı şəkildə bildirir ki, xeyir. Çünki Əvnər paşa 4 avqust 1922-ci ildə Düşənbə yaxınlığında Qurban bayramı ərəfəsində əsgərləri ilə bayramlaşarkən rusların hücumuna məruz qalmış və şəhid olmuşdur. O zaman niyə düşünülür ki, Ənvər paşa qurultayda iştirak edib? Bu suala Şükrü bəy aydınlıq gətirir. Ənvər Paşa 1920-ci ildə sentyabrın 1-də I Şərq Xalqları Qurultayında iştirak etmişdir. Opera teatrında keçirilmiş bu qurultayda Ənvər Paşanın şəkli də var.

39-cu sual belədir: "*Qurultayda türklərin rəsm sənətindən danışılbmı?".* Əslində bu da mübahisəli məsələlərdəndir. Çünki 1 Türkoloji Qurultayda yalnız əlifba, orfoqrafiya, etnoqrafiya məsələlərinin yer aldığından bəhs olunur. Lakin Şükrü bəyin tədqiqatı nəticəsində bəlli olur ki, qurultayın ikinci oturumunda Aleksandr Aleksadroviç Miller türk xalqlarının rəsm sənəti haqqında məruzə ilə çıxış edir. Müəllif qurultayda məruzə söyləmiş hər bir məruzəçinin tərcümeyi-halını, türkologiyaya xidmətlərini təqdim edir və sonra qurultaydakı məruzəsində hansı məsələlərə toxunduğunu qeyd edir. Sadə xalqın, bakılıların I Türkoloji Qurultaya münasibəti, marağı da müəllifin nəzərindən qaçmır. Dinləyici qismində zala buraxılan xalq nümayəndələrindən əlavə bugünkü Sabir bağında, İsmailiyyə binasının qarşısında xalq yığışıb səsgücləndiricilər vasitəsilə məruzələri dinləyirmişlər.

Sonda bir fikri bildirim ki, bu kitab sadəcə olaraq I Türkoloji Qurultaya həsr olunmuş, qurultaydakı hadisələri təsvir edən bir əsər deyil. Bu kitab türkün tarixidir. 1937-ci ildə güllələnən türkologiyanın tarixi. Eyni zamanda türkologiyada Bakının tutduğu mövqeyinin göstəricisidir. XX əsrin birinci yarısında Bakıda mövcud olan elmin, mədəniyyətin, təhsilin güzgüsüdür.

100 il bundan öncə doğma paytaxtımız Bakıda baş tutan bu möhtəşəm tədbiri bu qədər dəqiqliklə araşdırıb, belə gözəl əsər ərsəyə gətirən professor Şükrü Haluk Akalına bu kitab üçün yalnız və yalnız təşəkkür borcluyuq.

Qətibə Quliyeva
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
filologiya elmləri doktoru

BİRİNCİ TÜRKOLOJİ QURULTAYDA ÜMUMTÜRK TERMİN YARADICILIGI PROSESİNİN TƏDQİQİ

Azərbaycan xalqının dövlətçilik prinsipləri içərisində milli mənəvi dəyərlərin qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsində mühüm tarixi-siyasi addım sayılan "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncam müstəsna əhəmiyyət kəsb edir. Həmin tarixi sənəddə qeyd edildiyi kimi " Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır".

"Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamdan irəli gələn vəzifələrin həyata keçirilməsi ilə bağlı AMEA Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsinin müdiri, professor *Sayalı Sadıqovanın "Birinci Türkoloji Qurultay və ümumtürk termin yaradıcılığı prosesi" (Bakı, Elm, 2026, 356 səh.)* monoqrafiyası nəşr olunmuşdur. Üç fəsildən ibarət olan monoqrafiyada Birinci Türkoloji Qurultayın çağırılma səbəbləri, elmi və tarixi əhəmiyyəti, terminoloji sistemin formalaşma istiqamətləri, türk dillərində terminlərin yaranma prosesi, terminlərin yaranma mənbələri, alınma terminlərin türk dillərinə daxil olma yolları, ortaq terminologiyanın və terminlərin mənimsənilmə prosesinin nəzəri əsasları müəyyənləşdirilmişdir. Birinci fəsildə Birinci Türkoloji Qurultayın çağırılmasını şərtləndirən amillər, elmi və tarixi əhəmiyyəti, XX əsrin əvvəllərində Azərbaycan dilində terminologiya problemləri araşdırılmışdır. Qeyd olunduğu kimi Türkoloji Qurultay türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələnin təməlini qoymuş diqqətəlayiq hadisələrdəndir. Qurultayda əsaslı müzakirə obyektinə çevrilmiş problemlərlə bağlı böyük əhəmiyyətə malik qərarlar qəbul edilmiş, latın qrafikalı yeni əlifbaya keçidin elmi-metodik prinsipləri işlənilib hazırlanmışdır. Bu nəzərə alınaraq monoqrafiyada Birinci Türkoloji Qurultay türk xalqlarının mədəni inteqrasiyası tarixində yeni mərhələnin əsasını qoyan mühüm elmi hadisə olması, Qurultay çərçivəsində türk xalqlarının mədəni və elmi həyatına bilavasitə təsir göstərən fundamental məsələlərin həlli istiqamətləri müəyyənləşdirilmişdir. Əsərdə əlifba və orfoqrafiya problemləri, terminologiyanın formalaşdırılması, təhsil sisteminin inkişafı, eləcə də tarix, etnoqrafiya və mədəniyyət sahələrinə dair aparıcı alimlərin məruzələri təhlil edilmişdir. Bununla yanaşı türk dillərinin mənşəyi və təsnifatı, terminologiya məsələləri, habelə XX əsrdə ədəbi dil normalarının müəyyənləşdirilməsi və tənzimlənməsi kimi aktual problemlər elmi əsaslarla şərh olunmuş, ədəbi-tarixi faktlar sistemli şəkildə təhlil edilmişdir. Xüsusilə, Qurultayın təşkilat Komitəsində aktiv fəaliyyət göstərən və Qurultay zamanı da müzakirə edilən mövzularla bağlı maraqlı fikirlər irəli sürmüş B. Çobanzadənin " Elmi terminologiyanın sistemi haqqında" faktoloji zənginliyi ilə seçilən sanballı məruzəsində türk dillərində termin yaradıcılığında leksik və sintaktik tərkibindəki oxşarlıq, vahidlik və qohumluq amilləri müəyyənləşdirilmişdir. Bütün bu məsələlərlə yanaşı, I Türkoloji Qurultayda türk dillərində terminologiyanın formalaşma mənbələri, termin yaradıcılığı prosesi və terminlərin dildə mənimsənilmə prosesi xüsusi diqqət mərkəzində olmuşdur.

Təqdim olunan əsərdə dil, tarix və ədəbiyyat problemlərinin qarşılıqlı əlaqədə təhlil olunması türk mədəniyyətinin tarixinə konseptual yanaşmanın nəticəsidir. Xalqın mədəni-tarixi inkişafının və mənəvi varlığının sistemli, elmi əsaslar üzərində araşdırılması həmin dövrdə olduğu kimi, bu gün də aktuallığını qoruyub saxlayır. Zaman və tarixi təcrübə Birinci Beynəlxalq Türkoloji Qu-

rultayın qəbul etdiyi qərar və tövsiyələrin elmi əsaslılığını və praktik əhəmiyyətini bir daha təsdiq edir. Birinci Türkoloji Qurultay XX əsrin ən əhəmiyyətli, mühüm tarixi hadisəsi səviyyəsində yaddaşlarda qalan və bir əsr sonra tarixi inkişafın tələbatından yaranan türk ailəsi birliyinin birmənalı şəkildə bünövrəsi, təməl daşıdır.

İkinci fəsildə Birinci Türkoloji Qurultay və terminoloji sistemin formalaşma istiqamətləri, türk dillərində terminlərin yaranma yolları, mənbələri və prinsipləri tədqiq olunmuşdur. XX əsrin əvvəllərində yeni ictimai-siyasi quruluşun yaranması, türk dillərində elmin və mədəniyyətin dövrün tələblərinə uyğun olaraq inkişaf etdirilməsi, yeni yaranan anlayışların adlandırılmasına uyğun terminlərin yaranması terminologiya probleminin gündəmə gətirilməsinə və müzakirə predmetinə çevrilməsinə səbəb olmuşdur. Monoqrafiyada Qurultayda türk dillərinin müxtəlif problemləri ilə yanaşı, termin yaradıcılığı prosesi, terminoloji sistemin formalaşması məsələsi ən aktual problem kimi müzakirə olunması və A.R.Zifeld-Simumyaqi "Türk dillərində elmi terminologiyanın yaranması prinsiplərinə dair", B.Çobanzadə "Elmi terminologiya sistemi haqqında", H.Zeynallı "Türk dillərində elmi terminologiyanın sistemi haqqında", H.A.Odabaş "Türk dillərində terminologiya", Ə.B.Baytursun "Qazax terminologiyasının prinsiplərinə dair" məruzələri təhlil olunmuşdur. Dilin terminoloji sistemini hansı prinsiplər əsasında zənginləşdirmək, termin yaradıcılığı prosesində hansı metod və metodologiyalardan istifadə edilməsi kimi aktual məsələlərin elmi və həm də əsaslandırılmış şərhi verilmişdir. Qeyd edilir ki, dil ictimai hadisə olduğuna görə bəşəriyyətin qanunlarına əsasən inkişaf edir. Bu inkişafa uyğun olaraq formalaşan dil cəmiyyət halında birləşən insanlar arasında vasitə və əlaqədir. Bu baxımdan Artur Zifeldin məruzəsində öz əksini tapan dillərin inkişafında dilin inkişaf mərhələləri insan cəmiyyətinin mədəni-iqtisadi inkişaf mərhələləri ilə bu və ya digər dərəcədə üst-üstə düşməsi, yaranan hər bir ictimai quruluşla bağlı dil vahidlərinin yaranması, dilin inkişafının cəmiyyətlə əlaqədar olduğu xarakterizə edilmişdir. Alimin fikrincə, terminologiya ilk növbədə canlı xalq danışıq dili əsasında formalaşan ədəbi dildən qaynaqlanmalı, ədəbi dilə söykənməlidir. Tədqiqatda Zifeldin çıxışında yeni sözlərin qeydə alınması, tədricən ədəbi dilə uyğunlaşdırılaraq işlədilməsi və onların yaradılma prinsiplərini şərh edilərək göstərilir ki, yeni yaranan termin müzakirə edilməli, dövri mətbuat səhifələrində dərc olunmaqla ictimaiyyətə çatdırılmalıdır. Bununla da bütün dövrlərdə dilin inkişafını doğuran səbəblər, ictimai quruluşa uyğun olaraq yeni terminlərin yaranma yolları və onun inkişafında terminlərin rolu izah edilir. O da qeyd edilir ki, hər hansı bir ölkə ilə iqtisadi əlaqələrin genişləndirilməsi zamanı həyat uğrunda mübarizədə yalnız insanlarla təmas üçün ən zəngin dili ola bilən qruplar bu inkişafa cavab verə bilər. Ona görə də zəngin dillər daha da inkişaf edib daha güclü, daha dayanıqlı olur, onun zənginləşməsi üçün yeni imkanlar açılır. Dilin inkişafı üçün yeniliklərin dildə əksi üçün tələblərə uyğun, anlayışları ifadə edən yeni terminlərin yaradılması, bu prosesin bütün dillərdə həyata keçirilməsi önə çəkilir.

A.Zifeld hər hansı bir dilin daxili inkişaf prosesini əsas götürərək qrammatik quruluşunu nizamlama istiqamətində daim təkmilləşən, arxaizmləri daim rədd edən, müasir tarixi dövr və ictimai quruluş üçün zəruri olan yeni sözlərlə vaxtında zənginləşən və yeni sözlərin yaranması, ona verilən tələbləri də müəyyənləşdirir. Təhlildən aydın olur ki, A.Zifeld iqtisadiyyat, texnika, siyasi həyatın mürəkkəbləşməsi ilə əlaqədar insan beynində yeni anlayışların ifadəsini tələb edən terminlərin yaranmasını təbii və dilin inkişafı üçün zəruri sayır. Qeyd edir ki, dildə belə sözlər olmadıqda başqa dillərdən alınarsa və alınan bu terminlər dilin fonetik qanunlarını pozarsa ədəbi dilin inkişafına mənfi təsir edir. Bu həddən artıq olduqda ya inqilaba, ya da dilin məhvinə səbəb olur tezisini irəli sürür.

Müəllif dilin inkişafında terminlərin yaranma prinsiplərinin müəyyənləşdirilməsini zəruri hesab edir və bu problemin həllini dilin yaşamasında və gələcək inkişafında əsas amil hesab edir. Dövrün mənzərəsini verərək, mədəniyyət səviyyəsi aşağı olan ölkələrdə istehsal qüvvələrinin gur inkişaf etməsi nəticəsində dilin, elmin və ədəbiyyatın təbii, yəni kortəbii, əlaqələndirilməmiş fərdi səylər nəticəsində inkişafını məqsədəuyğun hesab etmir. Mədəniyyətin, elmin inkişafına uyğun sözlərin yaradılmasını tənzimləyən qurumların təşkil edilməsi əsaslandırılır.

Türk dillərinin inkişaf mənzərəsi təhlil edilərək göstərilir ki, Türk xalqlarının dillərinin bu dövrdə inkişafının yeni tələblərə uyğunlaşdırılması, köhnə rejimdən fərqli yeni dil vahidlərinin ya-

ranması, dövrün tələblərinin nəzərə alınması istiqamətləri əsas götürülmüşdür. Mövcud dil modelinin yeni ictimai-mədəni mühitin tələblərinə cavab verməməsi vurğulanaraq, digər sahələrdə olduğu kimi ədəbi dildə də əsaslı islahatların aparılmasının zəruriliyi əsaslandırılır. Beləliklə, ədəbi dilin dövrün ictimai-siyasi və mədəni reallıqlarına uyğunlaşdırılması məsələsi aktuallaşmış və bunun səbəbləri elmi şəkildə müəyyənləşdirilmişdir. Xüsusilə, A.Zifeldin məruzəsi əsasında ədəbi dilin inkişafında türkdilli xalqların böyük əksəriyyətində müşahidə olunan dörd əsas cərəyanın əsas xüsusiyyətləri şərh olunur və onları panislamçılar, avropalaşdıranlar, pantürkçülər və xalqçılar (demokratlar) kimi qruplaşdıraraq əsas məqsədləri təhlil edilir.

Müəllifin fikrincə, termin yaradıcılığı üçün xalq dili əsas mənbə hesab edilməlidir. Lakin xalq dilinin əleyhdarları həmişə onun kasadlığından, hətta terminlərin kökündən olmamasını əsaslandırmağa çalışsalar da ədəbiyyata külli miqdarda varvarizmlərin daxil edilməsinin qaçılmazlığını da bildirirlər. Lakin xalq dilini diqqətlə öyrəndikdə məlum olur ki, türk dilləri zəngindir. Xüsusilə, anatomiya və tibb üçün terminləri hazır şəkildə, qəssablar, baytar və türkəçarələrdə, aqronomiya və botanika üçün terminləri əkinçi və bağbanlarda, zoologiyaya dair terminləri isə ovçular və s. balıqçılarda tapmaq olar. Qeyd edilir ki, xalq dili termin yaradıcılığında əsas mənbədir. Əgər mürəkkəb sözləri ifadə etmək üçün termin yoxdursa, ədəbi dilin kütləviliyini qorumaq məqsədi ilə milli (anadilli) sözlərdən yeni söz düzəltməklə buna nail olmaq olar. Xalq dilini əsas götürüb, ondan istifadə edərək anatomiya və tibbə dair terminləri hazır şəkildə qəssabların, baxıcıların dilindən, aqronomluq və botanikaya dair bağçıların, əkinçilərin dilindən, zoologiyaya dair ovçu və balıqçıların dilindən mənimsənilməsi, mürəkkəb sözləri ifadə etmək üçün termin yoxdursa, ədəbi dilin kütləviliyini qorumaq məqsədilə milli (anadilli) sözlərdən yeni söz düzəltmək yolları verilir . Müəllif yeni anlayışların adlandırılmasında və terminlərin yaranmasında dilin bütün arsenalından istifadə edilməsini önə çəkməklə yanaşı, onu dilin başqa sözlərindən fərqləndirən, onun müəyyən dərəcədə seçilməsini təmin edən cəhətləri də qeyd etmişdir. İki və daha artıq sözün, yaxud da terminin məna və qrammatik cəhətdən birləşərək leksik birləşmə şəklində yeni anlayışları ifadə etməsini, belə termin birləşmələrinin nominativ xarakter daşıyaraq bir məna ifadə etməsini nəzərə alaraq hər bir dilin lüğət tərkibini əsas götürmüşdür.

Qeyd edilir ki, türk dillərində termin yaradıcılığında başlıca mənbə hər bir türk dili üçün digər bir türk dili olmalıdır. İkinci mənbə isə Qərbi Avropa dilləri və rus dili ola bilər. Qərbi Avropa dillərindən alınan sözlərdə isə əksər hallarda vurğu türk dillərində tələb olan yerdə olmur, ahəng qanununa uyğunluq gözlənilmir.

Təhlildən aydın olur ki, türk dillərində termin yaradıcılığında başlıca mənbə dillərin öz daxili imkanları, hər bir türk dili üçün digər bir türk dilləri, Qərbi Avropa dilləri və rus dili ola bilər. *Əsərdə* terminologiya ilə bağlı problemləri nəzəri baxımdan təhlil edilmiş və terminoloji sistemin formalaşma yolları və qanunauyğunluqları müəyyənləşdirilmişdir.

Qeyd olunduğu kimi, Birinci Türkoloji Qurultayda türk dillərində terminlərin sistemli şəkildə inkişaf etdirilməsi dilçiliyin qarşısında duran əsas problemlərdən biri kimi müzakirə olunmuşdur. Termin yaradıcılığı prosesində ortaq terminlərin yaranması, ortaq elmi dilin olması tezis kimi irəli sürülmüşdür. Bu nəzərə alınaraq Bəkir Çobanzadə qurultayda türk xalqları üçün ortaq ədəbi dilin yaradılması probleminə tarixi faktlara söykənərək tutarlı elmi dəlillərlə aydınlıq gətirmiş və türk dillərində elmi dilin yaxınlaşması üçün ortaq termin yaradıcılığı prosesində əsas mənbələri müəyyənləşdirmişdir. Əsərdə görkəmli alim B.Çobanzadə elmi dilin yaxınlaşması üçün terminyaratmada əsas prinsipləri təyin etmiş və bunun üçün məktəb təliminə böyük əhəmiyyət vermişdir. Bu problemi real şəraitə uyğun olaraq həll etmək, beşik dili ilə elmi dil arasında, yerli ana dili ilə ümumi ədəbi dil arasında ziddiyyət yaratmamaq üçün inkişafın təbiiliyinə və tədriciliyinə ehtiyatla və diqqətlə yanaşmışdır. Qeyd edir ki, "ümumi və ya ortaq elmi dil, əlbəttə, yerli canlı danışıq dili deyil, bədii əsərlərin, bayatıların, laylaların dili deyil, kürsülərin və auditoriyaların dilidir, elmin və siyasətin dilidir, terminlərin, professionalların dilidir". Bununla elmi dillə bədii dilin fərqlərini verməklə yanaşı, ümumi və ortaq elmi dilin sərhədlərini müəyyənləşdirir. Göründüyü kimi, elmi dilin formalaşmasında bütün türk dillərinin qarşılıqlı əlaqəsi, yəni elmi dilin əsasında bir dil deyil, ümumiləşmiş türk xalqlarının intellektinin ifadəsi əsas götürülür. Qeyd edir ki, türk dillərində ilkin dövrlərdə anlayışların ifadəsində eyni mənbədən istifadə olunmuş, lakin diferensiasiya prosesi

ilə bağlı olaraq hər bir türk dövləti ümumtürk bazaya əsaslanmaq şərti ilə elmi-mədəni, sosial-siyasi, ictimai-iqtisadi və s. sahələrdə özlərinə məxsus istiqamətləri müəyyənləşdirilmişdir.

Terminologiyanın yaradılması prosesində əsas amil olan ortaq mədəni abidə kimi türkdilli xalqların dil vahidlərinin müştərək iştirakının nəzərə alınması elmi dilin yaranmasında əsas mənbə hesab edilmişdir. Türk dillərində vahid terminologiya sistemini yaratmaq üçün, yəni termin yaradıcılığı prosesində türk xalqlarının dilinin vahid ailə kimi iştirakı, ortaq abidələrdə işlənən sözlərdən istifadə önə çəkilir. Bu proses türk dillərinin qohumluğunu əks etdirməklə yanaşı, onların monolit birliyini də təmin edir.

B.Çobanzadənin terminoloji sistemin yaradılmasında ümumtürk, ərəb-fars və Avropa terminlərindən istifadəni vacib hesab edərək türkdilli xalqların mənəvi-ideoloji birliyini təmin etməyə çalışırdı. Həmin dövrdə ədəbi dilin lüğət tərkibinə, xüsusilə terminoloji sisteminə ərəb və fars dillərinin təsiri davam etməklə yanaşı, rus dilindən alınmalar da daxil olmuşdur. Dərsliklərdə, eləcə də qəzet və jurnallarda ərəb-fars mənşəli terminlərin geniş istifadəsi əhalinin maariflənməsi prosesini əhəmiyyətli dərəcədə çətinləşdirirdi. Bu səbəbdən dillərin mürəkkəb və yad ərəb-fars terminlərindən təmizlənməsi, eyni zamanda onların əvəzinə daxili inkişaf qanunlarına uyğun yeni terminlərin yaradılması əsas vəzifələrdən biri kimi qəbul edilmişdir. Ədəbi dildən izafət tərkibli yad terminlərin çıxarılması və dövrün tələblərinə cavab verən terminlərin formalaşdırılması istiqamətində müxtəlif təkliflər irəli sürülmüşdür. Elm və texnikanın müxtəlif sahələrində yeni anlayışların ifadəsi məqsədilə terminlər yaradılarkən, ilk növbədə milli dilin lüğət ehtiyatına müraciət edilməsi və onun daxili imkanlarından səmərəli istifadənin yolları müəyyənləşdirilmişdir. Qurultayda çıxış edən B.Çobanzadə, H.Zeynallı kimi dilçi alimlər qeyd edirdilər ki, dilimizdə minlərcə əcnəbi kəlmə var ki, onları türkləşdirmək mümkün deyildir. Ona görə də türkləşə bilməyən kəlmələrin qədim türkcəsi var, onları canlandırmaq və qədim türkcədə qarşılığı olmayan sözləri isə başqa türk dillərindən dilimizə gətirmək lazımdır.

Monoqrafiyanın üçüncü fəsildə Birinci Türkoloji Qurultay və terminologiyanın inkişafında müasir çağırışlar, Birinci Türkoloji Qurultay və terminoloji lüğətçiliyin inkişafı, türk dillərində ortaq terminologiya, ortaq termin yaradıcılığı və ortaq beynəlmiləl terminlərin yaranma prinsipləri, mənbələri və üsulları nəzəri və praktik məsələləri, ortaq terminologiya, ortaq termin yaradıcılığı, ortaq beynəlmiləl terminlər araşdırılmışdır. Birinci Türkoloji Qurultayda terminin müəyyən definisiya əsasında təyininin zəruriliyi, terminlə anlayış arasında əlaqə, onu digər məfhumlardan ayıran meyarlar əsasında adlandırılması, definisiyasının sahə anlayışlarının iyerarxik yerləşmə xüsusiyyətləri ilə bağlı fikirlər elmi faktlarla şərh olunmuşdur. Türk dillərində terminoloji lüğətlərin tərtib olunma qaydaları, terminlərin lüğətlərdə verilmə üsulları, prinsipləri, tərtibi məsələləri və onlara verilən tələblər monoqrafiyada geniş şəkildə şərh olunmuşdur. Professor Sayalı Sadıqovanın "Birinci Türkoloji Qurultay və ümumtürk termin yaradıcılığı prosesi" monoqrafiyası türk dillərində ümumtürk termin yaradıcılığı prosesinin yeni müstəvidə öyrənilməsi baxımından türkologiyamızın nailiyyətidir. Əsərdə məruzələr əsasında ümumtürk dillərində termin yaradıcılığı ayrı-ayrılıqda təhlil edilmiş, tarixi-linqvistik faktların zənginliyi ilə seçilən bu dillərin terminoloji xüsusiyyətləri araşdırılmış, türk xalqlarının öz etnik mənsubiyyətlərinə görə bir-biri ilə bağlılığı, eyni kökə mənsub olduqları dil faktları ilə sübut edilmişdir. Türk dillərinin ümumtürk termin yaradıcılığı prosesi türkologiyada ilk dəfə əsaslı və fundamental şəkildə araşdırılmışdır. Bu baxımdan monoqrafiya ümumtürk dillərində termin yaradıcılığının oxşar və fərqli cəhətləri, onların qarşılıqlı inteqrasiyasında tarixi-etnik-genetik köklərin aydınlaşdırılması üçün zəngin mənbədir.

TERMİNOLOGİYA KOMİSSİYASININ QƏBUL ETDİYİ TERMİNLƏR

Azərbaycan dilində	***İngilis dilində***
Ağıllı verilənlər	Smart Data
Kollektiv zəka	Collective Intelligence
Kiber-fiziki sistemlər	Cyber-Physical Systems (CPS)
Əşyaların interneti	The Internet of Things (IoT)
Əşyaların və sensorların buludu	Cloud of Things (CoT) / Sensors
Sərhəd (Edge) və Duman (Fog) hesablamaları	Edge and Fog Computing
Mobil sərhəd hesablamaları	Mobile Edge Computing (MEC)
Daşına bilən cihazlar	Wearable Devices
Fəaliyyətin tanınması	Activity Recognition
Kiberdayanıqlılıq	Cyber Resilience
Rəqəmsal əkiz	Digital Twin
65Kiberdiplomatiya	Cyber-Diplomacy
Rəqəmsal tibb	Digital medicine
Rəqəmsal səhiyyə	Digital health
Kiberfişinq	Cyber phishing
Kiberkobudluq	Cyberbullying
Proqram mühəndisliyi	Software engineering
Semantik verilənlər kubu	Semantic Data Cube
Çatbot	Chatbot
Sintetik verilənlər	Synthetic data
Kibersuverenlik	Cyber Sovereignty
Linqvistik suverenlik	Linguistic sovereignty
Rəqəmsal transformasiya	Digital transformation
Təqdimat	Performance
İstismar hadisəsi	Operational event

MƏQALƏ MÜƏLLİFLƏRİNİN NƏZƏRİNƏ

QAYDALAR

1. Jurnalda məqalələr altı (Azərbaycan, türk, rus, ingilis, alman və fransız) dildə çap oluna bilər.

2. Məqalələrin mətnləri Azərbaycan türk, dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman – 12 şrifti, 1 intervalla yığılmalıdır.

3. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə verilməlidir.

4. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olunmalıdır. Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, [1] və ya [1. S. 20] işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

5. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə verilməlidir.

6. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi verilməlidir.

7. Məqalələrdə müəllif(lər)in işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.

8. Plagiatlıq faktı aşkar edilən məqalələr dərc edilməyəcək.

К СВЕДЕНИЮ АВТОРОВ

ПРАВИЛА ПУБЛИКАЦИИ

1. Статьи для публикации в журнале принимаются на шести языках: азербайджанском, турецком, русском, английском, немецком и французском.

2. Тексты статей на азербайджанском, турецком, английском, немецком и французском языках набираются латиницей, а на русском – кириллицей. Шрифт Times New Roman – 12, интервал – 1.

3. В конце статьи в доступной форме излагаются её научная новизна и практическая значимость.

4. В статьях необходимо ссылаться на научные источники, соответствующие их теме. В библиографии предпочтение следует отдавать статьям и монографиям, опубликованным в последние 5-10 лет. Нумерация источников в библиографии должна даваться не в алфавитном порядке, а по мере ссылки на тот или иной из них. Ссылки оформляются следующим образом: [1] или [1. С. 20]. Если один и тот же источник встречается в тексте несколько раз, то он указывается под прежним номером.

5. Каждая статья должна быть снабжена индексами и кодами типа УДК или PACS, а также ключевыми словами.

6. Резюме, кроме как на языке оригинала, должно представляться ещё на двух языках. Резюме должны повторять друг друга и соответствовать содержанию статьи.

7. В статье должны быть указаны место и адрес работы автора (авторов), а также адрес его (их) электронной почты.

8. Статьи, содержащие плагиат, опубликоваться не будут.

TO THE AUTHORS' ATTENTION

RULES

1. The articles in the journal can be typed in six languages (Azeri, Turkish, Russian, English, German and French).

2. The articles in the Azerbaijani, Turkish, English, German and French languages must be typed in the Latin alphabet, but the articles in Russian must be typed in the Cyrillic alphabet. With Times New Roman-12, the articles intervals between lines – 1.

3. At the end of the article the scientific novelty and practical significance of the work must be demonstrated.

4. It is necessary to refer to the scientific sources caresponding the subject. The preference must be given to the scientific articles, monographs published for the recent 5-10 years. The literature list given at the end of the article must not be ordered alphabetically; but it must be numbered by order in the text and for instance marked [1] or [1. P. 20]. In case of repetition of the same literature in different places of the text, the same literature must be marked with the previous number.

5. Codes and key words of the UOT or PACS types must be demonstrated in every article. The key words are to be given in three languages.

6. Addition to the article language, the summary must be in two other languages. The summaries in different languages of the articles must exactly be the same and correspond to the content of the article.

7. It is necessary to note the author's/ authors' workplace and ad-dress also his lor their e-mail address.

8. In case of plagiarism, no articles will be published.

TERMİNOLOGİYA MƏSƏLƏLƏRİ

ELM
NƏŞRİYYATI

Nəşriyyatın direktoru: *Səbuhi Qəhrəmanov*
Bədii tərtibat: *Şəlalə Məmməd*
Kompüter tərtibçisi: *Rəvanə İlmanqızı*

Yığılmağa verilmiş: 23.03.2024
Çapa imzalanmış: 28.04.2024
Formatı 60x84 $^{1}/_{8}$
Həcmi ç.v.
Tirajı 300 nüsxə

Ünvan: Bakı şəh., İstiqlaliyyət küç. 28